AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
M. FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

FİLOLOGİYA MƏSƏLƏLƏRİ

№ 5

Toplu Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən rəsmi qeydiyyata alınmışdır (Filologiya elmləri bölməsi, №13).

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir. Reyestr №3222.

«Elm və təhsil»
Bakı – 2014

Jurnalın təsisçiləri: Azərbaycan Milli Elmlər Akademiyası Əlyazmalar İnstitutu və «Elm və təhsil» nəşriyyatı

REDAKSİYA HEYƏTİ: akademik Ağamusa Axundov, akademik Vasim Məmmədəliyev, akademik İsa Həbibbəyli, akademik Tofiq Hacıyev, AMEA-nın müxbir üzvü, f.e.d., prof. Nizami Cəfərov, AMEA-nın müxbir üzvü, f.e.d., prof. Əbülfəz Quliyev, akademik Teymur Kərimli, f.e.d., prof. Fəxrəddin Veysəlli, f.e.d., prof. Vilayət Əliyev, f.e.d., prof. Qəzənfər Kazımov, f.e.d., prof. Rüfət Rüstəmov, f.e.d., prof. Məsud Mahmudov, f.e.d., prof. Məhəbbət Mirzəliyeva, f.e.d., prof. Mübariz Yusifov, f.e.d., prof. Qəzənfər Paşayev, f.e.d., prof. Əbülfəz Rəcəbli, f.e.d., prof. Nizami Xudiyev, f.e.d., prof. Cəlil Nağıyev, f.e.d., prof. Nadir Məmmədli, fil.ü.e.d. Paşa Kərimov, f.e.d., prof. Kamilə Vəliyeva, f.e.d. prof. Azadə Musayeva, AMEA-nın müxbir üzvü, f.e.d. Möhsün Nağısoylu, fil.ü.f.d. Nəzakət Məmmədli**.**

Buraxılışa məsul: , akademik Teymur Kərimli
Rəyçi: filologiya elmləri doktoru, professor Nadir Məmmədli

Filologiya məsələləri. Bakı, 2014, № 5

ISSN 2224-9257

© "Elm və təhsil" nəşriyyatı, 2014

www.filologiyameseleleri.net

ГЮЛЬНАРА РЗАЕВА
АГЭУ
gulnara_rzayeva@mail.ru

РОЛЬ ДЕТЕРМИНАНТОВ В ТЕКСТЕ

Açar sözlər: mətn, lokal determinantlar, temporal determinantlar, fəza əlaqələri, tərz-zaman əlaqələri, təsvir, nəql, kontekst.
Ключевые слова: текст, локальные детерминанты, темпоральные детерминанты, пространственные отношения, видо-временные отношения, описание, повествование,контекст.
Keywords: text, local determinants, temporal determinants, space connection, aspect and tense connection, description, narration context.

Как известно, детерминанты, будучи самостоятельными распространителями предикативной основы предложения, входят в систему членов предложения и находятся с ним в определенных семантико-смысловых связях. [1]. В то же время детерминанты используются как синтаксический прием объединения содержательных компонентов текста. В этом сказывается их в известной степени служебная роль как сигналов синсемантии последующих предикативных единиц. Детерминанты в зависимости от их семантики используются в различных типах текстов. В этом отношении наибольший интерес представляют локальные и темпоральные детерминанты. Факты, называемые в каждой предикативной единице, вступают либо в пространственные, либо во временные отношения, отсюда в развитии естественного хода событий чаще всего принимает участие локально-временной план. Детерминанты в описательном типе - текста. Типичным приемом описания, наряду с использованием соответствующих глагольных форм, является употребление локальных детерминантов. По мнению Г.А.Золотовой, смысл описания сводится к тому, чтобы констатировать наличие предметов, находящихся в определенном пространстве. [2,с.69]. Сходную точку зрения находим у В.Г.Гака. Исследуя факторы, организующие смысловую структуру текста, автор указывает на то, что все предложения в зависимости от характера обозначаемого события делятся на «однообъектные» и «разнообъектные», т.е. на обозначающие одно событие и обозначающие разные события. Смысловые отношения между разнообъектными предложениями автор сводит к двум типам: «радиации» и «конкатенции». «Отношения радиации, - пишет В.Г.Гак, - основаны на пространственных координациях между событиями (фактами), описываемыми в предложениях, в этом случае фиксируются различные события, происходящие одновременно. [3, с.91]. Они могут касаться одного субъекта или разных.

Рассмотрим тексты, в которых пространственные координации между фактами осуществляют локальные детерминанты: *«Они вошли в парк … Сухие листья летели в темноте, цеплялись, липли к шинелям. В глубине парка возле темного дома блестел за разросшимися кустами бассейн, в густо-черной воде мирно плавали листья, собравшись целыми плотами, и Новиков впервые за много дней увидел здесь, между этими плотами-листьями, острый блеск звезд в черноте неподвижного водоема…»* (Ю.Бондарев. Последние залпы). В этом тексте центральное место занимает картина осеннего парка, описание которого осуществляется использованием разнообъектных предложений. Конкретные обозначения предметов описываемой обстановки - это *сухие листья, густо-черная вода бассейна,* в которой *плавали листья.* Все это относится к лексическим компонентам общей картины, представленной в одном временном плане (одновременность происходящих событий). Хотя констатация наличия предметов в описательных текстах в большей степени характерна для именных конструкций, построенных по формуле *где - что* (ср.: На улице праздник), описательные конструкции могут быть и глагольными. Бытие, наличие выражается в таких глагольных предложениях, в которых «рематически ударными» [4] являются названия предметов, характеризующих описываемую картину: *В Старом Крыму мы были в доме Грина. Он белел в густом саду, заросшем травой с пушистыми венчиками. В траве, еще свежей, несмотря на позднюю осень, валялись листья ореха. Слабо жужжали последние осы. Маленький дом был прибран и безмолвен. За окном легкой тучей лежали далекие горы* (К.Паустовский. Черное море.). Каждая предикативная единица в приведенном фрагменте конкретизирует общую картину. Использованные в тексте глаголы *белел, валялись, лежали* не сообщают о каких-либо действиях, они характеризуются признаками *неакциональности* и *нерематичности*.

Грамматической особенностью неакциональных глаголов является их видо-временная характеристика. «Конституирующую роль в создании описательных конструкций играют глаголы несовершенного вида, преимущественно прошедшего времени («имперфекты») [5, с. 104]. На качественно-описательную функцию указанной формы обратил внимание В.В.Виноградов, считавший эту функцию основным средством характеристики свойств какого-нибудь лица или предмета. [6]. Проследим это на конкретных примерах: *Щедрин проснулся очень рано. В саду пересвистывались птицы. Над морем дымился ослепительный штиль. Он переливался прохладным блеском на сотни миль… В расселинах скал пробивались слабые белые цветы* (К.Паустовский. Северная повесть). В данном тексте дано описание раннего утра. Глаголы несовершенного вида прошедшего времени *пересвистывались, дымился, переливался, пробивались* выполняют качественно-характеризующую роль. Неакциональность этих глаголов состоит в том, что они сообщают о наличии предметов, находящихся в поле зрения героя. Употребление локальных детерминантов в описательных текстах соотносится, как правило, с определенными закономерностями в использовании неакциональных глаголов в форме прошедшего несовершенного. Роль локального детерминанта как связующего элемента содержательных компонентов текста, продвигающего описание естественного хода событий, заключается в том, что локальные детерминанты распространяют предложения, обо-

значающие различные события.Между тем нередки описательные участки текста, организованные повторами одного и того же локального распространителя. Это наблюдается преимущественно в текстах, в которых в роли детерминантов выступают местоименные наречия. Для таких текстов характерна тесная связь и соотнесенность с предшествующей предикативной единицей, или левым контекстом. Они завершают смысловой блок. Смысловые отношения, устанавливаемые локальными детерминантами, можно назвать отношениями тождества: *Гроздья ракет торопливо повисали там, пышно иллюминируя низкие облака. В них взвивались наискось красные трассы* (Ю.Бондарев. Последние залпы); *Вся земля была наполнена запахом тола, желтоватой мутью дыма. В нем вздрагивающими тенями копошились вскочившие солдаты – все глядели отяжелевшими от сна глазами на крупно трясущийся потолок землянки* (Ю.Бондарев. Последние залпы). Локальные детерминанты *в них, в нем,* являясь повторной номинацией, представляют собой транспозицию ранее употребленных субстантивов *облака и дым.* Интересными являются случаи грамматически разнооформленных повторов, когда предметные имена с локальной семантикой транспонируются в однокоренные локальные детерминанты, выраженные предложно-падежной формой имени, а в последующей предикативной единице те же локальные отношения выражаются более обобщенно – с помощью местоименно-наречного детерминанта: «Город должен быть также прекрасен, как прекрасны вековые парки, леса и море. Иначе не может быть. В городах живут люди нового времени. Здесь рождаются гениальные идеи и создается будущее» (К.Паустовский. Черное море). Итак, текстообразующая специфика локальных детерминантов сводится к тому, что они используются преимущественно в описательном типе текста. Типичным для локальных детерминантов является также то, что они функционируют в текстах, представляющих собой сцепление разнообъектных предложений в качестве содержательных компонентов текста.

Детерминанты в повествовательном типе текста. В повествовательных текстах обычно передается динамичное развитие сюжета. Сообщение о развивающихся событиях и действиях грамматически актуализируется сцеплением видо-временных форм глагольного сказуемого в соположенных предикативных единицах. В структуре повествовательного типа текста важным текстообразующим фактором является и временной детерминант, соотносящийся с соответствующим видо-временным планом глаголов-сказуемых.

Текстообразующая роль обстоятельственного детерминанта со значением времени вполне закономерна, поскольку любой факт, о котором повествует автор, «должен быть включен в определенные пространственно-временные рамки» [7,с.82]. Обычно форма глагола прогнозируется лексическим значением темпорального детерминанта. Смена временного плана выражается в различных семантических отношениях между действиями и носителями этих действий – субъектами действий. Если для описательного типа текста характерен один временной план – одновременность, то в повествовательных текстах соотношением видо-временных форм выражается преимущественно последовательность действий или событий. Последовательность динамически сменяющих друг друга действий актуализируется вплетающимися в повествование темпоральными детерминантами типа: *сперва, затем, потом, тогда* и др. выступая

в роли обобщенных сигналов развертывания сюжета, эти лексические средства выполняют, таким образом, равноправную с синтаксисом роль.

Как уже отмечалось, в повествовательном типе текста присутствует и такой важный грамматический фактор, как видо-временная соотносительность глагольных форм. Важное значение приобретает учет семантики этих глаголов. По наблюдениям Н.А.Купиной, в рассматриваемых текстах «акциональную доминанту» выражают фазисно-динамические глаголы совершенного вида. [8, с.9.]. В повествовательном типе текста имеет место по крайней мере три типа контекста, в которых можно проследить семантические отношения временного плана. В первом типе контекста описываются действия и факты, следующие друг за другом с указанием известных интервалов, причем эти действия соотносятся с одним лицом, следовательно, предложения, которые вводит детерминант, однообъектные. Временной интервал между действиями или событиями может быть указан обобщенно или конкретно [9,с.74.]. Обобщенно он обозначен в тех фрагментах, где в роли темпорального детерминанта выступает местоименные наречия: *Сейчас Леонтьев бродил вечером по городу и думал о множестве разнообразных вещей. Сначала он, конечно, изругал себя за то, что ленив и никогда не пишет книги во весь голос. Всегда они у него идут по «затухающей кривой»…Потом он с полной непоследовательностью подумал, что есть особая прелесть и в таких вот неясных человеческих состояниях. Из них рождается поэзия… И тут, наконец, Леонтьев понял, что все эти его разрозненные мысли по существу являются мыслями о своей стране и о нем самом как частице многомиллионного народа, частице этой страны … Теперь Леонтьеву стало ясным, о чем он будет писать: о России* (К.Паустовский. Черное море).

В приведенных текстах последовательно сменяющиеся действия относятся к одному субъекту. Во втором типе контекста действия или события относятся к двум или нескольким противопоставленным друг другу субъектам: *После приговора матросы окружали Шмидта, прощались с ним, обнимали его и благодарили. Потом их вывели. Сестра Шмидта подошла к нему. Конвойные, нарушив устав, быстро и хмуро расступились…* (К.Паустовский. Черное море); *Всю ночь после этой прогулки Анна проплакала. А наутро пришел отец. Он что-то отрывисто и сердито говорил ей. Потом в доме затихли. Днем Бестужев видел, как Анна вышла на крыльцо, долго стояла неподвижно и смотрела на залив, сморщив брови…*(К.Паустовский. Северная повесть).Все предикативные единицы в приведенных фрагментах разнообъектные. Семантические отношения следования во втором типе контекста могут быть переданы с разной степенью точности временного интервала между отдельными действиями и событиями в зависимости от способа выражения темпорального детерминанта. В одном случае это может быть местоименное наречие *потом,* являющееся обобщенным указателем следования, в других случаях содержится конкретное указание, когда именно наступило следующее событие (*после приговора, наутро, днем, через час*).

Значение следования могут актуализировать и субстантивы, приобретающие в контексте темпоральную семантику: *Коля ещё с детства полюбил эти чаепития под деревьями за круглым дощатым столом, покрытым*

суровой скатертью с голубой каймой… После чая Анфиса проводила Колю. Они подошли к мостику через ручей, впадавший в реку… На следующий день Коля пошел на овражную станцию и представился директору ее (К.Паустовский. Повесть о лесах). Предметное существительное *после чая* актуализирует последовательность событий. Как видно из приведенного материала, в последовательных текстах в отличие от описательных, глаголы – сказуемые употреблены в форме совершенного вида.В третьем типе контекста речь идет о действиях или событиях, относящихся к одному лицу. И хотя эти действия совершались в разное время, данный тип контекста не содержит последовательного изложения естественного хода событий. Предикативная единица, вводимая детерминантом, сообщает о единичном событии, которое своей необычностью противопоставлена всем предшествующим действиям, выделяется, является частным по времени: *В этот вечер впервые после многих лет Леонтьев сел за дощатый стол и раскрыл тетрадь с удивительным чувством, что сейчас он почти шутя напишет то главное, чего раньше не мог, как не мучился, передать множеством слов* (К.Паустовский. Повесть о лесах); *Бестужев вставал, отодвигал занавеску и видел знакомую и милую картину. Снег лежал на крышах пухлыми пластами, как на елочных ветвях. Вся комната была озарена оранжевым блеском солнца и огня, шумно пылавшего в камине, и Анна – вся в снегу, слетавшем на нее с ветвей, - скользила на лыжах через поле к основному лесу. Однажды Бестужев высказал желание пробежать вместе с Анной на лыжах на соседний остров* (К.Паустовский. Северная повесть);В приведенных текстах сообщается о действиях, выпадающих из привычного хода событий. Актуализаторами этих временных отношений являются детерминанты, лексически подчеркивающие необычность, разовость названных действий (*в этот вечер, впервые, однажды, на это раз*). В первом тексте противопоставленность единичного действия всем предшествующим выражается с помощью контекста (впервые после многих лет).

Анализ факта выпадения одного из равно стоящих действий во втором тексте обнаруживает взаимопроникновение описательного и повествовательного типов текстов. В первой части, где говорится о привычных действиях Бестужева, преобладают имперфекты *(вставал, отодвигал, видел, скользила*). На описательный характер предшествующих содержательных компонентов текста указывает и контекст (*видел знакомую картину*). В последней предикативной единице сказуемое выражено формой совершенного вида.

Итак, текстоообразующая роль локальных и темпоральных детерминантов оказывается весьма важной, поскольку они вводят в текст обозначения определенного пространства и определенного временного плана, без которых невозможно описание и повествование. Функционирование этих детерминантов имеет специфику: локальные детерминанты используется преимущественно в описательном типе текста, а темпоральные – в повествовательных текстах, хотя в одном и том же тексте возможно объединение временных и пространственных координаций.

Литература

1. Крылова О.А. Детерминанты в аспекте коммуникативного синтаксиса. //Вопросы языкознания, 1978, №2, с.43-52.
2. Золотова Г.А. Коммуникативные аспекты русского синтаксиса. М.: Наука, 1982.
3. Гак В.Г. Повторная номинация и типология текста.//Синтаксис текста.М.,1979, с.89-94.
4. Матвеева Т.Ф. К постановке вопроса о связи предложения с функционально-смысловыми типами речи. //Синтаксис и стилистика: функциональный аспект. М.: УДН, 1982, с.23-34.
5. Карпухин С.А. Русский глагольный вид в языковом сознании. //Русский язык в школе, 2004, №3, с.101-108.
6. Виноградов В.В. Русский язык (Грамматическое учение о слове). М.: Высшая школа, 1972.
7. Каменская О.Л. Текст в коммуникации. М.: МГУ, 1990.
8. Купина Н.А. Слово в контексте художественной речи.//Слово в системных отношениях на разных уровнях языка. Свердловск: СГПИ, 1984, с.3-13.
9. Грановская Л.М. Структура и семантика текста. Баку: Мутарджим, 2006.

G.Rzayeva

Determinantların mətndə rolu

Xülasə

Məqalədə mətnin quruluşunda determinantların işlənməsi tədqiq edilir. Determinantlar cümlənin predikativ əsasını genişləndirən amil kimi mətnin komponentlərinin birləşməsində mühüm rol oynayır.

Lokal və temporal determinantlar diqqət mərkəzində durur. Təsvir və nəql tipli mətnlərdə fəza və tərz-zaman əlaqələrinin determinantla realizə edilməsi şərh edilir.

G.Rzayeva

The role of determinant

Summary

The role of determinants in the text. The utilization of determinants in the text construction is researched in the article.

Determinants play a great role in joining of text components as the factor of expanding the predicative basis of the sentence.

Local and temporal determinants are in the center of attention. The texts like description and narration, the realization of space and aspect and tense connection with determinants are interpreted.

Rəyçi: Nadir Məmmədli
filologiya elmləri doktoru, professor

ƏLİRZA ƏLİYEV
LDU
aliriza@mail.ru

BƏDİİ ƏDƏBİYYATDA ONOMASTİK VAHİDLƏRİN POETİK XÜSUSİYYƏTLƏRİ

Acar sözlər: poetik obrazlılıq, onomastika, məcaz, bənzətmə, müqayisə, metafora, metonimiya, mübaliğə, epitet, peyzaj.
Key words: poetic imageness, onomastics, litofez, comparison, metophor, metonyumy, exagaration, summary and etc.
Ключевые слова: поэтическая образность, ономастика, троп, гипербола, сравнение, метафора, метонимия, эпитет*, пейзаж.*

Bədii əsərlərdə obrazlılıq ən başlıca kateqoriyadır. Obrazlılıq bədii əsərin xarakterik xüsusiyyətini, başlıca əlamət və keyfiyyətini özündə əks etdirir. Təsadüfən deyilməmişdir ki, "obrazlılıq dil üçün ümumi kateqoriya deyil, bu bədii üslubda xüsusi kateqoriyadır." (2, s.64) Bu kateqoriyada ümumi sözlərlə yanaşı, xüsusi adlar-onomastik vahidlər də mühüm yer tutur.

V.Vinaqradov bu cəhəti nəzərə alaraq yazır: "Bədii əsərlərdə ad, ləqəblərin seçilməsi məsələsi, müxtəlif janr və ədəbi növlərdə onların quruluşca rəngarəngliyi, səciyyələndirici funksiyaları və s. haqqında nümunələr nümayiş etdirmək olar. Bu bədii üslubiyyatın ən böyük və ən mürəkkəb mövzularından biridir". (5, s.38) Doğrudan da, bu belədir. Bədii əsərlər onomastik vahidlərlə zəngindir və bunlar üslubi rəngarəngliyin yaradılmasında mühüm əhəmiyyət daşıyır. Linqvistikamızda onomastik vahidlər sahəsində müəyyən tədqiqat işlərinin aparılmasına baxmayaraq təəssüflər olsun ki, bədii əsərlərdə onomastik vahidlər və onların üslubi imkanları, xüsusilə də poetik onomastikamız, əgər A.Paşayevin "Poetik adlar aləmi" əsərini nəzərə almasaq, demək olar ki, tədqiqatdan kənarda qalmışdır. Bu gün dilçiliyimizin qarşısında duran mühüm vəzifələrdən biri də bu istiqamətdə lazımi səviyyədə tədqiqatın aparılması və genişləndirilməsidir.

Elə bir yazıçı tapmaq olmaz ki, o onomastik vahidlərdən istifadə etməmiş olsun. Onomastik vahidlər bədii əsərin əsas ideyasını, obrazın xarakterik xüsusiyyətini, onun istək və arzularını, coğrafi mövqeyini, xarici görünüşünü ifadə edir. Bu vasitələrin müəyyən hissəsi bədii dildə yazıçı təxəyyülünün məhsulu olub özünün poetik xüsusiyyəti, ekspressiv və emosional çalarlığı ilə adi real adlardan bu və ya digər dərəcədə də fərqlənir. Bütövlükdə onomastik vahidlər bədii təsvir və ifadə vasitəsi kimi hər bir sənətkarın fərdi üslubunda özünəməxsus poetikliyi ilə seçilir.

Bədii təfəkkürün başlıca fəaliyyətində bənzətmə xüsusi yer tutur və demək olar ki, bu ilkin təsəvvürlərin nəticəsidir. Bənzətmənin yaradılmasında poetik onomastik vahidlər xüsusi rol oynayır. Bədii əsərlərdə təbiət varlıqları, insan, ona məxsus əlamət və keyfiyyətlər müqayisə şəklində bənzətmənin müxtəlif qütblərində dayanır. Məsələn:

Təbrizin *qoynundan çox igid çıxıb. Təbiət ucalmamış* ***Səttarxan*** *kimi. (B.Azəroğlu) Mənim əziz oğlum etibar,* ***Etibar*** *balam, Sən təzə açılmış çiçək kimisən. (B.Azəroğlu)*

Şair Qabil təbiət vurğunu olan Musa Yaquba həsr etdiyi şeirində onun böyük firça ustası Səttar Bəhlulzadə ilə müqayisəyə çəkərək deyir:

MusaYaqub *şeirimizin* ***Səttar Bəhlulzadəsi Sərraf Bəhlulzadəsi Əttar Bəhlulzadəsi.***

Qabil Azərbaycan təbiətini rəngarəng poetik lövhələrlə tərənnüm edən Musa Yaqub sənətini bənzətmə obyekti olan əvəzsiz firça ustası Səttar Bəhlulzadə ilə müqayisə edir. Həm də Səttar Bəhlulzadənin adına xoş məramlı "Sərraf", "Əttar" kimi poetik ləqəblər qoşmaqla cinas yaratmış olur.

M.Araz poeziyası poetik onomastik vahidlərlə zəngindir. Şair bunlardan bədii təsvir və ifadə vasitəsi kimi obrazlı şəkildə istifadə edir. Ən maraqlısı budur ki, sənətkar çox vaxt şeirlərində özünü də müxtəlif təbiət varlıqları və sənət dahiləri ilə müqayisə obyektinə çəkir:

Məndən soruşsalar: - Sən kimsən? - onda. ***Nəsimi*** *oluram alov odunda. Bəzən üfüq adlı bir* ***Nizamiyəm.*** *Demək mən xilqətəm, mən hamıyam. Bəzən* ***Füzuliyəm -*** *Bir* ***planetəm. Sabirəm, Üzeyirəm, Bülbüləm*** *kimәm?* ***Azəri nəğməsi,*** *bilmirəm kimәm?*

Göründüyü kimi burada şair özünü böyük sənətkarlarımıza, planetə, bütövlükdə Azəri nəğməsinə bənzədir. Bu bənzətmə adi bənzətmə deyil, ağlın, zəkanın, sənətkarlıq qüdrətinin bənzətməsidir. Bunun üçün şair müxtəlif bədii fiqurlardan istifadə etmiş və bir neçə ritorik sualla rəngarəng üslubi çalarlıqlar və emosionallıq yaratmışdır. Bir sözlə, şairin müqayisə zamanı öz-özünə vermiş olduğu "Mən kimәm?" ritorik sualda heç bir cavab gözləmir. Əksinə, o özünün kim olduğunu hamıdan yaxşı dərk edir. X.Cabbarov demişkən: "M.Araz yaradıcılığı böyük vətəndaşlıq pafosu ilə çox fərqlənir. "Küləklər" şeirində: "Döy qapımı, döy qapımı Müşfiq küləyi, Əli Kərim qasırğası, qır pəncərəmi" deyən şair sanki qələmdaşlarını həm klassiklərdən, həm də müasirlərdən öyrənməyə cağırır. (2, s.177)

M.Araz poeziyasında doğma ocağa, yurda, vətənə, onun əvəzsiz rəngarəng təbiətinə bağlılıq daha qabarıq şəkildə özünü göstərmişdir. Bunların təsvir və tərənnümündə şair müxtəlif bədii priyomlardan istifadə etmişdir. Bu məqsədlə məcazın ilk növü sayılan bənzətmə və müqayisəyə müəyyən dərəcədə üstünlük vermişdir: "Uç ***Məmmədin*** xəyalı tək. Bu dağlarda yaşa ***kəklik***". Dostun qayıqlar bəzər, "Dedim bu görkəmlə ***Xəzərə*** bənzər. Qırınc yaylağa köçüb ***Xəzər***; Baxdı, cilvələndi nazlandı ***Göy göl****"*.

M.Araz poeziyasında bənzətmə məqsədi üçün təkcə antroponim, toponimlərdən deyil, həm də səma cismlərinin adlarından-kosmonimlərdən də poetik və obrazlı şəkildə yararlanmışdır. Bir şeirində şair hələ demədiyi, yazmadığı, lakin ürəyində, qəlbində yaşatdığı sirli dünyasını kəşf olunmamış Aya, Marsa, Veneraya bənzədir. Bu məqsədlə bənzətmənin xüsusi növünü yaradan "Kimi" qoşmasının üslubi imkanından təkrir kimi istifadə edir:

Ay *kimi,* ***Gün*** *kimi,* ***Venera*** *kimi*

Qəlbimin çox sirri kəşf olunmamış.

Ümumilikdə poeziyamızda bənzətmə yaratmaq məqsədilə kosmonimlərdən geniş istifadə olunmuşdur. Məsələn, M.Müşfiq oğlan və qızlarımızı poetik formada Aya və Günə bənzədir: ***Ay*** *kimi oğulların,* ***Gün*** *kimi qızların var.*

Bədii üslubda bir təsvir vasitəsi kimi kosmonimlərdən istifadə təsadüfi hal deyildir. Çünki səma cismləri paklıq, ucalıq və yüksəklik rəmzidir. Həm də bu kos-

monimlər ülvi hissləri özündə təcəssüm etdirir. Buna görə də poetik üslubda insanlar həmin cismlərə bənzədilir. Bundan ədəbiyyatımızda həm klassik və həm də müasir yazıçılarımız istifadə etməklə bəhrələnmişlər. Bunu əyani şəkildə göstərmək üçün aşağıdakı şeir parçalarına diqqət yetirək:

***Ay** tək çıxdı Yusif quyudan əgər. Nur saçdı quyudan o **Aya** qədər. (N.Gəncəvi) Nə gözəl gecədir, hava da ilıq. Görürsən ona bax, Xanlar, **Aya** bax. Qızıldan təmizdir, gümüşdən parlaq... Əgər insanlar da ona bənzərsə, Dünya quzu kimi verər səssəsə. (S.Vurğun) Dünyaya **Günəş** tək nur yayan insan. Vaxt olur ulduzda üfüq tək axır. (N.Xəzri)*

Və ya: ***Günəş ürəkli Sevil.** Sevil ürəkli günəş. **Günəş hörülü Sevil.** (N.Xəzri)*

N.Xəzri həm də ***Günəş*** və ***Ay*** planetlərini yüksək sənətkarlıqla antonim kimi qarşı-qarşıya qoyur: *Sən parlaq **Günəşsən,** Mən solğun **Ayam. Ayam,** yoxsa sönməmiş bir çırağam?*

O.Sarıvəli də eyni beytdə Ay, Günəş və Ülkər kimi səma cisimlərinin poetik formada qoşa hallandırır: ***Ay** yeri seyr edir bir ehtiramla, Yenə məşəlini yandırır **Ülkər"** Və ya: "Aləmdə nə varsa hamı dəyişir. Dəyişir səmtini **Ay, Günəş, Ulduz.***

B.Azəroğlu da "Təbrizim mənim" şeirində Təbrizin payızını yüksək poetikliklələ "Ay yanağına" bənzədir. Bundan əlavə də, sənətkar Təbrizi vəsf etmək üçün müxtəlif məcazlar sistemindən istifadə etmiş, bir tərəfdən onu başı çalmalı Səhəngə bənzətmiş, digər tərəfdən isə onu "ulduz baxışlı", "sinəsi ayna güllü", "bulaq zümzüməli", "dupduru Təbriz" kimi səciyyələndirmişdir:

*Başı **Səhəng çalmalı. Ətəyi Aclçaylı**. **Payızı Ay yanaqlı, Ulduz baxışlı**, **Sinəsi ayna güllü, Bulaq zümzüməli, Dupduru Təbrizim** mənim.*

O.Sərıvəli isə "***Ayı*** yeri seyr edən bir ehtişam" kimi poetikləşdirmişdir. S.Vurğun da səma cismləri olan Ülkər və Ayın əks etdirdiyi mənzərəni müqayisə və ritorik sual modeli ilə canlandırır və bu obrazlı mənzərəni poetik qələmi ilə çəkə bilməyəcəyini etiraf edir: *Gəldi qoşa gəldi **Ay** ilə **Ülkər.** Bir ağ çarpayının üstə Əmirxan. Başının üstündə **Ülkər**mi durmuş? Ayaq tərəfində **Aymı** oturmuş? Bunu rəssam kimi çəkə bilmirəm.*

Dilimizdə səma cisimlərinin antroponim yerində işlədilməsi də poetikdir. Xüsusilə bu gün dilimizdə olan poetik şəxs adlarının bir qismi (***Günəş, Ulduz, Ülkər, Aytac, Aydan, Aysel, Aygün*** və s.) məhz səma cismləri əsasında yaranmışdır. Şübhə yoxdur ki, bu adları ayrı-ayrı şair və yazıçılarımızın fərdi üslubunun məhsuludur. *Göründü açıq aydın. **Sənubər, Sadıq, Aydın** (C.Məmmədov). "Oğuz ucal, **Aybəniz**. Üst başları tər-təmiz". (Ə.Cəmil)* Kövrəlib dedi: ***Ülkər**-olmasaydı xəstə əgər. Üzündən öpərdin sən. (M.Seyidbəyli)* və s.

Bədii əsərlərdə bənzətmənin üslubi imkanları çox genişdir. Onlardan biri də "kimi" və "tək" qoşması ilə yaranan bənzətmədir. Bu qoşmalar vasitəsilə hər hansı şəxs, onun keyfiyyətləri, təbiət varlıqları, baş vermiş hadisə olduğu kimi başqasına bənzədilir: *Şevçenkonu **Sabir** kimi, Dnepri **Araz** kimi qoruyuram. (M.Araz) Mənim tək bir andım var, **Araz**. Mən səni apara bilməsəm, Sən məni apar, **Araz**. (M.Araz) Demirəm **Məcnun** tək çöllərdə qaldım. Nə də **Fərhad** kimi külüng caldım. (B.Azəroğlu) Axı həqiqəti deyənin olmur qorxusu. Nədən qorxacağam. **Həllac Mənsur** kimi Dara çəkilməkdən, yoxsa **Nəsimi** kimi dərimin soyulmasından. (B.Azəroğlu) Aldı **Cəmşid** kimi qızıl cam ələ. Tacı günəş kimi nur saçdı elə. (N.Gəncəvi)*

Poetik obrazlılığın yaradılmasında müqayisənin rolu əvəzsizdir. Müqayisə vasitəsilə müxtəlif və rəngarəng obrazlılıq yaradılır. Belə obrazlılıq söz sənətində insanda estetik gözəllik yaradır. Bu, insanda heyrət və pərəstiş hissi doğurur. Belə hisslərdən biri də vətənə, doğma torpağa, onun rəngarəng və bərəkətli güşələrinə sonsuz sevgi və məhəbbət hissidir. Xüsusilə lirik əsərlərdə mənzərə və peyzaj şəklində verilmiş obrazlılıq özünün əyaniliyi ilə mənəvi dünyamızı, ruhumuzu zənginləşdirir, vətəndaş məhsuliyyətimizi, doğma yurd təssübkeşliyimizi daha artırır. Belə şeirlərdə obrazlılıq yüksək səviyyəsində poetikləşmiş olur:

Mən bir qədim mahnıyam
Xallarım əlvan-əlvan
Musiqim - **Qarabağdır**
Sözlərimdə - **Naxçıvan**
Bu torpaqda yaranmış
Koroğlunun **cəngisi**
Qıratın **üzəngisi**. (B.Vahabzadə)

"Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı" deyən M.Araz poeziyasında Vətənin, böyüdüb boya-başa çatdığı ölkənin obrazlı tərənnümü xüsusi yer tutur:

Azərbaycan - qayasında bitən bir çiçək
Azərbaycan çiçəklərin içində qaya
Mənim könlüm bu torpağı vəsf eləyərək
Azərbaycan dünyasından baxar dünyaya.

Q.Qasımzadə isə "Azərbaycan" şeirində vətənimizin xəritəsində özünün rəngarəngliyi, sərvət və neməti ilə bir-birbirindən seçilən onamastik adları poetik səviyyədə müqayisəyə çəkmiş və obrazlı mənzərə yaratmışdır: ***Şirvan*** yolu-alnımdakı qırışlarımdır, Zümzüməli ***Kürün*** suyu-şirin sözləri: Bu torpaqdır güvəndiyim var-dövlətinə, Nifrətidir, qəzəbidir ***Bakı*** küləyi... Sazlı, tarlı, xoş avazlı ***Qazax, Qarabağ***. Şəfa verən loğmanımdır - ***Sirab, İstisu.*** Nəvazişli qucağıdır - ***Kəpəz, Xanbulaq.*** Səxavətli bir insandır güllü-qanadlı. Bol nemətli süfrəsidir - ***Ağdam, Lənkəran.*** Əlçatmayan zirvəsidir ***Laçın, Qubadlı***. Sol döşündə ulduz kimi yanır ***Naxçıvan! Göy göl*** - onun çay içdiyi mavi nəlbəki. Təzə arxlar, kanallar da alın təridir.

Müqayisə məfhumu linqvistikada geniş anlayışdır. "Filologiyada müqayisəni sadəcə məcazın bir növü sayan və ya təşbehlə eyniləşdirən tədqiqatçılar haqlı deyildirlər. Müqayisə poetik obrazlılığın əsas qəlibidir, təşbehdən simvola qədər bütün trop növlərinin yaranmış üsuludur". (2, s. 148) Bu üsulla ayrı-ayrı məfhumlar arasında müxtəlif əlamət, keyfiyyət, hal-vəziyyət, dəyər, xarici görünüş və s. cəhətdən bənzərlik və oxşarlıq mühüm mahiyyət daşıyır.

Dilimizdə bənzətmənin yaranma vasitələri müxtəlifdir. Öncə bizə elə gəlir ki, bənzətmə təkcə qoşmalar vasitəsilə yaranır. Əslində bu belə deyildir. Burada bütün qrammatik fiqurlardan istifadə olunur və bənzətmə vasitəsilə başqa məcaz növləri, o cümlədən metofora da formalaşır. Metafora da bədii ədəbiyyatda obrazlı təsəvvürün yaradılmasında xüsusi mahiyyət daşıyır. Burada onomastik vahidlərin də rolu az deyildir. Onomastik vahidlər yazıçı qələmi sayəsində poetik şəkildə metoforikləşir. Məsələn: ***Cavanşirəm, Babəkəm, Nəbiyəm, Koroğluyam***, ***Azərbaycan*** oğluyam. (İ.Səfərli) Bəzən **Koroğlusan**, bəzən ***Kərəmsən***, Bəzən də ***Rüstəmsən***, ***Zalsan***, səsinlə. (O.Sarıvəli) Şahın şəkli yoldur divara bax bir, İndi ***Səttərxan*** da seyr edir

bizi, Əziz körpələr görüb sevinir, ***Nizami, Fizuli, Saib Təbrizi.***.. (O.Sarıvəli) Adı var tarixdə analarımızın: ***Nənəm Nüşabəni*** yadına sal bir, Ona baş endirir ***İskəndər Kəbir***. ***Məshəti xanımı*** unutma barı, Yığdı dövrəsinə sənətkarları... Böyük ***Nizamiylə*** yanaşı durdu... ***Qarabağ*** günəşi ***şair Natəvan***. Bu gün də çıxmamış elin yadından. (O.Sarıvəli)

Bu misralarda böyük tarixi şəxsiyyətlərimizin, əfsanəvi qəhrəmanlarımızın igidliyi, qoçaqlığı, qorxmazlığı, mərdliyi, tədbirliliyi, ağıllılığı, Babək, Koroğlu, Natəvan, Kərəm, Rüstəm Zal, Səttərxan, Natəvan, Məshəti xanım, Nüşabə və Füzuli simasında metaforikləşmişdir. Bədii üslubda söz birləşməsinin birinci tərəfinin onomastik vahidlərdən ibarət metoforik ifadələrə də təsadüf olunur: Bu dağ ulu ***Sabir dağı***. Sağalan deyildir o dağ. ***Vurğun şeiriyyəti***, ***Vurğun torpağı***. Bəlkə də, yüz vurğun yetirəcəkdir. (M.Araz) ***Məcnun səhralara*** düşər yolların. Dönər iqlimlərə ***Leyli bulağı***. (M.Araz) Mən böyük ***Babəkin nişanəsiyəm***. (B.Azəroğlu) Gör ***Azəri qızı*** düşündün nəyi, Sən kişi ömrünün dəyirman pəri, Koroğlu Misrinin ***Nigar dəstəy***i , Nəbi Aynalının ***Həcər səngəri***. (M.Araz) Geri firlan yer kürəsi, zamandan küsüb. ***Nüşabənin kəcavəsi*** təpədən aşdı. (M.Araz)

Yuxarıda verdiyimiz nümunələrdəki metoforik birləşmələrin hamısında birinci tərəfi şəxs adları təşkil edir. Poeziyada elə metoforikləşmiş birləşmələr də vardır ki, həmin birləşmələrin hər iki tərəfi şəxs adlarından ibarət olur:

Gülümsədi dinmədi ***Füzulinin Leylisi***, ***Nizaminin Şirini, Cavidin Xumarı***. (B.Azəroğlu)

Toponimlər də metaforik birləşmənin birinci tərəfi kimi çıxış edir: Bu gün mənim bir düz Kürsüm - ***Qarabağ düzü***, Qanadında qız alqışı, qadın alqışı, Bu gün mənim bacım Gülsüm, ***Qarabağ düzü.*** (M.Araz) Aşıq, qutardı, il təzələndi, ***Təbriz baharı*** yadıma düşdü. (B.Azəroğlu) Dağlarında Sabirlərin ümman dünyası, ***Azərbaycan qatarı*** da yollara çıxdı, Dağlarında ***Qoca Şərqin duman dünyası***. (M.Araz)

Məcazın müqayisə üslubu ilə yanaşı yaranan növlərindən biri də mübaliğədir. Müqayisənin digər növlərindən fərqli olaraq mübaliğə bədii dildə hər hansı bir ifadənin təsir gücünü daha çox artırmağa xidmət göstərir. Metaforik mübaliğədən ən çox poeziyada istifadə olunur, insan və ona məxsus xüsusiyyətlər və s. burada həddindən artıq şişirdilir. Buna görə də mübaliğə bəzən "şişirtmə" də adlandırılır. Bir qayda olaraq onomastik vahidlər də mübaliğə predmeti ola bilir:

Nəsimi, Nəimi məzarlarınacan. Yerin qulağına hay salmağım var. (M.Araz) Həm ***Təbriz,*** həm ***Bakıdır. Məkkəm, Mədinəm*** mənim. (B.Vahabzadə) Qocalmaz təbiətin var, şirin dilin var. Möcüz barmaqların, incə əlin var. Xəyalımda nurlu bir heykəlin var. Yurdumun ***Kəpəzi, Qoşqarı*** boyda. (M.Aslan) Zeynəb qadınları yığdı başına ***Təbrizin üstündə*** tufan eylədi. (O.Sarıvəli) ***Səhəng sözlərindən*** odlar tökülür (B.Vahabzadə) Mən ***Arazda*** şaxələnən çinaram, Ömür boyu tufan oldum, su yardım. ***Xətainin*** qılıncını suvardım. ***Məmməd Araz*** karandaşı közərdi. (M.Araz)

Bədii üslubda, xüsusilə də poeziyada fikrin ekspressiv ifadəsində, obrazlı düşüncələrin dərk olunmasında epitetin mühüm əhəmiyyəti vardır. Ona görə də poeziyada sənətkarlar fərdi-sintaktik epitetlər yaradır, bir növ əsərlərinə bəzək vurur və onu daha da oxunaqlı edirlər. Bu məqsədlə az da olsa, onomastik leksikaya müraciət etmiş olurlar:

Vidadi xanlardan görmədi ***Kərəm***.

Vaqifə dağ çəkdi min ***sənəm***.
Öldü ***qoç Koroğlu***, öldü xan ***Kərəm***. (O.Sarıvəli)
O, ***rəssam duyğulu***, ***şair xəyallı***
O ***dağlar gözəli Xuramancığaz***
Yurdumun ***ayağı sayalı qızım***
Ağzı ***xeyir*** sözlü, ***həyalı*** qızım. (S.Vurğun)
Züleyxa eşqim, ***Yusif camalım***
Məcnunu mən olan ***Leyli xəyalım***. (A.Şəmşir)
Sazına ***Vaqifin səsimi gəldi***,
Səsindən ***baharın nəsimi*** gəldi.
Alqışla Füzuli, ***Nəsimi*** gəldi. (M.Araz)
Düzlərinə ***şöhrət Araz***,
Harayına həsrət Araz.
Gecikmisən Məmməd Araz,
Yəqin dağlar küsüb səndən. (M.Araz)

Obrazların səciyyələndirilməsində ləqəblər də poetik mahiyyət daşıyır. Deməli, bədii ədəbiyyatda ləqəblər təsadüfi xarakter daşımır. Aşağıdakı nümunələrdən də bu aydın görünür:

Düşür yadıma fədai dostlarım: ***Saqqal Vəli, Şəmsuvarlı Əli, Qoca Şahmar*** *xəzinələr qoyub altına.* (B.Azəroğlu) *Siz* ***Topal Əhmədi*** *elə bilməyin.* (O.Sarıvəli) *Ey yaramaz! Çıx səngərdən səninləyəm, ey* ***Tıntın Kərəm*** (B.Azəroğlu)

Onomastik vahidlərin bədii üslubda rolu təkcə məcazlarla məhdudlaşmır. Burada sintaktik konstruksiyalar, o cümlədən bədii xitablar da müəyyən rol oynayır. Məsələn: S.Rüstəm Araza xitabən müraciət edərək: "***Axma, Araz! Dayan Araz!*** İnsaf eylə bizə bir az! Cəllad kimi bir ürəyi xəncər ilə iki yerə bölmək olmaz!" Göründüyü kimi müəllif Araz hidroniminə müraciətlə bir daha poetiklik, yüksək pafos ifadə edir və bir növ də müəyyən dərəcədə dramatik konflikt yaratmış olur.

Bütün bu söylədiklərimiz və bir məqalə çərçivəsinə sığışdırılması mümkün olmayan söyləmədiklərimiz bir daha sübut edir ki, bədii əsərlərimizdə poetik mahiyyət daşıyan onomastik vahidlər çoxdur. Lakin bədii əsərlər əsasında həmin vahidlər bu günə kimi kifayət qədər araşdırılıb öyrənilməmişdir. Halbuki, bədii əsərlərin dilində onomastik vahidlərin müxtəlif istiqamətlərdə tədqiqi bütövlükdə filologiyamız üçün çox vacib və əhəmiyyətli məsələlərdən biridir.

Ədəbiyyat

1. A.Paşayev. Poetik adlar aləmi. Bakı, 2010.
2. X.Cabbarov. Sənətkar, söz, üslub. Bakı, 1993.
3. M.Adilov. Sənətkar və söz. Bakı, 1984.
4. M.Adilov, A.Paşayev. Azərbaycan onomastikası. Bakı, 1987.
5. В.Виноградов. Стилистика теория поэтической речи. Москва, 1963.

A.Aliyev

Poetic features of onomastic umits in fiction

Summary

The aricle deals with poetic onomastic unites and their stylistic possibilities. Onomastic units chosen as patters are investigated within the context as litotes, figuration, comparision, metaphor, metanymy, exagaration, epitet, as well as their poetic features are visualized.

During the research we came to a conclusion that poetic-onomastic units are the product of individual style. These poetically express the idea, characteristic features of image of work of art, its wish and dreams, geographical position and so on. Except it, poetic-onomastic units have special importance in the creation of stylistic, emotional and expressive colourfulness.

Our fiction is rich in poetic-onomastic units. But these units which are very important for our lingnistics have not been researched from the point of view of stylistic.

А.Алиев

Поэтические особенности ономастических единиц
в художественной литературе

Аннотация

В статье на основе художественных произведений исследуются поэтические ономастические единицы и их стилистические возможности. Выбранные в качестве примера ономастические единицы рассмотрены внутри контекста как сравнение, метафора, метонимия, гипербола, а также изучены их поэтические особенности.

В результате исследования, пришли к такому выводу, что поэтические ономастические единицы являются плодами индивидуального стиля. Они поэтично выражают идею художественного произведения, характерные черты образа, географическое положение его желаний. Кроме этого, поэтические ономастические единицы важное значение в создании стилистических разнообразий, эмоциональных и экспрессивных оттенок.

Наша художественная литература богата поэтическими ономасстическими единицами. Но эти единицы, имеющие огромное значение для нашей лингвистики, не были изучены системно, с точки зрения стилистики.

Rəyçi: Yədulla Ağazadə
filologiya üzrə elmlər doktoru.

AFƏT İSRAFİLOVA
ADNA
afat-israfilova@rambler.ru

AZƏRBAYCAN VƏ İNGİLİS POEZİYASINDA FORMA: QARŞILIQLI TƏRCÜMƏ PROBLEMLƏRİ

Açar sözlər: şeir formaları, ritmik quruluş, poeziya, qafiyə, məcaz, bənzərsiz təəssürat, hədəf dili
Key words: Poem forms, rhythmical system, poetry, rhyme, metaphor, unique impression, target language
Ключевые слова: Поэма формы, ритмическое система, поэзия, рифма, метафора, уникальный впечатление, целевой язык

Orijinal dil və hədəf dili kimi götürdüyümüz Azərbaycan və ingilis dillərinin fərqli dil qruplarına (İngilis dili Hind- Avropa dillərinin cənubi german qrupuna, Azərbaycan dili isə Türk dilləri ailəsinin cənubi-qərb qrupuna) mənsub olduğunu nəzərə alaraq hər iki poeziyada müxtəlif şeir formaları və onların özəllikləri kimi məsələlərə diqqət yetirməyi son dərəcə vacib hesab edirik.

İngilis poeziyasına məxsus aşağıdakı şeir formaları mövcuddur:

Məxsusi qafiyə quruluşu olan şairin bənzərsiz təəssürat yarada biləcək hiss və duyğularını əks etdirən **lirik şeir**;

Məxsusi qafiyə quruluşu və ölçüsü olan nəqledici **qeyri-dramatik şeir** növü; Növünə görə fərqli quruluşu olan 14 misralıq şeir növü**- sonet**:

Şekspir soneti – 3 bəndi və son beyti ayəmbik səkkizlikdə abab cdcd efef gg, yaxud abba cddc effe gg qafiyə quruluşu olan sonet növü;

İtaliya (Petrarka) sonet növü- 8 və 6 misralıqdan ibarət olub birinci hissə və ikinci hissə arasında fikir dəyişikliyini ifadə edən sonet növü. Ənənəvi qafiyə quruluşu abbe abbe café café

Oda - mötəbər mövzuya həsr edilmiş dəqiq lirik şeir növü;

Ağ şeir növü: qafiyələnməyən ayəmbik (vurğulu və vurğusuz hecaların sıralanması) səkkizlik misralardan ibarət şeir;

Sərbəst şeir: xüsusi ritmik quruluşu olmayan qafiyələnməyən misralardan ibarət şeir; **Epik şeir**: qəhrəmanın xalqı üçün göstərdiyi şücaətindən bəhs edən uzun nəqledici şeir növü; **Dramatik monoloq**: danışanın onu əhatə edən auditoriyaya öz həyatının dramatik anları haqqında söhbətidir. Bu söhbət zamanı eləcə də onun mənəvi aləmi-xarakteri açılır. **Elegiya(lirik)** bir şəxsin ölümünə həsr edilmiş şeir növü; **Ballada (lirik)**: oxunmaq yaxud əzbərlənmək üçün yazılmış sadə, nəqledici şeir növü olur.

Çobansayağı (lirik) idealistik terminlərlə çoban həyatından bəhs edən şeir növü; **Vilanel lirik şeir forması**: aba aba aba aba aba abaa qafiyə quruluşlu, birinci və üçüncü misraları qafiyələnən beş bənddən və 19 misradan ibarət olan fransız mənşəli şeir növü; **Əyləndirici şeir növü**: əyləncə məqsədilə yazılmış epiqram və limerik kimi komik şeir növü. Şotlandiyanın Limerk şəhərinin adı ilə adlanır. Bu cür şeir növünün satira və parodiya kimi ciddi mövzulu variantları da

vardır. **Hayku**: 5, 7, və 5 hecalardan ibarət olan üç misralıq, xüsusilə incə varlıqlardan bəhs edən yapon şeir növü;

Limerik: yumoru olan cəfəngiyyat aabba qafiyə qurluşu olan şeir növü; (73). **İngilis şeirində qafiyənin növləri**:

"**Qafiyə**" sözü xüsusi və ümumi mənada işlənə bilər. Xüsusi mənada qafiyə iki sözün son vurğulu saitlərinin və bütün sonra gələn səslərinin eyni olması deməkdir; şeirin iki misrasının sonda olan sözləri qafiyələnən sözlərdən ibarətsə, həmin misralar qafiyələnir. Tam qafiyələnən sözlər qafiyələnən sözlərdəki hecaların sayına görə aşağıdakı kimi təsnif olunur:

Maskyulin (erkək): son hecasında vurğusu olan sözlərin qafiyələnməsi (rhyme, sublime, crime). **Feminin (dişi)** vurğusu son hecadan əvvəlki hecada olan sözlərin qafiyələnməsi (picky, tricky, sticky)

Daktilik: vurğusu son hecadan iki heca əvvəldə olan sözlərin qafiyələnməsi ("cacophonies", "Aristophanes")

Ümumiyyətlə "**qafiyə**" sözünü sözlər arasındakı fonetik bənzərliyin müxtəlif növləri kimi də izah etmək olar. Bu fonetik bənzərliyin dərərcəsinə və tərzinə görə qafiyələrin aşağıdakı növləri vardır:

Sillabik (syllabic): sözlərin son hecasında sait səs olub-olmamasından asılı olmayaraq eyni səslənməsi. (cleaver, silver, or pitter, patter)

Tam olmayan: vurğulu və vurğusuz hecalar arasındakı qafiyə (wing, caring)

Semiraym (Semirhyme)- sözdəki əlavə heca ilə qafiyə (bend, ending)

Məcburi (oblique, or slant): səslərin tam uyğun olmaması ilə qafiyə (green, fiend) **Konsonans (consonance)**: samitlərin uyğunluğu (her, dark)

Yarımqafiyə misradakı son sözlərin uyğunluğu (bent, ant)

Assonans (assonance) saitlərin uyğunluğu (shake, hate)

Alliterasiya: sözlərin əvvəlindəi səslərin uyğun gəlməsi (short, ship)

<u>İngilis poeziyasında məzmuna görə bir sıra şeir növləri mövcuddur:</u>

Toy poeziyası(Wedding poetry): Bu tipli şeirlərə Uilyam Batler Yitsin "Sən qocalanda" ("When you are old) ", Elizabet Bərret Brauninqin "Seni mən necə sevirəm" ("How Do I Love Thee"), Xirsistafor Marlunun "Sevən çobandan sevgilisinə" ("The passionate Sheperd to his Love"), Vilyam Şekspirin "Səni yay gününə bənzədimmi mən?" ("Shall I Compare Thee to a Summer"s Day?") kimi şeir nümunələrini misal gətirmək olar.

Yeniyetməlik poeziyası: yeniyetməlik mövzusunda olan poeziya növüdür. Yeniyetmə Poeziyası (Teen Poetry) Redyard Kiplinqin "Əgər", Uilyam Bleykin "Pələng"(TheTyger), Corc Qordon Bayronun "Biz ayrılanda" (When We Two Parted) , T. S. Eliotun Conatan Svift, S. T. Coulric, Coys Kimler, Emili Dikinson, Tomas Hud, Meri Houit, Robert Bönz, Alfred Lord Tenison və Ceyms Folinin şeirlərini əhatə edir.

Qot poeziyası, yaxud Qaranlıq poeziya adından da göründüyü kimi bu mövzulu poetik nümunələri özündə birləşdirir. Kristina Rozetti, G. Q. Çesterton, Anna Finç, Uolter de la Mar, Uilyam Batler Yits, Aleyster Krauli, Matyö Arnold, Jon Donn, Lord Bayron və başqalarının yaradıcılığında da bu tipli şeirlərə rast gəlmək olur.Məs. Uilyam Bleykin "Zəhər Ağacı"(A Poison Tree), Radyad Kiplinqin "Sən qocalanda"(When You Are Old), "Ölən Qadına" (Upon a Dying Lady) şeirləri bu qəbildəndir.

Amerika poeziyası. Amerika poeziyasının hər cür üslubda müxtəlif qurluşlu, məzmunlu şeirlər yazan ən məhşur şairlərinin əsərlərini əhatə edir. Məs. Edqar Alan Pounun "Qarğa"(The Raven), Coys Kimlerin " Üzrxahlıq"(Apology), Karl Səndbörqün "Çikaqo"(Chicago) , Con Kuinsi Adamsın "İnsanın istəkləri"(The Wants of Man), Henri Uordsvorst Lonqfelounun "Milad zəngləri" və s. kimi əsərləri misal gətirmək olar.

İngilis Poeziyası. İngilis poeziyasına hər cür üslubda fərqli mövzularda və qurluşlarda yazılmlş şeirlər daxildir. Məs. Matyö Arnoldun "Ölməzlik" (Immortality), Robert Bricin "Bulbüllər" (Nightingales), Emili Brontenin "Sevgi və dostluq" (Love and Friendship), S. T. Kolricin "Qoca dənizçi" (The Ancient Mariner), Cefri Çoserin "Amansız Gözəllik" (Merciles Beaute), E. B. Brauninqin "Səni necə sevirəm" (How Do I Love Thee) kimi şeir nümunələri bu poeziyaya daxildir.

Robert Frost (1874 - 1963)Poeziyasına şairin yazdığı müxtəlif növ şeir formaları daxildir. Böyük şair Amerikanın SanFransisko şəhərində Daily Evening Post qəzetinin redaktoru Uilyam Preskot Frostun ailəsində anadan olmuşdur. O, Harvardda təhsilini başa vurmuş, atasının ölümündən sonar Masaçuset ştatına köçmüşdü. İlk şeiri orada işıq üzü görmüşdü. 1912-ci ildə anası ilə birlikdə anasının boya-başa çatdığı Qlazqoya köçmüşdü. Çoxşaxəli yaradıcılığa malik olan şair dörd dəfədən artıq Pulitzer Mükafatına layiq görülmüşdür. Həm şair, həm müəllim, publisist və tənqidçi kimi tanınan Robert Frost yaradıcılığının özəlliyi onun Amerika ədəbiyyatında Rober Frost poeziyasına ayrıca yer verilməsinə imkan yaratmışdı. Məs. "Şəhərdə bir Çay"(A Brook in the City), "Bir Mömin Baharda" (A Prayer in Spring), "Gecə ilə Tanışlıq" (Acquainted with the Night), "Su arxasınca Gediş" (Going for Water), "Ruh Evi" (Ghost House), "Sevgi və bir sual" (Love and a Question) və s. Azərbaycan ədəbiyyatında ölçü, qafiyə, ritm baxımından aşağıdakı şeir formaları mövcuddur: **Heca vəzni**. Bu vəznin iki mühüm şərti var: ölçü və bölgü. Bunlardan birincisi misralardakı hecaların sayının bərabərliyinə; ikincisi isə misradakı heca mikroqruplarının uyğunluğuna əsaslanır. **Sərbəst vəznli şeir:** Sərbəst şeir ölçülü şeirin əksini təşkil edir ki, bu qarşı-qarşıya qoyulma da müxtəlif fərqləndirici əlamətlərə malikdir. Bu əlamətlərdən ən mühümləri isə birinci növbədə vəzn və qafiyə,şeirin fonetik təşkili, məcazlar sistemi və sairədir. Bu forma ənənəvi qafiyə sistemini, ölçünü rədd edir. Azərbaycan sərbəst şeirində vəznin əsasını ritmik vahidlər-taktlar təşkil edir. Necə ki müxtəlif sayda hecası olan bölgülər heca vəznində əsasdır, sərbəst vəzndə həmin vəzifəni ritmika-intonasiyanın vahidləri olan taktlar (təqtilər) yerinə yetirir. **Əruz vəzni:** Bu söz farsca ölçü deməkdir. Ədəbiyyatımızda bu şeirin rəməl, həzəc bəhrləri geniş şəkildə əvvəllər işlənmişdir. Əruzun 19-dan çox bəhri vardır. Halhazırda bu vəzn ədəbiyyatımızda sıradan çıxmaq üzrədir. **<u>Qafiyə quruluşuna görə Azərbaycan şeirinin növləri:</u> Məsnəvi (ikilik)**– iki misranın həmqafiyə olduğu bənddir. (qafiyə quruluşu a-a, b-b, c-c...); **Qəzəl (ikilik)** - geniş yayılmış lirik şeir növüdür. (qafiyə qurluşu a-a, b-a, c-...) **Üçlük-qafiyə** sisteminə görə fərqlənir. Məs. a-a-a, a-b-a, b-b-b və.s. **Dördlüklər**-poeziyamızda ən geniş yayılmış şeir növü. Bu şeir növünün qafiyə qurluşuna görə aşağıdakı formaları vardır: a-a-a-b, 2- a-a-a-b, 3. a-a-b-a, 4- a-b-a-b, 5- a-b-c-b, 6-a-a-b-b (məsnəvi), 7-a-b-c-d, 8-a-b-b-a

İkinci və üçüncü növ qafiyə quruluşu olan şeir növünə aşıq poeziyasına xas olan qoşma(on bir hecalı), gəraylı (səkkiz hecalı), təcnis kimi şeirlər daxildir.

Aaba qafiyə qurluşu olan şeirə bayatını, rübaini aid etmək olar.

Abab qurluşlu şeirlərə çarpazqafiyəli dördlük deyirlər. Abab qafiyəlınmə natamam çarpaz dördlüyə aiddir. Aabb qafiyəli şeirlər- məsnəvi adlanır.

Beşliklər-poeziyamızda iki növü vardır: müxəmməs və təxmis(qafiyə qurluşü-a-a-b-a-d,a-b-a-b-a, a-b-b-a-a, a-b-c-c-b, a-b-c-a-b, a-b-c-b-d, a-a-b-b-c)

Altılıqlar-müsəddəs şeir növüdür. (qafiyə quruluşu-a-b-a-b-c-c, a-a-b-a-c-d, a-a-a-b-c-b, a-b-c-b-e-d)

Yeddiliklər-müsəbbe şeir növüdür. (qafiyə quruluşü-a-a-b-b-a-c-c, a-b-c-b-d-b-f) **Səkkizliklər-** qafiyə quruluşu a-b-c-b-d-d-b-c (1, 72).

İngilis poeziyasında olduğu kimi Azərbaycan türk ədəbiyyatında da məzmununa və quruluşuna görə bir çox şeir formaları vardır. Bunlara misal olaraq aşıq poeziyasını, meyxana (bədiyyə) kimi şeir formalarının adını göstərmək olar.

Azərbaycan türk poeziyasında çox vaxt populyar forma kimi tanınan qəzəl janrını çox vaxt Qərb poeziyasının sonet janrı ilə müqayisə edirlər. Bu iki şeir formasında zahiri oxşarlıq olsa da, fərqli cəhətlər də çoxdur. Bu fərqlər özünü tərcümədə də göstərir və bəzən müəyyən cətinliklər də yaradır. Azərbaycan yazılı ədəbiyyatı VII-X əsrlərdə formalaşsa da, ilk şeir nümunələri XIII əsrə aid edilir. Sonrakı əsrlərdə isə ana dilimizdə yazılı ədəbiyyat, o cümlədən bitkin şeir nümunələri yaranmışdır. XI əsrdə Yaxın Şərqin bir sıra ölkələrində olduğu kimi Azərbaycanda da əsas poeziya dili fars-dəri dili sayılırdı. Azərbaycanda ilk qəzəl Qətran Təbriziyə məxsusdur. XII əsrdə Azərbaycan ədəbiyyatında qəzəl Fələki Şirvani, Mücirəddin Beyləqani, Xaqani Qivami Mütərrizi və Nizami Gəncəvi sənətində müstəqil janr kimi böyük şöhrət qazanmışdır. Qəzəl öz quruluşu ilə diqqəti cəlb edir- hər beytin birinci misrasındakı axırıncı söz ikinci misrada sual şəklində qoyulur və aydınlaşdırılır. Qəzəldəki beytlərin, xüsusən son misraları poetik baxımdan maraqlıdır- bir misrada iki bədii sual və iki bədii təyin. Bu növ kompozisiya emosionallığı qüvvətləndirir, mənanın oxucuya daha təsirli çatmasına və ehtizazına xüsusi təkan verir (19, 42).

Qəzəlin birinci beytinin misralarında daxili qafiyə olur. Digər beytlərin ikinci misrasında birinci beytin misralarının sonunda təkrar olunan söz sonda gəlməklə, ondan əvvəlki söz birinci beytdə qafiyələnən sözlə qafiyələnir, birinci misralar isə sərbəst olur. (Aa ba ca da ea və s.) Qazi Bürhanəddin və Nəsimi yaradıcılığı XV-XVI əsrlərdə doğma dildə yaranan qəzəlin gələcək inkişafı üçün mərhələ rolunu oynadı. Bu dövrdə qəzəl yazan sənətkarlarımız artıq üstünlüyü ana dilimizə verirdilər. Məhəmməd Füzuli ədəbiyyatımızda qəzəl ustası kimi böyük şöhrət qazanmışdır. Təsadüfi deyil ki, XX əsrin ortalarında Fizulinin davamçısı sayılan Əliağa Vahid kimi qəzəlxan yetişmişdir.

Ədəbiyyat:

1.Axundov Ağamusa. Şeir sənəti və dil. Bakı, Yazıçı, 198
2. Arif M. Ədəbi-tənqidi məqalələr. Bakı, 1958
3.Nağıyeva Ş. "Müasir Azərbaycan poeziyasının ingilis dilinə tərcüməsində milli koloritin saxlanması". Filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya. Bakı, 1997
4. Poetik tərcümələr, I toplu, , Xəzər Universitəsi Nəşriyyatı, 2005

5. Nağıyeva Ş. "Müasir Azərbaycan poeziyasının ingilis dilinə tərcüməsində milli koloritin saxlanması". Filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya. Bakı, 1997
6. Poetik tərcümələr, I toplu, , Xəzər Universitəsi Nəşriyyatı, 2005
7. Nida E. A. Principles of translation as Exemplified by Bible Translating // In Book: on Translation, N. Y. 1966.
8.http://en.wikipedia.org/w/index.phptitle=Special:Captcha/image&wpCaptchaId=2139062408)
9. https://twitter.com/bayati_az/status/8119329946079232
10. www.translit.az

A.Israfilova

Form in Azerbaijan and English Poetry: Problems of mutual translation

Summery

Literary translation bother between existing boundaries languages. The art of translation is always trying to refute the idea and that is impossible transfer from one to the other. We can say that the subtlety of meaning in the original text and the requirement that the translators put in front of him always affect the literary translation . Naturally, translators try to be fair in their profession and are demanding literary translation of the original text . Because of the existing borders between languages interpreters consider themselves disabled , because as far as possible, must be faithful to the original meaning.

А.Исрафилова

Форма Азербайджанской и Английской поэзии: проблемы, представляющие взаимный перевод

Резюме

Границы существующие между языками утруждают художественный перевод. Поэтому искусство перевода всегда старается опровергнуть мысль что перевод с одного на другой невозможен. На самом дель, можно сказать что, тонкость смысла в оригинальном тексте и требования которые переводчики ставят перед собою всегда влияют на художественный перевод. Естественно, переводчики стараются быть справедливый в своей профессии и требовательно относятся к художественному переводу оригинального текста. Из-за границ существующих между языками переводчики считают себя ограниченными, потому что насколько это возможно, должны быть верны к оригинальному смыслу.

Rəyçi: Lalə Məsimova
filologiya üzrə fəlsəfə doktoru, dosent

RƏHİMƏ MƏMMƏDOVA
ADNA Xarici dillər kafedrası
rahima@mail.ru

İNGİLİS DİLİNDƏ PREFİKSLƏRİN ROLU

Açar sözlər: söz yaradıcılığı, prefiks, inkarlıq, şəkilçi
Key words:, prefix word building, negation, affix
Ключевые слова: префикс, отрицание, аффикс, словообразование,

Müasir ingilis dilində sözdüzəltmənin dilin zənginləşməsində əvəzsiz xidməti var. Sözdüzəltmə prosesində prefiks və suffikslərin böyük rolu var. Suffiks və prefikslər arasinda köklü dəyişikliklər mövcuddur. Bu fərq təkcə prefikslərin sözlərin əvvəlinə, suffikslərin isə sözlərin sonuna əlavə olunmasında əks olunmur. Belə ki, suffikslər bu və ya digər nitq hissəsinə qoşulanda onu digər qrammatik kateqoriyaya çevirə bilir (to eat- eatable), lakin prefikslər belə çevirmə qabiliyyətinə malik deyillər. Prefikslər qoşulduqları sözün ancaq leksik mənalarını dəyişə bilirlər. Prefiks sərbəst şəkildə istifadə oluna bilməyən sərbəst söz köklərinə əlavə olunan morfemdir. Eyni zamanda bir prefiks müxtəlif nitq hissələrinin əvvəlinə əlavə edilə bilər. Məsələn: misunder-standing, misunderstand.

Suffikslər və prefikslər ingilis dilinin söz yaradıcılığında çox böyük əhəmiyyətə malik olub, ingilis dilinin lüğət tərkibinin zənginləşdirilməsində böyük rol oynayır.

Müasir ingilis dilində prefikslər hansı nitq hissələrini yaratdıqlarına görə aşağıdakı növlərə ayrılırlar:

a) Fel düzəldən prefikslər (be-, de-, en-,out-,un-.)
b) İsim düzəldən prefikslər (ex-, arch-, ana-, dys-, per-.)
c) Sifət düzəldən prefiks (cis-.)
d) Zərf düzəldən prefiks (a) və s.

Mənasına görə prefiksləri iki qrupa ayırmaq olar: Təsdiq məna ifadə edən prefikslər və inkar məna ifadə edən prefikslər.

Prefikslərdən bəhs edərkən onların aşağıdakı təsnifatını qeyd etmək vacibdir:

1) əsl ingilis mənşəli prefikslər və alınma prefikslər
2) bir nitq hissəsindən başqa nitq hissəsi düzəldə bilən və ya bir nitq hissəsindən başqa nitq hissəsi düzəldə bilməyən prefikslər
3) təkvalentli və çoxvalentli prefikslər
4) inkarlıq bildirən və inkarlıq bildirməyən prefikslər

Dünyada elə bir dil mövcud deyil ki, o təcrid edilmiş şəkildə inkişaf etsin. Xarici aləm daim ona təsir edir. Cəmiyyət yaranandan müxtəlif tayfa, qəbilə, xalq və millətlər həmişə bir-biri ilə təmasda olmuş, müxtəlif xalqlar arasında ticarət və s. əlaqələr yaranmışdır. Bütün bunların nəticəsində xalqlar, onların dilləri qaynayıb-qarışmış, bir-birinə müxtəlif sahələrdə qarşılıqlı təsir etmiş, bir-birindən sözalma prosesləri baş vermişdir. Dil əlaqələrini xalqlar və millətlər arasındakı digər əlaqələrdən ayırmaq mümkün deyil.

Əlaqədə olan dillər bir-birindən ehtiyac duyduqlarını ünsiyyəti təmin edə bilmək üçün özündə olmayanları alır. Xalqlar arasında baş vermiş dil əlaqələri inkişaf

etdikcə bir dildən başqa bir dilə keçən alınmaların xarakteri də dəyişir. Burada söz yaradıcılığı xüsusi əhəmiyyət kəsb edir. Söz yaradıcılığında, ingilis dilinin lüğət ehtiyatının zənginləşməsində prefikslərin xüsusi yeri vardır. Prefikslər elə sözdüzəldici morfemlərdir ki, onlar söz kökündən əvvəl gəlir, sözün leksik mənasını dəyişdirir və əksər hallarda onun bu və ya digər leksik – qrammatik sinfə məxsus olmasına təsir göstərmir.

İngilis dilində mövcud olan əsil mənşəli prefikslər sayca alınma prefikslərdən azdır. Belə ki, ingilis dilində müxtəlif dövrlərdə başlıca olaraq latın, yunan və fransız dilindən alınma çoxlu sayda prefiks mövcuddur. İngilis dilində əsasən mövcud olan alınma prefikslər aşağıdakılardır: -a, - anti, -arch, - bi, -circum, -cis, -co, -contra, -counter, -de, -demi, -dis, -en, -ept, -ex, -extra, -hemi, -hyper, -hypo, -in, -inter, -intro, -mal, -meso, -meta, -mono, -non, -pan, -pantro, -para, -peri, -poly, -post, -pre, -pro, -proto, -re, -retro, -semi, -sub, -super, -sur, -syn, -trans, -tri, -ultra, -uni, -vice.

Bir nitq hissəsindən başqa nitq hissəsi yaratmaq qabiliyyətindən asılı olaraq prefikslər iki qrupa bölünürlər: Bir nitq hissəsindən başqa nitq hissəsi yarada bilən və bir nitq hissəsindən başqa nitq hissəsi yarada bilməyən prefikslər.

1) Bir nitq hissəsindən başqa nitq hissəsi yaradan prefikslər aşağıdakı modellər üzrə işlənir. *Pref+N=V, Pref+A=V, Pref+N=A, Pref+N=Adv, Pref+V=S.* Məsələn: to dismember, to dishonour, to disbale, to denude, non-smoker, non-conductor, abed, afield, perforce, overnight, awake, asleep və s.

2) Bir nitq hissəsindən başqa nitq hissəsi yaratmayan prefikslər aşağıdakı modellər üzrə işlənir. *Pref+N=N, Pref+A=A, Pref+V=V.* Məsələn: non-interference, atheist, non-commital, unwealthy, invisible, achromatic, to decode, to decarbonize, to unbutton, to unfold, to dislike, to disbelieve, to diapprove, to miscount. və s.

İngilis dilində mövcud olan iyirmi beş bir nitq hissəsindən başqa nitq hissəsi yarada bilən prefikslər iki qrupa bölünür:

Birinci qrupa substantivləşmiş və adyektivləşmiş söz köklərindən fel düzəldən prefikslər daxildir. Bunlara be-, de-, dis-, en-/in-, inter-, out-, over-, re-, un- və s. misal ola bilər.

İkinci qrupa substantivləşmiş söz köklərindən, söz birləşmələrindən və feli sifətlərdən sifət düzəldən prefikslər daxildir. Bunlar ante-, anti-, inter-, intra-, multi-, over-, poly-, pre-, post-, pro- sub-, super-, supra-, un-, under- və başqalarıdır.

Prefikslər valentlik baxımından 2 qrupa bölünür: təkvalentli və çoxvalentli prefikslər. Prefikslərin valentliyi dedikdə onların neçə dənə nitq hissəsi ilə birgə işlənə bilmək qabiliyyəti nəzərdə tutulur. Bəzi prefikslər yalnız bir nitq hissəsinə əlavə olunub ondan yeni sözlər düzəldə bildiyi halda, bəziləri isə iki və daha artıq nitq hissəsinə əlavə olunub onlardan yeni mənalı sözlər düzəltmək qabiliyyətinə malikdir.

Təkvalentli prefikslərə aşağıdakıları misal göstərmək olar: arch-, hemi-, cis-, pan-, per-. Məsələn: archenemy, hemistich, pan-American, perchance və s.

Çoxvalentli prefikslərə isə aşağıdakıları misal göstərmək olar: dis-, non-, a-, mis- və s. Məsələn: to dislike, dismember, to dishonour, non-agression, non-resistance, non-fulfillment, nonalcocholic, noncommital, mistrust, misconduct, to misunderstand, to misbehave, atheist, assymetry, anhydrous və s.

Prefikslərin bir çoxunun inkarlıq mənası bildirməsi ilə bağlı olaraq prefiksləri inkarlıq bildirən və inkarlıq bildirməyən prefikslər kimi təsnif edilib, iki qrupa bölmək olar.

İngilis dilində mənasına görə inkarlıq bildirən prefikslər aşağıdakılardır:

a-, de -, dis-, ill-, in-, mis -, non-, -un-. və s.

Məsələn: anormal, to deforest, to discourage, ill-bred, ill-fated, inconvenient, irregular, misbehave, nondairy, unimportant, to unbutton.

İnkarlıq prefikslərinin həmçinin mənşəyinə görə iki növü var: alınma prefikslər və əsil mənşəli prefikslər. Alınma inkar prefikslərə a-, de-, dis-, in-, non- əsil mənşəli prefikslərə isə un-, ill-, mis- və s. misal ola bilər.

İnkarlıq prefiksləri həmçinin bir nitq hissəsindən başqa nitq hissəsi düzəldə bilmə qabiliyyətinə görə iki yerə bölünür. Bir nitq hissəsindən başqa nitq hissəsi düzəldə bilən inkarlıq prefiksləri aşağıdakılardır: *de-, dis- və s.* Məsələn: to desting, to discourage.

Bir nitq hissəsindən başqa nitq hissəsi düzəldə bilməyən inkarlıq prefiksləri: *a-, ill-. in-, mis-, non-, un-*. Məsələn: non-American, non-interference, illegal, inconvenient, achromatic, atheist, ill-bred, ill-timed, ill-fated, ill-wisher, unwealthy.

Əlavə olunduqları nitq hissələrinin sayına əsasən ingilis dilində mövcud olan inkarlıq prefikslərini iki qrupa ayırmaq olar: çoxvalentli və təkvalentli.

İngilis dilində olan əksər prefikslər təkvalentlidir və onlar yalnız bir nitq hissəsinə əlavə olunur. A-*, de-, ill-, non-* inkarlıq prefiksləri çoxvalentlidir və onlar bir neçə nitq hissəsinə əlavə oluna bilir.

İnkarlıq prefikslərini digər prefikslərdən fərqləndirən cəhət onların inkarlıq mənasının növü və mənası ilə bağlı olmasıdır. Bu nöqteyi-nəzərdən inkarlıq prefiksləri iki qrupa bölünür:

1) Əlavə olunduqları söz köklərindən inkar mənalı sözlər düzəldən inkarlıq prefiksləri. Məsələn: a-, in-, dis-, non-, un. *(non-interference, intolerable, disrespect, to displease, unpleasant, abnormal və s).*

2) Əlavə olunduqları söz köklərindən ifadə etdikləri mənadan məhrumiyyət və ya əks mənalı sözlər düzəldən inkarlıq prefiksləri: Məsələn: de-, be-, un-.(*to decode, to deforest, to denitrify, to decarbonize, to besting, to uncoil, to unbutton).*

İngilis dili ilə müqayisədə Azərbaycan dilində prefikslərin rolu və əhəmiyyəti nədir? İngilis dilindən fərqli olaraq Azərbaycan dilində əsil Azərbaycan mənşəli heç bir prefiks mövcud deyil. Dilimizdə mövcud olan prefikslərin hamısı başqa dillərdən keçmiş sözlərlə birgə dilimizə daxil olan ön şəkilçilərdir.

Azərbaycan dili özünün müxtəlif tarixi inkişaf dövrlərində bəzi dillərlə əlaqədə olmuşdur. İlk növbədə Azərbaycan dili ərəb və fars dilləri ilə əlaqədə olmuş, ərəb və fars dillərindən Azərbaycan dilinə bir çox sözlər və onlarla birlikdə bəzi isim, sifət düzəldən ön şəkilçilər keçmişdir. Məsələn: na-, bi- (*naməhrəm, namərd, nadinc, binamus, biədəb, bisavad* və s).

Bu fikri rus dili və həmin dildən bu dil vasitəsilə keçən söz və şəkilçilər haqqında da demək olar. Məsələn, rus dilindən vasitəsilə Azərbaycan dilinə keçmiş -a ön şəkilçisini buna misal göstərmək olar. Məs: *anormal, asimmetrik, asinxron, asemantik, asintetik* və s.

Azərbaycan dilində mövcud olan -na inkar prefiksi sifətlərə əlavə olunaraq onlardan eyni adlı nitq hissəsi düzəldir. Məs: narazı, namərd.

Bi- inkar prefiksi isimlərə əlavə olunaraq əlavə olunduğu nitq hissəsindən sifət düzəldir. Məsələn: biəfa, bihal və s.

A- inkar prefiksi həm sifətlərə, həm də isimlərə əlavə olunaraq onlardan eyni adlı nitq hissəsi düzəldir. Məsələn: asinxron, asimmetriya və s.

İngilis dilindən fərqli olaraq Azərbaycan dilində əksər isim və sifətlərin inkar mənası inkar prefiksləri ilə deyil -sız, -siz, -suz, süz və -ma inkar sufiksləri vasitəsilə düzəlir. Məs: *ağılsız, düşüncəsiz, əhəmiyyətsiz, dadsız, qarışmama, hücum etməmə.*

Azərbaycan dilində fel düzəldən inkar prefiksləri olmadığı üçün fellərin inkar mənası inkar mənalı fellərlə ifadə olunur. Məs: *təşkil etmək-pozmaq, yığmaq-dağıtmaq.*

İngilis dilindən fərqli olara Azərbaycan dilinin söz yaradıcılığında inkarlıq prefiksləri elə də önəmli yer tutmur və ingilis dilində inkar suffiksləri ifadə edir. Bundan başqa ingilis dilindən fərqli olaraq Azərbaycan dilində mövcud olan inkarlıq prefikslərinin hamısı alınma prefikslər olub, başqa dillərdən alınma sözlərlə işlənir. Çox az hallarda bu inkarlıq prefikslərinə Azərbaycan mənşəli sözlərdə rast gəlmək olar.

İngilis dilində Azərbaycan dilindən fərqli olaraq inkarlıq prefikslərinin ifadə etdikləri məna çalarları daha genişdir, çünki ingilis dilində inkarlıq prefiksləri həm əks, həm inkar, həm də məhrumiyyət mənalarını ifadə edir. Azərbaycan dilində mövcud olan inkarlıq prefiksləri isə yalnız inkar mənalarını ifadə edirlər.

Ədəbiyyat

1) О.Д.Мешков. Словообразование современного английского языка. Москва, 1986, стр. 187.
2) N.Hüseynova. Azərbaycan dilində termin yaradıcılığı prosesi. Bakı, 2008, 139 səh.
3) A.Bayramova. Leksik alınmaların dilin zənginləşməsində rolu, Bakı-2009. 200 səh.
4) M. Baloğlanova Müasir ingilis dilinin söz yaradıcılığında prefikslər. Filologiya məsələləri (AMEA) 2010. N1 səh. 270-276.
5) V. Humbolt Bəşər dilləri quruluşunun müxtəlifliyi və bunun bəşəriyyətin mənəvi inkişafına təsiri haqqında. Bakı, Nurlan, 2008, 360 səh.
6) Z. Dadaşova Müasir ingilis dilində ön şəkilçiləri vasitəsilə düzələn sifətlər. Filologiya məsələləri (AMEA), Bakı, 2009, N8 s. 375-382
7) П.М. Каральщук Аффиксальное словообразование в английском языке. Высшая школа, Москва, 1999, стр. 173-176.

Р.Мамедова

Роль префиксов в английском языке

Резюме

В статье речь идет и словообразовательных префиксах, которые играют важную роль в обогащении лексического минимума.

Префиксы добавляются к началу слова и меняют только их лексическое значение.

В современном английском языке в зависимости от того, какую часть речи префиксы образуют их разделяют на следующие виды:

1) существительные образующие префиксы (ex-, arch-, ana-, dys-, per-, и т.д.)

2) глаголы образующие префиксы (de-, be-, en-, out-, un-, и т.д.)

3) прилагательные образующее префикс (cis-).

4) наречие образующее префикс (a-)

По значению префиксы выражают утверждение и отрицание.

В сравнение с Азербайджанским языком префиксы Английского языка обладают более широкими оттенками смысла.

R.Mammadova

The role of preeixes in english language

Summery

This article is about word forming prefixes, which play a very important role in the enriching the lexical minimum.

Prefixes are added to the beginning of the words and can only change their lexic meanings.

In modern English depending on what part of speech prefixes form they are classified into the following types:

1) noun forming prefixes (ex-, arch-, ana-, dys-, per-, and etc.)

2) verb forming prefixes (de-, be-, en-, out-, un-, etc.)

3) adjective forming prefix (cis-).

4) adverb forming prefix (a-).

According to their meanings prefixes express affirmation and negation.

In comparison with the Azerbaijanian language English prefixes have broader meaning shades.

Rəyçi: Fəridə Hüseynova
filologiya üzrə fəlsəfə doktoru, dosent

F.f.d. AFAQ MƏMMƏDOVA
BDU
afaq@mail.ru

SİLİK SÖZÜNÜN ETİMOLOGİYASI

Keywords: Turkic languages, "silik", Orkhon-Yenisei monuments, etymology, semantics.
Açar sözlər: türk dilləri, silik, Orxon-Yenisey abidələri, etimologiya, semantika.
Ключевые слова: тюркские языки, «силик», Орхоно-Енисейские памятники, этимология, семантика.

Uzun illər bir çoxları türk xalqlarını əlifbası, öz dili, mədəniyyəti olmayan, cahil, savaşmaqdan başqa bir iş bacarmayan xalq kimi qələmə verir və bu fikri dünyada yaymağa çalışırdılar.

XIX əsrə qədər qədim türklər haqqında məlumat qonşu ölkələrdən, əsasən də, çin qaynaqlarında alınırdı. Əslində, bir-biri ilə hər zaman müharibə şəraitində olan, tez-tez müharibə edən bir xalqın o biri xalq haqqında nə qədər doğru-dürüst məlumat verməsi də bir az şübhə altındadır.

1893-cü ildə Vilhelm Tomsenin Orxon-Yenisey çayı hövzəsində tapılan daşların üzərindəki yazıların türklərə aid olduğunu təsdiqləməsi dünyada böyük əks-səda yaratdı. Daş üzərindəki bu yazıların dili o qədər mükəmməl idi ki, bir dilin belə hala gəlib çıxması üçün əslində bir neçə əsr keçməli idi. Bunu türkləri "vəhşi, mədəniyyətsiz, varvar" adlandıran bəzi tarixçi və dilçilər başa düşsələr də, yenə də bu fakt ilə razılaşmaq istəmirdilər. Lakin fakt, fakt olaraq qalmaqdadır. Hətta onu da qeyd edək ki, qədim türklər VIII əsrdən run əlifbasından başqa soqd, manixey əlifbaları, passepa-pa yazısından da istifadə etmişlər (13).

Əlbəttə, qədim türklər kağız və taxta üzərində də yazmışlar. Məsələn, Çində arxeoloji qazıntılar nəticəsində tapılan run əlifbası ilə yazılmış kiçik kitabça, Turfanda tapılan kağız parçaları, günümüzə qədər gəlib çatmış ağac üzərində run yazısı ilə yazılmış yeganə nümunə isə Qırğızıstanın Açıqdaş rayonunda (Sankt-Peterburqda Ermitaj muzeyində saxlanılır) tapılan taxta çubuqdur (18; 13).

Taxta və kağız üzərində yazılan bu kimi türk elinə məxsus yazıların tarix içərisindəmi qeyb olduğu, yoxsa türk düşmənləri tərəfindənmi məhv edildiyi haqqında məlumata malik olmasaq da, tək bir şey söyləyə bilərik: əcdadlarımızın uzaqgörənliyi olmasaydı, yazılar daş üzərinə yazılmasaydı (daşın kağız və taxtaya nisbətən məhv edilməsi çətindir axı), biz indi qədim türk əlifbası, yazısı, dili və ruhu haqqında heç bir məlumata sahib deyildik.

Orxon-Yenisey abidələri dil tariximizin araşdırılması baxımından çox maraqlı faktlarla zəngindir. Əlbəttə, yazını daş üzərinə qazımaq çətin olduğu üçün abidələrdəki cümlələr daha sadə və qısa olmuş, sözlərdən minimum istifadə etməyə çalışmışlar. Buna rəğmən, abidələrin leksikası zəngin və rəngarəngdir. "Göytürk abidələrində xüsusi adlar istisna olmaqla 800-ə qədər söz işlənmişdir" (5;42).

Məqalədə Orxon-Yenisey abidələrində "təmiz" mənasında işlənmiş *silik* sözünün tarixən hansı dəyişikliklər qazandığı və müasir dövrümüzdə hansı türk

dillərində mühafizə olunduğu üzərində durularaq leksemin etimologiyasına nəzər salınmışdır.

Ilk dəfə "təmiz" mənasında *silik* sözünə VIII əsrə aid olan Kül tigin abidəsində rast gəlirik: ...tabğaç bodunka begilik urı oğlın kul boltı, *silik* kız oğlın kün boltı (KT, 7).

Bundan başqa, Xangiday ərazisindəki (Mərkəzi Monqolustan) dağların birində qəbrüstü yazılarda qədim run əlifbası ilə yazılmış *Silik* sözü xüsusi isim kimi qarşımıza çıxır: 1) .. qut bäriŋ 2) baz qan oqlı täŋri uçmis ezizi 3) bägir täŋrikänim 4) bitidi *silik* taçqan alıŋ 5) bägir älig-ä (4;5)

(1) Xeyr-dua ver Tanrı! 2) Baz xanın oğlu Tanrıya uçdu 3) Mənim ilahi Begirim 4) (Bunu) yazan Silik Taçqan. Qəbul edin! 5) Hökmdar Begir!). Yazıdan belə məlum olur ki, qəbrüstü yazını Silik Taçqan adlı şəxs yazmışdır.

Daha sonrakı dövrlərdə türk əsərlərində yenə *silik* sözü qarşımıza çıxır. Məsələn, XI əsrin böyük alimi və dilçisi Mahmud Kaşğarinin "Divanü Lüğat-it-türk" əsərində "təmiz, gözəl, şirindilli adam" mənalarında *silik ər* (سلک ار) işlədilmişdir (10; 390). Maraqlıdır, deməli, türklər üçün təmizlik nə qədər vacib olub ki, "təmiz" mənalı söz semantikasını genişləndirmiş və "gözəl, şirindilli" anlamlarını ifadə etməyə başlamışdır. Yəni türk üçün təmiz olan gözəldir, yaraşıqlıdır.

Beləliklə, artıq XI əsrdə *silik* sözünün çoxmənalı leksem kimi çıxış etdiyinin şahidi oluruq. "Sözün çoxmənalılığı dilin inkişafını göstərən əsas amillərdən biridir. Onda xalqın müşahidəçilik qabiliyyəti, ağlı və fantaziyası, əşya və hadisələrin müqayisə etmə, qarşılaşdırma bacarığı, onlar arasında ümumi, oxşar cəhətləri axtarıb tapması əks olunur" (6;36).

Mahmud Kaşğarlıdan sonra bu sözə "gözəl" mənasında "Qutadqu-bilig"də rast gəlirik: *silik sav* "gözəl danışma" və ya *silig bolsu qulqu* "qoy xarakteri gözəl olsun" (59). XII əsrdə yazılmış "Ətibətül həqayiq" abidəsində "şirin" mənasında *sılıq* (Ə.H. 356) sözü işlədilmişdir: ...uluqka kiçigke *sılıq* kıl sözünq.. (356). Bu abidədə *siliq* sözünün sətrinin altında *şirin* sözü yazılmışdır.

Daha sonralar "Müqəddimətül-ədəb" əsərində *silig* "incə, yumuşaq" - (ol katıqlanmak, iş aqrukı / kapsadı anı / uzluk kıldı işge, *silig* teprendi işde, ahestelik kıldı (32;176) və *siliglik* "mərdlik" - (bu kerem de söz tıntaşmış, bu *siliglik* ahdı yan kerem turur (32;110)) sözləri işlənmişdir.

İbn Mühənnanın lüğətində *silik* "təmiz, arı" (23;129), "Bədai əl-lüğət"də *siliq* "təmiz; hamar" (3;196), qədim uyğur yazılarında isə *silik* fonetik variantında *aruq* "arı, təmiz" sözü ilə bərabər işlənmişdir: *aruq-silik* "təmiz, pak; ədalətli" (18; 266). Ümumiyyətlə, orta əsrlərdə "təmiz" mənasını verən və *silig* / *silik* sözünə sinonim olan *arıq* lekseminin, bir çox hallarda, elə *silik* kəliməsi ilə paralel işləndiyinin şahidi oluruq. Məsələn, DTS-də *arıq silik* "təmiz; düzgün"; *arıq silik aş* "təmiz (halal) yemək" sözlərinə rast gəlirik. Onü da qeyd edək ki, türk abidələrində sinonim sözlərin paralel şəkildə işlənməsinə tez-tez rast gəlmək olar. Misal üşün, "Dədə Qorqud kitabı"nda "axır, son" mənalarını ifadə edən sonuc (son və uc) və ya "öz" mənasını ifadə edən kəndözin (kəndi / özü) sözlərini göstərə bilərik. Dilçilikdə bir fikir də var ki, belə sinonum sözlərin paralel olaraq arxa-arxaya işlənmələrinin səbəbi, leksemlərin eyni ərazidə yaşayan müxtəlf türk tayfalarına mənsub olmalarından irəli gəlir.

Verilən misallardan da göründüyü kimi, abidələrdə *silik* sözünün sonunda bəzən *-k,* bəzən *-q* və ya *-ğ* hərfləri işlənmişdir. Kəlimənin sonunda görülən bu

fərqlilik haqqında müxtəlif fikirlər var. Məsələn, "V.V.Radlov yazır ki, Orxon-Yenisey abidələrinin yaradıldığı dövrdə türk dillərində *-lık, -lik* (yəni isim düzəldən şəkiçi - M.A.) və xalis sifət düzəldən *-lığ, -lig* şəkiçilərinin mənası tam diferensiallaşmamışdı. Radlovun fikrinə görə, sonralar cənub-qərb qrupu türk dillərində *-lığ*, *-lik* şəkilçilərinin son samiti düşmüş (tirik "diri", ölüg "ölü", kapığ "qapı", sarığ "sarı" sözlərində olduğu kimi) və sifət düzəldən *-lı*, *-li* şəkilçiləri yaranmışdır. *-lık*, *-lik* şəkilçiləri isə mənasına görə əvvəlki şəkçilərdən ayrılmış, yalnız isim düzəldən şəkilçi kimi işlənmişdir. Lakin türkoloqlardan P.M.Melioranski və F.Y.Korş bu fikrin əleyhinə çıxmış və göstərmişlər ki, elə əvvəldən hər iki şəkilçinin mənalarında fərq olmuşdur; *-lık*, *-lik* şəkilçisi isim düzəltmiş, *-lığ*, *-liğ* şəkilçisi vasitəsilə isə sifət düzəldilmişdir (bax: 21).

R.R.Arat isə *q, g, k* səslərinin qədim dövrdə paralel işləndiyini yazır və misal üçün *silik* sözünü göstərir. Belə ki, Orxon-Yenisey abidələrindəki *silik* ilə bərabər, uyğur mətnlərində *silig*, Kodeks Kumanikusda *sili* və müasir türk dillərində *sılık*, *sılıq*, *sılığ*, *sıluu* və s. variantlarnın da mövcud olmaları, bunların paralel işlənməsini qəbul etməyə imkan yaradır (s.114).

A.Von Gabain "Alttürkische gammatik" kitabında *silig* sözünün tarixən "arı, təmiz, bakirə" mənalarını ifadə etdiyini yazır (15; 294)

Bu leksik vahidin müasir türk dillərinin hansında işlək olduğunu və hansı mənalar kəsb etdiyini öyrənmək üçün bir çox lüğətə müraciət etdik. İlk öncə qeyd edək ki, V.V.Radlov 1911-ci ildə nəşr etdirdiyi "Опыт словаря тюркских наречий" lüğətində *silik* sözünün bir çox türk dillərində artıq *sili/sulu/sılu* formasında işlək olduğunu yazmışdır. Ümumiyyətlə, türk dillərində söz sonunda

-q/-k səslərinin düşməsi faktı məlumdur (məsələn, acıq-acı, dirik-diri, uluk-ulu, ölüg-ölü və s.) (19; 125).

Beləliklə, Radlovun lüğətində altay, teleut, kazan dillərində *sılu* "gözəl, əndamlı", koman dilində sili "təmiz", qırğız, tobol dillərində sulu "gözəl, yaraşıqlı; yaxşı, gözəl oturmuş (paltar haqqında)" mənalarında verilmişdir. Bunlardan başqa, lüğətdə şor və saxa dillərində "çox gözəl, mükəmməl" mənalarında *sılıq*, uyğurca "təmiz" anlamında *silik* və osmanlıcada eyni fonetik variantda, yalnız fərqli mənada - "düz, cilalı; pozulmuş" olduğu göstərilmişdir (19; 654-775). Yakutlarda isə bu söz "səkkiz od şüalı" kainat, güclü və qüdrətli ayğırla - *ayqır silik* - ifadə edilirdi (33).

Müasir türk dillərinə baxdığımız zaman *silik* lekseminin müxtəlif türk dillərində fərqli fonetik formalarda və mənalarda işləndiyini görürük. Məsələn, qazax dilində *sülu* "gözəl" (11; 322); qaraqalpaqca *suluu* "gözəl, yaraşıqlı, sevimli" (9; 589); qırğız dilində *suluu* "gözəl" (12;663); tuvaca *silig* "1.təmiz, 2.yaraşıqlı, gözəl (26;376); uyğur dilində *silik* "1.düz, cilalı, 2.*məc*.nəzakətli, 3.usta, mahir" (29; 538); tatar dilində *sılu* "gözəl , sevimli; zərif// yaraşıqlı, gözəl (qız)" (24; 350); özbəkcə *silik* "1.gözəllik; 2.gözəl, maraqlı" (30; 189).

Hər bir dilin dialektləri ədəbi dilə nisbətən qədim sözləri qorumaq baxımından daha dayanıqlıdır. Məsələn, Türkiyə türkcəsinin ədəbi dilində "üzərindəki yazı silinmiş, pozulmuş, aşınmış olan" (27; 1308) mənasında işlənən *silik* sözü İzmir, Yeniköy - Balıkəsirdə *silək* formasında qədim mənalarını qoruya bilmişdir (silek delikanlı - yaxşı, təmiz dəliqanlı) (28; 363).

Leksemin etimologiyasına gəlincə isə K.Laypanov və İ.Mirziyev "О происхождении тюрских народов" başlıqlı məqalədə qədim yunanlıların *Silio*

adlandırdıqları çayı türk dillərindəki *silik* sözü ilə eyni kökdən yarandıqlarını yazaraq sözün kökünü *Si-lio* kimi göstəririlər (34).

Əbülfəz Rəcəbli də sözü "təmiz" anlamı verən *si* kökü *-lik* şəkilçisinə ayırır (20; 313). Türk və Şumer əlaqəsindən, onların oxşar cəhətlərindən yazan Oljas Süleymanov "u/i dəyişməsinin prototürkcədə də göründüyünü" yazır və misal olaraq *silik* leksemini göstərir: *silik* (təmiz), *suluk* (təmiz) yaranmışdır" yazır (35).

Təbii ki, qədim zamanlarda söz kökünün daha kiçik parçalardan, səslərdən ibarət olması dilçilikdə isbat edilmişdir. Türkologiyada belə bir fikir var: "qədim, ilk türk sözləri bir hecadan ibarət olmuş, iki və daha artıq hecadan təşkil olunan sözlər sonradan yaranmışlar" (22; 273).

Fikrimizcə *silik* leksemi də *si*+l+ik* şəklində formalaşmışdır. Belə ki, *-ık/-ik* qədim türkcədə işlək şəkilçilərdən sayılmaqdadır. Məsələn, *bil-* = bilik, *bar-* = barık (22; 141) və ya *tapmaq* feilindən *tapıq* "hörmət, xidmət", *ötmək* "rica etmək, ibadət etmək" sözündən *ötüg* "ibadət, rica", *sürmək* feilindən *sürüg* "sürü" və s. (15; 51) sözlər yaranmışdır.

Feildən həm isim, həm də sifət düzəltmə qabiliyyətinə malik olan bu morfem müasir dövrümüzdə müxtəlif türk dillərində də qalmaqdadır. Müasir türk ədəbi dilində atributiv və substantiv isimlər yaratmaqda istifadə olunan *-ık* şəkilçisinə əski türkçədə də təsadüf edilir. Ancaq mənşə etibarilə feli sifət şəkilçisi olduğundan bu şəkilçinin yaratdığı isimlərin də əksəriyyəti atributivlik xüsusiyyəti daşıyır, məs., *kırık*, *yarık*, *delik*, *yanık*, *çizik*, *çürük* kimi sözlər həm sifətə, həm də bu xüsusiyyəti daşıyan anlayışların adını bildirdiyi üçün ismə aid edilir: *tanık* "şahid", *tutuk* "məhkum", *sanık* "şübhəli şəxs", *yaratık* "məxluq", *içerik* "məzmun", *soluk* "nəfəs", *duruk* "statik" terminləri də məhz bu şəkilçilər vasitəsilə yaranmışdır (7;69).

Bundan başqa, digər türk dillərinə baxsaq özbəkcə *bağlamak* feilindən *baglık* "bağlı", *buzmak* "dağıtmak" sözündən *buzuk* "dağılmış"; qazaxca *jabmaq* "bağlamaq" feilindən *jabıq* "bağlı" (22;192) və bu kimi başqa sözlər düzəlmişdir. Türkmən dilində isə bu şəkilçi qoşulduğu felin mənası ilə bağlı anlayışları ifadə edən konkret və mücərrəd mənalı isimlər yaratmaqda olduqca işləkdir. Sadə və düzəltmə fellərə artırılan *-ık* şəkilçisi *qazıq*, *üzük*, *qırkılık*, *qatnaşık*, *serpik*, *çapışık*, *yaraşık*, *çaknaşık* və s. kimi sözlər yaranır (7;69). Əlbəttə, misalların sayını daha da artırmaq olar, çünki qədimdən gələn bu şəkilçi öz məhsuldarlığını müasir dövrümüzə qədər davam etdirməkdədir.

Silmək feilinə gəlincə isə, orta əsr yazılı abidələrdə "sürtmək; silib təmizləmək; təmizləmək" anlamlarında işlənmişdir. Hətta XIV əsrdə qələmə alınmış "Kitab ət-töhfə əz-zəkiyyə fi-l-luqat ət-türkiyyə" lüğətində "əsgi (silmək üçün)" mənasını ifadə edən *silkü*, *siləcək* və "toz çırpmaq üçün istifadə edilən alət" - *silikku* leksemlərinə də rast gəlirik (16; 176). (Maraqlıdır ki, bu lüğətdə "süpürgə" sözünün *sipirgi* fonetik variantına rast gəldik ki, burada da söz kökündəki *si** diqqətimizi çəkdi. Çünki yenə də təmizlik üçün istifadə edilən sözün kökündə *si** vardır).

Müasir Azərbaycan dilində *sil-* feilinin "yuyaraq, sürtərək və ya silərək təmizləmək" (2; 74) anlamını da qoruması, bu feilin əsrlərcə öz qədim mənasını günümüzə qədər çatdırmasının nəticəsidir.

Bütün bu qeyd olunanlara əsasən, *silik* lekseminin inkişaf xəttini aşağıdakı kimi göstərə bilərik:

Si + l+ik = Silik /siliq/ siliğ (suluk) > sili / sılu / sulu/ sülu/ suluu*

Sözün qazandığı yeni mənaları isə belə göstərmək olar: təmiz = yaraşıqlı = gözəl = şirindilli = sevimli = nəzakətli = usta, mahir = mükəmməl = düzgün = düz = cilalı = pürüssüz.

Beləliklə, ilk zamanlarda "təmiz" mənasını ifadə edən *silik* zaman keçdikcə müxtəlif türk dillərində fərqli anlamlarda işlədilməyə başlasa da, yeni mənalarının hamısı bir qaynağa, əsas mənaya dayanmaqdadır. Türkün düşüncəsi, yeni söz yaratma, leksemlərə yeni semantika qazandırma istedadı o qədər mükəmməldir ki, bir söz bu qədər geniş və maraqlı məna şaxələri göstərə bilər.

Ədəbiyyat

1. Abdullayeva Q. Qədim türk yazılı abidələri. Bakı, 2002.
2. Azərbaycan dilinin izahlı lüğəti. IV cild, "Elm", Bakı, 1987.
3. Боровков А.К. «Бада′и′ ал-лугат» словарь Тали′ Имани Гератского. Москва, 1961.
4. Баттулга Ц., Кормушин И.В. «О поминальной надписи на скале в Хангидае (Центральная Монголия) - Тюркологичский сбрник 2007-2008. Москва «Восточная литература», 2009.
5. Doğan Aksan. Türkçenin gücü. Ankara, Bilgi yayınları, 1993.
6. Həsənov H. Müasir Azərbaycan dilinin leksikası. "Maarif", Bakı, 1988.
7. Həsənli Ş. Oğuz qrupu türk dillərində morfoloji yolla fellərdən isim yaratma - Türkologiya- Beynəlxalq elmi jurnal, bakı, 2011.
8. Хакасско-русско словарь. «Главиздат», Москва, 1953.
9. Каракалпакско-русский словарь. Гос.изд.: Иностранных и национальных словарей. Ьосква, 1958.
10. Kaşğari M. Divanü lüğat-it-türk. Tərcümə edən və nəşrə hazırlayan: Ramiz Əskər. I cild, "Ozan", Bakı, 2006.
11. Казахско-русский словарь. «АН Каз.ССР». Алма-Ата, 1954.
12. Киргизко-русский словарь. «Советская Энциклопедия». Москва, 1965.
13. Qıpçaq M. Türk əlifbaları (soqd, manixey əlifbası və Passe-pa yazısı). "MBM", Bakı, 2012.
14. Qıpçaq M. Söz aləminə sayahət. Bakı, 2002.
15. Gabain Von A. Eski Türkçenin grameri. Çeviren: Mehmet Akalın. Ankara, 1988
16. Изысканный дар тюркскому языку (грамматичекий трактат XIV в. на арбском языке). Ташкент, «Фан», 1978.
17. Малов С.Э. Памятники древнетюркской письменности. «АН ССР», М.-Л., 1951.
18. Наджип Э.Н. Исследования по истории тюркских языков. «Наука», Москва, 1989.
19. Радлов В.В. Опыт словаря тюркских наречий. т.IV, ч.1, Санкт- Петербург, 1911.
20. Rəcəbli Ə. Qədim Türk yazısı abidələrinin dili. I cild, "Nurlan", Bakı, 2006.
21. Rəcəbli Ə. Göytürk dilinin morfologiyası. Bakı, 2002.
22. Serebrennikov B.A., Hacıyeva N.Z. Türk dillərinin müqayisəli tarixi qrammatikası. Tərcümə edən: Hacıyev T.İ., "Səda", Bakı, 2002.

23. Seyid Əhməd Cəmaləddin İbn Mühənna "Hilyətül-insan və həlbətül-lisan". Bakı, 2008.
24. Татарско- русский словарь. «Советская Энциклопедия», Москва, 1966.
25. Thomsen V. Orhon yazıtları araştırmaları. Çeviren ve yayıma hazırlayan: Vedat Köken. "AÜ basımevi". Ankara, 2002.
26. Тувинско-русский словарь. «Советская Энциклопедия», Москва, 1968.
27. Türkçe sözlük. Türk Dil Kurumu basım evi, II cild, Ankara, 1988.
28. Türkiyede halk ağzından derleme sözlüğü. X. Türk Tarih Kurumu basımevi, Ankara, 1978.
29. Уйгурско-русский словарь. «Советская Энциклопедия», Москва, 1968.
30. Узбекско-русский словарь. Гос.изд.: Иностранных и национальных словарей. Москва, 1959.
31. Vəliyeva G. Qədim türk dili. "Nurlan". Bakı, 2005.
32. Yüce Nuri. Mukaddimetü ʼl-Edeb. Giriş, dil özellikleri, metin, indeks. Ankara, 1993.
33. http://turkolog.narod.ru/info/yakut-7.htm-Традиционная культура аборигенов Якутии XVII-XVIII вв.
34. www.real-alania.narod.ru/alanialand/history K.Laypanov, İ.Miziyev O proisxojdenii tyurkskix narodov
35. www. geosities.com/plt_2000plt_us/azia Süleymanov Oljas, Sümername, II h.

Афаг Мамедова

Этимология слова «силик»

Резюме

В статье хронологически исследуется семантика слова «силик» (употреблявшегося в древнетюркском языке в значении «чистый») со значением этого слова в других письменных памятниках и современных тюркских языках. Было обнаружено интересное семантическое многообразие данной лексемы в период, предшествующий ее современному употреблению. Здесь также обобщаются мнения ученых относительно этимологии лексической единицы «силик».

Afag Mammadova

About of "silik" word ʼs etymology

Summary

In the article is chronologically researching of semantics of the "silik" word (which was using in the ancient Turkic languages with such meaning as clear), and also is analyse meanings of this word in other writing monuments and modern Turkic languages. It has been found interesting semantic forms of this lexem in the period prior to its modern use. There are also summarizes the opinions of scientists regarding the etymology of the lexical unit "silik".

Rəyçi: Professor Tofiq Hacıyev

ZAHİRƏ KAZIMOVA
Azərbaycan Dövlət Neft Akademiyası
Xarici dillər kafedrası

TYPES OF SPEECH. ARTISTIC STYLE OF SPEECH

Açar sözlər: nitq, dil, bəşəriyyət, mədəniyyət, dilçilik
Key words: speech, language, humanity, culture, linguistics
Ключевые слова: речь, язык, человечество, культура, лингвистика

Speech is the vocalized form of human language. It is based upon the syntactic combination of lexical and names that are drawn from very large (usually about 10,000 different words) . Each spoken word is created out of the phonetic combination of a limited set of vowel and consonant speech sound units. These vocabularies, the syntax which structures them, and their set of speech sound units differ, creating the existence of many thousands of different types of mutually unintelligible human languages. Most human speakers are able to communicate in two or more of them,[1] hence being polyglots. The vocal abilities that enable humans to produce speech also provide humans with the ability to sing.

A gestural form of human communication exists for the deaf in the form of sign language. Speech in some cultures has become the basis of a written language, often one that differs in its vocabulary, syntax and phonetics from its associated spoken one, a situation called diglossia. Speech in addition to its use in communication, it is suggested by some psychologists such as Vygotsky is internally used by mental processes to enhance and organize cognition in the form of an interior monologue.

People who give speeches typically do so with an identifiable style. The style of speech is normally dictated by the purpose of the speech itself. Some people choose a speech style because it is more comfortable and allows them to deliver a speech more effectively, while others are more comfortable adjusting speech style based on specific situations, including subject matter, purpose and audience.

The informative speech style is meant to instruct. It is very much like teaching those you are speaking to. This speech style is typically focused and to the point because the speaker aims to be clear and educate. Informative speeches can be dry, but the speech is presented to best highlight the subject matter. College professors and employers are likely to give informative speeches.

A persuasive speech is meant to garner support from the audience, or to persuade the audience about a particular subject. Politicians are known for persuasive speech making. Persuasive speeches can be relaxed in tone or intense, but a persuasive speech almost always carries some extreme emotion, which the speaker uses as a tool. The persuasive speech style can be called a motivational speech.

An entertaining speech is relaxed in nature. This speech type allows the speaker to veer off course and tell anecdotes that may be personal in nature, meant to tie together the speech being given. This type of speech may be given by a best man at a wedding, a speaker at a comedic roast or an award's ceremony.

News or announcement speech styles are characterized by the same direct manner as an informative speech style. This speech style leaves little room for personal input, unless it is in the context of a debate. The object of the news or announcement speech style is to inform an audience about an event, which is why this style resembles the informative speech style.

Communication research is helpful in investigating the relationship between subtle language phenomena and the perceived effectiveness of the communication event. In this complex relationship, the effect of subtle nonverbal and verbal factors is of special and, according to Myers, relatively new interest (1985). To further study these areas, the emphasis of this inquiry is on the effect of 'powerful' and 'powerless' speech styles on speech effectiveness. Specifically, this study seeks to determine if there is a relationship between the grades given student speakers by teaching assistants and the number of the power indicators present in their speeches.

A relaxed, extemporaneous style of speech and delivery will suit most formal and informal oral report situations. Effective speakers can deliver a presentation with great clarity yet with a relaxed and open manner. Extemporaneous speaking does not rely on a memorized text, nor is it a droning reading of a written manuscript. Instead, this style of speaking relies on visuals as cue cards. Let the main items on your overheads prompt you. If you have rehearsed your presentation, you will have a store of prepared but not stiff, memorized speech at your command. Extemporaneous speaking employs syntax close to that of conversational speech, without needless digressions or repetitions. Extemporaneous speaking allows you to react to any audience interaction on the spot without fear of deviating from a memorized script.

1. *Identify and try to avoid your verbal tics.* All speakers have verbal tics, those phrases or sounds (for example, "okay," "umm," "and") that they insert during pauses or between sentences. Verbal tics, if repeated often enough, will annoy an audience and distract them from the content or argument you are trying to develop.
2. *Speak clearly and loudly.* If you cannot be heard you cannot communicate your ideas.
3. *Modulate your voice to show emphasis.* Oral communication does not have access to the rich store of typographical styles available to the writer to show emphasis. You can, however, show emphasis by stressing various words or by repeating key terms both in your visual materials and in your speech. In addition, varying your rate of speech will alleviate boredom and keep your audience alert.
4. *Face the audience and establish eye contact with them.* If you do not face the audience (and sometimes nervous speakers don't), most likely you will seem distracted; if you are facing the screen, you will not be audible. As you face your audience, establish eye contact with them.

An Informative Speech is like teaching. The purpose of an informative speech is to try to teach something to the audience. The success of your speech depends on whether the audience learns what you wanted to teach them. You need to tell the audience why the information is useful and valuable. You need to make sure that the audience understands and remembers the essential information.

An layout Speech is like giving someone directions, or explaining the location of a place. It is not very common as a formal speech, but it is something you often

have to when explaining to people about a town or large building. A layout speech tells the audience where things are. It may also describe there size and shape. Gestures are very important in a layout speech. In fact, this is a good chance to practice your gestures. The success of your speech depends on whether the audience can find their way round the place you have described. Will they get lost?

A demonstration speech is like an informative speech because you have to teach the audience about something. However, in a demonstration speech you will not just tell the audience about something, you will also tell them how to do something. Your speech will be successful if at the end of your speech the audience can do what you showed them to do.

A persuasive speech contains information to help people make a decision. The purpose of a persuasive speech is to persuade people to change in some way. For example, it could be to change the way they think about something. Or it could be to change the way they do things. Finally, it could be to persuade the audience to do something that they do not do now. Your speech will be successful if at the end of your speech the audience is willing to make the change you suggested.

Speech Artistic is the linguistic form of expression of the figurative content of verbal artistic works. The artistic expressiveness of an image depends on the symbolic value of the means of speech used by a writer in a specific context. The means of speech may not differ materially from the lexical and grammatical means of popular language or from certain types of dialectal speech, popular speech and jargons, and business and scientific prose that are also possible in artistic speech. Since creativity is to some degree characteristic of any "living" language, the contrast between everyday and artistic speech is revealed only on the level of content application, the deep functioning of language in artistic works. Typically, the aesthetic (poetic) function of language, which is subordinated to the task of embodying the author's intention, is used continuously in artistic speech but is encountered only sporadically in other kinds of speech. Thus, artistic speech in minimum texts such as proverbs, sayings, and riddles is distinguished from the reproduction of these texts in ordinary communication, as well as from the figurative quality of certain aphorisms, catch phrases, bons mots, and plays on words. However, it is almost impossible to draw a sharp distinction between artistic speech and oratorical eloquence. In artistic speech, language functions not only as a means of reflecting extra linguistic reality but also as a subject to be depicted. For example, in drama the characters' language frequently acquires character logical functions, but even beyond its limits, artistic speech is typified by the active reproduction and transformation of and deliberate influence on the reality of the language. In this respect, artistic speech is manifested even in the methods of organization of available and newly created linguistic elements and in their selection, combination and use. The "increments in meaning" (V. V. Vinogradov) acquired by linguistic elements in the dynamic structure of an artistic text depend on their potential expressiveness in the system of language and on the intra textual relationships assumed by them in the composition and subject of the work. From this point of view, for example, an emphasis is placed on the relationship between rhyming words and, on a strictly semantic level, the relationship between proper nouns and their periphrases. As a work is composed, all the levels of language must be purposefully combined and subordinated to the writer's intention. Thus, only relative autonomy should be

attributed to such phenomena as syntactic inversions, juxtaposition of contrasting words in vocabulary, transformation of phraseological units, and the use of similes and allegories, metaphors and puns, aural decoration, and paronomasia, as well as the use of meter to enhance meaning. In artistic texts that do not use figures of speech, a stronger emphasis may be placed on the direct meanings of words and the relationship between them, on lexical and other types of repetition, and on the role of intonation, rhyme, and other methods used by the author in creating his characters and images. The examples can be found in the special "tone" of A. S. Pushkin's poem "I Loved You"; the "inner dialogues" (M. M. Bakhtin) of the heroes in F. M. Dostoevsky's novels; the special, multilevel significance of the choice of ordinary words and phrases in A. P. Chekhov's plays and prose; and the opposition of the writer's speech to that of "another" in A. A. Blok's works, by means of quotations, first-person narrative, stylization, or inner monologue.

The specific characteristics of artistic speech stem from its subordination to the tasks of spiritual and intellectual mastery of the world. Since the beginning of artistic knowledge, priority has been given to the most complex phenomena of life and society. Artistic knowledge cannot be effected without going beyond the limits of accepted language. In modern times neither the language of science nor a single, fixed literary language has satisfied the requirements of literature, which has needed a broader, freer, and more flexible system of linguistic means. From the original, collective art of mythology to the diversity of individualistic forms in modern literary works, artistic speech has developed through an interaction between tradition and innovation. Over the centuries, artistic speech has preserved many figures of speech and has only gradually freed itself of certain anonymous, idiomatic belletristic formulas. Folklore, with its "poetics of identity," has cultivated conventional epithets, introductions, and other similar devices, whereas the evolution of literature is associated with the increasing role of the individual and the innovative in the functions and structure of certain traditional means of artistic speech. This is particularly evident during transitional periods, when the establishment of a new artistic method is directly associated with extensive, strictly linguistic changes. For example, the development of realism in 19th-century Russian literature was integrally linked with the elimination of a number of compulsory prescriptions and restrictions after the traditional "poetic language" had been transcended. Before realism, the poetic language was a relatively strictly regulated system of means, the use of which was limited, depending on the genre and on the "high" or "low" quality of the subject.

Creative trends and tendencies are identified in terms of the similarities and differences between the individual norms of artistic speech. The totality of the individual norms of artistic speech reflects the entire spectrum of an artistic "world vision" characteristic of a particular society. Therefore some investigators regard the totality of norms for artistic speech as a feature of the concept of a period style. Although this concept is debatable, the historical and typological study of artistic speech is undoubtedly promising. This typological study, which is of interest to the scholarly history of literature as a study of literary forms, is one of the problems of linguistic poetics. Another problem is the elaboration of a theory of artistic speech—a project that faces objective difficulties, including the traditional

Kompüter lüğətlərinin kağız (kitab) lüğətlərdən üstünlükləri: hipermətn quruluşu və buna müvafiq hipermətn intinadlar belə lüğətlərin kağız lüğətlərdən üstün cəhətlərini və optimal istifadəolunma imkanlarını səciyyələndirən mühüm xüsusiyyətləridir:

-həcmin qeyri məhdudluğu

-həcmin çox olmasına baxmayaraq zəruri informasiyanın axtarış sürətinin çox böyük olması

-istinadlar vasitəsilə digər lüğətlərdən əlavə məlumatların əldə edilə bilməsi imkanı

-lüğətdəki məlumatların yeniliyi və müasir həyatla bağlılığı, yeni söz və ifadələrin dəqiq izahının olması

-lüğət məqalələri daim təzələndiyi və tamamlandığı üçün köhnəlməsi və uzunömürlüyü

-irihəcmli olmasına baxmayaraq, eyni zamanda yığcamlığı

Kompüter lüğətlərində kağız lüğətlərdə olmayan əlavə informasiyalar da yerləşdirilə bilər. Məsələn: sözün ifadə etdiyi əşya və ya məfhumun şəkli, sözün səslənmə variantları və s [3]

Hər hansı bir xarici dili öyrənərkən bütün öyrəncilərə bir dilli lüğətlərdən istifadə etmək çox vacibdir. Dillər Universitetlərində, dil öyrətim mərkəzlərində özündə vacib informasiyaları (məsələn: qrammatika, söz birləşmələri, yazı qaydalarının yoxlanışı, mətn tələffüzü, sözlərin və mətnin etimologiyası və s.) qoruyub saxlayan bir dilli lüğətlər tövsiyə olunur. Bu mərhələdə müəllimlər və tələbələr üçün lüğətlərdən istifadə etmək məqsədilə çoxlu materiallar mövcuddur. Bu materiallar sadədən mürəkkəbə doğru dəyişir. Lüğətlər dillərin çoxluğu əsasında təsnif olunur. Bir dilli lüğətlər dil daşıyıcıları üçün müxtəlifdir. Onlar sözlərin geniş seçimindən ibarət deyil, onlar leksik vahidlərin ümumi istifadə funksiyası üzərində mərkəzləşib. Bu hissə həmçinin lüğətlərin leksik funksiyasından bəhs edirki, hər ehtimala qarşı lüğətin istifadəsi kim və onun tələblərinin nədən ibarət olduğunu aydın izah etsin. [4]

LingvoSoft layihəsi çərçivəsində hazırlanmış rusca-azərbaycan və ingiliscə-azərbaycanca ikitərəfli lüğətləri də diqqətəlayiqdir. Digərlərindən fərqli olaraq bu lüğətlər ödənişlidir və qiymətləri funskionallığına görə 35-50$ arasında dəyişir. Lüğətlərin həmçinin mobil versiyaları da mövcuddur. Hər iki lüğətdə də ayrılıqda hər iki dildə 400.000 söz və ifadə mövcuddur. Hazırda bu proqramların da internetdə sındırılmış (cracked) versiyaları yayılıb. Bundan başqa rusca-azərbaycanca və ingiliscə-azərbaycanca lüğətin onlayn versiyası da istifadə edilə bilər. Onlayn lüğətlərdən isə Azərbaycanın proqram bazarına ilk girən ən böyük şirkətlərdən olan Microsoft (Mikrosoft) lüğət sahəsində də öz imzasın qoyub. Mikrosoft məhsullarının tərcüməsi zamanı istifadə edilmiş terminologiyalar və onların qarşılıqları Microsoft Language Portal(Mikrosoft Dil Portalı) saytında cəmləşdirilib.

Xatırladaq ki, bu terminologiyaların əksəriyyəti AzerDict söz bazasına da əlavə edilib. Azerice Sözlük saytında isə çox məhdud sayda da olsa sözlərin olduğu azərabaycanca-türkcə və türkcə-azərbaycanca lüğət fəaliyyət göstərir. 80.000-ə yaxın sözün cəmləşdiyi Azərbaycan dilinin orfoqrafiya lüğətinin onlayn versiyasını AzerDict Orfoqrafiya saytında istifadə edə proqram versiyasını isə bu saytdan endirə bilərsiniz. Təzəlikcə istifadəyə verilmiş Google Translate (Quqıl Tərcümə) azərbaycan dilinin beta versiyası isə müfəssəl şəkildə çalışmasa da böyük şirkətlərin azərbaycan dilinə olan artan marağını göstərir. İlk baxışda isə məlum olur ki tərcümənin azərbaycan versiyasın türkcə versiyası əsasında inkişaf etdirilib, çünki bəzi hallarda birbaşa türkcə daxil edilmiş cümlələr də azərbaycan dili seçili olduğu halda başqa dillərə tərcümə edilir. Ümid edirik Google-un bu xidməti də inkişaf etdirilib lazımi səviyyəyə çatdırılacaq. Lüğət proqramları arasında Babylon (Babilon) adlı proqram da vardı ki, bu proqramın həmçinin onlayn versiyası da mövcuddur. Lüğətin ən çox xoşuma gələn cəhəti isə saytda olan bəzi hallarda isə digər saytlarda tapa biləcəyiniz xüsusən Babylon üçün hazırlanmış dünyanın ən nüfuzlu ingiliscə ödənişli və ya pulsuz Oxford, Longman, Collins, MacMillan, American Heritage, Merriam-Webster fransızca Larousse, rusca Mueller eləcə də yüzlərlə digər dillərdə olan müxtəlif məzmunlu lüğətlərin proqrama əlavə edərək istifadə edilə bilinməsidir. Bu sayədə artıq bir lüğətdə tapa bilmədiyiniz sözü digər lüğətdə axtarmaq əziyyətindən qurtulmuş olacaqsınız. Pulsuz lüğətlər siyahısında poliqlot lüğətinin bazasından istifadə edilərək hazırlanmış rusca-azərbaycanca, ingiliscə-azərbaycanca və fransızca-azərbaycanca lüğətləri də Babylona əlavə edilərək istifadə edilə bilər. Xatırladım ki lüğət ödənişlidir amma lüğətin sındırılmış versiyalarını internetdə tapa bilərsiniz. Tərcümə proqramlarından isə Promt ən faydalı və çoxfunksiyalı maşın tərcüməsi proqramı hesab edilə bilər. Onlayn versiyasın da istifadə edə biləcəyiniz bu proqramın Professional 9.0 çoxdilli versiyası 400$ dəyərindədir. Bir çox proqramla inteqrasiya edə bilmə funksiyası olan bu proqram ingilis, rus, fransız, italyan, portuqal və alman dilləri arasındakı tərcümələri yerinə yetirir.

2009-cu ildə istehsalı dayandırılmış "Microsoft Encarta Encyclopaedia" ensiklopediyasının lüğəti 4 dildə (ingilis, fransız, alman və italyan) fəaliyyət göstərir. Bundan başqa lüğətdəki sinonimlər və ingiliscə səsləndirmə (həqiqi insan səsi ilə) kimi çox əlverişli və rahat xüsusiyyətlərə malikdir. Ensiklopediyanın fəaliyyətinin dayandırmasına baxmayaraq 2001 versiyalı Encarta lüğətinin internetdə tapa bilərsiniz. Sırf onlayn olaraq fəaliyyət göstərən lüğətlərdən Tureng, Dictionary.com, çoxdilli WordReference və Etymology lüğətləri çox faydalı və zəngindir. [5]

Ədəbiyyat

1. http://az.wikipedia.org/wiki/Divanu_Luğati-t-Türk
2. Рублева Ольга Сергеевна - Слово в электронном словаре (с позиций пользователя электронными ресурсами) стр 4-10
3. Məsud Mahmudov "Komputer dilçiliyi", Elm və Təhsil, Baki – 2013 səh 67-68
4. "Using Dictionaries in ELT" bachelor thesis, Supervisor: Author: Mgr. Renata Jančaříková, Ph.D. Bc. Matej Lukáč p 3-6
5. http://azerdict.com/blog/2010/12/lugetler-ve-tercume-vasiteleri/

Zhala Mammadova

Electronic Dictionaries as a new step in the developing lexicography

Summary

The role and the place of vocabularies in human life is not so special. But when the relationship was increasing in the second and third millennia inter-language and intercultural, also the great interest grow to Lexicography . Global Internet Network makes the last link to the lexicographical theory with all its technical capabilities, paying the needs of society also affected to the dictionaries. For further improvement of the dictionaries, appearance of electronic dictionaries has resulted in interest of the modern linguistics. In recent years, the number of electronic dictionaries grows in the online network. Keeping more information in these dictionaries have internal users ability even can give anonymous comments and feedback.

Жала Мамедова

Электронный словарь - как новый шаг в развитии электронных лексикографии

Резюме

Роль и место словаря в жизни людей очевидны и не требуют специального обоснования. Вполне естественным является обострение интереса к проблемам лексикографии в условиях активизации межъязыковых/межкультурных контактов на рубеже второго и третьего тысячелетий, что обусловило появление особых потребностей общества при всё расширяющихся технических возможностях для перехода лексикографической теории и практики на новый уровень; последнее связано как с автоматизацией работы по составлению словарей и с выходом в глобальную сеть, так и с постановкой новых задач пользования словарем, соответствующих требованиям сегодняшнего дня. На современном этапе лексикография переживает новый этап своего развития. Благодаря разработке компьютерных, коммуникационных и мультимедийных технологий оказалось возможным создание лексикографических источников нового поколения.

Rəyçi: Əzəmət Rüstəmov
filologiya elmləri namizədi, dosent

КЕНУЛЬ БАБАЕВА
Бакинский Славянский Университет
e-mail: researcher.konul.babayeva@gmail.com

СИМВОЛИЧЕСКОЕ ЗНАЧЕНИЕ ЦВЕТОБОЗНАЧЕНИЯ «СИНИЙ» В ЭПОСЕ «КИТАБИ ДЕДЕ КОРКУТ»

Açar sözlər: məna, rənq, istifadə, rəmz, epos
Key words: meaning, color, use, symbol, epic
Ключевые слова: значение, цвет, использование, символ, эпос

Развитие когнитивной лингвистики позволило исследователям изучать факты языка в их связи с национальными ценностями народа, его культурой, религией и мировоззренческими особенностями. В последнее время актуализируются исследования цветообозначений в свете лингвокультурологической парадигмы. Перспективность когнитологической интерпретации в исследованиях по лингвистике неоспорима, ибо при помощи этого метода можно достаточно объективно восстановить те смысловые трансформации, которые отражали соответствующую той или иной эпохе картину мира, Цвет тесно связан с философским и эстетическим осмыслением мира.

Особый интерес представляет собой использование цветообозначений в древнетюркских памятниках.

Сравнительное изучение специальной литературы показало, что древние тюркские племена и народы имели сложную систему цветовых обозначений.

В эпосе в ряде цветобозначений, со своим широким значением одним из наиболее употребительных цветов является «синий» цвет. Этот цвет во многих случаях в эпосе «Китаби Деде Коркут» выполняет идентичные функции такого цвета как «голубой», а иногда и «зеленый». Элементом различия между этими цветами является более темный оттенок «синего» и светлый оттенок «голубого».

Тем не менее нужно отметить, что «голубой» и «синий» (зеленый) цвета не всегда в эпосе могут быть синонимичны друг другу. К примеру, говоря о сырых и неспелых фруктах «синий» (зеленый) цвет употребляется в сочетании с некоторыми фруктами: **meyvə-göy alça, göy gavalı, göy ərik, göy alma, göy (yaşıl) meşə, göy (yaşıl) ot, göy (yaşıl) çəmən. [1]** Тем не менее сочетание этих же фруктов с «голубым» цветом не встречается и не употребляется у тюркских народов. Более того «синий» цвет не всегда может заменить «голубой». К примеру если слово «göy» употребляется в значении «небо», то в таком случае оно должно употребляться в сочетании со словом «mavi», и таким образом «mavi göy».

Однако употребление «синего» и «голубого» цветов может относится к одному и тому же элементу природы. Например: **göy dəniz//mavi dəniz, göy sular//mavi sular. [1]**

Далее говоря о «синем» цвете то в отличии от «голубого» «синий» цвет иногда может заменить «зеленый». И вновь возвращаясь к вышесказанному, такое сочетание «синего» цвета как: **“göy meşə”, “göy ot”, “göy çəmən”** на

самом деле имее означает **“yaşıl meşə”, “yaşıl ot”, “yaşıl çəmən”.** Точно такое же положение в эпосе «Китаби Деде Коркут» имеет «синий» цвет. Например: **“Yapağlı kökçə çəmən küzə qalmaz”.**

Важно отметить, что все функции и значения цветобозначений «синего» и «голубо» в эпосе «Китаби Деде Коркут» раскрыть невозможно. И потому главная наша цель и задача в данной статье изучить и исследовать символическое значение цветобозначения «синий».

У многих народов «синий» (голубой) цвет является символом бессмертия вечности и преданности. У тюркских народов, а также у азербайджанских тюрков «синий» (голубой) нзначение «неба». И таким образом в эпосе мы дважды сталкиваемся с таким примером во главе о «Кан Турали»: **“Göylərə pəhlu uran onun qalaları olur”, “Göylərə pəhlu uran qələlərin qadir qorsa, yakam, çixam”. [1]** В данном случае выражение **“Göylərə pəhlu uran”** имеет следующее значение: **”göylərə baş çəkən//ucalan//göylərə yanaşı duran”.** Приведем еще один аналогичный пример: **“Qazlıq Qoca oğlu Yeynək boyu”ndakı göturdüyün göyə yetirən görklü tanrı”. [1]** Здесь цвет **”göy”** употребляется в значении неба.

В эпосе «Китаби Деде Коркут» цветобозначение «синий» также употребляется и в переносных значениях. Это ярко выражено на примерах с Карагюне и его бедуинским конем «синего» цвета которого огузские тюрки называли **“bədəvi at”.** Важно упомянуть, что этот конь пренадлежал только, брату Казанхана Карагюне, кроме которого во время походов никто верхом не садился. Например: **“Bədəvi atlar issini görüb oqradıqda”, “Hey Dirsə xan, oğlana...boynu uzun bədəvi at vergil”, “Boynu uzun bədəvi atlar gedərsə mənim gedər”, “Bədəvi atı saqlardım bu gün üçün”, “Bədəvi atın oynadıb gələn yigit, nə yigitsən?” [1]**

И так ранее говоря о бедуинском коне «голубого» цвета принадлежащем Карагюне, важно еще упомянуть, что по сказаниям древних тюрков, существовали «синие» лошади из рода «водных» лошадей» так как, «синий» или «голубой» цвет связан с цветом неба и является его символом, поетому «синие» лошади считались снизашедшими с небес и имели отношение к божеству. Приведем следующие примеры:

Göy atım göy üzündə,
Ceyran otlar düzündə,
Mən yarımı tanıram,
Qoşa xal var üzündə. [1]

Göydən gələn göy atlı,
Qolları quş qanatlı,
Yarıma xəbər apar,
Mən piyada, o atlı. [1]

В эпосе «Китаби Деде Коркут» цветобозначение «синий», помимо вышеуказанных значений, употребляется также в таких значениях как печаль, гибель, беду, траур и.т.д. В эпосе, персонажи во времяя траурной церемонии

могли надеть, а также обличить свой дом наряду с черным и голубым цветом. Это можно наблюдать на примере персонажа эпоса Бамси Бейрека. Бейрек который 16 лет был в плену у гяуров, убежав из плена переоделся и замаскировался в чужака. Таким образом, он хочет узнать кто тот человек который женится на Банучичек. Проникнув в свой дом, он встречает сестру свою в печали и слезах. Бамси Бейрек хочет узнать почему проливает слезы его сестра и спрашивает ее:

Qaralı, göylü otağı
Sorar olsam, kölgə kimin? [1]

На что сестра ему с грустью отвечает:

Qaralı, göylü otağı sorar olsan
Ağlam Beyrayindir. [1]

Бамси Бейрек придя и встретив своих других сестер видит и их в находящимися в состоянии печали. И в последней главе где смерть Бамси Бейрека подрузомевается убийсвом со стороны Уруза, его оплакивают сорок или пятьдесят джигитов. И в последней главе эпоса, где Уруз поппавший в сеть смерти, просит отца на последок о своих последних желаниях:

Anam mənim üçün göy geyib qara sarınsın.
Qalın Oğuz elində yasım tutsun. [1]

И так мы обсудили связность черного и белого цвета с церемонией траура, скорбью и печалью. Что касается отношения синего цвета к этой плеяде, то важно отметить, что в отличии от черного и белого цветов, синий цвет встречается как символ траура, скорби и печали только в определенных моментах церемонии, где близкие родственники усопшего, надевают одежду синего цвета, для того чтобы выделяться в обществе других посетителей. И таким образом, вспомним эпизод из эпоса, где во время свадебной церемонии Бамси Бейрек возвращается к себе домой и видит вместо себя самозванца, который занял его место в семье и обществе. Все в этот день праздновали свадебную церемонию, названного Бамси бейрека, однако только его сестры зная правду, надели синие платья, скорбили по нему. Далее, можно привести еще один пример, где Уруз предчувствуя приближения своей смерти, отдает распоряжение,сообщить его матери. Чтобы она надела синюю одежду.

Так в тюркском (азербайджанском) языке слова связанные с цветообозначением «синий» такие как: **“göynəmək”, “göynətmək”, “göynərti”** в тюркском языке имеют такие понятия как: «боль», «ноющая боль», «беспокойство», «обида», «душевная боль», «тревога». И таким образом в эпосе «Китаби Деде Коркут» слова обозначающие синий цвет: “göynədi”, “göynər”, “göynə” употребляются в значении беспокойства, тревоги и душевной боли. Так из эпизода эпоса, когда Бамси Бейрек узнает о смерти брата свое-

го начинает горько плакать, и еще больше страдает, когда видит сильный и горький плачь своей сестры. Приведем следующий пример:

Mənə qız, nə ağlarsan, nə bozlarsan ağa deyü,
Yandı bağrım, göynədi içim, - deyir.

Приведем еще один пример с эпизодом когда одна из персонажей эпоса Бурла хатун, собирается устроить пир в честь первой охоты своего сына Уруза. Однако вернувшись домой ее супруг Казан хан, извещает жену о том, что вернулся домой один без сына. Тут Бурла хатун узнав об этом, начинает лить горькие слезы. С глазами полными кровавыми слезами Бурла хатун, говорит мужу:

Yalnız oğul xəbərin, Qazan, degil mana,
Deməz olsan yana göynə qarğaram, Qazan sana.

Далее говоря о цветобозначении «синий» важно отметить, что в начале данной научной статьи мы говорили о том что в некоторых случаях цветобозначение «зеленый» заменяет синий цвет. Однако цветобозначение «зеленый» несмотря на то, что является довольно таки традиционным в тюркском и исламском мире, то в самом эпосе «Китаби Деде Коркут» его можно встретить очень редко.

Система цветообозначений в эпосе «Китаби Деде Коркут» представляет собой культурно маркированную ценность тюркских народов и частью культурного наследия. Механизм передачи этой ценности последующим поколениям формируется в недрах этнической общности и передается, распространяется в письменных памятниках.

На основе тщательного исследования эпоса «Китаби Деде Коркут» турецкий ученый Мухаррем Эргин делает однозначный вывод: «Эпос «Китаби Деде Коркут» — это всецело творение Азербайджана, поскольку каждая его строка сталкивает нас с азербайджанским тюркским языком. И не только языком — с жизнью, бытом, ритуалами и обычаями, наконец, с географией раннесредневекового Азербайджана». Так, живший в XIV веке Абу Бекр, перечислив страны, которые завоевал герой эпоса Баяндур-хан, добавляет: «…а сам он направился на зимовку в Карабаг и на летовку в Гекче-Дениз». Упоминаются в эпосе и Барда, и Гянджа, и находящаяся на территории Нахчивана крепость Алынжа, и другие места Азербайджана. **[7].**

Огузско-тюркское начало можно смело считать доминантой этногенеза азербайджанцев (и соответственно его ментальности), но в седой пра-пра-истории его были и другие составляющие, прошедшие длительную эволюцию, как и сама письменность: от пиктограмм Гобустана, древней клинописи Манны, тюркских рун и арабского письма до современной латиницы (древнейших текстов до нас, увы, дошло крайне мало: борясь с язычеством, ислам уничтожил практически всю рунику!). **[7]**

Научная новизна: научная новизна данной статьи заключается в том, что здесь рассматривается основа имеющихся широких исследований о проблеме цветобозначений в эпосе «Китаби Деде Коркут», видных и известных ученых и исследователей таких как: Бяхлул Абдулла, Абдулла Кямал, Хюлья Тафлы и.т.д. Научная новизна данной статьи состоит в том, что цветобозначение «синий» в зависимости от его различных оттенков, а также контекста в котором он употребляется может также иметь и различные значения.
Практическое значение: данная научная статья, может употребляться при использовании в библиотеках ВУЗов, с профилирующими гумманитарными специальностями, такими как: языкознание, литература, фольклероведение и.т.д.

Список использованной литературы:

1. Bəhlul Abdulla. «Kitabi-Dədə Qorqud»da rəng simvolikası (boz rəng)//Bakı, 2004, s.74-82
2. Абдулла Кямал. Тайный «Деде Коркуд», Баку, 2006.
3. Баскаков Н.А. Тюркская лексика в «Слове о полку Игореве». М., 1985.
4. Веселовский А.Н. Историческая поэтика. Москва, 1989
5. Кононов А.Н. Семантика цветообозначений в тюркских языках//Тюркологический сборник 1975, М., 1979, с. 159-179
6. В. В. Бартольд «Деде Коркут» перевод на русский язык. Баку, 1950.
7. http://magazines.russ.ru/druzhba/2010/6/ag13.html

Konul Babayeva

Symbolical meaning of color value “blue” in epic “Kitabi Dada Gorgut

Summary

Exploring and analyzing the text of the epic, each step may be encountered with color values, dark-blue (blue and yellow) color, which having their own symbols in conjunction with any of objects, or elements of the description of the heroes of the epic, in either a direct or a figurative meaning.

Here, color is not only a symbol and a description of some elements, but most of all, this color scheme bears a historical and cultural character. The text can often be seen as a physical description of people with the most used colors such as dark-blue, blue or green which is a clear indication that these colors are symbols of the ethnic, traditional, religious and historical characters.

Könül Babayeva

"Dədə Qorqut" dastanında "mavi" rəng bildirən sözün simvolik mənası"

Xülasə

Eposun mətnini təhlil və tədbiq edərək, hər addım başı, hər hansı bir rəng dəyəri ilə qarşılaşmak mümkündür. Burada birbaşa və ya məcazi, obyektlərin hər hansı və ya epik qəhrəmanların təsvir elementlərinin rəmzlərini tapmaq olar.

Burada hər bir rəng simvolu və bəzi elementlərin təsviri deyil, ancaq qeyd etmək lazımdır ki, burada ən çox rəng sxemi bir tarixi və mədəni xarakter daşıyır. Bu mətn daha çox rənglərin etnik, dini və tarixi simvolların rəmzləri kimi baxıla bilər, və burada açıq-aydın bir əlamət olan göy (mavi) və yaşıl ən çox istifadə olunan rənglər türk insanların etnik, ənənəvi, dini və emosional durumu kimi göstərilir.

Rəyçi: Professor Eldar Piriyev

EMİNLİ BÖYÜKXANIM
Sumqayıt Dövlət Universiteti
eminli@mail.ru

MÜRACİƏT VƏ SÖYLƏM

Açar sözlər: xitab, müraciət, söyləm, vokativ sözlər, nitq mədəniyyəti.
Ключевые слова: обращение, высказывание, культура речи, речевая среда
Key words: apply, saying, speech culture, speech atmosphere.

Müraciət bu və ya başqa halda nitq mühiti ilə əlaqədardır. Müraciətin nitq mühiti (konteksti) mətni təşkil edən bir və ya bir neçə cümlədən ibarət ola bilər ki, onların hər biri ilə müraciət bu və ya başqa əlaqəyə girə bilər. Bu əlaqənin qrammatik əlaqə olmasının nə dərəcədə qanunauyğun olduğu barədə mübahisə etmək olar, amma onun mövcudluğuna şübhə ola bilməz. A.Q.Rudnev bu əlaqəni nisbi adlandırmışdır [6, 22].

Müraciət (xitab) və cümlənin nisbi əlaqəsinin mahiyyətinin açıqlanması ilk növbədə ona gətirib çıxarır ki, bu vahidlər arasında hal, şəxs, kəmiyyət əlamətlərinə görə mümkün olan bütün qarşılıqlı əlaqə növləri maksimum dolğunluğu ilə nəzərə alınsın. Çox zaman elə müraciət və söyləmin formal-qrammatik nisbəti tədqiq olunurdu ki, şəxs eyni zamanda həm nitqi söyləyən, həm də nitqin ünvanlandığı predmet olurdu.

Məsələn, *Ay oğlan, bu bileti sən itirmisən?* tipli cümlələrdə müraciətlə söyləm arasındakı qarşılıqlı münasibəti təhlil edərkən mövcud momentlər kimi qeyd edirlər ki, cümləyə daxil olan sözlərin kateqorial-morfoloji əlamətləri (sən – əvəzliyinin, şəxs və kəmiyyəti və itirmisən – felinin şəxsi kəmiyyəti) oğlan sözü – müraciətinin müvafiq kateqoriyalarını təkrar edir.

Göstərilən faktlar olduqca təsviridir, amma bu faktların qeydiyyatı kifayət deyil. Bir tərəfdən, göstərilən kateqoriyalar üzrə müraciət və söyləmin qarşılıqlı asılılığının nisbəti həmişə mövcud olmur, ikinci tərəfdən, onun mövcudluğu ilə onların nitqdə bir-biri ilə qarşılıqlı əlaqəsinin bütün imkanları nəzərdən keçirilmir. Nitq prosesində müraciət (xitab) və söyləmin birləşmə mexanizmini yalnız o halda açmaq olar ki, təhlil zamanı formanı deyil, semantikanı (məna tərəfini) əsas götürək, belə ki, məhz semantika burada açar rolunu oynayır. Başqa sözlə, yeni əsaslı funksional, semantik yanaşma lazımdır ki, o, dildə statusundan, formal ifadə vasitələrindən asılı olmayaraq müraciət və söyləmin daxili məzmununun bütün elementlərinin sintaqmatik rolunun nəzərə alınmasını təmin etsin. Belə yanaşmanın imkanları haqqında məlum təsəvvürləri müraciətdə adresatın ümumi adı ilə sual söyləmləri arasında qarşılıqlı əlaqənin təhlili yarada bilər.

Müraciət vəzifəsində işlənən xüsusi isimlərin semantikası olduqca müxtəlifdir. Şəxsin mənası onlarda müxtəlif dərəcələrdə və istiqamətləri konkretləşir. Bununla belə, konkretləşdirmə elementləri az və ya çox dərəcədə məhduddur.

Ümumi şəxs adlarının (qohumluq terminlərindən başqa) müraciət kimi işlənməsinin fərqli əlaməti ondan ibarətdir ki, tək halda onlar tam şəkildə və ya əsas etibarilə tanış olmayan şəxslərə müraciət üçün təyin olunmuşdur. Məsələn: *Yoldaş, (oğlan, qız və s.), dram teatrının bilet kassası harada yerləşir?*

Cəm şəklində işlənən formalar bu nisbətdə neytraldır, yəni həm tanış olan, həm də tanış olmayan adamlara müraciətdə tətbiq edilə bilər. Məsələn: *Yoldaşlar, (oğlanlar, qızlar və s.) dram teatrının bilet kassası harada yerləşir?*

Əgər ümumi məfhumlu nitq ünvanı tək halda işlənirsə, söyləmlərin onlarla münasibəti (əlaqəsi) bundan ibarətdir ki, bu söyləmlər xüsusi situasiyalara arxalanır, yəni danışan nitq situasiyasından çıxış edir. Məsələn: *Cavan oğlan, burada H.Əliyev adına sarayını necə tapmaq olar? Ay qız, çiçəkləri (jetonu) haradan almısınız?* və s.

Əgər ümumi isimlər çox şəxsi bildirərsə, söyləmlərin belə müraciətlərlə mümkün qarşılıqlı əlaqəsi (münasibəti) ondan ibarətdir ki, onlar bəzən xüsusi situasiyaqabağı bazaya arxalanırlar. Danışan sual verərkən bəzən ünsiyyət altında verilən çərçivədən kənara çıxa bilər. Məsələn: *Uşaqlar, sabah döşəməni yumaq kimin növbəsidir? Qızlar, sizdən Şamaxıya gedən olacaqmı?*

Ünsiyyət prosesində olduqca aktual olan sualın məzmunu ilə adresatın və həmsöhbətin yaşı arasındakı əlaqədir. Danışıq nitqi təcrübəsi göstərdiyi kimi, adresatın və danışanın bu və ya digər yaş qrupuna (uşaqlar və yeniyetmələr, gənc qızlar və oğlanlar, orta yaşlı insanlar, yaşlı nəsil) mənsubluğu söyləmin məzmunu ilə kifayət qədər müəyyən nisbətdədir. Məsələn: tələbələrin nitqindən: *Ay millət, sonuncu mühazirəniz hansı fəndəndir? Qızlar, olar sizə qoşulaq? Hə, uşaqlar, «üç» kiməsə lazımdır? A kişilər, bu gün kim növbətçidir?* və s.

Müraciət pozisiyasında adları çəkilən şəxslərin gənclik yaşı xüsusilə zarafatcıl – istehzalı (rişxəndli) və ya bəzən qeyri-etik xarakterli söyləmlərdə aydın əksini tapır. Söhbətdə iştirak edən şəxslər yaşca daha çox fərqləndikdə yaş nisbəti daha çox özünü qabarıq göstərir. Əgər danışan yaşca nitq ünvanından çox kiçikdirsə, belə kommunikativ situasiya müvafiq söyləmlərin məzmununda da iz qoyacaq. Onların söyləmlərində nəzakətlilik elementləri daha çox nəzərə çarpır. Məsələn: *Xala, deməzsiniz saat neçədir? Əmi, bağışlayın, bilmirsiniz dayanacağa hələ çox qalıb?* Bu cümlələrdə ikinci şəxsə aid cəm şəkilçilərinin işlədilməsi nəzakətlilik məqsədi daşıyır. Əksinə olduqda, yəni danışan adresatdan yaşca böyük olduqda, daha dəqiq desək, dinləyən kiçik (uşaq) olduqda söyləmlər əzizləmə, nəsihət, məsləhət xarakterli olur. Məsələn: *Ay mənim körpəciyəzim, niyə ağlayırsan? Ay uşaqcığaz, niyə belə donmusan?*

Eyni müraciəti yaşlı nəsil nümayəndələri gənclərə də ünvanlaya bilərlər. Məsələn: *Cavanlar, bu nədir, suyunuz gəlmir?*

Çox zaman isə yaşca böyüklərin gənclərə müraciətindəki replikalar işgüzar (rəsmi) xarakter daşıyır və hər hansı bir praktik məqsədlərin əldə olunması üçün nəzərə alınır. Bu halda daha geniş şəkildə işlənən qohumluq terminləri olur: birinci tərəfdən – oğlum, qızım, ikinci tərəfdən nənə, baba, anacan, atacan sözləri öz qohumluq münasibəti, eləcə də əzizləmə mənası ilə seçilir.

Məsələn: *Oğlum, çörək aldınmı? Qızım, dərsin nə vaxt başlanır? Nənəcan, bizə gələcəksənmi? Atacan, mənə nə alacaqsan?* və s.

Müraciət yerində işlənən bir sıra ümumi isimlər adresatın peşəsi, məşğuliyyəti, rütbəsi və ya sosial roluna işarə məzmununu da ifadə edir. Bu halda söyləmlər adresatın vəzifəsinin, yerinə yetirdiyi sosial rolunun izahına (şərhinə) istiqamətlənir. Məsələn: *Ay sürücü, maşını burada saxlamaq olmaz. Sədr, bizə qarşı qulluğunuz?* və s.

Belə müraciət söylənən və ifadə olunan fikrin çıxış etdiyi çərçivədə məna sferasını (sahəsini, mühitini) dəqiq müəyyən edir. Qeyd edək ki, müraciətin və söyləmin semantik nisbəti, xarakteri mahiyyətcə o zaman yerinə düşür ki, bu və ya digər peşə əlaməti adresata zarafat xatirinə, bəzən də gülmək üçün deyilsin. Məsələn: *Hə, donor, qanını verdinmi?* (müraciət olunan xəstəlik müddətində dəfələrlə qan analizi vermək məcburiyyətində qalan bir insandır). *Həkim, nə ilə müalicə edəcəksən?* (adresat balaca qızcığazdır). *Hə, fotoqraflar, bir şey yarada bilmisiniz?* (adresatlar yenicə fotoqraflığa başlamış uşaq-yeniyetmələrdir). Şəxsin siması insanların mənsub olduğu cəmiyyətdə hamı tərəfindən qəbul olunmuş sosial statusuna xüsusi hörmət işarəsi vasitəsilə də müəyyən edilə bilər. Bu halda əsas diqqət müəyyən hüquq və vəzifələrin daşıyıcısı kimi onda cəmləşəcək. Nitqdə müraciət olunanın belə təsnifatında yoldaşlar (yoldaş), vətəndaşlar (vətəndaş) müraciətləri əsas yer tutur. Verilən müraciətlər, xüsusilə sual cümlələri kontekstində tətbiq edilir ki, bu da məzmunca ya müəyyən sosial reqlamentasiyaların edilməsini, ya da ictimai şüurun və insanların ali mənəvi hisslərinin az və ya çox dərəcədə aydın apelyasiyasını özündə əks etdirir. Məsələn: *1) Yoldaş, siz yol haqqını ödəməmişsiniz. 2) Vətəndaş, biletiniz? 3) Bu nə işdir, yoldaşlar? Vətəndaş, siz nə danışırsınız?*

Çox zaman müraciət rolunda elə isimlər işlənir ki, adresatı müəyyən daxili (müsbət və ya mənfi) xüsusiyyətləri nöqteyi-nəzərindən xarakterizə edir və bu da onun müsbət, yaxud mənfi qiymətləndirilməsinə xidmət göstərir (əzizim, dostum, dovşanım, ceyranım, şeytan, dəliciyim və s.).

Müraciət olunanın mənfi vokativ xarakteristikası sual cümlələri ilə adətən məna təzadı prinsipinə görə uzlaşır. Burada müraciətin rolu dinləyiciyə söyləmin məzmunundakı hər hansı neqativ aspektin təsirini neytrallaşdırmaq, zəiflətməkdir. Bu, o hallarda baş verir ki, danışan dinləyiciyə nəzakətsiz, zəhlə tökən, hətta xoşagəlməz görünməkdən ehtiyat edir. Məsələn: *Əzizim, axı nə qədər gözləmək olar?* (ər həyat yoldaşına səhəp naharını gözləyə-gözləyə sual edir); *A bala, mənim qatarım nə vaxt gələcək?* (yaşlı qadın vağzalda növbətçiyə müraciət edir).

Əlbəttə, başqa pozitiv – qiymətləndirmə müraciətlərinin də uyuşması mümkündür ki, bu zaman müraciət ünsiyyətdə olanlar üçün həyatın xoş olan tərəflərinə məzmunlanan söyləmlərlə müşayiət olunur. Məsələn: *Yoruldun, hə, mənim şirin-şəkərim?*

Əksinə, adresatın mənfi xarakterizələri üçün mənanın uyğunluq prinsipi üzrə tətbiqi əsas hesab olunur. Neqativ qiymətləndirmə müraciətləri adresata mənfi emosional təsirini artırır, danışanın neqativ qiymətləndirilən söyləmin məzmunundakı aspekti mənimsəməsini gücləndirir. Məsələn: *Bu nədir, yeriyə bilmirsiniz? Ey dovşanlar! Ay sizi dovşanlar, niyə burnunuzu sallamısınız? Ay axmaq, nə gözləyirsən? Dəlinin biri dəli, bilmirdin ki, axırı belə olacaq?*

Burada müraciət və söyləm qarşılıqlı şəkildə bir-birini tamamlayır və motivləşir. Verilmiş müraciətlərin və onlarla uyuşan söyləmlərin son məqsədi müraciət olunanı öz hərəkət və davranışını dəyişməyə məcbur etməkdir.

Müraciətin söyləmlə qiymətləndirilmə münasibəti bir az zəifləyir və birbaşa deyil, bilavasitə olur ki, burada müraciət olunanın neqativ qiymətləndirilməsi söyləmin məzmununda aydın təsdiqini tapmır, amma onda hər hansı bir inam mövcuddur ki, cavab replikalarında və ya cavab hərəkətlərində müvafiq qiymətləndirməyə

bəraət tapmaq asandır. Məsələn: *Ay ağılsız nə olub? Haradan gəlirsən, ay uşaq?*

Bu halda müraciətlə söyləm arasındakı semantik ardıcıllıqda açar rolunu onların məzmunundakı başqa daha konkret elementlər oynayır, bu zaman müraciətlə söyləm arasında əlaqə zəifləmir, əksinə, güclənir. Məsələn: *Acgözlər, kompot haradadır? Budur? – Əlbəttə.*

Gətirilən nümunələrdə müraciət və söyləmlərin semantik nisbətinin əsasını mənfi əlamətlər daşıyan şəxslərin neqativ qiymətləndirilməsi deyil, dinləyəni maraqlandıran adresatın nəyinsə sahibi və ya təyinatçısı kimi verilməsi təşkil edir.

Müraciətin nəzərdən keçirilən semantikası morfoloji deyil, leksik stuatusa malikdir. Amma bu, onların geniş mənasına heç bir mənfi təsir göstərmir. Müşahidələrin göstərdiyi kimi, onlar müraciət və söyləm arasında qarşılıqlı münasibətin formalaşmasında az qala birinci dərəcəli olur, belə ki, bu vahidlərin bir-biri ilə birləşmə imkanlarını müəyyən etməklə yanaşı, onlar arasında qarşılıqlı təsirin məna dərinliyini müəyyən edir. A.M.Peşkovski yazırdı: «Müraciət maddi olaraq qalan nitqlə sıx şəkildə əlaqədar ola bilər.» [4, 370].

Ədəbiyyat

1. Abdullayev A. Nitq mədəniyyəti və natiqlik məharəti haqqında. Bakı: Azərnəşr, 1968, 250 s.
2. Əliyev K. Natiqlik sənəti. B., ADU, 1992, 135 s.
3. Kazımov Q. Müasir Azərbaycan dili. Sintaksis. B. Ünsiyyət, 2000, 496 s.
4. Пешковский А.М. Русский синтаксис в научном освещении. М., 1938, 370с.
5. Полищук Г.Г., Сироткина О.Б. О культуре речи лектора. Саратов, 1962, 124 с.
6. Руднев А.Г. Синтаксис современного русского языка. М.: 1963, 304 с.
7. Степанов А., Толмачов. Спутник оратора. М., 1966, 176 с.

Эминли Беюкханум

Обращение и высказывание

Резюме

Обращение в том или ином случае связано с речевой средой. Речевая среда обращения может состоять из одного или нескольких предложений, с которыми обращение входит в связь.

Общие существительные, выступающие в роли обращения выражают специальность, занятие, должность, социальную роль адресата.

Часто в роли обращения выступают такие существительные, которые характеризуют адресата, с точки зрения его внутренних особенностей (положительных и отрицательных). А это в свою очередь служит его положительному или отрицательному оцениванию.

Обращение с негативным оцениванием увеличивает отрицательное эмоциональное воздействие.

Ключевую роль в семантической последовательности между обращением и высказыванием играют другие, более конкретные элементы, которые присутствуют в их содержание. В этом случае связь между обращением и высказыванием не ослабевает, а наоборот усиливается.

Eminli Boyukhanim

Apply and saying

Summary

Apply is connected with the speech atmosphere. Speech atmosphere of apply may consist of one or some sentences with which apply coming ento connection.

Common nouns, coming out as apply expressing profession, occupation, position, social role of addresses.

In the role of apply come out such nouns as which characterize addresses, from the point of his inner special features (positive and negative). And this in its turn serves his positive and negative marks.

Apply with the negative value in creasing negative e motional influence.

The main role in semantic successively between apply and saying come out another more concrete elements which are present in their contest in this case connection between apply and saying doesn't get weaker but at the contrary in creasing.

Rəyçi: Əzəmət Rüstəmov
filologiya elmləri namizədi, dosent

İLAHƏ MUSAYEVA
Sumqayıt Dövlət Universiteti
i.musayeva@inbox.ru

MAHMUD KAŞĞARININ "DIVANÜ-LÜĞAT-İT-TÜRK" ƏSƏRİNDƏ FONETİK DƏYİŞMƏLƏR

Açar sözlər: "Divanü-lüğat-it-türk", fonetika, fonem, proteza, elliziya, səs əvəzlənməsi.
Key words: "Divani Lyughat-it-Turk", phonetics, phonem, proteza, elliziya, sound gradation.
Ключевые слова: «Диваню-люгат-ит-тюрк», фонетика, фонема, протеза, эллизия, чередование звуков.

Müasir türk dillərinin dəqiq elmi təhlilində, sözlərin inkişaf prosesinin öyrənilməsində misli görünməmiş elmi əhəmiyyətə malik olan abidələrdən biri Mahmud Kaşğarinin "Divani-lüğət-it-türk" əsəridir.Yazılmasından yüzilliklər keçməsinə baxmayaraq, bu əsər ilk lüğət, ilk qrammatika olaraq öz əhəmiyyətini getdikcə artırmaqdadır.

Əsərin dili, Mahmud Kaşğarinin şəxsiyyəti haqqında türkoloqların müxtəlif fikirləri mövcuddur. Onun hansı türk qəbiləsinin nümayəndəsi olması çox mübahisəlidir. Mahmud Kaşğarinin şəxsiyyəti və "Divani" ilə məşğul olan tədqiqatçılar onu məhz öz xalqının mənşəyi ilə bağlamağa çalışmışlar.

"Divan" ilk dəfə elm aləminə Türkiyədə məlum olduğu üçün birinci növbədə türklər onu özlərinə aid etməyə çalışmışlar. "Divan"ın uyğur dilində yazıldığını iddia edənlər Mahmud Kaşğarini uyğur hesab etmişlər. Bu iddianın ilk müəllifi V.V.Rodlov olmuşdur (3, 17). Belə ki, V.V.Rodlov "Qutadqu bilik" əsərinin uyğur dilində yazıldığını iddia etmiş, buna əsaslanan tədqiqatçılar da "Divan"-ın da həmin dildə yazılmasını nəzərə alaraq, müəllifi uyğur hesab etmişlər.

Mahmud Kaşğari XI əsrin ortalarında yazıb-yaratmış, zəmanəsinə görə yüksək təhsil görmüş, ərəb və fars dillərinə dərindən yiyələnmiş, görkəmli türkoloq, tarixçi-etnoqraf və coğrafiyaşünasdır.

Mahmud Kaşğari və "Divanı" haqqında ilk məlumata görkəmli türk alimi Katib Çələbinin "Kəşf-üz-zünun" əsərində rast gəlinmişdir. O, əsərdən qısaca olaraq bəhs etmiş, onun ərəbcə yazıldığını, türk əlifbasının 18 hərf üzərində bina edildiyini, kitabın xəlifəyə ithaf və təqdim olunduğunu bildirmişdir (1, 31).

O, türk dilinə və türklərə böyük önəm verərək yazır: "Məlum olduğu kimi Qaraxanlılar dövlətinin dövlət dili türk dili hesab edilmişdir. Mahmud Kaşğari bu dili "Xaqaniyyə türkcəsi" adlandırmışdır, türk dillərinin dialekt və ləhcələri arasında Xaqaniyyə türkcəsini ən incə və zərif dil hesab etmiş, onu ədəbi dil kimi səciyyələndirmişdir".

Mahmud Kaşğari uzun müddət türk xalqlarının yerləşdiyi obaları, kənd və şəhərləri oymaq-oymaq gəzmiş, türk dilinə, türk tayfalarının mədəniyyətinə aid nə varsa, çox diqqətlə, böyük ustalıq və incəliklə toplamaq həm qərb, həm də şərqdə yerləşən türklərin dillərindəki leksik-fonetik və qrammatik fərqləri göstərməyə çalışmışdır. Burada səsdən, şəkilçidən tutmuş, söz, söz birləşmələri, cümlə, nəzm

nümunələri, atalar sözləri, bayatılar, ağılar, nəsr parçalarına qədər olduqca zəngin dil materialı vardır.

Müəllif özü bu barədə yazır: "Mən bu kitabı hikmət, nəzm, atalar sözü, şeir, rəcəz, nəsr kimi şeylərlə zənginləşdirərək heca hərfləri sırası ilə tərtib etdim. Oxucu onu yaxından tapsın, araya sırasında arasın deyə, hər sözü yerli yerinə qoydum. Dərinlikləri üzə çıxardım, sərliklərini yumşaltdım. İllərcə bir çox çətinliklərə sinə gərdim. Bu lüğət kitabını əvvəldən sonadək 8 fəslə böldüm (1, 56).

Mahmud Kaşğari əsərdə daha çox fonetik dəyişmələrə, fərqlərə əsaslanmış dilləri məhz bu cəhətdən təsnif etmişdir.

Türkoloq əsəri türk dilinin bir tərəfdən qorunub saxlanması digər tərəfdən isə bu dilin başqa dillərdən o cümlədən ərəb dilindən səviyyəcə aşağı olmamasını elmi cəhətdən sübut etmək üçün yazmışdır. Müəllifin öz sözləri ilə desək "Türk dilinin ərəb dili ilə at başı yürütdügünü" isbat etməyə çalışmışdır. Bu səbəbdən də əsər ərəb dünyası üçün ərəb dilində və ərəb əlifbası ilə yazılmışdır.

Divan kiçik girişdən sonra türk dillərinin o vaxt işlətdikləri əlifba haqqında sözlə başlanır, türk dilləri yazısına ərəb əlifbası əsasında olduğu qeyd edilir və bütün türk dillərində işlənən hərflərin sayı 18 olduğu göstərilir. Daha sonra müəllif əlavə edir: Yazılışda yeri olmayan, lakin tələffüzdə gərəkli olub kökdən sayılmayan yeddi hərf dəxi vardır (1, 59).

Mahmud Kaşğari yazır ki, "türk olmayanlar bu hərfləri tələffüz etməkdə çətinlik çəkərlər. Bu, kökdən sayılmayan yeddi hərf kökdən olan hərflər şəklində yazılır, ancaq bunlara nöqtə qoymaqla o birlərindən fərqləndirilir (1, 59).

Beləliklə, hərəkələrlə verilən saitlər də nəzərə alınarsa, Mahmud Kaşğaridə bu fonemlər var:

a) samitlər: b, v, ğ, d, j, z, y, k, g, l, m, n, p, r, s, t, f, x, ç, c, ş;

b) saitlər: a, ə, e, i, ı, o, ö, ü, u;

c) qovuşuq samitlər: "dh", "vq", "nq".

"Divan"da Oğuz dili başqa türk dillərindən ilk növbədə fonetik xüsusiyyətlərinə görə fərqləndirilir:

1) Zaman və məkan isimlərinin sonundakı ğeynlər oğuzlarda "əlif"ə çevrilir. Türklər "gediləcək yerə" "barğu yer", oğuzlar "barası yer" deyirlər. Türklər oturacaq yerə "turğu oğur", oğuzlar "turası oğur" deyirlər (3, 33).

2) Oğuzlarla onlara yaxın olanlar sözdəki "A" hərfini "d" hərfinə çevirirlər. Türklər "təvəy", oğuzlar "dəvəy" deyir (3, 31).

Divanda bir sıra səs dəyişmələri, səs əvəzlənmələri vardır ki, ayrı-ayrı türk qəbilələri məhz fonetik əlamətlərə görə qruplaşdırılır. Bu səslər demək olar ki, XI əsrdən əvvəlki və sonrakı dövrdə bütün abidələrimizdə müşahidə edilir, canlı danışıq və şivələrimizdə də rast gəlinir. Əsərdə b-m, d-t, y-z, y-n, t-d, z-y, y-d, k-q, c-s, f-v əvəzlənmələrinə rast gəlinir.

1) d-t əvəzlənməsi:

a) sözün əvvəlində:

"taş: -daş" - əkməkdə taş çikrədi – çörəkdə daş xırçıldadı (2, 26); "tügün: -düyün" – Tügsin tügün tügüldi; "təmür: -dəmir" – təmür arxı – dəmir pası (1, 116);"tolu: -dolu" – tolı yağdı – dolu yağdı (1, 163);"tonquz: -donuz" – tonqız atı azığladı – donuz atı dişlədi (1, 323); tonq – donmaq (2, 311);toksun – doxsan "tokuz on – doqquz on" (1, 429).

b) sözün sonunda: bu xüsusən "t" və ya hər hansı bir kar samitlə bitən sözlərdə dı, di, du, dü xəbər şəkilçiləri qoşularkən baş verir. Şəkilçinin cingiltili ol səsi kar t-ya çevrilir:

"ağnattı" – ağnatdı "o atın torpakta ağnatdı – o atını torpaqda ağnatdı;"ulnattı" – sahmanladı "ol okın ulnatdı – o adam sahmana saldırdı;"agelti" – ol anı toğka ağıtte = o onu dağa çıxartdı (1, 254);"onqukte" - ər yüzi onqukte = adamın üzü, rəngi soldu (1, 254);"orpatte" – ürpətti - ər başın orpattı – adam saçını ürpətdi (1, 290);"irpətti" – kəsdirdi – ol yığac ürpətti – o ağac biçdirdi (1, 291);

Bu vəziyyəti Mahmud Kaşğari özü belə təsvir edir. "Hər hansı bir feli icbar növə çevirmək istədikdə felə bir t hərfi əlavə edilir və keçmiş zaman şəkilçisinin ol hərfi burada t ilə şiddətlənir, onda t isimləşir:

"söz üskürtti" – söz xatırlattı (3, 229);"ettürdi" – bükdürdü "ol anqar belün ettürdi" - o ona fitil bükdürdü(1,296);"üplətti" – talatdırdı, yağma etdirdi "ol anıq tawarın üplətti"(1,294) – o onun malını yağma etdirdi."olxuttı" – oturtdu "ol məni olxuttı" – o məni oturtdu(1,291);

2) o=a əvəzlənməsi:

kağun – qovun "ol nağun oydı – o, qovun oydu" (1, 225);aw – ov "bəg aşna çıktı – bəy ova çıxdı" (1, 225);awn – ovunmaq "ol manqa aşındı – o, mənə alışdı" (1, 247);awla – ovla "bəg aşladı – bəy ov ovladı" (1, 311)2

3) l=r əvəzlənməsi:

qarardı -qaraldı "tün qaradı – gecə qaraldı", ton qarardı - Don qaraldı (5, 77).

4) l-n əvəzlənməsi:

taraldı: Saç taraldı = saç darandı (3, 126)

5) v=y əvəzlənməsi:

nüyə - güvə". Veçə və veçəyə bənzər şeyləri yeyən böcək" (2, 167).

6) m-b əvəzlənməsi:

mənqiz – bəniz, üz, çöhrə; "kara bənqiz - əsmər bəniz" (1, 130);mənqzə – bənzətmək (2, 338);münqüz – buynuz "münqüz uşi – buynuz kökü(1,111) – burada həmçinin arxa sıra saitin ön sıra saitinə keçməsi də müşahidə olunur.

7) p-b əvəzlənməsi:

pürçək –bircək, kəkil, atın yalı (1, 46); pışığ – bişmiş (arğuca) (1, 375)

8) k-q əvəzlənməsi:

koltuq-qoltuq (1, 460); konuk-qonaq (1, 427); korkut-qorxutmaq (2, 342); koşa-qoşa (2, 36); koruğçi-qoruqçu (2, 211); konşı-qonşu (1, 427).

Divanda həmçinin səsartımı, səsdüşümü hadisələrinə də rast gəlinir.

1) səsartımı (proteza): Müasir Azərbaycan dilində bir sıra i ilə başlanan sözlər var ki, tarixən bunlar i-dən əvvəl "y" səsinin əlavəsi ilə işlənmişdir. Mahmud Kaşğaridə həmin sözlər belə göstərilir.

yıl – il (1, 118); yılığ – ilıq (1, 109); yigitlik – igidlik (2, 51);yılan-ilan (on yılan – özünü adamın üstünə on kimi atan ilan (1, 111);ylilklig – ilikli "yiliklig sünqük – ilikli sümük (2, 51);

yürəklig – ürəkli "yürəklig ər – ürəkli adam" (2, 51).Bəzi sözlər söz ortasında ğ səsinin əlavəsi ilə də işlənir.yalğan – yalan "yalğan söz – yalan söz" (2, 39);yavğan: yavan "yavğan aş – yavan aş" (2, 39);kasğanc: qazanc (2, 334).

2) səsdüşümü (elliziya): Söz kökündə müəyyən səslər düşür:

kılıç – qılınc (1, 337);örklədi: ol atıq örklədi = o atı örüklədi.aldadı: ol yağını aldadı.

səçə – sərçə (2, 208); "çinçü" – inci.

Qovuşuq samitlər:

"Divan"da əsasən üç "qovuşuq" səs nəzərə çarpır ki, bunlardan biri "sağır nun" adlanır. Müasir işarəsi "nq"-dır. Bu səs "Dədə Qorqud"da, Nəsiminin, Xətainin dilində geniş işlənmişdir. Hal-hazırda Qərb qrupu dialektlərdə də geniş işlənməkdədir. Bu səsə divanda ancaq sözün ortasında və sonunda rast gəlinir. Sağır nun həmin dövrün dilində normal bir hərf və səs kimi işlənir.

Minq – min (2, 21); kalkanq – qalxan (324).Yenqgə - yengə böyük qardaşın arvadı (2, 329)

Tənqri – tanrı – burada həmçinin arxasıra saitin önsıra saiti əvəzlənməsini də görürük (2, 326)

Könqül – könül, qəlb (1, 164); sinqir – sinir (2, 315)Yunq: yun, dəvə və ya qoyun yükü (2, 319)Bəzən nq – qovuşuq səsi yanaşı işləndikdə y səsini də əvəz edir.Könqlək – köynək (2, 305); munquz-buynuz.Hazırda bu səs ədəbi dilimizdə işlənməsə də qərb qrupu dialekt və şivələrimizdə geniş istifadə olunur. Aldınız, gəldiniz, mana, sana və s.

Divanda rast gəlinən səs qovuşmasından biri də "dh" səsidir. Bu səs oğuz boylarında "y" kimi bulğar, suvar, yəmən, qıpçaqlarda "z" kimi tələffüz edilir: Məsələn: cigil türkləri "doydu" sözünü todhte, bulğarlar "tozdı" kimi işlədir.

Adhak – ayaq (1, 134); kodh – qoymaq (3, 378).Adhrek: ayrıq otu ərəblər buna "sil deyirlər" (1, 162).Kudhu – quyu (1, 163); kudruk – quyruq (1, 348).Adhıl – ayılmaq (1, 241) (əsrün adhıldı – sərxoş ayıldu).Adhrıl – ayrılmaq (1, 281) (yol adhrıldı – yol ayrıldı).

Divanda olan bir çox fonetik hadisələrə nəzər saldıqda türk dilinin necə zəngin bir dil olduğunun "Divani-lüğət-it-türk" əsərinin isə türk dünyasına əvəzolunmaz bir töhfə olduğunun şahidi oluruq.

Ədəbiyyat

1. Mahmud Kaşğari. "Divani-lüğət-it-türk". Bakı, Ozan, 2006, I cild
2. Mahmud Kaşğari. "Divani-lüğət-it-türk". Bakı, Ozan, 2006, III cild
3. Zeynalov F.R. "Qədim türk yazılı abidələrinin dili. Bakı, 1980
4. Dəmirçizadə Ə. A.Ə.D.T. Bakı, 1979
5. Əlibəyzadə E. Azərbaycan dilinin tarixi. Bakı, 2007
6. Əliquliyev H. "A.Ə.D.T." Bakı, 1999

Ilaha Musayeva

Phonetic changings in Mahmud Kashari□s work "Divani-lyughat-it-turk"

Summary

In this article it is given short description of the Mahmud Kashary□s work "Divani lyughat-it-turk". Here it is tolked about the meaning of the attaching the importance and about to Turkish. It is showed the reasons this work□s writning. Also here it is talked about the language of the work and about the reasons of the

choosing exactly this language. Bringing the examples of the processes of the adding or taking away of the sounds observing in Turkish. With the different examples it is showed the phonems changings in the art□s language.

Илаха Мусаева

Фонетические изменения в произведении Махмуда Кашкари «Диваню-люгат-ит-тюрк»

Резюме

В статье дается краткое описание произведения Махмуда Кашкари «Диваню-люгат-ит-тюрк». Говорится о значении придаваемом автором тюркскому языку. Показываются причины написания этого произведения. Также здесь говорится о языке произведения и о причинах выбора именно этого языка для него. Указываются исползованные здесь фонемы и сдвоенные звуки. Приводятся примеры процесса выпадения или добавления звуков наблюдающегося в тюркском языке. Отдельными примерами показана замена фонем в языке произведеня.

Rəyçi: Əzəmət Rüstəmov
filologiya elmləri namizədi, dosent

AYNUR MƏMMƏDOVA
ADNA
aynur@mail.ru

TEACHING SPEAKING

Açar sözlər: danışıq, bacarıq, dil, nitq, öyrənmək, ünsiyyət, dialoq, eşitmək, öyrətmək, şifahi nitq, şagird, müəllim qayda, cümlə, münunə, səhv inkişaf etdirmək
key words: speaking, skill, language, speech, to learn, communication, dialogue, to hear, to teach, oral speech, learner, teacher, rule, sentence, pattern, mistake, to develop
Ключевые слова: разговор, талант, язык, речь, учить, связь, диалог, слышать, учить, устный речь, ученик учитель, правило, предложение, образец, ошибка, развивать.

Of all the four skills (listening, speaking, reading and writing), speaking seems the most important: people who know a language are referred to as, speakers" of that language, as I speaking included all other kinds of knowing; and many if not most foreign language learners are primarily interested in learning to speak.

A large percentage of the world's language learners study English in order to develop proficiency in speaking. The ability to speak a second or foreign language well is a very complex task if we try to understand the nature of what appears to be involved. To begin with, speaking is used for many different purposes, and each purpose involves different skills. When we use casual conversation, for example, our purposes may be make social contact with people, to establish rapport, or to engage in the harmless chitchat that occupies much of the time we spend with friends. When we engage in discussion with someone, on the other hand, the purpose may be to express opinions, to persuade someone about something, or to clarify information. In some situations, we use speaking to give instructions or to get things done. We may use speaking to describe things, to complain about people's behavior, to make polite requests, or to entertain people with jokes and anecdotes. Each of these different purposes for speaking implies knowledge these different purposes for speaking implies knowledge of the rules that account for how spoken language reflects the context or situation in which speech occurs, the participants involved and their specific roles and relationships, and the kind of activity the speakers are involved in. In the last 20 or so years, linguists have provided a great deal of information on how speakers use language appropriately in different situations and clarified the complex nature of what is involved in developing spoken fluency in a second or foreign language.

Language came into life as a means of communication. It exists and is alive only through speech. When we speak about teaching a foreign language, we first of all have in mind teaching it as a means of communication.

Speech is a bilateral process. It includes hearing, on the one hand, and speaking, on the other. When we say "hearing" we mean auding or listening and comprehension.

Speaking exists in two forms: dialogue and monologue. We may represent it as follows:

Oral language {hearing
speaking {dialogue monologue

The syllabus requirements for oral language are as follows:

1. to understand the language spoken;
2. to carry on a conversation and to speak a foreign language within the topics and linguistic material the syllabus.

This is the practical aim in teaching oral language. But oral language is not only an aim in itself, it is also a mighty means of foreign instruction. It is a means of presenting linguistic material: sounds, words and grammar items. It is also a means of practicing sentence patterns (grammar) and vocabulary assimilation. Finally, it is used for developing pronunciation habits and skills, and therefore, for reading and writing since they are closely connected with learners' ability to pronounce correctly what they read and write. This speaking is the most important part of the work during the lesson.

Oral language is a means of testing learners' comprehension when they hear or read a text. Properly used oral language ensures progress in language learning and, consequently, arouses interest in the subject.

Consequently oral language is: an aim when learners make use of the target language is used for 1. Teacher, - Learner communication in the classroom; 2 Learners' communication when talking on a topic under teachers' supervision; 3. Learners' communication when working at a text – discussing the problems touched in it; 4. Learners' communication during out-of-class activities in the target language;

A means of teaching and learning a foreign language when it is used 1. within the methods of acquisition of new information about a linguistic or language phenomenon and drill and transformation to form pronunciation, lexical, grammar, etc. habits in learners; 2. for checking learners' comprehension.

Speaking a foreign language is the most difficult part in language learning because learners need ample practice in speaking to be able to say a few words of their own in connection with a situation. This work is time-consuming and learners rarely feel any real necessity to make themselves understood during the whole period of learning a new language. The stimuli the teacher can use are often feeble and artificial. The learner repeats the sentence he hears, he completes sentences that are in the book, he constructs sentences on the pattern of a given one. These mechanical drill exercises are, of course, necessary; however, when they go on year after year without any other real language practice they are deadening. There must be occasions when the learners feel the necessity to inform someone of something, to explain something and to prove something to someone. This is a psychological factor which must be taken into account when teaching learners to speak a foreign language.

Another factor of no less importance is a psycho-linguistic one; the learner needs words, phrases, sentence patterns, and grammatical forms and structures stored up in his memory ready to be used for expressing any though he wants to. In teaching speaking, therefore, the teacher should stimulate his learners' speech by

supplying them with the subject and by teaching them the words and grammar they need to speak about the suggested topic or situation. The teacher should lead his learners to unprepared speaking through prepared speaking.

We must distinguish speech and oral exercises for they are often mixed up by the teacher.

Speech is a process of communication by means of language. For example: 1. a learner tells the class a story about something which once happened to him. 2. the teacher asks questions on the story read by the learners at home and starts a discussion; 3. learners speak on the pictures suggested by the teacher, each tries to say what others have not mentioned; 4. learners listen to the story and get some new information from the text; 5. they see a sound film and learn about something new from it, etc.

Oral exercises are used for the learners to assimilate phonetics, grammar and vocabulary. They are mostly drill exercises and the teacher turns to them whenever he works at enriching learners' pronunciation, etc. for example, reciting a rhyme or a poem is considered to be an excellent oral exercise for drilling pronunciation and for fixing a sentence pattern and words which fit the pattern in the learners' mind. Making statements with the words or phrases the teacher gives is another valuable oral exercise which allows the teacher to retain them in his learners' memory through manifold repetitions.

Oral exercises are quite indispensable to developing speech. However, they only prepare learners for speaking and cannot be considered to be "speech" as some teachers are apt to think and who are often satisfied with oral exercises which learners perform following the model. They seldom use stimuli for developing learners' auding and speaking in the target language.

In order to get a better understanding of what speech is we are to consider the structure of oral language activity, the psychological and linguistic characteristics of speech.

The structure of oral language activity as psycholinguistics states comprises:

1. motive, what induces a person to say. Some methodologists say that the key problem is not how to teach the foreign language, but how to motivate the learner motivation is the internal drive caused by the incentives;

2. aim, communication – to inform somebody about something or to get information from somebody;

3. means- verbal means or verbal behavior;

4. condition – reciprocity or mutual action of speaker and hearer in certain situations. There are endless possibilities for situations. In the artificial of teaching and learning a foreign language one can use both real and close-to-real situations (imaginary situations). The teacher must use role-playing and improvisation where the learner is plunged into a situation which requires of him that he react in a linguistically appropriate way.

The psychological characteristics of oral language as follows:

1. Speech must be motivated, the speaker expresses a desire to inform the hearer of something interesting, important, or to get information from him.

Rule for the teacher: In teaching a foreign language it is necessary to think over the motives which make learners speak. They should have a necessity to speak

and not only a desire to receive a good mark. Remember that oral speech should be always stimulated, wish to respond in his own way.

2. Speech is always addressed to an interlocutor.

Rule for the teacher: Organize the teaching process to someone, to their friends in particular. The speaker will hold his audience when he says something new, something individual.

3. Speech is always emotionally colored for a speaker expresses his thoughts, his feelings, his attitude to what he says.

Rule for the teacher: Teach learners how to use intonational means to express their attitude, their feelings tasks as: reason why you like the story; prove something; give your opinion on the episode; or on the problem concerned, etc.

4. Speech is always situational for it takes place in a certain situation.

Rule for the teacher: While teaching speaking real and close –to-real situations should be created to stimulate learner's speech. Think of the situations you can use to make learners' speech situational. Remember the better you know the class the easier it is for you to create situations for learners to speak about.

These are the four psychological factors which are to be taken into account when teaching speech.

Oral language as compared to written language is more flexible. It is relatively free and is characterized by some peculiarities in vocabulary and grammar. Taking into consideration, however, the conditions in which the foreign language is taught in schools, we cannot teach pupils colloquial English. We teach them standard English as spoken on the radio, TV, etc. Oral language taught in schools is close to written language standards and especially its monologic form. It must be emphasized that a pupil should use short sentences in monologue, sentence patterns which are characteristics of oral language. We need not teach pupils to use long sentences while describing a picture.

There are two forms of speaking: monologue and dialogue.

In teaching monologue we can easily distinguish three stages according to the levels which constitute the ability to speak: 1. the statement level; 2. the utterance level; the discourse level.

1. No speech is possible until learners learn how to make statements. To develop learners' skills in making statements the following procedure may be suggested:

Learners are given sentence patterns to assimilate in connection with situations.

The sentence pattern is filled with different words. Thus learners can express various thoughts.

Learners make statements of their own in connection with the situations suggested by the teacher.

When learners are able to make statements in the foreign language within grammar and vocabulary they have assimilated their speech may be more complicated. They should learn to combine statements of various sentence patterns in a logical sequence.

2. Learners are taught how to use different sentence patterns in an utterance about an object, a subject offered. First they are to follow a model, then they do it without any help.

At this stage learners learn to express their thoughts, their attitude to what they say using various sentence patterns. Thus they learn how to put several sentences together in one utterance about a subject, object, etc.

3. After learners have learned how to say a few sentences in connection with a situation they are prepared for speaking at discourse level. Free speech is possible provided learners have acquired habits and skills in making statements and in combining them in a logical sequence. At this level learners are asked to speak on a picture, a set of pictures, a film, comment on a text they have read or heard, make up a story of their own; of course, this being done within the language material (grammar and vocabulary) learners have assimilated. To help students to speak the teacher supplies them with "what to speak about". The devices used for the purpose are: visual aids which can stimulate the learner's speaking through visual perception of the subject to be spoken about including a text read; audio aids which can stimulated the learner's speaking through auditory perception of a stimulus; audio – visual aids when learners can see and hear stimulus; audio – visual aids when learners can see and hear what to speak about.

The three levels in developing pupils' speaking should take place throughout the whole course of instruction, in junior, intermediate, and senior forms. The amount of exercises at each level, however, must be different.

Rule for the teacher: In teaching monologue instruct learners how to make statements first, then how to combine various sentences in one utterance and, finally, how to speak on a suggested topic.

A dialogue consists of a series of lead-response units. The most characteristic feature of a dialogue is that the lead, - response units are closely connected and dependent on each other.

To develop learners' skills in dialogue on the level of a lead-response unit learners are taught: 1. how to make responses to the lead within the lead- response unit. 3. how to begin (stimulate) a dialogue. 3. how to carry on a conversation, to confirm, to comment using the following words and expressions: well, look here, I say I'd, you see, you mean, do you mean to say that….and what about, I believe, so, I hope, yes, right, quite right, to be sure, I think, as far as I know, to tell the truth, I mean to say and others.

Rule for the teacher: In teaching dialogue use pattern dialogues: make sure that your learners go through the 3 stages from receptive through reproductive to creative, supply them with the subject to talk about.

It is important for teachers to correct mistakes made during speaking activities in a different way from the mistakes made during a study exercise. When students are repeating sentences trying to get their pronunciation exactly right, then the teacher will often correct every time there's a problem. But if the same teacher did the same thing while students were involved in a passionate discussion about whether smoking should be banned on tourist beaches, for example the effect might will be to destroy the conversational flow. If, just at the moment one of the students is making an important point, the teacher says 'Hey wait, you said "is" but it should

be “are”, beaches are…..repeat’, the point will quickly be lost’. Constant interruption from the teacher will destroy the purpose of the speaking activity.

Many teachers watch and listen while speaking activities are taking place. They note down things, that seemed to go well and times when students couldn’t make themselves understood or made important mistakes. When the activity has finished, they then ask the students how they thought it went before giving their own feedback. They may say that they liked the way student A said this and the way student B was able to disagree with her. They will then say that they did hear one or two mistakes and they can then either discuss them with the class, write them on the board or give them individually to the students concerned. In each case, they will ask the students to see if they can identify the problem and correct it.

As with any kind of correction, it is important not to single students out for particular criticism. Many teachers deal with the mistakes they heard without saying who made them.

Of course, there are no hard and fast rules about correcting. Some teachers who have a good relationship with their students can intervene appropriately during a speaking activity, if they do it in a quiet non-obtrusive way. But it is a risky enterprise. The general principle of watching and listening so that you can give feedback later is usually much more appropriate.

Used literature

1. Jeremy Harmer: “How to teach English”. Longman-1998.
2. Jeremy Harmer: “The practice of English language Teaching”. Fourth Edition. Longman.
3. G.V.Roqova: “Methods of teaching English”. Moscow-1983.
4. Penny Ur: “A course in language teaching”. Cambridge University Press, 1991.

A.Məmmədova

Danışığın öyrədilməsi

Xülasə

İngilis dilinin tədrisində ən vacib məsələlərdən biri də danışıqdır. Xarici dili öyrənmək istəyən hər bir şəxs bu dildə mükəmməl danışmağı arzulayır. Danışıq, eşitmə, oxu və yazı kimi böyük əhəmiyyət kəsb edir. Danışıq iki formada olur: dialoq və monoloq şəklində. Bu məqalədə danışığın hər iki forması izah edilmişdir.

Danışıq vaxtı çoxlu səhvlərin edilməsi təbii haldır. Müəllimin əsas məqsədlərindən biri də bu səhvlərin qarşısını almaqdır.

Mükəmməl danışığı öyrənmək heç də asan deyildir. Xarici dildə qüsursuz danışmaq üçün çox vaxt sərf etmək lazımdır.

Bu məqalədə danışıq barədə geniş məlumat verilib.

А.Мамедова

Обучение разговор

Резюме

Разговор –один из важных задач при обучение английского языка. Каждый человек, который хочет изучать иностранный язык, мечтает о грамотном разговоре. Разговор имеет также большое значение, как чтение, слушание и пропись.

Разговор бывает в двух видах: диалог и монолог. В этой статье объясняется обе виды разговора.

Возможно пропускать ошибок при разговоре. Один из важных цель учителя исправлять ошибок.

Изучение грамотного разговора нелегко. Для изучения безупречного разговора иностранных языков, требуется много времени.

В этой статье даётся информация о разговоре.

Rəyçi: Sevil Qazıyeva
filologiya elmləri namizədi

KÖNÜL SALMANOVA
ADPU
konul_salmanova@mail.ru

LAYLA VƏ OXŞAMALARDA NİDA

Açar sözlər: layla, oxşama, nidalar, “ay” nidası, “ey” nidası, “lay-lay” nidası
Ключевые слова: колыбельная, причитания, междометие, междометие «ай», междометие «эй», междометие «лай-лай».
Key words: lulling, lallaby, interfections, “ay” interfection, “ey” interfection, lay-lay interfection

Layla və oxşamalar uşaqların tərbiyə nərdivanının ilk pillələri hesab oluna bilər. Çünki həyata yeni gəlmiş körpənin ilk eşitdiyi sözlər, ilk duyduğu hisslər məhz bu şeirlərdən başlayır. Analarımızın, nənələrimizin, doğmalarımızın həzin səsləri, incə duyğuları ilə deyilən bu sətirlər uşağın gələcək inkişafında baza rolunu oynayır. Sözsüz ki, bu şeirlər uşaqlara ən müsbət insani keyfiyyətləri (xeyirxahlıq, əliaçıqlıq, səmimilik, alicənablıq, vətənpərvərlik və s.) aşılamalıdır. Körpələrin yeni inkişaf etməkdə olan kövrək beyinlərinə təsir etmək üçün bu şeirlər adi və sadə sözlərin düzümündən ibarət olmamalı, daha təsiredici, emosional və qulağayatımlı olmalıdır. Uşaq şeirlərinin ahəng və musiqisinin yaranmasında vokativ sözlər, ədatlar, ritmik sözlər, uşaq sözləri böyük rol oynadığı kimi nidalar da bu funksiyanı yerinə yetirə bilir.

Nidalar uşaq şeirinin formaca ahəngdarlığını, məzmunca emosionallığını təmin edən vasitələrdəndir:

Qızıl üzük arası,
Laylay gözüm qarası,
Yuxuya get, yoruldum,
Ay canımın parası.
Balam **laylay**, a **laylay!**
Gülüm **laylay**, a **laylay!** (13, 384).

Ümumi şəkildə götürüldükdə uşaq şeirinin lüğət tərkibi üçün isim, sifət və fellər daha səciyyəvidir. Bunlar daha tutumlu sözlərdir. Bu sözlərin semantik həcmi də çox genişdir. Əsas fikir, obrazlar həmin sözlərdə çox uğurlu verilə bilir. Uşaq şeirində həmin sözlər həm məna vahidi, həm də ritm, ahəng yaradan vasitə kimi çıxış edir. Köməkçi sözlərdə belə geniş imkan yoxdur. Nidalar, ədatlar laylalarda yalnız bu funksiyada çıxış edir, ritm və ahəng məqsədi güdür.

Bunun bir səbəbi də odur ki, nidalar obyektiv aləmə insanın fərdi, subyektiv münasibətinin ifadəsidir. Öz emosionallığına görə nida, ümumiyyətlə, poeziya üçün əlverişli vasitələrdən hesab olunur.

Nidalar həm hissə təsir dərəcəsinin yüksəkliyinə, həm də mənaca yayğın, qeyri-müəyyən olduğuna görə şeirdə təbii ki, daha tez nəzərə çarpır. Uşaq dünyasının zəngin hisslərini, uşağın obyektiv aləmdən aldığı müxtəlif təəssüratı

ifadə etmək üçün nidalardan yerli yerində, bacarıqla istifadə etmək bir məharətdir və burada "ölçü hissi" gözlənilməlidir (1,48).

İnsanın duyğularını, coşqunluq və həyəcanını bilavasitə ifadə edən sözlərə nida deyilir (10, 387).

Nidalar başlıca olaraq subyektin daxili aləmi ilə bağlı olur. Bunlar subyektin hiss-həyəcanını, bütün duyğularını, istək və arzularını, hiddət və nifrətini, coşqunluğunu, nəşə və kədərini təzahür etdirən ifadə vasitəsidir (7, 286).

Azərbaycan dilində nidalar leksik cəhətdən 2 qrupa bölünür: 1. emosional nidalar (Ura!, Tfu!, Vaveyla! Of! Ah! və s.); 2. Əmr və müraciət bildirən nidalar (A!, Ə!, Ey!, Hey!, Xudaya! və s.)

1-ci qrupa (emosional nidalar) sırf hissi nidalar (bunların əksəriyyəti birhecalı olur) və bir sıra əqli-intellektual nidalar daxil olur. Emosional nidaların bir qismi müsbət: Ura! (sevinc, alqış), bir qismi yalnız mənfi hisslər: Tfu! (nifrət), Vaveyla! (qorxu, narahatlıq) bir qismi isə həm mənfi, həm də müsbət hissləri ifadə edir: O!, Of! Oho! və s. (8, 274).

B.Ə.Xəlilov nidaları leksik cəhətdən 3 qrupa bölür:

1. Emosional nidalar *(A!, Uh!, Pa!, Oho!, Vaxsey!, Ura!, Xox! və s.) ;*

2. Əmr və müraciət bildirən nidalar; *(Ay!, Ey!,İlahi!, Xudaya , ya Allah!, Haydi! və s.);*

3. Adət və qaydalarla bağlı olan nidalar *(Salam!, Vallah!, Əlvida!, Hələlik!, Bismillah! və s.)* (9, 320).

Layla və oxşamalarda işlənən nidalar əsasən 2-ci qrupa (əmr, müraciət bildirən nidalar) daxil olan nidalardır. Emosional nidalar bu uşaq şeirlərində çox az miqdarda istifadə olunur.

B.Xəlilov 2-ci qrupa aid olan əmr və müraciət bildirən nidaları da 2 qrupa bölür: a) müraciət məqsədi ilə işlədilən nidalar; b) əmr məqsədi ilə işlədilən nidalar (9, 321-322).

Öz mənasına görə uşaq şeirlərində işlənən nidalar çağırış-müraciət, şadlıq, təəccüb, heyrət, etiraz, qorxu və s. kimi hissləri əks etdirir (1, 48).

Ən çox işlənən çağırış nidaları Ay! Ey! A! Nidalarıdır ki, onlar da işləndiyi yerdən asılı olaraq müxtəlif mənaları ifadə edir.

Ay! nidası. Əsli, sadə, çoxmənalı nidadır. Qismən müsbət, əsasən mənfi hissləri ifadə edir. Türk dillərinin qədim yazılı abidələrində də işlənmişdir. Ay! Nidası M.Kaşğarinin "Divani-lüğət it-türk" əsərində də işlənmişdir (6, 90).

Məhsuldar və çox işlənən nida sayılan Ay! nidası işləndiyi yerdən asılı olaraq müxtəlif mənaları (alqış-tərif, arzu-həsrət, təəssüf-peşmançılıq, dərd-kədər, şikayət-giley, yalvarış və s.) ifadə edir.

Müxtəlif məna çalarları ilə zəngin olan məhsuldar "ay" nidası layla və oxşamalarda da geniş istifadə olunur.

Ay laylay, belə laylay,
İl ayla, belə laylay,
Heç bəndə qoy çalmasın,
Biz çaldıq belə laylay (11, 112).

Bu laylada işlənən **ay!** nidası konkret bir məna bildirməsə də laylada ritmin yaranmasına səbəb olur, oxunan laylanın daha təsirli olmasına kömək edir və

təsirlilik dərəcəsini artırır. Göstərilən misalda nidanın ritmik funksiyası əsas rol oynayır.

Ay! nidası həm də çağırış, müraciət xitab kimi işlənir. Bu zaman laylalar körpə dinləyiciləri şeri dinləməyə hazırlamaq, onlarda maraq yaratmaq, bəzən sakitləşdirmək, rahatlaşdırmaq məqamında işlənir.

Qızılı şah budağın
Kölgəsində yatasan
Ay bala, bəndim laylay
Şəkərim, qəndim, laylay (12, 307).

Oxşamalarda da az-az təsadüf olunan **ay!** nidası burada şeirin oynaqlığını artırmaq, ritmini sürətləndirmək məqamənda işlənir. Laylalarda olduğu kimi burada da xitablarla işlənərək müraciət bildirir və uşaqların diqqətini şeirə cəlb etmək, onlarda maraq yaratmaq funksiyası daşıyır.

Ay qız adamı,
Sındır badamı,
Elçiyə çay ver,
Alım qadanı (2, 187).

Balam yaraşıqlıdı,
Qəndə bulaşıqlıdı,
Ay qara milçək,
Balamdan əl çək (5, 473).

Ey! nidası. Əsli, sadə, emosional, çoxmənalı nidadır. Mənfi və müsbət hissləri ifadə edir. Cümlənin hər yerində işlənə bilir, lakin daha çox cümlənin əvvəlində gəlir. Həm ayrı, həm də xitablarla birlikdə işlənir. Yerindən, məqamından asılı olaraq müxtəlif mənaları (sevinc, qüssə, təəssüf, qəzəb-hiddət, etiraz, çağırış, fəryad və s. ifadə edir. Ay! nidasına nisbətən bu nida uşaq folklorunda o qədər də məhsuldar deyil. Laylalarda az-az rast gəlinən ey! nidası xitablarla birlikdə işlənərək müraciət, çağırış mənaları ifadə etməklə laylanın təsir gücünü artırır:

Laylay **ey** elim, obam,
Odum ocağım sobam,
Sənə layla çalıram,
Olasan mənim babam (11, 113).

Azərbaycan dilindəki nidalar səs tərkibinə görə də müxtəlif və rəngarəng xüsusiyyətlərə malikdir. Bir çox nidalar yalnız bir fonemdən ibarət olur. **A!** (sevinc, şadlıq, narahatlıq, etiraz, nifrət, qorxu və s.) nidası da bu qəbildəndir. Layla və oxşamalarda bu nida daha çox Ay! nidasının ixtisar olunmuş forması kimi işlənir. Bəzən yalnız şeirin ritmini sürətləndirmək, hecaların sayını bərabərləşdirmək, oynaqlığı artırmaq məqsədi ilə istifadə olunur. Aşağıda nümunə göstərilən laylalarda bunu aydın görmək mümkündür:

Göyçək balam, **a** laylay,
Çiçək balam, **a** laylay,
Qönçə dolu butasan.
Hər kamına çatasan (12, 307).

A laylay, yenə laylay,
Can deyim sənə laylay,
Sənə gələn dərd, bəla,
Qoy gəlsin mənə laylay (15,6).

Bəzi hallarda isə A! nidası xitabla işlənərək müraciət, çağırış mənaları ifadə edir. Bunu bir oxşama nünunəsi ilə göstərmək olar:

A dağdağanlar,
Bülbül boğanlar,
Oğlan doğanlar,
Bu balama qurban (2, 187).

Laylalarda ən çox, hətta demək olar ki həmişə rast gəlinən müraciət bildirən ən məhsuldar nida **lay-lay!** nidasıdır.

Bu nida-oxşama körpələrə müraciətlə "yat yuxun şirin olsun" mənasında işlədilir. Buradaki əmrlik körpələrin səviyyəsinə uyğundur. Körpələri yatırdarkən bu nidalarla incə, həlim ana nəvazişi, ana məhəbbəti ifadə olunur (6, 149).

Laylay dedim, yat dedim,
Qızılgülə bat dedim.
Qızılgül tacın olsun
Kölgəsində yat dedim.
Balam **laylay**, a **laylay!**
Gülüm **laylay,** a **laylay!** (7, 327).

Bizim yerlər qalın meşə
Taxtında otur həmişə.
Aranında gül bitsin,
Yaylağında bənövşə.
Balam, a **layla**, a **layla!**
Gülüm, a **layla** a **layla!** (3, 264).

Qeyd etdiyimiz kimi, layla və oxşamlarda daha çox çağırış-müraciət bildirən nidalara rast gəlinir, emosional nidalara isə az miqdarda təsadüf olunur. Əlbəttə ki, yüksək emosionallıqla, daxili hisslərlə, həyəcanla, sevgilə, istiliklə deyilən uşaq şeirlərində bu emosionallığı yaratmaq üçün köməkçi vasitələrdən də istifadə olunmalıdır. Leksik cəhətdən nidaların 2-ci qrupuna daxil olan emosional nidalar layla və oxşamalarda işlənərək şeirin təsir gücünü və ekspressivliyini artırır. Məs:

Laylay balam, **can** balam,
Mən sənə qurban, balam

Ağlayıban könlümü
Gəl eyləmə qan, balam (15, 6).

Aman bala, canım bala,
Sənnən qeyrəz biri də ola (14, 93).

Ədəbiyyat

1. Adilov M., Mərdanov V. Uşaq və şer. Bakı: Maarif, 1983, 216 səh.
2. Azərbaycan bayatıları. Bakı: Elm, 1984, 259 səh.
3. Azərbaycan uşaq müntəxəbatı (XIX-XX əsrlər). II cild. Bakı: Nasir, 2002, 636 səh.
4. Dərələyəz folkloru. Azərbaycan folkloru antologiyası. XV cild. Bakı: Səda, 2006, 484 səh.
5. Gəncəbasar folkloru. Azərbaycan folkloru antologiyası. IX kitab. Bakı: Səda, 2004, 522 səh.
6. Hacıyev Kamal. Azərbaycan dilində nida. Bakı: Nurlan, 2005, 215 səh.
7. Hüseynzadə Muxtar. Müasir Azərbaycan dili. Morfologiya. III hissə. Bakı: Maarif, 1973, 357 səh.
8. Hüseynzadə Muxtar. Müasir Azərbaycan dili. Morfologiya. III hissə. Bakı: Şərq-Qərb, 2007, 279 səh.
9. Xəlilov Buludxan. Müasir Azərbaycan dilinin morfologiyası. II hissə. Bakı: Nurlan, 2007, 354 səh.
10. Kazımov Qəzənfər. Müasir Azərbaycan dili. Morfologiya. Bakı: Elm və təhsil, 2010, 400 səh.
11. Qarabağ folkloru. Azərbaycan folkloru antologiyası. V kitab. Bakı: Səda, 2000, 416 səh.
12. Naxçıvan folkloru. Azərbaycan folkloru antologiyası. I cild. Naxçıvan: Əcəmi, 2010, 510 səh.
13. Şəki folkloru. Azərbaycan folkloru antologiyası. IV kitab. I cild. Bakı: Səda, 2000, 500 səh.
14. Şəki folkloru. Azərbaycan folkloru antologiyası. VI kitab. II cild. Bakı: Səda, 2002, 496 səh.
15. Uşaq folkloru. Bakı:Altun kitab, 2007, 96 səh.

K.Salmanova

Interfections in lullings and lallabies

Summary

The article deals with role of interfections and their meanings in lallabies and lullings. Dependings on the position of “ay”, “ey”, “a” interfections they have meanings such as applause-praise, wish-regret, grief-repentance, sorrow-sadness, complaint-grumble in the lallabies and lullings.

These interfections are used to speed up rhythm. Such moments are discussed as function and feature in lallabies and lullings.

К.Салманова

Междометия в колыбельных и причитаниях

Резюме

В статье исследуются роль и значение междометий в колыбельнях и причитаниях. В колыбельнях и причитаниях широко употребляются междометия «ай», «эй», «а» и означают хвалу, одобрение, желание, сожеление, раскаивание, горе, скорб, жалобу, мольбу и т.д. Также привлечены к исследованию особенности и функции в колыбельнях и причитаниях как повышение игривости, ускорение ритма.

Rəyçi: Professor Buludxan Xəlilov

ERDOĞAN ALAATTIN
Bakı Slavyan Universiteti
erdogan@mail.ru

PAREMIOLOJİ VAHİDLƏRİN LEKSİK TUTUMU VƏ ETİMOLOJİ İNFORMASİYASININ HƏCMİ

Açar sözlər: paremioloji vahidlər, frazeologiya, etimologiya, leksik məna, frazeologizm.
Ключевые слова: паремиологические единицы, фразеология, етимология, лексическое значение, фразеологизм.
Key words: paremiological units, phraseology, etymology, phraseological, lexical sense.

Etimoloji analiz baxımından paremiya-frazeoloji konstruksiyaların leksem (leksik) tərkibi çox maraqlı materialdır. Paremioloji vahidlərin leksik tərkibi heç də həmişə ümumanlamlı sözlərdən ibarət olmur. Köhnə fonddan olan paremiyaların tərkibində kifayət qədər müasir oxucuya məlum olmayan söz və söz birləşmələri vardır ki, onların özlərinin etimoloji analizə ehtiyacı vardır. Haqqında sözü gedən məsələ bir çox paremioloqların nəzəri-diqqətində olmuşdur: çox vaxt tədqiqatçılar paremioloji vahidlərin tərkibində işlənmiş arxaik (müasir oxucuya məlum olmayan və ya başqa məna kəsb etmiş) söz və anlayışların etimolojisini şərh etməklə analizi bitirmiş hesab edirlər (2, 18-19).

Qeyd etmək lazımdır ki, arxaizmlər heç də həmişə bütöv deyimin, söyləmin mənşəyini açıb göstərə bilmir. Bu sözlər bəzən «dayaq konsept» rolunu oynasalar da, paremioloji vahidin ümumi strukturunun həcmini belə müəyyən etməkdə rolu olsada, ümumi konstruksiyanın mənşəyini müəyyən edə bilmirlər; etimologiya baxımından paremiya bu sözlə (və ya sözlərlə) bir o qədər də bağlı olmur. Ö.A.Aksoyun qeyd etdiyi kimi, XI əsrdə türk dilində işlənən «Böri-Koşnısın yimez» atasözündə işlənən «Böri» çağdaş türk dilində «Kurt komşusunu yemez» kimi işlənir. «Böri-Kurt» dəyişməsi (sinonimlər kimi) ümumən atalar sözünün genezisini əks etdirmir. Bu etimologiya hər hansı bir folklor abidəsində və ya başqa folklor xarakterli rəvayətlərdə işlənərək yer tuta bilər, və yaxud da anonim müəllifin hansı isə bir məkanda-zamanda dediyi ola bilər ki, xalq yaddaşına həkk olunubdur. İkinci məqamda daha dərin arqument vardır: bu söyləm minilliklər ərzində xalqın diqqətində olan bir fakt kimi, təkzibolunmaz bir reallıq kimi ümumiləşmiş, konsept səviyyəsinə qalxmışdır. Söyləm, sadəcə olaraq, bu konseptin adı kimi, dildə ifadəsi kimi çıxış edib, xalqın həyat hadisələrini konseptuallaşdırma qabiliyyətinin inikasına çevrilir. Belə bir etimoloji əsasdan çıxış etsək (başqa genetik variant məlum deyil), «böri» sözünün müasir dildə «tərcüməsinin» etimoloji qüvvəyə malik olmadığını əsaslandıra bilərik.

Yaxud başqa bir misal: Azərbaycan oxucusunun heç də hamısı «qaysava» sözünün mənasını bilmir. Bu səbəbdən heç də hamı «İtin axmağı qaysavadan pay umar» söyləmini başa düşmür. «Qaysava» sözünün mənasının açıqlanması paremiyanın «etimoloji» pərdəsini müəyyən dərəcədə qaldırır: qaysava – bəylərin xüsusi (ümumi «elitanın») sifarişi ilə qays qurusunun kərə yağında pörtülməsi (yumurta ilə birgə). Bu informasiya mərhum professor Bəşir Əhmədovun şərhinə əsaslanır.

«Qaysava» sözünün mənası açıqlananda ümumi deyimin semantik strukturu aydınlaşır. Amma bu aydınlaşma hələ paremiyanın obyektiv etimologiyası demək deyil. Yenə də burada iki yol qalır: ya yuxarıda qeyd etdiyimiz konseptualizasiya motivini etimologiya kimi qəbul etməliyik, ya da dəqiq etimologiyanı bilməməyimizi etiraf etməliyik. Arxaizm «qaysava» deyimin etimoloji açarı ola bilmir, amma konseptualizasiya motivində əsaslı rol oynayır.

Bu məsələ ətrafında bəzi mülahizələri yürütmək yerinə düşərdi. Ümumi etimologiya nəzəriyyəsinin aparıcı mütəxəssislərindən biri O.N.Trubaçov qeyd edir ki, etimologiya bir elm kimi məhz sözlərin mənşəyi ilə məşğuldur. Frazeoloji və paremioloji vahidlər etimologiyanın yox, sintaksisin obyektləri ola bilər. Belə bir iddianı O.N.Trubaçov onunla izah edir ki, ta prahindavropa və ya praslavyan dillərindən söz nümunələrinin genezisini açıqlamaq mümkün olduğu halda, həmin dillərin «frazeoloji vahidlərindən və ya atalar sözlərindən misallarımız yoxdur» (8, 453). «Ola bilsin ki, belə vəziyyətin səbəbi frazeologiyaya və ya paremiologiyada rekonstruksiya metodlarının sistemli şəkil almamağıdır» (8, 453).

Fikrimizcə etimoloji tədqiqatların ilk növbədə söz-leksemlərlə bağlılığının səbəbi təkcə qeyd olunan fakt deyil. Məsələ paremiya-frazeoloji konstruksiyaların sabitliyi, sabit reproduksiya olunması və özlərinin ümumi dayanıqlı mənasını saxlamaqdadır. Ümumi konstruksiya hər hansı məna ilə bağlı olduqda, çox vaxt konstruksiyanın daxili elementlərinin individual mənasının fərqinə varılmır. Və ona görədir ki, çox vaxt paremiyanın bütün elementləri (söz-leksemləri) mənaca aydın olduqda belə ümumi söyləmin, deyimin etimologiyasını təyin etmək mümkün olmur. Sözlərin etimoloji araşdırmalarında sözün daxili forması, onun strukturu ixtisasçıya çox şeydən xəbər verir. Paremioloji vahidin arxitektonikası (sadə cümlə, sadə geniş və ya mürəkkəb cümlə və s.) onun etimoloji cəhətdən qavranmasına, demək olar ki, kömək etmir. Çunki paremiyanın strukturu hər hansı bir ekstradil faktının quruluşu ilə həmahəngdir, izomorfdur. Bu ekstradil faktını bilməməyimiz həmin paremiyanın mənşəyini bilməməyimiz kimi qiymətləndirilməlidir. Başqa sözlə desək «Doğru söyləyənin təpəsi deşik olur» (türk, azərbaycan) paremiyası öz konseptual mənası əsasında ömür sürür – konseptual bir həyat faktının nominasiyası kimi. Həmin konseptual faktın strukturu paremiyanın strukturu ilə izomorf nisbətdə olsa belə, paremiyanın mənşəyi deyil. Konseptual fakt əqli konstruktdur. O etimon ola bilməz. Etimon ancaq o fakt ola bilər ki, o paremiyanın ilkin «fotoqenativi» olub, zaman-məkan denotatı olub. Paremioloji etimologiyanın ən çətin sistemləşən məqamlarından biri də budur: «tekst →simvol→məna strukturu (siqnifikat) →denotat» modeli etimologiyaya çox vaxt sadəcə olaraq sığmır, çoxlu sayda qeyri-müəyyənliklər yaradır. Etimoloq-alimlər bunu gözəl duyur, elmi prinsiplərini sırf söz-leksem etimologiyası əsasında qururlar.

Biz mülahizələrimizdə bir qədər paremiyaların leksem tərkibindən uzaqlaşdıq. Qeyd etməliyik ki, istər struktur element səviyyəsində, istərsə də ümumi quruluş səviyyəsində paremioloji etimologiyasının qarşısına çıxan problemlərin çətinliyi sübut etmək lazım gəlmir.

Azərbaycan dilindəki «bəy verən» elementinin leksem xarakterli olması, məsələn, bir neçə yolla sübut oluna bilər:

1) paremiyadan savayı bu element digər konstruksiyalarda işlənmir, müstəqil söz birləşməsi kimi dildə yoxdur;

2) «bəxşiş» sözünün (lekseminin) göstərilən söz birləşməsi ilə dublet-sinonim olmağı «Bəy verən atın dişinə baxmazlar» paremiyasının olduğu bütün dillərdə (türk, ingilis, rus, alman) (6, 225) funksional xarakter daşıyır:

Türk dilində
- Beyin verdiği atın dişine bakılmaz (4, Ic., 57)
- Bahşış atın dişine bakılmaz (4, I c., 47)
- Beleş (bahşış) atın dişine (yaşına, yularına) bakılmaz (3, 55)

İngilis dilində
- Look not a gift horse in the mouth (6, Ic., 225)
- Don't look a gift horse in the mouth (1, 77)
- Never look a gift horse in the mouth

Müqayisəli analizin nəticəsi, fikrimizcə, şübhə doğurmamalıdır. Çünki, gördüyümüz kimi, Azərbaycan paremiyasında işlənən «bəy verən» elementinin «bəxşiş», «müftə», «havayı» anlayışlarına uyğunluğu başqa dillərdə də özünü göstərir (müq: rus dilində «darenıy», «darovoy»).

Dediklərimiz «təpəsi deşik» arxaizmində aiddir («Doğru danışanın təpəsi deşik olur»). Arxaizm «başıqapazlı», «qapazaltı» mənasında işlənir, hər dəfə başına qapaz dəyməyin ucbatından başındakı papağın deşilməsindən söhbət gedir. Bu bir məcaz formasıdır. Belə birləşmə nümunələri (təpəsi deşik, kürkü tüstülü, göy əski, dəyirman xoruzu, bəy evindən gələn küt; bəynən bostan, dəryada balıq (tutulmamış balıq), qarıdan qorxmaq, can borcu və s.) çox vaxt paremiyanın ümumi semantik inkişafını izləməyə, etimoloji dayaq nöqtələri tapmağa imkan yaradır.

Götürək «ilan boğan» birləşməsini. Mənasını hamının yaxşı bildiyi «Uşağın ilan boğan vaxtıdır» zərbi-məsəlin etimologiyası məhz konkret (mifoloji) şəxsin ilanı boğmağı ilə bağlı olduğunu şərh etmək çətin deyil. Amma bu qəbildən olan birləşmə və ifadələr (ümumi strukturun elementləri kimi) çox vaxt paremiyanın semantik strukturu ilə, onun ümumiləşmiş (siqnifikativ) mənası ilə bağlı olaraq, paremiyanın denotativ-etimoloji fakturası ilə heç bir əlaqədə olmur, onun etimoloji motivasiyası ilə uyuşmur: «mənzil kəsmək» ifadəsi «Asta gedən mənzil kəsər» atasözündə işlənən arxaik ifadədir; bu birləşmə atalar sözünün mənşəyini (denotat həyati faktı) müəyyən etməyə heç bir kömək etmir. Bununla bərabər, təxminən nə vaxtlar deyilə bilən paremiya olmasına dəlalət edə bilər, çünki «mənzil kəsmək» elementi müasir dildə işlənmir. «Mənzil» sözü isə «məsafə» (iki məkan nöqtəsi) mənasında yalnız «ortamənzilli», «uzaqmənzilli» hərbi terminlərdə qalıb və işlənir.

Ümumiyyətlə baxanda spesifik dil-nitq elementlərinin (o cümlədən arxaizmlərin) paremiyaların tərkibindəki rolunu öyrənmək paremiologiyanın əsas leksikoloji semantika məsələlərindən biri kimi çox aktualdır.

Yuxarıda qeyd etdiyimiz kimi, etimoloji araşdırmalar bu və ya digər paremiyanın zaman-məkan daxilində reallaşmış (tarix xronologiyası olan) faktın «adının» müəyyənləşməsidir; kim tərəfindən nə vaxt ilk dəfə qələmə alınmağı etimologiyasının başqa üzüdür, başqa denotativ aspektidir. Deyim və söyləmlərin leksik tərkibini

bu denotativ aspektdən araşdırılmasının elmi-nəzəri əhəmiyyəti yox dərəcəsindədir, xüsusi ilə paremiyanın əsas etimolojisi məlum olmayanda.

«Qız ağacı» məfhumu nə türk, nə Azərbaycan dillərində, fikrimizcə, yoxdur; belə bir təyini söz birləşməsi ancaq atalar sözü «Qız ağacı – qoz ağacı, sındırarsan – yox əlacı» («hərə bir daş atar») tərkibində işlənmiş elementdir. Bu paremiyanın (və bu qəbildən olan paremiyaların) mənşəyi həyati ümumiləşmə ilə, əqli nəticə ilə bağlı olduğundan, «denotativ etimoloji fakt» kimi ancaq onu birinci dəfə istifadə etmiş adamın adını çəkməklə tamamlanır. Bu paremiyanın hər hansı bir konkret həyati faktla, hadisə ilə bağlı olduğunu güman etmək çətindir. Əsrlər boyu hər hansı bir etnik qrup, xalq öz coğrafi mövqeyindən, etnokültür baxımından çıxış edərək ətraf mühitin faktlarına (çox vaxt spesifik, başqa xalqlara şamil olunmayan) ümumiləşmiş qiymət, aksioloji xarakteristika verir: ümumbəşəri qiymət də olsa, bəzən hər hansı bir xalqa xas olmayan, onun coğrafi və ya digər amillərində yer tutmayan faktın inikası olur.

«Dağ dağa kavuşmaz, insan insana kavuşur» (3, 89) türk atasözünün dilimizdə «Dağ dağa qovuşmaz, insan insana qovuşar» (5, 233) konstruksiyalarını azərbaycan-türk söyləmi kimi qəbul etmək çətin deyil, o halda ki, başqa dillərdə bu konstruksiya eyni leksik tutumda, eyni mənada işlənməsəydi:

– Men may meet but mountains never (friends may meet…). Bu konstruksiya qədim yunan, latın, alman, fransız, rus dillərində də işlənir (6, 209). Ancaq M.İ.Mixelson onun «Talmud»dan (iudaizmin dini-etik görüşlərinin məcmusundan) tərcümə olunduğunu iddia edir: Turo beturo lo poda, inesch beinesch poda (6, 109).

Beləliklə, məlum olur ki, faktiki olaraq göstərilən paremiya bir məxəzdən pöhrələnib bütün başqa dillərdə mütləq kalka kimi həyat vəsiqəsini almışdır, çünki «Talmud» b.e.ə. IV əsri və b.e. V əsrini əhatə edən bir dini-etik və hüquqi məcmuədir; onun yayılma tarixi də çox qədimdən başlayır. Hər bir halda deyimin «Talmuddan» qaynaqlanmağı onun etimologiyasının məxəz və xronoloji əlamətləridir. Deyimin mənasının referenti (onun hansı hadisəni əks etməyi) məlum deyilsə, deməli etimoloji araşdırma tam şəklini almır; konstruksiyanın leksik tutumu da ona ancaq «kalka» formulunu şamil etməyə kömək edir. Ancaq, türk dillərində hansı dildən kalka olunmağı aydın deyil. Ehtimal edirik ki, türk dilinə alman dilindən, azərbaycan dilinə isə rus dilindən kalkalanmışdır. Bu bizim təxmini qənaətimizdir.

Çox vaxt etimoloji referent daha qabarıq olur: paremiyanın sintaktik quruluşu hər üç (bəlkə də daha çox) dildə ekvivalent formasını saxlayır; paremiyanın leksik tərkibi prinsipcə adekvat, sintaktik strukturu adekvat, referent nöqtəsi (etimon hadisə) identik olur. Belə hallarda etimoloji analiz axırıncı səhifələrinə qədər açılır:

– Əgər dağ Məhəmmədin yanına gəlmirsə, Məhəmməd dağın yanına gedər;

– If the mountain won't come to Mohomet (Muhammad), Muhammad must go to the mountain (7, 162).

İfadənin etimologiyası «Qurani-Kərimdə» 20-ci ayədə öz əksini tapmışdır. Başqa bir traktovka ingilis filosofu F.Bekonun (1561-1626) adı ilə bağlanır. Filosof öz «Mənəvi və siyasi oçerklər»inin birində Peyğəmbərin dağı yerindən tərpədəcəyinə söz verməsi təsvir olunur. Dağı yerindən tərpədə bilməyəndə Peyğəmbər deyir: «Bir halda ki dağ Məhəmmədin yanına gəlmir, onda Məhəmməd dağın yanına gedər» (6, 286).

Paremiyaların söz-leksem tərkibinin bu və ya digər dərəcədə sabit qalması onların həm sintaktik quruluşunun sabit qalmasına, həm də etimoloji referentinin yaddan çıxmamasına çox kömək edir. Analizə cəlb olunmuş vahidlərin leksik-qrammatik xüsusiyyətləri həmişə diqqət mərkəzində olacağı halda, biz etimoloji təhlilin bir neçə mümkün formasını təqdim edəcəyik:

1. Birinci halda paremiya-frazeoloji vahidin etimoloji həcminin tərkibinə a) vahidin arxitektonik spesifikası haqda məlumat (bu məlumat etimoloji aydınlıq səviyyəsində əhəmiyyətlidirsə); b) vahidin ilkin yaranma (istifadəyə buraxılması) vaxtı və məkanı (konteksti); c) vahidin etimoloji referentinin müəyyən edilməsi (hansı hadisə və ya həyati faktla bağlı deyilib); d) konstruksiyasının semantik strukturunun dildaxili ümumiləşdirmə əsasında (kiminsə simvolik ümumiləşdirməsi – qnoseoloji qənaəti baxımından) yaranması haqda məlumat daxil ola bilər. Bu məlumatların hamısı olduqda analizə cəlb olunmuş vahid özünün mütləq etimologiyasının təsvirini tapmış olur.

2. İkinci halda etimoloji təsvir ya etimon-referentin təyin oluna bilməməsi ilə, ya ilkin yaranma vaxtının dəqiqləşdirilə bilməməsi ilə nəticələnir. Bu, tam etimoloji analiz hesab olunur (mütləq həcmli yox). Belə etimoloji araşdırmalar nisbətən çoxdur.

3. Üçüncü halda natamam etimoloji təsvirlə kifayətlənməli oluruq: referent – etimon müəyyən olunmur, yaranma tarixi ya qeyri-dəqiq, ya da tamamilə qeyri-müəyyən olur. Bu əsnada paremiya-frazeoloji vahidin ancaq a) dil-məxəzi müəyyən olunur, b) iqtibas olunduğu / spesifik olduğu müəyyən edilir, c) semantik cəhətdən bir elə də əhəmiyyətli olmayan hər hansı periferik bir əlamət açıqlanır.

4. Paremioloji vahidlərin etimologiyası çox vaxt qeyri-müəyyən qalır. Bu, dil tarixinin qanunauyğunluğu səviyyəsində qəbul olunur: dilin inkişaf tarixi nəsillərin tarixinə sığmır, o, xalqın ilkin inkişafı ilə çağdaş tarixini birləşdirir. Bu sistemdə bəzi «bəndlər» yaddan çıxır, yazılı ədəbiyyatda özünə yer tapmayıb, xatirələrdən silinir. Ona görə də dildə mövcud olan bütün paremioloji vahidlərin mənşəyini təyin etmək mümkün deyil. Bu araşdırmalar ancaq mümkünlük çərçivəsində aparıla bilər.

5. Paremioloji vahidlərin, frazeoloji birləşmələrin və «qanadlı sözlər» qəbiləsindən olan konstruksiyaların etimoloji tədqiqi eyni üsullarla (prinsiplərlə) aparıla bilməz. Nəticə etibarı ilə birincilər qanadlı sözlərdən anonimlik /qeyri-anonimlik əlaməti ilə fərqlənir. Paremioloji konstruksiyanın (əsasən, atalar sözlərinin) oppozitiv «strukturu» onun obrazlı (məcazi) və qeyri-məcazi mənalarının toqquşmasından ibarətdir. Bu əlamət frazeoloji birləşmələr üçün mütləq deyil.

6. Semantik-struktur identikliyi ilə fərqlənən və bir neçə dildə işlənən paremiyaların mənşə qaynaqları bir xalqın deyil, invariant insanın təfəkkürünün universal məntiq qanunlarına tabe olmağının bariz nəticəsidir. «Universal» konstruksiyalarla sırf spesifik konstruksiyaların mövcudluğu dilin paremioloji fondunun sistemli xarakterini sübut edir.

Ədəbiyyat

1. Abbasov A.Q. İngiliscə-azərbaycanca atalar sözləri və zərb-məsəllər lüğəti. Bakı: Turan evi, 2009, 470 s.
2. Aksoy Ömer Asim. Atasözleri ve deyimler (El kitabı). Ankara Universitesi Basim evi, 1968, 184 s.

3. İlhami Yalınkılıç. Atasözleri. İstanbul-Eylül, 2001, 334 s.
4. Hüseynzadə Ə.N. Atalar sözü. Bakı: Yazıçı, 1985, 690 s.
5. Türk atasözleri ve deyimleri. 2 ciltte. İstanbul, 1997, 320 s.
6. Михельсон М.И. Русская мысль и речь. Своё и чужое. Опыт русской фразеологии. В 2-х т. Изд. V, М.: Терра, 1994, 1400+ 250 с.
7. Модестов В.С. Английские пословицы и поговорки и их русские соответствия. М.: Русский язык Медиа, 2005, 468 с.
8. Трубачев О.Н. Этимология и текст //Современные проблемы языкознания и литературоведения. М.: Наука, 1974, с. 448-455.

Alaattin Erdogan

Lexical capacity of paroemiological units and
volume of etymological information
Summary

The article is dedicated to the essential role of lexical meaning of paroemialogic units in Turkish and Azerbaijani languages. It's noted that lexical units and certain word combinations have different sense in process of disclosure of paroemiologic units' etymology. Among lexical units are distinguished supportive words which by their semantic structure help to detect etymological map of proverb or saying. But not all the lexemes in a composition of proverb construction perform this function.

Аладдин Эрдоган

Лексический охват паремиологических единиц и объем этимологической
информации
Резюме

Статья посвящена особой роли лексического наполнения паремиологических единиц в турецком, азербайджанском языках. Отмечается, что лексические единицы и некоторые сочетания слов обладают не одинаковой смысловой нагрузкой в процессе раскрытия этимологии паремиологических единиц. Среди лексических единиц ыделяются опорные слова, которые по своей семантической структуре помогают выяснению этимологической картин пословицы или поговорки. Эту роль выполняют не все лексемы, входящие в состав пословичнолй конструкции.

Rəyçi: Professor İlyas Həmidov

ГЮЛЬЗАР НОВРУЗОВА
Д.ф.и.н., ведущий научный сотрудник НИЛ «Азербайджанцы мира»
Бакинского Государственного Университета
xanuma 59@bk.ru

ЯЗЫКОВЫЕ ПРОБЛЕМЫ ТЮРКСКИХ НАРОДОВ РОССИИ

Açar sözlər: türk etnosu, Russiyanın türklər yaşayan məkanı, türk xalqlarının milli eyniliyi, mədəni irs
Ключевые слова: тюркский этнос, тюркское пространство России национальная идентичность тюркских народов, культурное наследие.
Key words: Turkic ethnic, Turkic Russian space, the national identity of Turkic peoples, cultural heritage.

В многонациональной независимой России многообразие языковой палитры имеет свои плюсы и минусы. Плюсы заключаются в том, что народы, имеющие свое государственное образование в форме республики, в Конституциях декларируют равноправное использование двух языков – государственного русского и национального языков. В статье 68 Конституции Российской Федерации записано, что каждая республика в составе Российской Федерации вправе определять свой язык. В органах государственной власти и местного самоуправления он употребляется наряду с государственным русским языком [1].

Например, в статье 8 Конституции Удмуртской Республики записано: «Статья 8. Государственными языками Удмуртской Республики являются русский и удмуртский языки. В Удмуртской Республике гарантируется право на сохранение и развитие языков других национальностей» [2].

В Конституции Республики Татарстан также записано об использовании на территории республики двух равноправных языков – русского и татарского [3].

Минусы данной языковой ситуации за4лючаются в том, что другие субъекты федерации – национально-государственные образования (край, область, автономный округ или область) не имеют права в законодательном порядке объявлять о параллельном использовании двух языков, не говоря уже о языках коренных малочисленных народов России. Речь о народах Севера, Сибири и Дальнего Востока, проживающих в составе той или иной административной единицы Российской Федерации и не имеющих своей законодательной базы, закрепляющих развитие, изучение и пропаганду национального языка.

Современный коренной тюркский этнос Российской Федерации представлен 33 народами.

Угроза исчезновения языковой культуры коренных и малых народов привела к тому, что Федеральными органами Российской Федерации принимаются Законы, гарантирующие права и свободы коренных малочисленных народов Сибири и Дальнего Востока, проживающих в составе РФ. Это федеральные законы: «О гарантиях прав коренных малочисленных народов Российской Федерации» [4], «О языках народов Российской Федерации»; Кон-

цепция федеральной целевой программы «Экономическое и социальное развитие коренных малочисленных народов Севера, Сибири и Дальнего Востока до 2015 года» [5]; «Единый перечень коренных малочисленных народов Российской Федерации» [6] и др

Языковая проблема коренных малочисленных народов в том, что в численность и национальность 12 народов в период проведения Всесоюзных переписей не признавалась. Из 12 представителей малых народов 9 – это тюркские народы: долгане, кумандинцы, сойоты, тофалары, тубалары, тувинцы-тоджинцы, челканцы, чулымцы, шорцы.

После обретения независимости в судьбе тюркских народов произошли изменения. Федеральным правительством были задействованы меры по сохранению численности и языка, культуры и традиций коренных малочисленных народов. Но и здесь имеются издержки. Так, Федеральный Закон «О гарантиях прав коренных малочисленных народов Российской Федерации» гарантирует то, что лица, относящиеся к коренным малочисленным народам, могут «создавать в соответствии с законодательством Российской Федерации и со своими материальными и финансовыми возможностями учебные группы, состоящие из лиц, относящихся к малочисленным народам, для их обучения традиционным хозяйствованию и промыслам малочисленных народов» [7]. Следовательно, федеральные власти страны считают, что проблема сохранения языков, получение какого-нибудь образования, издание учебников и литературы на родном языке, подготовка собственных национальных кадров дело самих народов.

Вопрос решения и сохранения того или иного тюркского языка лежит в плоскости отсутствия общеобразовательных школ на родном языке. Это подчеркивается и в Концепции Федеральной Целевой Программы: «Практически во всех районах проживания этих народов дневные общеобразовательные школы находятся в аварийном состоянии или требуют капитального ремонта, что ведет к снижению числа данных образовательных учреждений. Школы испытывают недостаток педагогических кадров, не укомплектованы учебной и учебно-методической литературой, пособиями для внеклассного чтения, особенно на языках коренных малочисленных народов, слабо оснащены современными техническими средствами обучения. Особой проблемой является обучение родному языку, который в школах изучают не более 50 процентов учащихся.

В ряде районов проживания коренных малочисленных народов отсутствуют средние специальные учебные заведения с ориентацией на подготовку специалистов для традиционных отраслей хозяйствования и промыслов» [8]. Таким образом, федеральные власти страны считают, что проблема сохранения языков, получение какого-нибудь образования, издание учебников и литературы на родном языке, подготовка собственных национальных кадров дело самих народов**.**

Право на этнокультурное развитие, включающее языковое развитие, должно быть неотъемлемым правом населения регионов Российской Федерации. Однако многие республики не обладают достаточными материально-финансовыми ресурсами, что препятствует реализации данного права. Фе-

деральное правительство страны должно учитывать финансовые возможности регионов проживания коренных малочисленных народов Севера, Сибири и Дальнего Востока и увеличить ресурсы федерального бюджета для финансирования строительства общеобразовательных и средних специальных учебных заведений, культурных центров, издания учебников и литературы на родном языке, сохранения национально-культурной самобытности народов.

Под угрозой исчезновения языков находятся тюркские языки – долганский, кумандинский, сойотский, тофаларский, тубаларский, тувинско-тоджинский, челканский, чулымско-тюркский, шорский. Языковая проблема коренных народов Российской Федерации настолько драматична, что ЮНЕСКО посчитало идиш, калмыцкий и удмуртский языки, находящимися под угрозой исчезновения, хотя они и являются государственными языками республик РФ.

Складывается критическая ситуация. Российская Федерация приняла «Рекомендации ЮНЕСКО по сохранению традиционной культуры и фольклора», «Программу по сохранению нематериального культурного наследия», составной частью которой является сохранение и возрождение языков малых коренных, в том числе тюркских народов.

В 2006 году Институтом этнологии и антропологии РАН при поддержке Московского бюро ЮНЕСКО был выпущен DVD-диск «Языки народов Сибири, находящиеся под угрозой исчезновения». Основной тюркский этнос России проживает на территории Сибири. Попытки научной общественности РФ в совместном проекте с ЮНЕСКО – это первые шаги в сохранении языкового пространства тюрков России. В 2007 году был издана «Кумандинская азбука».

Помимо решения финансовой проблемы необходимо уменьшить процесс русификации всех сфер жизни народов, который привел к тому, что носителями языков являются, как правило, старейшины рода, клана, семьи. Среднее и молодое поколение говорят исключительно на русском языке. На последовательную утрату родного языка оказывают влияние и межнациональные браки. Ученый Алтайского госуниверситета И.И.Назаров в своей статье «Кумандинский этнос сегодня» пишет по этому поводу: «Активнее всего в межнациональные браки вступают кумандинские девушки. Они выбирают своих спутников жизни из среды русского населения Случаи браков между кумандинками и немцами единичны. Кумандинцы-мужчины реже вступают в межнациональные браки, и, как мы видим из вышеприведенных цифр, среди них высок процент холостых. По-видимому, «непривлекательность» кумандинцев-мужчин в качестве брачных партнеров определяется их низким образовательным уровнем и высоким уровнем безработицы в сельской местности.

В семьях, где один из родителей кумандинец, а другой – русский, кумандинский язык также не используется»[9]. Следует подчеркнуть, что межнациональные браки влияют и на демографическую картину. Большинство детей, рожденных в таком браке, выбирают русскую национальность.

Представленная ниже таблица дает информацию о численности коренных малых тюркских народов, владению родным и русским языком по итогам Всероссийской переписи населения за 2002 год.

Таблица 1

Общая численность и владение языками представителями малочисленного коренного тюркского населения по материалам Всероссийской переписи населения 2002 года

Коренные малочисленные тюркские народы России	*Общая численность коренных малочисленных тюркских народов России*	*Языки коренных малочисленных тюркских народов России*	*Из них владеют*	
			русским языком	*Число лиц, владеющих языком данной национальности*
Долгане (долган,дулган,саха с языком долганским)	7261	Долганский	6757	4865
Кумандинцы(алтайцы-кумандинцы,карга, куманды, тадар, шабат)	3114	Кумандинский	3106	1044
Сойоты	2769	Сойотский	2459	2623
Тофалары (карагасы, тофа)	837	Тофаларский	829	378
Тубалары	1565	Тубаларский	1562	436
Тувинцы-тоджинцы	4442	Тувинско-тоджинский	3559	4406
Челканцы	855	Челканский	842	539
Чулымцы	656	Чулымский	656	270
Шорцы	13975	Шорский	13934	6210

Источник: Национальный состав и владение языками, гражданство, т.4.кн.1. Национальный состав населения.сс.7-19; Население по национальности и владению русским языком.сс..20-24. Итоги Всероссийской переписи населения 2002 года.

Как видно из таблицы, основная часть населения первостепенно использует русский язык как язык общения, а родной язык на бытовом уровне.

Материалы Всероссийской переписи населения 2010 года показывают совсем иную картину. Численность населения, владеющего родным языком, увеличилась.

Таблица 2

Коренные малочисленные тюркские народы России	*Общая численность коренных малочисленных тюркских народов России*	*Всероссийская перепись2010 года*

	*Всероссийская перепись 2002 года **	*Всероссийская перепись2010 года***	*Владеют родным языком ****	*Владеют русским языком*****
Долгане (долган, дулган,саха с языком долганским)	7261	7885	7872	7463
Кумандинцы (алтайцы-кумандинцы,карга, куманды, тадар, шабат)	3114	2892	2888	2890
Сойоты	2769	3608	3606	3320
Тофалары (карагасы, тофа)	837	762	762	761
Тубалары	1565	1965	1964	1959
Тувинцы-тоджинцы	4442	1858	1858	1322
Челканцы (аксак, кертен и др.)	855	1181	1181	1181
Чулымцы	656	365	355	355
шорцы	13975	12888	12836	12848

Источник:* Национальный состав и владение языками, гражданство, т.4.кн.1. Национальный состав населения с.7-19; Население по национальности и владению русским языком с.20-24. Итоги Всероссийской переписи населения 2002 года.

** 1.Национальный состав населения. СС.9-21 том 4. Всероссийская перепись населения 2010 года. www.gks.ru

*** 3.Население по национальности и владению русским языком. сс.25-28 . том 4. Всероссийская перепись населения 2010 года. www.gks.ru

**** С. 2154 .2155.2158 2159 22. Население коренных малочисленных народов Российской Федерации по родному языку СС.2154-2165.том 4.Национальный состав населения. Всероссийская перепись населения 2010 года. www.gks.ru

Из материалов переписи 2010 года видно, что общая численность коренных малых народов сократилась. Существенно сократилась численность тувинцев-тоджинцев на 2584 человек, шорцев – на 1087, чулымцев – на 291 ,тофалар – на 75, кумандинцев – на 222 человек. И этот фактор также влияет на развитие и использование родного языка.

В 2004 году была издана «Красная книга языков малочисленных тюркских народов России». Здесь четко описаны проблемы малочисленных тюркских народов, связанные с отсутствием письменности вообще или же

имеющие недавно созданную письменность. Так «Письменность на *долганском языке* была создана только в конце 70-х годов XX столетия. В 1978 году был утверждён алфавит на кириллице, учитывающий особенности фонематического строя языка, а также русскую и якутскую графику. В настоящее время этот язык используется в основном в бытовом общении….

Сойотский язык бесписьменный, в своём развитии он испытал значительное влияние монгольского языка, на современном этапе — бурятского и русского. Ныне сойоты почти полностью утратили свой язык: его помнят представители только старшего поколения. Язык сойотов изучен очень слабо.

Телеутский диалект первым приобрёл письменность, разработанную миссионерами, она включала буквы русского алфавита, дополненные особыми знаками для специфических алтайских фонем. Характерно, что с некоторыми незначительными изменениями эта письменность существует до наших дней. Изменённым миссионерским алфавитом пользовались до 1931 года, когда был введён латинизированный алфавит. Последний в 1938 году был вновь заменён письменностью на русской основе.

Тофаларский язык, иногда сам, а иногда вместе с другими тюркскими языками Саяно-Алтая и якутским сохраняет ряд архаичных черт, некоторые их них сопоставимы с древнеуйгурским языком. Изучение фонетики, морфологии и лексики тофаларского языка показало, что этот язык является самостоятельным тюркским языком, имеющим как специфические черты, так и признаки, объединяющие его либо со всеми тюркскими языками, либо с их отдельными группами.

Тофаларский язык всегда был бесписьменным. Однако его фиксация была осуществлена в научной транскрипции в середине XIX века известным учёным М.А.Кастреном, а в конце XIX века Н.Ф.Кафтановым. Письменность создана только в 1989 году на русской графической основе. С 1990 года началось преподавание тофаларского языка в начальных классах тофаларских школ. Составлены букварь и книга для чтения для 1 и 2 классов.

В Тыве до 99 процентов тувинцев считают свой язык родным, это один из самых высоких показателей по Российской Федерации сохранности национального языка как родного. Однако, с другой стороны, сохранению диалектных особенностей в Тодже способствует также устойчивость традиционных форм хозяйствования в регионе: разведение оленей и скота, охота на пушного зверя, рыболовство, то есть общение в условиях привычной хозяйственной среды, причём здесь в трудовой деятельности активно участвует и молодёжь, что обеспечивает языковую преемственность.

Таким образом, языковую ситуацию у тувинцев-тоджинцев следует оценивать как одну из наиболее благополучных среди других малочисленных этносов в Сибирском регионе.

История письменности *шорского языка* насчитывает более 100 лет: в 1883 году была издана на кириллице первая книга на шорском языке — «Священная история», в 1885-м составлен первый букварь. До 1929 года письменность основывалась на русской графике с добавлением знаков для специфических тюркских фонем. С 1929 по 1938 год использовался алфавит на латинской основе. После 1938 года вернулись снова к русской графике.

Сейчас изданы учебники и книги для чтения для начальной школы, учебники для 3-5 классов, готовятся шорско-русский и русско-шорский словари, создаются художественные произведения, печатаются фольклорные тексты. В Новокузнецком педагогическом институте открыто отделение шорского языка и литературы (первый набор студентов произведен в 1989 году). Однако родители не стремятся обучать детей родному языку»[10].

В целях сохранения национальной самобытности тюркских народов России важно добиться от самих тюрков стремления в сохранении тюркизма, в улучшении образовательного и профессионального образования. Важно добиться от властей на федеральном и региональном уровнях увеличения бюджетных затрат на развитие тюркского языка и издание учебной и учебно-методической литературы, по подготовке педагогических кадров для общеобразовательных школ и средних специальных учебных ведений.

Пропаганда нематериального культурного наследия, увеличение интереса к культуре других тюркских народов России обуславливает необходимость внедрения в повседневную жизнь тюрков радио и телевидения, средств массовой информации, нанотехнологий.

Для решения языковой проблемы коренных малочисленных тюркских народов России, а в целом, и для сохранения тюркской этничности необходимо:

1. сохранить тюркское пространство в Российской Федерации;
2. создать экологические зоны среды обитания тюркских народов и возместить материальный ущерб, нанесенный среде их обитания на протяжении столетий, т.е. с момента присоединения к российской империи;
3. создание общественных национальных движений, ассоциаций, обществ (по примеру Общества «Шория», Ассоциации шорского народа) в целях сохранения национального фольклора и национальной одежды, традиционных промыслов и видов хозяйствования;
4. решить проблему подготовки национальных кадров и решить социальные проблемы педагогических кадров на местах в целях остановки текучести кадров;
5. специалистам-этнографам тюркских стран совместно с Сибирским отделением Российской Академии Наук организовать этнографические экспедиции по сбору материалов нематериальной культуры тюркских народов России.

Для сохранения национальной самобытности и идентичности тюркских народов, проживающих в России, необходимы совместные усилия всего тюркского мира. Решение всех этих проблем будет возможным при деятельности и координации Всемирного тюркского центра.

Литература:

1.Конституция Российской Федерации. принята всенародным голосованием 12 декабря 1993 года. Ст.68.
2.Конституция Удмуртской Республики от 7 декабря 1994 г. (с изменениями от 11 мая 1995 г., 9 января 1998 г., 24 января, 26 марта, 18 апреля, 28 ноября

2000 г., 22, 26 февраля, 12 сентября 2002 г., 16 октября 2003 г., 29 декабря 2005 г., 22 ноября 2007 г., 9 октября 2009 г., 4 мая 2010 г., 6 мая, 29 июня 2011 г.)

3.Конституция Республики Татарстан (введена в действие Законом РТ от 30 ноября 1992 г. N 1665-XII) (с изменениями от 29 ноября 1994 г., 30 марта, 8 декабря 1995 г., 27 ноября 1996 г., 26 мая, 21 июля 1999 г., 3 марта, 31 мая, 19 декабря 2000 г., 28 июня 2001 г., 19 апреля 2002 г., 15 сентября 2003 г., 12 марта 2004 г., 14 марта 2005 г., 30 марта, 22 ноября 2010 г.)

4. Федеральный Закон «О гарантиях прав коренных малочисленных народов Российской Федерации». Принят Государственной Думой РФ 16 апреля 1999 года

5. Закон РФ от 25 октября 1991 г. N 1807-I «О языках народов Российской Федерации» (с изменениями и дополнениями)

6. Постановление Правительства Российской Федерации от 24 марта 2000 г. № 255 «Единый перечень коренных малочисленных народов Российской Федерации» (утвержден постановлением Правительства РФ от 24 марта 2000 г. N 255) (с изменениями от 13 октября 2008 г., 18 мая, 17 июня, 2 сентября 2010 г.

7. Постановление Правительства Российской Федерации от 24 марта 2000 г. № 255 «Единый перечень коренных малочисленных народов Российской Федерации» (утвержден постановлением Правительства РФ от 24 марта 2000 г. N 255) (с изменениями от 13 октября 2008 г., 18 мая, 17 июня, 2 сентября 2010 г.)

8.Федеральный Закон «О гарантиях прав коренных малочисленных народов Российской Федерации». Статья 10. Принят Государственной Думой РФ 16 апреля 1999 года.9.Распоряжение Правительства РФ от 21.11.2007 № 1661-Р О Концепции Федеральной Целевой Программы «Экономическое и социальное развитие коренных малочисленных народов Севера, Сибири и Дальнего Востока до 2015 года».

9.Назаров И.И. Кумандинский этнос сегодня. Малые народы Сибири. Кумандинский этнос. Народная культура- Human Native Home. www.hnh.ru

10.«Красная книга» языков малочисленных тюркских народов России». Изд. «Татарский мир №2»,2004г.www.tatworld.ru.

Gulzar Novruzova

Language problems of the turkic peoples of russia

Summary

Preservation of the intangible cultural heritage, part of which is to maintain and revitalize languages facing extinction, is an important relationship in the policy of the Russian State with Turkic ethnicity. Russification and assimilation of peoples has led to the disappearance of literature and languages of many peoples of the country. Legislative base of the Russian Federation does not discriminate on the basis of language, freedom of choice of language, maintaining and developing all languages of the country. However, the development of State-of the Russian language has been at the detrimental of the development of the languages of small

indigenous peoples of Russia. The lack of indigenous literature and textbooks contribute to language eventually became the only means of communication. Study of the development of the Turkic peoples, including their languages to new affiliation is important not only for Russia but for the entire Turkic world.

Lack of access to education in their mother language, disappearance of written literature of Turkic peoples, the preservation of language at the level of resources of domestic communication among older persons and others are all the costs of the Soviet period, preserved to our days.

The critical group of disappearance of the Turkic languages include languages of the shorski peoples, tubalarov, chulym Tatars, Altaic people, hakasov, teleut people, telengitov, etc. Of course, the availability of primary education in their mother language, especially the restoration of the alphabet and writing of these people need huge financial expenses.

To preserve the national identity of Turkic peoples, living expenses in Russia requires the joint efforts of the Turkish world, in training and publications in examining and promoting the intangible cultural heritage.All these problems will be possible to solve with the activities and coordinating of Turkic World Centre.

The creation of such centre would help to maintain the Turkic world on the Russian area to preserve their national identity.

Gülzar Novruzova

Rusiyanin azsayli türk xalqlarinin dil problemləri

Xülasə

Rusiya dövlətinin ölkənin türk xalqları ilə qarşılıqlı əlaqələr siyasətində milli mənəvi dəyərlərin tərkib hissəsi olan və artıq itmək təhlukəsi yaşayan dillərin qorunması və dirçəldilməsi mühüm rol oynayır.

Rusiyada yaşayan qeyri rus xalqların ruslaşdırılması və assimilyasiyası nəticəsində ölkədə yaşayan bir çox xalqlar öz ana dilini və yazısını itirmişdir

RF-nın qanunvericilik bazasında əslində, dil seçimi azadlığını, ölkədəki bütün dillərin qorunmasını və inkişafını əngəlləyən qanun yoxdur.Lakin məsələ burasındadır ki, dövlət dili olan rus dilinin inkişafi Ruiyanın digər yerli və azsaylı xalqlarının dillərinin məhdudlaşması hesabına baş verir.Yerli xalqların dillərində ədəbiyyatın, dərsliklərin olmaması bir çox dillərin artıq bir ünsiyyət vasitəsi kimi itməsi ilə nəticələnmişdir.

Rusiyada yaşayan türk xalqlarının inkişafının, eyni zamanda da onların dil problemlərinin öyrənilməsi bütün türk dünyası üçün olduqca əhəmiyyətlidir

Türk xalqlarının ana dilində təhsil almaq imkanlarının olmaması,yazlarını itirmələri, ana dillərinin yalnız yaşlılar arasında məişət dili səviyyəsində qalması və s. əslində Sovetlər Birliyi dövründən günümüzədək qalan və bu gün də aktuallığını saxlayan problemlərdir.

Xüsusilə şorsların, tubaların, çulım tatarlarının, altayların, xakasların, te-leutların, telengitlərin və s. Dilləri itmək təhlükəsi olan kritik qrupa daxil olmuşdur

Əlbəttə ki, bu xalqların ana dillərində ibtidai təhsilin mümkünlüyü üçün ilk növbədə əlifbanın və yazının bərpasi tələb olunur ki, bu da çox böyük maliyyə xərcləri tələb edir.

Türk dünyası olaraq Russiyada yaşayan türk xalqlarının milli mənsubiyyətini qorumaq üçün iş birliyi yapmaq, nəşrlərin və kadrların hazırlanmasında qeyri-maddi mədəni irsin tədqiqinin və təbliğinin təşkili olduqca vacibdir.

Bütün bu məsələlər isə fəaliyyəti koordinasiya edən Umumdünya Türk mərkəzinin fəaliyyəti nəticəsində mümkün ola bilər.

Belə bir mərkəzin fəaliyyəti türk dünyasının Rusiya məkanındakı parçasina oz milli mənsubiyyətini saxlamaga imkan verecək.

Rəyçi: Solmaz Süleymanova
filologiya üzrə fəlsəfə doktoru, dosent

NAĞDƏLİ ZAMANOV
Azərbaycan Tibb Universiteti
tibb elmləri üzrə fəlsəfə doktoru, dosent
nagdali@mail.ru

HEYDƏR ƏLİYEVİN NİTQİNDƏ DİNİ ÜSLUBUN YERİ

Açar sözlər: Heydər Əliyev, nitq, dini üslub
Ключевые слова: Гейдар Алиев, речь, религиозный стил
Key words: Haydar Aliyev, speech , religious styl

Heydər Əliyevin nitqlərində, çıxışlarında ədəbi dilin bütün funksional üslubları bir vəhdətdə götürülür. O, öz nitqində yeri gəldikcə bütün üslub növlərindən istifadə edir. Bunula belə, nitqin mövzusundan, auditoriyanın tərkibindən və səviyyəsindən asılı olaraq onun nitqlərində həmişə üslub uyğunluğu gözlənilir və bu məsələ natiqin ciddi nəzarəti altında olur(1).

Bəzi müəlliflər müasir Azərbaycan ədəbi dilində aşağıdakı üslubıları ayırırlar:bədii üslub; elmi üslub; istehsalat-texniki üslub; ictimai-publisistik üslub; rəsmi üslub (2). Rus ədəbiyyatında elmi üslub, rəsmi işgüzar üslub, publisistik və danışıq üslubu ayırd edirlər. Bu zaman dini üslub danışıq üslubunun bir hissəsi kimi qeyd olunur (3).

Din ocaqlarında, dindarlar qarşısında çıxış və nitqlərə imkan verilmədiyi Sovetlər dövründə dini üslubdan danışmaq, təsnifatlarda dini üslubu ayırmaq mümkünsüz idi. Dini üslubdan dini mərasimlərdə, din ocaqlarında, beynəlxalq dini konfranslarda istifadə olunur ki, Heydər Əliyevin nitqində dini üslubun da özünəməxsus yeri var. Bu üslubun natiqlər qarşısında qoyduğu tələblər böyük natiq tərəfindən təkcə yerinə yetirilmir, özünəməxsus Heydər Əliyev nitq qəlibində cilalanaraq bu gün ilahiyyatçılar, din alimləri, dini dərsləri tədris edənlər üçün örnək olan, nümunə olan nitqə çevrilir.

Heydər Əliyevin nitqində dini üslubun yerini müəyyənləşdirmək məqsədilə onun din ocaqlarında, dini mərasimlərdə dindarlar auditoriyası qarşısında, "Beynəlxalq sülh və səbir" konfranslarındakı çıxışları əsas götürülmüşdür.

Heydər Əliyevin nitqində bu üslub sadə, aydın, ardıcıl cümlələrlə dinləyicilərə çatdırılır: "Kəbəni görmək, müqəddəs Qara Daşı öpmək, ona toxunmaq, onu ziyarət etmək, Kəbənin içərisinə daxil olmaq, orada namaz qılmaq, dua etmək mənə nəsib oldu" (IIc.s.82.83).

"Mən Mədinədə Həzrəti Məhəmməd Peyğəmbərin qəbrini ziyarət etdim. Peyğəmbərin namaz qıldığı minbərin pilləsində oturub, Quranı öpüb gözümə, alnıma basdım".

Bu sadə cümlələr "Quranı öpüb gözümə basdım", "Quranı öpüb alnıma basdım" mürəkkəb frazeoloji birləşmələrlə böyük natiqin dinimizə – islam dininə olan sonsuz məhəbbətindən xəbər verir. Elə bu sadə cümlələrlə də dini auditoriyalar fəth olunur.

Terminologoyaya söykənən elmi üslub böyük natiqin dini mərasimlərdəki çıxışlarına da hopur. Dinləyici din ocaqlarında akademik, elmi üslubun auditoriyanı işıqlandırdığının şahidi olur. Belə terminologiya sırasına "Allah-təala", "Həzrəti

Peyğəmbər", "şəhidlər", "səbir, təmkin", "Kərbəla şəhidləri", "orucluq", "qurban bayramları", "aşura günü" və s. aiddir.

Heydər Əliyevin 13 dekabr 1994-cü il Kasablanka zirvə toplantısındakı çıxışı bu gün də öz qüvvəsində qalan, müasirliklə səslənən, bu gün də kəskin ehtiyac duyduğumuz bir çıxışdır. Bu tam elmi üslubda dini araşdırmadır desək yanılmarıq:

"Biz haqlı olaraq fəxr edə bilərik ki, islam dünyası ümumbəşəri sivilizasiyaya öz layiqli tohfəsini vermişdir və neçə əsrdir ki, onun mənəvi inkişafına və təkmilləşdirilməsinə kömək edir".

Bu çıxış elmi-dini terminologiyaya söykənən, rabitəli geniş cümlələrlə davam edən bir elmi üslubdur.

"Bu gün dünyada mürəkkəb, ziddiyyətli proseslər getməkdədir: viranedici qlobal müharibələrin qarşısının alınması, dünyanın təhlükəsizliyinin yeni təminliyinin qoyulması kimi müsbət meyllər regional münaqişələrin artması ilə, yırtıcı millətçiliklə və dövrün başqa bəlaları ilə qarşılaşır. Bizim ölkələrimiz bu proseslərin qaynağındadırlar və biz beynəlxalq təhlükəsizliyin möhkəmlənməsinə, sülh və tərəqqi qüvvələrinin qələbəsinə lyiqli yardım etməliyik, öz səylərimizi göstərməliyik".

Üslubların bir-birinə yaxınlaşması prosesi artıq üslub birləşmələrinin yaranmasına gətirib çıxarmışdır. Hazırda elə nitq nümunələri var ki, onlarda müxtəlif üslubların sintezi özünü göstərir(4). Elmi üslub Heydər Əliyevin dini xarakterli çıxışlarında özünü bariz şəkildə göstərir.

10 fevral 1994-cü il İstanbulda "Sülh və səbir" beynəlxalq dini konfrans nümayəndələri qarşısındakı çıxış Heydər Əliyevin dini məsələləri elmi üslubda araşdırması baxımından xüsusi maraq doğurur. Elmi üslub üçün xarakterik olan terminologiya burada da- "vicdana çağırış", "sülh və barış", "dini xarakter", "dini mənsubiyyət", "etnik münaqişələr"- özünü göstərir.

Geniş cümlələr üzərində qurulan elmi üslub böyük natiqin dilində bu konfransda da səslənir. Dünyanın qarşısında bu gün fəlsəfədə ziddiyyətlər və münaqişələr probleminin araşdırılmasına yönələn bir nitqdir: "Təəssüf ki, son illərdə, iyirminci əsrin son mərhələsində dünyanın müxtəlif regionlarında sülh pozulmuş, insanlar arasında, dövlətlər arasında, ayrı-ayrı qruplar arasında toqquşmalar, vuruşmalar, müharibə gedir və bunların hamısı insanların rahat yaşamasına mane olur. Əsrimizin sonunda dünyada gedən ictimai- siyasi prosesləri təbii hesab edərək, heç vəchlə razılaşmaq olmaz ki, bu proseslər müharibə yolu ilə, toqquşmalar yolu ilə, qan tökmək yolu ilə getsin".

Heydər Əliyev nitqində dini üslub elmi uslubla çulğalaşaraq dini terminalogiyalardan geniş istifadəni önə çıxarır. Böyük natiqin nitqinin gücü üslubları dəyişmək yolu ilə auditoriyanı həmişə cansıxıcılıqdan, yeknəsəqlikdən azad etməsindədir. Dini-elmi üslubda danışan natiq məişət üslubuna keçməklə nitqinin hamı üçün başa düşülən etməsindədir. Heydər Əliyevin aşağıdakı məişət üslubu nitqinə nəzər yetirdikdə:

"İnsan hər bir səfərdən, ziyarətdən qayıdarkən bir tövhə gətirir. Oradan gələn ən böyük tövhə mənə verilmiş Qurani-Kərimdir... Gətirdiyim bu Quranı və çox gözəl səslə oxunan Quran ayəsi yazılmış kassetləri şəxsən Təzəpir məscidinə hədiyyə edirəm. Mən oradan, müqəddəs Kəbənin müqəddəs "Zəmzəm" suyundan da bir qədər gətirmişəm, onu da Təzəpir məscidinə verirəm. Güman edirəm ki, bu gün Təzə-

pir məscidinə toplaşanlar mənim Kəbədən, Məkkədən gətirdiyim "Zəmzəm"suyundan istifadə edəcəklər"– dünyada ən böyük töhfəni Qurani-Kərim hesab etməsi, Quranın gözəl oxunmasını, müqəddəs "Zəmzəm" suyunun məhz Kəbədə çıxdığını göstərir. Hətta məişət üslublu nitq belə öyrədicilik, düşündürücülük xüsusiyyətini özündə saxlayır.

Heydər Əliyevin dini üslubdakı çıxışları dövlətçilik elementləri ilə zəngindir. Gənc nəslin dövlətçilik ideyalarını mənimsəməsində, dini inancların dövlətçilik ilə harmoniyasını yaratmaqda bu üslub çox dəyərlidir..

Heydər Əliyevin dilində siyasi çıxışların özündə belə dini üslubu görmək olur: "Xarici qüvvələrin, xüsusən bizim üçün ən qatı düşmən olan erməni millətçilərinin əli ilə Azərbaycanı parçalamağa çalışan qüvvələr fəaliyyət göstərirdi və Azərbaycanın başı üzərində belə böyük təhlükə yaranmışdi. Allaha şükürlər olsun ki, bunların qarşısı alındı, Azərbaycanın parçalanmasına yol verimədi"

Dövtətçilik, dövləti sevmək ənənəsi Heydər Əliyev nitqinin əsasını təşkil edir ki, bu ənənə dini çıxışlarında mühüm yer tutur. Təzəpir məscidində dindarlar qarşısında çıxış edən Heydər Əliyev Allahın Kəbə evində etdiyi duaları dilə gətirməklə dövlətçiliyimizə, müstəqilliyimizə, ordu quruculuğumuza olan sevgini, bu sevginin Allah tərəfindən həyata keçirilməsinə etdiyi duanı dilə gətirir: "Biz müstəqil dövlətik. Müstəqil dövlətin özünəməxsus qüdrəti olmalıdır. Bu qüdrətin əsasını xalq və onun bir hissəsi olan ordu təşkil edir. Bizim güclü ordumuz olmalıdır... O müqəddəs yerlərdə mənim Allahdan arzum bu olub ki, müstəqil Azərbaycan dövlətinin qüdrətini daha da artırsın.(Yerdən səslər: Amin)"

Dini mərasimlərimizi bugünkü dövlətçiliyimizlə əlaqələndirmək, dini dəyərlərimizi bugünkü vətənpərvərliklə bağlaya bilmək böyük natiqin dini üslublu çıxışları üçün səciyyəvidir.

"Yağı düşmən torpaqlarımıza hücum edir. Azərbaycanın cəsarətli oğulları Vətənimizi müdafiə edir və bu yolda Həzrəti İmam Hüseyn kimi şəhid olurlar. Biz Vətən, torpaq, din yolunda canından keçmiş bütün şəhidlərin şücaəti qarşısında Kərbəla müsibətilə əlaqədar keçirilən bu mərasimdə bir daha baş əyir, onların xatirəsini qəlbimizdə daim yaşatmağa söz veririk".

Auditoriya dinimizin tarixini, onun məruz qaldığı repressiyaları, bu təzyiq və repressiyalara, təqib və qadağanlara sinə gərən insanların fədakarlığını Heydər Əliyevin dilindən eşidir, heyranlıqla qarşılayır: "Biz fəxr edə bilərik ki, xalqımız çox dəyərli xalqdır və zaman-zaman, əsrlər boyu cürbəcür məhrumiyyətlərə məruz qalaraq bütün bu adət-ənənləri unutmayıbdır. Nə vaxt ki, rəsmi dairələr bunu qadağan edib yaxud da buna mənfi münasibət göstərib, insanlar bunu qəlbində, öz ailəsində, evində yaşadıblar. Hətta bizim bəzi fədakar insanlar bu adət-ənənələrimizi yaşatdıqlarına görə əziyyətlər çəkiblər, bəzən də məhrumiyyətlərə, cəzalara məhkum olublar".

İslam tariximizdəki ibrətamiz hadisələri çağımızla əlaqələndirən böyük natiq auditoriyanı küçmişimizi unutmamağa çağırır: "Biz bundan sonra da Qurani-Şərifin, Həzrəti Məhəmməd peyğəmbərin qoyduğu yol ilə gedəcəyik və haqq-ədalət, vətən yolunda şəhid olmuş Həzrəti imam Hüseynin və onun bütün silahdaşlarının qəhrəmanlığını, şəhidliyini heç vaxt unutmayacağıq".

Dini tolerantlıq nədir? sualına ən gözəl cavab kimi böyük natiqin İstanbuldakı "Sülh və səbir" beynəlxalq dini konfransdakı çıxışından bir parçanı göstərə bilərik:

“Azərbaycanda tarixən çox millətlər yaşamışdır. Burada azərbaycanlılarla yanaşı ruslar, ermənilər, yəhudilər, gürcülər, ukraynalılar və başqaları da yaşamış və gələcəkdə də yaşayacaqlar. Azərbaycan Respublikasının çoxmillətli dövlət olmasını ölkəmiz üçün böyük üstünlük hesab edirik”.

Dini tolerantlıq baxımından Heydər Əliyevin qeyri-islam dinində olan ölkə vətəndaşlarına təbriklərdəki girişlər diqqətə layiqdir: “Əziz pravoslav həmvətənlər!”, “Əziz xristian həmvətənlərim!”, “Hörmətli həmvətənlərim!”, “Sizi

– respublikanın bütün xristianlarını İsa peyğəmbərin mübarək doğum günü – Müqəddəs Milad bayramı münasibətilə ürəkdən təbrik edirəm”, “Əziz həmvətənlər! Sizi dünya yəhudilərinin tövbə və mənəvi saflıq günü olan Roş-Ha-Şana – təzə il münasibətilə ürəkdən təbrik edir, hamınıza cansağlığı, xoşbəxtlik arzulayıram”.

Bu təbrik nitqlərində böyük natiq yəhudi və xristian icmalarının üzvlərini öz övladlıq borclarına, vətəndaşlıq borclarına sadiq qalmağa çağırır: “Əminəm ki, müstəqil Azərbaycanın ictimai-siyasi və mədəni həyatında, dövlət müstəqilliyimizin daha da möhkəmləndirilməsində bundan sonra da yaxından iştirak edəcək, doğulub yaşadığınız vətənə övladlıq borcunu layiqincə yerinə yetirəcəksiniz”.

“Azərbaycan ölkəmizdə yaşayan bütün xalqların doğma vətənidir” – deyən Heydər Əliyev sadə, qəlbləri riqqətə gətirən, ağsaqqalcasına və müdrikcəsinə sözlərlə həmin xalqların bayramlarını təbrik edir: “Əziz bayramınızı bir daha səmimi qəlbdən təbrik edirəm. Qoy bu müqəddəs Pasxa bayramı günlərində edilən bütün xoş diləklər və xeyir-dualar yerinə yetsin, xalqımız xoşbəxt və firavan həyata qovuşsun”.

“Qoy” əmr ədatı ilə güclənən fikir “diləklər yerinə yetsin”, “firavan həyata qovuşsun” frazeoloji söz birləşmələri ilə xristian həmvətənlərin qəlblərinə yol açır, onların bu vətəni özününkü hesab edərək, müstəqillik yolunda övladlıq borclarını yerinə yetirməyə çağırır.

Heydər Əliyevin pravoslav xristianlarına ünvanladığı təbriklərdə Azərbaycanı onların doğma vətəni hesab edir “Dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşların” dini azadlıqlarının təmin olunduğunu qeyd edən ulu öndər ölkəmizdə dini tolerantlığın bərqərar olmasını ictimaiyyətin diqqətinə çatdırır:

Dini üslubda Heydər Əliyevin ziyarətgaha toplaşanlar qarşısındakı çıxışları çox vaxt sadə olduğu qədər məntiqi ardıcıllığa söykənən, anlaşıqlı, eləcə də dərin, fəlsəfi tutuma malik olur: “Xalqımız milli azadlığa çıxıb, dövlətimiz artıq müstəqildir, heç kəsdən asılı deyil. Deməli, biz öz evimizi necə istəsək, eləcə dəquracağıq. “Ev” deyəndə mən Azərbaycanı nəzərdə tuturam. Yaxşı çalışsaq, bu evi işıqlı quracağıq. Əgər biganə qalsaq, bəzi hallarda pozğunluğa yol versək bu binanı yaxşı tikə bilməyəcəyik. Gəlin, hamımız əl-ələ verərək müstəqil Azərbaycanın, böyük Azərbaycan xalqının binasını, möhtəşəm binanı birlikdə gözəl tikək”.

Sabahkı günə inam, nikbinlik Heydər Əliyevin dini üslublu çıxışlarını, dindarlarla olan görüşlərini tərk etmir. Xoşbəxt günlərə aparan yolun dözümdən, dəyanətdən keçdiyini böyük natiq addımbaşı xatırladır: “Xalqımız bundan sonra ulu babalarının yolu ilə, Həzrəti Məhəmməd peyğəmbərin qoyduğu yol ilə gedəcək və xoşbəxt gələcəyə çatacaqdır. Azərbaycan xalqı bu çətinliklərin hamısına dözür və güman edirəm ki, bundan sonra da dözəcəkdir”.

Dini üslublu nitqlərində onun nikbinliklə dolu fikirləri auditoriyanı gələcəyə inamla baxmağa səsləyir: "Bu onu göstərir ki, bizim ənənələrimiz mənəvi, milli, dini dəyərlərimiz ölməzdir və bundan sonra da yaşayacaqdır. Biz, bizim nəsil, hamımız birlikdə - indi yaşayan insanlar xoşbəxtdirlər ki, bu günə gəlib çatmışıq, bizim müstəqil ölkəmiz, müstəqil dövlətimiz var, öz taleyimizin sahibiyik, dini, mənəvi, milli adət-ənənələrimizi bərpa etmişik və daha da geniş təbliğ edirik".

Başqa bir görüşdə – Zuğulba pansionatında məskunlaşmış köçkünlərin qarşısında – xalqımızın nikbinliyini dilə gətirir, bu xalqın qürurunu saxlayan, ən ağır hallarda belə tarixinə, adət-ənənələrinə sadiqliyini dilə gətirir. Bu zaman sinonim cərgələrin köməyi ilə auditoriyanı çətin günlərə hazırlayır: "Burada Şuşadan, Laçından, Xocalıdan qaçqın düşmüş soydaşlarımız – bacılarımız, qardaşlarımız, övladlarımız məskunlaşıblar. Bu, xalqımızın ağır şəraitdə yaşadığını göstərir. Ancaq xalqımız nikbindir, başını heç vaxt aşağı tutmayıb, sınmayıb, əyilməyib, heç vaxt diz çökməyib. Ona görə də bu ağır gündə, bəlalı gündə də biz adət-ənənələrimizi unutmuruq, Qurban bayramını qeyd edirik".

Dini üslubda çıxışlar edən Ulu öndər insanların dini azadlıqlarının qorunmasında qətiyyətli dövlət başçısı kimi çıxış edir, vətəndaşlar onun simasında dini azadlığın təminatçısını, qarantını görürlər: "Azərbaycanın prezidenti kimi, mən dəfələrlə qeyd etmişəm ki, ölkəmizin vətəndaşları dini, irqi mənsubiyyətindən, siyasi baxışlarından asılı olmayaraq eyni hüquqlara malikdirlər və onların hüquqları Azərbaycan dövləti tərəfindən qorunur. Əmin ola bilərsiniz ki, biz bu prinsiplərimizə daim sadiq qalacağıq və Azərbaycan vətəndaşlarının din, dil mənsubiyyətindən və siyasi baxışlarından asıl olmayaraq bir-biri ilə münaqişəyə girməsinə gələcəkdə də yol verməyəcəyik".

Auditoriyanın fəthi alqışlarla müşayiət olunursa, dini mərasim, yığıncaqlarda bu təkbirlərlə, dualarla müşayiət olunur. Bu dualar bir daha böyük natiqin dini auditoriyanı öz səmimiyyəti, dinimizə olan sevgisi, dinimizin qorunması yolunda qətiyyəti ilə fəth etməsinə sübutdur.

Heydər Əliyev çıxışlarının əsasını təşkil edən səmimiyyət, təvazökarlıq dini üslubda da auditoriyanı bəzəyir, canlandırır.

Təvazökarlıqla söylənən fikirlər onu dini auditoriyanın gözündə göylərə qaldırır: "Mən bilirəm ki, sizin hamınız dindar adamlarsınız, bu sözləri sizə deməyim bəlkə də artıqdır. Yerdən səslər: Möhtərəm Prezident, çox xoşdur. Hamisini qəbul edirik".

Yaxud: "Siz bu işləri məndən yaxşı bilirsiniz. Ancaq bir halda ki, görüşmüşük, öz fikirlərimi sizə çatdırmaq istəyirəm. Hər halda, pezidentin də fikrini bilmək sizin üçün artıq olmaz. Yerdən səslər: Allah sizə cansağlığı versin, kölgəniz bizim üstümüzdən əskik olmasın!"

Müstəqillik dövrünədək əski Sovetlər birliyində mühüm dövlət postları tutan Heydər Əliyevin müstəqilliyin elə ilk günlərindən islam tarixinin dərin bilicisi, islam sevgisini qəlbində köz kimi saxladığı məlum olur. Bu köz artıq Azərbaycanda və onun hüdudlarından kənarlarda şölələnir. İmperiya əsarətindən qurtulmuş ölkələrdə dini missionerlərin ölkəmizə ayaq açdığı təhlükəli dövrlərdə elmi şəkildə islamın qoruyucusuna çevrilir.

"Müqəddəs yerləri ziyarət etmək, özünü o yerlərlə bağlamaq mənim illərlə, on illərlə ürəyimdə gəzdirdiyim ən böyük arzum idi".

İslam dinimizin təbliğində onun sadə, aydın dillə söylədiyi nitqlər əvəzsizdir. Ziyarətgahlara gedərək, islamımızla bağlı fikirləri geniş kütlələr qarşısında bəyan edərək, Azərbaycanın qapılarını öz dini missiyalarını, öz fitnəkar missiyalarını yerinə yetirmək yolunda Azərbaycanın qapılarını dini-missioner təşkilatların üzünə birdəfəlik bağlayır. Heydər Əliyev simasında İslam dininin güclü təminatçısını görən bu təşkilatlar geri çəkilməyə məcbur olurlar.

Nəhayət, dini natiqliyimizin ikişaf edib formalaşması, böyük Allahın bizlərə ərmağanı olan İslam dinimizin şüurlara çatdırılması yolunda Heydər Əliyevin dini səpgidə olan çıxışlarının dərindən-dərinə incələnməsi, tədqiqi günümüzün reallığına çevrilir. Bu reallıq ziyalılarımızı nitq mədəniyyətimizin bir qolu kimi dini üslubun öyrənilməsinə diqqət və qayğı göstərməyə səsləyir.

Məqalənin aktuallığı. Müstəqilliklə bağlı Azərbaycan vətəndaşlarının dini azadlıqlarını bərpa etməsi dini üslubun öyrənilməsinə təkan verdi ki, bu baxımdan Heydər Əliyevin nitqlərinin tədqiqi mühüm əhəmiyyət kəsb edir.

Məqalənin elmi yeniliyi. İlk dəfə olaraq Heydər Əliyevin dini yerlərdə, dini mərasimlərdə, dini konfranslarda söylədiyi nitqlər əsasında dini üslub öyrənilmişdir.

Məqalənin praktik əhəmiyyəti. Məqalə ali məktəblərin filologiya, jurnalistika, ilahiyyat fakultələrinin müəllim-tələbə heyəti üçün, eləcə də dini qurumlarda, diplomatiya sahəsində çalışanlar üçün dəyərli vəsait sayılır.

Ədəbiyyat

1. Məmmədov Müseyib. Heydər Əliyev dil haqqında və Heydər Əliyevin dili. Bakı. Elm, 1998.-196səh.
2. Cəfərov Səlim. Müasir Azərbaycan dili. II hissə.leksika. Bakı, "Şərq-Qərb".2007, 192səh.
3. Введенская Л.А. Культура речи государственного служащего: -Ростов н/ Д. Феникс, 2011.-473с.
4. Həsənova Sədaqət. Nitq mədəniyyəti və üslubiyyat. Dərslik.2005.193səh.

Нагдали Заманов

Религиозный стил в речи Гейдара Алиева

Резюме

В статье изучен религиозный стиль речи политического оратора Гейдара Алиева как функциональная единица литературного языка. Религиозный стиль исследовался совместно с другими стилями. Великий оратор использовал данный стиль в своих речах в разных аудиториях, в основном в религиозных местах, перед верующими на религиозных конференциях.

В статье также уделено внимание вопросам религиозной толерантности.

В своих выступлениях посвященных религиозным темам Гейдар Алиев уделял большое внимание вопросам государственности и призывал всех с оптимизмом смотреть на будущее страны.

Во всех этих речах были использованы научно-религиозные термины.

Nagdali Zamanov

Religious style in heydar aliyev's speeches

Summary

In article religious style of the speech of the political speaker Heydar Aliyev as a functional unit of the literary language is studied. Religious style was investigated together with other styles. The great speaker used this style in the speeches in different audiences, generally in religious places, before believers at religious conferences.

In article the attention to questions of religious tolerance is also paid.

In the performances devoted to religious subjects Heydar Aliyev paid much attention to questions of statehood and urged all to look with optimism at the country future.

In all these speeches scientific and religious terms were used.

Rəyçi: Zemfira Məmmədova
filologiya elmləri doktoru

LALƏ BABAYEVA
AMEA-nın dissertantı
lala@gmail.com

XIX ƏSRİN II YARISI XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCAN LÜĞƏTÇİLİYİ

Açar sözlər: Azərbaycan lüğətçiliyi, ikidilli tərcümə lüğətləri, L.Budaqov, türk dillərinin şərq lüğətçiliyi.
Ключевые слова: лексикография в Азербайджане, двуязычные словари перевода, Л. Будагов восточная лексикография тюркских языков.
Key words: Azerbaijan lexicography, bilingual translation dictionaries, Budagov L., The eastern lexicography of Turkish language

Şimali Azərbaycan Rusiyaya birləşdirildikdən sonra yeni lüğətlər hazırlandı. Bu lüğətlərin çoxu rus tələbələrə dil öyrətmək məqsədilə dərrslik kimi istifadə olunurdu. Tanınmış ədəbiyyatçı-alim, zəngin tarixə malik türk dillərinin və türk xalqlarının ədəbi tarixinin tədqiqatçısı Cavad Heyət həmin nəşrlərdən nümunələr göstərərək yazır ki, " bu növ kitablardan Mirzə Şəfi Vazehin 1855-ci ildə yazdığı "Kitabi-türki" lüğəti ilə Kazım bəyin 1854-cü ildə yazdığı "Kitabi-lüğət" əsəri zikrə layiqdir. Tələffüzün düzgün olması üçün rus əlifbası ilə yazılmış olan Kazım bəyin "Lüğət"ində Osmanlı türkcəsi kəlmələri də izah edilmişdir."

Cavad Heyət Azərbaycan türkcəsində yeni kəlmə və terminlərin yaranmasına və aşağıda adlarını çəkəcəyimiz lüğətlərin yaranmasına təkan verən bir sıra maraqlı faktları da açıqlayır. O, bildirir ki, XIX əsrin əvvəllərinə qədər ədəbi türk dilindəki yad terminlərin təxminən 90 faizi ərəbcə və ya farsca idi. Şimali Azərbaycanın Rusiyaya birləşdirilməsindən sonra türk dilinə rusca kəlmələr də daxil oldu və tədricən bəzi əski terminlərin yerini aldı. M.F.Axundzadə kimi ziyalıların ortaya çıxması ilə ruscanın və Qərbi Avropa dillərinin terminləri ədəbi dildə daha da çoxaldı. Alim daha bir maraqlı faktı da nəzərə çarpdırır ki, XIX yüzilliyin sonunda "Əkinçi" qəzeti ilə digər qəzetlər, 1880-cı ildən etibarən dərs kitablarına da daxil olan yeni terminlər işlətdilər.

Həmin dövrdə azərbaycan dilində şeirlə yanaşı, nəsr və dram əsərləri yazılır, qəzet və jurnallar nəşr edilir, o bəzi rəsmi sənədlərdə, elmi tədqiqatlarda da işlənməyə başlayır. O dövrdə Azərbaycana gələn xaricilər, ruslar və almanlar da ona maraq göstərir, bəziləri bu dili öyrənməyə başlayır. Məsələn, rus şairləri Lermontov, Bestujev-Marlinski, alman şərqşünası Bodonştedt. Sonuncusu XIX əsr Azərbaycan şairi Mirzə Şəfidən Azərbaycan dilini və onun şeirlərini almancaya tərcümə edərək Berlində ayrıca kitab şəklində nəşr etdirmişdir. Orta əsrlərdə əski Azərbaycan dilinə aid tərcümə lüğətləri və qrammatik tədqiqatlar aparılmış olsa da, Azərbaycan dilinə aid elmi əsərlər və dərsliklər XIX əsrdən etibarən yazılmağa başlayır. Mirzə Kazımbəyin rusca yazdığı "Türk-tatar dilinin ümumi qrammatikası" əsəri məşhurdur. M.Vəzirovun, L.Budaqovun, Q.Makarovun, N.Nərimanovun, M.L.Məmmədovun, S.M.Qəniyevin Azərbaycan dilinə aid dərslikləri də rus dilində yazılmışdır. L.Budaqovun ikicildlik lüğəti də ("Сравнительный словарь турецко-татарских языков")

var. M.Əfşarın Azərbaycan dilinə aid "Fənni-sərfi-türki" ("Türk dilinin qrammatikası") adlı dəyərli əsəri isə azərbaycancadır.

Ümumiyyətlə, Rusiyanın şərq hissəsində yaşayan rusların türk tayfaları ilə hələ IX əsrdə Kiyev Rusunun meydana gəlməsinə qədər yararnan ilkin əlaqələr onlara (ruslara) türk dillərini öyrənmək sahəsində praktik bacarıqlar vermişdi. Bu xüsusilə XIII-XV əsrlərdə monqol-tatar hücumları dövründə xüsusilə möhkəmlənmişdi və Qızıl Orda ilə əlaqələrdə xüsusi yer tuturdu. XV əsrin sonu-XVI əsrlərin əvvəllərindən türk, tatar (Kazan və Krım tatarları) dilindən rəsmi tərcüməçi-dilmanclar var idi. Türk sözləri digər yad sözlərin sırasında işlədilirdi. Bütün bunlar türklərin tarixinə, etnoqrafiyasına, dillərinə marağın artmasına və Rusiyada elmi türkologiyanın yaranmasına səbəb oldu.

I Pyotrun vaxtında Sibirin planlı şəkildə öyrənilməsinə başlandı. 1725-ci ildə Peterburq Elmlər Akademiyasının yaradılmasından sonra isə bu iş davamlı xarakter aldı. XVIII əsrdə Peterburq EA-nın Sibiri, Volqaboyunu, Qafqazı, Orta Asiyanı öyrənmək məqsədilə təşkil etdiyi ekspedisiyalar əhəmiyyətli rol oynadı. 1769-1774-cü illərdə keçirilmiş İkinci Akademik ekspedisiya xüsusilə fərqlənirdi.

XIX-XX əsrin əvvəllərində Rusiyada türkologiyanın inkişafında türk dilli xalqların nümayəndələri-ayrı-ayrı alimlər (M.F.Axundov, A.Bakıxanov, Ç.Vəlixanov, Qəyum Nəsiri və d.) yaxından iştirak etməyə başladılar.

Rusiyada türk dillərinin tədrisi mərkəzləri fəaliyyət göstərməyə başladılar. XIX əsrin əvvəllərində bu dillər Peterburq və Kazan universitetlərində öyrənilir və tədris olunurdu. Kazan universitetində türk-tatar dili kafedrasına 1828-ci ildən etibarən "Türk-tatar dillərinin qrammatikası"nın (1839) müəllifi Mirzə Kazım-Bəy rəhbərlik edirdi. Mirzə Kazım bəy uzun illər rus türkologiyasında türk qrammatikası ənənələrinin inkişafını müəyyən etmişdir. Sonralar İ.N.Berezin, qazax dilinin ilk tədqiqatçılarından olan N.İ. İlminski bu kafedraya rəhbərlik etmişdir.

Peterburq universitetində türk dilini O.Senkovski, A.O.Muxlinski, İ.N.Berezin, V.D.Smirnov, A.N.Samoyloviç tədris etmişlər. 1855-ci ildə universitetdə Şərq dilləri fakultəsi yaradilmişidir və türk dillərindən dərs deyən müəllimlərin sayı tədricən artmışdır. 1845-ci ildən başlayaraq "Türk-tatar ləhcələrinin müqayisəli lüğəti"nin müəllifi L.Z.Budaqov azərbaycan dilində dərs vermişdir.

XIX əsrdə türk dillərinə dair məlumat nəşrləri hazırlanaraq nəşr edilməyə başlayır. Bunların sırasında L.M.Lazarevin "Türk-tatar-rus dillərinin lüğəti" (1864), "Türk dilinin, ləhcələrinin müqayisəli müntəbəxatı" (1866), Məhəmməd Hüseyn Təbrizinin "Burhani-qate" (1887), Şəmsəddinin Saminin "Qamusi-türki" (1899-1900) və digərləri vardır.

Bu cür lüğətlərin meydana gəlməsi həm də o dövrün ictimai-siyasi vəziyyəti və Çar Rusiyanın yürütdüyü daxili və xarici siyasət, ərazisinin genişləndirilməsi nəticəsində də yeni qonşuları ilə saxlayacağı münasibət üçün çox vacib idi. Belə ki, XIX əsrin əvvəllərindən başlayaraq, Rus İmperiyası Şərqdə öz siyasi fəaliyyətini sürətlə fəallaşdırdı. Əsrlər boyu donub qalmış ərazisini genişləndirməyə başladı. XIX əsrin II yarısında bütün qazax torpaqlarını birləşdirib qurtardıqdan sonra, türkmən və özbək torpqalarına da daxil olmaqla İranla Əfqanıstanın sərhədlərinə yaxınlaşdı. Uzaq Şərqdə Rusiya Çin,Koreya və Yaponiya ilə əlaqələr yaradırdı. Osmanlı Türkiyə ilə fəal siyasət yürüdülürdü. XIX əsrin sonu-XX əsrin əvvəllərində Rusiya imperiyası Mərkəzi Qafqazda, o cümlədən Şimali Azərbaycanda öz siyasi

hakimiyyətini möhkəmləndirmək məqsədilə planlı şəkildə siyasət işləyib hazırlayırdı. Bu siyasət üç mərhələdə-1) XIX əsrin 30-50-ci illərində; 2) XIX əsrin 60-90-cı illərində; 3) XIX əsrin sonu-XX əsrin əvvəllərində aparılırdı. Bütün bu şərtlər daxilində həmin əraziklərdə yaşayan türk dilli xalqların dillərini bilmək zərurəti yaranırdı. Danışıqlar aparmaq, həmin ərazilərdə məskunlaşmaq, siyasi-mədəni təbliğat aparmaq üçün türk xalqlarının dillərinə və mədəniyyətinə, məişətinə, həyat tərzinə daha yaxşı bələd olmaq lazım idi. Beləliklə də, ikidilli rus-türk-tatar, rus-tatar dillərində lüğətlər hazırlanmağa başlandı.

XIX əsrin II yarısında hazırlanan lüğətlər sırasında Lazar Zaxaroviç Budaqovun "Türk-tatar ləhcələrinin müqayisəli lüğəti" də maraq doğurur. L.Budaqov 1812-ci ilin aprelində Həştərxan şəhərində doğulmuşdur. Həm ibtidai təhsilini, həm də orta məktəbi-gimnaziyanı elə bu şəhərdə almışdsır. Sonralar L.Z.Budaqov Moskva universitetinin dinləyicisi olmuş və iki il yarım Şərq dilləri İnstitutunda hesabdan dərs demişdir. Gələcək alim Kazan universitetinin fəlsəfə fakultəsində şərq dillərini öyrənmişdir. 1840-cı ildə "Xarəzmşahlar dövlətinin dağılması səbəbləri və gedişatı haqqında" diplom işini müdafiə etmişdir. O, universiteti namizəd adı alaraq qızıl medalla bitirmişdir.

Bundan sonra L.Budaqovun çoxillik pedaqoji fəaliyyəti başlanmışdır. Əvvəlcə,o, Tiflis gimnaziyasında "tatar" (azərbaycan) və fars dillərini (1840-1844), sonra isə Sankt-Peterburq Universitetinin Şərq dilləri fakultəsində, digər tədris müəssisələrində azərbaycan və türk dillərini tədris etmişdir.), 1879-cu il dekabrın 30-da Sankt-Peterburqda vəfat etmişdir.

Onun elmi yaradıcılığında "Türk-tatar ləhcələrinin müqayisəli lüğəti" mühüm yer tutur. Bu lüğət 1869-1871-ci illərdə Sankt-Peterburqda nəşr olunmuş və iki cilddən ibarətdir. 12 min sözü əhatə edir. Burada sözlərin Azərbaycan, cığatay (özbək),qazax, başqırd, qırğız, qumuq, noqay, tatar, türk, türkmən, uyğur dillərində necə işlənildiyi izah edilir. Lüğət türk xalqlarının dillərində yazılmış ədəbi əsərlərin mütaliəsi, o cümlədən müsəlmanlarla danışıq və yazışma üçün nəzərdə tutulurdu.

Bu lüğət Moskvada Rusiya Elmlər Akademiyasının Şərq Ədəbiyyatı İnstitutunda nəşr hazırlansa da, Sankt-Peterburqda İmperator Elmlər Akademiyasının tipoqrafiyasında çap olunmuşdur. Nəşrin tirajı çox da böyük deyildi. Nəşr cəmi 1500 nüsxədən ibarət olmuşdur. Birinci cild 810 səhifədən, ikinci cild isə 415 səhifədən ibarət idi. Burada 25 200 termin toplanmışdı.

Lüğətdə material ərəb dilinin əlifba sırası ilə, sözlər də buna uyğun olaraq, ərəb yazısı ilə düzülmüşdür. Birinci cilddə sözlər yalnız ərəb qrafikası ilə, rus əlifbasına transliterasiya edilmədən verilmişdir. İkinci cilddə hər leksik vahid rus hərfləri ilə transliterasiyası göstərilmişdir. Bu şübhəsiz, türk dillərini öyrənmək istəyənlərin işini bir qədər asanlaşdırırdı. L.Budaqov sözün meydana gəldiyi dili göstərməyə çalışırdı. Bunun üçün də o, ixtisarlardan istifadə etmişdir. Məsələn, а.-арабское, баш.-башкирское, бух.-бухарское, к.-казанское, п.-персидское, тур.-турецкое.

L.M.Budaqov türk dillərinin o iki qrupunun leksik materialını nəzərdə tutmuşdu ki, həmin qruplar intuitiv olaraq, "türk" (oğuz və ya cənub-qərb türk dil qrupları) və "tatar" (qıpçak və ya şərq türk dil qrupları) qruplarına parçalanırdı. Lüğətdə ümumtürk və türk dilləri arası leksika öz əksini tapmışdı ki, bunlara dair geniş məqalələr hazırlanmışdı.

L. Budaqov sözlərin izahlarının mənasını onları təyin edən terminlər və ya predmetlər vasitəsilə verirdi. Məsələn, xalq təbabəti haqqında, inanclar və adətlər, haqqında məlumatlar və s. Beləliklə, lüğət türk xalqlarının məişətinin, ictimai-siyasi və mədəni həyatının özünəməxsus ensiklopediyasına çevrilmişdi.

Tərtibatçı topladığı çox böyük leksik materialın yerləşdirilməsi üçün orijinal bir üsul axtarmamışdı. Lüğəti hazırlarkən, o, V.İ.Dalın lüğətinin təsiri altında

özünə belə bir orta yol seçmişdi: eyni köklü sözlər qruplaşdırılırdı, belə qrupun başında isə fel və ya isim yerləşdirilirdi.

Lüğətin əsas xüsusiyyətləri aşağıdakı kimidir:

1) Sözlər köklərinə görə yerləşdirilmişdi;

2) Sözlərin bir çoxu öz etimoloji tərkiblərinin izahları ilə müşaiyət olunurdu;

3) Terminlərin (inzibati, hüquqi, elmi, dini və d.) yanında ona uyğun mənbəyə və ya ədəbiyyata isnad edən qısa faydalı izahlar verilirdi;

4) Coğrafi adlar, türk eposunun və folklorunun qəhrəmanlarının adları, türk xalqlarının məişətindən və adətlərindən həyat səhnələri bir qayda olaraq, qısa izahlarla verilmişdir.

Bu məlumatlar ona izahlı, etimoloji və hətta ensiklopedik lüğət xarakteri verir.

L.Budaqov lüğəti hazırlarkən aşağıdakı mənbələrdən istifadə etmişdir:

1) Türk dillərinin şərq lüğtləri (həm izahlı, həm də tərcümə lüğətləri);

2) Türk-Avropa dillərinin lüğətləri;

3) Ə.Nəvainin, Baburun və digərlərinin bəzi əsərləri;

4) Türk folklorundan qeydlər.

Onu da qeyd etmək lazımdır ki, L.Budaqovun bu mənbələrə əsaslanaraq hazırlanan lüğətdən istifadə etməklə qədim türk ədəbi və tarixi əsərlərini, xüsusilə "çağatay" dilində yazılmış əsərləri oxumaq mümkündür.

Qeyd etmək lazımdır ki, L.Budaqov tərəfindən bir çox ədəbiyyatşünaslıq və dilçilik terminləri Azərbaycan ədəbi dilinə gətirilmişdir. Məsələn, onun lüğətində verilmiş hecaz bəhri, qəzəl, qəsidə, müxəmməs, mənsur, mənzum, məcaz, nəsr, təqlid, həcv, rəvayət, rübai, rədif, təsnif, xülasə, üslub, məsnəvi, təsvir kimi terminlər müasir ədəbiyyatşünaslıq terminologiyasında verilmişdir. Azərbaycan türklərinin məişətində işlənən bir çox sözləri toplayan L.Budaqov ədəbi dildə onların qorunub saxlanılmasına kömək etmişdir.

Ədəbiyyat:

1.Azərbaycan ədəbi dili tarixi. C. 3.-Bakı, 2007.-334 s.
2.Qüdrətov D. Türk xalqlarının tarixi.-Bakı, 2004.-578 s.
3.Heyət C. Türk dilləri və ləhcələrinin tarixi. Kitab I.-Bakı, 2011.-350 s.
4.Heyət C. Türk dilləri və ləhcələrinin tarixi. Kitab II.-Bakı, 2011.-176 s.
5.Həsənov H. Lüğətlər necə yaranır.-Bakı, 1974.-92 s.
6.Благова Г. Ф. Владимир Даль и его последователь в тюркологии Лазарь Будагов // Вопросы языкознания. 2001. № 3. -с. 22.

Лала Бабаева

Словареведение в Азербайджане во II половине XIX и начале XX века.

Резюме

Среди справочных изданий XIX века есть и «Сравнительный словарь турецко-татарских наречий» Л.М.Будагова. Словарь вышел на свет в 1869-1871 годах. Объём и состав Словаря Будагова – его главного труда определяется, прежде всего, тем, что он построен на сравнении лексического материала тех двух классификационных групп тюркских языков, на которые эти последние в ту пору членились еще чисто интуитивно, а именно групп «турецкой» (по современной терминологии - огузской, или юго-западной) и «татарской» (кыпчакской, или восточной). В Словаре широкое отражение нашла общетюркская и межтюркская лексика.

Lala Babaeva

Azerbaijan lexicography at the second part of XIX century and the beginning of XX century

Summary

Əksər ispan sözləri təsərrüfat fəaliyyətinə aiddir: **agregado** – fermada işləyən meksikalı muzdlu işçi», **batea** «qızılın yuyulması üçün nov», **cabestro** «noxta», **rinkon** «yazlıq əkin sahəsi».

Digər qrupa dövlət və ictimai fəaliyyət bildirən alınma sözlər daxildir: **alguazil** «şerif», **calaboose** «türmə», **emperasario** «koloniya qubernatoru», **padre** «katolik ruhani» (3, 154).

Fransız dilindən alınmış xeyli söz XIX əsrə aiddir. XVII-XVIII əsrlərdə fransız dili Şimali Amerikada səyahətçilərin, ovçuların, xəz dəri alverçilərinin və missionerlərin dili kimi işlənirdi. Həmin qrupa təsərrüfat fəaliyyəti ilə bağlı olan sözlər daxildir: **bourgeois** «işgüzar şərik», **coureur de bois** «ovçu», **embarras** «körpücük», **pose** «keçid», «bərə».

Digər qrupa Amerikanın həyat tərzini və mədəniyyətini bildirən sözlər daxildir: **chowder** «balıq və tərəvəzlə bişirilən qatı yemək», **quantiers** «ayaqqabı növü» və b.

Niderland dilindən Amerika ingiliscəsinə daxil olmuş alınma sözlər mənaca beş əsas qrupa bölünür. Əsas qrupa daxil olan sözlər holland icmasının təsərrüfat fəaliyyətini əks etdirir:

Erve (nid.erve) «kiçik torpaq sahəsi», **graght** (nid.gracht) «xəndək», **scow** («barja»), **segt** (nid.zicht) «oraq».

Digər qrup tarixi alınmalar Amerikanın etnoqrafik mədəniyyətini əks etdirir:

Bowery (nid.bouwerij) «ferma», «malikanə», **cansloper** (nid. schausloper) «kişi paltosu», **kirmess** (nid.kermis) «xeyriyyə bazarı», **stoop** (nid. stoep) «pilləkənli artırma», «şüşəbənd».

Alman immiqrantlarının dilindən daxil olmuş sözlərin əksəriyyəti yemək və içməklə bağlıdır:

Hamburger (alman. Hamburg). Bu söz içərisində bifşteks olan buterbrod mənasını ifadə edir. Hamburger Amerika ingiliscəsinə XIX əsrin ikinci yarısında daxil olmuşdur.

Kaffeeklatsch (alm. kaffeeklatsch). Amerika ingiliscəsində bu söz «bayram söz-söhbəti», «laqqırtı» mənasında işlənir. XX əsrdə Almaniyadan gəlmiş immiqrantların dilindən alınmışdır və hazırda da işləkdir (6, 86).

Pretzel – qızardılmış və duzlanmış peçenye;

Frankfurter schnitzel – şnitsel növü;

Wienewurst (qısa forması **wiener** və yaxud **wienie**), mövsümi sosiska və s.

Amerika ingiliscəsində işlənən irland mənşəli **shebang** (“müvəqqəti sığınacaq”) irland dilindəki shebeen (“qeyri-qanuni içki barı”) sözündəndir. Həmin söz qayel dilindəki seibe (“parç”) sözündən törəmişdir. Başqa bir irland sözü - **shanty** (“daxma”) irland dilindəki **sean-tigh** (“shan tee” kimi tələffüz edilir) “köhnə, qədim ev” mənasındadır.

Shanty sözü əsasında hətta başqa leksemlər də meydana çıxmışdır. 1882-ci ildə **shantytown** ifadəsi meydana çıxmışdır ki, bu da şəhərlərin ətrafında yoxsul təbəqə tərəfindən tikilmiş xırda evləri, daxmaları ifadə etmişdir. Bu adın meydana çıxması irland mənşəli immiqrantların Amerikaya gəldikdə əksər hallarda belə məs-

kənlərdə, yəni şəhərin kənarlarındakı gecəqondularda yaşamalı olması ilə əlaqədardır. Bostonda **shanty İrish** ifadəsi 1948-ci ildə Bostona köçmüş yoxsul irland immiqrantlarını ifadə edirdi.

İrlandiyadan gəlmiş immiqrantlar, bir qayda olaraq, fəhlə, qulluqçu işləyir və yaxud da əskərlikdə xidmət edirdilər. O zaman xalq dilində işlənməyə başlayan **biddy** ("xidmətçi qız") ifadəsi irland mənşəli Bridget qadın adının ixtisar edilməsi yolu ilə düzəlmiş, yəni xüsusi isimdən yaranmışdır.

Zənci dilindən alınmış sözlərdən biri **barb** ("at") sözüdür. Bu söz ingilis dilinə təsadüfən daxil olmamışdır. At zəncilərin əməyində vacib bir yer tuturdu, ona görə də bu heyvanın adı da onların ən çox işlətdiyi bir söz kimi ingilis dilində özünə yer etmişdi.

Afrikalıların adət-ənənələrini əks etdirən bir sıra geyimlərin adları da hazırda koloritə malikdir. Məhz Afrika mənşəli olan zəncilərin baş geyimi kimi işlətdikləri fəs zənci dilində **fez** adlandığı üçün ingilis dilinə tərcümə olunmadan daxil olmuşdur. Çünki gəlmə avropalılar özləri belə geyimdən istifadə etmirdilər, ona görə də onun ingilis dilinə tərcümə edilməsi də mümkün deyildi (5, 188).

Bir sıra tarixi alınmaların etimologiyasına nəzər salaq. **Santa Claus** sözünün mənası asanlıqla təyin olunur. «Şaxta baba» mənalı Santa Claus Niderland dilindəki **sinterklaas** sözündəndir. Kla(a)s niderlandca Nicholaas adının qısa formasıdır. Beləliklə **Santa Claus** əslində Santa Nikolaas adındandır.

Yankee sözünün mənşəyi isə mübahisəlidir. Ehtimala görə, yankee Niderland dilindəki Yan Kees (John cheese) sözündədir. 1650-ci illərdən işlənməyə başlamış bu ifadə hollandlara istinadən saymazyana müraciət forması kimi işlənirdi (3, 148).

Bu qənaətə gəlmək olur ki, Şimali Amerikanın məskunlaşdığı dövrdə ingilis dilinin Amerika variantının inkişafında yeni həyat tərzi və tarixi hadisələrlə əlaqədar olaraq xeyli sayda tarixizmlər meydana çıxmışdır. Bu leksik təbəqə ölkənin mədəniyyətindən tutmuş siyasi həyatınadək bir çox sahələrə aiddir. Hansı sahəyə aid olmalarından asılı olmayaraq bu tarixizmlər ABŞ dil realilərinin önəmli bir hissəsini təşkil edir və onların bir çoxunun dildə üslubi-emosional funksiyaya malik olması məhz tarixi koloritlə bağlıdır.

Ədəbiyyat

1. Graidie G. Historical changes and English word-formation. Chicago, 1962.
2. Gumprze J.J. and Levinson S.C.Rethinking Linguistic Relativity. Cambridge University Press, 1966.
3. Mencken H. The American language. N.Y., 1945.
4. Sapir Edward. Selected writings of E.Sapir in Language, Culture, and Personality. University of California Press, 1949.
5. Serjeantson M. A History of Foreign words in English, London, 1937.
6. Webster's New World Dictionary of the American Language. Clevelend-New-York. v. 1-2., 1964.

G.Qadimova

Historical words as a source in lexical development of language

Summary

Settlement of North America by European immigrants, their new life style, the names of outstanding persons and important events gave rise to enrichment of the English lexicon with numerous historical words and expressions. Such lexical units refer to various branches of life and constitute a significant part of language realities. Simultaneously the historical lexical units also include stylistic-emotional colour, which signify the importance of historical words as stylistically colourd devices.

Г.Гадимова

Историзмы как источник в развитии лексики языка

Резюме

Поселение в Северней Америке европейских иммигрантов, их новый образ жизни, имена знаменитых лиц и важных событий, содействовали обогащению английского языка и появлению в нем слов и выражений исторического характера. Такие лексические единицы относятся к разным отраслям жизни и составляют значительную часть реалий в английском языке. Одновременно среди историзмов имеются стилистически окращенные формы, которые демонстрируют важность изучения историзмов в области стилистики.

Rəyçi: Rafiq Şabanov
filologiya üzrə fəlsəfə doktoru, dosent

AİDA BAXŞƏLİYEVA
AAHM
aida@/mail.ru

MÜASİR İNGİLİS ƏDƏBİ DİLİNDƏ SİFƏT DÜZƏLDƏN ŞƏKİLÇİLƏR VƏ ONLARIN AZƏRBAYCAN DİLİNDƏ EKVİVALENTLƏRİ

Açar sözlər: sifət, semantika, nitq hissələri, leksika, qrammatika, sözün kökü, morfologiya.
Клюцевые слова: Суффиксы, грамматика, продуктивнсть, образование прилагательных, морфологический, лексика, сематика, части речи, корень слова.
Key words: suffix, grammar, productive, creating adjectives, morphological, lexics, semantics, part of speech, root of the word.

Tədqiqat məqsədindən asılı olaraq, suffikslərin müxtəlif təsnifatından istifadə olunub və təkliflər olunub. Suffikslər öz mənşəyinə görə, yaratmalı olduqları nitq hissəsinə görə, işlənmə tezliyinə görə (nə qədər tez-tez ona rast gəlinir), praktik olmağına görə, xarakteristikalarına görə təsnif olunurlar. Suffikslər sözün sonunda tam yeni söz əmələ gətirmək üçün yerləşən sözdüzəldici şəkilçilərdir. Suffiksin semantik dəyəri vardır, amma ona müstəqil nitq hissəsi kimi rast gəlinmir. Morfoloji cəhətdən iki söz məsələn: "jewelry", "jewels" sözləri ilkin olaraq eyni prinsipli kökdən yaranıb; konsepsual struktur hər iki sözdə: -s "jewels" sözündə və "-ry" "jewelry"sözündə cəm bildirir. Amma fərq isə onların qrammatik və leksik mənasındadır. "-s" şəkilçisi qrammatik kateqoriyanı dəyişməyən formantdır. "Plural" (cəm), burada "-ry" "individuallar qrupu, topluluq" semantik əsaslı söz sinfini yaradır.

Nitq hissələri içərisində suffikslər leksik-qrammatik qruplarina əsasən semantik cəhətdən təsnif olunurlar və nəhayət amma ən azı olmadan onların əlavə olunduğu kök (stem)-lərin növündən asılı olaraq təsnif olunurlar. Sinxron yanaşma ilə uyğun olaraq biz müasir ingilis dilində tez-tez rast gəlinən nitq hissələrinə görə təsnif etməyə başlayaraq bu daha bu daha məqsədəuyğun olardı.

Onların mümkün semantik gücünü işıqlandıran sözlər uyğun şəkildə irəlidə göstəriləcək. Əgər biz öz yanaşmamızı dəyişsək, suffiksləri siqnalizə (signalize) etmək üçün xidmət etməli olduğunu leksikoqrammatik mənası ilə maraqlansaq, biz hər bir nitq hissəsinin tərkibində daha çox açıqlanmış leksik qrammatik siniflər və qeyri-siniflər olduğunu bilməyə nail olarıq.

Leksik qrammatik sinif eyni leksik-qrammatik məna daşıyan leksik elementlər sinifi kimi və həmçinin bu vahidlərin içərisində ifadə olunan qrammatik kateqoriyalar daxil olan ümumi formalar sistemi kimi təyin edilə bilər. Bir sinifin elemetləri eyni uyğun söz ilə əvəz oluna bilər və özünə xas morfoloji nümunə ilə və ümumi sözdüzəldən affikslər ilə xarakterizə oluna bilərlər.

Sırf sifət əmələ gətirən suffikslərlə yaxından tanış olaq. Hər nitq hissəsinin öz sözdüzəldici suffiksləri olduğu kimi sifətin də özünə məxsus sözdüzəldici suffiksləri vardır. Bu suffikslər də müxtəlif qrulara bölünürlər.

Sifət əşyanın əlamətini bildirir və "what", "what kind of" (necə), "which" (hansı) suallarına cavab olur.

Quruluşuna görə sifətlər:

sadə (big, large, red, niece, etc);

düzəltmə (historical, hopeless, wonderfull);

mürəkkəb (dark-blue, good-looking, brand-new) olurlar.

Sadə sifətlər bir kökdən ibarət olur və onlara heç bir suffiks artırılmır.

Düzəltmə sifətləri əmələ gətirmək üçün isim, fel və sifətlərə sözdüzəldici suffikslər aşağıdakılardır:

- Full – carefull, doubtful (isim)
- Less –hopeless, useless (isim)
- Ous – dangerous, famous (isim)
- Able – countable, eatable (fel)
  comfortable (isim)
- ible – responsible (isim)
- ish – childish (isim)
- ent/-ant – different, important (fel)
- al- cultural (isim)
- some (handsome)

Suffikslər produktiv və qeyri-produktiv olurlar. Qeyri-produktiv suffikslərə-full, -ible, -able, -ent, -ant, -en, -ous, -some aiddir.

Produktiv sifət düzəldən suffikslərə -less (friendless), -like, -ish,-ed, aiddir.Əksər sifətlərin müqayisə dərəcələri vardır. Müqayisə və üstünlük dərəcələri. Müqayisə dərəcəsi keyfiyyətin nisbətən ən üstün dərəcəsini göstərir.Qeyd etdiyimiz kimi sifətin adi dərəcə (the positive degree), üstünlük dərəcəsi (the superlative degree) vardır.

Sifətlərə xas olan əlamət və keyfiyyətlərin dərəcələri iki yolla ifadə edilir.

1) Sintetik yolla, yəni sifətlərin sonuna suffikslər əlavə etməklə;
2) Analitik yolla, yəni sifətlərin əvvəlini köməkçi söz əlavə etməklə.

Bu üsullardan hansının seçilməsi ixtiyarı olmuyub, sifətin fonetik tərkibindən asılı olur: birhecalı və bəzi ikihecalı sifətlərin dərəcə formaları sintetik, iki və daha çox hecalı sifətlərin dərəcə formaları isə analitik yolla düzəldilir.

Sifətin adi dərəcəsini düzəltmək üçün heç bir suffiksdən istifadə olunmur. Sifətlər adi dərəcədə as...as, not so...as bağlayıcıları ilə işlənərkən müqayisə olunan şəxs və əşyaların eyni dərəcəli keyfiyyətə, əlamətə malik olub olmadığını bildirir. Məsələn:

1) My brother is as strong as yours – Mənim qardaşım sənինki kimi güclüdür.
2) Their way is not so long as mine – Onların yolu mənimki kimi uzun deyil.

Birhecalı sifətlərin müqayisə dərəcəsini düzəltmək üçün onların sonuna "-er" üstünlük dərəcəsini düzəltmək üçün isə "-est" suffiksi artırılır. Məsələn:

adi dərəcə, müqayisə dərəcəsi, üstünlük dərəcəsi

long longer longest

short shorter shortest

İkihecalı sifətlərin əksəriyyətini və çoxluhecalı sifətlərin hamısının müqayisə dərəcəsi analitik yolla,yəni müqayisə dərəcəsindən sifətdən əvvələ "more", üstünlük dərəcəsində isə "most" sözü artırmaqla düzəldilir. Məsələn: adi dərəcə, müqayisə dərəcəsi, üstünlük dərəcəsi

famous, more famous, most famous important, more important, most important

Sifətin müqayisə dərəcəsində hər hansı bir şəxs və əşyanın başqa bir şəxs yaxud əşyadan keyfiyyətcə artıq olduğunu bildirilir. Bu halda "than" sözündən istifadə olunur. Bu bağlayıcı dilimizdə "-dan,-dən" şəkilçisi, yaxud da "-dan... daha", "dən...daha" tərkibi ilə tərcümə edilir. Məsələn,

1) My room is larger than yours – Mənim otağım sizinkindən (daha) genişdir.

2) This question is more important than that one – Bu məsələ ondan (daha) vacibdir.

Azərbaycan dilində olduğu kimi, ingilis dilində də üstünlük dərəcəsi əşya və ya şəxsin onun daxil olduğu sinifdə ən yüksək keyfiyyətə malik olduğunu bildirir. Məsələn:

1) The Volga is the longest river in Europe – Volqa Avropada ən uzun çaydır.

2) The USA is the most democratic country in the world – ABŞ dünyada ən demokratik ölkədir.

Müassir ingilis dilində bir neçə sifət vardır ki, onların dərəcə formaları superletiv yolla düzəldilir, yəni hər formada (adi, müqayisə və üstünlük dərəcə formalarında) müxtəlif kökdən olan sifət işlənir. Bu sifətlər aşağıdakılardır:

adi dərəcə, müqayisə dərəcəsi, üstünlük dərəcəsi

good, better, best

bad, worse, worst

little, less, least

Sifətin aşağıdakı sintaktik xüsusiyyətləri vardır: Cümlədə sifət həm təyin, həm də tamamlıq ola bilər.

A little fat chap thrust out his underlip and the tall fellow frowned (Mansfield) (təyin).

Laura was terribly nervous (Mansfield) (tamamlıq).

Müassir mərhələdə sifətdüzəldən suffikslər arasında –able, -al (-ial), -an, -ed, -ic, -y daha produktiv suffikslər hesab olunurlar. Ümumi məna nöqteyindən adektiv suffikslər iki böyük qruplar yaradır.

1) Birinci qrupda əsas "münasibət" mənasını kəsb etməsi hesab olunur: "aid olan, oxşarlığı olan, xarakterik xüsusiyyətlər və əlamətlər, kökün ifadə etməli olduğu bir şeyi xatırladan" kimi mənanı ifadə edir. Məsələn, "Ornamental" – bəzək əşyası kimi istifadə olunan, "volcanic" – vulkanik, "neighbourly" – qonşu münasibəti, dost münasibəti və s.

2) Ikinci qrup suffikslər üçün əsas mövcud olma/olmama hesab olunur: kökün ifadə etməli olduğu bir şeyin miqdarını və yaxud olmayan bir şeyi təyin edir. Məsələn:

Carbonic – tərkibində karbon olan,

Fibrous – toxumalı,

Moneyed – varlı, pullu,

Moneyless – pulsuz

Bu bölmədə öyrənəcəyimiz digər mənaları şərti olaraq sözdüzəldici hesab edə bilərik.

-able (-ible) suffiksi ilə düzələn sifətlər:

Modellər: v+able → Adjective

N+ able (ible,ble) → Adjective

Müassir ingilis dilində dəyişə bilən –able suffiksi çox geniş yayılib. Onun üstün cəhəti ondan ibarətdir ki, o felin kökünə əlavə olunur, amma həmçinin isimlərin də kökünə əlavə oluna bilir. –able suffiksinin ümumi mənası hər hansı bir xarakterik xüsusiyyəti ifadə etməkdir.

İsimə "-able" suffiksi əlavə edildikdə həm aktiv kateqoriyalı məna verə bilər (fashionable → pertaining to fashion), həm də pasiv kateqoriyalı məna verə bilər (objectionable → that may be objected to; carriageable – that can be carried). Felin sonuna "-able" suffiksini əlavə etsək əsas sözdüzəldici olan "passiv imkan, tabe olma" mənalarını verir. Məsələn:

readable → that can be read

catchable → that can be caught

seeable → that can be seen

Sifətlərin sonuna "-able" suffiksi əlavə etsək aktiv xarakterik xüsusiyyət, uyğunluq mənalarını verəcək. Məsələn:

suitable – such as to suit

durable – such as to last

serviceable – that can be seen

perishable – subject to decay or destruction.

Bəzən həm aktiv həm də passiv mənaların birgə işlənməsi hallarına rast gəlmək olar. Məsələn:

Floatable – 1)that can float 2) be floated on

Changeable – 1) that is apt to change 2) that can be changed

Müassir ingilis dilində "-able" suffiksi öz produktivliyini ilə çox fərqlənir,onun köməyi ilə istənilən təsirli fellərdən sifət düzəltmək olar, bu da kompakt sintatik konstruksiya yaratmağa imkan verir. Məsələn:

She was very paintable.

"-able" suffiksi gələcəkdə sözdüzəltmə yaratmaq üçün bizə çoxlu imkanlar verir.

-al suffiksi ilə düzələn sifətlər

Model: n+ -al → Adj.

"-al" suffiksi müasir ingilis dilində yüksək produktivliyi ilə fərqlənir və kökün ifadə etdiyi bir şeylə əlaqəni (oxşarlığı, törəməni və s.) bildirir. Məsələn:

Addicdental – təsadüf

"Ornamental" – bəzək əşyası kimi işlənən gələcəkdə daha aktiv düzəltmə sözlər yaratması imkanları vardır: accidentally, normalize, ensociality (something "completely or perfectly social")

Müasir ingilis dilində amonim "-al" suffiksi də vardır ki, isim yaratmaq üçün onlardan istifadə olunur.

-an suffiksi ilə düzələn sifətlər (-ean, -ian)

Model: n+ an → Adj.

"-some" suffiksi sifətlərin kökünə birləşir və söz kökünün ifadə etdiyi bir şeydən bir az fərqli olan, ona bənzəməyən" mənalarını bildirir. Məsələn, longsome – bir az uzanmış, darıxdırıcı, lonesome – yalnız. Belə mənada – some suffiksi əşyanın daxili və xarici cəhətlərini, insanın xarakterinin emosional tərəflərini ifadə edən sifət mənşəli söz kökləri ilə birləşir.

İngilis dilinin müasir inkişaf mərhələsində "-some" suffiksi yüksək sözdüzəldici suffikslər siyahisina daxil edilmir. Bu şəkilçidən gələcəkdə "lightsomeness" lightsomely kimi sözdüzəltmələrdə istifadə oluna bilər.

Ədəbiyyat

1) Мешков О.Д Словообразование современного английсково языка, М. 1986.
2) И.В. Арнольд. Лексикология современного английского языка.
3) A. Koonin. English Lexicology.
4) Е.Н. Бортничук. И.П. Пастушенко. Словообразование в современном английском языке.
5) П.М. Каращук Словообразование английского языка.
6) M.Orembovskaya, T. Qvarjaladze. English Lexicology.

A.Bashaliyeva

Adjective building suffixes
Summary

Suffixes can be varied according to their being productive and non productive. They enrich English language for their wordbuilding character and almost owns the borrowed words.

Since, technics develop in the society new words appear in the language. In these cases the role of suffixes is great. Suffixes will be important and helpful element for building adjectives in the English language in the future.

А.Бакшалиева.

Суффиксы, образующие прилагателных
Резюме

Суффиксы могут различаться своей продуктивностью и непродуктивностью.

Они обогащают английский язык словообразующым характером и почти присваивает заимствованныеслова.

С развитием технологий в обществе появляются неологизмы. В таких случаях велика роль суффиксов. В будущем суффиксы будут важным и полезным элементом в образовании прилагательных английского языка.

Rəyçi: Nuriyyə Rzayeva
filologiya üzrə fəlsəfə doktoru,dosent

М.МАМЕДОВА
М.СУЛТАНОВА
АЗМИУ
maya@mail.ru

ГРАМАТИЧЕСКИЙ АНАЛИЗ ПРЕДЛОЖЕНИЯ, КАК ПРЕДПОСЫЛКА К ПРАВИЛЬНОМУ ПОНИМАНИЮ И ПЕРЕВОДУ ТЕКСТА

Açar sözlər: tərcümə, mənalı, mənasız.
Key words: translation, logically, illogically
Клюцевые слова: Перовод, логический, нелогический

Для правильного понимания предложения и последующего правильного перевода необходима быстрая синтаксическая ориентирова, т.е. умение находить главные и второстепенные члены предложения и устанавливать их взаимосвязь по формальным признакам.

Средством для такой ориентировки является грамматический анализ предложения, который подводит к раскрытию содержаниея текста . На первый взгляд такой способ может показаться трудоемким и замедляющим процесс перевода. Но когда приобретается прочный навык быстро и правильно выделятъ главное в предложении, отделять его от второстепенного, руководствуясъ при этом формалъными признаками построения предложения по специфическим для английского языка правилам, процесс перевода значителъно облегчается и ускоряется и становится осмысленным. И наоборот, неумение проводить такой анализ часто приводит к тому, что студент, аспирант после значительных затрат энергии и времени, заявляет: «Все слова нашел, а перевод не получается».

Опыт показывает, что анализ предложения – это необходимая предпосылка к пониманию текста. Надо, однако, помнить, что грамматический анализ иностранного текста существенно отличается от анализа на родном языке.

Грамматический анализ не самоцель, а лимъ средство для понимания текста, а следователъно, и для правильного перевода.

Деление предложения на смысловые группы

Анализ английского предложения следует делать, исходя из особенностей строя английского языка. Как было отмечено ранее, бедность окончаний в английском языке восполняется такими средствами выражения синтаксических связей, как устойчивый порядок слов в предложении и служебные слова.

Устойчивый порядок слов в предложении позволяет находить подлежащее предложения, ориентируясь по сказуемому, которое следует за ним,а сказуемое - по прямому дополнению,которое, как правило,стоит непосредственно после сказуемого. Выражение синтаксической связи между словами при помощи служебных словоблегчает выделение именных смысловых групп, объединяющих основную массу слов в предложении, а следовательно, помогает отделять от них глаголъные группы.

Первым этапом при переводе простого предложения является выделение в нем именных смысловых групп.

Все именные группы в предложении, т.е. группы, в которых главным словом является существителъное, начинаются чаще всего со служебного слова – предлога, или заменяющих артикль частей речи (притяжательных, указательных и неопределенных местоимений, а также количественных числителъных).

Умение делить на смысловые именные группы дает возможностъ правилъно определять принадлежность слова к той или иной части речи и его синтаксичаескую функцию в предложении, а следователъно, и искатъ значение этого слова в соответствующей категории в словаре.

Для наглядности такого деления ставим условный знаквертикалъную черту-между концом одной группы и началом следующей.

1 The application /of new analytical methods/ and the development/of new types/of optial and electronic instruments/is receiving/ our attention/ as well.

Сказуемое обычно стоит непосредственно после наречия неопределенноло времени, так что наличие такого наречия также может помочъ найти сказуемое.

Например:

Lightning surger/often damage/transmission lones/.

Грозовые разряды часто разрущают линии передачи.

Перевод этого предложения весъма затруднен из - за отсутствия служубных слов. Единственным известным словом, от которого можно отталкиватъся при анализе данного предложения, является наречие неопределенного времени often.

Предложения со сказуемым, выраженным глаголом в страдателъном залоге употебляются в английском языке значителъно чаще, чем в русском, так как в английском языке подлежащим страдателъной конструкции может бытъ не толъко прямое дополнение предложения с действителъным залогом, но и косвенное и предложное дополнение. Для перевода английских пассивных конструкций чаще употребляются не личные предложения со сказуемым в страдателъном залоге, а неопред. - личные.

Так, например, английскому

He was seen in the street yesterday соответствует русское неопределенно – личное предложение:

«Его видели на улице вчера».

Much time and effort have been devoted to the development of electric derive equipment of light weight, small size and moderate cost.

Перевод: Много времени и усилий было посвящено созданию электроприводного оборудования легкого веса, малого размера и умеренной стоимости.

Однако, во многих случаях перевод английского пассивного (страдательного) оборота прямым русским соответствием либо возможен, но не отвечает нормам литературного языка, либо вовсе невозможен.

The asphalt emailsions can be mixed with cement, acids, salts and other electrolytes.

Наиболее правильный перевод такого предложения:

«Асфальтовые эмульсии можно смешивать с цементом, кислотами, соляными и другими электролитами».

Перевод «Могут быть смешаны» - не благозвучен.

Таким образом, во всех тех случаях, когда английское предложение со сказуемым в страдательном залоге не может быть переведено прямым русским соответствием, следует переводить его неопределенно-личным предложением.

Подлежащее чаше всего переводится существительным или местоимением в дательном падеже тогда, как в английском предложении после сказуемого в пассивной форме имеется прямое дополиение.

He was given a book.

Прямое дополнение в переводе сохраняется, Ему дали книгу.

Если в английском страдательном обороте после сказуемого стоит предлог, то подлежащее такого предложения переводится одним из косвенных предложений с соответствующим предлогом.

Для правильного и быстрого перевода английского предложения на русский язык недостаточно располагать элементарными знаниями грамматики и опреленным запасом слов.

Слова в предложениях разных языков сочетаются по законам, присущим каждому данному языку.

Знание основных общих принципов перевода может оказать значительную помощь в работе как на начальных стадиях изучения языка, так и при самостоятельной работе над переводом научной и технической литературы с английского языка на русский.

О преподавании иностранного языка в условиях неязыкового ВУЗа

На современном этапе ускоренного развития научно-технического прогресса и широкого внедрения ЭВМ, с одной стороны и увеличения научно-технической информации с другой, возрастает возможность овладения специалистов навыками и уменьшениями работы с литературой на иностранном языке в своей повседневной деятельности.

Решение этой проблемы предполагает постоянное совершенствование методики преподавания иностранного языка и интенсификацию учебного процесса на базе эффективных приемов и методов преподавания иностранных языков в неязыковом ВУЗе.

Речевая ситуация характеризуется национальными формами акта коммуникации, которые особенно ярко проявляются на начальном этапе общения: при вступлении в разговор, приветствиях и знакомстве речевых партнеров.

Изучение иностранного языка должно способствовать росту профессиональной компетентности обучаемых, приобретению или дополнительной учебной информации.

Английский язык, по сравнению с русским, отличается чрезвычайной бедностью морфологической системы.

Он насчитывает 13 грамматических суффиксов, причем большинство продуктивных суффиксов омонимичны.

В русском языке свыше 70 грамматических аффиксов, среди которых есть как префиксы, так и суффиксы.

В английском языке по сравнению с русским предлоги также приобретают значительно больший вес как средство синтаксической связи.

Для связной английской речи характерна определенная интонационно-синтаксическая ритмика строя предложения.

Грамматическим средством выражения репрезентации является употребление вспомогательных и модельных глаголов в качестве представителей полных форм глагола и частицы «to» вместо инфинитива особенно частых в диалогической речи. В качестве средства субституции употребляются слова – заместители, как глагол do , местоимения one и that, оборот that of, наречие so. Эти слова могут замещать глаголы, существительные и даже целые предложения там, где повтор замещенных слов нарушил бы ритмический строй предложения.

Очень характерной чертой английского синтаксиса, отличающей его от русского, является употребление синтактических комплексов, которые вторичную предикацию в составе предложения.

Одним из важных компонентов обучения ин6остранному языку является чтение, выполняющее функции, направленные на извлечение лингвистической информации из прочитанного текста. В процессе чтения формируется потенциальный словарь и умение работать с иноязычным текстом.

Целенаправленность чтения – заключается в потребности извлечь из текста нужную информацию. Что же касается смотрения чтения как деятельности, то оно состоит из ряда взаимосвязанных действий, назначение которых – обеспечить прием и переработку информации, поступающей через иноязычный текст.

К плану чтения относится само понимание прочитанного.

К его внешнему плану относится техника чтения вслух и также чтение про себя.

В нашем сообщении мы хотели показать только лишь некоторые вопросы техники чтения вслух.

1. Надо понимать под термином «техника чтения вслух» и из чего складывается ее механизм.
2. Что требуется для достижения хорошей техники чтения вслух.
3. Какую систему упражнений можно предложить для обучения технике чтения вслух

В последнее десятилетие многие исследования по фразеологии были посвящены решению вопроса о статусе устойчивых сочетаний неидиоматического характера, которые ставились и исследовались.

Задачей настоящей статьи является попытка на основе современного английского языка.

Следует отметить, что фразеологические комплексы редко имеют даже малую развитую полисемию, то есть семантическая структура является ограниченной и редко выходит за пределы одного значения.

Объяснение этому, следует искать в их устойчивости, при которой сочетаемость фразообразовательного компонента и его зависимость от типового

значения. Заслуживает тот факт, что в качестве буквального значения в данном случае выступает фразеологическое значение, которое будучи само по себе является значением устойчивого словесного комплекса, служит образованием фразеологического значения.

При этом в большинстве случаев фразеологическое значение образуется на основе метафорического переноса, и таким образом, первое значение как бы сохраняет внутреннюю форму в данной устойчивой единицы, а во втором фразеологическом значении.

Использованная литература

1. Арнольд И.В. The English word. Москва, Высшая школа, 1986
2. Smith A. The English language, London, 1966
3. Мюллер В.К. Англо-русский словарь. Русский язык, Москва, 1990
4. Кунин А.В. Англо-русский фразеологический словарь. М, 1984

M.Mamedova
M.Sultanova

Logically in translation
Summary

The article presents the main problems of logically in translation. This study also attempts to explain how and when the translation has to improve the text in an original.

It deals with the different types of act of speech, speech situation, method of transformation, the changes aspect of the text semantical, syntactical and lexical.

M.Mammədova
M.Sultanova

Cümləninn qrammatik analizi mətnin düzgün anlayışının tərcüməsinin ilk şərti
Xülasə

Məqalə qlobal dil kimi ingilis dilinin və rus dilinin tərcüməsinə həsr edilmişdir. Məqalədə rus dilinin xaricidil kimi tədrisinə dair böyük prinsiplər tədqiq edilir.

Bu məqalədə tərcüməni necə nə vaxt təkmilləşdirməyi öyrədir.

Bu müxtəlif növlü nitq hissələri, nitqin üslubu, tərcümənin metodları, mətnin semantik, sintaktik və leksik aspektlərinin dəyişikliklərii öyrənir.

Rəyçi: Rafiq Rəhimov
filologiya elmləri doktoru, dosent

MƏMMƏDXAN SOLTANOV
Azərbaycan Dövlət Pedaqoji Universiteti, dosent
AİDƏ SOLTANOVA (Quliyeva)
filologiya elmləri üzrə fəlsəfə doktoru
smammedxan@mail.ru

«ƏKİNÇİ» QƏZETİNDƏ VƏ AŞIQ YARADICILIĞINDA İŞLƏNƏN DƏRBƏND TOPONİMİ HAQQINDA

Açar sözlər: onomastika, toponim, etimologiya
Ключевие словы: ономастика, топоним, этимология
Key words: onomastika, toponim, etymology

XIX əsr mətbuatında - «Əkinçi» qəzetinin səhifələrində və aşıq yaradıcılığında tez-tez işlənən toponimik vahidlərdən biri Dərbənd coğrafi məkan adıdır. Bu toponimik vahid «Əkinçi» qəzetində daha çox işlənir. Bu da çox güman ki, həmin dövrdə Dərbənd şəhərinin Azərbaycanla bağlı mühüm əlaqələrinin mövcudluğu, Dərbənd əhalisinin böyük əksəriyyətinin azərbaycanlı olması ilə bağlıdır. XIX əsr mətbuatında - «Əkinçi» qəzeti üzrə materiallarda tez-tez, həm də Azərbaycan həyatı ilə ən sıx əlaqələr zəminində bu coğrafi adın işləndiyini görürük. Bu, bir tərəfdən Dərbənd coğrafi məkanının, Dərbənd şəhərinin dövr hadisələrinin mərkəzində durduğunu göstərirsə, digər tərəfdən onun qədim Azərbaycan torpağı olduğunu aydın bir şəkildə sübuta yetirir. Məsələn:

«Gələn yanvarın 1-dən Dərbənd, Petrovski və Şura şəhərlərində mirovoy sud qoyulacaq». [«Əkinçi». 18 dekabr 1875. № 11.]

«Dərbənddə təzə ildən mirovoy sud bina olunub, əgərçi boyaq dadistədinin ərizəçiliyi bilmərrə orada yoxdur, amma onunla belə ərizəçinin çoxluğundan cənab sudya təngə gəlib». [«Əkinçi». 29 mart 1876. № 6.]

«Dərbənddə notarius təyin olandan bəri çox adam tələbkardan fərağat olmaqdan ötrü öz əmniyyəsini (malını) övrətlərinin ya qeyri kəslərin adına yazdırır». [«Əkinçi». 27 may 1876. № 10.]

«Dərbənddən Mehdi xan Usmiyev Qeytağı 10 manat göndərib ki, qəzet çap olmağa məsrəf olsun və yazır ki, hər ay 10 manat göndərəcək». [«Əkinçi». 4 yanvar 1877. № 1.]

«Bu il Dərbənd xalqının və ətraf kəndlərin ziraətləri çox yaxşıdır». [«Əkinçi». 7 iyul 1877. № 14.]

Dərbənd coğrafi məkan adına şifahi xalq ədəbiyyatımızda, xüsusən bu ədəbi qolun aşıq yaradıcılığı bölümündə daha çox rast gəlinir. Məsələn:

Ay camaat, gəlin tərif eləyim,
Nə əcəb düşübdü yeri Dərbəndin.
İsgəndər əlilə olub bərqərar,
Çəkilibdi bürcü, barı Dərbəndin. (2. 72.)

(Aşıq Abbas Tufarqanlı)

Dərbənd dedikləri bağçadı, bağdı,
Alt yanı dəryadı, üst yanı dağdı,
Abbas deyər: Əcəb meyvəsi çağdı,
Xəstəyə şəfadı narı Dərbəndin. (2. 73.)

(Aşıq Abbas Tufarqanlı)

Şəmkirli Aşıq Söyünəm, mən burada yer eylədim,
Urmu, Salmas, Marağa, İsfahanı zar eylədim,
Gəzdim Çəçən, Çərkəzi, nə qorxdum, nə ar eylədim,
Dəmir qapı Dərbənd, Quba, Gürcüstanı xar eylədim,
Tülküsən, geridə dur, şiri pələngəm, sənə nə? (2. 326.)

(Şəmkirli Aşıq Hüseyn)

Səndə elin gözü var,
Qoynu səfalı Dərbənd.
Min igidin izi var,
Qartal yuvalı Dərbənd. (3. 479.)

(Aşıq Pənah)

Dərbənd toponiminin tədqiqi ilə bağlı elm aləmində müxtəlif fikirlər vardır. Tədqiqatçılar belə hesab edirlər ki, Dərbənd şəhəri, şəhər salınmamışdan qabaq bu yerlərdə tikilmiş istehkamların həndəvərinin məskunlaşması nəticəsində yaranmışdır, bu yerlərdə Dərbənd qalası ucalmışdır.

Müəyyən tədqiqatlarda Dərbənd şəhərinin qədim mənbələrdə adı çəkilən Çola şəhəri ilə eyniləşdirilməsi fikirləri də mövcuddur. Lakin əslində bunlar ayrı-ayrı şəhərlərdir. Dərbənd Çola şəhərindən xeyli sonra, onun şimalında salınmışdır. Şəhərin nə vaxt salınması barəsində dəqiq məlumat yoxdur. Ərəb müəllifi ət-Təbərinin verdiyi məlumata görə, Xəzərlərin 533-cü ildə Albaniyaya növbəti basqınından sonra Sasani hökmdarı Xosrov Ənuşirəvan Dərbənd şəhərini və qalasını tikdirmişdir. Onun fikrincə, qalanın tikintisi 567-ci ildə başa çatdırılmışdır. (4. 271.)

Dərbənd şimaldan Albaniyaya, oradan isə Sasanilərin torpaqlarına basqın üçün keçid rolunu oynamış və buna görə də onun ətrafında bir neçə sədd tikilmişdir. Hazırda Dərbənd keçidinin qarşısını tutmaq məqsədilə çəkilmiş, dağlardan başlayaraq Xəzərin içərilərinə doğru uzanan beş hasar məlumdur: Abşeronun şimalından keçən Beşbarmaq hasarları, bu hasarlardan 23 km. şimalda Gilgilçay hasarları, Torpaqqala yaxınlığında, Samur çayının şimalındakı hasar, Dərbənd hasarları və bir də Dərbənddən şimaldakı hasarların qalıqları.

Dərbənd şəhəri haqqında latın, ərəb, fars, türk, rus və b. mənbələrdə, həmçinin orta əsrlərin Avropa müəlliflərinin əsərlərində məlumat verilmişdir. Əsas tarixi mənbə isə «Dərbəndnamə» əsəridir.

Müəllifi məlum olmayan, Dərbəndin, həmçinin Dağıstanın və Şimali-Şərqi Azərbaycanın V-XI əsrlər tarixindən bəhs edən bu elmi əsərdə Dərbənd şəhərinin salınması, ərəblərin Dərbəndi tutması, burada silah, ərzaq və neft anbarları tikdirmələri, Bakı neft və duz mədənlərinin Dərbənd əhalisinə vəqf verilməsi, xəzərlərin Azərbaycana hücumları və s. haqqında maraqlı məlumatlar vardır. [5.59-60.].

Dərbənd müxtəlif vaxtlarda gah farsların, gah ərəblərin, gah türklərin, gah Səfəvilərin hakimiyyəti altında olmuş, gah da müstəqil əmirlik, xanlıq kimi fəaliyyət göstərmişdir.

Dərbənd xüsusi coğrafi adının etimologiyası dilçilik ədəbiyyatında kifayət qədər işıqlandırılmış, məzmun kökü açıqlanmışdır. Ona görə də biz bu barədə şərh vermək fikrində deyilik. Lakin bu xüsusi adla bağlı kiçik bir açıqlama vermək istərdik.

«Kitabi-Dədə Qorqud» dastanlarında qara Dərvənd xüsusi coğrafi adı işlənir ki, çox vaxt tədqiqatçılar onu məhz indiki Dərbəndlə eyniləşdirirlər. Məsələn, «Kitabi-Dədə Qorqud»un 1988-ci il Bakı nəşrində Qara Dərvənd indiki Dərbənd toponimi ilə eyniləşdirilir və burada belə bir şərh verilir:

«Ərzurumun güney səmtində, qədim tarixçilərin Fasiana adlandırdığı yer Basian dərəsi adlanır (indi Türkiyədə Pasinler adlanan kənd vardır). Lakin Qafqazda Qaraçay-Balkar Muxtar Respublikasındakı Balkar dərəsi də gürcü salnamələrində «Basiani» adlanır.

Ümumiyyətlə, «Dərbənd», «Qara Dərbənd», «Dəmir qapı» anlayışları ilə bağlı boylardakı yer adları ənənəvi qəlibdə oxunmamalıdır. Bu adlar altında bəzən Qafqazdakı Dəryal keçidi və Orta Asiyadakı «Dəmir qapu» keçidi, bəzən də ümumiyyətlə «çətin dağ keçidi» nəzərdə tutula bilərdi». (6. 263.)

Fikrimizcə, bu mülahizədə müəyyən əsaslandırma olsa da, fakt azlığından bunu həqiqət kimi qəbul etmək çətindir. «Kitabi-Dədə Qorqud»da bir neçə yerdə qara Dərbənd xüsusi coğrafi adına təsadüf edilir ki, bu misallar əsasında həmin coğrafi yaşayış məntəqəsinin yerləşdiyi ərazini aydınlaşdırmağa çalışaq.

Misallara diqqət yetirək:

«Bu yanadan dəxi bazırganlar gəlübəni qara Dərbənd ağzına qonmışlardı. Yarımasun-yarçımasun Evnik qələsinin kafərləri bunları casuslardı». (6. 53.)

«On altı yıldır ki, Oğuz içindən getmiş idik. Dap-danuşux kafər malın Oğuz bəglərinə gətürür idik. Pasnik qara Dərbənd ağzına düş vərmiş idik. Evnik qalasının beş yüz kafəri üzərimizə qoyıldı». (6. 53.)

«Bayındır xan aydır: «Mərə, bu nə kömləkdir?…»

«Beyrəgi Qara Dərvənddə öldürmişlər, uş da nişanı, sultanım!» - dedi». (6. 58.)

«Bozladı. Kafərin izin izlədi. Qanlu qara Dərvənddə kafər dəxi qonmış idi. Oğlana qara kəpənək geydirmişlərdi. Qapu eşigi üzərində arqurı yer qomışlardı». (6. 74.)

Misalların məzmunundan, buradakı qara Dərbənd coğrafi adının işlənmə məqamından bu fikrə gəlmək mümkündür ki, bu coğrafi yaşayış sahəsi indiki Azərbaycanın şimalında yox, daha çox qərb hissəsində yerləşmişdir. Bu əsasda qara Dərbənd coğrafi adını indi Goranboy rayonu ərazisində yerləşən Qərvənd toponimi ilə eyniləşdirən H.Araslının fikri ilə razılaşmaq daha düzgün olardı.

Bundan başqa, mənbələrdə, eləcə də «Kitabi-Dədə Qorqud» dastanlarında Dərbənd şəhər adının Bab, Bab əl-hədid, Bab əl-Əbvab, Dəmirqapı, Dəmirqapı

Dərbənd, Xəzər Dərbəndi, Şirvan Dərbəndi, Bakı Dərbəndi, Dəmür qapulı Dərvənd, Qapulı Dərvənd və s. kimi işlənmə formalarına təsadüf edirik. Lakin heç yerdə onun Qara Dərvənd şəklinə rast gəlmirik.

Bu fikir də onu göstərir ki, «Kitabi-Dədə Qorqud» dastanlarında işlənən dəmür qapulı Dərvənd və Pasnik qara Dərvənd toponimləri tamamilə başqa-başqa coğrafi yaşayış məntəqələridir.

Dildəki onomastik vahidlər mənsub olduğu xalqın etnik tarixini, məişət həyatını, qədim dil xüsusiyyətlərini özündə saxlayan xüsusi sözlərdir. Bu cəhətdən Gəncə toponiminin etimoloji kökünün açıqlanması həm elmi, həm də praktik əhəmiyyətə malikdir. Bu sözlərin açıqlanması bir tərəfdən etnik kökümüzün aydınlaşdırılmasına, digər tərəfdən isə başqa toponimik vahidlərin məzmun kökünün açıqlanmasına kömək edir.

Ədəbiyyat

1. «Əkinçi» (1875-1877). Bakı. 1979.
2. «Azərbaycan aşıqları və el şairləri». I cild. «Elm» nəşriyyatı. Bakı. 1983, 376 səh.
3. «Azərbaycan aşıqları və el şairləri». II cild. «Elm» nəşriyyatı. Bakı. 1984, 546 səh.
4. M.İsmayılov. «Sənin ulu baban». Bakı. 1989. 302 səh.
5. Azərbaycan klassik ədəbiyyatında işlədilən adların və terminlərin şərhi. Bakı. 1993. 291 səh.
6. «Kitabi-Dədə Qorqud». Bakı. 1988. 273 səh.

Мамедхан Солтанов,
Аида Солтанова (Кулиева)

О топонимах Дербент, используемых в газете «Экинчи»
и в творчестве ашугов

Резюме

В Азербайджанском языке самыми интересными языковыми единицами считаются ономастические единицы. Эти языковые единицы являются собственными словами и пишется они всегда с заглавной буквой.

Антропонимы, топонимы, зоонимы, космонимы и т.п .относятся к ономастическим единицам. В этой статье рассказывается о топонимах Дербент, используемых в творчестве ашугов. А также проводится лингвистический анализ и выясняется этимологическое происхождение этого слова.

Mamedkhan Soltanov,
Aida Soltanova (Qulieva)

About the Derbent toponims in the "Akinchi" newspaper
and ashuq activites

Summary

Onomastik are unique one (of) in the Azerbaijani from unique of interesting language (tongue). Onomastik is unique special words developed (used) in the language (tongue), they are odd words being (been).

The topograhies which are used in the Derbent are started a conversation, then the same words are spent from onomastics analyse and are explained the etimoloji root of the words in this article.

Rəyçi: Professor Qəzənfər Kazımov

SÜRƏYYA HƏSƏNOVA
ADPU
xaricidiller2014@outlook.com

MÜASİR AZƏRBAYCAN DİLİNDƏ SİNONİM FELLƏR

Açar sözlər: söz qrupları, sinonimlər, sinonimik cərgə, sinonim fellər, nitq hissələri
Key words: word-group, synonyms, synonymic line, synonym verbs, parts of speech
Ключевые слова: группы слов, синонимический ряд, глаголы – синонимы, части речи

Fikir şüur faktıdır, təfəkkür prosesinin məhsuludur. Nitqdə isə bu şüur faktı səs kompleksi ilə ifadə olunur. Bu səs kompleksinin ən mühüm ünsürü sözlərdir. Sözlər bir-biri ilə sıx şəkildə əlaqədardır və onlar arasında daxili əlaqə mövcuddur. Söz və onun mənaları müxtəlif qruplarda birləşir və bu birləşmə oxşarlığa və ya məna-ya əsaslanır.

Söz qruplarından ən vacibi leksik-semantik qruplardır. Burada ümumi qram-matik mənadan başqa, minimum bir ümumi məna (kateqorial, leksik), bir nitq hissə-sinə aid olan sözlər birləşir. Söz gerçəkliyə aiddir, onu əks etdirir, öz mənasını təc-rid olunmuş, həmin dilin leksik-semantik sistemindən ayrılmış şəkildə yox, onunla sıx əlaqədə, dilin semantik strukturunu yaradan bütün məna sistemi vasitəsilə ifadə edir. Həmin mənanın ictimai dərk edilməsini ümumiləşdirir və birləşdirir.

Müasir Azərbaycan ədəbi dilinin leksik tərkibi müxtəlif məna qrupuna malikdir. Burada eyni səslənməyə və yazılışa malik sözlərin bir neçə məna bildir-məsinə, bir-birinə çox yaxın olan mənaların bir neçə sözlə ifadə olunmasına, söz-lərin bir-birinə əks olan mənalar ifadə etməsinə rast gəlmək olar. Bu baxımdan Azərbaycan dilindəki sözləri şərti olaraq aşağıdakı 3 qrupda təsnif etmək olar:

1. ***Omonim sözlər.***
2. ***Sinonim sözlər.***
3. ***Antonim sözlər.***

Sinonimlik gerçəkliyin eyni əşya, hadisə, əlamət və ya hərəkəti ilə bağlı olub, onun müxtəlif formalarla adlandırılması ilə əlaqəli semasioloji hadisədir. Məzmun-ca bir-birinə yaxın məna ifadə edən müxtəlif fonetik tərkibə malik sözlərə sino-nimlər deyilir. Sinonim yunan sözü olub, "eyni adlı" deməkdir.

Bəzən sinonimlərin mənaca mütləq eyniliyə də malik olduğunu göstərirlər. Lakin belə sözlər sinonim deyil, leksik dubletlərdir. Leksik dubletlər forma və mən-şəcə müxtəlif olan sözlərdir. Onlar mətnə görə neytral olub, mənaca bir-birinin tam eyni olan sözlərdir. Buna görə də leksik dubletlər müxtəlif şəraitdə (mətn, nitq, situasiya) bir-birini əvəz edə bilir. Leksik dubletlərə misal olaraq *eynək-çeşmək-gözlük, bahar-yaz, sağ-salamat, künc-bucaq, səksən-həştad* və s. kimi sözləri göstərmək olar.

Sinonimlər eyni məfhumun ancaq çox yaxın və nisbətən fərqli mənalarını ifadə edə bilmək xüsusiyyətinə malikdir. Məsələn, *gözəl-göyçək, qəlb-ürək, mat-məəttəl, məsud-xoşbəxt-bəxtəvər* sözləri bir məfhumun çox yaxın mənalarını ifadə etdiyi kimi, *hündür-uca, qalın-yoğun, könül-qəlb, enli-gen* sözləri bir məfhumun

nisbətən uzaq mənalarını bildirir. Bu cəhətdən sinonimlər iki yerə bölünür: mütləq və nisbi sinonimlər.

Dildə bu və ya başqa sinonim təşkil edən müxtəlif sözlərin məcmusu sinonimik cərgə adlanır. Sinonimik cərgə müxtəlif quruluşlu sözləri leksik-semantik variantlarına görə birləşdirir. Onun üzvləri məna ümumiliyinə əsasən daxili məna qrupu yaradaraq bir-biri ilə əlaqədar olub, başqa sözlərə münasibətləri bildirir, birləşir. Məsələn, *güc-qüvvət-taqət* sözləri bir sinonimik cərgədə birləşərək bir məfhumu müxtəlif fonetik tərkiblərlə ifadə edir. Bu sözlər bir-biri ilə qarşılıqlı əlaqədə olub, cərgədə müəyyən yer tutur. *Güc-qüvvət-taqət* sinonim sözlərin ifadə etdiyi mənada ümumiləşdirici məfhum onların orqanizmin fiziki enerjisi ilə bağlılığıdır.

Sinonimlərə xas olan əsas xüsusiyyətlərdən biri sinonimik cərgə üzvlərinin eyni bir nitq hissəsinə aid olmasıdır. Sinonim sözlərə nitq hissələrindən ən çox isim, sifət, fel və zərflərdə təsadüf edilir. Ümumiyyətlə, sinonim sözləri nitq hissələrinə görə aşağıdakı kimi qruplaşdırmaq olar:

1. ***İsim***: *arzu – istək – kam, aqibət – son – axır, səadət – xoşbəxtlik, meh–yel – külək, xəstəlik – azar, yavanlıq – ağartı, rəftar – xasiyyət, danlaq – giley* və s.

2. ***Sifət***: *gödək – alçaq, dəli – ağılsız – axmaq – gic, qoca – yaşlı, zərif – incə, gözəl – qəşəng – göyçək, qalın – sıx, səmimi – mehriban, bərk – möhkəm* və s.

3. ***Fel***: *almaq – götürmək, öyrənmək – alışmaq, tullamaq – atmaq, tullanmaq – atılmaq, bağlamaq – qıfıllamaq, nəql etmək – danışmaq – söyləmək, duymaq – hiss etmək, hərlənmək – firlanmaq – dolanmaq* və s.

4. ***Zərf***: *tez-tez – sürətlə, ahəstə - yavaş-yavaş, pəsdən – alçaqdan, səhər–sabah, cəbrən – zorla, təzəcə - yenicə* və s.

5. ***Say***: *çox – xeyli, bir gün – bir vaxt, bir az – bir qədər* və s.

6. ***Əvəzlik***: *bəri – bura, biri – birisi, biri – kim isə, heç nə - heç şey, heç kim – heç kəs* və s.

7. ***Qoşma***: *ayrı – başqa – qeyri – savayı, qabaq - əvvəl, tək – kimi, tərəf– sarı – doğru* və s.

8. ***Bağlayıcı***: *amma – ancaq – lakin – fəqət, və ya – yaxud – yainki* və s.

9. ***Ədat***: *qətiyyən – heç də - əsla, ki – da - də* və s.

10. ***Modal söz***: *əlbəttə - şübhəsiz – yəqin – yəqin ki, məncə - fikrimcə, heyf–heyf ki – təəssüf ki* və s.

11. ***Nida***: *aman – ox, əfsus – heyf* və s.

Sinonimlik fellərdə ən çox təsadüf edilən semasioloji hadisədir və feli sinonim cərgələrin üzvləri leksik-semantik cəhətdən yaxın məna çalarına malik vahidlərdən ibarət olur. Cərgənin üzvləri həm sadə, həm düzəltmə, həm mürəkkəb söz, həm də söz birləşməsi şəklində ola bilir. Eyni məna ətrafında cəmləşən feli sinonimlər aşağıdakı quruluş modelləri əsasında yarana bilir:

Sadə fel – sadə fel. Məsələn:

Qaçmaq – yüyürmək.

Qulağıma:

Nəsə, nəsə deyib qaçar.

Yüyürərəm dalısınca,

Yolum dönər bir yamaca

(Məmməd Araz. səh. 62)

Sevmək – istəmək.

Həm də soruşardı: - De görüm məni,
Nə boyda sevirsən?
Deyərdim: - Səni
Lap bu dünya boyda istəyirəm mən.

(Bəxtiyar Vahabzadə. səh. 49)

Alışmaq – yanmaq.

Hərcayı sözlərə dözə bilmərəm,
Alışsam, yanmaram öz diyarımda

(Aşıq Alı. səh. 49)

Dağıtmaq – sökmək.

Eşqi dağıdasan, qəlbi sökəsən...

(Məmməd Araz. səh. 161)

Açmaq – qurmaq.

Keçib yan otağa həsrət bu ara
Təzə radionu yavaşca açdı.

(Bəxtiyar Vahabzadə. səh. 137)

Küncdəki otağa çəkildi bir baş.
Qurdu radionu...
Yandı göy işıq.

(Bəxtiyar Vahabzadə. səh. 135)

Sadə fel – düzəltmə fel. Məsələn:

Güvənmək – qürrələnmək.

Elə bir fikir ki, tapınıb ona
Yoluna güvənim,
Qürrələnim mən.

(Bəxtiyar Vahabzadə. səh. 27)

Yatmaq – yuxulamaq.

Yuxuna daş atıram,
Bir gecə yatma, düşün!

(Məmməd Araz. səh.78)

Oxuyar, oxuyar, oxuyar cırcırama,
Sonra da
Yuxulayar cırcırama...

(Məmməd Araz. səh.96)

Yanmaq – işıqlanmaq.

Zülmətin içində ulduztək yanar,
Dəniztək qovrular, göltək çalxanar

(Bəxtiyar Vahabzadə. səh. 28)

Önümdəki qaranlıqlar
Qətrə-qətrə işıqlanır...

(Bəxtiyar Vahabzadə. səh. 56)

Çağırmaq – səsləmək.

Əzablar
ürəkdə min arzu bəsləmiş,
ilhamı səsləmiş,
çağırmış,
Əzablı günlərin çəkisi,
Bəxtəvər illərin
Yüzündən ağırmış!..

(Bəxtiyar Vahabzadə. səh.95)

Sadə fel – mürəkkəb fel. Məsələn:

Baxmaq – seyr etmək,

Nəriman meydançası!..
Bir də baxıram ona.

Seyr edirəm maraqla
Yolu, izi, küçəni

(Hüseyn Arif. səh.57)

Unutmaq – yadından çıxmaq.

Bəzən unuduram özümü tamam,
Elə bil özümçün yoxam həyatda

(Məmməd Araz. səh.66)

Varlıqdan şikayət, yoxluqdan giley,
Burda bir anlıq çıxdı yadımdan.

(Məmməd Araz. səh.84)

Eşitmək – qulaq asmaq.

Neçə-neçə dodaqlardan
Neçə dəfə eşitmişəm,
Bu sözü mən.

(Bəxtiyar Vahabzadə. səh.45)

Düzəltmə fel – düzəltmə fel. Məsələn:

Qəmlənmək – kədərlənmək.

Gözlərkən zindanda son saatını
Bircə yol qəmlənib kədərlənmədi.

(Bəxtiyar Vahabzadə. səh.98)

Qanadlanmaq – pərvazlanmaq.

Uçun, nəğmələrim, tez atlanın siz,
Yeldən qanad taxıb qanadlanın siz.

(Bəxtiyar Vahabzadə. səh.100)

Pərvazlanıb Qafdan-Qafa uçardın,
Keçən günü yada sal, qoca baxtım!

(Aşıq Ələsgər. səh.20)

Düzəltmə fel – mürəkkəb fel. Məsələn:

Parçalamaq – para-para eləmək.

Zərrələrin ən kiçiyi atomdur...
Parçaladı əsrimiz.

Parçaladıq onu biz,
Elədik para-para.

(Bəxtiyar Vahabzadə. səh.139)

Kədərlənmək – qəmnak olmaq.

Gözlərkən zindanda son saatını
Bircə yol qəmlənib kədərlənmədi.

(Bəxtiyar Vahabzadə. səh.98)

Qəmnak oldum Mıxtökənə çıxanda,
Şad olaram burda Tərtər axanda.

(Aşıq Alı. səh.48)

Mürəkkəb fel – mürəkkəb fel. Məsələn:

Dan yeri ağarmaq – dan sökülmək.

Hamıdan gec yatıb qalxdınız erkən
Ağardı dan yeri hiss edilmədən.

(Bəxtiyar Vahabzadə. səh.10)

Vyetnam, sökülür üfüqlərdə dan,
Sənə arxa durur solun, sağın da.

(Bəxtiyar Vahabzadə. səh.151)

Para-para olmaq – çilik-çilik olmaq.

Sən bir büllur idin...
Önümdə sındın.
Oldun para-para, sən çilik-çilik.

(Bəxtiyar Vahabzadə. səh.110)

Qulaq asmaq – qulaq vermək.

Torpaq nəğməsinə qoy qulaq assın
Torpaqda ən möhkəm bitən qayalar.

(Məmməd Araz. səh.50)

Bayaqdandır qulaq verib daş xoruna,
Daş səsinə,
Utanıram, utanıram
Mən tarixin əvəzinə...

(Məmməd Araz. səh.55)

Sinonim fellər bədii üslubda mühüm vasitələrdəndir. Sinonim fellərdən bədii üslubda, başlıca olaraq, aşağıdakı məqsədlər üçün istifadə olunur:

1. Eyni sözün təkrarına yol verməmək və üslubi səlislik yaratmaq üçün.
2. Fikri daha təsirli ifadə etmək üçün.
3. Fikrin ən incə məna çalarlıqlarını ifadə etmək üçün.
4. Nitqin müxtəlif növlərində satira, yumor və komik ifadələr yaratmaq üçün.
5. Maddi varlığı və orada mövcud olan hadisələri daha aydın və gözəl təsvir etmək üçün.

Ədəbiyyat

1. A.M.Qurbanov. Müasir Azərbaycan ədəbi dili. Bakı, 1985, səh.287-315
2. S.Cəfərov. Müasir Azərbaycan dili (leksika). Bakı, 1982, səh.15-42
3. H.Ə.Həsənov. Müasir Azərbaycan dilinin leksikası. Bakı, 1988, səh.32-92
4. H.Mirzəyev. Azərbaycan dilində fel. Bakı, 1986, səh.165-200

5. B.Ə.Xəlilov. Müasir Azərbaycan dilinin leksikologiyası. Bakı, 2008, səh.177-187.
6. Müasir Azərbaycan dilinin semasiologiyası (oçerklər). Bakı, 1985, səh.71-101
7. İ.Məmmədov, H.Həsənov. Azərbaycan dilinin sinonimləri lüğəti. Bakı, 1990
8. Aşıq Ələsgər. Seçilmiş əsərləri. Bakı, 1988
9. Aşıq Alı. Şeirlər. Bakı, 1982
10. Məmməd Araz. Qanadlı qayalar. Bakı, 1973
11. B.Vahabzadə. Bir baharın qaranquşu. Bakı, 1971
12. Hüseyn Arif (Hüseynzadə). Seçilmiş əsərləri. II cild, Bakı, 1975

С.Гасанова

глаголы -синоним в современном азербаджанском языке

Резюме

В статье показаны синонимы в современном азербайджанском языке, как части речи делённые на группы. Среди них объясняются глаголы – синонимы на основании образованных моделей. Эти глаголы – синонимы исследуются на примерах построенных моделей. Например: простое глагольное сказуемое - простое производное сказуемое, простое сложное сказуемое.В статье отмечаются также глаголы – синонимы, используемые в художественном стиле.

S.Hasanova

Synonym verbs in Contemporary Azerbaijan language.

Summary

The synonyms being in contemporary Azerbaijan language are given groups according to parts of speech in the article. Synonym verbs are explained base on creating models. The structure models of these synonym verbs are investigated based on samples. The synonyms being structure models, for ex: simple verb-simple verb, simple verb-derivative verb, simple verb- composite verb, derivative verb-derivative verb, derivative verb- composite verb, composite verb-composite verb. The using opportunity synonym verbs in graphic style are noted in the article.

Rəyçi: Həcər Hüseynova
filologiya elmlər doktoru, dosent

GÜLÜMSƏR ABBASOVA
BDU
gülümsar@mailk.ru

NİTQ AKTLARININ NÖVLƏRİ MƏSƏLƏSİNƏ DAİR

Açar sözlər: özgə nitqi, vasitəsiz nitq, vasitəli nitq, dəqiq nitq, müəllif nitqi, qeyri-dəqiq nitq, kommunikativ akt
Ключевые слова: чужая речь, прямая речь, косвенная речь, авторская речь, корректная речь, некорректная речь, коммуникативный акт.
Key words: direct speech, indirect speech, author's speech, semi-direct speech, periodic speech, represented speech.

Müasir linqvistikada nitq kommunikasiyası nəzəriyəsi və ya nitq aktları nəzəriyyəsi yeni elmi istiqamət formalaşmış və sürətlə inkişaf etməkdədir. Doğrudur, nitq aktları nəzəriyyəsi son dövrlərdə nitq kommunikasiyası nəzəriyyəsindən ayrılıb müstəqil istiqamətə çevrilməkdədir.

Nitq aktları nəzəriyyəsində «Direct Speech» dəqiq nitq, «Indirect Speech» isə qeyri-dəqiq nitq mənasında işlənilir. Qeyd etmək lazımdır ki, ingilis dilində bu terminlər həm də müvafiş olaraq «vasitəsiz nitq» və «vasitəli nitq» anlayışlarını da ifadə edir.

Ənənəvi dilçiliyin arsenalında «özgə nitqi», «vasitəsiz nitq», «vasitəli nitq», «müəllif nitqi», «sitat» terminləri vardır. Bu terminlər nitq aktları və kommunikasiya nəzəriyyələrində də təhlil və araşdırma obbyekti olur. Eyni zamanda, yeni elmi istiqamətlərdə bir sıra başqa anlayışlardan istifadə olunur ki, onların arasında «dəqiq nitq» və «qeyri-dəqiq nitq» də yer alır.

Dil daşıyıcıları arasında nitqlə yaranan qarşılıqlı təsir kommunikativ akt adlandırılır. Nitq aktı bir danışanın digərini (və ya digərlərini) nəzərə almaq şərti ilə söylədiyi hökm və ya cümlədir.

Nitq aktları nəzəriyyəsinin tədqiqat obyekti danışanın birbaşa ünsiyyət şəraitində söylədiyidir. Nitq aktlarına kommunikativ aspektdən yanaşmada bir qədər fərqli mənəzərə müşahidə olunur. Kommunikativ akt kommunikantların birbirinə ünvanlanmış nitq aktları toplusu kimi təyin olunur (1, 14).

Özgə nitqi «danışanın nitqində və ya müəllif nəqletməsində müvafiq fellərdən (soruşdu, dedi, fikirləşdi, sual verdi, əlavə etdi və s.) sonra danışanın, yaxud başqa şəxsin ifadələrinin, fikirlərinin daxil edilməsi kimi sintaktik keçidlər baş verir. Danışanın və ya nəqledənin müəllifin nitqinə daxil edilmiş nitqi özgə nitqi adlanır» (2, 64). Özgə nitqinin verilmiş tərifində qüsurlu cəhət onun mütləq müvafiq fellərdən sonra işlənməsi ilə bağlı müddəadır. Halbuki, nitqin özgəyə məxsusluğunu bildirən fel özgə nitqindən sonra, özgə nitqinin ortasında da işlənə bilər. Belə felin ümumiyyətlə verilməməsi də mümkündür.

B.Ardentova belə qənaətə gəlir ki, özgə nitqinin təyinedici amili onun kimə məxsusluğu deyil, onun obyektivləşdirilməsi, gerçəkləşdirilməsidir (3, 85).

Özgə nitqini ötürən şəxs müəllif, onun sözləri müəllif sözləri, müəllif konteksti adlandırılır. Yaxud başqa şəxslərin müəllifin nitqinə daxil edilmiş fikir və mülhizələri özgə nitqidir. Zənnimizcə, özgə nitqinin bu şəkildə təyini heç bir müba-

hisə doğurmur və qəbulolunandır. Özgə nitqini müəllif müxtəlif üsullarla ötürmək imkanına malikdir. Bu üsullardan asılı olaraq özgə nitqinin fərqli növləri vardır. Özgə nitqinin leksik-semantik, qrammatik ifadə vasitələrindən, bu nitqin ifadə üsullardan asılı olaraq vasitəli və vasitəsiz nitq formaları və ya növləri fərqləndirilir.

Özgə nitqinin iki əsas tipini ayırmanın başlıca meyarı, təbii ki, nitqin kimə məxsusluğu məsələsi olsa da, onun hansı şəkildə ötürülməsi, verilməsi diqqət mərkəzinə çəkilir. Yəni özgə nitqinin dəyişdirilib-dəyişdirilməməsi faktı özgə nitqi formalarının differensiyası üçün əsas götürülür. Vasitəsiz və vasitəli nitqin tərifini verən tədqiqatçıların əksəriyyəti üçün istinad nöqtəsi məhz bu cəhətdir (4, 207).

Özgə, mülahizəsinin, ifadəsinin onun məxsus olduğu şəxsin adından verilməsi (ötürülməsi) vasitəsiz nitq adlanır. Vasitəsiz nitq başqasının bilavasitə müsahibə ünvanlanmış mülahizələridir. Yalnız bu əlamət vasitəsiz nitqi tam səciyyələndirə bilmir. Çox zaman birbaşa söylənmiş fikirlər vasitəsiz nitq olmur. Vasitəsiz nitq birbaşa mülahizələr kimi ötürülən və onu ötürən müəllifin nitqi ilə birləşmiş özgə nitqidir. Bir şəxsin vasitəli mülahizəsinin başqasının vasitəsiz mülahizəsi ilə birləşməsi çox hallarda vasitəsiz nitq yaradır.

Nitqin subyekə görə fərqləndirilməsində də bəzi məsələlərə aydınlıq gətirilməlidir. Bəzi hallarda müəllif bir neçə özgəyə aid nitqi ardıcıl daxil edir. Yəni mətndə kommunikasiya aktında iştirak edənlərin sayı müxtəlif olur. Bu say birdən başlayaraq 4-ə və bəzən 5-ə qədər dəyişir. Qeyd edilən forma, daha doğrusu 4-5 müxtəlif subyektə aid nitqin daxil edilməsi halları təcrübədə az rast gəlinəndir. Daha çox müşahidə olunan hal bir və ya iki özgə nitqinin daxil edilməsidir. Əsərin sücetindən hadisələrin dəyişməsindən asılı olaraq nitq prossində iştirak edənlərin həm sayı, həm də özləri dəyişir. Bütün bunlar real həyat hadisələri ilə bağlıdır. Deyək ki, danışıqda iştirak edən şəxsin biri çıxıb gedir, yeni şəxs gəlir. Bu zaman kommunikatların dəyişməsi hadisəsi baş verir. Müəllif öz nitqində bu dəyişmənin gedişini oxucuya çatdıra da bilər, çatdırmaya da bilər. Bəzən müəllifin daxil etdiyi özgə nitqində başqa şəxsə məxsus nitq daxil edilir. Bu tipli özgə nitqi xəbər daxilində xəbər də adlandırılır.

Vasitəsiz nitq aşağıdakı əlamətləri ilə seçilir: 1) başqasının mülahizəsini dəqiq əks etdirir; 2) müəllifin sözləri ilə müşayiət edilir. Müəllifin sözləri və vasitəsiz nitq məna və intonasiya cəhətdən bir-biri ilə bağlı olan müstəqil hissələrdən ibarət olan sintaktik konstruksiya əmələ gətirir.

Vasitəsiz nitqin iki hissədən ibarət olması fikri yanlışdır. Özgə nitqi dəyişdirilmir, həmin nitqdə istifadə olunan dil və nitq vahidləri eynilə saxlanılır. Vasitəsiz nitqi iki hissəyə ayırmanın səbəbi isə onun cümlədə verilməsi formasından irəli gəlir. Vasitəsiz nitqin verilməsi üçün cümlədə iki hissədən istifadə edilir. Bu hissələr bağlayıcısız birləşir.

Vasitəsiz nitqdən fərqli olaraq vasitəli nitq dəyişdirilmiş nitq sayılır. Bu nitqin dəyişdirilmə dərəcəsi və xüsusiyyətləri haqqında şeç bir informasiya verilmir. Nitqin dəyişdirilməsi ehtimalı və ya doğrudan dəyişdirilməsi onun ötürülmə formasından doğur.

Nəvəsi deyir ki, otuz-qırx manatdan artıq olmazdı (Elçin). Nümunədəki «otuz-qırx manatdan artıq olmazdı» konteksti özcəyə aidliyi ilə seçilir. Lakin burada nitqin məhz verilmiş formada deyilməsi haqqında heç bir informasiya yoxdur. Yəni nəvənin bu məlumatı dil vasitələri ilə dəqiq hansı şəkildə ifadə etməsi aydın

deyildir. Bu kontekstdə nəvənin dediyinin əsas məzmunu, məhz bu məqam üçün vacib olan əsas məzmunu ifadəsini tapmışdır. Deyimin müəllif tərəfindən nə dərəcədə dəyişdirilməsi və ya dəyişdirilməməsinin əhəmiyyəti yoxdur. Oxucu nitqin verilmə formasına görə onu dəyişdirilmiş nitq kimi qəbul edir.

Vasitəli nitqin iki əsas xüsusiyəti qeyd edilir: 1) bir şəxsin nitqini başqa şəxs verir; 2) nitq danışan şəxsdən asılı olur, yəni danışan vasitəsiz nitqə formal cəhətdən müdaxilə edir (5, 87).

Bədii əsərdə özgə nitqini ötürən müəllif funksiyasında həmin əsərdəki bu və ya digər personac çıxış edə bilər. Ona görə də bədii əsərdə müəllif nitqinin özü müxtəlif adamlara məxsusluğu ilə seçilir.

Müəllif öz nitqini də özgə nitqi kimi vermək imkanına malikdir. Müəllif bu zaman özgə nitqini ötürmək üçün dildə olan vasitələrdən istifadə edir.

Müəllif özgə nitqini ötürərkən həmin nitqə müdaxilə etmək səlahiyyəti qazanır. Lakin müəllifin özgə nitqini hansı dərəcədə dəyişməsi bilavasitə onun özündən asılıdır. O, özgə nitqini vasitəli şəkildə ötürdükdə bu nitqdə leksik, qrammatik və üslubi dəyişikliklər apara bilər. Dəyişmələrin aparılması mütləq deyildir. Yəni özgə nitqi müəllif nitqinin daxilində olduğu kimi yer ala bilər. Iki şəxsə aid nitqin birləşdirilib bir cümlədə verilməsi özgə nitqin intonasiyasına təsir göstərir. Deməli, qrammatik dəyişmə daha çox sintaktik səviyyədə baş verir. Müəllif özgə nitqində istifadə olunmuş leksik vahidlərdən heç birini dəyişmirsə, onda leksik səviyyədə dəyişmə baş vermir.

Tələffüz olunmuş nitqdən başqa yazılı mülahizə həmçinin nəzərdə tutulan ancaq ucadan tələffüz olunmayan (daxili nitq) bu və ya başqa şəxslərin nitq və fikirləri də başqasının mülahizəsi ola bilər. Qeyri-əsl vasitəsiz nitq başqasının mülahizəsini müəllifin öz adından, ancaq fikri və düşüncəsi verilən şəxsin nöqteyi nəzərindən xəbər verir. Beləliklə, vasitəsiz nitqdə özgə fikri, müəllif sözləri ola bildiyi kimi, özgə tərəfindən söylənməmiş lakin müəllif tərəfindən ona şamil edilən fikirlər də yer ala bilir.

Özgə nitqinin ifadə olunması və ünsiyyətdə istifadəsi müxtəlif formada baş vermək imkanına malikdir. Bu imkan özgənin kommunikasiya aktına, ünsiyyət prosesinə necə qoşulmasından asılıdır. Bu baxımdan özgə nitqinin xarici və daxili nitq olmaqla iki yerə ayırırlar.

Xarici nitqdə hər şey özgə tərəfindən söylənilir. Yəni özgənin nitqi ya canlandırılır, ya da yazılır. Nitq prosesində özgə nitqinin bir növdən digərinə keçməsi, dəyişməsi, növbələşməsi hadisəsi mümkündür. Bu halda xarici nitq-daxili nitq-xarici nitq və buna oxşar başqa formalar qeydə alına bilər.

Dildə struktur-semantik münasibətə görə qeyri-məxsusi vasitəsiz nitqin polyar variantları mövcuddur. Burada bir qütbdə nəqledənin və personacın nitqinən təşkil olunmuş ikikomponentli struktur, digər qütbdə isə personacın şüur prizmasından keçən müəllif nitqi durur.

Qeyri-məxsusi nitq gerçəklikdə özgənin nitqi deyildir. Lakin bu nitqi müəllifin özgəyə şamil etməsinin səbəbləri vardır. Müəllif personacın, yaxud qəhrəmanın vəziyyətini, yaranmış şəraiti hiss edir, bu halı öz iç dünyasında qiymətləndirir. Qiymətləndirmə prosesində müəllifin hasil etdiyi qənaət ona qeyri-müxsusi vasitəsiz nitqi yaratmağa əsas verir. Bədii əsərdə özgə nitqinin bu şəkildə verilməsi surətin daxili aləmini, emosional vəziyyətini açmağa xidmət edir.

Qeyri-məxsusi özgə nitqinin vasitəsiz nitqin bir növü sayılması məsələsi bir qədər mübahisəlidir. Çünki onun vasitəli formada verilməsi də mümkündür və mahiyyətinə görə vasitəsiz nitqi vasitəli nitqlə əvəzetmədən fərqlənmir.

Qeyri-şəxsli vasitəsiz nitq yalnız personacların nitqinin deyil, onların fikir, xəyal və düşüncələrini əhatə edir. Bu forma daxili monoloq, daxili nitqdir. Müəllif nitqində yer alan bu özgə nitqi müəllifin, nəqledənin özü tərəfindən formalaşdırılır, yaradılır. Aydın olur ki, qeyri-şəxsli vasitəsiz nitq daxili nitqdir və qəhrəmanın baxışlarını ifadə edir. Qeyri-şəxsli nitqin səciyyəvi cəhəti, onu vasitəli və vasitəsiz nitqdən, özgə nitqinin verilməsinin başqa formalarından fərqləndirən xüsusiyyət müəllifə və personaca aid nitq planlarının bir-birinə qarışması, çuğlaşmasıdır. Nitq müəllif tərəfindən aparılır. Lakin ifadənin məzmun planı, onun modallığı, leksik vasitələrin seçimi, kəmiyyət və zaman planı baxımından personacın subyektiv fikir və nitq sahəsinə keçir. Başqa sözlə desək, qeyri-şəxsli vasitəsiz nitq personacın vasitəsiz nitqi ilə yaxınlaşır, onun çatdırmaq istədiyi məzmunu ifadə edir. Lakin bu nitq müəllifin nəqletməsinə qarışır. Qeyri-şəxsli vasitəsiz nitq həqiqi vasitəsiz nitq və müəllif nitqi ilə müqayisədə keyfiyyətcə yeni olub, formaca müəllif nitqinin özgə nitqinə keçməsinə imkan yaradır, nəqletmənin formal-qrammatik vəhdətini saxlamaqla, onda müxtəlif subyektli nöqteyi-nəzər əmələ gətirir.

Vasitəsiz nitqin iki fərqli forması da qeydə alınır. Bunlardan biri sitatdır. Bu və ya digər fikri təsdiq edən və misallarla aydınlaşdıran hər hansı bir mətndən olduğu kimi götürülmüş parça sitat adlandırılır. Sitat başqasının nitqidir. Çünki o başqa şəxsin ifadəsini daxil edir. Müəyyən bir mətnə əsaslanmaq sitatın əsas mənasıdır. Onların fərqləndirici əlaməti ifadənin olduğu kimi və dəqiq verilməsindən ibarətdir. Müəllif gətirilən fikirlə və yaxud onun qurluşu ilə razı olmasa da o, sitatı olduğu kimi gətirir. Sitatlardan xüsusi məqsədlə elmi publisist üslubda istifadə olunur. Danışıq dilində və bədii əsərlərin dilində sitatdan xüsusi şəraitlərdə istifadə olunur.

Sitat mətnin müstəqil parçası funksiyasında çıxış edir. Belə verilmə zamanı sitatın daxil edilməsi üçün müəllif nitqi tələb olunmur. Lakin sitat müəllifin əvvəl verdiyi fikrin təsdiqi və ya davamı, genişlənməsi funksiyasını yerinə yetirir.

Deməli, vasitəli nitqdə adətən başqasının mülahizəsinin fərdi nitq üslubu dəyişir. Lakin vasitəli nitqdə də başqa şəxsin əsl sözləri saxlanılması mümkündür. Lakin bu halda nitqin dəyişdirilib və ya dəyişdirilmədən verilməsi haqqında informasiya olmur. Yəni oxucu özgə nitqinin olduğu kimi verilməsi nəticəsini çıxarmaq səlahiyyəti qazanmır.

Qeyd etmək lazımdır ki, sitatın xüsusi formalarından biri epiqraf adlanır. Epiqraflar mətn daxilində deyil, əsərin və ya onun ayrı-ayrı hissələrinin əvvəlində verilir. Epiqrafın müəllifi mütləq göstərilir.

Özgə nitqinin onun özgəyə nə dərəcədə məxsusluğuna görə təsnifi ilə yanaşı semantik-funksional baxımdan təsnifi də maraq doğurur. Belə bölgüdə meyar semantik -funksional və struktur amillərdir. Fikrimizcə, təsnifatda semantik-funksional və struktur amillərin eyni zamanda nəzərə alınması özünü doğrultmur. Bölgü funksional meyar üzrə aparıldıqda özgə nitqinin mətndə reallaşma tipləri aşkara çıxarılır. Təsnifat zamanı 5 əsas tipi ayırmaq olur. Həmin tiplər bunlardır: 1)danışıq tipi; 2)sənədli tip; mahnı (nəğmə) tipi; 4)səstəqlidi tip; 5) siqnal tipi.

Beləliklə, nitqin subyektə məxsusluğu baxımından növləri nitq aktlarının müxtəlif formalarını təşkil edir. Qeyri-dəqiq və dəqiq nitq isə nitqin semantikaya və məzmuna görə fərqləndirilməsidir.

Ədəbiyyat

1. Клюев Е.В. Речевая коммуникация. Москва, Рипол, 2002
2. Основы речевой коммуникации. Москва, МТИ, 1992
3. Ардентова Б.П. Вставочная речь//Ученые записки Кишиневского Университета . Т.XXII, 1965. –С. 79-88
4. Гойхман О.Я., Надеина Т.М. Речевая коммуникация. Москва, Инфра-М., 2001
5. Леонтьев А.А. Язык, речь, речевая деятельность. Москва, 1969

Г.Аббасова

О видах речевых актов

Резюме

В статье рассматриваются вопросы связанные с классификацией речевых актов. Исследуются на основе теории речевых актов такие типы речи, как чужая речь, прямая речь, косвенный речь, авторский речь, корректная речь, некорректная речь. Классификация видов речи в одном случае проводится по критерии непосредственного автора речи, в другом случае по семантике высказывания.

G.Abbasova

About types of speech acts

Summary

The article studies question related with the classification of speech acts. The study of types of speeches is carried out on basis of theory of speech acts such as direct and indirect speech, author’s speech, semi-direct speech, periodic speech, represented speech. Classification of speech types in one case are carried out according to criteria of the author’s speech in other case on semantics of discourse.

Rəyçi: İradə Şəmsizadə
filologiya üzrə fəlsəfə doktoru, dosent

İRADƏ MƏHƏRRƏMOVA
BDU
irada@mail.ru

ŞAGİRDLƏRDƏ RABİTƏLI NİTQİN İNKİŞAFI MƏQSƏDİLƏ APARILAN İŞLƏR HAQQINDA

Açar sözlər: nitq, yazılı nitq, şifahi nitq, rabitləri nitq, monoloq, dialoq, poliloq
Ключевые слова: речь, устный речь, письменный речь, связная речь, монолог, диалог, полилиог
Key words: connected speech, dialog, monologue, communication, method

Ünsiyyət prosesində iştirak edənlərin nitq bacarıqları ilə bilavasitə bağlıdır. Bu prosesin davamlı və uğurlu olması nitq aktlarının düzgün, anlaşıqlı və başa düşülən şəkildə qrulmasını, həmçinin iştirakçıların (adresant və adresatın) danışıq zamanı bir-birinə münasibətinin müsbət planda inkişaf etməsini tələb edir. Qeyd olunan cəhətlər tədris prosesində diqqət mərkəzinə çəkilir və nitq praktikasında nəzərə alınır. Orta məktəblərdə şagirdlərin rabitəli nitqinin inkişaf etdirilməsi ilə bağlı aparılan bütün işlər bu məsələlərin həllinə xidmət edir. Rabitəli nitqin inkişaf etdirilməsi üzrə orta məktəblərdə aparılan işlərin əsas dairəsini müəyyənləşdirmək üçün rabitəli nitq anlayışını aydınlaşdırmaq lazım gəlir.

Rabitəli nitq bir mənbədə üç mənada - 1) danışanın fikrini izah etməyə yönəlmiş fəaliyyəti (rabitəli nitq prosesi); 2) ifadə, cümlə, mətn (rabitəli nitq fəaliyyətinin məhsulu); 3) metodikanın nitqi inkişaf etdirməklə bağlı bölməsi kimi izah olunur (1, 78). Terminoloji planda rabitəli nitqin bu şəkildə izahı ona müxtəlif prizmalardan yanaşmadan irəli gəlir. Yəni burada həm rabitəli nitq fəaliyyəti, həm onun məhsulu, həm də onun öyrənilməsi ilə bağlı sahənin adı eyni terminlə ifadə edilir. Rabitəli nitq kommunikasiya aktıdır və bu aktın nəticəsi anlaşılan olmalıdır. Rabitəli nitq müşahidə və təsəvvür olunan, eşidilən, təfəkkürdə canlandırıla bilən hər hansı bir hadisəyə bitmiş fikrin dəqiq, düzgün, dolğun, məntiqi ifadəsidir (2).

Nitqin nisbi və ya tam bitməsi amili ikili səciyyə daşıyır. Bu isə rabitəli nitq məhsulunu nəzərə almaqla bağlıdır. Nitq prosesində predikasiyası olmayan nitq hissələri də bir-biri ilə bağlılıq və ya müəyyən məna yaratmağa görə tamamlanır. Məsələn, söz birləşməsi sözlə müqayisədə yeni mənanın formalaşması ilə seçilir. «Şirin» və «çay» sözlərinin yanaşması əsasında formalaşan «şirin çay» tərkibdəki iki sözün ayrı-ayrılıqda götürülmüş mənalarından fərqli məna verir və bu məna qismən genişdir. Bu baxımdan rabitəli nitqin hissələri kimi ifadə, söz birləşməsi, cümlə və mətn götürülür. Mətn daha yüksək tərtibə aid vahiddir. Məsələyə mətn dilçiliyi istiqamətindən yanaşsaq kontekst də rabitəli nitq hissəi kimi qəbul oluna bilər. Rabitəli nitqin inkişafı onun hissələrinin yaradılması bacarıqlarının da inkişaf etdirilməsini nəzərdə tutur. Şagirdlərdə rabitəli nitqin inkişaf etdirilməsi üçün aparılan işlərdə qeyd edilən məsələlr nəzərə alınır. Ibtidai siniflərdə rabitəli nitqin ən kiçik hissələrinin formalaşdırılması məsələləri tez-tez qoyulursa, yuxarı siniflərdə fikrin ifadə olunmasında predikativi olan vahidlər səviyyəsində işin aparılması daha çox lazım gəlir. Bütün hallarda rabitəli nitq fikrin qrammatik və kommunikativ düzgün və ardıcıl ifadə olunması tələbini nəzərə alır. Ifadə rabitəli

nitqin ilkin vahidlərindən biridir. Rabitəli nitqin əsasında söyləniləcək ümumi fikrin mənalı vahidlərinin formalaşdırılması və onların bir-biri ilə əlaqələndirilməsi durur (3, 16).

Nitqin əşyaları, hal-hərəkəti, vəziyyəti, şəraiti, zamanı və sairəni konkret adlandırmaq, sözlər vasitəsi ilə ümumləşdirmə aparmaq, ünsiyyətə xidmət etmək kimi funksiyaları vardır (4, 42).

Nitqin iki növü vardır. Nitqin hər iki forması bir-biri ilə sıx əlaqədardır, biri digərinin mövcudluğunu tənzimləyir. Nitqin iki növü olduğu kimi rabitəli nitqin də iki növü vardır: 1) şifahi rabitəli nitq; 2) yazılı rağbitəli nitq. Bu iki növ arasındakı fərq nitqin canlandırılma formasındadır. Belə nitq formalarının inkişafı nəzərdə tutulduğundan şifahi nitqdə orfoepiya və intonasiya məsələləri, yazılı nitqdə isə orfoqrafiya, qrammatika və üslub məsələləri ön planda durur. Deməli rabitəli nitq üzrə aparılan işlər bu nitqin hansı növünün inkişaf etdirilməsindən asılı olaraq qurulur. Orta məktəbdə tədris prosesində ev tapşırıqlarının, əsasən, yazılı yerinə yetirilməsi, bu tapşırıqlarda qrammatika və orfoqrafiya qaydalarının düzgünlüyünə ardıcıl diqqət verilməsi yazılı rabitəli nitq üzrə işlərin bir növünün ev tapşırıqları olmasını təsdiq edir.

Rabitəli nitqin inkişafı şagirdlərin hansı sinifdə oxumasından asılıdır. Aydındır ki, ibtidai siniflərdə məsələyə bir istiqamətdə, yuxarı siniflərdə başqa istiqamətdə yanaşılır.

Şifahi nitq prosesində müxtəlif sayda iştirakçı olur. Ünsiyyət iştirakçılarının sayından asılı olaraq bu nitqin monoloq, dialoq və poliloq növləri fərqləndirilir.

Müəyyən şəraitdə baş verən ünsiyyətin, kommunikasiya prosesinin iştirakçıları olur. Həmin iştirakçıların sayı ən azı bir olmalıdır. Bir halı fərdin özü-özü ilə nitqi halına uyğun gəlir. Danışanın özünə və ya başqalarına müraciətlə söylədiyi nitq monoloqdur. Monoloq mürəkkəb sintaktik quruluşa malik olub daha geniş mövzunu əhatə edir. Monoloq həm yazılı, həm də şifahi nitqə xasdır.

Iki şəxs arasında baş verən nitq dialoq adlanır. Dialoji hökm dilin danışan tərəfindən müəyyən praktik və kommunikativ məqsədlərə çatmaq üçün istifadə olunan əsas və ən təbii formasıdır.

Dialoqda iştirak edən diktorların hər birinin danışığı birbaşa digər diktora ünvanlanır. Dialoq qısalığı, yığcamlığı, sintaktik quruluşun nisbi sadəliyi ilə seçilir. Dialoq iştirakçılarının nitqi, bir qayda olaraq, bir-birinə bağlanır. Danışıq dilində, bədii ədəbiyyatdakı dialoqlarda yarımçıq cümlələr çox olur. Dialoq struktur və ya məna rabitəsi ilə əlaqələnən replikalar məcmusudur.

Ikidən artıq şəxs arasında baş verən nitq poliloq adlanır. Poliloqda diktorlar növbələşmiş şəkildə nitq aktında iştirak edirlər. Poliloqun müxtəlif diktorlara məxsus iki ardıcıl nitq aktı dialoq təşkil edir. Poliloq şəklində keçən nitqdə diktorlardan biri və ya digəri müəyyən müddət nitqin iştiakçısı olmaq baxımından passiv mövqedə dura bilər. O, nitq aktında iştirak etmir. Poliloqun belə hissələri də dialoq təsiri bağışlayır.

Orta məktəbdə şagirdlərin rabitəli nitqinin inkişaf etdirilməsi üçün nitqin hər üç növündən istifadə olunur. Buradan belə nəticə çıxır ki, rabitəli nitqin inkişaf etdirilməsi üzrə aparılan işlər bu prosesdə iştirak edənlərin sayından asılı olaraq monoloji, dialoji və poliloji rabitəli nitqə aid işlərə bölünür.

Monoloji rabitəli nitqin inkişaf etdirilməsi üçün müəllim şagirdin müəyyən mövzu, hadisə, obyekt ilə bağlı öz fikirlərini söyləməsi üzrə işlər aparır. Bu tipli işlərin də üç növü vardır: 1) monoloji nitqin mövzusu qabaqcadan şagirdə verilir və şagird həmin mövzuda danışmağa hazırlaşır; 2) monoloji rabitəli nitq şagirdə əvvəllər məlum olan mövzu üzrə aparılır(məsələn, keçilmiş əsərin məzmununu danışmaq); 3) monoloji rabitəli nitq şagirdə fikirləşmək üçün vaxt verilmədən aparılır (5, 89).

Rabitəli monoloji nitqin inkişafına aid işlərin qeyd olunan növləri də müəyyən alt növlərə bölünür. Həmin alt növlər mövzunun seçilməsi və ya istifadə edilən vasitdən asılıdır. Məsələn, şagirdə müəyyən şəkil verili rvə həmin şəkildə təsvir olunan barədə danışmaq tapşırılır. Yaxud şagirdə konkret mövzu verilir və bu mövzu barədə danışmaq tapışırılır (bizim sinif, ədəbiyyat dərsi və s.).

Metodikaya aid ədəbiyyatda şəkil üzrə danışmaq bir çox məsələlər üzrə tədiqiq edilir. Şəkilin sadəcə təsvir olunması və şəkil əsasında müəyyən sücetli bir danışığın qurulması bir-birindən fərqlənir. Kiçik yaşlarından başlayaraq şəkil üzrə danışıqların təşkili bir sıra məqsədləri nəzərdə tutur. L.V.Saxarnıy göstərir ki, şəkil üzrə danışıqlar şagirdlərdə müşahidə qabiliyyətini artırır, təxəyyül və təsəvvürü inkişaf etdirir, yaradıcı danışmağa meyli gücləndirir (6, 21).

Şəkil üzrə nəqletmə zamanı şəkil şagirdlərin düşüncəsini, hissini oyadır, emosional mühit yaradır, uşaqda şəkildə təsvir olunana sərbəst münasibət bildirməyə həvəs yaranır. M.Kərimova bu məsələ ilə bağlı göstərir ki, şəklin uşaqda oyatdığı təəssürat düzgün istiqamətləndirilmədikdə onun canlı nitqlə ifadəsi ik-üç rabitəsiz cümlədən ibarət olur. Çünki şəklin ilk müşahidəsi bir neçə qabarıq və tez gözə çarpan təsvirin ifadəsi ilə tamamlanır. Müəllif istifadə olunan şəkillərin üç növünü ayırır: 1) Bir əşya, hadisə, prosesin təsvirinə aid şəkillər; 2)Müəyyən əşya və hadisənin yalnız bir xarakterik əlamətinin əks olunduğu şəkillər; 3) Bir əşya və hadisəni tamamlanmış (geniş) əks etdirən seriya şəkillər (2).

Monoloji rabitəli nitqin şəkil üzrə nəqletmə yolu ilə inkişaf etdirilməsi zamanı aparılaen iş yaş səviyyəsindən asılı olaraq fərqlənir. Yuxarı siniflərdə şəkil üzrə nəqletmədə yalnız şəkildə görünənlər haqqında deyil, şəklin oyatdığı hisslər, yada saldığı mövzular, şəkildəki vəziyyətdən əvvəl və sonra ola biləcək hadisələr barədə danışmaq da tələb olunur. Belə halllarda şagirdlərin monoloji nitqi daha çox inkişaf edir, onlar nitq prosesində daha çox leksik vasitədən istifadə edirlər.

Monoloji rabitəli nitqin verilmiş plan əsasında aparılması da ayrıca bir növ təşkil edir. Bu halda monoloq plana əsasən ardıcıl qurulur. Müəllim monoloqun həcmini nəzərə alaraq hər bir planın təqribən neçə cümlə ilə əhatə olunmasını qabaqcadan müəyyənləşdirə bilər. Ümumiyyətlə, rabitləi nitqin inkişaf etdirilməsi üçün hadisə, predmet və obyekt haqqında məlumatın müxtəlif sayda cümlələrlə verilməsi də təcrübədə ayrıca iş kimi dəyərləndirilir.

Dialoq ünsiyyət şəraitindən, kommunikativ aktda iştirak edənlərin bir-birinə münasibətindən, bir-birini tanımasından, danışıq mövzusunu bilməkdən və s. asılı olaraq müxtəlif şəkillərdə baş verir. Rabiəli nitqin inkişafı üzrə təşkil olunan dialoqlarda şagird-şagird, şagird-müəllim prinsipi tətbiq oluna bilər. Şagirdlə müəllim arasındakı nitq prosesində tərəflərin statusları fərqlənir. Lakin iki şagirdin bir-biri ilə daioluqunda iştirakçıların statusları eyni olur. Bu cəhət nitqə nəzarətə müxtəlif cür təsir edir. Müəllimlə dialoq prosesində şagird nitqinə daha çox nəzarət edir. Oxşar situasiya qızla oğlan arasındakı dialoqda da özünü göstərir. Deməli dialoji

rabitəli nitq üzrə aparılan işlərin dialoq iştirakçılarının statusu və cinsindən asılı olaraq ayrılan növləri də vardır. Dialoji rabitəli nitq üzrə işlər də mövzuya, mov zuya hazırlıq vaxtına, əyani vasitədən istifadə olunmasına görə fərqli növlərə bölünür. Nəhayət dialoji rabitəli nitqin iki formada qurulması özünü göstərir. Birinci forma dialoqun sual-cavab sxemi üzrə qurulmasıdır. Digər formada dialoq mövzu ətrafında danışıq şəklində həyata keçirilir. Belə dialoji nitqdə də suallardan istifadə oluna bilər. Lakin sual az olmalı, dialoqu sual-cavab forması almamalıdır.

Dialoqun aşağadakı xüsusiyyətləri vardır: 1) danışanların dəyişməsi heç bir qanunauyğunluğa tabe deyildir; 2) hər anda yalnız bir nəfər danışır; 3) replikaların mübadilə qaydası dəyişkəndir; 4) danışığın uzunluğu qabaqcadan təyin oluna bilmir; 5) fikir əvvəlcədən məlum olmur; 6) dialoq fasiləsiz və kəsilən ola bilər. Bura başqa xüsusiyyətlər də daxil etmək mümükündür. Rabitəli nitqin inkişaf etdirilməsi üzrə aparılan dialoji nitqdə şagirdlərin adi danışıq dili dialoqlarında olduğu kimi bir sözlə və ya yarımçıq cümlələrlə danışmasına məhdudiyyət qoyulur. Belə olmadıqda rabitəli nitqin inkişafı üçün nəzərdə tutulan məqsədə tam nail olunmur. Şagirdlər cümlə qurmaq, cümləni genişləndirmək üzərində düşünmürlər. Rabitəli nitqin inkişafı şagirdlərin söz ehtiyatlarının zənginləşdirilməsi, onların cümlənin müxtəlif növlərindən istifadə etməsini əhatə edir.

Dialoq suala cavab və sual vermək, hər hansı bir mövzu ətrafında fikir yürütmək, mühakimə irəli sürmək və onu müxtəlif arqumentlərlə əsaslandırmaq, fikrini başqalarına təlqin etmək, nəyəsə inandırmaq, nəyisə öyrənmək və dəqiqləşdirmək, müsahiblərin fikirlərini dinləyib münasibət bildirmək, nəhayət məişət ünsiyyəti saxlamaq kimi funksiyaları yerinə yetirməlidir.

Rabitəli nitqin inkişaf etdirilməsi məqsədilə aparılan dialoji danışıqlarda mövzuda mübahisə doğuran, fərqli münasibət formalaşdıran məsələlərin olması əhəmiyyət kəsb edir. Müəllim bunu dialoji rabitəli nitq mövzusunu seçərkən nəzərə almalıdır.

Rabitəli nitqin inkişaf etdirilməsi üzrə aparılan işlər sırasında poliloqlar da xüsusi yer tutur. Qeyd olunduğu kimi, poliloqda iştirakçıların sayı ikidən artıq olur. Bu cəhət danışıq prosesində adresantın bir, adresatların isə ikidən artıq olması əsas amildir. Nitqin bir nəfərə və ya bir neçə nəfərə ünvanlanması danışığın özünəməxsus xüsusiyyətidir. Poliloqda rabitəli nitqə xas olan bu xüsusiyyəti inkişaf etdirmək imkanı artır. Poliloq söhbətə qoşulmaq kimi vacib bir nitq reaksiyasını da inkişaf etdirir. Poliloqda mövzunun dəyişdirilməsi imkanları da genişdir. Mövzunun dəyişdirilməsi rabitəli nitqin inkişaf etdirilməsində müəyyən mərhələ təşkil edir. Mövzunu necə dəyişməyin mümkün olmasını hiss etmək və bu zaman kommunikativ niyyətin ünsiyyətin digər iştirakçılarına təsirini qabaqcadan planlaşdırmaq bacarığı müəllimlə uşaqlar arasında əlavə söhbətlər zəminində mümkündür. Qeyd etmək lazımdır ki, rabitəli nitqin bu və ya digər növü üzrə iş aparmaq həmin növlərlə bağlı məlumatların, biliklərin də verilməsini tələb edir. Bunun üçün müəllim bədii ədəbiyyatlardan müzxtəlif nümunələr seçi rvə həmin nümunələri şagirdlərlə birgə təhlil edir. Təhlil prosesində sualların qoyuluşu, mövzunun dəyişdirilməsi, konkret adresata müraciət, adresatı dəyişdirmək, suala cavabdan yayınmaq, fikri inkişaf etdirmək kimi məsələlər nəzərdən keçirilir.

Beləliklə, aydın olur ki, rabitəli nitqin inkişaf etdirilməsi üzrə işlər müxtəlif və rəngarəngdir. Bu işlər sırasında monoloji və dialoji rabitəli nitqin inkişaf etdirilməsi

iki əsas növ olaraq ayrılır. Bu növlər mövzunun seçilməsindən, istifadə olunan əyani vasitələrdən (məsələn, şəkil, vizual görünən mənzərə), movzuya hazırlıqdan, iştirakçıların statusundan, cinsindən asılı olaraq yarımnövlərə bölünür.

Ədəbiyyat

1. Цейтлин С.Н. Язык. Речь. Коммуникация. –СПб., Наука, 2006
2. Kərimova M. Rabitəli nitqin inkişafı üzrə aparılan işlərdə uşaq baçası ilə məktəb arasında varisliyin imkanları və yolları// http://rudocs.exdat.com/ docs/index-7215.html?page=28
3. Смольяникова Е.Н. Связная речь (словосочетание) и грамматика. –СПб, 2006
4. Qurbanov A. Ümumi dilçilik. Bakı, 1993
5. Ладыженская Т.А. Связная речь//Методика развития речи на уроках русского языка. Москва, 1980
6. Сахарный Л.В. Человек и текст: две грамматики текста// Человек- Текст – Культура. –Екатеринбург, 1994

И.Магерамова

О работах проводимые с целью развития связной речи у учащихся

Резюме

В статье описываются некоторые виды работ по развитию связной речи учащихся. На основе анализа выявляется, что связная речь проявляется в монологической и в диалогических формах. Обе формы речи в зависимости от выбора темы, от используемых средств (картинка, пейзаж и т. д.), от статуса и пола участника коммуникации и от подготовленности к теме делятся на различные под виды.

İ.Maharramova

About work aimed on development of connected speech of students

Resume

The article studies questions of directions of work on development of connected speech of students. On the basis of analysis it reveals that the connected speech appears in monological and dialogical forms. Both forms depending on choice of a theme, used means (picture, scenery and etc.) status and gender of a participant of the communication and readiness to the theme are divided into various sub-forms

Rəyçi: Ofelya Piriyeva
filologiya elmləri namizədi, dosent

LEYLA YUSİFOVA
AMEA, Nəsimi adına Dilçilik İnstitutu
leylayusifova87@mail.ru

İNGİLİS DİLİNDƏ "TO MAKE", "TO GET", "TO HAVE" FELLƏRİNİN MƏCBURİYYƏT ANLAYIŞININ İFADƏSİNDƏ ROLU

Açar sözlər: fellər, məcburiyyət, təsir, təsirlilik, kauzallıq, "to make", "to get", "to have", subyekt, obyekt
Key words: verbs, coercion, impact, transitivity, causality, "to make", "to get", "to have", subject, object
Ключевые слова: глаголы, принуждение, воздействие, транзитивность, причинность, "to make", "to get", "to have", субъект, объект

Məlumdur ki, ictimai ünsiyyət müxtəlif formalarda təzahür edir. Cəmiyyətdə insanlar arasında bərabərlik, tabelilik, asılılıq və bir sıra digər formalarda özünü göstərən münasibətlərin mövcudluğundan dolayı insan təfəkküründə müxtəlif anlayışlar meydana gəlir. Belə anlayışlardan biri də məcburiyyət anlayışıdır. Məcburiyyət nədir?

Fəlsəfə tarixində məcburiyyət mövzusu hələ qədim dövrdən aktual olmuş və bu anlayışa yanaşma aspektləri zaman-zaman artaraq təkmilləşmişdir. Aristotel və digər qədim dövr filosoflarının yaradıcılığında bu anlayışın təbiət mənşəli fenomen kimi izah edildiyini müşahidə edirik (2.49-61). İlk dəfə sofistlər bu anlayışı sosial xarakterli fenomen (hadisə) kimi izah etmişlər. Daha sonrakı dövrlərdə-yeni dövrdə isə məcburiyyət anlayışına yanaşma daha ictimai, sosial, hüquqi mahiyyət kəsb etmişdir (bax 8). Deməli, məcburiyyət anlayışını bir neçə aspektdən izah edə bilərik. Qeyd etmək lazımdır ki, fərqli yanaşmalarda məcburiyyətin subyekt və obyektləri də fərqlidir. Əgər fəlsəfi kateqoriya kimi məcburiyyətə zorlama aktı kimi baxılırsa, psixoloji nöqteyi-nəzərdən məcburiyyət şüura (iradə) yönəlmiş xarici təsirlər və məcbur edilmiş şəxsin öz istəyi və arzusunun əleyhinə hərəkətidir (4.10). Bu aspektdə məcburiyyətin subyekt və obyekti fərdlərdir. Özünüməcburiyyət də mümkündür. Bu halda isə məcburiyyətin subyekt və obyekti üst-üstə düşür. Hüquqi aspektdən yanaşdıqda isə məcburiyyətin subyekti dövlət, qanunlar, obyekti isə vətəndaşlardır.

Məcburiyyət mürəkkəb struktura malik geniş və mücərrəd anlayışdır. Çünki məcburiyyətin strukturuna yalnız onun subyekt və obyektləri deyil, eyni zamanda məcburiyyətin üsul və vasitələri, təsir prosesi, təsir şəraiti, məqsədlilik, nəticə və s. daxildir.

Məcburiyyət həm də mücərrəd anlayışdır. Belə ki, bu anlayışın əsasında duran denotat gözlə görülməsi və əllə toxunulması mümkün olan maddi varlıq deyil, birinin digərinin şüuruna yönəltdiyi təsir prosesi, məcbur olanın öz istəyi olmadan ona buyurulanı həyata keçirməyə məcbur olması prosesidir.

Cəmiyyətdə ictimai münasibətlərin tənzimlənməsində müəyyən rolu olan bu hadisənin dildə ifadəsinin öyrənilməsi linqvistik baxımdan, xüsusilə, əhəmiyyətlidir. Məcburiyyət anlayışı dildə hansı vasitələrlə ifadə olunur? Bu anlayışın dildə ifadəsinin öyrənilməsində linqvistik baxımdan maraqlı və əhəmiyyətli olan

nədir? Qeyd etmişdik ki, məcburiyyət birinin digərinin istəyinin əleyhinə onu özünün istəyinə müvafiq işi icra etməyə məcburetmə prosesidir. Bu proses isə şüura yönəlmiş təsirlə bağlıdır. Linqvistik baxımdan maraqlı olan məhz həmin təsir prosesinin ifadə vasitələridir. Təsirdən, prosesdən söhbət gedirsə, deməli, burada qrammatik hərəkətlilik var. Dildə hərəkətin əsas ifadəçisi fellərdir. Bir qrammatik kateqoriya olaraq fel iş, hal, hərəkət bildirən nitq hissəsidir. Belə isə, haqqında danışdığımız təsir prosesi ya fellərlə, ya da feli kateqoriyalarla ifadə olunmalıdır. Yaxud haqqında danışdığımız təsir prosesini ifadə edən dil vasitələri ya fel, ya da felə məxsus kateqoriya olmalıdır. Ona görə də bu təsiri dildə bu və ya digər dərəcədə ifadə edə bilən *to make, to get, to have* fellərini tədqiq etmək, fikrimizcə, linqvistik baxımdan maraqlı və əhəmiyyətli olar. Bu dil vahidlərinin məcburiyyət anlayışın ifadəsində rolu nədən ibarətdir? Şüura yönəlmiş təsiri ifadə etdiyi məqamda bu dil vahidləri necə vahidlərdir? Məcburiyyət anlayışının ifadəsində bu və ya digər dərəcədə rolu olan hər üç dil vahidinin ümumi və fərqli xüsusiyyətləri hansılardır? Bu dil vahidləri şüura yönəlmiş təsiri leksik cəhətdən ifadə edir, yoxsa kateqorial olaraq? Bütün bunları aydınlaşdırmaq üçün, ilk növbədə, bu dil vahidlərinə leksik vahid kimi yanaşaraq onların leksik-semantik xüsusiyyətlərini araşdırmaq və ümumu şəkildə təqdim etməyin vacib olduğunu düşünürük. Leksik vahid olduğunu iddia etdiyimiz hər hansı dil vahidini tədqiq etmək üçün müvafiq lüğətlərə müraciət etmək, fikrimizcə, daha məqsədəuyğundur.

V. Müller və S. Boyanusun "İngiliscə -rusca lüğət"ində *"to make"* felinin ilkin mənaları aşağıdakı kimi göstərilmişdir: *"делать (etmək); создавать (yaratmaq); производить, фабриковать (istehsal etmək); составлять (təşkil olunmaq); оказываться (çevrilmək); заставить (məcbur etmək); зарабатывать (qazanmaq, əldə etmək); приготовлять (hazırlamaq, dəmləmək)* və s. (6.694). Bu felin Oksford lüğətlərində təqdim olunmuş izahı isə belədir: *1.Form (something) by putting parts together or combining substances create (hissələri və ya maddələri birləşdirməklə (nəyisə) formalaşdırmaq); create (yaratmaq) 2.Cause (something) to exist or come about; ((Nəyinsə) mövcud olmasına və ya baş verməsinə səbəb olmaq); bring about (doğurmaq) 3.Compel (someone) to do something ((Kimisə) nəyisə etməyə məcbur etmək) (12).*

V. Müller və S. Boyanusun "İngiliscə -rusca lüğət"ində *"to get"* felinin mənaları belə verilmişdir: 1*) доставать (almaq, əldə etmək), получать (almaq); иметь (malik olmaq); зарабатывать (qazanmaq); заслуживать (layiq olmaq, qazanmaq, əldə etmək, dəyməkvə s.); побуждать (təhrik etmək); заставлять (məcbur etmək); порождать (=beget (törətmək, əmələ gətirmək)) (doğurmaq, törətmək); 2) достигать (çatmaq), приходить (gəlmək, çatmaq, gəlib çatmaq); делаться (olmaq, baş vermək); становиться (durmaq, olmaq)* və s. (6.494). Lüğətdə həm də qeyd edilmişdir ki, bu felin mənalar dəsti, əsasən, aşağıdakılara bölünür: 1) доставать (almaq, əldə etmək); 2) достигать (çatmaq), становиться (durmaq, olmaq) (6.494). Oksford izahlı lüğətlərində isə bu felin ifadə etdiyi başlıca mənalar aşağıdakı kimi təqdim olunmuşdur: *1. Come to have (something) (malik olmaq (nəyəsə)); receive (qəbul etmək): 2.Succeed in attaining, achieving, or experiencing (qovuşaraq, nail olaraq, yaxud yaşayaraq müvəffəq olmaq); obtain (əldə etmək): 3.Reach or cause to reach a specified state or condition (müəyyən bir duruma, yaxud vəziyyətə çatmaq və ya çatmağa səbəb olmaq): 4.Come, go, or make progress eventually*

or with some difficulty (son anda, yaxud bir az çətinliklə gəlmək, getmək, yaxud tərəqqi etmək): və s. (12).

"To have" feli isə V. Müller və S. Boyanusun "İngiliscə -rusca lüğət"ində aşağıdakı kimi izah edilir: *иметь (malik olmaq) (həm adi, həm köməkçi kimi); быть обязанным (vacib olmaq); заставлять (have your hair cut) (məcbur etmək) (saçını kəsdirmək); утверждать (təsdiq etmək), говорить (danışmaq) (6.533).* Oksford lüğətlərində isə *"to have"* felinin mənaları belə verilmişdir: *1.Possess, own, or hold (malik olmaq, yiyələnmək, sahiblənmək): 2.Experience (təcrübədən keçirmək); undergo (məruz qalmaq, uğramaq):* və s. (12).

Lüğətlərdə təqdim edilmiş izahlardan görünür ki, bu fellər semantik cəhətdən zəngindir. Və bu dil vahidlərinin (fellərin) hər birinin yuxarıda təqdim etdiyimiz mənalarını ayrı-ayrılıqda ümumiləşdirsək, deyə bilərik ki, *"to make"* feli *etmək, "to get"* feli *əldə etmək, "to have"* feli *malik olmaq* mənalarını ifadə edir.

Tədqiqat prosesində *"to make"* felinin müşahidə etdiyimiz fərqli kontekstlərdə işlənməsi faktı bu felin polisemantik fel olduğunu sübut edir. Nümunə üçün, onlardan bir neçəsini təqdim edək:

*I'**ve made** some chicken soup for you and... (16.46). (Sənin üçün bir az cücə supu **hazırlamışam** və ...)*

*He visited the ice factory that **made** ice for the few houses in Salinas that had iceboxes and for the places that sold ice cream (16.75). (O, buz qutuları olan Salinasda bir neçə ev üçün və dondurma satan yerlər üçün buz **istehsal edən** buz fabrikinə baş çəkdi.)*

*I want **to make** a lot of money (16.82). (Mən çoxlu pul **qazanmaq** istəyirəm.)*

*It was painful, but he recovered quickly and returned home six weeks after Adam's birth with a wooden leg that he'**d made** himself (16.4). (Çətin idi, ancaq o tez düzəldi və Adamın doğulmasından altı həftə sonra özünün **düzəltdiyi** taxta ayaqla evə qayıtdı.)*

Tədqiqat prosesində *"to get"* felinin də fərqli kontekstlərdə işlənməsi faktını müşahidə etdik.

1.Əldə etmək, öyrənmək mənasında: *I want **to get** some more information first (14.36). (Mən əvvəlcə bir az da məlumat **əldə etmək** istəyirəm.)*

2.Almaq, qəbul etmək mənasında: *You **got** her note on the day of her death (15.43). (Sən onun öldüyü gün onun məktubunu **almısan(qəbul etmisən).)***

3. Gəlmək, girmək mənasında:*"How did we **get** into this awful situation!" she cried desperately (16.73). ("Biz bu dəhşətli vəziyyətə necə **girdik**!" o, ümidsizcəsinə ağladı.)*

4.Qazanmaq, əldə etmək, nail olmaq mənasında: *She had studied hard at school, and been intelligent enough **to get** a place to study modern languages at one of the famous Oxford colleges (15.21). (O, məktəbdə gərgin oxumuş və məhşur Oksford kolleclərindən birində müasir dilləri öyrənmək məqsədilə bir yer **qazanmaq** üçün kifayət qədər savadlı olmuşdu.)*

"To have" feli isə *"to make"* və *"to get"* felləri kimi zəngin semantikaya malik deyil, ona görə də leksik vahid olaraq bu felin işləndiyi kontekstlər, demək olar ki, çox deyil.

*It was his free afternoon and he **had** a special reason for coming to this part of the city (15.7). (Onun sərbəst günü idi və şəhərin bu hissəsinə gəlmək üçün onun xüsusi səbəbi **var idi**.)*

Qeyd edək ki, *"to have"* feli yemək, içmək mənasında da əsas fel kimi işlənir. Məsələn, *Let's go and **have** a drink, to celebrate! (15.79). (Gəl gedək,qeyd etmək üçün **içək!)***

Tədqiqatın məqsədi bu fellərin leksik-semantik xüsusiyyətlərini araşdırmaq deyil, bu dil vahidlərinin məcburiyyət anlayışının ifadəsindəki rolunu müəyyənləşdirmək, onların bu anlayışı nə dərəcədə ifadə edə bildiyini aydınlaşdırmaqdır. Qeyd etməliyik ki, bu dil vahidlərinin dildə vəzifəsi yalnız lüğəvi vahid olaraq müəyyən leksik məna kəsb etmək deyil, həm də kauzallıq ifadə edən qrammatik forma kimi çıxış etməkdir. Kauzallıq nədir?

Kauzallıq latınca *causare* (səbəb) sözündəndir, hadisələr arasındakı səbəb-nəticə əlaqəsini ifadə edir. Buna səbəbiyyət də demək olar. Məlumdur ki, hər had isənin mütləq səbəbi var. Deməli, həmin hadisə nəticədir, onu törədən isə səbəbdir. Səbəbin nəticəni törətməsi, doğurmasını, yəni səbəb və nəticə arasındakı əlaqəni, səbəb münasibətini ifadə edən anlayış səbəbiyyətdir. Tədqiqata cəlb etdiyimiz dil vahidləri məhz haqqında danışdığımız səbəb münasibətinin, yəni kauzallığın dildə ifadəsinin formal göstəriciləridir. Kauzallığın dildə ifadəsini kauzativ situasiyaları təhlil etməklə öyrənmək mümkündür. Kauzativ situasiya nədir?

Nedyalkov V.P. və Silnitski Q.Q. yazırlar ki, "gerçəklik hadisələr və situasiyalar çoxluğu kimi təqdim oluna bilər. Sadə situasiyalar var. Onları mikrosituasiyalar adlandırmaq olar... Sadə situasiyalardan başqa mürəkkəb situasiyalar mövcuddur. Onları makrosituasiyalar adlandırmaq olar (7.6). Makrosituasiyanın bir tipini müəlliflər kauzativ (kauzativ situasiya-L.Y.) adlandırırlar. Müəlliflər qeyd edirlər ki, "KS (kauzativ situasiya) tərkib hissələri birbaşa kauzasiya, yaxud səbəb münasibəti ilə əlaqələnən ən azı iki mikrosituasiyadan ibarətdir (7.6). Səbəb mikrosi tuasiyasının KS-nın antesedenti, nəticə mikrosituasiyasının isə KS-nın konsekventi olduğunu vurğulayır, kauzativ makrosituasiyada ən azı beş konstant müəyyənləşdirirlər. Kauzasiyanı (səbəb münasibətini) ***k*** ilə işarə edirlər və bu konstantı kauzativ makrosituasiyanın müəyyənedici konstantı kimi qeyd edirlər. Bu konstantdan əlavə KS-nın hələ dörd konstantının da olduğunu vurğulayırlar. Həmin konstantlar bunlardır: agens, KS-nın antesedentinin predmeti ***(r_i),*** səbəb olan vəziyyət ***(s_i),*** patiens, KS-nın konsekventinin predmeti ***(r_j),*** nəticə vəziyyəti ***(s_j)*** (7.7).

Tədqiqata cəlb etdiyimiz dil vahidləri, yəni *"to make", "to get", "to have"* kauzativ situasiyada əsas müəyyənedici konstant olan ***k,*** yəni kauzasiyanı (səbəb münasibətini) ifadə edir. *"To make" "to get"* və *"to have"* köməkçi fellərindən fərqli olaraq, şüura yönəlməmiş təsiri də ifadə edə bilir. Məsələn,

The water by the beach was clear and still, but on the other side the trees came right down to the edge of the lake and their shadows made it look black and poisonous (20.35). (Çimərlikdə su aydın və sakit idi, ancaq o biri sahildə ağaclar düz gölün kənarına enirdi və onların kölgələri onu qara və bədxah göstərirdi.)

Gördüyümüz kimi, bu nümunədə *"made"* ilə ifadə olunan təsir *ona (it),* yəni *gölə (lake)* yönəlmişdir. Deməli, haqqında danışdığımız dil vahidi burda, sadəcə, səbəb münasibətini ifadə edir. Səbəb situasiyası *kölgələrdir (shadows),* nəticə isə *gölün qara və bədxah görünməsi. Görünmək "to look"* feli ilə ifadə olunmuşdur.

Bildiyimiz kimi, bu fel bu mənada təsirsizdir. Təsir, səbəb münasibəti burada *"made"* ilə ifadə olunmuşdur. Yəni nəticəni ifadə edən fel təsirsizdir, *"made"* ilə ifadə olunmuş təsirin obyekti də *göldür (lake)*. Deməli, burada məcburiyyətdən söhbət gedə bilməz. Bu situasiyada *"to make",* sadəcə, kauzallıq (səbəb olma) ifadə edib. Ancaq *"to get"* və *"to have"* yalnız şüura yönəlmiş təsiri ifadə edə bilir. Hər üç dil vahidini birləşdirən cəhət onların şüura yönəlmiş təsiri ifadə edən qrammatik forma kimi çıxış etməsidir. Şüura yönəlmiş təsir məcbur etmə, vadar etmə, təhrik etmə və s. formasında ola bilər. Yəni bu dil vahidləri o təsiri ifadə edir ki, həmin təsirin vasitəsilə təsir altına düşən təsir edənin istəyinə uyğun hər hansı bir işi görür. Tədqiqatın məqsədi bu dil vahidlərinin məcburiyyət anlayışını nə dərəcədə ifadə etdiyini aydınlaşdırmaqdır. İngilis dilli nümunələr əsasında apardığımız tədqiqat nəticəsində bu dil vahidlərinin məcburiyyətin strukturuna daxil olan təsir prosesinin ifadəçisi kimi fərqli xüsusiyyətlərə malik olduğu müəyyənləşdirildi. Bu fərqlilik yalnız struktur, sintaktik imkanlar baxımdan deyil, həm də ifadə etdiyi təsir üsulu baxımından da özünü göstərir. Yəni fərqlilik yalnız ifadə planında deyil, həm də məzmun planında da təzahür edir. Bu dil vahidlərinin məhz bu mövqedə fərqli xüsusiyyətlərini nümunələr əsasında təqdim və izah edəcəyik. Əvvəlcə, bu dil vahidlərinin kauzallıq, yəni səbəb münasibəti ifadə etdiyi məqamda leksik vahid, yoxsa həmin mənanı kateqorial olaraq ifadə edən qrammatik forma olduğunu müəyyənləşdirməyi vacib hesab edirik. Fikrimizcə, bu dil vahidlərinə kauzallıq, yəni səbəb münasibəti ifadə etdiyi məqamda leksik vahid kimi deyil, funksional vahidlər kimi baxılmalıdır. Çünki bu dil vahidləri həmin mövqedə kauzallığı leksik vahid olaraq ifadə etmir. Silnitski Q.Q. yazır ki, "kauzativ fellər tipinə aid olduqları əsaslarda "təsir leksik mənası"na malik olan **make, have, get, let** felləri həm də xəbərin sintaktik funksiyasını yerinə yetirir" (10.137). Krimovna yazır ki, "bu fellər iki əsas köməkçi fel tipi olan bağlama və modallardan heç birinə aid edilə bilməz. Modal fellərlə onlar mənasına görə əlaqədardır, ancaq onlardan "nöqsansızlığ"ına (qüsursuzluğuna), yəni bütün morfoloji kateqoriya və formaların olmasına görə fərqlənir" (5.38). Fikrimizcə, xəbərin sintaktik funksiyasını yerinə yetirməyə qabil olmaları bu dil vahidlərinin həmin mövqedə leksik vahid kimi çıxış etdiklərini iddia etməyə əsas verə bilməz. Fikrimizcə, bu dil vahidləri modal fellərlə eyni mənanı ifadə etmir. Modal fellər modallığı, fikrə münasibəti ifadə edir. Haqqında danışdığımız dil vahidləri isə subyekt-obyekt münasibətindəki təsir prosesini ifadə edir. Bu dil vahidlərinin modal fellərdən "nöqsansızlığ"ına, yəni bütün morfoloji kateqoriya və formaların olmasına görə fərqləndiyi iddia edilən fikrə münasibətimizə gəldikdə isə, deməliyik ki, ingilis dili morfoloji formalardan təcrid olunaraq amorf dillərə yaxınlaşır, buna görə də bu dildə bütün morfoloji kateqoriya və formaların, həm də yüksək inkişaf etdiyindən danışa bilmərik. Bundan başqa da qeyd etməliyik ki, haqqında danışdığımız dil vahidləri modal fellərdən bütün morfoloji kateqoriya və formaların olmasına görə heç də kəskin fərqlənmir. Şəxsə görə dəyişmədən söhbət gedirsə, *"to make", "to get", "to have"* yalnız indiki zamanda üçüncü şəxsin təkində müstəqil fellər kimi *s* suffiksini qəbul edir, modal fellər isə have to-dan başqa üçüncü şəxsdə şəxsə görə dəyişmir. Zamana görə dəyişməyə gəldikdə isə qeyd etmək lazımdır ki, modal fellər də, *"to make", "to get", "to have"* də zamana görə dəyişir. Krımovnanın o fikri ilə razıyıq ki, bu dil vahidləri modal fellərə, bağlamalara aid edilə bilməz. Çünki modal fellərlə haqqında danışdığımız dil vahidləri tam fərqli

münasibəti ifadə edirlər. Bessalov A.Y. kauzativ felləri iki qrupa bölərək ingilis dilində *"to make" və "to get"* kimi dil vahidlərini köməkçi kauzativlərə aid edir. Müəllif bu dil vahidlərini köməkçi kauzativlərə aid etməsinin əsası kimi onların yalnız əsas müəyyənləşdirici konstantı ifadə etməsini göstərir. Digər qrupa isə mənalı kauzativləri aid edir və onların daha mürəkkəb semantik struktura malik olduğunu və müəyyənedici konstantdan əlavə həm də kauzasiyanın üsulunu bildirən konstantdan ibarət olduğunu qeyd edir (3.86). Bu fikirlə müəyyən qədər razılaşırıq. Ancaq yenə də fikrimizi məqalədə mərhələ-mərhələ əsaslandırmağı düşünürük. Qeyd etməliyik ki, hər üç dil vahidi kauzallıq ifadə etsə də, *"to make" "to get"* və *"to have"*dən fərqli olaraq daha ümumi və nisbətən mücərrəd şəkildə bu münasibəti ifadə edir. *"To get"* və *"to have"* dil vahidlərində isə təsirin üsulu nisbətən konkretdir. Və yuxarıda da qeyd etdiyimiz kimi, *"to make"*-in ifadə etdiyi təsir ümumidir, *"to get"* və *"to have"* isə, əsasən şüura yönəlmiş təsiri ifadə edir. Başqa cür desək, *"to make"* vahidinin ifadə etdiyi təsir məqsədli olmaya da bilər, ancaq digər ikisi, adətən, məqsədli xarakter daşıyır. Nəticə olaraq, deməliyik ki, hər üç dil vahidi məcburiyyət anlayışını bu və ya digər dərəcədə ifadə edir. Həmin məqamda bu dil vahidlərinin ifadə etdiyi təsirin obyekti hər hansı bir işi özü icra edir, ancaq subyektin təsirilə həmin işi görür. Ancaq təbii ki, bu dil vahidləri haqqında danışdığımız anlayışı eyni dərəcədə ifadə etmir. Misallara baxaq.

I was afraid of his eyes - they were cold and clear and shone with an extraordinary power. When I looked into them, I felt that he could make me do anything he wanted (20.38). (Mən onun gözlərindən qorxdum - onlar soyuq və aydın idi və qeyri-adi güclə parlayırdı. Mən onların içinə baxanda hiss etdim ki, o mənə istədiyi hər hansı bir şeyi etdirə bilər.)

Miriam shyly and rather bitterly produced her exercise-book. Every week she wrote for him a sort of diary of her inner life, in her own French. He had found this was the only way to get her to do compositions (19). (Məryəm utanaraq və bir az da kobud şəkildə öz dəftərini düzəltdi. Hər həftə o, onun üçün öz doğma fransız dilində öz daxili dünyasının gündəliyini yazırdı. O, ona yazı yazdırmağın yeganə yolunun bu olduğunu kəşf etmişdi.)

Walk on from this, for I'll not have him tormented... (18) Ona əzab çəkdirməmək üçün burdan gedək.

Hər üç dil nümunəsində kauzallıq ifadə olunub. Birincidə bu anlayışı *"make",* ikincidə *"get",* üçüncüdə *"have"* ifadə edib. Və hər üç dil vahidi şüura, yəni şəxsə yönəlmiş təsiri ifadə edir. Yəni hər üç nümunədə bu dil vahidləri subyektin obyektin şüuruna təsiri vasitəsilə obyektin digər obyekt üzərində subyektin istəyi ilə hər hansı bir işi görməsi ifadə olunub. Lakin haqqında danışdığımız dil vahidləri bu təsiri eyni dərəcədə ifadə etmir. Təsir məcburetmə, təhriketmə, vadaretmə, razı salma və s. vasitəsilə ola bilər. Bu dil vahidləri də bu təsiri ifadə etmədə fərqliliyə malikdir. Məzmun baxımından fərqlilik ifadə planında da özünü göstərir. Bütün bunları bir-birilə əlaqəli şəkildə aydınlaşdıracağıq. Bu fərqliliklər nədən ibarətdir və nədən irəli gəlir? Məzmun baxımından müəyyən qədər fərqlənən bu təsir niyə məhz bu dil vahidləri ilə ifadə olunur?

Qeyd etmək lazımdır ki, Romanova O.N. dissertasiyasında *"to make", "to get", "to have"* haqqında da danışmışdır (9.98-110). Lakin müəllif adını çəkdiyimiz dil vahidlərinin hər birinin işləndiyi kontekstləri təqdim etsə də, onların bu anlayışı

bu və ya digər dərəcədə ifadə etdiyini açıqlasa da, bu təsirin məhz bu dil vahidləri ilə ifadəsinin səbəblərini izah etməmiş, bu dil vahidlərinin haqqında danışdığımız anlayışı funksional səviyyədə ifadə etməsini əsaslandırmamışdır. Fikrimizcə, hər hansı anlayışın dildə hansısa forma ilə ifadə olunmasının əsası olmalıdır. Dildə heç bir forma öz-özünə yaranmır. Bu haqda sonra danışacağıq. Əvvəlcə, bu dil vahidlərinə ifadə planında baxaq. Belə ki, nümunələrdən də göründüyü kimi, *"to make"* ilə ifadə olunan təsirin nəticəsində baş verən və ya baş verəcək hərəkət açıq (təmiz) məsdərlə *(do),"to get"* ilə ifadə olunmuş təsirin nəticəsində baş vermiş hərəkət isə bütöv məsdərlə, yəni *"to"* ilə birlikdə *(to do), "to have"* ilə ifadə olunmuş təsirin nəticəsində baş vermiş hərəkət isə feli-sifətlə (tormented) ifadə olunmuşdur. Müxtəlif dilçilərin əsərlərində də bu təhlilə bu və ya digər dərəcədə rast gəlsək də, ancaq hər hansı əsaslandırmaya rast gəlinmir. Düşünürük ki, bütün bu hallar əsaslandırılmalıdır. Bunların səbəbləri var.

Dafli P. J. yazır ki, "Perifrastik kauzativ fellərə tətbiq edəndə bu təhlil nəzərdə tutur ki, *make* feli birbaşa və ya təsirin məhsulu ilə "üst-üstə düşən" kauzasiya bildirmə kimi səciyyələndirilə bilər" (bax 11.367). Vasitəli (birbaşa olmayan) kauzasiyanın *to* ilə ifadə olunduğu halda, birbaşa kauzasiyanın *to*-suz ifadə olunduğu fikrinə əsaslanaraq Xəlifə J. K. iddia edir ki, "*have* və *make* felləri birbaşa kauzativ münasibəti, *cause* və *get* felləri isə birbaşa olmayan kauzativ situasiyanı ifadə edir" (bax 11.367). Dikson R. M. isə *have*-i birbaşa olmayan kauzativ kimi səciyyələndirir (bax 11.369). Bütün bu deyilənlər nə dərəcədə doğrudur? Bütün bunları nümunələr əsasında izah etmək daha məqsədəuyğun olar. Fikrimizcə, *"to make"* şüura yönəlməmiş təsiri də ifadə edə bilir. Yuxarıda bir nümunə təqdim etmişdik. *"To get"* və *"to have"* isə, əsasən, şüura yönəlmiş təsiri ifadə edir. *"To make"* və *"to have"*dən fərqli olaraq *"to get"* təsiri daha konkret ifadə edərək hətta təsir üsulunu da özündə ehtiva edir. Bu hansı üsuldur? Bir nümunəyə baxaq:

Will Martin said, "Life is too hard here. Why don't we get him to sell out and move to town? Mollie and I would like them to come here and live with us" (16.52). (Uill Martin dedi, "Həyat burda çox çətindir. Nə üçün biz onu hər şeyi satıb şəhərə köçməyə razı salmırıq? Molli və mən onların bura gəlib bizimlə yaşamasını istərdik.

Təqdim etdiyimiz bu nümunədə məcburiyyət nisbətən, azdır, yaxud nisbətən yumşaqdır. Həm də bu situasiyada təsir üsulu da ifadə olunub. Bu situasiyada məqsəd onun hər şeyi satıb şəhərə köçməsinə nail olmaqdır. Deməli, bu situasiyada məcburiyyət dilə tutma, inandırma vasitəsilə baş verir. Yəni *"to make"* və *"to have"* ilə ifadə olunan təsirin obyekti icra etdyi işi görməyə məcburdursa, həmin işi etməkdə sona qədər könülsüzdürsə, *"to get"* ilə ifadə olunan təsirin obyektində isə belə deyildir. *"To get"* ilə ifadə olunmuş təsirin obyekti əvvəlcə təhrik edildiyi işi icra etmək istəməsə də, sonda o işi etməyə təsirin subyekti tərəfindən razı salınır. Təsir altına düşən şəxs inandırılaraq, razı salınaraq o işi icra edir. Ona görə də deyə bilərik ki, *"to get"* ilə ifadə olunmuş təsir *"to make"* və *"to have"* ilə ifadə olunmuş təsirdən daha az məcburi xarakterə malikdir. Lakin *"to get"* ilə ifadə olunmuş təsir, demək olar ki, həmişə məqsədli xarakter daşıyır. Yəni subyektin daxili marağı, təsirin məqsədyönlülüyü bu situasiyada, xüsusilə nəzərə çarpır. *"To make"* ilə ifadə olunmuş təsirin subyekti isə təsir obyektində məqsədli olmadan da məcburiyyət hissi yarada bilər. Hətta to make ilə ifadə olunmuş təsirin subyekti şüurlu varlıq

olmaya da bilər, cansız varlıq ola da bilər. Məsələn, yuxarıda *"to get"* işlənmiş situasiyalara yenidən baxaq.

He had found this was the only way to get her to do compositions (19). (O, ona yazı yazdırmağın yeganə yolunun bu olduğunu kəşf etmişdi.)

Why don't we get him to sell out and move to town?(16.52). (Nə üçün biz onu hər şeyi satıb şəhərə köçməyə razı salmırıq?)

Təqdim etdiyimiz bu cümlələrdə ifadə olunmuş məcburiyyət situasiyasına nəzər saldıqda to get ilə ifadə olunmuş təsirin subyektinin marağını və təsirin məqsədyönlü olmasını görürük. Birinci situasiyada məqsəd ona yazı yazdırmaq, ikincidə isə onun hər şeyi satıb şəhərə köçməsinə nail olmaqdır. Və hər iki halda məcburiyyət, demək olar ki, çox azdır. Burda məcburiyyətdən daha çox təsir obyektini dilə tutmaq, inandırmaq və s. yolu ilə obyekti subyektin istədiyi işi etməsinə razı salmaq ifadə olunur.

"To make" işlənmiş cümlələrə baxaq.

But she probably knew she was having a baby. It wouldn't have made her kill herself (15.65). (Ancaq o, yəqin ki, bir uşağa sahib olduğunu bilirdi. Bu onu özünü öldürməyə məcbur edə bilməzdi.)

Gradually the typhus fever left Lowood, but the number of deaths made the public aware of the poor conditions in which the pupils lived (14.24). (Tədricən yatalaq qızdırması Louvudu tərk etdi, lakin ölümlərin sayı ictimaiyyəti şagirdlərin yaşadığı yoxsul vəziyyətdən xəbərdar olmağa məcbur edirdi.)

My curiosity made me open the door, and I found the corridor full of smoke (14.3). (Mənim marağım məni qapını açmağa məcbur etdi və mən koridoru tüstü ilə dolu gördüm.)

And when they had drunk, Kate replied, "To my mother." "You'll make me cry-don't make me cry," said Faye (16.44). (Və onlar içəndə Keyt cavab verdi, "Anama" (Anamın şərəfinə) "Məni ağladacaqsan (ağlamağa məcbur edəcəksən)-ağlatma məni," Feye dedi.)

I taught her for several hours every day in the library, although it was not easy to make her concentrate on anything for long, as she was clearly not used to the discipline of lessons (14.25). (Dərs qaydalarına alışmadığına görə onu uzun müddət nəyəsə cəmləşməyə məcbur etməyin asan olmadığına baxmayaraq, mən ona kitabxanada hər gün bir neçə saat öyrədirdim.)

Sometimes the big girls bullied us little ones and made us hand over our teatime bread or evening biscuit (14.18). (Bəzən böyük qızlar biz balacaları hədələyir və bizi çay vaxtı çörək, yaxud axşam peçenye ötürməyə məcbur edirdilər.)

Gördüyümüz kimi, ilk üç cümlədə "*make"* ilə ifadə olunmuş təsirin subyekti şüurlu varlıq deyil və bu halda təsirin məqsədyönlülüyündən söhbət gedə bilməz. Ancaq təsir obyektində məqsədsiz də məcburiyyət hissi yaratmaq mümkündür. Hər üç nümunələrdə bu hal ifadə olunmuşdur. Dördüncüdə *"make"* ilə ifadə olunmuş təsirin subyekti şüurlu varlıq, yəni şəxsdir. Ancaq burda da təsir məqsədyönlü deyil. Təsirin subyektinin-Keytin Feyeni ağlatmaq məqsədi yoxdur. Ancaq onun hərəkəti anasına-Feyeyə təsir edib onu ağlada bilər. Beşinci və altıncı cümlələrdə isə *"make"* ilə ifadə olunmuş təsirin subyektləri şüurlu varlıqlardır və təsir məqsədyönlü xarakterə malikdir. Yəni beşincidə onu nəyəsə cəmləşdirmək, altıncıda isə balaca qızları çörək, peçenye ötürməyə məcbur etmək *"make"* ilə ifadə olunmuş təsirin

subyektlərinin məqsədidir. Deməli, *"to make"* ilə ifadə olunmuş təsir məqsədyönlü ola da bilər, olmaya da, o təsirin subyekti şüurlu varlıq, yəni hər hansı bir şəxs, və ya şəxslər də ola bilər, cansız varlıq, hadisə və s. də. Yəni *"to make"*-in ifadə etdiyi məzmun baxımından məhdudiyyəti yoxdur.

"To have" formasına gəldikdə isə, qeyd edə bilərik ki, adətən, bu formanın işləndiyi cümlədə işi məhz "*to have"* ilə ifadə olunmuş təsirin obyektinin icra etməsi nəzərə çarpdırılmır, işin üzərində icra olunduğu obyekt nəzərə çarpdırılır. Birinci obyekt, yəni şüurlu varlıq, şəxs və ya şəxslər ya ifadə olunmur, ya da vasitəli tamamlıqla ifadə olunur. İkinci obyekt isə cümlədə vasitəsiz tamamlıq olur və mütləq ifadə olunur. Bu halda nəticədə baş vermiş hərəkət felin təsriflənməyən forması olan feli sifətlə ifadə olunur və həmin feli sifət təsirli feldən yaranmış olur. Nümunələrə baxaq.

He had me horsewhipped! -- horsewhipped in front of the jail, like a nigger! -- with all the town looking on! Horswhipped! -- do you understand? (17). (O, məni qamçılatdırdı!- bütün şəhərin gözünün qabağında- həbsxananın qarşısında zənci kimi qamçılatdırdı! Qamçılanmaq!- anlayırsan?)

...and he had a great warrant to tell stories of holy Ireland till he'd have the old women shedding down tears about their feet (18). (Və onun yaşlı qadınları ayaqlarına qədər göz yaşları axıtmağa məcbur edənə qədər müqəddəs İrlandiya haqqında hekayələr danışmağa haqqı vardı.)

Birinci cümlədə *"had"* vasitəsilə ifadə olunmuş təsirin obyekti, yəni işi icra edən ifadə olunmayıb, çünki nəzərə carpdırılması maraqlı olan o deyil, üzərində iş icra olunandır ki, o da *me* əvəzliyi ilə ifadə olunmuşdur. İkinci cümlədə isə *"have"* ilə ifadə olunmuş təsirin obyekti də, üzərində iş icra olunan da *yaşlı qadınlardır (the old women).* Nəticədə baş vermiş hərəkət feli sifətlərlə (*horsewhipped, shedding)* ifadə olunmuşdur və hər iki feli sifət *to "horsewhipp* və *to shed* təsirli fellərindən yaranmışdır. Demək olar ki, "*to have"* ilə ifadə olunmuş təsirin nəticəsində baş verən hərəkət, əsasən, təsirli fellərin feli sifət formaları ilə ifadə olunur. Qeyd etmişdik ki, V. Müller və S. Boyanusun "İngiliscə -rusca lüğət"ində *"to have" заставлять (məcbur etmək)* kimi də izah edilir və *have your hair cut (*saçını *kəsdirmək),* nümunə kimi təqdim edilir (6.533). Yuxarıda qeyd etmişdik ki, Oksford lüğətlərində isə bu dil vahidinin *experience (təcrübədən keçirmək); undergo (məruz qalmaq, uğramaq)* kimi izahı verilir. Həmin ümumi mənadan ayrılan bir neçə məna da verilmişdir ki, bunlardan biri də *cause (something) to be done for one by someone else (bir nəfər üçün başqa biri tərəfindən edilmiş nəyəsə səbəb olmaq)* kimi izahdır. İzahdan əvvəl isə feli sifətlə işlənməsi qeyd edilmişdir (12). Collins ingilis dili lüğətində isə bu dil vahidinin izahları sırasında 13-cü yerdə *to cause, compel, or require to (be, do, or be done) (olmaq, etmək, yaxud edilməyə) səbəb olmaq, məcbur etmək, tələb etmək)* izah edilmiş və nümunə olaraq, *have my shoes mended (ayaqqabılarımı təmir etdir)* göstərilmişdir (13).

Deməli, *"to make"* ilə ifadə olunan təsirin nətiəsində baş vermiş, yaxud baş verəcək hərəkət açıq məsdərlə (*to*-suz), *"to get"* ilə ifadə olunan təsirin nəticəsində baş vermiş və ya baş verəcək hərəkət bütöv məsdərlə (*to* ilə birlikdə), *"to have"* ilə ifadə olunan təsirin nəticəsində baş vermiş hərəkət isə feli sifətlə, əsasən də, keçmiş zaman feli sifəti ilə ifadə olunur. Buna səbəb nədir? Formadakı fərq məzmundan irəli gəlir. Bu dil vahidləri haqqında danışdığımız anlayışı eyni dərəcədə ifadə

etmir. Təsir birbaşa və dolayısı ilə baş verə bilər. Və bu hal ifadə planında da mütləq özünü göstərir. Təsir niyə məhz bu dil vahidləri vasitəsilə və həm də fərqli şəkildə ifadə olunur?

Qeyd etmişdik ki, *"to make" etmək* leksik mənasına malik, polisemantik, təsirli feldir. Eyni zamanda onu da qeyd etməliyik ki, bu fel nəyisə var etmək, ortaya qoymaq, bir şey yaratmaq, törətmək və s. kimi aktiv məzmuna malikdir. Məqalənin əvvəlində bu xüsusiyyətləri nümunələr əsasında göstərmişdik. Bütün bu xüsusiyyətləri, yəni zəngin semantika, güclü təsirlilik bu leksik vahidin təsiri funksional olaraq ifadə edən qrammatik formaya doğru inkişafına imkan vermişdir. Məhz bu səbəbdən haqqında danışdığımız formanın ifadə etdiyi təsirin nəticəsində baş verən hərəkət açıq məsdərlə, yəni to olmadan ifadə olunur. Hətta bu forma məcburiyyət mənasında da müstəqil işlənir.

"I don't want to!" she cried. "You can't make me. I'll call the police!" (16.23). (Mən istəmirəm, o dedi. Məni məcbur edə bilməzsən. Mən polis çağıracağam.)

Məqalənin əvvəlində *"to get"* felinin də lüğəvi mənasını, leksik semantik xüsusiyyətlərini lüğətlər və dil (nitq) nümunələri əsasında qısaca təqdim etmişdik. Lüğətlərdə bu felin, əsasən, tranzitiv (təsirli) fel kimi işlənməsi göstərilsə də, təsirsiz fel kimi işləndiyi hallar da qeyd edilir. Bu dil vahidi feli leksik vahid olaraq, qeyd etdiyimiz kimi, ilk növbədə, əldə etmək, almaq, qəbul etmək, çatmaq, nail olmaq (nəyəsə, nəyisə) və s. kimi mənalara malikdir. Əgər *"to make"* nəyisə yaratmaq, var etmək, mövcud etmək mənalı təsirli feldirsə, *"to get"* felində isə mövcud olanı əldə etmək, almaq, mövcud olana çatmaq, nail olmaq mənası var. Lüğətlərdə *"to get"* təsirli fel kimi təqdim edilsə də, ondakı təsirlilik *"to make"* felində olduğu qədər güclü deyil. Bu dil vahidinin məcburiyyət situasiyasında təsir ifadə edən dil vahidi kimi işlənməsinə aid nümunələr təqdim etmişdik. Həmin nümunələrdə to get ilə ifadə olunmuş təsirin nəticəsində baş vermiş və ya baş verəcək hərəkət bütöv məsdərlə (*to* ilə birlikdə) ifadə olunmuşdur. Fikir versək, görərik ki, o nümunələrdə *"to get"* təsir ifadə etməklə yanaşı, təsir üsulunu da ifadə edir. Həmin nümunələrə yenidən baxaq:

Will Martin said, "Life is too hard here. Why don't we get him to sell out and move to town? Mollie and I would like them to come here and live with us" (16.52). (Uill Martin dedi, "Həyat burda çox çətindir. Nə üçün biz onu hər şeyi satıb şəhərə köçməyə razı salmırıq? Molli və mən onların bura gəlib bizimlə yaşamasını istərdik.)

Miriam shyly and rather bitterly produced her exercise-book. Every week she wrote for him a sort of diary of her inner life, in her own French. He had found this was the only way to get her to do compositions (19). (Məryəm utanaraq və bir az da kobud şəkildə öz dəftərini düzəltdi. Hər həftə o, onun üçün öz doğma fransız dilində öz daxili dünyasının gündəliyini yazırdı. O, ona yazı yazdırmağın yeganə yolunun bu olduğunu kəşf etmişdi.)

Birincidə *"to get"* onu hər şeyi satmağa və şəhərə köçməyə razı salmaq, ikincidə isə onu yazı yazmaq üçün yola gətirmək mənasını ifadə edir. Razı salmaq və yola gətirmək üsuldur, vasitədir. Artıq burada vasitə var, deməli, təsir birbaşa deyil. *"To get"* felinin Oksford lüğətlərində *induce or prevail upon (someone) to do something ((kimisə) nəyisə etməyə razı salmaq, yaxud inandırmaq)* kimi izahı da

verilir (12). Collins ingilis dili lüğətində də bu felin *to induce or persuade (razı salmaq, inandırmaq)* kimi mənasının olduğu göstərilir və misal olaraq, *get him to leave at once (onu dərhal getməyə razı salmaq)* təqdim edilir (13). Fikrimizcə, təqdim etdiyimiz nümunələrdə bu dil vahidi vasitəsilə ifadə olunmuş təsirin nəticəsində baş vermiş və ya verəcək hərəkət o səbəbdən bütöv məsdərlə, yəni to ilə birlikdə ifadə olunur ki, burada təsir vasitəlidir. Onu da qeyd etmək lazımdır ki, burada məcburiyyət nisbətən azdır, təsir obyekti işi görməyə razı salınmış, inandırılmışdır, yəni təsir prosesinin əvvəlində könülsüz olsa da, sonda az da olsa icra etdiyi işə marağı və istəyi var. Düşünürük ki, *"to get"* leksik vahiddən qrammatik formaya doğru *"to make"* qədər inkişaf etməmişdir. Bu dil vahidi bu təsiri leksik vahid olaraq ifadə edir.

"To have"-in təsir ifadə etməsinə gəldikdə isə deməliyik ki, lüğətlərdə verildiyi kimi bu fel *malik olmaq, sahib olmaq, təcrübəsi olmaq (təcrübədən keçirmək), məruz qalmaq* mənalarına malikdir. Ancaq məcburiyyət bildirdiyi halda bu fel qeyd etdiyimiz mənanı deyil, funksional olaraq kauzallıq ifadə edir. Əslində bu da onun malik olduğu leksik-semantik xüsusiyyətlərdən irəli gəlir. Məruz qalmaq, uğramaq, olmaq, malik olmaq kimi mənalar bu dil vahidinin haqqında danışdığımız təsiri ifadə etməsinə imkan verir. Həmin təsirin nəticəsində baş vermiş və ya baş verəcək hərəkət isə feli sifət forması ilə ifadə olunur. Feli sifət hərəkət və əlaməti birlikdə ifadə edir. Məsələn, *I had my hair cut (Mən saçımı kəsdirdim), I had my shoes mended (Mən ayaqqabılarımı təmir etdirdim)* cümlələrində bir növ *mənim kəsilmiş saçım var, mənim təmir olunmuş ayaqqabım var* fikri ifadə olunur. Bu cümlələrdə saçın kəsilməsi, yaxud kəsilmiş saç, ayaqqabının təmir olunması, yaxud təmir olunmuş ayaqqabı əsas fikirdir. Kim tərəfindən edilməsi əsas deyil, ona görə də ifadə olunmur. Romanova O.N. yazır ki, "to have-in işlənməsi təsir obyektinin təsir edənin istəyini icra etmək üçün hazırlılığını nəzərdə tutur" (9.111). Yəni *have my hair cut, have my shoes mended* dedikdə saçını bu iş üçün ixtisaslaşmış birinə, yaxud bunun məsuliyyətini üzərinə götürən birinə kəsdirmək, ayaqqabılarını da məhz ayaqqabı təmiri ilə məşğul olana düzəltdirmək nəzərdə tutulur. Verdiyeva Z., Axundov C., Sergeyev V. "Ingilis dilini öyrən" kitabında yazırlar ki, "cümlədə to have + isim + felin III şəxs formasının işlənməsi göstərir ki, danışan şəxs hərəkətin icraçısı deyil. Burada hərəkət başqası tərəfindən icra olunur" (1.160). Həmin izahın ardınca nümunələr də təqdim edilir:

He had his watch repaired yesterday. (O, saatını dünən təmir etdirdi.)

I must have my tooth filled. (Mən dişimə plomb qoydurmalıyam.)

When did you have this floor painted? (Siz bu döşəməni nə vaxt rənglətmisiniz?)

I want to have my hair cut today. (Mən bu gün saçımı kəsdirmək istəyirəm.) (1.160)

Bu nümunələrdən də görünür ki, "to have" ilə ifadə olunmuş təsirin obyekti təsir üçün hazır olur, belə ki, ona buyurulanı həyata keçirmək onun vəzifəsi, işidir. Və yaxud, yuxarıda təqdim etdiyimiz nümunəyə yenidən baxaq:

He had me horsewhipped! -- horsewhipped in front of the jail, like a nigger! -- with all the town looking on! Horswhipped! -- do you understand? (17). (O, məni qamçılatdırdı!- bütün şəhərin gözünün qabağında- həbsxananın qarşısında zənci kimi qamçılatdırdı! Qamçılanmaq!- anlayırsan?)

Burada da *"had"* ilə ifadə olunmuş təsirin obyektinin vəzifəsi bu işi etməkdir, yəni qamçılamaqdır. Bilirik ki, bu cür yerlərdə cəza təyin olunur, ancaq cəza məhz bu iş üçün fəaliyyət göstərənlər tərəfindən həyata keçirilir. *"Have"* təsirsiz olduğuna görə onun işləndiyi cümlələrdə təsir prosesi deyil, nəticə xüsusi nəzərə carpdırılır.

Deməli, hər üç dil vahidi məcburiyyət anlayışının ifadəsində əsas fenomen olan təsiri ifadə edir. Lakin fərqli leksik xüsusiyyətlər, təsirliliyin müxtəlif dərəcəsindən dolayı bu dil vahidlərinin bu anlayışın ifadəsindəki rolu da müxtəlifdir, fərqlidir. *"To make"* birbaşa təsir ifadə edir, təsir obyekti mütləq ifadə olunur, təsirin birbaşalığından dolayı nəticədəki işin icrası da açıq məsdərlə ifadə olunur. *"To get"* isə təsir üsulu ilə birlikdə təsir ifadə edir, burda da təsir obyekti mütləq ifadə olunur, ancaq təsirdə vasitə də ifadə olunduğuna görə nəticədə baş vermiş və ya baş verəcək işin icrası bütöv məsdərlə ifadə olunur. *"To have"* təsirsizdir, ona görə təsir obyekti ya ifadə olunmur, ya da vasitəli tamamlıq kimi *by (tərəfindən)* sözünü ilə birlikdə ifadə olunur, ona görə də nəticədə baş vermiş işin icrası feli sifətlə ifadə olunur. Deməli, şüura yönəlmiş təsiri ifadə edən hər üç dil vahidini təsirliliyin dərəcəsinə görə artan sıra ilə düzsək, belə olacaq: *to have, to get, to make.* 1-ci təsirsizdir. 3-cüdə isə təsirlilik güclüdür. Məhz bu təsirlilik "*to make"* felinə məcburiyyət anlayışı ifadə edən formaya doğru inkişaf etməsinə imkan vermişdir. Hətta bu forma məcburiyyət bildirmə üçün o dərəcədə spesifikləşmişdir ki, müstəqil olaraq da işlənə bilir.

Ədəbiyyat

1. Verdiyeva Z. N., Axundov C. M., Sergeyev V. A. "Learn English", Bakı, Maarif, 1993
2. Аристотель "Евдемова этика", Москва, 2005, 448 с.
3. Бессалов А.Ю. "Каузативные глаголы как средство выражения причинно-следственных отношений в английском и французском языках", // Вестник МГОУ. Сер.: Лингвистика. – М.: Изд-во МГОУ, 2010. – № 6. – С. 85–90.
4. Каплунов А.И. "Об основных чертах и понятии государственного принуждения". Государство и право. – 2004. – №12. – С.10-17.
5. Кримовна Б. С. "Типология языковых средств выражения категории каузативности в разносистемных языках". Диссертация. Майкоп 2002, 151 с
6. Мюллер В., Боянус С. "Англо-русский словарь", Москва, Локид, 1999. – 688 с.
7. Недялков В.П., Сильницкий Г.Г. "Типология каузативных конструкций. Морфологический каузатив", Л., 1969, с. 5-18, 369 с.
8. Пучнин А.С. "Принуждение и право". Дисс...кандлор.наук- - Тамбов, 1999. 234 с.
9. Романова О. В. "Семантические и функциональные особенности глаголов, выражающие концепт принуждение в современном английском языке". Диссертация на соискание учёной степени кандидата филологических наук. Санкт-Петербург 2008

10. Сильницкий Г.Г. “Семантические и валентностные классы английских каузативных глаголов”. Диссертация доктора филилогических наук.- Смоленск.1974-442 с
11. Sami Chatti “Categorization of causation: Directness or animacy?”, International Jorunal of Linguistics, 2012, Vol. 4, No. 3, s. 363-374
12. http://www.oxforddictionaries.com/
13. http://www.collinsdictionary.com/

Bədii ədəbiyyat

14. Charlotte Bronte “Jane Eyre”, Oxford University Press, 1990
15. Colin Dexter “The dead of Jerico”, Oxford University Press, 1991
16. John Steinbeck “East of Eden”, Penguin readers, 2001
17. Mark Twain “The adventures of Tom Sawyer”, http://classiclit.about.com/library/bl-etexts/mtwain/bl-mtwain-tom-29.htm
18. Synge J. M. “The playboy of the western world”, http://www.gutenberg.org/files/1240/1240-h/1240-h.htm
19. http://ebooks.adelaide.edu.au/l/lawrence/dh/l41s/chapter8.html
20. Wilkie Collins, “The woman in white”, Penguin Books Ltd 1999

L.Yusifova

The role of the verbs “to make”, “to get”, “to have” in the expression of the notion of coercion in English

Summary

The article deals with the role of the verbs “to make”, “to get”, “to have” in the expression of the notion of coercion. In the introduction the concept of coercion is explained from different aspects. After this, these verbs are investigated and analyzed as the linguistic units that express coercive impact and their role in the expression of the concept of coercion is determined. At the same time the similar and different features of these linguistic units are presented.

Л. Юсифова

Роль глаголов “to make”, “to get”, “to have” в выражении понятия принуждения на английском языке

Резюме

В статье рассматриваются роли глаголов “to make”, “to get”, “to have” в выражении понятия принуждения. Во введении понятие принуждения объясняется с разных сторон. После этого, эти глаголы исследованы и проанализированы как языковых единиц, которые выражают влияние принуждения и их роль в выражении понятия принуждения определяется. В то же время подобные, и различные особенности этих языковых единиц представлены.

Rəyçi: Tünzalə Baxşıyeva
filologiya elmləri dokroru

MAHİRƏ QULİYEVA
AAHM
mahirə.mail.ru

XARİCİ DİL ÜZRƏ TERMİNOLOJİ LEKSİKASININ ÖYRƏDİLMƏSİNİN ƏSAS PRİNSİPLƏRİ

Açar sözlər: ingilis dili,terminoloji leksika,azərbaycan dili,dilçilik.
Ключевые слова; английский язык,терминологическая лексика, азербайджанский язык,лингвистика.
Key words: azerbaijany, linguistics, terminology lexicon, englais.

Dilçilik ədəbiyyatında sübut edilmişdir ki, yeni yaranan sözlərin və terminoloci lüğətin 80%-i sahə terminologiyasına aiddir. Şübhəsiz ki, milli auditoriyaların ilk kurslarında təlim prosesinin düzgün və səmərəli aparılması üçün tələbələrin seçmiş olduqları ixtisas üzrə yeni yaranmış söz və terminləri bilməli, onların məna açımına yiyələnməli və yeri gəldikcə ümumidilçilik baxımından onları cümlədə işlətməyi bacarmalıdırlar. Terminoloci xarakter daşıyan yeni sözlərin (hər hansı bir sahəyə mənsub olmasından asılı olmayaraq) tələbələrə çatdırılması və öyrədilməsi üçün tapşırıqların üstün cəhətlərini qeyd etməmək olmaz. İndi isə aşağıda terminoloci leksikasının öyrədilməsi üçün tapşırıqların növləri və onların metodiki əhəmiyyəti haqqında bəzi fikirlərimizi qeyd edək: 1. Əyani öyrədici tapşırıqlar**.** Bu növ tapşırıqların əhəmiyyəti və rolu ondan ibarətdir ki, yeni yaranma aparatı və ya hər hansı bir terminologiyanı tələbələrə əyani olaraq nümayiş etdirərək və ona verilən məfhumu tələbələrə çatdırılır.Məfhum mənşə dildə necə səslənirsə, eləcə də tələffüz olunur və ana dilində onun qarşılığı axtarılır. Məsələn: «*dedektor*»-u tələbələrə nümayiş etdirməklə yanaşı, ona aid yeni yaranmış məfhum və söz birləşmələrini fikirləşib axtarmalı olurlar.

Dedektor və onun törəmələri:
noist dedektor – qaldırıcı dedector
diod dedektor – led dedektor
katod dedektor- catodes dedector
kuproks dedektor- kuproks dedector
xətti dedektor – linear dedector
güclü dedektor - poewerful dedector
nisbət dedektor – nis dedector
zirvə dedektor –the peak dedector
yarımkeçirici dedektor – semiconductor dedector
sinxron dedektor – simultaneous dedector
dedektor lampalı – dedector lamp
dedektor pilləsi – level dedector

2. Terminlərin düzgün quruluşu üzrə tapşırıqlar. Bu növ tapşırıqların məqsədi hər hansı bir model və ya aparatı tələbələrə göstərməklə yanaşı ona, yəni modelə aid terminlərin siyahısı verilir. Tələbə isə fikirləşməli və terminləri elə düzməlidir ki, onun quruluşu məfhumun məzmununu düzgün ifadə edə bilsin. Bu növ tapşırlar

adətən çoxsözlü terminlərə aid edilməlidir. Məsələn: «*qurğu, məlumat, işləmə*» sözləri tələbələrə çatdırılır. Tələbə fikirləşərək məfhumun düzgün alınması üçün:

- məlumatların işlənmə qurğusu çoxsözlü terminini söyləyir və yaxud: yer, şüalanma, effektiv sözlər tələbələrə çatdırılır;
- yerin effektiv şüalanması termini yaradılır;
- aeroşəkillərin xəritə ilə əlaqələndirilməsi;
- analoq kod dəyişdiricisi;
- aralıq infra-qırmızı diapazon terminlər yaradılır.

Təcrübə göstərir ki, əyani xarakter daşıyan tapşırıqlar yaradıcı xarakter daşıyır, tələbələrin dünyagörüşünü artırmaqla yanaşı, onların öz ixtisaslarını hərtərəfli və dərindən öyrənməyə imkan verir.

3. Tərcümə üzrə tapşırıqlar. Bu növ tapşırıqlar adətən qrammatik xarakter daşıyır, belə ki, çoxkomponentli terminlərin siyahısı verilməklə yanaşı, müəllim tələbələrə hansı şəkilçilərin işlənmə ehtimalını da onlara şifahi və ya yazılı şəkildə çatdırır. Belə növ tapşırıqlarda tələbələr həm xarici dildən, həm də ana dilindən terminlərin morfoloci quruluşunu tənzim etməklə yanaşı, belə növ çoxkomponentli texniki terminlərdə məna çalarlığının incəliklərinə yiyələnirlər.

4. Semantik tapşırıqlar. Müəllim lövhədə tələbələr üçün belə bir sxem çəkir:

2-elektrodlu elektron lampa	3-elektrodlu elektron lampa	4-elektrodlu elektron lampa	5-elektrodlu elektron lampa

Müəllim mötərizə açmaqla orada həmin elektron lampaların adlarını xarici dildə yazmağı tələbələrə tapşırır. Öz ixtisasına dərindən yiyələnmiş tələbə yəqin ki, mötərizələrdə aşağıdakı terminləri yazacaqdır.Sonra müəllim texniki biliklərin əsasında tapşırığın həcmini daha da genişləndirərək, həmin elektron lampaların hansı məna daşımalarını xarici dildə yazmaqla yanaşı, sxemdə göstərmələrini tapşırır. Tələbələr ani fikirləşdikdən sonra belə bir sxem çəkirlər:

2-elektrodlu elektron lampa	3-elektrodlu elektron lampa	4-elektrodlu elektron lampa	5-elektrodlu elektron lampa
Katod və anodu olan elektron lampa	İdarəedici setka, anod və katodu olan elektron lampa	Ekran, idarəedici setkaları, anod və katodu olan elektron lampa	Müdafiə, ekran, idarəedici, anod və katodu olan elektron lampa

5. Müqayisə tapşırıqları. Müqayisə xarakteri daşıyan bu növ tapşırıqların məqsədi ayrı-ayrı terminlərin müxtəlif məna çalarlığına malik olmanın aydınlaşdırılmasıdır. Məsələn: elə növ terminlər də vardır ki, bunlar müxtəlif sahələrdə eyni məna yox, o sahənin özünə görə məna daşıyırlar. Belə növ terminləri tələbələrə yazdırmaqla, onların müxtəlif məna çalarlığına malik olmalarını və göstərməyi onlara tapşırır.

6. Sinonimik tapşırıqlar. Bu növ tapşırıqlarda müəllim çalışmalıdır ki, tələbə eyni məna daşıyan, ancaq müxtəlif şəkillərdə işlənən terminlərin tapılmasını fikirləşsin. Düzdür, söz ehtiyatı zəif olan tələbə bu tapşırığı yerinə yetirməkdə çətinlik çəkəcək, onun həll edilməsinə uzun müddət vaxt sərf edəcəkdir. Belə məqamda müəllim tələbələrə fərdi yanaşmalı və onları lazımi ədəbiyyatla təmin etməlidir ki, tələbələr ədəbiyyat üzərində işləmək iqtidarında olsunlar.

7. Şifrlənmiş terminlərin açılması üzrə tapşırıqlar. Bu növ tapşırıqları verməkdə məqsəd tələbələrdə öz ixtisaslarına aid bilikləri inkişaf etdirmək və həmin terminləri mənşə dildə necə işlənməsi və dilimizə hansı yolla gəlməsini aydınlaşdırmaqdır. Məsələn: «LAZER» terminini bir çox tələbələr alim, yəni həmin şüanın yaradanın adı kimi başa düşürlər. Müəllim həmin terminin baş hərflərini lövhədə yazır.

İngilis dilində həmin terminin açılışı belədir:

Light amplification by stimulated emission of radiation.

Azərbaycan dilində tərcüməsi:

Kənar təsirli şüaların köməyi ilə işığın gücləndirilməsi.

Sonra müəllim tələbələrə belə bir tapşırıq verir: Azərbaycan və ingilis dillərində hansı sözlər bir-birini tamamlayır. Çox da çətin olmayan bu tapşırığı tələbələr belə izah edirlər:

- *kənar- emission,edge*
- *ilə - by,with*
- *kömək – stimulated,help*
- *Işıq - ligth*
- *Şüa – radiation,beam*
- *gücləndirici- amplification*

Sonra lazım gələrsə tələbələr «LAZER» terminin texniki xarakteristikasını verirlər. Didaktikanın sadədən mürəkkəbə prinsipinə əsasən, asan modellərdən başlayıb çətinə gəlmək lazımdır. Qrammatik çalışmalar maqnitafon lentinə belə sxem üzrə yazılır. Əvvəlcə lentə çalışırmanın şərti, ona aid bir nümunə və bundan sonra fasilələr qoyulur. Fasilələr çalışmanın xarakterindən asılı olaraq uzun və qısa ola bilər. icra olunmuş çalışmanı yoxlamaq üçün maqnitafon lentinə diktor mətni yazılır. Qrammatik qaydalar texniki vasitələri ilə tədris edildikdə və təkrarlanıb möhkəmləndirildikdə tələbələr həmin materialı gec unudurlar. Dilin öyrədilməsi prosesini intensivləşdirmək tələbələrin şifahi nitqini inkişaf etdirməkdən ötrü valqaldırandan, maqnitafondan, diafiom və kino-filmlərdən istifadə etmək təxirəsalınmaz bir vəzifədir. Adı çəkilən bu vasitələr dərsdə dil mühiti yaradır, tələbələrdə dilin öyrənilməsinə maraq oyadır və müəllimin işini bir növ yüngülləşdirir.1. Valqaldıran. Təlimin texniki vasitələri ilə işləmək üçün tələbələrdən ötrü ən asan valqaldırandır. Şifahi nitqi inkişaf etdirmək məqsədilə valqaldırandan tədrisin aşağı mərhələsində daşa çox istifadə etmək lazımdır.vallarda şifahi nitqi inkişaf etdirmək məqsədilə rəngarəng dialoqlar və şifahi nitq mətnləri lazımdır. Bu dialoqları müəllim bir neçə dəfə səsləşdirdikdən sonra, orada tələbələrə məlum olmaayn yeni sözləri lövhədə yazır və onların da yazmasını tələb edir. Şifahi nitqin inkişafının təməlini müəllim əvvəl valqaldıran la, sonra başqa texniki təlim vasitələri ilə möhkəmləndirir.

2. Maqnitafon. Xarici dilin təlimində maqnitafondan istifalə üsulundan danışarkən qeyd etmək lazımdır ki, həmin aparatdan təlim işində düzgün istifadə edilmədikdə dərsə verilən vaxtın çoxu hədər gedir və maqnitafon nəinki xeyir verir, əksinə təlim işini pozur. Məllim maqnitafondan düzgün və yerində istifadə etdikdə isə həmin apparat tələbələrin şifahi nitqini inkişaf etdirməklə bərabər müəllimin öz ustalığını da artırır.Maqnitafondan xarici dilin tədrisində aşağıdakı məqsədlər üçün istifadə etmək yaxşı nəticə verir. Maqnitafon lentinə yazılan materialın məzmunu elə olmalıdır ki, tələbələr onu eşitdikdədə materiala həvəslə qulaq assınlar.

Şifahi nitqi inkişaf etdirmək üçün maqnitafonla aşağıdakı iş formalarından istifadə etmək lazımdır.Eşitmək bacarıq və vərdişlərinin yaradılması pisxoloq və metodistlərin diqqətini cəlb etmişdir. Psixoloqlar eksperimental laboratoriya işlərilə sübut etmişlər ki, xarici dildə eşitmə danışma üçün zəmin yaradır. Tədrisin ilk mərhələsində verilən çalışmalar tələbələrdə eşidib anlama vərdişini inkişaf etdirməyə xidmət etməlidir. Azərbaycan məktəbləri üçün yazılmış dərslikdərdə maqnitafonla çalışma işi aparmaq daha faydalıdır. Bu çalışmalardan bəzi müəllimlər vaxtlı-vaxtında istifadə etmirlər. Ona görə də məktəbi qurtaran kənclərin nitqi, eşidib anlama vərdişləri lazımi dərəcədə inkişaf etmir və bunun təsiri ali məktəbdə də özünü göstərir. Xarici dili eşidib anlama, kinofilm, kompyüter texnikası nümayiş etdirilən zaman da aşılana bilər.Xarici dilin tədrisində yazı, dilin başqa aspektləri ilə şifahi nitqi inkişaf etdirmək üçn üzvi surətdə bağlıdır. Psixoloqlar sübut etmişlər ki, yazı şifahi nitqin təməlini qoyur. Ona görə də yazılı çalışmalara tədrisdə çox yer vermək məsləhətdir. Yazı təlimini maqnitafonun köməyi ilə aşağıdakı çalışmalarla aparmaq olar:

- xarici dildə eşitdiyini dəftərə yazdırmaq. Belə yazı sadə və mürəkkəb ola bilər;
- hərf birləşmələrinin altından xətt çəkmək;
- cümlələrdəki mürəkkəb sözlərin altından xətt çəkmək;
- maqnitafonda eşidilən mətnə aid sual-cavab yazmaq;
- eşidilən mətnə aid plan yazmaq.

Maqnitafonala leksik çalışma növündən də istifadə etmək olar:

- söz və söz birləşmələrini yazmaq;
- yeni öyrənilmiş söz və söz birləşmələrini situasiyada vermək;
- boş buraxılmış yerə lazımi sözlərin yazılması. Diktor cümləni axıra qədər oxumur, yarımçıq qalan hissəsini tələbələr tamamlayırlar. Sonra tamamlanmış cümlə oxunur;
- ev tapşırığı üçün veriləcək söz və söz birləşməsinin maqnitafon lentinə yazılması;
- müəyyən mövzu ətrafında söhbət aparmaq. Yazılan suallar oxunun və onlara cavab verilir;
- «açar» sözlərlə cümlə düzəltmək və bu nümunələri lentə yazdırıb sonra oxutdurmaq.

Hər bir təsvir tələbələrə xarici dildən bu və ya digər qaydanı öyrətmək, yaxud təkrarlamaq məqsədi daşımalıdır. Xarici dilin tədrisində belə mühüm əhəmiyyət kəsb edən texniki vasitələrdən hər bir xarici dil müəllimi istifadə etməlidir.

Ədəbiyyat:

1. T.Haciyev:Azərbaycan ədəbi dil tareixi.ADU nəşriyyatı,1976.
2. T.Abbasquliyev:Azərbaycan və ingilis dillərində atalar sözləri.”Elm” nəşriyyatı.Bakı 1981 il.
3.O.Musayev: İngilis dilinin grammatikası.Bakı 1979 il.səh.219.
4.İ.Rəhimov.İngilis dilinin praktik grammatikası.Bakı.1966.”Elm” nəşriyyatı.

М.Кулиева

Основные принципы обучения терминологическую
лексику иностранного языка
резюме

В статье рассматривается некоторые основные принципы обучения студентам иностранного языка,особенно английского языка в высших учебных заведениях,отмечается обучения терминологическую лексику в национальных аудиториях резко отличается от других принципов обучения.Встатье также рассматривается некоторые основные задачи для успешного обучения иностранного языка в ВУЗ-ях:

-задачи для переводов;
-задачи по семантикам;
-сравнительные задачи;
-синонимические задачи;
-шифровые задачи и др.

Все задачи обучения реализуется студентами в аудиториях ВУЗ-ах.

M.Kouliyeva

The bazic principles training terminology
vocabulary foreign language
summary

The article examines the a few,the basic principle teaching students foreign language especially English institutions of higher education it is noted training terminology vocabulary national audience strongly differs from the other principles of training. The article examines also the main tasks of the oak for success ful learning Foreing language institution of higher education: -translation tasks, semantics of the tasks,comparable tasks,sinoymes tasks,encrypted tasks.

All tasks training realizable students audiences.

Rəyçi: Həbib Mirzəyev
filologiya üzrə fəlsəfə doktoru,dosent.

VÜSALƏ BƏNNAYEVA
AAHM
vüsalə.mail.ru.

İNGİLİS DİLİNDƏ KANADİZMLƏR

Açar sözlər: ingilis lili,kanada variantı,dilçilir sistemi,terminologiya,tələffüz.
Ключевые слова: английский язык,канадский вариант,произношения.
Key words: English,variant kanadien,linguistic,pronunciation,terminogilical.

Fransız dili ilə yanaşı Kanadanın rəsmi dili olan ingilis dili əzəldən murəkkəb bir hadisə idi. Frakokanadalilardan fərqli olaraq, ingilisdilli cəmiyyət tarixi vətənləri Böyuk Britaniya və ingilisdilli ABŞ-la daimi hərtərəfli kontaktda və immiqrasiya axını ilə təmasda formalaşmışdı. Anqlokanada millətinin əsası 19 əsrdə ABŞ-dan immiqrasiya etmiş "loyalistlər" oldular.Onlar Şimali Amerikanın mustıqilliyi uğrunda mubarizədə Britaniya ordusuna sadiq qalmış Kanadanın azad ərazilərində məskunlaşdılar. Bəzi mutəxəssislərin fikrincə, Kanadada ingilis dilinin təşəkkul tapıb quvvəyə minməsində onların rolu birinci dərəcəli olub. Elə həmin dövrdə muxtəlif Britaniya dialektlərində danıçşan İngiltərə, İrlandiya, Şotlandiyadan olan immiqrantların sayı artır ki, bu da Kanada variantında öz əksini tapır. Beləliklə, iki muxtəlif immiqrasiya axınının qarışması nəticəsində Kanadalıların danışıq dilinə ingilis dilinin muxtəlif dialektlərindən -- loyalistlər, digər tərəfdən əsasən ABŞ-ın Kanada ilə həmsərhəd olan şimal rayonlarının gətirdikləri sözlər daxil olur. Kanadanın sonrakı inkişaf tarixi göstərir ki. 1867-ci ildə Kanadanın Böyuk Britaniyanın dominionu olaraq qalmasına baxmayaraq, o ilk növbədə ABŞ-ın siyasi və iqtisadi təsiri altında idi. Ərazi məskunlaşmasının xususiyyətlərini, eləcə də siyasi, iqtisadi, sosial – mədəni xarakterli faktorları nızərə alaraq, praktiki olaraq Kanadanı tədqiq edən butun alimlər eyni fikirdədirlər ki, öz fonetika, leksika və orfoqafiyasına görə ingilis dilinin Kanada variantı Britaniya Oksford və Amerika variantı arasında araliq movqe tutur. Lakin əsasən General America adlanan tələffuz tipi ustunluk təşkil edir. İngilis dilinin Kanada variantının yayım ərazisinin dəqiq diferensiyaya malik olmayan, variantların özəliklərinin qovuşma əazisi elan edilir, yəni Kanada əhalisinin danışdığı ingilis dili öz normaları olan bir variantdır.

Kanada ingilis dilinin vokalizm sistemini nəzərdən keçirərək fonetik cəhətlərin uç qrupunu ayırd edək:

1) Amerika inkişaf tendensiyasına uyğun olan fonetik cəhətlər;
2) İngilis inkişaf tendensiyasına uyğun olan fonetik cəhətlər;
3) Standartın ikili inkişafını əks etdirən fonetik cəhətlər.

Amerika dil variantında [oe] saitinin, inhilis dil variantında isə [a] saitinin işlədiyi class, dance, bath kimi sözlərdə kanada tələffuzu uçun Amerika tendensiyası daha xarakterik olur. Avisin fikrincə, məhz bu kanadalilaların nitqinə tipik "amerika" çalarını verir. Yalnız yuksək təhsil səviyyəsinə malik aunt və drama isimləri adətən [a] ilə tələffuz olunur.

Tomato ismi amerika [ei] vurğusu ilə tələffuz olunur və bu zaman ingilis [a:] nadir hallarda rast gəlinir.

Keçmiş zamanın shone fel forması bir çox kanadalılar tərəfindən [o:] ilə tələffuz olunur və bu da amerika [ou:] tələffuzu ilə ziddiyyət təşkil edir.

Kanadada "z" hərfi ingiliscə [zed], amerikanca isə [zi:] adlanır.

Kanada teleffuzunde been formasina [i:] saiti, Amerika teleffuzunde de [i:] saiti malikdir

again zerfinde ingilis normasina oxsar sekilde diftonq [ei] vurgusu altinda teleffuz olundugu halda, ABS bu adeten [e:] altinda teleffuz edilir.

Produce isminde kanadalilarin ekseriyyeti hemcinin [o:] ile teleffuze imkan verir, halbuki ABS - da onu [ou:] kimi teleffuz edirler.

Vase sozu amerkanca [veiz] kimi, Kanadaca [va:z] kimi teleffuz olunur

Amerika variantinda olan anti-, semi-, multi-, prefikslerini[ai] kimi teleffuz edirler ve kanadalilarin ekseriyyeti onu ingilisce [i:] ile teleffuz edirler

Amerika variantinda olan anti-, semi-, multi- pprefikslerini [ai] kimi teleffuz edirler ve kanadalilarin ekseriyyeti onu ingilisce [i:] ile teleffuz edirler.

Sozlerin ikili teleffuzu : leisure [1 ezə] ve ya [li:ze] kimiteleffuz olunur ve neither ise [i:] saiti vey a [ai] kimi teleffuz olunaraq kanadalilar arasinda tecrubeden kecir, hercend ki birinci halda coxlari [e] ingilis formasina ustunluk verirler.

Kanada varianyinin sammit sesli sistemini oyrenerek burada ayrilma hallarinin ehemiyyetli sekilde az olduqlarini qeyd etmek mumkundur.

"intruziv" [r] kanada teleffuzunun seciyyevi cehetidir. Meselen, khaki sozu [ka:rki] (amer); [ka:ki] (ingilisce) kimi teleffuz olunur.

Kanadalilar eynile amerikalilar kimi [r] sozun sonunda ve car, cart kimi xmiamerikanca cingiltili teleffuzu Kanadada daha cox yayilmisdir ve buna gore de, bleating (qani buraxmaq) --- bleeding (qanaxma), butter --- budder kimi cutler demek olar ki, omofonlu ola biler. Lakin kanadalilarin təxminən yarısı bu cür cütlərdə müxtəlif səsələri tələffüz edirlər.

Kanada variantının aksentli strukturu aydin Amerika çalarina malikdir, çunki, diction'nary ordi'nary obli'gatory refor'matory kimi cox murekkeb sozlerin kanada variantinda adeten sekilcide saniyelik vurgusu musahide olundugu halda ingilisce teleffuzde vurgu bu sozlerin kokune dusur ve hecalar soz qurulusunu ehemiyyetli sekilde sadelesdirerek birlesir.

Ingilis ve amerika tələffuz variantinin nufuzu məsələsinin oyrənilməsinə həsr olunan sosiolinvistik tedqiqatlarinin məlumatlarina istinad edərək news, dew. Tinestudent kimi sozlere alvolyar samiten sonra amerikada [u:] telefuzzunun ingilis [ju] teleffuzune cavab verdiyini qeyd etmek mumkundur. Bu zaman ingilis normasi kanada da boyuk nufuza malik olur ve burada suit sozu istisna olunur, bele ki, onun suallara cavab sekilinde olan 83% informantlarini [u] kimi teleffuz edirler

Avisin qeyd etdiyi kimi , bu sozlerin monoftonq ile teleffuzu daha cox daha asagi medeni seviyyeli danisanlara musahide olunurdu / bu zaman nufuz [ju] moon , noon ,too kimi sozlerin teleffuzune samil olunmasinin neticesi olurdu. Ontariode duke [duk], news [nuz], kimi tələffuzlər bir cox dasiyicilar tərəfinden "gozəl olmayan hal" (intelegant) kimi qiymətləndirilirdi.

Dilin bu və ya digər milli variantinin linqvistik özəlliklerinin öyrənilməsi onun digər variantlarla hansi sinxron nisbətdə olmasi sualin cavabi ile yanasi, onun fərqliliyinin necə formalasmasi,divergensiyasininhansi seviyyəsinə catmasi,onu

ozellesdiren hemin differensiya prosseslerinin inkisaf tempinin nece olmasi suallarina cavab vermelidir. Bu haqda az-cox deqiq tesevvurleri U.Avisin lugetinden almaq olar. Burada Kanada ucun xarakterik olan 10600 leksik vahid toplanmisdirki , onlarin onlarin bir qismi leksik variantdir. Ilk fiksasiya vaxti hele mueyyenlesdirilmeyen kanadizmler vardir. Leksik kanadizmlerin muyyen qurupunu nezerden qoysaq, yerde qalan 9153 vahid yaranma dovrune gore asagidaki kimi paylasila biler XVll esr -26 [0,3%], XVll esr – 142 [1,5%] , XVll esr -1124[12.3%] XlX esr - 3340[36,5%] 1900-1965 ci iller 4521 [49,4%]

XVl esr. Ingilis dili kanadalilarin kanadada ilk meskunlasma dovrudur,lakin onlar bura esrin son on ilinde xeyli derecede gelmeye basladilar (ingilislerin kanadada ilk resmi torpagi 1853-cu ilde nyufaundlend adasi oldu). Yeni heyat seraiti dilin deyismis gercekliye uygunlasmasini teleb edirdi , buna gore de dildeki ilk innovasiyalar, çox da olmasa da artiq bu dövrdə qeyd olunur.XVI əsrin 26 kanadizmindən 10-u başqa dillərdən alınma idi: aborigen eskimoslardan [kayak, oomiak – deri eskimos qayigi, tupek – deriden olan yay alacigi, atigi – deriden tikilen xez terefi iceri olan alt koyneyi], caribou – maral – karibu fransiz dilinden – daha ilkin kanada immiqrasiyasi [cache – xususi erzaq, xez ve diger emtee ambari, buff – Kvebek eyaletinin 48 ve 51 derece arasi simal enine muvafiq gelen hissesi] ve s.

İngilis mənşəli vahidlər arasında – mənaları xüsusiləşdirilən sözlər, məsələn sled Bİ "xizək" – Kİ "it nartası", rat Bİ "siçovul" – Kİ "ondatra" . Bəzi kanadizmlər ümumingilis dilində başqa cür adlandırılan obyektləri işarə etmək üçündür, məsələn Bİ – aok – Kİ penguin, Bİ – float, buoy – Kİ floater, Bİ blackcock, black grouse – Kİ partridge. Digər hallarda adlar nominativ xarakterli dayanıqlı söz birləşmələri şəklində yaradılır, məsələn: black fox "şimali Amerika qırmızı tülküsünün nadir rast gəlinən qara rəngli növü", cat of mountain" vaşaq", Eskimo dog "eskimosların qoşquda işlətdikləri Canis familiaris borealis it cinsi", sea unicorn (zool) "narval" və s.

XVII əsrdə kanadizmlər arasında qədim ingilis vahidlərinin semantik şəkildəyişməsi olan bir neçə fel yaranmışdı: məsələn , ingilis fellərinin Kanada mənası track – uzun qamçı ilə qayıq və ya barja dartmaq, shoot – qayıqda (sal üzərində) çayın üzərində iti axan yeri ilə üzmək , raft – sal üstündə üzmək, pitch – bir dayanacaq yerindən digərinə getmək, trade – xəzi başqa əmtəə növlərinə dəyişmək, rind – ağacı qabığından təmizləmək və pack – xəzləri göndərmək üçün taylara pressləyib ylğmaq".

Kanadizmlər arasında bir neçə sifət də qeyd olunmuşdur: rotten – köhnə, məsaməli, buz, staget - ən pis (keyfiyyəinə görə) və s.

Birsözlü kanadizmlər əvvəldə flora və fauna , geyim əşyaları , yerdəyişmə vasitələri, reylef və coğrafi mühit xüsusiyyətləri , kulinariya terminləri, tikililərin adları və s. tematik qrupların sırasını artirmışdır. Eyni zamanda kanadizmlərin cımləşdiyi yeni sferalar yarandı.

a) Peşə adlari: furrier – xəzli heyvan ovçusu, Northman – qışlamağa gedən ovçu, sealer – suiti ovçusu, trader xəz alverçisi;

b) Vəzifə şəxslərinin adları: agent – hinduların işi üzrə dövlət məmuru, governor – faktoriya rəisi, master – xəz kampaniyasının böyük qulluqçusu;

c) Buz və qar növləri: barricade – çay sahilində buz yığını, candles – buz səthinin əriməsindən əmələ gələn buz sütuncuqları, crust – xarlamış qar , yam – çayın eni boyu buz yığını, pan – üzən buz parçası;

d) Sakinlərin yaşayış yerlərinə və ya mənşəyinə görə adlandırılması: Mountaineer – Şərqi Kvebekdən və ya Labradordan olan hindular, French – frankokanadalılar , settler – yeni köçmüş və s.

Ovçu təsərrüfatının inkişafı aşağıda göstırilən kanadizmlərdə, məsələn, ovçu əslahələrinin adlarında əks olunub: collar, deadfall, hap, slip, stopper.

XIX əsr boyu meydana gələn İngilis mənşəli kanadizmlər ilin əsas leksik artım kütləsini – 2941 vahid (88.8%) təşkil etmişdi. Onlardan 1200 söz , çox vaxt ilkin mənası kənarlaşdıran sözlərdir: snow – gecyetişən alma növü, packer – yükdaşıyan, bag – pellikan üçün dəri kisə , rye – çovdar viskisi, dust – qızıl qum, leader – qoşquda başçı it. Onlar mövcud tematik qruplan genişləndirməkdədir. Məsələn , faunanı işarə edən sözlər qrupuna 32 vahid , floraya – 17 , yerdəyişmə vasitələri – 22 , tikililər – 15 , əmək alətləri – 15 və s. Bu dövrdə kanadizmlərlə zənginləşməyə ehtiyacı olan yeni tematik qruplar yarandı.

a) Fəaliyyət növlərinin adları (20 vahid: bronco – brusting – vəhşi atın təlimi , fur – hunting – xəzli heyvanların tələ ilə tutulması , portaging - yükün bir çaydan digərinə daşınması);

b) Siyasi terminlər: Confederation – yeddi əyalətin Kanada domiona birləşdirilməsi, confederate, Confederationist – konfederasiya tərəfdarı;

c) Idman (10 vahid): rugby, puck, hockeyist, defenseman;

d) Maarif sahəsinə aid olan terminlər: collegiate – orta məktəb növü, trustee – məktəb şurasının üzvü;

e) Qızılaxtarma : colo(u)r – suxurda qızıl izləri, dust – qızıl qum, gold – hunter qızıl axtaran, wasing – bir yuma ərzində olunmuş qızılın miqdarı, pay – grave tərkibində qızıl olan qraviy, Klondiker stampeder – Klondaykda qızıl həyacanının iştirakçısı və s.

Vəzifəli şəxs adları qrupu zənginləşirdi: (14 vahid): road master – yol təsərrufatına görə məhsul olan bələdiyyə üzvü , bencher – seçkili məhkəmə iclasçısı , reeve – kənd burqomistrı, warden – tikinti üçün torpaqların ayrılması ilə məşğul olan kompaniya qulluqçusu. XIX əsrdə 1734 nominative mənalı dayanıqlı söz birləşmələri yaranmışdır. Tematik olaraq onlar bir sözlu kanadizmlərin aid olduqları qruplara bölünmüşlər. Beləliklə , Kanada flora nümayəndələrinin – 54 , faunanın – 50 , geyim əşyalarının - 15 və s. aid olduqları qruplara daxil olmuşlar. Ölkədə yol tikintisinin genişlənməsi ilə əlaqədar bu sahədə bir sıra yerli terminlər meydana gəlir: bush road, cross road , corduroy road , road camp , road grader , railway town , railway village. Kanadada dil inkişafının bu dövrdə xarakter cəhəti idman lüğətinin kəskin genişlənməsi olub (67 yeni kanadizm), həmçinin slenqlərdən alınmaların güclənməsi (128vahid). Bu dövrün professional kanadizmləri 184 vahid təşkil edir.

Ədəbiyyat

1. Бруннер К.История английского языка. М., 1956
2. Avis W.S The English language in Canada (Current trends in linguistics)
3. Англо – русский лингвострановедцеский словар-Американа
4. Mencken H.L the American language An inquiry into the development of English in the United States. New York 1657
5. Щустилова И.И., Ошепкова В.В. Кратий англо – русский линглвострановедческий словарь: Великобритания, США, Канада, Дрофа., 2006
6. Ощелкова В.В Язык и культура Великобритании, США, Каналы, Австралии, Новой Зелландии. ГЛОССА – Каро, 2004
7. Антрушина Г.Б., Афанасьвеа О.В., Морозова Н.Н., Лексикология английского языка., Дрофа., 1999

V.Bannayeva

Some notes on the main peculiarities of Canadion variant of the English language

Summary

c) bədən üzvlərini bildirən substantivləşmiş sifətlər the artiklı ilə işlənib, yalnız cəmdə olan xəbərlə uzlaşır: the vitals, the whites (of the eyes).

Beləliklə, nəzərdən keçirilən elmi-metodik vəsaitlərdə bir-birini təkrar edən materiallarla yanaşı, yəni, təkrar olunmayan materiallar da öz əksini tapmışdır.

Substantivləşmiş sifətlər qısa şəkildə Y.Qordon və İ.Krılovanın "A Grammar Of Present –Day English" kitabında da tədqiq olunmuşdur (Gordon E.M., Krylova I.P. A Grammar of present-day English (Parts of Speech), 2nd ed., M., 1980, s.134).

Müasir ingilis dilində sifət müqayisə və üstünlük dərəcələrində substantiv-ləşə və ismin xüsusiyyətlərini qəbul edə bilir.

Substantivləşmə Azərbaycan dili materiallarında da müşahidə edilir.

O taxtapuşun üstündəki qovunlara diqqətlə baxdıqdan sonra bir bozumtulunu götürdü və pulunu verdi (R.Güntəkin).

Qırmızımtıraqlardan bir-iki kilo almaq lazımdır.

Onlardan biri ucaboylu, o birisi isə gödərək idi.

Bu cümlələrdə sifətin azaltma dərəcəsində işlənən sözlərin substantivləşdiyi nümunələrlə verilmişdir. Azaltma dərəcəsində işlənən sifətlərin substantivləşməsinə dair digər nümunələri nəzərdən keçirək.

Sintaktik üsulla reallaşan bu hadisə zamanı sifətlər birbaşa yanaşma əlaqəsi və ya idarə əlaqəsi əsasında substantivləşirlər.

Məsələn, a) yanaşma əlaqəsi əsasında substantivləşənlər:

Nə üçün kəşfiyyata bir az diribaşları göndərmirsiniz?

a) İdarə əlaqəsi nəticəsində substantivləşənlər:

O yaşıla çalan pencəyi geyinib.

Mən sarıya calan köynəyi götürüb baxdım.

İngilis dilində olduğu kimi, Azərbaycan dilində də çoxaltma dərəcəsində işlənən sifətlərin substantivləşməsi xarakterik hadisədir. Amma bu zaman fərqlər də özünü göstərir. Azərbaycan dilində substantivləşən birinci sifət həm qrammatik, həm də semantik cəhətdən cəm formada, ikincisi isə tək formada işlənir.

Kasıbların kasıbı, gözəllərin gözəli – the happiest of the happy, the youngest of the young.

Kəndimizin bu dövlətli və sayılan ağsaqqalları bilirlər ki, mən kasıbların kasıbıyam.

Sifətlərin substantivləşməsi geniş yayılmış leksik-sintaktik hadisədir. Ona görə ki, hər bir sifət müəyyən əlamətlə özünü biruzə verir. Əlamət bildirmə xüsusiyyəti isimlərin formalaşmasında daxili forma, motivləşmə şəklində özünü göstərir.

İngilis dilində olduğu kimi, Azərbaycan dilində də sifət substantivləşməyə ən çox məruz qalan nitq hissəsidir. Sifətin substantivləşməsi ümumiyyətlə substantivləşmə hadisəsi içərisində mərkəzi mövqe tutur. Sifət leksik-semantik xüsusiyyətlərinə görə çox zəngin bir kateqoriyadır. Bu səbəbdən sifətlərin hansı tiplərinin substantivləşməsi mühüm əhəmiyyət kəsb edir. Sifətin substantivləşməsinə həsr olunmuş əsərlərdə bu məqama həmişə diqqət yetirilir. Bu istiqamətdə axtarışları davam etdirmək lazımdır.

Əlimizdə olan ədəbiyyatlar substantivləşmə hadisəsini sifətin aşağıdakı məna növləri üzrə nəzərdən keçirməyə imkan verir.

a) İnsanın fiziki sağlamlığına aid sifətlər
b) İnsanın psixoloji vəziyyətinə aid sifətlər
c) İnsanın yaşı ilə bağlı olan əlamətləri bildirən sifətlər
d) Modal münasibət (keyfiyyət) bildirən sifətlər
e) Mənəvi keyfiyyət bildirən sifətlər

Əlbəttə, bu təsnifatı tam həll edilmiş hesab etmək olmaz. Onlara hər dəfə yenilərini əlavə etmək mümkündür.

İnsanın fiziki sağlamlığına aid sifətlərin substantivləşməsi. Bunlardan aşağıdakıları qeyd edə bilərik: kor, kar, qozbel, kosa, keçəl və s. Bu sifətlər həm təklikdə, həm də birlikdə işlənməklə substantivləşirlər.

Məsələn, Kar özünə sərf eləyəni eşidir.

Qozbeli qəbir düzəldər.

Kosaya rişğənd edənin top qara saqqalı gərək.

İnsanın psixoloji vəziyyəti ilə bağlı olan sifətlərin substantivləşməsi.

Bunlardan aşağıdakıları qeyd edə bilərik: ağıllı, dəli, axmaq, gic, arif, sərxoş və s.

Ağıllınız kimdir? – Qabaqdakı zəncirli.

Arifə bir işarə!

Mənəvi keyfiyyət bildirən sifətlərin substantivləşməsi. Bunlardan aşağıdakıları qeyd edə bilərik: alçaq, xəsis, yalançı, tamahkar,oğru, paxıl, günahkar və s.

Məsələn, Hiyləgər doqquz ocaq yıxmayınca, bir ocaq tikməz.

İctimai vəziyyət bildirən sifətlərin substantivləşməsi. Bunlardan aşağıdakıları qeyd edə bilərik. Yoxsul, varlı, dövlətli, aşağı.

Məsələn, Ağıllı yoxsul, axmaq varlıdan yaxşıdır.

Modal münasibət bildirən sifətlərin substantivləşməsi: doğru, düz, gerçək, yalan, yaxşı, pis.

Yalan üz ağardar.

Yalan cücərər, amma bitməz.

Ədəbiyyat

1. Fries Ch. The Structure of English. London, Longmans, 1961.
2. Барабаш Е.В. Грамматика английского языка. М.: Высшая школа, 1983.
3. Gordon E.M., Krylova I.P. A Grammar of present-day English (Parts of Speech), 2nd ed., M., 1980.

E.Yagublu

Substantivization of the adjective in English and Azerbaijani languages.

Summary

The article deals with the substantivization of the adjective in English and Azerbaijani languages. The characteristic features belonging to the adjective are analyzed here. The substantivized adjective is a very controversial but interesting linguistic phenomenon in both English and Azerbaijani languages. The adjective, being one of the notional parts of speech, expresses the quality, quantity, degree, state or a kind of other feature that nouns or other nominal parts of speech usually possess, whereas the substantivized adjectives incorporate the features of only the nouns. A substantivized adjective is a sometime adjective (of a simple or derivative, or composite structure) which has become nominalized acquiring (all) the features of the nouns. The process of substantivization is a universal phenomenon and considered to be a productive means of word-building, word-composition and even a word-coinage, thus enriching the vocabulary of any language.

Э.Ягублу

Субстантивацией прилагательных в английском и азербайджанском языках.

Резюме

Артикль имеет дело с субстантивацией прилагательных в английском и азербайджанском языках. Характерные черты, принадлежающие к прилагательному анализируются здесь. Субстантивированное прилагательное является спорным вопросом, но в тоже время интересным лингвистическим феноменом, как в английском, так и в азербайджанских языках. Прилагательное, будучи одним из смысловых частей речи, обозначающая качество, свойство

или принадлежность предмета, тогда как субстантивированное прилагательное включает в себя свойства только существительного. Субстантивированное прилагательное иногда является прилагательным (простым, производным и составным), который стал субстантивированным приобретая качество существительного. Процесс субстантивации является универсальным феноменом и считается продуктивным способом словообразования, словосложения и даже словотворчества, таким образом пополняя словарный запас любого языка.

Rəyçi: Dosent Səadət Nuriyeva

GÜLNARƏ CABBAROVA
ADİU
gülnarə. @mail.ru.

ETİMOLOJİ DUBLETLƏRİN İNGİLİS DİLİNİN LÜĞƏT TƏRKİBİNİN ZƏNGİNLƏŞMƏSİNDƏ ROLU VƏ ƏHƏMİYYƏTİ

Açar sözlər:leksikoloji**,** alınma sözlər, dilin lüğət tərkibi, təsir.
Key words:leksical, loan words, vocabulary of the language, influence.
Ключевые слова: лексический,заимствованные слова, влияние

Leksikanın xüsusi təbəqəsinin həm nominasiya proseləri nöqteyi nəzərindən, həm də əsaslandırma planında alınma planında alınma sözlər təşkil edir. Dil kontaktı və digər dil sosiumlarının təsiri altında verilmiş dil kollektivinin təcrübəsinin genişləndirilməsi nəticəsində əmələ gəlmiş nominasiya tələblərinə mümkün cavablardan biri olaraq, onlar nitq zamanı dil cəhdlərinin müəyyən qənaətini təşkil edir, belə ki bu dildə əmələ gələn nominative boşluqları doldurmaq üçün başqa dilin hazır vahidlərindən istifadə olunur. Eyni zamanda, sözlərin alındığı dildə mövcud olan əvvəlki assosiativ əlaqələrin itirilməsi dildə alınma sözlərə məxsus olan əsaslı mənbələrin də itirilməsinə gətirib çıxara bilər ki, bu da nitq prosesində onların mənalarının başa düşülməsində çətinliklər yaradırş Alınma sözlər bir dilin elementlərinin başqa dildə istifadə olunması prosesi kimi, həm dilçilik, həm də dialektik cəhətdən dil əlamətlərinin ziddiyyətli təbiətinə səbəb olmuşdur: sözlərin götürülməsinə təkan verən ixtiyarilik və sözlərin götürulməsinə mane olan qeyri-ixtiyarilik. Elə bununla da izah etmək olar ki, ingilis dilində söz əmələ gətirmə və semantik derivasiya prosesləri ilə müqayisədə alınma sözlər kəmiyyətcə xeyli geri qalırş. Bu, heç də o demək deyil ki, müasir ingilis dilində alınma sözlərin rolu yoxdur. Təxminən dünyanın 50 dilindən daxil olmuş leksik vahidlər ingilis dilinin lüğət tərkibinin təqribən 70%-ini təşkil edir və ingilis dili müxtəlif tarixi mərhələlərdə, müxtəlif-tarixi, coğrafi, social, iqtisadi, mədəni və s.inkişaf və mövcud olma şəraitinin təsiri altında leksik təbəqələri əhatə edir.

Dillərin uzun müddətli qarşılıqlı tarixi əlaqələrinin nəticəsi olaraq, alınma sözlər həm bir proses kimi, həm də bu prosesin nəticəsi kimi dil tarixində maraq oyadır, bunun da sayəsində sözlərin alınma səbəbləri və mənbə dillər, alınma yolları, forma və tipləri, alınma sözlərin məruz qaldığı dəyişiklər barədə ətraflı məlumat toplamaq mümkün olur. Alınma sözlərin sinxron, leksikoloji cəhətdən öyrənilməsi onların bu dilin leksik quruluşuna təsiri və bir sıra genetic xüsusiyyətlərini saxlamaqla keçdiyi dildə özünün xüsusi status ilə maraq doğurur.

Alınma prosesində təkcə ayrı-ayrı vahidlər deyil, mənbə dildə aralrında müəyyən əlaqənin olduğu söz qruplarının da iştirak etməsi zamanı bu təsir daha aydın görünür. Mənbə dildə sözlər arasında relevant əlaqələrin və soz götürən dildə derivasiya miqdarı (m\sş rural-"kənd"-L.Rusrlis rus, rurus "kənd, əkin yeri, tarla", cardiac "ürək"-Gk, kardiakos, kardia "ürək" sözündən və b.) mənbə dildə genetic cəhətdən törəmə rol oynayir və struktur-semantik ilə asılılığı ilə xarakterizə olunur.

Belə söz əmələ gətirən sözlərin cüt sözlərin hər ikisinin alınması zamanı onların arasında derivasiya əlaqəsi digər dildə də qorunub saxlanılır. Məsələn,

"glossa, haşiyə, kənarlarda qeydlər, sərhlər" – glossary "qlossari, lüğət", dynasty "sülalə" – dynastic "sülalə (sif.) və s. Bu və ya digər tip yanaşma ilə qarşılıqlı əlaqədə olan alınma sözlər qrup xarakterli və çox saylı olması nəticəsində, ingilis sadə və törəmə sözlər sisteminin artmasında rol oynayır. Xeyli sayda morfoloji üzv vahidləri əmələ gəlir ki, bunun kompleksliyi ingilis dilində danışanlar tərəfindən daha çox hiss olunur, bunun da nəticəsində yeni söz yaradıcı modellərin formalaşması baş verir. Beləliklə, İngilis dilinin təkcə morfem tərkibi deyil, həm də derivasiya imkanları genişlənir.

Alınma sözlərin keçdiyi dildə "taleyi" də maraqlıdır. Alınma sözlər çoxu daxil olduğu sistemin təsiri ilə mühüm fonetik, qramatik və hətta semantic dəyişiklərə uğrayaraq həmin sistemin fonetik, qramatik, semantic qanunlara uyğunlaşırlar.

Assimilyasiya prosesi o dərəcədə dərin olur ki, həmin sözlərin xarici dil mənşəli olması ingilis dilində danışanlar tərəfindən hiss olunmur, yalnız etimoloji təhlil vasitəsilə müəyyən olunur. Bu, skandinaviya və latın dilindən erkən alınma sözlər üçün, xüsusilə, uyğundur, məsələn: get "almaq", skill "bacarıq", sky "səma", skirt "ətək", skin "dəri", they "onlar", street "küçə" və s. Tam assimilyasiya olunmuş və mənimsənilmiş alınma sözlərdən fərqli olaraq, qismən assimilyasiya olunmuş xarici dil vahidləri özlərinin fonetik (məs. (garage) chaise – longue chic), qramatik (məs. tək datum, nucleus, antenna – cəm datd, nuclei, antennae) və semantik (məs. taiga, tundraŞ rouble və s. rus dilindən alınma, ingilislər üçün başqa məna verən sözlər) xüsusiyyətlər kimi xarici mənşəli izlərini saxlayır. Bunların ingilis dilinin izahlı lüğətlərində adekvant təsvirini vermək üçün leksikoqraflar ensiklopedik məlumatdan chox istifadə edir, verilən obyekt və hadisənin yayılma yerləri, mövcud olduğu formalar, istifade etmə üsulları və s. barədə məlumat verirlər

Etimoloji nöqteyi-nəzərdən, leksikanin alınması xalqların iqtisadi, siyasi, elmi və mədəni əlaqələr zəminində yaxınlaşmasının nəticəsidir. Çox vaxt alınma sözlər dilə yeni əşyaların adlandırılması və əvvəllər məlum olmayan məfhumların ifadə edilməsi vasitəsi kimi gəlir. Alınma sözlər artıq məlum olan əşya və hadisələrin ikinci dəfə adlandırmaq üçün də istifadə oluna bilər. Bu o zaman baş very ki, alınma söz predmentin hər hansı başqa xüsusiyyətini bildirmək üçün istifadə olunur , o, ümumi qəbul olunmuş beynəlxaıq termindir və ya (hərbi işğal zamanı) xarici sözlər dilə məcburi səkildə tətbiq olunur.

Çoxmənalı sözlər adətən öz mənalarından birində götürülür və alınma zamanı sözün məna həcmi daralır.

İngilis dilinin lüğət tərkibinin inkişafında latın dilindən alınma sözlər böyük rol oynayır və latın leksikasının daxil olması əsasən ingilis xalqının tarixində üç hadisə ilə əlaqədar olmuşdur: Roma hakimiyyəti İngiltərədə xristianlığın yayılma və İntibah dövründə mədəniyyətin inkişafı.

Hələ german tayfaları, anqllar, sakslar və yutlar Britaniya adalarında məskunlaşmamişdan bu tayfalarla romalılar arasında dillərində də öz izlərini buraxan ticarət əlaqələri var idi. Latın dilindən birinci mərhələdə alınma sözıər roma və german tayfalarının mədəni-iqtisadi və hərbi münasibətlərinin xarakterini əks etdirir. Yeni sözlər adətən bu mərhələdə Roma xalqının daha yüksək mədəniyyətə qoşulması ilə əlaqədar əmələ gələn yeni məfhumları ifadə edir. Bu alınma sözlərə bunlar aiddir: (lat.portus), cycene kitvhen (lat. Coquina), piper pepper (lat. Piper) və s.

İngilis dilində latın dilindən alınma sözlərin əksəriyyəti "kitab" sözləri təşkil edir. B sözlər dilə xalqlar arasında bilavasitə canlı ünsiyyət nəticəsində deyil, yazılı sənədlər, kitablar və s. Vasitəsilə keçmişdir. Kitab alınma sözləri keyfiyyətcə digər alınma sözlərdən fərqlənir. Hər şeydən öncə, bu sözlər dəyişiklərə, xüsusilə də semantik dəyişiklərə az məruz qalmışlar. Bunun məntiqi izahı ondan ibarərdir ki, kitab alınma sözləri uzun illər boyunca məhdud sferada- bu dilin ədəbi formasında istifadə olunmuşdur. Daha sonra bu alınma sözlər əsasən mücərrəd, abstrakt və ya terminoloji xarakter daşıyır.İngilis dilində latın alınma kitab sözləri 16-cı əsr, həmçinin 15-16-cı əsrlərə, yəni İngiltərədə İntibah dövrünə təsadüf edir. Uiklif, Lenqland və Çoserin əsərlərində mindən artıq əvvəlcə ingilis dilində rast gəlinməyən latın dilindən alınma sözlər işlənmişdir. İntibah dövründə tibb, ədəbiyyat, ilahiyyat sahələrində sözlər, texniki terminlər və s. Yaranır. Bu sözlərin sıyahısını qısa fəsil çərçivəsində vermeək mümkün deyil. Bunun üçün xüsusi lüğət tərtib etmək lazımdır.

Bu alınma sözlərin çoxunu morfolji əlamətlərinə görə təyin etmək olar, məsələn: məsdər formasında –ate- şəkilçisi olan, latın dilində fellərin 1-ci təsrif formasının keçmiş zaman feli sifətindən əmələ gələn fellər –ute- şəkilçisi olan, latın dilində fellərin 3-cü təsrif formasının keçmiş zaman feli sifətindən əmələ gələn fellər – prosecute, execute; latın dilində indiki zaman feli sifətlərindən əmələ gələn –ant- və ent- şəkilçili sifətlər, məsələn, evident, transparent,patient, triumphant, apparent, obedient. Sonrakı əsrlərdə - 17-ci, 18-ci əsrlərdə latın dilindən alınma kitab sözləri müşahidə olunmuşdur. Əsasən bu "elmi sözlər" latın sözlərinin morfoloji xüsusiyyətlərini qoruyub saxlamişlar, məsələn:inertia, sanatorium, genus, radius, curriculum, datum, vacumm. Nəhayət, müasir ingilis dilində elə alınma sözlər də vardır ki, onlar bütünlükdə öz latın "simasını" saxlamışdır, yəni, hech bir assimilyasiyaya uğramamış və hal-hazırda da uğramır. Bu söz və ifadələr dildə latın dilindən sitat kimi işlənir. Onların istifadə olunma sferası məhduddur: onlar adətən elmi nəsr üslubunda, işgüzar sənədlərdə, yüksək natiqlik üslubunda işlənir. Belə alınma sözlərə aiddir: alma mater, bina fide, ex officio, condito, sine qua non və s.

Alınma sözlərin daxil edilməsinin nəticələrindən biri də etimoloji dubletlərin yaranmasıdır. Etimoloji dubletlər – etimoloji cəhətdən eyni kökə aid olan, lakin dildə müxtəlif məna, tələffüz və yazılışa malik sözlərdir. Məsələn: channel və canal.

Etimoloji dubletlərin yaranması müxtəlif konkret səbəblərlə izah olunur. Eyni söz müxtəlif zamanlarda, müxtəlif mənbələrdən alına bilər.

Məsələn: latınca canalis "kanal" ingilis dilində mərkəzi Fransa dialekti vasitəsilə "channel" formasında və şimali Fransa dialekti vasitəsilə "canal" formasında gəlib və bu formalar mənasına görə ayrılır.

Latınca quies, quietus "sakitlik, istirahət" bilavasitə ingilis dilinə daxil olmuş, quiet formasına malikdir, fransız dilindən keçən həmin söz dildə quite kimi möcuddur.Qeyd olunduğu kimi, bir dildən digər dilə sözlərin keçməsi zamanı elə hallar da baş verir ki, eyni söz iki dəfə götürülür. Bu, yalnız təmasda olan xalqlar arasında uzun müddət tarixi-mədəni əlaqələrin olması zamanı baş verə bilər. Latın dilinin ingilis dilinə təsir tarixi məhz belədir. Bir çox latın sözləri ingilis dilində iki dəfə gəlib: bir dəfə fransız dilindən, bir dəfə bilavasitə latın dilindən. İkinci dəfə alınma birincidən xeyli vaxt fasiləsi ilə ayrılır ki, bu da sözün yeni söz kimi qəbul edilməsi üçün zəruridir. Beləliklə, etimoloji fransız-latın dubletləri əmələ gəlir.

Latın dilindən keçən kitab xarakterli alınmalara bəzi sözəmələgətirici elementlər – ön şəkilçilər və şəkilçilər aiddir. Bu sözəmələgətirən morfemlər latın dilindən ayrıca dil vahidi kimi keçməmişdir; onlar bütöv sözlərin tərkibində gəlmişdir və yalnız sonralar sözəmələgətirən morfem kimi başa düşülmüşdür. Bununla belə, onları alınma şəkilçilər adlandırırlar.Beləliklə, latın dili ingilis dilinin yeni sözlərlə zənginləşməsinə böyük təsir göstərmişdir. Bu onunla izah olunur ki, İngiltərənin normand işğalı ilə dilə çoxlu fransız sözləri gəlmiş, bu da etimoloji cəhətdən yaxın olan latın sözlərinin nisbətən sərbəst axını üçün zəmin hazırlamışdır. Tarixi leksikologiyada bəzən bu və ya digər sözün ingilis dilinə fransız və ya latın dilindən keçdiyini teyin etmək çətinlik törədir.Latın dilindən alınma sözlər arasında bir qrup sözlər vardır ki, onlara səs formasına, qramatik şəklinə, məna mahiyyətinə görə beynəlxalq sözlər sırasında rast gəlinir. Məhz latın dili xeyli miqdarda belə sözlər bəxş edib. Bu, onunla izah olunur ki, feodalizm dövründə latın dili Qərbi Avropanın bir çox ölkələri üçün beynəlxalq elmi dil, bəzi ölkələrdə isə ümumiyyətlə, ədəbi dil hesab olunurdu. Latın dilinin elmi dil olması 17-ci 18-ci əsrlərə kimi davam etmişdir. Müasirtəbabət, kimya, botanika, zoologiya, fəlsəfə, siyasət elmlərində indiyə kimi latın sözlərindən istifadə olunur.

Müasir ingilis sözlərində audio – lat. dinləmək, qulaq asmaq: auditorum, audience. Bios – yun. həyat: biology, biography. Centum – lat. yüz: cent, century, centenary. Demos – xalq: democracy, demography. Grapho – yun. yazmaq: graphic, phonograph. Homos – yun. eyni: homonym, homophone. Lexis – yun. lüğət: lexico, logy, lexicography.

Onoma – yun. ad: synonim, antonim, pseudonym

Phone – yun. səs: phonetics, phoneme, phonology

Scribe, scriptum – lat. yazmaq, yazılmış:describe, subscribe, scritwriter, inscription

Tele – yun. uzaq: telescope, telegraph

Video – lat. görmək: visus lat. görünüş, mənzərə: visible, vision, revise, television, evidence.

Vita – lat. həyat: vital, vitality, vitamin.

Latın dilindən ingilis dilinə keçən beynəlxalq sözlərdən aşağıdakıları qeyd etmək olar: obligation, constitution, alibi, agriculture, microscope, modern, laboatory, program, system, socialism, communism, capitalism, climate, radius, tardition və s. Başqa dillərdən alınma sözlər dilin lüğət tərkibinə ayrı-ayrı təsirlər göstərir. Bəzi dillərdə alınmalar dilin lüğət tərkibinə elədə təsir göstərə bilməmişdilər. Müxtəlif tarixi dövrlərdə söz alınmaları dilin lüğəti tərkibinə elə çox əhəmiyətli təsirini göstərmişdir ki, hətta başqa dillərdən alınmış misal üçün, əvəzlik, önlük kimi xidməti sözlər, qədim xidməti sözləri sıxışdırıb istifadədən çıxarırdılar. Başqa dillərdən sözlərin alınma prosesi hər bir dilə xas olduğuna və ingilis dilinin leksikonunun ayrılmaz hissəsi oduğu üçün, bu tema həmişə aktual olaraq qalır və həmişə onun öyrəmilməsi və nəzərdən keçirilməsi üçün kifayət qədər materiallar var. Çünki fəal dil həmişə inkişaf olunan dildir. Nə iə təzə bir şey gəlir, lazımsızlar, artıqlar yoxa çıxır,burada leksikologiya səhəsində çalışan alimlər üçün də həllin tələb edən çox suallar qalır.

Ədəbiyyat:

1.R.C.Cəfərov: Azərbaycan dilində işlənən Qərbi Avropa mənşəli alınma sözlər. Bakı.2000il.”Nurlan” nəşriyyatı.
2.N.Ə.Rzayeva.Dildə sözalma prosesihaqqında.AMEA.İ.Nəsimi ad.Dilçilik İnstitu.”Tədqiqlər”.Bakı.2003 il.
3.N.Məmmədov. Alınma terminlər.”Elm” nəşriyyatı.1997 il.314 səh.
4.O.Musayev.İngilis dilinin grammatikası.Bakı.”Maarif°nəşriyyatı.1979 il.

Г.Джаббарова

Роль и значение заимствованных слов европейского происхождения в обогащении словарного состава английского языка.

Резюме

В статье рассматривается рол и значения заимствованных слов Западно-Европейского происхождение в развитие и обогащении словарного состава английского языка и его влиянние на другие сферах изучаемого языка.Как известно,словарный состав английского языка широко распростренены слова и термины Западно-Европейского происхождение,особенно латинских слов употребляется в техническом и художественнном литературе,а также,в практическом разговорном речи.Поэтому,студенты и лингвисты всегда и везде изучает и анализируют заимствованных слов Европейского происхождения в английском языке.

G.Djabbarova

The role and importance of the borrowed word european origin enrichment vocabulary english language

Summary

The article speaks about the borrowed words of Westen-Eurepean origin in the Englis language their use terminological units and lingual relation on modern phase.The roleand importance of te borrowed word European origin enrichment vocabulary English language,the article deals with the grammatical category of time in English and is comparative caracteristics of time Azerbaijan,analyses mutual en English origine words used in the vocabulary of Azerbaijan also some semantical peculiarities of English terms in Azerbaijani.The article deals with the structural-semantical models of the contemporary English and Azerbaijani language and their comparison analize of theoretical character.The article deals with the connection and essence of the category of tense in the Engsh grammar.

Rəyçi: Yusif Süleymanov
filologiya üzrə fəlsəfə doktoru, dosent

ÜLVİYYƏ ƏLİYEVA
BDU
aliyeva.ulviyya.83@mail.

MÜƏYYƏN YİYƏLİK HALIN SINTAKTİK VƏZİFƏSİ

Açar sözlər: yiyəlik hal, təyin, cümlə üzvü, xəbər, tabeli mürəkkəb cümlə.
Ключевые слова : Родительный падеж, определение, член предложения, сказуемое, сложноподчинённое предложение
Key words: Possessive case, attribute, sentence, predicate, the complex sentence

Müəyyən yiyəlik halda olan sözün təyin kimi ayrılması fikrini əsaslandıran bir çox arqumentlər mövcuddur ki, onlarda bəziləri bunlardır:

1. Müəyyən yiyəlik halda olan söz ayrıca cümlə üzvü-xəbər ola bilir. Məsələn: Bu qələm Həsənindir. Burada "Həsənindir" sözünün müstəqil xəbər olması onu göstərir ki, müəyyən yiyəlik hal mənsubiyyət şəkilçili sözdən ayrı da müstəqil cümlə üzvü kimi işlənə bilir.

2. Müəyyən yiyəlik halda olan söz qoşmalarla işlənə bilir. Və bu zaman da mənsubiyyət şəkilçili sözə ehtiyac olmur: sənin üçün, bizim kimi və s.

3.Mənsubiyyət şəkilçili söz də təklikdə işlənə bilir və yiyəlik halda olan sözün olub-olmamasından asılı olmayaraq, cümlənin müstəqil üzvü olur.

4. "Hətta elə hallar var ki, mənsubiyyət şəkilçili sözün əvvəlinə şəxs əvəzliyi artırmaq heç cür mümkün olmur: Mən atamı gözləyirəm. Atamızla kinoya gedəcəyik. Belə faktlar da göstərir ki, müəyyən yiyəlik halda olan söz təyin etdiyi sözdən ayrı da düşə bilir" [2.36.]

5. Yiyəlik halda işlənən biz, siz əvəzliklərinin ayrica təyin kimi işlənməsi məqamı artıq dilçilikdə qəbul olunub: Bizim ev kənddədir. Sizin kənd işıqlıdır. Belə cümlələrdə təyinlərin ayrılması da yiyəlik halın müstəqilliyindən xəbər verir.

6. 3-cü növ təyini söz birləşmələrinin arasına söz və söz birləşmələrinin daxil olması, tərəflərin eyni zamanda cəmlənməsi, aid olan sözün komponentləri ayrıliqda izah etməsi də tərəflərin ayrılıqda təhlil olunmasını zəruriləşdirir.

7. "Müəyyən yiyəlik halın özünün əlavəsi işlənə bilir və bu əlavə birinci tərəfi konkretləşdirir, izah edir" [1.163]. Məsələn: Bacımın-Günayın kitabı budur. Cəlalın-sinif yoldaşımın anası gəldi.

Gördüyümüz kimi, müəyyən yiyəlik halın özünün əlavəsi asanlıqla işlənir. Bu da onun ayrıca sintaktik vəzifə daşımasına sübutdur.

8. 3-cü növ təyini söz birləşmələrinin tərəflərinin yerdəyişməsi-inversiyası halı da baş verir: Kim gələcək yerinə Fuadın? (Anar)

9. Hətta bəzən müəyyən yiyəlik halda olan sözlə mənsubiyyət şəkilçili söz nəinki inversiya olur, hətta aralarına cümlənin ikinci dərəcəli üzvləri də daxil olur. Məsələn: Gözlərindən öpdü Rumiyyənin (Anar). Macalı hardaydı Fuadın (Anar). Mənim sabah işim var. Yerim bağça-bağ mənim, Rəngim ağappaq mənim

Bu amil də 3-cü növ təyini söz birləşmələrinin tərəflərinin ayrılmasına şərait yaradır.

10. Dilimizdə birinci tərəfi mənsubiyyət şəkilçili sözlə ifadə olunan frazeoloji birləşmələr var ki (xoşu gəlmək, zəhləsi getmək, acığı gəlmək, gözü su içməmək və s.), bunların yaranmasında yiyəlik hal iştirak etmir, yalnız cümlə

daxilində şəxs əvəzlikləri, isim və substantivləşmiş sözlər yiyəlik halda işlənərək bu tip frazeoloji birləşmələrin mənsubiyyət şəkilçili sözün şəxsini müəyyən edir, izah edir, başqa sözlə, təyin edir. Məsələn: Mənim xoşum gəlir. Sənin acığın gəlir. Həsənin gözü su içmir. Və s.

Bu tip cümlələrdə tərəflərin arasına digər cümlə üzvlərin daxil olması da yiyəlik halda olan sözün ayrıca cümlə üzvü-təyin olması fikrinə sübutdur: Mənim həmişə səndən xoşum gəlib. Müəllimin dərs oxumayan şagirddən acığı gəlirdi və s.

11. "Dilimizdə təkcə müəyyən yiyəlik halda olan sözlə ifadə olunan yarımçıq cümlələr də mövcuddur ki, yiyəlik halın xüsusi mövqeyi- təyinedicilik funksiyası belə yarımçıq cümlələrdə daha aydın görünür. Məsələn: -Bu, kimin köynəyidir? –Atamın. Bu, nəyin açarıdır? –Maşının" [2.36.].

12. Sintaktik əlaqələri müəyyən edərkən də 3-cü növ təyini söz birləşmələrinin tərəfləri parçalanır, ayrılıqda cümlənin başqa üzvləri ilə sintaktik əlaqəyə girirlər. Məsələn: "Savadlı şagirdin kitabı budur" cümləsində savadlı sözü şagird sözü ilə yanaşma əlaqəsinə girmişdir. "Onun maraqlı kitabı buradadır" cümləsində maraqlı sözü 3-cü növ təyini söz birləşməsinin ikinci tərəfi- kitabı sözü ilə yanaşma əlaqəsindədir. "Gələn bizim qonşumuzdur" cümləsində mübtəda- gələn sözü qonşumuzdur sözü ilə uzlaşma əlaqəsinə girib ki, 3-cü növ burada da parçalanıb. Həmçinin "Mənim bacım Günay gəldi" cümləsində yanaşma əlaqəsi bacım və Günay sözləri arasındadır.

13. "Yiyəlik haldakı işarə əvəzliyi ilə bağlı olan budaq cümlənin işlənməsi də onu göstərir ki, o (yiyəlik haldakı işarə əvəzliyi) , müstəqil cümlə üzvüdür-təyindir. Onunla bağlı budaq cümlə isə təyin budaq cümləsidir" [1.163.]. Məsələn: Kim kitab oxuyur, onun zehni iti olur. Burada budaq cümlə baş cümlədəki "zehni" sözünü kimə aid olma baxımından təyin edir. Baş cümlədə işlənən "onun" əvəzlik-qəlibi budaq cümlənin növünü müəyyənləşdirir, yəni baş cümlədən kimin sualı çıxır ki, həmin suala birinci cümlə cavab verib təyin budaq cümləsi olur. Bəzən belə cümlələrdə əvəzlik- qəlib (onun sözü) işlənməyə də bilər: Hər kimi gördün, ciblərini yoxla. Bu cümləyə "nəyi" sualını versək, "ciblərini" cavabını alacağıq. Bu da baş cümlənin özündə var. Biz isə baş cümlədə olmayan, işlənməsi zəruri olan üzvə sual verməliyik. Bu sual da "kimin" sualıdır. Budaq cümlə cibini sözünün məhz kimin cibi olduğunu göstərir, təyin edir.

14. Dilimizdə elə tabeli mürəkkəb cümlələr də var ki, baş cümlədə "o, elə" işarə əvəzlikləri ilə ifadə olunan əvəzlik-qəlib 3-cü növ təyini söz birləşmələrinin ikinci tərəfini, yəni mənsibiyyət şəkilçili sözü təyin edir.Məsələn: Mənim o dostum xeyirlidir ki, səhvimi mənə desin. Mənim elə müəllimim var ki, həmişə səhvimi başa salır. Belə cümləsi sadələşdirəndə budaq cümlə 3-cü növ təyini söz birləşməsinin arasına daxil olaraq sadələşir ki, bu da komponentləri bir daha sərbəstləşdirir: Mənim səhvimi mənə deyən dostum var. Mənim səhvimi həmişə başa salan müəllimim var.

15. Azərbaycan dilçiliyində 3-cü növ təyini söz birləmələrinin daxili təyininin ayrılması fikri də mövcuddur. 2003-cü ildə V. Qurbanov və M. Abbasovanın "3-cü növ təyini söz birləmələri cümlə üzvü rolunda" (Azərbaycan dili və ədəbiyyat tədrisi (metodik məcmuə). B.2003. nömrə 4. Səh. 15-19.) adlı məqaləsi çap olunmuşdur. Burada müəlliflər 3-cü növ təyini söz birləşməsinin tərkibindəki sözlərin-təyinlərin ayrılması fikrini müdafiə edirlər. Onlar prof. Yusif Seyidovun bu

fikrini veriblər: "3-cü növ təyini söz birləşməsinin 1-ci tərəfinin təyini ola bilirsə, bəs ikinci tərəfin təyini niyə olmasın? Məsələn: Orta məktəbin əlaçı şagirdlərinə də söz verildi. Burada orta sözü birləşmənin birinci tərəfinin, əlaçı sözü isə ikinci tərəfin (yəni şagirdlərin) təyinidir". [4. 19]

Beləliklə, 3-cü növ təyini söz birləşmələrinin tərkibindəki təyinlərin ayrılması bu birləşmələrin özlərinin də ayrı-ayrılıqda təhlil olunmasına daha da şərait yaradır, onların vahidliyini pozur.

16. "Öz" təyini əvəzliyi ayrılıqda yiyəlik halı əvəz edir. Məsələn: öz kitabım-mənim kitabım, öz kitabın-sənin kitabın, öz kitabımız-bizim kitabımız və s. Bu fakt da müəyyən yiyəlik halı mənsubiyyət şəkilçili sözdən uzaqlaşdırır, təyinlik mövqeyini göstərir.

17. Bəzən xəbəri "var, yox" sözləri ilə ifadə olunan cümlələrdə də müəyyən yiyəlik hal mənsubiyyət şəkilçisini itirir: Bu kitabdan mənim də var. Maraqlı oyunlardan sənin yoxdur və s.

18. "Yiyəlik halın ayrıca suallara-kimin, nəyin suallarına cavab verməsi də mühüm əhəmiyyətə malikdir. Yiyəlik hal xəbər vəzifəsində işlənərkən biz onun "kimindir" sualına cavab verdiyini qəbul edirik. Morfologiyada ismin halları sırasında "kimin, nəyin" sualları olduğunu iqrar edirik. Sintaksisə gələndə bu sual yoxa çıxır" [1. 165.]. "Evin pəncərəsi təmizləndi" cümləsinə nəyin pəncərəsi təmizləndi? Evin nəyi təmizləndi? suallarını vermək olar və cavabında birinci halda "evin", ikinci halda isə "pəncərəsi" cavabını alarıq.

"Tutaq ki, biz kitabın stolun üstündə olduğunu görürük, bu vaxt həmin kitabın məhz kimin olduğunu bilmək üçün soruşuruq: Bu, kimin kitabıdır? Daha heç cür "Bu, nədir" deyə vermirik, çünki nə olduğunu bilirik, kimin olduğunu bilmirik" [2. 36.].

Kimin sual əvəzliyi 3-cü şəxsi bildirdiyi üçün mənsubiyyət şəkilçili söz 1-ci və 2-ci şəxslərdə olanda da sualı 3-cü şəxsə görə verməliyik. Yəni "Mənim kitabım maraqlıdır", "Sənin kitabın maraqlıdır", "Bizim kitabımız maraqlıdır", "Sizin kitabınız maraqlıdır" kimi cümlələrdə sualı "kimin kitabım maraqlıdır?" və s. formasında versək, təbii ki, uzlaşma pozulduğu üçün sual nataraz çıxacaq. Ona görə də sualı "kimin kitabı maraqlıdır?" formasında verib təyini tapmaq lazımdır. Necə ki, "Mən gəldim", "Sən gəldin", "Biz gəldik", "Siz gəldiniz" cümlələrində mübtədaya sual verərkən kim sual əvəzliyi 3-cü şəxsi bildirdiyi üçün sualı "kim gəldim, kim gəldin, kim gəldik, kim gəldiniz" şəklində deyil, uzlaşmaya riayyət edərək "kim gəldi" şəklində qoyuruq. Eləcə də 3-cü növ təyini söz birləşmələrində yiyəlik halda olan təyinə sual verərkən "kimin, nəyin, haranın" sual əvəzlikləri 3-cü şəxsi ifadə etdiyi üçün bütün şəxslərdə mənsubiyyət şəkilçili sözü 3-cü şəxs formasında işlətməliyik.

Verilən arqumentlərdən bu nəticəyə gəlmək olar ki, "başqa türk dillərində olduğu kimi, Azərbaycan dilində də yiyəlik hal şəkilçili sözlər təyin vəzifəsi daşıyır. İndiyə qədər təyin haqqında deyilənlərə aşağıdakıları əlavə etmək olar. Birinci növbədə təyinin tərifini tamamlamaq lazımdır.

Təyin sifət, say, isim, feli sifət və bəzi əvəzliklərlə, həmçinin atributiv xarakterli söz birləşmələri ilə ifadə olunub necə? nə cür? hansı? neçə? nə qədər? Kimin? nəyin? haranın? suallarından birinə cavab olur. Təyinin məna növlərinə 10-cu növü-yiyəlik, aidlik növünü əlavə etmək lazımdır. Bu təyinlər ismin müəyyən yiyə-

lik halı ilə ifadə olunub kimin? nəyin? haranın? suallarından birinə cavab verir və təyinlənənlə münasibətdə sahiblik və ya aidlik mənası ifadə edir" [1. 165-166.]

Hətta prof. Yusif Seyidov da ənənəvi fikrin tərəfdarı olsa da, etiraf edir ki, " əgər Azərbaycan dilində də başlanğıcdan 3-cü növ təyini söz birləşmələrinin tərəfləri ayrı-ayrılıqda cümlə üzvü kimi götürülsə idi, bu halda yiyəlik haldakı söz də Əlövsət Abdullayevin istədiyinə uyğun olaraq, təyin kimi qəbul edilsə idi, biz ona adət edərdik və bu qayda heç kimə qəribə görünməzdi" [4. 399.].

Bu fikirdən belə çıxır ki, Azərbaycan dilçiliyində 3-cü növ təyini söz birləşmələrini cümlənin bütöv bir üzvü kimi götürmək adət şəklini aldığı üçün onların ayrı-ayrılıqda təhlil olunması daha məntiqli olsa da, sırf adəti pozmayaq, qəribə görünməsin deyə bir sintaktik vahid kimi qəbul edirik, bu isə problemin elmi həlli deyil. Əslində, 3-cü növün vahid formada təhlil olunması fikrinə gətirilən arqumentlər inandırıcı deyil.

Müəyyən yiyəlik halın sintaktik vəzifəsindən danışarkən onu qeyri-müəyyən yiyəlik haldan fərqləndirən cəhətlərə toxunmağı da lazım bilirik ki, 2-ci və 3-cü növ təyini söz birləşmərinin birinci tərəfinin ayrıca cümlə üzvü olmaq məsələsi eyniləşdirilməsin. Adından göründüyü kimi, qeyri-müəyyən yiyəlik hal qeyri-müəyyən (şəkilçisiz), müəyyən yiyəlik hal isə müəyyəndir (şəkilçili). Yəni 2-ci növ təyini söz birləşməsinin birinci tərəfi məna etibarilə qeyri-müəyyənlik bildirdiyi halda, 3-cü növ təyini söz birləşməsinin birinci tərəfi müəyyənlik bildirir.

2-ci və 3-cü növ təyini söz birləşmələrində "tərəflərin nitq hissəsinə görə ifadəsi də eyni deyildir. Əgər 3-cü növdə tərəflər müxtəlif nitq hissələri ilə ifadə olunmaq imkanına malikdirsə, 2-ci növ birləşmələr bu cəhətdən məhduddur, yəni 2-ci növü tərəfləri yalnız isimlərlə ifadə olunur (məsdərlə də ifadə oluna bilir ki, o da ismin xüsusiyyətinə malik olduğu üçündür). Bu xüsusiyyət də həmin dil formalarının müxtəlif xarakterli olacağına imkan yaradır" [1. 161.]

3-cü növün arasına başqa sözlər və söz birləşmələri daxil ola bilir, yəni tərəflər bir-birindən ayrı düşə bilir. 2-ci növdə isə bu, yoxdur, komponentlər bir-birinin yanında işlənməlidir.

2-ci növ təyini söz birləşmələri söz yaradıcılığında eyni formada iştirak edir: dəvətikanı, quşəppəyi, seçkiqbağı, suiti, ayaqqabı və s. Amma 3-cü növ birləşmələr söz yaradıcılığı prosesində də ayrılır, yəni tərəflərdən yalnız biri iştirak edir: üzüyola, əlidolu, başıaşağı, gözükölgəli, başqası, biri, bəzisi və s.

Bütün bunlar onu göstərir ki, "2-ci növ təyini söz birləşmələrinin birinci tərəfi sərbəst deyildir və ayrıca cümlə üzvü vəzifəsi daşıya bilməz. 3-cü növ təyini söz birləşmələrinin tərəflərinin sərbəst olması imkan verir ki, onun birinci və ikinci tərəfi ayrılıqda cümlə üzvü vəzifəsi daşısın" [1. 162.].

Ədəbiyyat

1. Abdullayev Ə. Azərbaycan dili məsələləri. Bakı Universiteti nəşri. 1992.
2. Axundov A. Əhmədov İ. "Bizim fikrimizcə". Azərbaycan dili və ədəbiyyat tədrisi (metodik məcmuə). Bakı 1983. Nömrə 4. Səh. 34-37.
3. Qurbanov V. Abbasova M. "3-cü növ təyini söz birləşmələri cümlə üzvü rolunda". Azərbaycan dili və ədəbiyyat tədrisi (metodik məcmuə). Bakı 2003. Nömrə 4. Səh. 15-19.

4. Seyidov Y. Azərbaycan dilində söz birləşmələri. Bakı Universiteti nəşri 1992.

Ulviyya Aliyeva

The syntactic position of the definite genitive case

Summary

In our opinion, the definite genitive case must be divided as attribute.There are many arguments for proving it.

1. The definite genitive case can separately be predicate in the sentence.
2. The definite genitive case is used with postpositions.
3. There are semi-sentences which signified with the words in the definite genitive case.
4. The definite genitive case has its own questions.
5. Words and word combinations can be included between the definite case and the words with affiliation suffix.
6. The definite genitive case is used with its own apposition etc.

Ульвия Алиева

Синтактическая функция определенного родительного падежа

Резюме

По-нашему мнению, определённый родительный падеж должен быть выделен как определение. Многие аргументы подтверждают это:

1. Определенный родительный падеж может выступить как самостоятельное сказуемое.
2. Определенный родительный падеж употребляется с послелогами.
3. Функционируют неполные предложения, выраженные существительными в определённом родительном падеже.
4. Имеются вопросы, принадлежащие определенному родительному падежу.
5. Между определённым родительным падежом и словом с аффиксом принадлежности может включиться какое-л. слово или словосочетание.
6. Слово в определённом родительном падеже может иметь приложение. И т.д.

Rəyçi: Professor Tofiq Hacıyev

AYTƏN HACIYEVA
AzTU
aytən.mail.ru.

FRAZEOLOGİYA DİLÇİLİYİN ƏN GƏNC TƏDQİQAT OBYEKTİ KİMİ

Açar sözlər: sərbəst söz birləşmə, frazeoloji vahid, model.
Key words: free word combination, phraseological unit, model.
Ключевые слова: свободное словосочетания, фразеологическое единства, модель

Frazeoloji vahidlər, leksik vahdilər kimi, bir məfhum ifadə edir, bundan başqa ekspressiv üslub vasitəsi kimi, dilə xidmət edir və eləcə də tərbiyəvi əhəmiyyət kəsb edir.

Bildiyimiz kimi, birləşmə şəklində olan frazemlər sərbəst söz birləşmələrinin quruluş modelləri əsasında formalaşır. Sərbəst söz birləşmələri dildə uzun müddət işlənməklə məcaziləşir, tərəflər qaynayıb-qovuşaraq sərbəst birləşmənin sabit çevrilməsinə səbəb olur. Bu fikir bəzən mübahisə doğursa da, əksər dilçilər frazeoloji vahidlərə bu mövqedən yanaşırlar. Sərbəst birləşmələr isə, təbii ki, müstəqil mənalı sözlərin birləşməsi ilə yaranır. Bəzən bu sözlər birləşmə tərkibində daxil olmazdan əvvəl məcaziləşmiş olur, bəzən birləşmə tərkibində məcaziləşir və digər komponentin də məcaziləşməsinə səbəb olur.

Leksik və qrammatik mənaları özündə birləşdirən sözlər müəyyən nitq hissəsinə mənsub olaraq, dilin bütün qrammatik məna sistemini ifadə edir. Söz dilin müxtəlif səviyyələrində fonetik, qrammatik (morfoloji), leksik və s. aspektlərdə öyrənilir. Sözün məna və məzmunu semasiologiyada araşdırılır. O, leksikologiyanın əsas tədqiqat obyektidir. Sözün cümlədə yeri morfemə nisbətən sərbəstdir. Sözün nominativ (adlandırma), diferensiallaşdırma (fərqləndirmə), ekspressiv və ya emosional-ekspressiv, apelyativ (müraciət), işarətmə, göstərmə funksiyaları var. Söz çoxfunksiyalılığına görə dilin ümumi strukturunda çox mühüm mövqeyə malikdir.

Bütün dillərdə sözlərin bir qismi ancaq bir məna daşıyır, məsələn, horse, love, və s. Müasir ingilis dilində bir sıra sözlər var ki, onlar iki, üç və daha çox məna bildirir. Məsələn, hand sözü insanın və ya başqa canlıların bədənində bir üzvün adı kimi işlədilir, əl mənasında. Misal:

He put his arge hands on the counter of the office, feeling them warm with sweat.

Hand sözünün bu mənası tarixən birinci, ilk məna kimi formalaşmışdır. Sözün bu cür mənası əsas normativ məna adlanır. Həmin söz ingilis dilində bir sıra başqa sözlərlə əlalənərək başqa mənalarda da işlədilir. Məsələn, bear′s hand birləşməsində ayı pəncəsi; in smb.′s hands birləşməsində bir kəsik hakimiyyətindədir; a hand for smth birləşməsində bir şeydə cəldlik, diribaşlıq, zirkəlik, çeviklik, bacarıq, məharət; to give a hand birləşməsində yardım göstərmək; factory hand birləşməsində fabrik işçisi; by the same hand birləşməsində eyni rəssmaın şəkli; on all hands birləşməsində bütün tərəfləndən; at first hand birləşməsində birinci əldən; şmall hand birləşməsində xırda, kiçik xətt; big hand birləşməsində saatın böyük əqrəbi; exact hand birləşməsində dəqiq göstərici, soraq kitabı, məlumat kitabçası

mənasında; out of hands birləşməsində hazırlıqsız, ekspromt şəkildə mənalarını ifadə edir. Bu mənalar hand sözünün ilkin mənsı əsasında dildə sonradan formalaşdığına və həmin mənanın izini bu və ya digər dərəcədə saxladığına görə törəmə nominativ məna sayılır.

The Pengium Pocket English Dictionary lüğətində abroad sözünün 4, account özünün 11, act sözünün 10, set sözünün 23 mənası göstərilmişdir. Bu mənaların əsas və ya törəmə səciyyə daşıması sözlərin birləşmə daxilində, başaq sözlərlə əlaqəsində müəyyənləşir. Müasir ingilis dilində misal üçün to be abroad – xaricda olmaq birləşməsində abroad nominativ məna, within abroad – dairəsində birləşməsində həmin söz törəmə nominativ mənadır. Lakin belə sölər təklikdə işləndikdə ilk növbədə bunların əsas nominativ mənası bizim şüurumuzda canlanır.

Sözlərin əsas və ya törəmə nominativ mənalarda birləşməsi yolu ilə yaranan söz birləşməsi sərbəst söz birləşməsi sayılır, çünki belə birləşmə nitq prosesində dilin qrammatik quruluşunun mövcud qaydaları əsasında tərtib edilir. Məsələn, *su tökmək, kitab almaq, məktub yazmaq, su içmək, meyvə yemək, dərs öyrənmək, yük daşımaq*. Buna görə də, sözlərin belə birləşməsi qrammatikanın, yəni sintaksisin tədqiqat obyektidir.

Fikrin ifadəsində nitqin bilavasitə tərkib hissəsini təşkil edən iki və ya daha çox tammənalı sözün tarixən birləşməsindən ibarət olub, komponentləri sintaktik və semantik cəhətdən parçalanmayan, quruluşca sərbəst söz birləşməsinə və ya cümləyə oxşayan, mənaca söz, söz birləşməsinə və ya cümləyə ekvivalent olan, dildə hazır şəkildə mövcud olub ənənəyə görə ya bir formada, ya da qrammatik cəhətdən dəyişdirilərək işlədilən konstruksiyalara frazeoloji vahid deyilir.

Frazeoloji vahidlərin fonetik tərkibi, leksik və qrammatik quruluşu, əmələgəlmə yolları, semantik və üslubi xüsusiyyətləri bir problemi kimi dilçiliyin tədqiq obyektidir.

Heç şübhəsiz, frazeoloji birləşmələrin struktur-semantik təşəkkülü sərbəst söz birləşmələrindən başlayır. Odur ki, sərbəst söz birləşmələrinə nəzər salmadan frazeoloji birləşmələrin struktur əlamətlərini müəyyənləşdirmək çətin olardı. Həm sərbəst, həm də sabit birləşmələr feli və qeyri-feli birləşmələr kimi iki növə ayrılır. Azərbaycan dilçilikdə bunlara ismi və ya qeyri-feli birləşmələr deyilir.

Müasir ingilis dilində feli frazeoloji vahidlərinin struktur-semantik xüsusiyyətlərinin tədqiqi zamanı biz feli söz birləşmələrinin əmələ gəlməsində fel mühüm rol oynamağına və nitq hissələri sistemində özünəməxsus əsaslı yer tutduğuna görə ona xüsusi yer ayırmışıq. Həm kəmiyyət, həm də məzmun və məna baxımından digər nitq hissələrinə nisbətən zəngin olan fel, müasir ingilis dilində öz struktur-semantik və sintaktik xüsusiyyətlərinin zənginliyinə görə dilçilərin diqqətini cəlb edir. Feli birləşmələr geniş yayılmaları, çox işlənmələri, zəngin məna və forma variantları ilə söz birləşmələrinin növləri arasında xüsusi yer tutur. Feli birləşmələrdə hərəkətlə onun aid olduğu, ya da ona aid olan müxtəlif anlayışlar arasındakı əlaqələr əks olunur. Buna görə də ümumi şəkildə götürdükdə feli birləşmələrin məzmununu proseslə onun aydınlaşdırıcıları arasındakı əlaqələr təşkil edir.

Müasir ingilis dilində felin üç şəxsiz forması vardır: məsdər (The Iinfinitive), cerund (The Cerund) və feli sifət (The Participle). İngilis dilindən fərqli olaraq, Azərbaycan dilində cerund adlanan nitq hissəsi yoxdur. İngilis dilində isə, dilimizdə geniş miqyasda işlədilən feli bağlama adlanan fel forması yoxdur. Tədqiqat boryu

ingilis dilində olan məsdən (The Infinitive), cerund (The Cerund) və feli sifət (The Perticiple) Azərbaycan dilinin feli bağlama, feli sifət və məsdər tərkibləri ilə qarşılaşdırıb, onalar arasındakı əlaqəni üzə çıxardır.

Bütün əsas nitq hissələrinin bu və ya başqa şəkildə feli birləşmələrdə iştirakı feli birləşmələrin forma və məzmunca zənginləşməsində mühüm əhəmiyyətə malikdir. Lakin burada felin rolu daha böyükdür və feli birləşmələr məhz felin sayəsində geniş əhatə dairəsinə malikdir. Fellərlə ifadə olunan mənalar materiya iəl əlaqədə, məkan və zamanla əlaqədə öz əksini feli birləşmələrdə tapır. Feli birləşmələrdə əsasən əşyalara hərəkətlər arasındakı münastbətlər, hərəkətlərlə onların zamanı, məkanı və s. arasındakı münasibətlər ifadə olunur. Burada eyni zamanda hərəkətin özləri arasındakı münasibətlər, hətta ismi birləşmələrə məxsus bir şəkildə əşyalar arasındakı əlaqələr də əks olunur, məsələn: danışa-danışa yaşamaq, duyub yaratmaq, oxuduqca savadlanmaq. Ana dilimizdə feli birləşmələrin əmələ gəlməsi üç forma – feli bağlama, feli sifət və məsdərlə bağlanır. Bu adlar altında başa düşülən söz qrupları felə daxil olan, öz-özlüyündə heç bir predikativlik bildirməyən sözlərdən ibarətdir. Bu sözlərin hamısı felə daxil olur, onun hissələri olmaqla bərabər, başqa nitq hissələrinin də xüsusiyyətini özündə əks etdirir. Həmin sözlərin feli birləşmə yarada bilmələri də onların hər ikili xüsusiyyətdən irəli gəlir.

Qrammatikada məsdən, əsasən felin şəxsə, kəmiyyətə və şəklə görə dəyişməyən bir növü kimi tədqiq edilir. Bəzi dillərdə, məsələn, portuqal dilində məsdər zaman, şəxs və kəmiyyət kateqoriyalarına görə uzlaşır. Lakin dünya dilləri arasında elə dillər də var ki, ümumiyyətlə, o dillərin qrammatikasında məsdər kateqoriyası mövcud deyil. Məsələn: ərəb, bolqar və müasir yunan dilləri.

Azərbaycan dilində feli söz birləşmələrinin əmələ gəlməsində əsas rol oynayan söz qruplarının xüsusiyyətləri ilə qısa tanış olar. Məsdər hüquqin adı olmaqla feldən ismə doğru meyl edən bir formadır. Məsdərdə bir sıra fel xüsusiyyətləri var. Məsdərdə felin əsas kateqoriyalarından olan təsirlik kateqoriyası var. Məsdərlər də təsirli və təsirsiz olmaqla iki yerə ayrılır. Məsələn, yazmaq, almaq, bilmək məsdərləri təsirli, getmək, gəlmək, yatmaq məsdərləri təsirsiz fellərdən ibarətdir. Məsdərlərdə felin inkarlıq kateqoriyası var. Məsələn, yazmaq, danışmaq, bilmək məsdərləri təsdiq edir, yazmamaq, danışmamaq, bilməmək məsdərləri inkardır. Feli bağlamalar feldən zərfə doğru meyl edən söz qupudur. Feli bağlamalarda da felə məzsus təsirlik, növ və inkarlıq kateqoriyaları vardır. Məsələn, yazanda, biləndə feli bağlamaları təsirli, gedəndə, yuxuluyanda feli bağlamaları təsirsizdir. Feli bağlamalarda zərf xüsusiyyətləri ondan ibarətdir ki, onlar da zərf kiim dəyişmir, cümlədə başqa fellərə ail olub, onları bu və ya digər cəhətdən izah edir. Feli sifətlərf eldən sifətə doğru meyl edən söz qrupudurö Feli sifətlərdə də felin təsirlik, növ və inkarlıq kateqoriyaları özünü saxlayır, məsələn: yazan, alan, görən feli sifətlər təsirsiz, gələn gedən, tərpənən feli sifətləri təsirsizdir. Türk dillərində, eləcə də Azərbaycan dilində birləşmələrin qeyri-predikativ formada çox işlənməsinin səbəbi feli bağlama və feli sifət formalarının çox olması ilə izah olunur.Feli birləşmələr zəngin və rəngarəng qrammatik və semantik xüsusiyyətlərə malik olduğuna görə onlar müxtəlif cəhətdən təsnif edilir. feli birləşmələrin birinci tərəfləri müxtəlif nitq hissələri ilə ifadə olunduğu kimi, həmin sözlərin formaları da müxtəlif olur. Tədqiqatımızın predmeti ingilis feli frazeoloji vahidlərin leksik-semantik xüsusiyyətlərinin tədqiqi olduğundan keçək frazeologiyaya.

Frazeologiya dilçiliyin ən gənc tədqiqat obyektlərindəndir. Bu sahənin bir elm kimi hamısı fransız dilçisi Ş.Balli hesab olunur. Belə ki, dilə sabit şəkildə daxil olan birləşmələrin öyrənilməsinin xüsusi üsullarının zəruriliyini ilk dəfə Ş.Balli əsaslandırmışdır. Struktur dil yaranma mexanizmi obrazlı deyilsə, paslanmış frazeoloji vahidlərin yenidən hasil edilmə əlamətlərinin, habelə frazeoloji qruplar üçün səciyyəvi olan uzual-nitq planı əlamətlərinin fərqləndirilməsi də onun tərəfindən həyata keçirilmişdir. Bununda da frazeologiyanın dilçiliyinin xüsusi bölməsi kimi konturu və vəzifələri göstərilmişdir. Frazeoloji vahidlərdə milli xüsusiyyətlər güclü olur. Frazeologiya hər bir dilinü daşıyıcısı olan xalqın dünyagörüşü, təsəvvürləri, ətraf mühitə münastbəti, etik-fəlsəfi baxışları, məişəti, təfəkkür tərzi və s. ilə bağlıdır. Onların bir qisminin (idiomların) başqa dillərə tərcümə oluna bilməsi də əsasən bunnala əlaqədardır. Bir sıra hallarda frazeoloji vahidlərin başqa dillərə tərcüməsi zamanı resipiyent dilin daşıyıcılarının yad ifadəni qavraması və özününküləşdirilməsi üçün müəyyən zaman keçidi tələb olunur. Bu cür millikik frazeoloji vahidlərin daxili modelləri ilə də səslənir. Ümumiyyətlə, dünya dillərində təşəkkül tapmış feli frazeologizmlərin sema bazası eyni olsa da, onların bu sema əsasında əmələ gətirdiyi fraza mənası daha geniş şəkildə özünü göstərir. Dilin lüğət tərkibi sözlərin leksik-semantik qrupları sistemindən ibarətdir. Leksikanın sistemliyi müxtəlif ekstralinqvistik amillərlə bağlıdır. Hər şneycən əvvəl, bu əşyalar, hadisələr arasında əlaqələr və bunları sistemləşdirən insan təfəkkürü ilə bağlıdır. Dilin leksik-semantik sisteminin tədqiqinin ən ümdə məsələlərindən biri lüğət tərkibinin leksik-semantik qruplara bölünməsidir.

İşlənilən dilin sözləri semantika əsasında siniflərə bölünə bilər. Burada sözlərin qrammatik mənasının eyniliyi və yaxınlığı əsas götürülür. Frazeoloji birləşmələrinin əmələ gəlməsində, məcazlaşma yolu ilə lüğət tərkibinin zənginləşməsində feli xüsusi rol oynayır. Dilimizdəki frazeoloji birləşmələrin əksəriyyəti fellərin iştirakı ilə yaranmışdır. Azərbaycan dilçiliyndə frazeologiya, frazeoloji birləşmələr haqqında məlumat verilən mənbələrə nəzər saldıqda bu fikrin doğruluğuna şübhə qalmır. Fel-fel tipli feli birləşmələr ingilis dilində çox işlənir, məsələn: lay waste, touch and go, get cracking, pick and choose, get hold, take hold, go bang, go begging, go bust, go crook (at), go dot and carry.

İngilis dilində fel-zərf birləşməsi də geniş işlənir: ge easy, go far, ho hard, go steady, go slow, gowest, get somewhere, get there, get up early, have the worst (of), be taken aback, go along, get outside (of).

Ədəbiyyat

1. Antal L.Meaning and its Change, Linguistics, 1964, 153 p.
2. Frederik T.Wood. English Prepositional Idioms. M., 1968, 93 p.
3. Makkai A. Idiom Structure in English, The Hague, Paris, 1972, 365 p.
4. Məmmədov N.Dilçiliyinin əsasları. Bakı, 1961.
5. Vəliyeva N.Ç. Müxtəlifsistemli dillərdə feli birləşmələrin tipoloji təhlili. Bakı, «Avropa» nəşriyyatı, 2008, 862 s.
6. Quliyev H.K. Müxtəlif sistemli dillərdə felin semantik təsnifatı. Doktorluq dissertasiyası. Bakı, 2001.

A.Gadjiyeva

The structural modelə of the verbal idioms in the modern English language

Summary

4.Таирбеков Б.Г., Гусейнзаде А. Краткий русско-азербайджанский и азербайджано-русский словарь паремий. Баку, 1983
5.Шолохов М.А. Сокровищница народной мудрости // В.Даль «Пословицы русского народа», М.,1957, с.111
6.Pineaux J. Proverbes et dictons français. Paris,1967
7.Rey A., Chantreau S.. Dictionnaire d'expressions et locutions. Le Robert , 2003
8.http://www.drbo.org/lvb/

Gulnara Sadikhova

Proverbs biblical origin in the French, Russian and Azerbaijani languages

Summary

Studies of modern linguistics is the subject of a recent article frazeologiyanın - an area dedicated paremeologiyanın sources.

The article discusses the biblical proverb origin in the French, Russian and Azeri. These examples suggest that the origin of biblical proverbs do not have national-cultural identity and refer to international phraseological stock due to their wide spread in many languages.

Examples taken from the Latin version of Bible.

Gülnarə Sadıxova

Fransız, rus və Azərbaycan dillərində Bibliya mənşəli atalar sözləri

Xülasə

Məqalə müasir dilçilikdə aktual bir tədiqat obyekti olan frazeologiyanın bir sahəsi - paremeologiyanın mənbələrinə həsr olunub.

Məqalədə fransız, rus və Azərbaycan dillərində Bibliya mənşəli atalar sözləri təqdim olunur. Verilən misallar göstərir ki, Bibliya mənşəli atalar sözləri milli-mədəni xüsussiyyətlərlə səciyyələnmir. Onlar mühtəlif dillərdə geniş yayılmış və beynəlxalq frazeoloji fondunun mühüm bir hissəsidir .

Misallar Biblianın latın versiyasından götürülüb.

Rəyçi Ülfət İbrahimov
filologiya üzrə fəlsəfə doktoru, dosent

ŞÖHRƏT NƏSİROVA
filologiya üzrə fəlsəfə doktoru
ADPU
şohrat@mail.ru

VƏTƏN TƏBİƏTİNƏ MƏHƏBBƏT TƏRƏNNÜM EDƏN HEKAYƏLƏR

Açar sözlər: müşahidə, hekayə, arı, qarışqa, flora, fauna, qartal, tarix, diyar, meşə, güzgü, xonça.
Ключевые слова: наблюдения, рассказ, оса, муравей, флора, фауна, орёл, история, край, лес, зеркало.
Key words: Observation, story, province, flora, fauna, eagle, history, forest, beer, mirror, khoncha.

Azərbaycan uşaq nəsrinin inkişafında da öz yaradıcılıq axtarışları ilə seçilən Zahid Xəlil uşaq dünyasının, uşaqların xəyal aləminin bədii inikasını yaratmaq üçün bu ecazkar sənətin sehrli və sirli boyalarından məharətlə istifadə etmiş, uşaqların bədii zövqünü formalaşdırmaqdan ötrü bütün imkanlardan ustalıqla yararlanmışdır.

Təbiəti öyrənmək onun gözəlliyindən zövq almaq, ayr-ayrı bitkilərin, heyvanların xüsusiyyətlərini bilmək uşaqlar üçün vacib məsələlərdəndir. Axı uşaqların hərtərəfli inkişafında, onların təbiət hadisələrindən xəbərdar olması da mühüm rol oynayır.

Sənətkarın qarışqalar və arılar barəsində yazdığı hekayələr uşaqlar üçün bir ensklopedik məlumatdır desən yanılmarıq.

"Həsən bəy Zərdabidən sərbəst işləmələr" adlı hekayələr toplusu çox maraqlı qısa nə yığcam, ən başlıcası isə məlumat verici hekayələrin toplusundan ibarətdir.

Bir dəfə Ayselin eyvandan küçəyə baxanda atasına verdiyi suallar qarışqalar və arılar haqqında hekayələrin yaranmasına səbəb oldu. Arı hara gedir? O, balı haradan alır? Mum necə yaranır? "Həsən baba" hekayəsinin sonunda yazıçı bundan sonrakı hekayələrin haqqında qısaca belə məlumat verir: "İnanıram ki, Həsən babanın hekayələri sizə çox maraqlı məlumat verəcək, hər halda siz bu kitabı oxuyub qurtaranda indikindən daha bilikli olacaqsınız[1].

Uşaqlar "Ağıllı və cəsur qarışqalar", "Qarışqalar niyə azmır", "Qarışqaların evi", "Dayə qarışqalar", "Qarışqaların toyu", "Qarışqa dostluğu", "Qarovulçu qarışqalar", "Əkinçi qarışqalar" hekayələrini oxuyan zaman adi, balaca bir qarışqa haqqında uşaqlar onlara məlum olmayan bir neçə məlumat öyrənir.

"Ağıllı və cəsur qarışqalar"da balacalar üzgüçü qarışqaların olduğundan xəbərdar olur. Sən demə suya düşən qarışqaları üzgüçü qarışqalar xilas edirlərmiş. Bunu yaazıçı kiçik oxucusuna belə başa salır. "Qarışqaların batmaq təhlükəsini görən o biri taydakı qarışqalar təşvişə düşdülər. Harasa yox oldular. Çox keçmədi ki, bir neçə güclü qarışqa gəlib çıxdı. Təzə gələn qarışqalar üzgüçülər imiş. Onlar özlərini suya atıb batanların ayağından tutub suyun üzündə sürünməyə başladılar...

"Qarlışqalar niyə azmır" hekayəsində isə yazıçı qarışqalarının azmamasının səbəbini belə izah edir:

"Bunun səbəbi qarışqaların iyi bilməsidir. Bir yana gedəndə qarışqaların öz ləpirinin iyi yolda qalır. Yuvaya qayıdanda həmin iyi tutub gedirlər və heç zaman da azmırlar.

Qarışqaların özlərinə yuvanı necə qurması barədə məlumatı "Qarışqaların evi" hekayəsində öyrənirik. Bu məlumatı da sənətkarın öz dili ilə versək daha yerinə düşər. "Qarışqalar evləri özləri tikir. Özü də bilirsizin nə vaxt? Yağışlı havalarda. Axı onların evi yalnız tağbəndlərdən ibarət olur".

"Elə ki çöldə yağış yağdı və torpaq islandı. Bənnalar başlayırlar işə. Onlar yerin altında əvvəlcədən düzəltdikləri böyük meydanda birinci mərtəbənin evlərini tikməyə başlayırlar. Fəhlələr ağızlarında gətirdikləri palçığı yumrulayıb kərpic şəklinə salır, bənnalar isə həmin kərpicləri səliqə ilə bir-birinin üstünə qoyur, əyriliyini, düzlüyünü bığları ilə yoxlayırlar".

Qarışqalar da yumurta verərək çıxalır. Qarışqa yumurtaları dayə qarışqa götürür və üstə yatır. Yuxarı mərtəbədə kürd yatır. Əvvəlcədən yumurtadan qurd çıxır, dayə ona yemək verir. 23 gündən sonra baramanın içindən qarışqa çıxır. Bu məlumatları biz "Dayə qarışqalar" hekayəsində öyrənirik.

"Qarışqaların toyu" yayın axırında olurmuş bəylə gəlin isə ortadakı qanadlı qarışqalardır.

"Qarışqa dostluğu" barəsində isə biz bu balaca hekayəni oxuyanda öyrənirik. Bəs bunu necə bilmək olur? "Qarışqa ac olanda dən daşıyan yoldaşlarına yaxınlaşıb bığını onun bığına sürtür və öz dilində ac olduğunu söyləyir. Dən aparan qarışqa isə o saat apardığı azuqəni ona verib özü azuqə tapmağa gedir.

"Çapovulçu qarışqalar" da isə biz oxucular çapovulçular barəsində məlumat alır. Çapovulçular, yəni qarışqaların iki, üç nümayəndəsi başqa qarışqa ailəsininyerini-yurdunu öyrənməyə gedir, onların gücünə bələd olur, gəlib yoldaşlarına məlumat verir. Çapovulçular başa düşəndə ki, həmin qarışqaları qarət edə biləcəklər, günlərin birində ora hücuma keçirlər".

"Əkinçi qarışqalar" hekayəsində isə uşaqlar əkinçi qarışqalar barəsində məlumat almaqla yanaşı, bir məlumatı da öyrənir. "Sel nə qədər güclü gəlsə də qarışqaların yuvasına qədər qalxmır".

Bu hekayələri oxuyarkən bir həqiqəti dərk etmiş olursan. Bunlar hekayə yox, əsl ensiklopedik məlumatlardır ki, Zahid Xəlil öz qələminin və istedadının gücü ilə uşaqları məlumatlandırır.

"Mum", "Arıların yeməyi", "Bal", "Beçə", "Arının düşməni" kimi kiçik həcmli hekayələrində isə yazıçı bizə arılar haqqında məlumat verir.

Mum haqqında hər kəs eşidib. Onun insan orqanizminə, nə qədər xeyir verdiyini, tarixən nələrə qadir olduğu böyüklərə aydındır. Lakin kiçik uşaqlara mumun necə əmələ gəlməsi haqqında məlumatlar vermək kimi qeyri adi bir fikir hər yazıçının edə biləcəyi bir iş deyil. Bunun üçün neçə illik təcrübə və dərin təsdiqlənmiş bilik lazımdır: Mən fikrimi təsdiqləmək üçün hekayədən bir parçaya müraciət edirəm: "Yazda ağacların çiçəyinə diqqət elə. Rəngli çiçəklərin dibində balaca deşiklər olur. Həmin deşiklərdən şirin su axırş. Arılar həmin suyu sorub, qarınlarına doldururlar. Elə ki, qarınları doldu qayıdırlar səbətlərinə. Ayaqları ilə səbətin üst qapısından yapışıb başıaşağı sallanırlar. 2-3 saat beləcə qalırlar. Qarınlarındakı şirin su

yavaş-yavaş çevrilib mum olur və arının qarnından, böyründəki deşiklərdən çıxıb tökülür. Arı həmin mumu ayağı ilə qoparır və ağzına alıb çeynəyir. Onu yumrulayır və səbətin ağzına örtülmüş taxtaya yapışdırır".

"Arıların yeməyi" hekayəsində isə məlum olur ki, arılar çiçəklərin içində olan zoğ yumurtalıqda zoğların başında yerləşən torbaların içində olan sarı tozlarla qidalanırlar.

Səbət nədir? –

Səbətə toz daşıyan arıların ayaqları tüklü olur. Axırıncı cüt ayaqların qırağı çökük olur. Bu çökük yerlər arının səbəti hesab olunur.

Bundan başqa sənətkar balın necə yaranması barədə də məlumat verir.

Bal necə yaranır? Becə nədir? Arıların düşməni kimdir? kimi suallara da bu kiçik hekayələrdə tam cavab tapmaq mümkündür.

Nəsr əsərlərində də sənətkar təbiətə nüfuz edir, təbiətin adi predmetlərində belə məna axtarır. Z.Xəlil uşaqlara heç vaxt təbiəti sevin demir, təbiəti onun canlı və cansız varlıqlarını öz gözəlliyilə, öz donunda-artırmadan, əskiltmədən uşaq səmimiyyəti, uşaq inamının sonsuzluğu ilə təqdim edir və göstərir.

Gənc nəslin mənəvi tələblərini dərindən duyan, müasir ədəbi prosesin məfkurə istiqamətini, mənəvi estetik dəyərini real şəkildə dərk edən Zahid Xəlil Vətənə məhəbbət hissləria aşılayan şüuru formalaşdıran əsərlər yazmağı daha üstün tutaraq dərin məzmunlu nəsr nümunələri yaratmışdır. Sənətkar Azərbaycanın tarixini, zəngin təbiətini, flora və faunasını hər qarış torpağını yeni nəslə tanıtdırmaq üçün orijinal əsərlər yaratmışdır.

Yaradıcılığına şeirlə başlayan Z.Xəlil təkcə şeirlərində deyil, nəsr əsərlərində də Azərbaycanın təbiətini əlvan boyalarla canlandırır, onun füsunkar gözəlliyini, ucsuz bucaqsız bərəkətli çöllərini, aydın səmasını real cizgilərlə təsvir edir. Oxucunu respublikanın paytaxtına, Abşeron yarımadasına, Lənkəran, Astaranın subtropik bağlarına, çay plantasiyalarına, meyvələr diyarı Quba-Qusar rayonlarına, qədim tarixə malik olan Muğan, Şirvan və Qarabağın göz oxşayan, Könül açan mənzərəsini görmək üçün səyahətə çıxarır, bu yerləri qarış-qarış gəzdirir. Müəllif təsvir etdiyi bu gözəl bərəkətli torpağı özü qarış-qarış gəzdiyi üçün bu təbiət mənzərələri sanki bir mahir rəssamın politrasından rəng alır. Sıx yaşıllıqlar qoynunda gizlənmiş Göy gölün göz yaşı kimi dupduru sularından içib, bu aynada öz gözəlliklərindən qürrələnən xallı maralları, bu yerlərə rövnəq verən otları, Hacıkəndin Kəpəz dağının möcuzəli təbiətini qələmə alan Zahid Xəlil Azərbaycanın füsunkar diyarını uşaqlara sevdirə bilir. "Mavi dəniz üzərində" adlı kitabını uşaqların yaş xüsusiyyətlərinə uyğunlaşdıraraq, Azərbaycanı onlara onların anladığı dildə təsvir və tərənnüm etmişdir. Oxucu vətənin bir canlı guşəsindən o birinə keçir. Dəli Kürün kükrədiyi, aşıb-daşdığı günləri xatırlayır. Mingəçevir şəhərinin yaranma tarixini vərəqləyir. Sənətkarın Azərbaycan haqqında yazdığı "Qartal qanadlı ölkə", "Mavi küləklər şəhəri", Dalğalar-qayalar", "Ellər gözəli", "Arıların kəşf etdiyi kənd", "Aşıq", "Xaldanlı uşaqlar", "Quş toyu", "Göydən düşən almalar", "Çinar əhvalatı" hekayələrində sənətkar həm doğma vətənə məhəbbət hissləri tərbiyə etmiş, həm də uşaqlarda vətənpərvərlik duyğularını oyada bilmişdir. Hekayələri oxuduqdan sonra istər-istəməz yazıçının təsvir etdiyi doğma yurdumuzu qarış-qarış gəzmək və öz gözlərinlə görmək istəyirsən.

Azərbaycanı "Qartal qanadlı ölkə" adlandıran sənətkar Abşeron yarımadasını onun başı, Lənkəran-Astara şəhərini onun bir qanadı, o biri qanadı isə Quba Qusar rayonlarıdır. Muğan, Şirvan və Qarabağ isə bu qartalın vətənidir.

Zahid Xəlil bir sıra hekayələrində Azərbaycanın tarixini vərəqləyir, amma bunu elə edir ki, balaca oxucularda böyük maraq oyanır və tarixi faktlar əbədilik onların beynində həkk olunur.

Yazıçının müşahidələri əsasında qələmə aldığı "Quş toyu" hekayəsində müəllif Azərbaycanın qoruq və meşələrində bir məna verərək, alleqorik üslubda quşların toyuna bənzətmiş, oxucusuna da belə təsvir etmişdir. Yol xatirələri əsasında qələmə alınmış "Gəncə qapısı hekayəsi" mövcud tarixi materiallara istinad edilərək qələmə almışdır. Sənətkar uşaqların dərk edəcəyi bir şəkildə Gəncə şəhərinin yaranma tarixini qələmə almışdır. "Qarabağ dastanı" hekayəsini tədqiqatçılar "Bu günün ağrı və yaralarına məlhəm olan, yeni nəslin vətənpərvərlik hissini bir daha formalaşdıran" əsər adlandırmışlar. Yazıçı Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağın igid və qəhrəman oğullarının fədakarlığından, düşmənlərə qorxu bilmədən mübarizə aparmalarından söz açır. Şuşa şəhərinin təməlini qoymuş Pənahəli xanın Qarabağ xanlığının bütövlüyü naminə apardığı yorulmaz fəaliyyətindən dönə-dönə danışır.

"Rahib işığı" adlı sənədli hekayədə sənətkar yeni nəslə öz mənəvi-əxlaqi tərbiyəsi və insani davranışı, ülvi sevgisi ilə nümunə olan Rahib Məmmədovun cavan ömrünün sevincli və kədərli anlarını obrazlı şəkildə təsvir edərək bütün gəncliyə eyni ruhda tərbiyə olunmağa arzulayır.

1992-ci ildə çapdan çıxan "Odlar yurdunun paytaxtı" kitabına daxil edilmiş "Zeynalabdin", "Fırlancaq", "Yolda hadisə", "Daş diyarı" hekayələrində yazıçı uşaqları qiyabi səyahətə çıxarır. Hansı məkanda ayaq saxlayırsa o yerin tarixini, etnoqrafiyasının sirlərini onlara genuiş təsvir edir və tarixi faktları yadda qalan şəkildə təqdim edir.

"Aşıq" hekayəsində müəllif uşaqlara el sənətkarı, aşıq sənəti haqqında söz açır. Bu kiçik hekayədə verillən məlumat öz məna tutumu, məzmun dolğunluğu ilə diqqəti cəlb edir.

"Danışan dostlar diyarı" hekayəsi canlı bir həyatdır. Uşağın xarakterini, dedikləri sözlər, qeyri-adi hərəkətlər, hadisələr, bir sözlə, bu balaca varlıqlara bağlılıq, onlarla təmasda olmaq Zahid Xəlilin gözəl nağıl və hekayələr yaranmasına səbəb olmuşdur. Kiçik yaşlı Aysel hekayənin əsas qəhrəmanıdır. Bu kiçik qız böyük bir düşüncə ilə "neft daşları daş kimi suzur" müdrik ifadəsinə heyran qalmamaq olmur. Ayselin özünəməxsus dünyagörüşü var. Qobustana atası ilə səyahət zamanı gördüklərini soruşub öyrənməyə çalışır. Yazıçı Ayselin timsalında bütün uşaqlarda "danışan-düşmən dostlar diyarı olan Qobustan qayaları haqqında geniş təəsürat yaradır və bizdə keçmişə tarixi abidələrə hörmət kimi hisslər oyadır.

Zahid Xəlil hekayələrində özünü göstərən ən mühüm məsələlərdən biri də yeni fikir demək bacarığıdır. Məs, "Dalğalar-tayalar" hekayəsindən bir parçaya diqqət edək: "Azərbaycanın üstündən təyyarə ilə keçsəniz bir az diqqətli olun. Xəzər dənizinin dalğaları o qədər hündürə qalxır ki, pambıq tayalarına oxşayır. Bəzən də pambıq tayaları qayalara bənzəyir. Sənə elə gəlir ki, ucsuz-bucaqsız pambıq plantasiyaları yaşıl dənizdir. Bəlkə də buna görə pambıq yığan maşınları "mavi gəmi" adlandırırlar. Bizdə belə bir misal var: Adam yaxşı bir iş görəndə deyirlər

"Üzün ağ olsun! Pambıq həm torpağın üzünü ağardır, həm də əməkçi insanların. Belə bir bitkini sevməyə dəyər.

"Göy gölün səhəri" hekayəsi bilmədiklərimiz bir çox sirlərdən bizi agah edir:

"Azərbaycanın xəritəsində onun adı "Göy göl"dü. Hacıkənddən bir az yuxarı, Kəpəz dağının ətəklərində cilvələnir. Səyyahlar deyirlər ki, ona "Meşə güzgüsü" adı daha yaxşı yaraşır. Axı gölün dörd bir yanındakı sıx meşə səhərdən axşamacan gölə baxıb saçlarını darayır.

Yəqin çoxu bilmir ki, səhər saat 5-lə 6-nın arasında gölün ətrafında marallar sırayla düzülüb gözlərini suya necə zilləyirlər. Onlar gözlərini mümkün qədər geniş açıb heyrətlə gölün dibindən çıxan Günəşə baxırlar. Günəş sudan çıxanda qızıl damlaların suya necə damdığını marallar hər gün görür və yalnız həmin an arxayınlıqla buynuzları ilə kürəklərini qaşıyırlar. Bu o deməkdir ki, hər şey xoşbəxtliklə qurtardı. Günəş göldən çıxıb üfüqə yapışa bildi.

Sənətkar hekayələrindən birində Şusanı "xonça şəhəri" adlandırır Xalqımızın qədim bir adəti var: qohumların və dostların toyuna xonça aparırlar. Iri bir sininin içinə şirniyyat doldurub, üstünə qırmızı yaylıq örtərlər. Sonra onu başlarından da bir az yuxarı qaldırıb toyda süzürlər və xonçanı bəylə gəlinin otağına apararlar.

Əgər yolunuz Şuşaya düşsə, hələ ora 10-15 kilometr qalmış qədim Əsgəran qalasından baxsanız görərsiniz ki, dağlar səhəri xonça kimi yuxarı qaldırıb. Elə bil dağlar bu səhərin sakinlərinin nə qədər xoşbəxt olduğunu bütün dünyaya göstərmək istəyir:

Hekayələrində Zaqatalanı qızılgül kollarının vətəni, Qubanı "Şafran" və "Rozmarinin", "Cırhacırlı" alma sortlarının vətəni kimi sevdirən sənətkar Bakı haqqında danışanda "Qız qalası" barəsində də tarixi baxımından elə məlumatlar verir ki, kiçik oxucular özləri belə düşünmədən Azərbaycanın taixini vərəqləmiş olurlar.

Sənətkar Bakını "Gözəlliklər şəhəri", "Hər gün gəncləşən şəhər" kimi təsvir və tərənnüm edəcək uşaqlara sevdirir.

Vətən təbiətinə məhəbbəti dərk etmək mühiti anlamaq baxımından Zahid Xəlilin Azərbaycanın təbiəti ilə bağlı yazdığı hekayələri də əvəzsizdir. O, qələminin qüdrəti ilə ilk baxışda bizə adi görünən məsələləri mənalandırmağa, obrazlı fikir söyləməyə oriojinal təsvirlərə səy göstərmiş və buna böyük sənətkarlıqla müvəffəq olmuşdur.

Uşaq dünyasının məhəbbət və ehtiramını qazanan Z.Xəlil təbiətə, gözəlliyə qiymət verməyi bacarmış, Azərbaycanın al-əlvan çöllərini, dağlarını, min bir dərdin dərmanına çevrilmiş flora və faunasını söz məzmununun yüksək-sənət dilinə çevirərək ölməz klassiklərimizin davamçıları cərgəsində öndə yer qazanmışdır.

Ədəbiyyat

1. Hacıyev A. Azərbaycan sovet uşaq ədəbiyyatı. – Bakı, 1984.
2. Qasımzadə Q. Ədəbiyyatımız, mənəviyyatımlz. "Uşaqların qocaman tərbiyəşisi" məqaləsi. – Bakı, 1988, s. 272-278.
3. Yusifoğlu R. Uşaq ədəbiyyatı. – Bakı, 2006.
4. Əsgərli F. Azərbaycan uşaq ədəbiyyatının mərhələli inkişafı. – Bakı, 2009.
5. Əsgərli F. Uşaq ədəbiyyatı: qarşılıqlı yaradıcılıq qaynaqları – Bakı, 2010.

Шохрат Насирова

Рассказы воспевающие любовь к природе Родины

Резюме

С точки зрения понимания окружающего мира, восприятия любви к природе рассказы Захида Халила незаменимы. Эти рассказы основаны на глубокой наблюдательности писателя и подарена подрастающему поколению. В статье идёт речь о детских рассказах воспевающих любовь к Азербайджанской природе. Объектом исследования стали короткие рассказы прививающие любовь и уважение к истории Азербайджана, её флоре и фауне, одним словом, к каждому клочку этой земли.

Shohrat Nasirova

The stories glorifying love to homeland nature

Summary

The stories which writes Zahid Khalil about Azerbaijan nature is irreplaceable from the standpoint to perceive love to homeland nature and comprehend surrounding. These stories have written on the basis of deep observation of writer and made a present to young generation. Zahid Khalil was told the stories glorifying love to homeland nature in the article. The short and laconic stories loved Azerbaijan history, flora and fauna to little children are investigated.

Rəyçi: Zenfira Tahirli
filologiya üzrə fəlsəfə doktoru, dosent

РАМИЗ БАГИРОВ
Бакинский государственный университет
r.bagirov@mail.ru

ГОРОДСКАЯ ТЕМА В РУССКОЙ ПОЭЗИИ ПЕРВОЙ ПОЛОВИНЫ ДВАДЦАТОГО ВЕКА (на материале стихов о Баку)

Açar sözlər: rus ədəbiyyatı, şəhər mövzusu, Bakı haqqında şeirlər, həyat problemləri, qəhrəmanlıq
Ключевые слова: русская литература, городская тема, стихотворения о Баку, проблемы жизни, героика
Key words: Russian literature, city theme, poems about Baku, life problems, heroics

В русской городской литературе – поэзии и прозе первой половины XX столетия, помимо ярких показательных образцов, порою обнаруживались сочинения, весьма сомнительные в культурно-эстетическом отношении. Последние явно засоряли историко-литературное пространство некоторым числом откровенных подделок под настоящее искусство. Особенно наглядно это проявлялось в поэтических «творениях» множащегося в России корпуса представителей так называемой «городской» или, напротив, «деревенской» литературы. В своё время видный русский писатель Виктор Астафьев совершенно определённо выразился относительно закрепившихся в теории литературоведения терминов «городская» и «деревенская» поэзия (или проза). В.Астафьев считал, что такой поэзии нет, а есть просто литература – хорошая и плохая. Аналогичного мнения придерживались и другие творцы новой поэзии. Однако, вопреки категоричному заявлению Виктора Астафьева, многие современные литературоведы всё-таки склоняются к необходимости размежевания понятия собственно «городской» и иного рода тематики в литературе, культуре и искусстве. Ведь заострение внимания на первой предоставляет возможность размышлять над отдельными общечеловеческими, следовательно, актуальными проблемами обширного пласта городской литературы, поэтической в первую очередь. В обобщённо-схематическом виде это бурное развитие городов, «ножницы», возникающие между большими столичными городами и их пригородами как в культурно-просветительском, так и сугубо профессиональном или этническом отношениях. Русских поэтов нередко также интересуют вопросы взаимоотношений горожан и провинциалов, принципы распределения рабочих мест и т.д.

Следует отметить, что к этой теме нередко обращались и азербайджанские ученые -литературоведы А.Дж.Гаджиев (2), С.Ф.Турабов (3), М.З.Садыхов (4) и др. Однако все эти исследования отражали лишь отдельные грани русско-азербайджанских литературных и культурных связей. Материал по городской поэзии в них либо вовсе отсутствует, либо, представлен в крайне незначительном объёме.

Таким образом, можно констатировать, что избранная тема неДОСтаточно разработана и требует дальнейших творческих поисков, т.к. не все параметры интересующей нас русской городской поэзии указанной эпохи достаточно изучены. Одним из таких параметров является её внутреннее тематическое разграничение. Профессор Р. Гейбуллаева на этот счёт полагает: «Обозначенные уровни национальной литературы … взаимосвязаны с её системообразующим началом с религиозно-идеологическими и ментальными основами национальной литературы, включающими социальное поведение, этикет и мораль» [1,22].

Хотя автор имеет в виду азербайджанскую поэзию и прозу, ясно, что эти системообразующие критерии можно отнести и к русской поэзии означенного периода.

В целом приведённые точки зрения по настоящему вопросу, вероятно, сложились по определённым причинам. Во-первых, на рубеже XX – XXI веков вполне очевидной стала размытость границ, неосновательность и искусственность данного понятия. Во-вторых, массовый процесс урбанизации, захвативший в ряде стран большие слои населения, привёл к темАтическому разброду, так как под различными ракурсами целый ряд острых и болезненных вопросов неоднозначно освещался в национальных литературах.

Наша основная цель заключается в проведении литературно-критического и лингвистического анализов бакинских стихотворений русских поэтов с выделением сюжетных основ, идейно-художественного содержания, особенностей композиции и большого арсенала изобразительных средств.

Русская поэзия первой половины XX века, посвящённая этим и многим другим важным вопросам, связанным с жизнедеятельностью бакинцев, носит особый характер. В чём это проявляется? По нашему твёрдому убеждению, она не укладывается в «прокрустово ложе» вышеприведённых тем именно в обобщённо-схематическом виде. Дело в том, что специфика такой литературы во многом была обусловлена отличительными чертами менталитета восточных народов, а также характерными особенностями функционирования всех государственных систем столицы Азербайджана, прежде всего связанных с процессом добычи нефти. «Чёрное золото» – сокровище Баку, и мимо этого богатства не могли пройти русские поэты.

Следует учитывать и тот факт, что Баку (как в середине XX века, так и в наши дни) относится к одним из крупнейших городов не только бывшего Союза, но и мира. Вышеназванные общие и частные проблемы, бесспорно, ярче отражаются на примере больших центральных городов, столиц бывших союзных республик. Это и понятно: ведь именно масштабность большинства острых проблем различного назначения вдохновляла русских художников слова. Одни писали, к примеру, о строительстве новых объектов, другие упорно отстаивали теорию «старых крепей», то есть открыто защищали идею сохранения прежнего облика легендарного Баку, третьих, интересовали вопросы, связанные с развитием нефтепроизводства. Наконец, были и такие, которые сосредоточили главное внимание на нашем городе как месте творческого отдохновения.

Обширные хронологические рамки, охватывающие всю первую половину XX столетия, позволяют реально показать, как русские поэты отражали поступь истории. А именно: типичный романтик Н. В. Котляревский, символисты Р. М. Амиров, В. Я. Брюсов и др. описывали дореволюционную обстановку в Баку и соответственно мировоззрение представителей «старшего» поколения.

В 1920-х годах бурные перемены во всех областях общественной жизни бакинцев мастерски описали корифеи русской поэзии В.В. Маяковский и С.А. Есенин. Их идеи разделяли будущий видный лермонтововед В.А. Мануйлов и один из лидеров символизма В. И. Иванов.

Традиции этих названных поэтов, в чьём творчестве нашла отражение и бакинская тематика, были органично продолжены М.П. Герасимовым, М.П. Юриным, Г. Веселковым и некоторыми другими стихотворцами. Показательно, что в предыдущий период бескомпромиссная и беспринципная позиции русского и европейского капитализма, позволившая безжалостно эксплуатировать нефтяные источники Азербайджана, сдерживала вдохновение русских поэтов. Возможно именно поэтому, произведений того периода о Баку немного. Но в период 1920-1930-х годов положение дел изменилось в лучшую сторону как в количественном, так и в качественном отношениях.

По окончании периода первоначальной советизации Азербайджана, когда силы были брошены на строительство нефтяных объектов, с исторических и художественных позиций к реалистическому отображению атмосферы нелёгких 1930-х годов присоединились С.А. Обрадович, И. Аракчиев, А.А. Жаров, И.Н. Молчанов и др. Особенностью этого периода, прежде всего, явилась поэзия истории и поэзия природы, словно слитые воедино.

Отдельную группу стихотворений составляют произведения о героическом подвиге бакинцев в годы Великой Отечественной войны. С 1941 по 1945-е годы повсеместно на территории Азербайджана был выдвинут девиз: «Всё для фронта, всё для победы».

Некоторые русские поэты достаточно активно включились в борьбу как печатным словом, так и конкретными делами. Можно особо отметить стихотворения о Баку С.С. Иванова, Ю. Н. Благова, Н.Н. Асеева, И. Б. Оратовского и др.

И, наконец, с 1945- по 1950-е годы начинается качественно новый этап освоения Баку русской поэзией. В указанный исторический период , с одной стороны, широким фронтом была развёрнута необъятная, блистающая всеми красками романтического «местного колорита» панорама Баку. Индустриальная мощь и красота этого города вдохновила на новые творения Л. И. Ошанина, П. М. Панченко, А. Е. Адалис, А. Л. Плавника, М.К. Луконина, П.Г. Антокольского и многих других.

С другой стороны, активной оказалась география передвижений русских поэтов по Востоку с пребыванием в Баку в частности. Прежде чем создать свои произведения о Баку, они исколесили весь Чёрный город, пахнущий мазутом и пропитанный людской кровью. Это позволило им впоследствии

не только с сугубо романтических, но и строго реалистических позиций трезво оценить труд бакинцев-нефтяников.

Таким образом, русская поэзия, посвящённая различным проблемам жизни Баку и бакинцев, аккумулировав их в полувековой период, продемонстрировала историческую эстафету поколений в её стремительном поступательном движении. Изучение этих явлений с историко-литературной точки зрения представляет несомненный интерес.

Русские поэты в указанный период сосредоточили свое внимание на динамике процесса капитализации, непосредственно затронувшего интересы бакинцев. Причём, в своих стихотворениях поэты писали не только об ударниках труда, но и невыносимых условиях их существования. Таким образом, стихотворения русских поэтов звучали не только как гимн нефтяникам Баку. Героика повседневных будней и добыча «чёрного золота», соприкоснувшись друг с другом, превратились в художественное отображение трудоёмких, но потенциально возможных способов выживания, явившись составной частью деятельности людей, главным источником их дохода и первостепенной политической стратегией.

В центре внимания многих русских поэтов, описывавших размахи «шагов индустриализации» города, прежде всего, оказались сами субъекты труда – человек с его мечтами, надеждами и стремлениями. Однако, в то же время поэзия демонстрировала и ведущую политику республиканских властей. Ведь индустриальный подъём в Баку, да и республике в целом, по мнению русских поэтов, был в первую очередь тесно связан с нефтяными залежами в столице и пригородах. Направление пристального интереса отдельных русских художников на искоренение такого положения вещей силою поэтического слова, как правило, приводило к непосредственному признанию отрицательных рецидивов технологизации, когда бакинец-нефтяник автоматически становился винтиком промышленных процессов. Такой тематический поворот, по нашим наблюдениям, слабо просматривается в сугубо литературоведческой критике и представляет собой поле для новых и актуальных научных исследований.

Русская поэзия о Баку избранного периода предоставляет нам ценный этнографический материал. Речь идёт, прежде всего, о натуралистически точном и выверенном описании подробностей процесса труда нефтяников.

Русские поэты нередко оказывались в самой гуще острых событий, наблюдение за работой бакинских тружеников становится основой предварительного замысла, закономерно переплавляемого в стихи. Для некоторых художников слова это фактически превращалось в поэзию каждодневного трудового подвига. Для современной филологической науки Азербайджана определённый интерес представляет методика сбора фактов, в результате которой появился цикл бакинских стихов.

С другой стороны, та же методика наблюдения открывала русскому поэту путь к сердцу жителей Баку. В стихотворениях 1920-1950-х годов есть немало ярких и показательных примеров откровенно благожелатель-

ного приёма гостей из России в часы досуга, равно как и описания традиций, нравов и обычаев азербайджанского народа. Таким образом, русскими поэтами на протяжении первой половины XX века был собран и обработан обширный материал как исторического, так и этнографического значения.

Особый интерес представляют стихотворения и «маленькие поэмы» русских поэтов, посвящённые многообразным сторонам жизни Баку на протяжении первой половины XX века.

Понятно, что обозначенные хронологические рамки требуют дополнительных комментариев к той обстановке, в которой жили и творили русские поэты, побывавшие в Баку, т.к. она, в свою очередь, в зависимости от резко изменяющихся условий жизни бакинцев оказывалась разноликой.

Прежде всего, необходимо принимать во внимание то обстоятельство, что Азербайджанская Демократическая Республика (АДР) в годы своего существования (а в этот период было создано немало интересных произведений) фактически была первой в мусульманском мире.

Причём, если подавляющее число других государств тюркского происхождения в своём возникновении базировались, главным образом, на религиозной основе, то Азербайджан периода АДР основывался на современной базе национальной государственности. С этой точки зрения, Баку оказался первой тюркской столицей.

Некоторые стихотворения русских поэтов этой поры объективно отражали не только те сложности, которые были вызваны крайней политической противоречивостью суждений разных партий и группировок, равно как и общей нестабильностью в городе, но также призывали рабочих-нефтяников к братству и сплочённости.

Причём, эта тенденция оказалась в такой мере жизнестойкой, что и в последующие периоды отозвалась лозунгами в защиту единения всех наций. Так, уже с 1920-1930-годов русские поэты, посетившие город на берегу «седого Каспия», уяснили для себя два нижеследующих фактора:

1. В связи с бурным ростом нефтяной промышленности в Баку стали стекаться огромное количество трудовых людей – представителей самых разных национальностей, сформировавших многочисленный и интернациональный отряд бакинских рабочих.
2. Среди всех городов Закавказья именно Баку является самым интернациональным и к тому же удивительно сплочённым по части трудовых подвигов. Это отмечается в целом ряде лучших произведений русских поэтов в первой половине XX века.

Такие взгляды в основном сохранялись и в последующее (то есть военное) десятилетие. В силу специфики функционирования военно-государственной машины в Баку, русские поэты в основном описывали не столько военно-ратные подвиги на фронтах войны, столько работу бакинцев в тылу.

Темы и идеи русской городской поэзии 1945 – 1950-го годов существенно обогатились за счёт гуманистической направленности. Русских городских художников слова в первую очередь заинтересовали не сами экономичес-

кие показатели бакинцев, а, скорее, степень выживаемости жителей столицы, работавших в указанные годы на пределе своих сил и возможностей. Анализ стихотворений, написанных в этот период, ясно показывает, что борьба политических сил в бакинском регионе просто не могла оставить равнодушными тех русских литераторов, которые посещали Баку, слышали или имели письменную информацию о нашем городе.

Так в конце 1940-х годов появилось немало стихотворений философского и психологического содержания, существенно расширилась международная проблематика, в полную силу дала о себе знать позиция поэта-гражданина, гуманиста, отдававшего свой голос в защиту трудового народа Баку.

Литература

1. Гейбуллаева Р. Сравнительная типология прозы. Баку: Элм, 1999, 187 с.
2. «Если ты Баку не видел…» Стихотворения русских поэтов о Баку. Составитель и автор предисловия А. Дж. Гаджиев. Баку: Гянджлик, 2004, 275с.
3. Турабов С.Ф. Азербайджан в творчестве русских и советских писателей (рассказы, повести, стихотворения, очерки, воспоминания, высказывания). Баку: Азгосиздат, 1977, 130с.
4. Садыхов. М.З. Очерки русско-азербайджанско-польских литературных связей. Баку: Азернешр, 1975, 183с.

Ramiz Bağırov

XX əsrin birinci yarisi rus poeziyasında şəhər mövzusu
(Bakı haqqında şeirlər əsasında)
Xülasə

Məqalədə Bakı və bakılılara həsr olunmuş rus şairlərinin əsərlərinin xüsusi mahiyyət daşıdığı vurğulanır. Qeyd olunur ki, bu əsərlərdə Bakının sənayeləşdirilməsi, orada yaşayan insanların arzuları, ümidləri, səyləri təsvir olunur. Bakıya həsr olunmuş şeirlərin bir qismi Böyük Dünya müharibəsi illərində bakılıların əmək qəhrəmanlığına həsr olunmuşdur.

Bunların arasında S.S.İvanov, Y.N.Blaqov, N.N.Aseyeva, İ.B.Ortovski və b.-nın əsərlərini qeyd etmək olar.

Ramiz Bagirov

City theme in russian poetry of first half of twentieth century
(On a material of verses on Baku)

Summary

Poems by Russian poets devoted to Baku and its inhabitants are emphasized in the article. It is marked that the industrialization of Baku, wishes, hopes, efforts of the people lived there are described in those poems. One part of those poems described the labour heroism of the people lived in Baku during the Great World War.

Poems by S.S.İvanov, Y.N.Blaqov, N.N.Aseyeva, İ.B.Ortovski, etc. were among them.

Rəyçi: Professor Aqil Hacıyev

ESMİRA MƏMMƏDOVA
filologiya üzrə fəlsəfə doktoru
ADU
esi-mis@hotmail.com

Y.V.GÖTENİN ŞƏRQ FƏLSƏFƏSİNƏ BAXIŞ

Açar sözlər: Şərq fəlsəfəsi, mistisizm, ideya, Şərq poeziyası, inkişaf
Key words: Eastern philosophy, mysticism, idea, Eastern poetry, evolution
Ключевые слова: восточная философия, суфизм, идея, восточная поэзия, эволюция

Alman ədəbiyyatının görkəmli nümayəndələrindən biri kimi Y.V.Götenin yaradıcılığında Şərqə marağının əhəmiyyətli rolu olmuşdur. Hələ Y.V.Göteyə qədər bir çox şərqşünaslar Şərq xəzinəsindən bir sıra dəyərli, tarixi və coğrafi məlumatlar toplamışdır. İlk dəfə olaraq Şərq mədəniyyətinin estetik dəyərlərini Qərbin qabaqcıl mədəniyyəti ilə uzlaşdıran Herder olmuşdur. Onun fəlsəfi məqalələri "Xalqın səsi" külliyyatı nəinki Qərb-Şərq ideyalarının uzlaşdırılması üçün bünövrə yaratmış və Şərq fəlsəfəsini tanımağın ilk toxumlarını səpmişdir. Bununla belə, Qərb-Şərq ədəbiyyatlarının uzlaşdırılması, həmçinin "Dünya ədəbiyyatı" anlayışının formalaşdırılması Herderin davamçısı kimi Y.V.Göteyə mənsubdur. Onun Şərq mədəniyyətlərinin cəmləndiyi "Qərb-Şərq Divanı" kimi dünya əhəmiyyətli ədəbiyyat nümunəsi, əlbəttə ki, Şərqə böyük marağın nəticəsidir. Göte qırx il Şərqin "üstü açıq sirli-sehirli xəzinəsi"ni xəyalında gəzdirmiş, Şərqin, demək olar ki, bütün dünyanın tarixi-mədəni abidələri olan İncili, Tövratı və Quranı öyrənmiş, bir çox tarixi hadisələr, adət-ənənələrlə tanış olmuşdur. Bu baxımdan "Faust", "Qərb-Şərq Divanı", "Poeziya həqiqəti" kimi əsərlər uzun illərin məhsuludur.

Şərq haqqında Götenin uzun illər qəlbində yaşatdığı düşüncələr Hammer fon Purqstalın tərcüməsində fars poeziyası ilə tanışlıqdan sonra yenidən, həm də yeni bir təkanla və inamla baş qaldırdı. Hafiz "Divan"ının almanca tərcüməsi Göteyə Şərq poeziyasının, ümumiyyətlə, Şərqin sehirli dünyasının, incə insani duyğularının, dərin mənalı tarixi dəyərlərinin gizli qaldığı xəzinənin açarını verdi. Bu tərcümələr Götedə daha dərinlərə getmək, gündoğan ölkələrin insani duyğuları xəzinəsindəki inciləri toplayıb külliyyat halında Qərb oxucularına çatdırmağa sövq etdi. Bu məqsədlə ilk olaraq o, ərəb-fars dillərini öyrənməyə başladı. Məhz Şərqi öyrənməyi, onun ümumbəşəri dəyərləri ilə həmvətənlərini bəhrələndirməyi qarşısında məqsəd qoymuşdur. J.G.L.Kozeqartenə görə oxuculara o kəs xoşdur ki, onları öz ardınca Qərbdən Şərqə aparsın, təkcə xeyirxah məsləhətləriilə deyil, hər şeydən əvvəl, Şərq ölkələrinə nəzər salsın və bütün bunlara hansı gözlə baxmaq lazım olduğunu izah etsin... Alman oxucularına bu şərəfi "Qərb-Şərq Divanı"nın müəllifi bəxş edir. Şairin ruhu bütün həqiqətlər və gözəlliklər üçün açıqdır və o Şərq poeziyasının ruhunu və təbiətini, rənglərini qavramağa və ifadə etməyə qadirdir. "Qərb-Şərq Divanı"nda "Hikmətnamə" əsərində Qərblə Şərqin əlaqəsi belə əlaqələndirilir:

"Was schmueckst du die eine Hand denn nun
Weit mehr, als ihr gebuehrte?"
Was sollte denn die linke tun,
Wenn sie die rechte nicht zierte? " (7,166)

Hamıya bəllidir, hamıya aydın,
Düzdün sol əlinə daş-qaşları sən.
Əgər sağ əlinlə qazanmasaydın,
Belə çox olmazdı sol ələ düşən (7, 167).

Şeirdəki bu motiv Sədinin "Gülüstan" əsərindən alınmışdır. Əsərdə Caminin ilk olaraq barmağını üzüklə bəzəyən olduğunu göstərir. Camiyə məhz sol əlinin üzüklə bəzəndiyini sual edildikdə o: "Sağ əl onsuz da gözəldir, çünki o sağdır" deyə cavablandırmışdır. Göte də "Divan"da məhz özünün Şərqə hədsiz marağına irad tutanlara cavab olaraq Caminin əsərindəki bi fikirdən istifadə etmişdir. O, bununla sübut etmişdir ki, dünya mədəniyyətlərindən təcrid olunub, ədəbiyyatı yalnız müəyyən çərçivələrdə qapanıb qalması, inkişaf zəncirinin qırılması, xüsusilə də, ümumbəşərlə hissənin bütövlükdə həyati əlaqəsinin pozulmasına səbəb olar. Göte Şərqdə insan şərəfini, sözün fəlsəfi mənasında, insani duyğuları ümimiləşdirmək və ilahiləşdirmək dərəcəsinədək yüksəldən və onları dünyanın və həyatın əsası olduğunu təsdiqləyən humanist ideyaların köklərini axtarırdı. Bu axtarışların uğurlu nəticələri Qərb və Şərqin mədəni-tarixi incilərinin zərgər dəqiqliyi ilə uzlaşması "Divan"ın demək olar ki, bütün şeirlərində hiss olunur. Sədinin digər bir kəlamından "Sada roz" bəhrələnən Göte "Moganni Nameh" əsərindəki "Talismane" şeirində həyatı dərketməni önə qoymuşdur.

Im Atemholen sind zweiehlei Gnaden:
Die Luft einziehen, sich ihrer entladen;
Jenes bedraengt, diese erfrischt;
So wunderbar ist das Leben gemischt.
Du danke Gott, wenn er dich presst,
Und dank ihm, wenn er dich wieder entlaesst. (7,18)

Nəfəsdə gizlənir iki xoşbəxtlik,
Biri genişlikdir, digəri darlıq.
Biri nəfəs almaq, digəri vermək;
Həyat – bir möcüzə, bundadır demək.
Şükr et yaradana cəfa verəndə,
Cəfasın üstündən götürəndə də... (Tərcümə E.Məmmədova)

Şərq poeziyasında Göte fəlsəfi lirikanın nümunələrini tapmışdır. Göte yaradıcılığında əsas prinsip həyatın bünövrəsini təşkil edən ziddiyyətlərin universal qanununun inkişafı ideyasıdır. Göte inkişafın spiral dairə üzrə daha yüksək dərəcədə təkmilləşməyə doğru yüksəlişini düşünürdü və bunu "təşəkkül spiralı" (inkişaf prosesində törəmə spiralı) adlandırırdı. Onun fikrincə dünyadahər şey qarşılıqlı əlaqə olub dəyişkəndir.

Məlumdur ki, mövcud olan bütün ziddiyyətlər və əksliklər yeniləşməyə aparır və inkişaf üçün yeni stimullar yaradır. Bu ideyanı ifadə edən mövzu Götenin "Qərb-Şərq divanı"nın "Müğənninamə" ("Moganni Nameh") əsərinin "Dünyəvi həyat" şeirində verilmişdir. Bu şeir 29 iyul 1814-cü ildə Götenin Frankfurtdan Visbadenə səyahətində yazılmışdır. Səmanı qara duman bürümüşdü, tufan yaxınlaşırdı. Gecə cansıxıcı idi, çovğundan xəbər verən külək, duman kimi tozu göyə qaldıraraq qovurdu. Hafizin lirikasında toz əhəmiyyətli rol oynayıb, sevgilinin qapısı önündəki toz, sultanın xalısından yaxşıdır, sevgilinin qapısından küləklə gələn tozun qoxusu müşkdən, gül yağından əzizdir.

Treibt der wind von ihrer Pforte
Wolken Staubs behind vorüber,
Mehr als Moschus sind die Duefte
Und als Rosenöl dir lieber. (7, 40)

Müşkdən, gül yağından bihuş ürəklər,
Saf duyğularına bağlayaronu.
Ancaq qapısında əsən küləklər,
Süpürüb dəf eylər toz buludunu. (7,41)

Beləcə durmadan yenilənən təbiətin tükənməz gücündən şeir yarandı. Qəzəbli külək, toz və yağış vasitəsi ilə bir-birinə zidd elementlərin sintezindən yaşıl həyat əmələ gəlir. Göte də şeirində bu fikri belə ifadə etmişdir:

Wenn jetzt alle Donner rollen
Und der ganze Himmel leuchtet,
Wird der wilde Staub des Windes
Nach dem Boden hingefuechtet.

Und sogleich entspringt ein Leben,
Schwillt ein heilig Heimlich Wirken,
Und es grunelt und es grünet
In den irdischen Bezirken. (7, 40)

Göylər guruldayır şimşək çaxanda,
Hər tərəf bir anlıq nura bələnir.
Fırtına qarışıq yağış yağanda,
Bu dustaq torpağa işıq ələnir.

Yeni nəfəs gəlir göydən buludla,
Torpaqdan yaşıl qan, yaşıl can axır.
Açılan çiçəklə, cücərən otla,
Torpağın nəyi var canından çıxır. (7, 41)

Götenin fəlsəfəsi – hərəkətdə olan fəlsəfədir. Göteyə görə hərəkət nədir? Hərəkətin əsasında zərurət, hər şeyin müəyyən məqsədə yönəldiyini dərk etmək dayanır. Hər şey təşəkkülün zəruri qanunları ilə hərəkət edir. Subyektin obyektdən

ayrılığı əsla mümkün deyil, çünki onlar vahid bir vəhdət təşkil edir. Bu düşüncə Götedə İslamla daha dərindən maraqlanmaq hissi oyatdı. Çünki İslamın müqəddəs kitabı Quranda Göte axtardığı suallara cavab tapa bilirdi. Zərurət təbii qanundur, o dəyişilməzdir, təbii qanunlar insanın iradəsindən asılı olmayaraq mövcuddur. Quranda ifadə olunan bu fikirləri düzgün dəyərləndirən Göte zərurəti müəyyən etməyi, dərk etməyi və onu doğuran səbəbləri aşkarlamağın zəruriliyini dönə-dönə göstərirdi. Düşüncə və hərəkətin vəhdəti dedikdə isə - Götenin fikrincə düşüncə nə qədər dərin olarsa, hərəkətin - əməlin effekti daha yüksək olar. Hərəkət bilgiyə bağlı, demək ki, hərəkət həyatın ən yüksək formasıdır. İnkişaf nəticəsində yaranan bütün hadisələr əksliklərin (ziddiyyətlərin) universal qanununun nəticəsidir. Göte inkişafı daim hərəkətdə olan və daha yüksək təkmilləşməyə doğru gedən spiral dairəsinə bənzədir. Hər bir forma öz gücü çərçivəsində özünün əksinə malikdir ki, bu da inkişafın əvvəlkinə uyğun daha yeni mərhələyə keçməsini təmin edir. Beləliklə də, materiyanın formaları birinin məhrum olması və yenisinin, daha təkmilinin yaranması kimi sonsuz əvəzolunma prosesindən keçir. Təbiətdə qapalı dairə üzrə daim inkişaf yoxdur. Göte bu fikirləri dialektik alleqorik formada "Divan"da Quran surələri, həm də Sədinin şeirləri nümunələrində ifadə etmişdir.

Ziddiyyətli obrazlar Götenin bütün yaradıcılığı boyu onun poeziyasının, dramaturgiyasının və epik əsərlərinin obrazları nümunəsində özünü göstərir: Faust və Mefistofel və s. Gotenin inkişaf ideyası - hərəkətin mənbəyi olan ziddiyyətlərin dərk edilməsi fonunda, onun həyatı boyu bir xətt kimi keçir. Lakin bu xətt "Divan"da yuxarıda adları çəkilən obrazlar arasındakı subyektiv əksliklər çərçivəsindən çox-çox kənara çıxır, demək olar ki, həyatın bütün sahələrini əhatə edir, inkişafı və yeniləşməni təmin edən nə varsa hamısı fəlsəfi poeziyanın dili ilə açıq və "məxfi" şəkildə ifadə olunur. Həyat hərəkətdədir – 13 Fevral 1829-cu ildə Gote Ekkermanla olan söhbətində belə bir fikir söyləmişdir ki, ölü yox, canlı olaraq durmadan təşəkkül tapır və dəyişir. "Die Gottheit aber ist wirksam im Lebendigen, aber nicht im Toten; Deshalb hat auch die Vernunft in ihrer Tendenz zum Goettlichen es nur mit dem Werdenden, Lebendigen zu tun" (3, 453). Bununla da Göte bildirmişdir ki, məhz inkişaf nəticəsində təkamülün enerjisi fasiləsiz yeniləşməni və yüksəlişi təmin edir. Həyatın mahiyyətini və insanın vəzifələrini Göte bu tükənməz imkanda görürdü. Sonralar Gotenin təbiət elmlərinə olan marağı və təbiət barəsindəki düşüncələri onda sufizmə ilan marağına təkan verdi. Sufizmə görə İlahi ideya təbiətlə, maddi varlığın ritmi məhz onun durmadan təkmilləşməsi ilə birləşdirilir. Göteni sufizmdə özünə cəlb edən də məhz onun təbiətlə bağlı düşüncələri ilə üst-üstə düşən bu fikir olmuşdur. Göte sufizmdə sonsuzluq ilə birləşməyə aparan inkişaf ideyasını, "ali məqsəd" uğrunda fədakarcasına düşünmək və ona qovuşmaq cəhdini, Allahla qovuşmaq dərəcəsinədək yüksəldən özünü fəda etmək sevgisini tapmışdır. Gote bu məqsədə doğru yüksəlişi dörd mərhələdə göstərmişdir. İlk mərhələ olaraq dahilərin fikirlərindən bəhrələnərək dünyanı dərketməni özündə təbliğ etməyi; böyük səylə təkmilləşməyə doğru məqsədə çatmaq tolunda özünü buna təslim etməyi; vəcdə gəlmək – yəni hissiyyatın ən yüksək dərəcəsinədək təkmilləşməsi, burada orqanizmdə şərabla, sevgi duyğusu ilə bağlı olan hisslərin ifadə olunması nəzərdə tutulur ki, məhz Hafiz lirikasında şərab və sevginin tərifi belə gözəl təqdim olunur, nəhayət, fərdin ümumi ilə qarışıb birləşməsini; uca həqiqətə çatmağı – Allaha qovuşmağı nəzərdə tutmuşdur. Əlbəttə ki, Göte həyatla

bağlı, özünün estetik fəlsəfi, ümumbəşəri ideyalarını öz əsərlərində də təqdim etmişdir.

Böyük alman mütəfəkkiri Götenin yaradıcılığı eyni zamanda onun həyat salnaməsindən, duyğularından ibarət olmuşdur. Onun hərbirəsəri yaşadığı dövrünün, fikirlərinin ifadəsidir. Y.V.Göteyə görə Şərq fəlsəfəsi anlayışı çox dərin və tükənməzdir və onun bu vaxtadək araşdırdığı ölkələrlə bitmir. Bu anlayış daha geniş ərazini əhatə edir və Şərqi tanımaq üçün daim axtarışda olmağı tələb edir.

Ədəbiyyat

1. Mommsen Katarina. Goethe und arabische Welt. Frankfurt. M. Insel Verl, 2001, S.669.
2. Stemmrich Koehler, Barbara. Zur Funktion der orientalischen Poesie bei Goethe, Herder, Hegel; Frankfurt. M Lang, 1992, S. 305.
3. Ekkermann I.P. Goethes Gespräche mit Ekkermann. Aufbau Verlg. Berlin, 1955, S. 733
4. G.I.V. Примечание и заметки для лучшего понимания западно-восточного дивана: проблемы востоковедения. М., 1960.
5. Брагински И.С. Синтез в диване и классическая поэзия на фарси. М., 1963.
6. Кессел Л.М. Западно-восточный диван. М., 1973.
7. Qubatov Ə. Yohan Volfqanq fon Qöte. Qərb-Şərq divanı. Bakı: Şirvannəşr, 2008, s. 380.

E.Mammadova

The view of j.w.goethe to eastern philosophy

Summary

As one of the outstanding people of German literature, J.W.Goethe's interest to East in his creativity had significant role. It was Herder who first coordinated the aesthetic value of Eastern culture with Western progressive culture. As his successor the philosophical views of Goethe is profound. The Eastern philosophy of Goethe is broad and it requires forever exploration for getting acquainted with East.

E. Mamedova

Взгляды и.в.гете на восточную философию

Резюме

В творчестве одного из выдающего представителя немецкой литературы Гёте, важную роль играл интерес к Востоку. В первые эстетические ценности Востока были сопоставлены с передовой Западной культурой в работах Гердера. Гётё, как его последователь, имел такие же глубокие философские взгляды. Восточная философия Гёте очень обширна и требует постоянных исследований для познания Востока.

Rəyçi: Professor Svetlana Cəbrayılova

ŞƏLALƏ QULİYEVA
BDU-nun "Televiziya və radio jurnalistikası" kafedrasının dissertantı
selale_meh@mail.ru

AUDİOPUBLİSİSTİKANIN TARİXİNƏ BAXIŞ

Açar sözlər: Audiopublisistika, Radio jurnalistikası, "Son Xəbərlər", İnformasiya xidməti, İctimai-siyasi proqramlar.
Ключевые слова: Аудио публицистика, радио журналистика, Последние Известия, информационные службы, Политико-экономические программы.
Key words: Audioissue, Radio Journalism, "Latest News", Information service, social and political programs.

Publisistikanın köməyi ilə cəmiyyətin bütün sahələrində movcud olan problemləri önə çəkmək, əhəmiyyətli məsələləri məntiqi faktlarla, konkret dəlillərlə işıqlandırılmaq və ictimai rəyin formalaşmasına təsir etmək mümkündür.

Professor Famil Mehdinin sözləri ilə desək "publisistika ictimai-siyasi, əxlaqi, iqtisadi və s. aktual problemləri elmi-məntiqi dəlil və sübutlar, obrazlı-ehtiraslı mühakimələr, lirik düşüncələr, konkret xarakterlər, tiplər vasitəsi ilə əks etdirən sənət növüdür". (6.s.13)

Publisistikanın tarixi qəzetlərdən başlayıb. Daha sonra isə radio- televiziyanın və internetin yaranışı ilə kommunikasiya vasitələrində sahələr üzrə publisistikanın inkişafına meydan açılıb.

Professor Qulu Məhərrəmli yazır: "Mass Media termini tətbiq edilənədək publisistika anlayışı Almaniyada mətbuata sinonim olan söz kimi işlədilib. İctimai tərbiyə və məlumatlandırma vasitəsi, sosial informasiyanın təşkili və ötürülmə üsulu kimi cəmiyyətə xidmət etməklə sosial qurumların fəaliyyətinə təsir göstərərək mühim rol oynayır…"(7.s.25)

Audio və publisistika sözlərinin vəhdəti "audiopublisistika", yəni "radio-publisistika"nın meydana gəlməsinə səbəb olub.

Audiopublisistika radio əməkdaşının yaradıcılıq məhsulu olaraq söz və musiqinin vəhdətindən meydana gələn veriliş, dinləyiciyə təqdim olunan efir materialıdır. Jurnalistikada bu termin aktual əhəmiyyət kəsb edir, "çox zaman jurnalistikanın məzmununu ifadə edən anlayış kimi" (8.s.25) bütün janrlarda işlədilir.

Audiopublisistikanın təməli ABŞ-da qoyulub. Ölkədə kütləvi radioyayımın tətbiqindən sonra ictimai məzmun kəsb edən verilişlərin hazırlanması ideyası ortaya çıxıb. Eksperiment kimi tətbiq edilən əyləncəli şouları qısa bir vaxtdan sonra informasiya yönlü proqramlar əvəzləyib.

Amplitud Modulyasiyanın-orta dalğa yayımlarının gerçəkləşdiyi tezliyin və bunun əsasında maneələri dəf etmək gücünə malik olan, xeyli sayda səs çalarlarını ötürə biləcək daha keyfiyyətli yayımın (Amplitud-Modulyasiya) vasitəsilə 8 MK stansiyası tərəfindən 1920-ci il avqustun 31-də Miçiqan ştatının Detroit şəhərində ilk xəbər proqramı səslənib.

1930-cu illərin əvvəllərində Amerika mətbuatı ilə radiosu arasında "elan olunmamış müharibə" gedir. Qəzet əməkdaşlarına məxsus xəbərlərin efirdə səs-

lənməsinə qarşı çıxan jurnalistlərin təkidi ilə radioda onlardan istifadəyə qadağa qoyulur. Bu halda yayımın rəhbərləri əlac axtarmaq məcburiyyətində qalır. "1930-cu il Edu Kloberin rəhbərliyi ilə Xəbərlər Xidməti, "The New York Times" yaradılır və yeni qurumun əməkdaşları tərəfindən efirə xəbərlər toplanır. Yəni, ilk radioxəbərin işlənməsi prosesinə başlanılır. Beləliklə yeni şərait radiojurnalistikanın yaradıcılıq formalarını üzə çıxarır."...(11.s.19)

YUNESKO-nun təşəbbüsü ilə bir sıra ölkələrdə radioproqramların kollektiv şəkildə dinlənilməsi üçün radioforumlar yaradılmışdı. Kənd radioforumları adətən şəxsi gigiyena, təsərrüfat, vətəndaşların hüquqları ilə bağlı məsələlərə həsr olunurdu...

Böyük Britaniyada başlayan sadə formatlı verilişlər 1923-cü ilin ortalarından maraqlı proqramlarla əvəz edildi. Bu ölkənin radio tarixində ən böyük xidməti tərkibində xəbər, təhlil, simfonik musiqi, radiotamaşalar, debatların təşkil olunduğu, yüksək jurnalistika və efir mədəniyyətinin nümunəsi hesab edilən bir məktəbin (radiojurnalistika sənətinin) özülü hesab edilən BBC kimi (Britaniya Yayım Korporasiyası) universal xarakterli bir verilişin müəllifi olmasıdır. (10.s.22)

Bolqarıstan, Almaniya Demokratik Respublikası, Rumıniya, İtaliya, Fransa, Yaponiyada və s. ölkələrin radiolarında əsasən üç istiqamətdə verilişlər hazırlanıb. İnformasiya, əyləncə və maarifçilik məqsədi ilə tərtib edilmiş proqramlar efirin əsas məğzini təşkil edib. Başqa ölkələrdə isə musiqi proqramları gün boyu efirin 90 faizini tutub.

1920-ci illərin sonlarında alman radiosunda informasiya və publisistikaya aid proqramların hazırlanması, maarifçilik verilişlərinin yüksək sənətkarlıqla işlənməsi müşahidə olunurdu. Xüsusən almanlar qonşu ölkələrdə xof yaratmaq təbliğatı aparır, hamıdan güclü olduqlarını, hər sahədə üstünlüklərini nümayiş etdirmək missiyasını qarşıya məqsəd qoyaraq radionu təbliğat alətinə çevirmişdilər.

Fransa radiosunda publisistikanın özəlliyi ondan ibarət idi ki, digər ölkələrdən fərqli olaraq bir neçə istiqamətdə hazırlanan verilişlərdə milli mədəniyyətə xüsusi önəm verilirdi. Öndə informasiya, maarifçilik proqramları, ikinci sırada isə radioteatr və musiqi verilişləri dayanırdı. Orijinal əsərlərin səhnələşdirilməsi və zövqlü musiqi proqramlarının tərtibində fransızların xidməti yetərincədir. "Klassiklər efirdə" adlı uzunömürlü veriliş ən populyar radio proqramı kimi yadda qalıb. Söz və mətbuat azadlığına görə Fransa radiosu özünün ilk sənətkarlıq xüsusiyyətləri ilə seçilib.

Türkiyədə 1927-ci ildə 5 saatlıq efirdə dinləyicilərə hər gün 10 dəqiqə Anadolu Agentliyinin xəbər bülleteni təqdim olunurdu. (9.s.4).

Əvvəlcə İstanbul, sonra Ankara radiosu quruldu. Hər iki radioda efirin 80 faizini musiqili, qalan saatlarda isə xəbərlər və ictimai-siyasi proqramlar təşkil edirdi.

Türkiyə radiosunda publisistika 30-40-cı illərdə vüsət alıb. Bu vaxta kimi əsasən radioquruculuq prosesinə önəm verilib, fransalı mütəxəssislərin köməyi ilə ölkədə ötürücü stansiyalar qurulub və proses başa çatdıqdan sonra söz, fikir meydanına dönüb. "Dövlətin ağzı, millətin qulağı" (8.s.39) adlanan radionun ökənin hər bir yerində eşidilməsi üçün hökumət zəruri addımlar atıb.

Radiopublisistikanın Rusiyada da özünəməxsus ənənəvi formaları inkişaf edib. Siyasi şərait, kütləyə yeni fikir təlqin etmək, sosializm ideyalarının təbliği, yeni düşüncə tərzinin formalaşması üçün bütövlükdə ölkə mətbuatı xüsusi stra-

tegiya üzrə çalışırdı. Radionun özəlliyi isə Leninin söylədiyi kimi "kağızsız və məsafəsiz qəzet" kütlə ilə birbaşa əlaqə qurmaq, ünsiyyət yaratmaq üçün unikal vasitə idi. (4.s.74-75)

"Ümumittifaq radio"su (1991-ci ilə qədər belə adlanıb) SSRİ-nin tərkibində olan bütün respublikaların vahid mərkəzi radiosu hesab edilir və yerlərdə radio işinin təşkilini, proqram siyasətini həyata keçirirdi. Ümumittifaq radiosunun siyasi fəaliyyəti yerli radiolar üçün əsas prioritet xətt sayılırdı.

1932-cü il avqust ayında Ümumittifaq radiosunda Mərkəzi İnformasiya redaksiyası yaradıldı və radioqəzetlərin əvəzinə "Son xəbərlər" bülleteni hazırlandı....

1933-cü ildə "Gənclər" redaksiyası yaradılır və peşəkar gənc kadrların hazırlığı prosesinə başlanılır. Sovetlərə qarşı yönələn xarici təhlükə, daxildəki əksinqilabi düşüncələrin məhvi, vahid dövlətin iqtisadi inkişafının sürətləndirilməsi üçün yerlərdə sosializm yarışlarının təşkili, əmək adamlarının qəhrəmanlıqları, bir sözlə "sovet adamı"nın dolğun portretini yaratmaq radiopublisistikanın ən böyük tələbi idi.

Almanların ölkəyə hücumu isə sovet radiosunun inkişafına da təsirsiz ötüşmədi. 1941-ci il, müharibə başlayandan iki gün sonra Sovet Məlumat Bürosu yaradıldı və ölkənin bütün yaradıcı insanları alman faşizmini məhv etmək üçün öz qələmi ilə səfərbər olundu.

Müharibə illərində hərbi publisistika güclü inkişaf etdi. Düşməni susdurmaq üçün yeni radiolayihələr yazıldı. "Sovet xalqının mərdliyi, onun öz azadlığını və istiqlaliyyətini qorumaq əzmi, faşistlərin getdikcə daha çox itki vermələri və Sovet xalqının qələbəyə sonsuz inamı, SSRİ-nin qələbəsinin beynəlxalq əhəmiyyəti" (1.s.39) ikinci dünya müharibəsi illərində audiopublisistikanın düşündürücü mövzuları idi.

Hələ müharibədən əvvəl, radio vasitəsilə beynəlxalq aləmdə Rusiya özünü tanıtmağa başlamışdır. "1933-cü ildə Moskvadan dünya xalqlarının 8 dilində (alman, fransız, ingilis, macar, ispan, italyan, isveç, çex) verilişlər yayılırdı".(2.s.10). Müharibə ərəfəsində 13 dildə veriliş hazırlanırdısa, 1941-ci ildə 21 xalqın dilində danışırdı.

Qələbədən sonra, bərpa dövründə, quruculuq illərində də radio ölkənin bir nömrəli təbliğatçısı rolunu oynadı. Radio işinin yaxşılaşdırılması, kadr hazırlığı ilə bağlı müxtəlif qərarlar verilir, respublikalarda, bütün sovet ərazilərində radiodan istifadə üçün kabel xəttləri çəkilirdi...

Azərbaycan radiopublisistikasının tarixinə gəlincə, ölkənin ictimai-siyasi həyatı qələm əhlinə rəngarəng mövzular üzərində işləməyi diktə edirdi. Radionun yarandığı tarixi şərait və sonrakı illərdə baş verən siyasi situasiyalar audiopublisistikanın inkişafında öz təzahürünü tapıb.

Radiopublisistikanın təşəkkülündə bu amillərin təsiri danılmazdır.

Demokratik Cümhiriyyətin süqutundan sonra ziyalılarda ruh düşkünlüyü yarandığından, radionun açılışı tərəqqipərvər qüvvələr üçün yenilk sayılırdı...

"Böyük Qardaşın canfəşanlığından" çaş-baş qalmış millət, yeni qurulan hökumətin siyasi fəaliyyətindən güc almağa çalışırdı...

Azərbaycan ziyalılarının kütləvi məhvi ilə nəticələnən repressiya illərində (1937-1938) radionun ilk söz sahiblərinə də divan tutuldu...

İkinci dünya müharibəsinin başlanması, Almanların Sovetlərə hücumu ölkəmizə də təhlükə yaradırdı. Sovet ordusuna ən böyük canlı qüvvə və maddi təminat Azərbaycandan yola salındı və qələbədə Bakı neftinin rolu publisitika üçün tükənməz mövzu mənbəyi idi...

Müharibədən sonra bərpa və quruculuq illəri (1945-1970) başlandı, iqtisadiyyatın dirçəldilməsi prosesi vəsf olundu.

Yenidənqurma siyasəti, M.Qorbaçovun siyasi sərişləsizliyi millətləri üzə-üzə qoydu və ölkə idarəçiliyindəki səhvi bütün SSRİ ərazisini silkələdiyi kimi, respublikamızın həyatında da siyasi vəziyyəti gərginləşdirdi...

1990-cı ildə Mərkəzdən Bakıya ordu yerildildi, sakinlər gülləbaran edildi. Faciənin canlı şahidi olan Azərbaycan Radiosu bu qanlı olayı dünya ictimaiyyətinə bəyan etdi...

Ermənilərin Azərbaycan ərazilərinə qənim kəsilməsi, Qarabağa göz dikməsi və rusların havadarlığı ilə öz niyətlərini həyata keçirməsi nəticəsində torpaqlarımız işğala məruz qaldı. Qarabağ uğrunda gedən döyüşlərdə minlərlə şəhid verildi, bir miyondan çox insan öz torpağından didərgin düşdü, qaçqına, köçkünə döndü...

Nəhayət SSRİ-nin tərkibindən ayrılan Azərbaycan yenidən öz müstəqilliyini elan etdi....

Yeni qurulan Müstəqil Azərbaycan dövləti keçmiş MDB ölkələri arasında və regionda iqtisadi yüksəlişinə görə ən güclü ölkələrdən biridir...

Radionun ilk qadın diktoru Raya İmanzadə yazır: "Mikrofon qarşısında ilk oxuduğum veriliş yaxşı yadımdadır. Bu, kolxoz təsərrüfatının fərdi təsərrüfatdan iqtisadi üstünlükləri haqqında danışıb, kolxoza daxil olan ailə üzvlərinin adları sadalanan veriliş idi.".(3.s.19).

Ədəbi verilişlər redaksiyasına isə Məmməd Səid Ordubadi başçılıq edirdi. Radio yaradıcılığını tədqiq edən alimlər onun rəhbərliyi zamanı radioda tək ədəbi nümunələrə yox, eyni zamnda ictimai-siyasi həyatda baş verən hər bir hadisəyə baxışını xüsusi olaraq qiymətləndirirlər. Şeir, hekayə, felyetonlarında real həyatdan götürülən mövzular əksini tapır və radioda işıqlandırılırdı. Ordubadinin səyi nəticəsində radioda bədii publisistikanın təməli qoyuldu. Cəfər Cabbarlı, Hüseyn Cavid, Mikayıl Müşfiq, Seyid Hüseyn, Səməd Vurğun, Süleyman Rüstəm, Məmməd Rahim, Mehdi Hüseyn, Sabit Rəhman, Mircəlal Paşayev kimi nasir və şairlərin radiodan səsləri eşidildi.

Radionun ictimai-siyasi verilişləri audiopublisistikanın ilkin bünövrəsi hesab edilir. 1932-ci ilədək radioda qəzet materialları oxunurdu. Oktyabr ayında İnformasiya redaksiyası yaradıldı və "Son Xəbərlər" proqramı efirə çıxdı.

Azərbaycan radiosu xarici auditoriyaya da məzmunlu verilişlər təqdim edirdi. 1980-ci illərdə hər gün farsca 2 saat 15 dəqiqə, türkcə 2 saat, ərəbcə 1 saat, xaricdəki soydaşlarımız üçün ana dilində 1 saat veriliş verilirdi.

1986-cı ildə farsca verilişlərin həcmi 1 saata endirildi, Azərbaycan dilində yayılan verilişlərin həcmi isə 2 saat 45 dəqiqəyədək artırıldı.

Güneyə ünvanlanan düşünülmüş proqramlarda sözün eyhamla deyilişi, musiqinin gen-bol istifadə olunduğu "Ana dili", "Körpü" "Dalğalarda görüş", "Elin sazı, elin sözü" və s. verilişlərdə, ikiyə bölünən bir yurdun sakinləri radio dalğalarında görüşdülər. Dövr radiopublisistdən olduqca diqqətli olmağı, İranla Rusiya arasında ixtilaf yaradacaq fikrə, nüansa yol verməməyi tələb edirdi. Professional radio əmək-

daşları bəzən elə sözsüz, adi bir bayatı, həzin musiqiylə, audiopublisistikanın ifadə vasitələri ilə cənubdakı bacı-qardaşlarına "söz" deməyi bacarırdı.(3.s.72)

1960-cı illərdə sovet məkanının siaysi mühitində müşahidə olunan mülayimləşmədən sonra Moskvada "Mayak" radiostansiyası, bütün müttəfiq respublikalarda ikinci bir dalğa, Azərbaycanda isə "Araz" Xəbərlər və Musiqi proqramı yaradıldı. (5.s.13)

Birinci proqram Moskvanın göstərilişi ilə idarə olunur, rəsmi xəbərlər, materiallar oxunurdu. "Araz" proqramına isə müəyyən sərbəstlik verildiyindən başqa radiostansiyalar efirə müdaxilə etmirdi.

İlk dəfə olaraq məhz bu proqram vasitəsilə Azərbaycanın səsi uzaqlara yayıldı.

Gündüz saat 12-dən axşam 12-dək ilk vaxtlar xəbərlər, musiqi və ədəbi verilişlərin səsləndirildiyi proqram daha sonra 19 saat ərzində dünyanın bir çox yerində, İran, Türkiyə, Mərkəzi Asiyada, Rusiyanın şimalında, Şərqi Avropa, hətta Skandinaviya ölkələrində eşidildi.

"Araz" proqramının yaradıcılıarından biri, qocaman jurnalist İlyas Adıgözəlli deyir ki, "təzə yarananda hər yarım saatdan bir informasiya proqramı təqdim etmək elə də asan deyildi. Lakin bunun öhdəsindən gecə-gündüz çalışaraq gəlirdik. Baş redaktorumuz Hacı Hacıyev, Valid Sənani, Bilal Muradov, Bəhram Rəcəbov, Altay Zahidov, Firuz Əhmədli və digər əməkdaşlar gündəlik xəbər toplanışında operativlik nümayiş etdirirdilər."

1966-cı il iyulun 13-dən «Son xəbərlər»in axşam buraxılışı efirdə «Günün səsi» ilə əvəzləndi.

1968-ci ildə radionun Xəbərlər redaksiyası hər gün birinci proqramla və «Araz» proqramı ilə 24 dəfə efirə çıxırdı.

"Araz" həm də ilk milli radio məktəbi hesab edilir.

1974-cü ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyev respublikamızda radio və televiziya verilişlərinin daha da yaxşılaşdırılması ilə əlaqədar sənəd imzalayır. Sənəddə öz əksini tapan radionun kadr hazırlığı məsələsinə ciddi önəm verilir. Həm texniki işçilərin, həm də radio jurnalistlərinin hazırlanması prosesi başlanır.

1993-cü ildə "Araz" bir müstəqil qurum kimi formalaşır. Radio sənətinə bağlı olan insanların toplaşdığı məkana çevrilir və onların hazırladıqları verilişlər "Qızıl fond"da dəyərli sənət əsərlərini təşkil edir.

Radioda Xalq Yaradıcılığı redaksiyasının yaranması isə milli zəmində verilişlərin daha da zənginləşməsinə səbəb olur.

Müstəqillik illərində "Araz" radiosunun fəaliyyəti bir qədər də genişlənir və Azərbaycan həqiqətləri barəsində dünyaya informasiya çatdırılmasında bu radionun xidmətləri misilsizdir. Radioya ünvanlanan minlərlə məktubda xaricdə yaşayan soydaşlarımız "Araz"a qulaq asdıqlarını, Azərbaycana sevgilərini, qəddar ermənilərə nifrətini ifadə edirlər.

Vaşinqtonda Azərbaycan səfirliyinin açılması münasibəti ilə keçirilən tədbirdən jurnalist İlyas Adıgözəllinin ilk canlı reportajını, "dünyada Azərbaycan günü" kimi qeyd edilən bu tədbiri vətəndaşlarımız, xüsusilə xaricdəki soydaşlarımız göz yaşları ilə dinləmişdilər. Milli musiqilərin, xalqa doğma olan mövzuların işlənməsi, illərlə efir təcrübəsi qazanmış radio əməkdaşlarının intellektual potensialı, "Araz"a dinləyici sevgisi, ümumxalq məhəbbəti qazandırdı.

Əfsuslar olsun ki, 1998-ci ildə "Araz" Milli radiosu bağlandı.

Düz bir neçə il sonra, 2011-ci il, aprelin 4-də keşmiş radiodan tamamilə fərqli yeni özəl radio, "Araz" FM (103.3) yaradıldı. Gənc kadrların təmsil olunduğu yeni struktur müasir gəncliyin abu-havasına uyğun, daha çox musiqi proqramlarının tərtibi ilə məşğuldur. Burada milli məktəb hesab etdiyimiz köhnə "Araz" radiosundan, təcrübəli radio sənətkarlarından bir nəfər də olsun nümayəndə çalışmır. Belə olan təqdirdə, yeni açılan radio milli radio məktəbi hesab etdiyimiz keçmiş "Arazın" varisi ola bilərmi?

«Araz» radiosunun yaranmasında və fəaliyyətində xidmətləri olan Teymur Əliyev, Ənvər Əlibəyli, Sabir Axundov, Soltan Nəcəfov, Kamil Məmmədov, Hacı Hacıyev, Aydın Qaradağlı, Valid Sənani, Yalçın Əlizadə, İlyas Adıgözəlli, Telman Qarayev, Hidayət Səfərli və digər radiopublisistlərə tay ola biləcək insanlara, heç onların tələbələrinə də bugünkü "Araz" FM-də rast gəlinmir...

Azərbaycan audiopublisistikasında bəzi özəl radioların xidmətləri danılmazdır. Ölkəmizdə ilk özəl radio olan ANS ÇM 1994-ci il, mayın 28-də respublikanın müstəqillik günündə dinləyiciyə tamamilə fərqli yeni bir yaradıcılıq üslubu təqdim etdi. "İnformasiya+musiqi" prinsipi ilə işləyən bu özəl radio Azərbaycanın efir mühitinə tamamilə yeni bir abu-hava gətirdi. Özünəməxsus dinləyici auditoriyası toplamağa müvəffəq olan AMS ÇM müasir dövrdə, özəl radiolar arasında yenə də əvvəlki şöhrətini orijinal layihələri ilə qoruyub, saxlaya bilir.

Ədəbiyyat

Ахмедли Н. Азербайджанское международное радиовещание на Ближний и Средний Восток: история, практика, теория, 2003, Bakı, Bakı Universiteti Nəşriyyatı, səhifə 39

Əhmədli N. Səslər içində,B., 1990, s. 10

Əlizadə Y., Q. Məhərəmli. Azərbaycan efiri. Tarix və müasirlik. B., 2006.

Ленин, том XXII, стр. 74≈75.)

«Маяк». 40 лет в эфире. Воспоминания, фотографии, документы, практический опыт. Под редакцией к.и.н. Г.А. Шевелева. Редактор-составитель Б.А. Брацыло. М.: Вагриус, 2004)

Mehdi F., Bədii Publisistika, B., 1982, s.296

Məhərrəmli Q., Jurnalistika yaradıcılığı. B., 2012

Məhərrəmli Q. Radio dərsləri. B., 2007

Radio TV Tarixi., Ankara., 2008.

The Random House Group acquires majority shareholding in BBC Books BBC Press Office. 22 June 2006

Щерель А.А. Радиожурналистика .–М.,Издательство Московского университета, 2000. с. 480,

Ш.Кулиева

Исторический обзор Аудиопублицистики

Резюме

В 30 годах XX века, после распространения радиовещания, была создана радиожурналистика и как следствие радиопублицистика. Основною значение для донесения важнейшей и последней информации на радио приобрела радиопублицистика. Впервые, аудио публицистику для передачи радионовостей использовали в США.

В 1932 году В Азербайджане была основана Информационная Редакция и вышла в эфир программа Последние Известия.

Превратившись в средства пропаганды, на радио стали выходить политико-экономические, музыкально-развлекательные, просветительские выпуски.

Sh.Kuliyeva

A short review of the history of Audioissue

Summary

In the 30s of the XX century, the world of journalism has appeared on the radio and then the radio publicistic foundation. The acceptability of information and transmission function of real-life experience from working in radio journalism, expressing the attitude, the public began to be affected.The world's first radionews, audioissue was established in the United States. Created in 1932 Edition of the Radio Information and Latest News program was broadcasted. Publicized on the radio, socio-political, entertainment, programs have been developed in order to enlightenment.

Rəyçi: Nəsir Əhmədli
filologiya elmləri doktoru, professor

AYNUR ŞÜKÜROVA
Gəncə Dövlət Universitetinin

AZƏRBAYCAN UŞAQ NƏSRİNİN TƏŞƏKKÜLÜNƏ TƏSİR EDƏN ƏSAS AMİLLƏR

Açar sözlər: uşaq bədii nəsri, uşaq mətbuatı, ilk uşaq əsərləri
Ключевые слова: детская художественная проза, детские СМИ, первые детские произведения
Key words: children's fiction prose, children's media, the first child poems

İnsanda estetik hisslər və zəngin dünyagörüş formalaşdıran bədii ədəbiyyat böyük ideya və mənəvi tərbiyə vasitəsidir. Azərbaycan ədəbiyyatının min illərdən bəri davam edən tarixindən qızıl bir xətt kimi keçən humanizm ideyaları insanda yeni mənəvi keyfiyyətlər üzə çıxarmış, fərdi xarakterin inkişafına təkan verməklə cəmiyyətə insansevərlik aşılamış, insanı yüksəltmişdir.

Zənginliyi və humanist ideyaların vüsəti ilə seçilən Azərbaycan ədəbiyyatı təşəkkül tapdığı dövrdən bu günə qədər mərhələli inkişaf yolu keçmişdir. Milli ədəbiyyatımızın müxtəlif janr və üslub əlvanlığı ilə səciyyələnən ən aparıcı qollarından birini də uşaq ədəbiyyatı təşkil edir. Mərhələli inkişaf yolu keçmiş uşaq ədəbiyyatımız gənc nəslin mənəvi-əxlaqi tərbiyəsində, hərtərəfli inkişafında, dünyagörüşünün formalaşmasında əhəmiyyətli rol oynamış və bu sahədə üzərinə düşən missiyanı müvəffəqiyyətlə həyata keçirmişdir.

Bu xüsusiyyətlər heç şübhəsiz, milli uşaq ədəbiyyatımızın artıq sabitləşmiş sahələrindən biri olan nəsr üçün də xarakterikdir. İlk təşəkkül dövrü qədimlərə söykənən nəsr milli ədəbiyyatımızın ən aparıcı qolunu təşkil edir. Uşaq ədəbiyyatının nisbətən cavan janrlarından biri sayılan nəsrin təşəkkülü ədəbiyyatımızın ictimai rolu və maarifçilik vəzifələri ilə şərtlənir.

Gənc nəsli yeni ruhda tərbiyə etmək, xalqın tarixini və mənəvi dəyərlərini uşaqlara sevdirmək kimi nəcib məqsədlər güdən uşaq nəsrinin təşəkkülü XIX əsrin II yarısı və XX əsrin əvvəllərində geniş vüsət alan fikir intibahı –maarifçilik ideyalarının yayılması və təbliği, həmçinin yeni dərsliklərin, müntəxəbatların tərtibi, yeni tipli məktəblərin açılması və uşaq mətbuatı yaratmaq ideyasının gerçəkləşməsi ilə bilavasitə əlaqədar olmuşdur.

"Həqiqətən də Azərbaycan ədəbiyyatında realist uşaq nəsrinin təşəkkülü ədəbiyyatın maarifçilik vəzifələri ilə şərtlənir, milli-azadlıq mübarizəsində ədəbiyyatın ictimai rolunun artması ilə bağlıdır**".[5,.8]**

İlk təşəkkül dövrü XIX əsrə dayanan uşaq nəsrinin yaranmasında iki nəslin nümayəndələri iştirak edirdilər.Birinci nəsli təmsil edənlər XIX əsrin birinci yarısında(İ.Qutqaşınlı,A.Bakıxanov, S.Ə.Şirvani-**A.Ş**.)daha çox folklor və klassik ədəbi ənənələrindən bəhrələnərək gənclərin şəxsiyyət kimi formalaşması üçün bir sıra maraqlı nəsr nümunələri yaratdılar.Qələmə alınmış bu əsərlər sonrakı illərdə yaranan uşaq nəsrinin məzmun və formaca zənginləşməsinə, müstəqil sahə kimi genişlənməsinə səbəb oldu.

Uşaq nəsrinin sonrakı inkişafında iştirak edən ikinci nəslin nümayəndələri XX əsrdə inqilabdan əvvəl yaradıcılığa başlamış, zəngin ədəbi təcrübəsi olan C.Məm-

mədquluzadə,Ə.Haqverdiyev,Seyid Hüseyn, Tağı Şahbazi Simurğ, S.S.Axundov, A.Şaiq, C.Cabbarlı və başqaları idi. Bu yazıçılar xalq yaradıcılığına və klassik ənənələrə sadiq qalmaqla bərabər, müasir mövzulara da meyl göstərir, onları yeni həyatın tələbləri baxımından həll etməyə çalışırdılar.

Elmin, ədəbiyyatın inkişafı, milli teatr və mətbuatın yaranması, maarifçiliyin geniş vüsət alması, yeni tipli məktəblərin yaradılması, dərslik və müntəxəbatların tərtibi və s. ictimai mədəni hadisələrin baş verməsi ilə səciyyələnən XIX əsr Azərbaycan uşaq ədəbiyyatında da dönüş yaradır. XIX əsr Azərbaycan ziyalıları və maarifpərvər yazıçıların dünya ədəbiyyatı ilə yaxından tanış olmaq imkanı əldə etməsi, qarşılıqlı əməkdaşlıq ədəbiyyatımızın tərəqqi və inkişafı üçün mühüm amilə çevrilir. A.Bakıxanov, İ.Qutqaşınlı, M.F.Axundzadə kimi qabaqcıl düşüncəli, mütərəqqi fikirli yazıçılar dünya xalqlarının dilindən, mədəniyyət və ədəbiyyatından öz vətənləri və xalqlarının ictimai oyanışına və tərəqqisinə əlverişli və faydalı olan bütün proqressiv ənənələri mənimsəməyə çalışırdılar.

XIX əsr Azərbaycan bədii nəsrinin də yüksəliş və inkişaf dövrüdür. A.Bakıxanov , İ.Qutqaşınlı və M.F.Axundov kimi maarifçi-realist yazıçılar Azər

baycan nəsrinə forma, üslub, kompozisiya ünsürlərini də gətirdilər. Bu ünsürlər öz orijinallıqları və təzəliklərilə Azərbaycan nəsrini zənginləşdirərək onun dar və məhdud çərçivələrdən çıxıb mədəni yolla inkişaf etməsinə kömək edir.

XIX əsr Azərbaycan bədii nəsrində yeni ədəbi üslub və realizm ənənələri bu janrın sonrakı illərdə uşaq ədəbiyyatında öncül mövqeyə keçməsinə səbəb oldu. Janrın geniş imkanlarını nəzərə alan maarifçi ziyalılar –M.F.Axundzadə, A.Bakıxanov,İ.Qutqaşınlı,S.Ə.Şirvani,N.Vəzirov,Ə.Talıbov,Z.Marağayi,H.S.Ünsizadə,N.Nərimanov,R.Əfəndizadə,S.M.Qənizadə,S.S.Axundov, A.Şaiq və başqaları bədii nəsr nümunələri qələmə almaqla bu sahənin dinamik şəkildə inkişafına təkan verdilər. Azərbaycan uşaq nəsri də bu ümumi məcrada formalaşdı.

Uşaq bədii nəsrinin inkişafı sözsüz ki,tədris sistemi ilə bilavasitə bağlı idi. Maarifçi-yazıçılar bu əsərləri tədris vasitəsilə gənc nəslə çatdırırdılar.Buna görə də Azərbaycan uşaq nəsrinin təşəkkülü və inkişafı yeni tipli məktəblərin və dərsliklərin yaradılması ilə də əlaqədar olmuşdur.

XIX əsrin birinci rübündə Azərbaycanın ayrı-ayrı şəhərlərində Şuşa,Nuxa,

Bakı,Gəncə,Şamaxı,Quba, Lənkəran və Naxçıvanda məktəblərin açılması 70-ci illərə yaxın yeni tipli milli tədris müəssisələrinin yaranmasına da zəmin yaratdı. Yeni məktəblərin sayı artdıqca milli dərsliklərə ehtiyac daha da artdı.Ana dilli dərslik üçün bədii ədəbiyyat ehtiyacı maarifçi uşaq nəsrinin,şeirinin və dramaturgiyasının sürətlə yüksəlişinə stimul oldu.Bu cari ehtiyaca mümkün qədər tez cavab vermək axtarışları isə maarifçi məktəb və mətbuat xadimlərinin diqqətini şifahi xalq ədəbiyyatına, həmçinin, maarifçi rus ədəbiyyatından təbdil və tərcümə işinə cəlb edir.Məhz bu dövrdə Azərbaycanda yeni tipli realist uşaq ədəbiyyatının əsası qoyulur, müasir pedaqoji prinsiplər əsasında anadilli ilk dərsliklər yaradılır, rus dilindən ən səciyyəvi bədii nümunələr , şeir və hekayələr tərcümə olunur.

”Səhnə, mətbuat,dərslik - ədəbiyyatı inkişaf etdirən ən təsrili stimullar bunlar olur və maarifçi şair və nasirlərin yeni müəllim- yazıçı- mühərrir tipi xüsusilə geniş yayılır**.”[7,129]**

Azərbaycan uşaq ədəbiyyatının ilk dəfə dərsliklər halında meydana çıxdığını qeyd edən M.Rəfili “Azərbaycan şura çocuq ədəbiyyatının nailiyyətləri”adlı məqa-

ləsində yazır: "Azərbaycan çocuq ədəbiyyatının ilk ünsürləri dərs kitabları halında bu zaman(XIX əsrin ortalarında-**A.Şükürova**)meydana çıxır. Sərbəst mütaliə üçün yazılmış ilk əsərlər isə yalnız 1905-ci il inqilabından sonra meydana çıxmağa başlayır**".[6,41-42]**

A.Bakıxanovun"Nəsihətnamə"(1836),M.Ş.Vazeh və İ.Qriqoriyevin"Kitabi-türki"(1852),Mirzə Nəsrullah Şirvaninin"Kitabül-nəsayeh" (1857), S.Ə.Şirvaninin" Rəbiül-ətfal" (1878), "Tacül-kütub" (1893), A.O.Çernyayevskinin "Vətən dili" (1882),

R.Əfəndiyevin" Uşaq bağçası"(1898),"Bəsirətül-ətfal"(1901), M.B. Hacıyevin" Şagirdlərə hədiyyə"(1902), Ə.Nərimanovun "Nəsihətül-ətfal" (1907), M.Mahmudbəyovun "Türk əlifbası və ilk qiraət" (1907), A.Şaiqin " Uşaq gözlüyü"(1907), M.Mahmudbəyov və A.Səhhətin "Üçüncü il"(1909),F.Ağazadənin"Ədəbiyyat məcmuəsi" (1912),F.Köçərlinin"Balalara hədiyyə"(1912), M.Nəvvabın"Nəsihətnamə"(1912),

M.Yusifzadənin"Ata-baba nəsihətləri"(1912), Ə.Möhsünün"Aynineyi-ibrət"-(1916) və s. dərsliklər və müntəxəbatlar gənc nəslin təhsil və tərbiyəsinə xidmət etməklə yanaşı həmçinin,Azərbaycan uşaq ədəbiyyatının yaranmasına, toplanıb nəşr olunmasına da zəmin yaratmış oldu.Milli folklora maraq gücləndi, xalq ədəbiyyatı nümunələrinin kütləvi və nizamlı bir şəkildə toplanması işi də bu zamandan başlandı.

Yeni tipli məktəblərdə uşaqların qiraəti üçün oxu kitablarına olan ehtiyacı nəzərə alan sənətkarlar ilk növbədə folklora müraciət edirdilər.Gənc nəslin maarifləmməsində, mənəvi-əxlaqi baxımdan tərbiyə olunmasında əvəzsiz mənbə rolunu oynayan xalq ədəbiyyatına yaradıcı yanaşan yazıçıların qələmə aldıqları nəsr nümunələri maarifçilər tərəfindən ərsəyə gətirilən dərslik və müntəxəbatlarda geniş yer almışdı.

S.Ə.Şirvaninin yaradıcılıq təkamülü öz bədii ifadəsini uşaq və gənclər üçün tərtib etdiyi "Rəbiül-ətfal"(1878) və "Tacül-kütub"(1893)dərsliklərində toplanmış əsərlərində tapmışdır.Bu dərsliklər XIX əsrin 70-ci illərində məktəblilərin mütaliəsi və ümumiyyətlə,milli uşaq ədəbiyyatı yaratmaq sahəsində uğurlu təşəbbüs idi.Təsadüfi deyil ki, bəzi tədqiqatçılar milli uşaq ədəbiyyatımızın yaranması və yeni istiqamətdə inkişafını məhz S.Ə.Şirvaninin maarifçilik fəaliyyəti ilə bağlı olan dərsliklərdən başlandığını qeyd edirlər. Lakin təəssüflər olsun ki, müəllif bu dərslikləri nəşr etdirə bilməmişdir. Həmin dərsliklərə daxil olan materialların bir qismini daha sonra A.O. Çernyayevski S.Vəlibəyovla birlikdə tərtib etdiyi "Vətən dili"kitabına daxil etmişdi**.[9, 71]**

Yuxarı sinif şagirdləri üçün nəzərdə tutulmuş "Rəbiül-ətfal"dərsliyinə müəllif nəzm və nəsrlə qələmə aldığı hekayə, təmsil, öyüd və satirik əsərlərini, eyni zamanda Nizami, Füzuli, İ.A.Krılov və İ. İ. Dmitriyevdən etdiyi tərcümələrini vermişdir.

Seyid Əzimin özündə əlli mənsur miniatür hekayəni birləşdirən "Tacül-kütub"dərsliyi kiçik yaşlı uşaqlar üçün nəzərdə tutulmuşdur.Dərsliyin tərtibindəki əsas məqsədi izah edən professor X. Məmmədov yazır: "Məcmuənin qarşısında duran konkret vəzifə uşaqların şüuruna və ağlına təsir göstərmək yolu ilə onlara mənimsənilməsi zəruri olan bir sıra etik-əxlaqi keyfiyyətləri aşılamaq və ümumbəşəri ruhda tərbiyə olunmalarını təmin etməkdən ibarətdir.Bu məqsəd buradakı heka-

yələrin spesifikasını müəyyənləşdirmişdir.Belə ki, bu hekayələrdə müəllifin bütün diqqəti bu və ya başqa əxlaqi-didaktik fikrin oxucuya çatdırılması məsələsi üzərində toplanır. Süjet- hadisələrin inkişafı, qəhrəmanların qarşılıqlı münasibəti elə qurulur ki, onlar birbaşa əxlaqi fikrin əyaniləşməsinə, xeyirxahlığın bədxahlıq üzərində qələbəsinin təmin olunmasına xidmət edir. Beləliklə, hər bir hekayənin məzmunundan qüvvətli təsir gücünə malik bir əxlaqi ideya doğur**".[10,27]**

Əsasən uşaq ədəbiyyatı,nəsr, dramaturgiya və bədii tərcümə sahəsində çalışmaqda olan R.Əfəndizadə pedaqoji fəaliyyətinin ilk günlərindən məktəblərin milli zəmində hazırlanmış dərsliyə, uşaqların sağlam mündəricəli ədəbiyyata ehtiyacını ödəmək məqsədi ilə özünün qələmə aldığı əsərlərdən , iqtibas və tərcümələrdən ibarət dərsliklər nəşr etdirir.Dəfələrlə nəşr olunan bu dərsliklər Qafqazda yaşayan türk xalqlarına aid bölgə məktəblərində tədris olunur.1898-ci ildə İstanbulda "Uşaq bağçası",bir qədər sonra-1902-ci ildə isə Bakıda "Bəsirətül-ətfal"dərslikləri Azərbaycanda xalq maarifinin inkişafında, azərbaycanlı uşaqların savadlanmasında mühüm rol oynamışdır.

Məşhur rus pedaqoqu K.D.Uşinskinin təlimi və onun dərslikləri əsasında dərslik tərtib edən R.Əfəndizadə yazırdı: "Tərbiyə elmini öyrəndikdən sonra mən anladım ki, köhnə məktəb xalqa bilik vermir,onu maarifləndirmir.Yeni məktəb lazımdır.Bu isə yalnız Uşinskinin yeni üsulla tərtib etdiyi dərs kitabı kimi, öz məktəblərimiz üçün ana dilində dərs kitabı tərtib etməklə mümkündür. Özümün "Uşaq bağçası"adlı dərs kitabımı bu qiymətli əsərə bənzətmək üçün mən Uşinskinin şöhrət qazanmış və müstəsna kitabını rəhbər qəbul etdim**".[1,286]**

Lakin bu dərsliklər də yeni tipli məktəblərin tələbini ödəyə bilmirdi.Kitablara daxil edilən şeir, hekayə və nağılların əksəriyyəti bədii cəhətdən zəif idi.Uşaqlar üçün dəyərli əsərlər yazmağı düşünən maarifçi ziyalılar bu sahənin inkişafı üçün uşaq mətbuatı və pedaqoji jurnalların nəşrinə başlamağın vacibliyini yaxşı bilirdilər.

Beləliklə, XX əsrin əvvəllərində uşaq mətbuatı yaratmaq ideyasının gerçəkləşməsi də uşaq bədii nəsrinin inkişafı üçün əlverişli şərait yaratdı.Maarifçi-ziyalıların uşaq mətbuatı yaratmaq təşəbbüslərindən bəhs edən A.Hacıyev yazır:"Əsrin əvvəllərində bir sıra qəzet və jurnalların, o cümlədən " Molla Nəs

rəddin"in nəşri uşaq nəsrinin də müvəffəqiyyətlə irəliləməsinə kömək etdi. Ədəbiyyatda realizm, xəlqilik və bədii dilin saflığı uğrunda mübarizə uşaq nəsrinin üslub və bədii formasını dəyişdirir, onun sadə və anlaşıqlı olmasına təsir görtərirdi**".[5,.9]**

Nəşr olunan jurnallar arasında xüsusilə "Dəbistan"(1906),"Rəhbər"(1906) və "Məktəb"(1911)məcmuələri uşaq ədəbiyyatının dinamik inkişafında əhəmiyyət

li rol oynadı. "Dəbistan"və " Məktəb" sırf ədəbiyyat yönümlü məcmuə olduğu halda, " Rəhbər" əsasən pedaqoji istiqamətdə idi. Hər üç məcmuə gənc nəslin maariflənməsi uğrunda ardıcıl mübarizə aparırdı.Məcmuələrin fəaliyyətini yüksək qiymətləndirən P.Allahverdioğlu yazır: "Pedaqoji fikirləri və anlayışları ancaq bədii şəkildə , ədəbi parçalarda, nağıl, hekayə və məsəllərdə uşaqların başa düşə biləcək-ləri sadə bir dildə işıqlandıran bu jurnallar Azərbaycan uşaq ədəbiyyatı tarixində təlim-tərbiyə məsələlərini öyrənmək üçün qiymətli və zəngin mənbələrdən biridir**".[2,25]**

Bu jurnalların səhifələrində uşaq şeirləri, şifahi xalq ədəbiyyatından nümunələr, qorxulu və gülməli nağıllar sərlövhəli hekayələr, bədii tərcümə və iqtibaslar, həmçinin ictimai-pedaqoji məsələlərə dair məqalələr dərc olunurdu.Uşaq nəsrinin yetkin, klassik nümunələrini səhifələrində dərc edən hər üç jurnal bu sahənin intensiv inkişafına əhəmiyyətli dərəcədə təsir göstərdi.Hər üç jurnalın qayə və məqsədini şərh edən tədqiqatçı Ə.Məmmədov burada dərc olunan nəsr əsərlərini mövzusuna görə aşağıdakı kimi təsnif etmişdir: a)mövzusu müasir həyatdan alınmış hekayələr; b)mövzusu keçmişdən, və ya xalq ədəbiyyatından alınmış hekayələr. **[8, 24]**

V.Q.Belinski yazırdı ki:"Uşaqlar nəticə,təsdiq və məntiqi ardıcıllıq tələb etmir lər,onlara surətlər,rənglər və səslər lazımdır,uşaqlar ideyaları sevmirlər;onlara tari

xi rəvayətlər, povestlər, nağıllar və hekayələr lazımdır". **[3, 85]**

Daha çox nağıl motivləri əsasında yazılmış hekayələrin dərcinə diqqət yetirən məcmuələrin səhifələrində nəşr olunan nəsr nümunələrində əqli və əxlaqi tərbiyənin inkişafına xüsusi diqqət yetirilir,gənclərin həyatına, fəaliyyətinə dair maraqlı fikirlər öz əksini tapırdı. Uşaqlar üçün dövri mətbuat yaratmaq ideyasını gerçəkləşdirən redaktor və naşirlər Qafur Rəşid Mirzəzadə, Əbdürrəhman Əfəndizadə, Mahmud bəy Mahmudbəyova öz pedaqoji təcrübələrindən məlum idi ki, nağıllar və nağıl səpkisində yazılmış rəngarəng hekayələr uşaqların dünyagörüşlərinin genişlənməsində,əxlaqi və mənəvi inkişafında mühüm rol oynayır.Belə əsərlərdə əsasən, mövcud həyatda gördüklərimizin əksinə olaraq,hər şeyə xeyirxah gözlə baxılır, gözəl arzulardan danışılır,gerçəyin yalana,xeyirin şərə qalib gələcəyinə inam hissi təbliğ olunurdu.Jurnalların nağıl tərzində yazılmış hekayələrə xüsusi yer verməsi həm də bununla izah olunmalıdır.

"Dəbistan"jurnalının ilk nömrəsində dərs olunmuş"İfadeyi-məram"adlı məqalədə deyilir: "...Öz halımıza dair gülməli və ibrətamiz hekayələr və mənzumələr qeyrəti ilə uşaqlarımız zəif və bivüsət əql və dərrakələrini gücləndirib, gözəl hisslər və təcrübələr əxz edirlər; böylə bir mühüm və əhəmiyyətli mətləbə yetişməkdə ancaq məktəblərimizə ümidvar olmayırıq, çünki uşaqlarımızın məktəblərdə keçirdikləri üç, ya dörd saat vaxt yazıb-oxumaq və dərs kitablarında bulunan hekayələri öyrənməyə ancaq kifayət edir**".[4]**

Məqalədən aydın olur ki, məcmuələrdə yazıları dərc olunan müəlliflər elmə, maarifə, uşaq həyatına dair hekayələrin nəşrinə daha çox üstünlük verirdilər.İctimai tərəqqi realist nəsr janrlarına böyük ehtiyacın olduğunu hiss etdirirdi. Belə olan təqdirdə yazıçıların hekayə janrına , uşaq bədii nəsrinə daha az

meyl göstərmələri narazılıq doğururdu. Maarifçi-yazıçı S.M.Qənizadənin məsləkdaşı M.T.Sidqiyə yazdığı məktub bu fikrimizi təsdiq edir. "Hekayəsiz, nəsrsiz yeni ədəbiyyatı irəli aparmaq mümkün deyildir.Təəssüf ki, bəzi cavan şairlərimiz bu mətləbi düşünmür, hekayənəvisliyi şəni-şairliyə layiq görməyib, baş qaçırdırlar".[**11,52]**

"Dəbistan","Rəhbər" və " Məktəb"in səhifələrində nəsr əsərləri ilə çıxış edən C.Məmmədquluzadə, Ə.Haqverdiyev, S.S.Axundov, R.Əfəndizadə, A.Divan-

bəyoğlu, İ.Musabəyov kimi təcrübəli yazıçılar maarif sahəsində çalışan müəllimləri də uşaqlar üçün nəsr nümunələri yaratmağa həvəsləndirirdilər. M.Möhsünzadə nin"İki yoldaş",Ə.Əfəndizadənin"Odunçu Səməd",S.Əbdürrəhmanza-

dənin”Qureyş tərlanı”,M.Əfəndizadənin”Bağdadlı Cəfərin hekayəsi”, M.H.Güdsinin”Ata vəoğul”,

Ə.Babazadənin ”Tülkü dərisi”,Ə.Mustafayevin ”Rüşvətxor qazı”, Ə.Cəfərzadənin “Cəmilin sərgüzəşti”,Ə.Rzazadənin “Kərim və kompas”, C.Bünyadzadənin “Kamil və Aqil”,Q.Şıxlınskinin “Müəllim və şagirdləri”,A.Əlibəyovun “Qoca və şagird”,Ə.Hüseynzadənin “Uşaq və ana”,Ş.Əfəndizadənin “Vəhşilər çörəkçisi” və s. mövzusu keçmişdən və ya xalq ədəbiyyatından alınmış hekayələri gənc nəsli təhsil almağa səsləməklə yanaşı,onlara əxlaq, cəmiyyət və tərbiyə ilə bağlı məlumat verir, eyni zamanda, elmin, mədəniyyətin mahiyyəti və əhəmiyyəti haqqında fikirlər formalaşdırırdı.

Ədəbiyyat:

1.Azərbaycanın Rusiya ilə birləşməsi və onun iqtisadi və mədəni nəticələri. Bakı, 1956
2.“Azərbaycan məktəbi”jurnalı, 1958, №7
3.Belinski V.Q. ,Çernışevski N. O., Dobrolyubov N.A. Uşaq ədəbiyyatı haqqında. Moskva, 1954
4.“Dəbistan”, 1906, № 1
5.Hacıyev A.Azərbaycan sovet uşaq nəsri. Bakı, 1989
6.“İnqilab və mədəniyyət”jurnalı, 1935, № 10-12
7.Qarayev Y. Poeziya və nəsr, Bakı, 1979
8. Məmmədov Ə.Azərbaycan uşaq ədəbiyyatı. Bakı, 1977
9. Namazov N. Azərbaycan uşaq ədəbiyyatı. Bakı, 2007
10.Şirvani S.Ə. Seçilmiş əsərləri. 3 cild, I cild.(Ön söz X.Məmmədov).Bakı, 2005.
11.Talıbzadə K. XX əsr Azərbaycan ədəbi tənqidi. Bakı, 1966

Aynur Shukurova

Main factors influencing the formation of Azeri children's prose

Summary

Variegation of the literature from various genres and styles is characterized by one of the leading branches of children's literature. Rich stage of development of children's literature that played an important role in shaping the outlook of the features of the young generation realized its mission successfully. No doubt, that these stabilized features are characteristic for the prose of the national children's literature. The prose of the first formation perioud based on the very long term goal of the leading national literature.To cultivate new generation in young spirit, to make the children to love the history and spiritual values of their nation, such as the formation of children's literature in the second half of the nineteenth century and early twentieth century, the Renaissance, the Enlightenment idea of widespread dissemination and promotion of ideas, as well as new textbooks, compose selected fragments from the literary works, opening a new type of schools that are directly related to the realization of the idea of creating children media.Science, development of the literature, the establishment of a national theater and the media to spread awareness, the creation of new types of schools, textbooks, and so on, and

compliation of selected fragments from the literary works, the creation of social and cultural events are fundamental that have affected the children's prose.In creation of the first period of children's prose in the nineteenth century have take part the representatives of the two generations.

The representatives who represent the generation of the first half of the nineteenth century (İ.Qutqaşınlı, A.Bakıxanov, S.A.Shirvany) using more folk and classical literary traditions, created interesting proses in order to create the identity of the young generation. Written poems in the years following, the enrichment of content and form, is to become of expansion as an independent field.

The second generations representatives, that were taken part in the further development of children's prose in the twentieth century before the revolution started in the creative process, which has a rich literary experience J.Mammadquluzadeh, A. Haqverdiev, Said Huseyn, T.Ş. Simurg, S.S.Akhundov,A. Shaig, J.Jabbarli. These writers being loyal to the people and classical customs shows the trend of contemporary issues, trying to solve them in terms of the requirements of a new life.

Айнур Шукурова

Основные факторы, влияющие на формирование детской прозы

Резюме

Пестрота литературы из различных жанров и стилей детской литературы характеризуется одной из ведущих отраслей . Богатый этап развития и нравственного воспитания молодого поколения в детской литературе, всестороннего развития сыграл важную роль в формировании мировоззрения особенностей и выполнил свою миссию успешно. Без сомнения, эти качества являются одним из национальностей детской литературы характерные для прозы . Первый период формирования опирается на древнюю прозу, составляющую одну из ведущих ветвей национальной литературы .

Воспитывать новое поколение молодым духом , сделать так, чтобы дети полюбили историю народа и его духовные ценности, таких как формирование детской литературы во второй половине девятнадцатого века и начале двадцатого века, эпоха Возрождения , эпоха Просвещения идея широкого распространения и продвижения идей, а также новых учебников ,составление избранных отрывков из литературных произведений, открытие школ нового типа, а также непосредственно связаны с реализацией идеи создания детских средств массовой информации.Наука, развитие литературы, установление национального театра и создание СМИ, для распространения информации, создание новых типов школ, учебников и составление избранных отрывков из литературных произведений, создание социальных и культурных событий, является основополагающими факторами, которые повлияли на детскую прозу.

В создании первого периода формирования детской прозы в девятнадцатом веке, принимали участие представители двух поколений. Представители первого поколения первой половины девятнадцатого века (И.Куткашенлы, А.Бакыханов, С.А.Ширвани), используя народные и классические

литературные традиции, создали ряд интересных проз для формирования личности молодого поколения. Написанные произведения в дальнейшем способствовали обогащению по форме и содержанию детской прозы и расширению в виде независимой области.

Представители второго поколения, принимавшие участие в развитии последующей детской прозы, начавший свой творческий процесс в XX веке до революции имевший богатый литературный опыт Д.Мамедкулузаде, А.Хагвердиев, Саид Гусейн, Т. Ш.Симург, С.С.Ахундов, А.Шаик, Дж.Джаббарлы. Эти писатели наряду с лояльностью к народному творчеству и классическим традициям показали тенденцию современных проблем, пытаясь решить их с точки зрения требований новой жизни.

Rəyçi: Nəzmiyyə Axundova
filologiya üzrə fəlsəfə doktoru, dosent

TÜRKAN QƏDİROVA
Azərbaycan Müəllimlər İnstitutunun Şəki filialı
qedirova-turkan@mail.ru

İSA MUĞANNANIN "MƏHŞƏR" ROMANINDA ƏMİR TEYMUR OBRAZI BƏDİİ VƏ TARİXİ KONTEKSDƏ

Açar sözlər: tarixi-fəlsəfi roman, dünya fatehi, hürufizm, bədiilik və tarixilik, siyasi vəziyyət, bədii obraz
Ключевые слова: историко-философский роман, покоритель мира, хуруфизм, неизбежность и историчность, политическое положение, художественный образ.
Key words: Historical- philosophical time, world conqueror, hurufism, artistry and historicity, political condition, art image

İsa Hüseynov yaradıcılığa başlayarkən Azərbaycan nəsri artıq müəyyən ənənələrə malik, kifayət qədər inkişaf yolu keçmişdi. Ədib "Tütək səsi", "Saz", "Quru budaq", "Faciə", "Şəppəli", "Kollu Koxa", "Ömür karvanı" kimi povestləri, "İdeal", "Məhşər", "GurÜn", "İsahəq Musahəq" kimi tarixi-fəlsəfi romanları, eləcə də daha neçə-neçə başqa hekayə, povest və romanları ilə bu nəsrə öz layiqli töhfələrini vermiş, onun ideya-bədii və mövzu baxımından zənginləşməsində əvəzsiz rol oynamışdır.

İsa Muğanna "ədəbiyyat tarixdir, tarix isə hər şeydir" - deyirdi və sanki bununla əsərlərində tarixiliyə müraciət etmə səbəbini göstərməyə çalışırdı. Ədəbiyyat tarixinin bütün mərhələlərində tarixi əsər yazmaq ehtiyacını doğuran əsas səbəblər ya xalqa, millətə öz tarixi keçmişini xatırlatmaq, ya yada salmaq, ya da qaranlıq qalan hansısa bir məqamı açmaq istəyi olmuşdur. Bunu özündə borc kimi duyan hər bir sənətkarın yaradıcılığında az və ya çox dərəcədə bu xüsusiyyətə rast gəlmək olar. "Məhşər" əsəri də belə bir ehtiyacdan yaranıb. Baxmayaraq ki, buna qədər ədibin tarixə müraciət etdiyi əsərləri olub, lakin o özü bu əsərini yaradıcılığında ayrıca bir mərhələ kimi qəbul etmişdir. (111/3)

Yaşadığı və yaxşı bildiyi dövrdən və mühitdən, yaxın olduğu və tanıdığı adamlardan, bildiyi hadisələrdən yazmaqla İsa Muğanna istedadlı bir yazıçı kimi tanınırdı. Lakin, həm yaşının, həm də ömrünün kamil dövründə xalqının tarixinin ən mürəkkəb mərhələlərindən bəhs edən silsilə romanlar yazmağa başlaması, bu silsilədən olan "Məhşər" romanını xalqına təqdim etməsi onun maraq və bilik dairəsinin yüksəkliyini bir daha sübut etmiş oldu.

"XIV əsrdə yaşamış böyük Azərbaycan şairi, panteist fəlsəfənin, hürufizmin ən görkəmli nümayəndələrindən olan İmadəddin Nəsiminin həyatından və onun yaşadığı dövrün reallıqlarından bəhs edən "Məhşər" Azərbaycan nəsrində tarixi roman janrında yazılmış nadir əsərlərdən biridir. Bu baxımdan, "Məhşər" yalnız M.S.Ordubadinin "Qılınc və qələm" (bu roman XII əsr Azərbaycan şairi Nizami Gəncəvinin həyatından bəhs edir) romanı ilə müqayisə edilə bilər. Lakin bu nisbi müqayisədir. Çünki istər tarixi gerçəkliklərə sədaqətinə, istərsə də bədii estetik səviyyəsinə, dil və üslubuna görə "Məhşər" "Qılınc və qələm"dən çox yüksəkdə durur və ümumən, analoqu olmayan əsərdir." (350/3)

"Məhşər" tarixi-fəlsəfi romandır. XIV əsrdə Əmir Teymurun yürüşləri dövründə baş vermiş hadisələr, filosof Fəzlullah Nəiminin və böyük humanist şairimiz Nəsiminin insan uğrunda qeyri-adi mübarizələri, habelə məşhur Şirvanşah İbrahimin hakimiyyəti illərində Azərbaycanda, İranda və yaxın Şərqdə geniş xalq kütlələrinin taleyi bu əsərdə öz əksini tapmışdır. Qeyd etdiyimiz kimi, bu roman müəllifin "Karvan" adlandırdığı roman və povestlər silsiləsinə daxildir. Roman əsasında hazırlanan ssenari üzrə "Nəsimi" filmi də çəkilmişdir ki, ədib özü bu işin ərsəyə gəlməsində, filmin layiqli şəkildə xalqa təqdim edilməsində böyük əziyyətlər çəkmişdir.

Hər hansı bir kamil sənət əsrinin yazılana qədər keçdiyi yaranma dövrünü "Məhşər" romanı da yaşamışdır. Ədib əsəri yazmamışdam əvvəl, özünün də dediyi kimi, "... Azərbaycan tarixinin ən mürəkkəb dövrünü, böyük humanist şair Nəsiminin keşməkeşli həyatını, onun mənsub olduğu hürufilik hərəkatını, fəlsəfəsini, Şirvan tarixini, Teymurləngin yürüşlərini, tərcümeyi-halını, xarakterini, dünyagörüşünü tədqiq etməyə" (157/3) başlamış, nəticədə isə bu romanı yazmışdır. İsa Muğanna böyük yaradıcılıq məharəti ilə, tarixdə öz qəddarlığı ilə məşhurlaşmış, qeyri-adi davranış və xarakterə malik bir şəxsiyyət olan fatehi - Əmir Teymuru əsərinə gətirmiş, lakin əsərdə başdan-başa Əmir Teymur haqda olan tarixi faktlara sadiq qalsa da, tam bədii əsər yaza bilmişdir.

Romanın "Məhşər" adlandırılması onu əhatə və əks etdirdiyi tarixi dövrün ümumi səciyyəsi ilə əlaqədardır. "Xristian salnaməçilərindən biri Teymurləngin Van gölü ətrafındakı vəhşiliklərindən, əhaliyə divan tutmasından, kişiləri sıldırım qayalardan aşağı atdırmasından bəhs etdikdən sonra belə bir əhvalat nağıl edir: "xristianların və müsəlmanların qanı sel kimi axdığı bir zamanda minarədən yanıqlı bir səslə minacat çəkilir: "Ey camaat, qiyamət qopmuşdur, məhşər qurulmuşdur, dünyanın axırıdır..." Teymur bunun nə olduğunu soruşur. Ona deyirlər ki, törətdiyin zülm ərşə dayanmışdır, qiyamət qopmuşdur, dünyanın axırıdır, oxuyanın səsi də suru - İsrafili xatırladır". (145/5) Yəqin ki, əsərin yazıldığı dövrdə də baş verən hadisələri məhşər kimi qiymətləndirənlər olubmuş. İsa Muğanna da bir tarixi-romançı kimi bunlardan xəbərdar olmuş və əsərinə belə ad seçmişdir. "Məhşər" romanının adında, bu adın ifadə etdiyi mənada, daha sonra isə əsərin məzmununda və ruhunda həm bəhs olunan dövrün, həm də ona olan müasir baxışın bədii əksini aydın şəkildə görmək mümkündür.

Əsərdə bəhs olunan dövr öz xüsusiyyətləri ilə, daha çox xalqımızın yaşadığı ağrılı-acılı illər ilə xarakterizə olunur. Bu dövrdə, yəni XIV əsrin 70-80-ci illərində Azərbaycandakı siyasi sabitsizlik Əmir Teymurun və Qızıl Orda xanı Toxtamışın bu ölkəyə göz dikməsinə və işğalçı hücumlarına məruz qalmışdı. Ölkənin həm əlverişli coğrafi şəraiti, həm də təbiəti, maddi zənginlikləri ilə xüsusilə Əmir Teymurun daim diqqətini çəkmiş, Təbrizin, Qarabağın, Dərbəndin və s. şəhərlərin ələ keçirilməsi üçün uzun illər mübarizə aparmışdır. Təbii ki, bu hücumların bir səbəbi öz sərhədlərini genişləndirməklə bağlı idisə, digər səbəbi Əmir Teymurun şəxsən xoşlamadığı insanların ucbatından və ya sadəcə qəddarlığından irəli gəlirdi. Mənbələr göstərir ki, Toxtamış Təbrizi istila etdikdən sonra "Yeddi İqlimin Məğlubedilməz Hakimi" onun bu hərəkətinə "cəza" vermək məqsədilə onsuz da viran edilmiş şəhərə yenidən basqın edib, çapıb talamış, əhalini qılıncadan keçirtmişdi. (46/1); (160/6)

Bəhs olunan romanda İsa Hüseynov məhz belə bir xarakteri əsərində bədii obraz kimi qələmə almışdır. Belə ki, Nəimi və Nəsimi obrazları qədər Əmir Teymur obrazı da canlı və təsirlidir. Birincilər kamilliyin, Əmir Teymur isə cahilliyin təmsilçisidir. Nəiminin qətlinə bais Əmir Teymurdur, lakin bu şəxsən Nəiminin yox, ümumən kamilliyin məhvidir, qəddar olan isə təkcə Teymur yox, zamandır, kəskin ehkamçı görüşlər və cahillikdir.

Əmir Teymur obrazı elə tarixdə olduğu kimi dəyişməz və sarsılmzadır. Onun obrazı nə qədər tarixidirsə, romanda ona qarşı qoyulmuş ümumən Azərbaycan obrazı da eləcə əvəzsiz və əlçatmazdır. Əsərin ilk səhifələrindən məlum olur ki, Əmir Teymurun bircə arzusu var ki, bu əvəzsiz diyara tam anlamı ilə hakim olsun. Tarixdən də məlumdur ki, "Teymurun və Qızıl Orda imperiyalarının sərhədlərində iki ağrılı nöqtə var idi: şərqdə Xarəzm, qərbdə isə xüsusən Azərbaycan. Bu rayonlar potensial münaqişə ocaqları idi. Məhz bu bölgələrdə Teymurun və Toxtamışın iştəhası həmişə qarşı-qarşıya gəlirdi."(183/6)

"Yeddi yüz minlik selin viran qoyduğu ərazidə tək bir ölkə qamışdı ki, Teymur onu rəsmən səltənətinə daxil etsə də, əslində təslim edə bilməmişdi. O ölkə Azərbaycan idi..."(8/2) Və nəhayət, burada onun ən güclü düşməni vardı, o da Şeyx Fəzlullah Cəlaləddin Nəimi və onun "ənəlhəq" deyən saysız tərəfdarları idi.

Əgər tarixə nəzər salsaq Əmir Teymura öz əməlləri müqabilində xitab olunmuş çox ada rast gələ bilərik. Kimisi onu "dünya fatehi", kimisi isə şikəst ayağına görə təhqir etmək üçün "Topal" demişdir. "Tamerlan" adının isə ona deyilməsindən xoşlanmazmış. Kristofer Marlonun əsərində Teymur "Allahın bəlası" kimi səciyyələndirilir. "Məhşər" müəllifi isə Əmir Teymuru əsərin çox yerində obrazların dili ilə cahillik rəmzi olaraq "Div" adlandırır. Bu əsərin ümumi qayəsinə uyğundur. Div, yəni başıboş. Burada dərin fəlsəfi məzmunu ilə fərqlənən, humanist bir ideologiyanı qavramaqda aciz olan bir varlıq kimi nəzərdə tutulur. Lakin son nəticədə humanist Azərbaycan şairinin ağlı və dərrakəsi bu "Div"ə qalib gəlir.

Əmir Teymur obrazının həm tarixi, həm də bədii kontekstdə açılmasında əsərdə Teymur-Miranşah, Teymur-İbrahim şah, Teymur-Fəzlullah Nəimi, ən nəhayət, Teymur-Seyid Əli-Nəsimi xətləri bizə müəyyən fikir söyləməyə əsas verir. Əvvəldə də qeyd etdiyimiz kimi, müəllif Teymurləngin istilaçı xarakterinin əksinə getməmişdir. "Məhşər"də diqqəti çəkən əsas məqam isə Teymur kimi qaniçən bir fatehin belə Nəsimi dühası qarşısında acizliyinin təsviridir. Məhz buna görədir ki, ədib Teymurləngin tarixə məlum olan amansızlıqlarını təhrifsiz vermiş, fatehliklə acizliyin təzadında əsas məqsədi aydın nəzərə çarpdırmışdır. Hələ ilk səhnələrdə Nəsimi ilə İbrahim şah qarşı-qarşıya gəlir. Şah Nəsimini elçi kimi qəbul edir, onu dinləyir. Müəllif elə buradaca bəzi məqamlara diqqət çəkir:

"...Lakin Nəsiminin bu dəfəki cavabı daha gözlənilməz oldu:

- Bayəzid də, Teymur da müdrik cahangirlərdir, şahım! Amma onlar da qələbəni mühafizə edə bilməyəcəklər, çünki əsgərləri acizdirlər.

- Necə?! Dünyaları fəth edən əsgər - aciz?!

Nəsimi inam və qətiyyətlə:

- Əsgərin gücü qılıncında yox, əqidədə olmalıdır, şahım! - dedi. - Onların etiqadı Quranadır. Quran isə deyir: insan zəif və aciz xəlq olunub. taleyi alnına yazılıb, yəni özünün iradəsi yoxdur və heç bir şeyə qabil deyil..." (40/2)

Qeyd etmək lazımdır ki, əsərdə cəhalətin ən yaxşı təmsilçisi kimi Şeyx Əzəm obrazı yaradılmışdır. O, başına olmazın müsibətlər gəlsə də, Məlhəm pirində baş verənlərin canlı şahidi olsa da, hətta bircə qızını da bu yolda itirsə də, öz "əqidəsindən" dönmür, Teymura olan inamı sarsılmır, Teymurun bir gün bu zülmlərə son qoyacağına inanır.

Əmir Teymurun İsfahanı bir quzu ilə tutması əhvalatını da müəllif Şeyx Əzəm xətti ilə əsərə gətirir. Quzunu ona kəsdirirlər, Teymur təzə qanı içir, çadıra Sultan Əhməd Cəlairinin elçisi girir. Teymur içdiyi qanı qusur, elçiyə deyir ki, "ölürəm, müharibə etməyə halım yoxdu". Bununla düşməni aldadan Əmir İsfahanı asanlıqla ələ keçirir.

Əmir Teymurun yürüşlərində bəhs edən bir çox salnamə və tarixi qeydlərdə onun İsfahan yürüşü ayrıca qeyd edilir. Heç bir tarixçi bu müsibətlərə laqeyd yanaşa bilməmişdir. Əsir düşmüş Bavariya zadəganı Şiltberger baş verənlər haqqına belə yazmışdır:

"...Sonra o (Əmir Teymur-Q.T) əmr etdi ki, uşaqları və qadınları şəhər divarlarından kənarda olan düzənliyə yığsınlar, yeddi yaşdan aşağı olan uşaqları ayırıb bir tərəfdə toplasınlar. Süvari əsgərlərinə əmr etdi ki, atlarını körpələrin üstünə çapsınlar. ...Lakin əsgərlərdən heç biri ilk olaraq bunu etmək istəmirdi. O qəzəblənib özü atını onların üstünə çapdı və dedi: "İndi mən görəcəyəm ki, kim cəsarət edib mənim ardımca gəlməyəcək". Bundan sonra hamı ona itaət göstərib, atlarını körpələrin üstünə sürdülər və hamısını atların ayağı altında məhv etdilər. Öldürülən körpələrin sayı yeddi minə çatırdı." Bütün bunlara səbəb olan "günah" isə İsfahan üsyançılarının şəhəri qorumaq üçün apardıqları döyüşlərdə Teymurun 3000 nəfərlik qarnizonunu məhv etməsi idi. (177/6)

Əmir Teymur hürufilərlə mübarizəni şəxsən özü davam etdirir. Bu zaman Nəimin müridləri arasında parçalanma baş verir. Nəsimi nə qədər qarşı çıxıb etiraz etsə də, müridlər artıq "Fəzl günü"nün elanı üçün ona təzyiq göstərirlər. Əmir Teymur İbrahim şahdan Fəzlullahı tələb edir, yoxsa Şamaxıya hücum etməklə onu hədələyir. Şah olan qalan xəzinəni dəvələrə yükləyib Teymurun hüzuruna gedir.

Əsir alınan Nəsimi çətinliklə də olsa Əmirin hüzuruna çıxmağa müvəffəq olur. Artıq burada biz Əmir Teymuru sırf bədii konteksdə görürük.

" - "Həqqəm" deyib it kimi gəbərənlər çox olub! Sən ölürsən! Uzan və üzünü qibləyə çevir! - dedi və eyni zərbli tappıltılarla aralandı.

Təsir hədəfi yox, Nəsiminin ümidləri uzaqlaşıb gedirdi. Üçgünlük möhlətin artıq ikinci gününün başlandığını, təsir hədəfinə əli çatmasa ustadını və ustadı ilə birgə yüz min mələkmisalı ölümə məhkum edəcəyini düşündükdə o, yenidən çırpınıb bu dəfə Teymurun özünü də diksindirən hökmlə:

- Dayan, əmir! Məramımı sənə çatdırmayınca ölüm yoxdur mənə" - dedi və qamətini düzəldib, başdan - ayağa qan içində Divə doğru addımladı..." (232/2)

" - Ağız bağlamaq hökmdarın acizliyidir, Əmir Teymur! Mənim dilimdən yox, sənin bəlan İldırım Bayəzidin, Sultan Əhməd Cəlairinin, Qaraqoyunlu Yusifin və qeyri hökmdar, hakim və sərəsgərlərin qılınclarından gəlir! Məni dinləyib Fəzl məramından xəbər tutmasan bu xəndəklərin arasında ordunla bahəm məhv olacaqsan! - deyib Divi Divin öz silahı - qorxu ilə əsir aldı..." (234/2) Bu sözlərdən sonra Nəsimini Əmirin hüzuruna aparırlar. Bütün roman boyunca hazırlanan zəmin əsasında "iki aləm üz-üzə gəldi". Gördüyü işgəncələrdə bədəni yara içində qalsa da,

Nəsimi özünün bütün iradəsini toplayır, yaralarının sızıltısına məhəl qoymadan, dünya fatehinə "həqq sirri"ni necə açacağını düşünməyə başlayır. Teymur sükutu pozaraq Nəsimidən soruşur:

"- Baş açmıram, nə sirri-xudasan! Gah mənə təzə qiblə göstərib rəhm diləyirsən, gah da müttəfiqlərimizlə hədələyirsən! Kütahını de: nə üçün gəlibsən?" (235/2) Nəsimi tələsmədən sözə başlayır, fikirlərinin Əmirdə necə təsir oyatdığına diqqət edərək davam edir.

"...Zülmətdən qorxu törədi. Qorxudan qul törədi. İnsan öz xaliqindən ayrıldı, böyük ikən kiçildi, zərqiymət ikən qiymətsiz oldu! Odur ki, sən bu qədər baş kəsirsən, Əmir və kimin başını kəsdiyini bilmirsən! ...Qorxu törətməklə sən özünü məhv edirsən, Əmir! - dedi. - Vəliəhdin Cahangir qorxu qurbanı oldu! Digər vəliəhdin Miranşah qorxu əsirliyinə diri ikən ölüdür! Sən özün, bu qüdrətli cahangir, bu cəhənnəm odu içində düşərgə salıb xəndək arasında otursansa, aşikar deyilmi ki, özün də qorxu əsirisən?!" (236/2)

Qəzəbdən coşan Əmir Nəsimini qılıncla vurmaq istəsə də, gəlib onun ikiaddımlığında dayanır.

" - Xırda həşərat iri həşəratdan qorxur... Qoyun qurddan qorxur... Gücsüz adam güclüdən... Cəmi bəşər də bir olan Allahdan qorxur! - dedi. - Qorxu üstündə bərqərar deyilmi dünyamız?!" (237/2)

Nəsiminin ağlabatan sübutları qarşısında Əmir Teymurun təslim olmaqdan başqa çarəsi qalmır. "İnandırdın məni... İnandırdın ki, Fəzlulullah hərb niyyətində deyil. Amma onun mənə vurduğu zərəri heç bir hökmdar vurmayıb. Şahdan tələbim hökmdə qalır! - dedi. -Güzəştim ancaq bu ola bilər ki, sən Rumda işini görüb qayıdana qədər şah onu öldürməyib zindanda girov saxlasın". (240/2)

Nəsimi son ana qədər iradəli şəkildə mübarizə aparır, hətta Divə belə öz sözləri ilə təsir etməyi bacarsa da mürşidinin ölümünə əngəl ola bilmir. Doqquz müridin parçalanması, arada yaranan iğtişaşlar, daxili çəkişmələr qanlı toqquşma ilə nəticələnir. Həmin gün Fəzlin edam edildiyi gün idi, onu atlara bağlayıb sürüyürlər. Müridlər xəndəklərə tökülüb ölümləri bahasına digərlərinin keçməsinə şərait yaradırlar. Nəsimi bütün bunlara əngəl ola bilmir. Mürşidi kimi o da, "bu məhşərdir, ey müridlər! Dayanın! Əl saxlayın! Məhşərdir! Məhşərdir!" - desə də, onu dinləyən olmur.

Əsərin sonunda təxminən on bir il sonraki tarixi vəziyyət qısa şərh olunur. Müəllif göstərir ki, Teymurun Bayəzidə olan qəzəbinin səbəbi və onun ömrünün son illəri tarixdə həmişəlik qaranlıq qalmışdır. Onun ölmədən öncə etdiyi son qırğın tədbirində isə, öz adamlarına ərm verir ki, onun ölüm xəbərini hər yerə yaysınlar. Bunu eşidən hər kim baş qaldırsa onu məhv etsinlər. Həmin tədbirdən sonra Çinə yürüşə başlamış, bu dəfə onun üçüncü ölüm xəbəri yayılmışdı ki, artıq bu, yalan deyildi. Daha sonra belə bir iddia yayıldı ki, guya Əmir Teymurun tabutundan inilti gəlir. Belə qərara gəldilər ki, "yurdlarından didərgin düşənlərin iniltisidir o inilti. Əsirləri buraxın inilti kəsiləcək". "...Lakin tabutda hərb allahı, külli qırğın tanrısı yatırdı və o tanrının dəhşəti heç kəsi tərpənməyə qoymurdu. Odur ki, keşikçilər Gülüstan sarayının darvazasını açanda onlara mane olan tapılmadı. Uzun illər ərzində uca, qalın, sərt divarlar arasında, açıq səma altında Əmir Teymurun ordusu üçün qılınc, qalxan, gərdənbənd, nizə düzəldə-düzəldə, aclıqdan, həsrətdən, ləyaqətsizlikdən saralmış, gənc ikən qocalmış əsirlər səssiz-səmirsiz göz yaşı tökə-

tökə əsnaf içinə, şəhərə dağılışanda harada isə, kim isə sonuncu xəbəri car çəkib, tabutda iniltinin kəsildiyini xəbər verdi. Divin ömrü beləcə başa çatdı." (297/2)

"Məhşər"də Əmir Teymur obrazı bədii cəhətdən hərtərəfli təsvir olunmuşdur. Müxtəlif hadisələr axarında onun da daxili aləmi xarici görünüşündə öz təzahürünü tapır. Qəzəblənəndə, oğluna cəza verəndə, Əhməd Cəlairini aldadanda, Nəsimi ilə söhbətində və s. müəllif onu bir obraz kimi fərqli cəhətləri ilə əks etdirmişdir. Ümumiyyətlə isə, nə qədər xəstə olsa da, yeriməkdə çətinlik çəksə də, o, öz zəhmini itirmir. "Qaya torpaqda bitib-bərkiyən kimi, Teymur da atın belində bərkimişdi. Yəhərdə onun şikəstliyi və xəstələiyi bilinmirdi. Ayağı torpağa dəyəndə isə elə bil yer ayağının altından qaçdı, iki ərəş uzununda nəhəng gövdə dayağını itirib o yan-bu yana əyildi. Düşərgənin hər yerindən axışıb gələn ordu rəisləri alimənsəb seyidlər və çox vaxt rəsmiyyət gözləməyən batqanlı dərvişlər də əyilib təzim etdilər". (104/2)

"Çox pis axsasa da çala-çuxura düşüb, yıxılmamaq üçün addımlarını itiləşdirəndə atıla-atıla dingildəyə-dingildəyə yerisə də, onun ümumi görkəmi gözəl idi. Gözəl və qorxunc. Xüsusilə gözləri heybətli idi - parıltısız, işıltısız, durğun və gərgindi: heç kəsə və heç nəyə baxmasa da, elə bil hamını, hər şeyi, hətta ürəklərdə narazılığı da görür və hamını bir yerdə ittiham edirdi. Kimin ağlına gələrdi ki, əslində bu dəm onu sümüklərində dözülməz ağrılardan və tezliklə gözdən uzaq olub əzablarını gizlətməkdən başqa heç nə düşündürmürdü"? (106/2)

Nəticə olaraq deyə bilərik ki, ədəbiyyat tariximizdə bizi dünya mədəniyyətinə tanıdacaq əsərlər içərisində "Məhşər" əsərini də saymaq lazımdır. Təəssüf ki, hələlik bu roman ədəbiyyat aləmində öz dəyərini yetərincə almamışdır.

Ədəbiyyat

1. Azərbaycan tarixi. Yeddi cilddə. III cild. (XIII-XVIII əsrlər). Bakı, "Elm", 2007, 592 s.
2. İsa Muğanna. Seçilmiş əsərləri. Altı cilddə III cild. Bakı, "Avrasia press", 2009, 304 s.
3. İsa Muğanna. Seçilmiş əsərləri. Altı cilddə VI cild. Bakı, "Avrasiya press", 2009, 384 s.
4. Himalay Əvəroğlu (Qasımov). Sənət və sənətkarlıq məsələləri yeni düşüncə müstəvisində. Bakı, "Elm və təhsil", 2011, 368 s.
5. Müasir Azərbaycan Ədəbiyyatı. (Ali məkt. üçün dərslik) İki cilddə II cild. Bakı, Bakı Universiteti nəşriyyatı, 2007, 564 s.
6. Castin Marozzi. Dünya Fatehi Teymur. Bakı, "Qanun nəşriyyatı", 2012, 488 s.

Кадирова Туркан

Образ Амир Теймура в романе Исы Муганны «Судный день» в художественном и историческом контексте.

Резюме

Иса Гусейнов – Муганны является автором своих произведений, в которых выделяется собственными качествами и идеей. Его исторический роман «Судный день» считается вершиной его творчества. Нашествие монголов в

Азербайджан, исторический - социальное обстоятельство, жизненный образ народа и т. д в произведении обосновывается фактами, в которых писатель выражает свою мысль художественным образом. В мировой науке имеется множество произведений, в которых даются различные сведения об Амир Теймуре. Однако учитывая его мысли исключительно об Азербайджане, о народах Кавказа, с точки зрения изучения в целом некоторых исторических реалий в единстве с неизбежностью, роман «Судный день» имеет особое значение. Как известно в произведении ряд с другими образами, образ Амир Теймура был создан блестящим. В этой статье в романе «Судный день» образ Амир Теймура характеризуется в художественном и в историческом аспекте. Здесь достаточно были извлечены исторические материалы и факты из романа.

Gadirova Turkan

Amir Teymur image in artistic and historic context at “Mahshar” romance of Isa Mughanna

Summary

Isa Mughanna is the writer who is distinguished with is writing style. His historical novel can be considered the summit of his literary activities. The attacks of Mongolians to Azerbaijan, historical-social circumstance, the life of Azerbaijani people is substantiated by means of the definite historical chronicles, are expressed artistically by the ideas of a fanatic writer. It is enough works given different information about Amir Teymur to the world science. But his “Mahshar” romance is generally, very important from the point of view of learning of such historical realities in the unity with artistry, his exclusive thoughts about Azerbaijan, Caucasus nation. It is clear that in this work at the same time even the splendid character of Teymur was created as the other characters. In this article Teymur who is the main character of the novel of “Mahshar” was characterized both in literary and historical aspects. Here it was utilized both the facts of the novel and the historical materials.

Rəyçi: Gülarə Abdullayeva
filologiya üzrə fəlsəfə doktoru, dosent

YEGANƏ HÜSEYNOVA
Gəncə Dövlət Universiteti
yegana@mail.ru

B.VAHABZADƏ YARADICILIĞINDA VƏTƏN SEVGİSİ

Açar sözləri: Vətən, azadlıq, mübarizə, yaradıcılıq, şair.
Ключевые слова: Родина, свобода, борьба, творчество, поэт.
Key words: Motherland, freedom, fight, creative activity, poet.

Bəxtiyar Vahabzadə yaradıcılığının ruhu, xəmiri azad gündən, Ana Vətənin və xalqının azadlığı, istiqlaliyyəti kimi müqəddəs misralardan yoğrulmuşdur.Şair bütün yaradıcılığı boyu vətən sevgisinə, vətəndaş yanğısına xüsusi yer ayırmışdır.

Bəxtiyar Vahabzadə həyata fəal surətdə nüfuz edən, daim düşünən, axtaran, qələmə aldığı hər şeyə ehtiramla yanaşan, millətinin dərdini özününkü bilən bir şair olmuşdur. Şair ətrafında baş verən hadisələrə heç vaxt biganə qalmamış, dərhal həmin hadisə haqqında fikir yürütmüş, öz rəyini bildirmişdir. Bəxtiyar Vahabzadə xalqın danışan dili, düşünən beyni, ən çətin anlarda belə heç kimdən qorxmadan sözünü deməyi bacaran vətəninin sədaqətli oğlu olmuşdur. B.Vahabzadə bütün yaradıcılığı boyu vətən sevgisinə, vətəndaş yanğısına xüsusi diqqət ayırmışdır.

B.Vahabzadənin poemalarında zaman yaşayır, Vətənə məhəbbət ön plana çəkilir. Şairi yaşadan da onun sevgisi və xalqın ona olan məhəbbətidir. Şair yaşayan, yaradan, döyüşən Vətəni və xalqı qarşısında öz vəzifəsini layiqincə yerinə yetirmiş olan bir vətəndaşdır. Bəxtiyar Vahabzadənin elinə, torpağına, kökünə bağlılığı, təkrarsız fərdi milli çalarlığı onu müasir poeziyamızın tarixi bədii faktına və hadisəsinə çevribdir. B. Vahabzadə həqiqi milli şair kimi poeziyamızı dövrün ağır sınaqlarında qoruyub saxlamağı bacarmışdır.

“ Şairin tələtümü inkar və təsdiqi söz oyununda deyil, ali ehtirasdan, “əks-sədalıqdan” qəlb inamından doğur. Bizi əhatə edən aləmdə, hər nə varsa, Şairi dərindən-dərinə düşündürür; xeyirlə şəri, gözəlliklə eybəcərliyi, böyüklüklə kiçikliyi, bir sözlə insan ruhunun ali və xırda duyğularını poeziya səviyyəsinə qaldırmaq ehtirası Bəxtiyarın fitrətindədir. Mütəfəkkir sənətkarın, ustad şairin başlıca qayəsi, uğuru da bundadır. Qadın-kişi ünsiyyətindən doğan əbədi mövzu onun qələmində təzələnir, sevgilisindən küsənin nisgili, qəribəlikləri və bunun əksinə misralarda yaşayan mərdanə dözüm və vəfalılıq bizi gözlərimiz yaşarıncaya qədər kıvrəldir, çünki Şair hamıya doğma olan bu əzablı-işıqlı münasibətlərdə sözə sığışmayan ilahi duyğuları sehrlə ovlaya bilir” (Ç.Aytmatov).

Bəxtiyar Vashabzadə sözün əsl mənasında vətənpərvər şairdir, kamil insandır, sözün yaxşı mənasında oxucularına yolgöstərən və ağilli məsləhətçidir. Şair bütünlükdə xalqın tarixi və taleyi ilə bağlı məsələlərə toxunmuş, 1950-ci illərdən başlayaraq milli nədəniyyəti, milli dili və milli ədəbiyyatı müdafiə etməyə qalxmışdır.

Azərbaycanın şərəfini, şanını, onun sərvətini yadlar tərəfindən talıanmasına dözə bilməyən Şair əsərlərində səsini xalqa çatdırır, xalqı qəflət yuxusundan oyanmağa çağırır. B. Vahabzadə doğma Vətəninin ikiyə parçalanmasına, bir millətin ayrı-ayrı sərhədlər içərisində yaşamasına dözə bilmir. Xalqına qarşı olunan haq-

sızlıq onu hiddətləndirir, narahat edirdi və bu üzdən də Şair xalqı əsarətə boyun əyməməyə, azadlıq və bütövlük uğrunda mübarizəyə səsləyirdi.

"Bəxtiyar Vahabzadə poeziyamızda milli birliyin, vahid Azərbaycançılığın lideri idi. Bu fikri söyləməkdə onun poeziya tarixində xidmətlərini şişirtmək fikrihdə deyilik. Ancaq həqiqət budur ki, milli birlik, Azərbaycanı vahid görmək ideyası sovet dönəmində Bəxtiyar Vahabzadə poeziyasından başlayır" Vaqif Yusifli).

Bəxtiyar Vahabzadə zəngin yaradıcılıq yolu keçmiş, geridə qoyduğu möhtəşəm əsərləri ilə daim diqqəy mərkəzində olmuşdur. Xalq həyatının canlı tısviri, insanların gündəlik yaşayışında tez-tez rast gəlinən, ancaq heç də diqqət etmədiyimiz xırda nüanslar belə onun yaradıcəılığında incə detallarla əks olunmuşdur. Bununla da yaradıcılığı xalqdan uzaq düşməmiş, hər zaman yeni mövzular üçün ilham qaynağı olmuşdur.

Bəxtiyar Vahabzadə insan həyatının elə psixoloji məqamlarına toxunur, elə hadisələri qələmə alır ki, onun bu psixoloji məqamları müşahidə etməyə necə imkan tapdığına oxucu heyran qalır. Hər misrasını belə, oxuduqca oxucu düşünür ki, Şair məni və ya ətrafımda baş verən hadisələri qələmə alıb.

B.Vahabzadə yaradıcılığının bir qismini poemaları təşkil edir və poemalarında da Vətən sevgisi, azadlığı daha qabarıq şəkildə ğzünü büruzə verir.

Şair bütün yaradıcılığı boyu doğma dilə hörmət, vətənə məhəbbət, millətə sədaqətlə yanaşmışdır."Yollar-oğullar" poemasında da vətəndaş məhəbbəti, vətən sevgisi qabarıq şəkildə özünü göstərir. Poema 1962-1963-cü illərdə yazılıb. Şair poemada Fransanın Əlcəzair üzərindəki hökmranlığından söhbət açmışdır. Poemada göstərilir ki, vətənin Əbdülqadirləri ilə yanaşı Ben Osman kimi oğulları da var ki, Vətənin dar günündə onun sərvətindən isyifadə edib yad ölkə üçün çalışır. Hətta iş o yerə çatıb ki, Ben-Osman Əlcəzairdəki arvadı Zəhranı da bəyənmir. "Zəhranın mədəniyyəti çatmır" – deyib, yeni bir "mədəni canan", daha dəqiq desək özünə arxa axtarır. Axtardığını tapan Ben-Osman Fransa nazirinin kiçik bacısı Nana ilə evlənir. Nəhayət ki, adını da dəyişir, Nana üçün dönüb olur Simon. Simon düşünür ki, firənglər gələndən bəri əlcəzairllər də həm mədəni, həm də təhsilli oldular. Daha düşünə bilmədi ki, Avropa ölkələri mədəniyyəti şərqlilərdən öyrənib.

Şair Ben-Osmanın timsalında yüzlərcə ben osmanlardan danışır. Vətənini, qadınını, canından olan canını-övladını milyonlara dəyişən, qəlbində vətən məhəbbətini boğub lüks həyata xərcləyənlərin aqibətini Şair poemada açıqlayır. Vahabzadə göstərir ki, bir ölkənin sərvətini digər bir ölkə axıra kimi mənimsəyə bilməz.Yüz otuz iki il sonra da olsa əsarətdə olan, sərvətinin talandığını görən vətən oğulları cana doyub ayağa qalxacaq, mütləq üsyan edəcəklər. Şəhid versələr də verdikləri şəhidləri ilə fəxr edəcəklər. Necə ki, 70 il əsarətdə olan Azərbaycan oğulları cana doyub bunu etdilər. Poemanı böyük ürək ağrısı ilə, yana-yana qələmə alan Şair burada yalnız Əlcəzairin acı taleyini deyil, həm də Azərbaycanın dərdlərini oxucuya çatdırır. Şair poemada göstərir ki, ben osmanlar öz doğma vətənində yad dildə təhsil alır, yad ölkənin tarixini öyrənir.

Səni qınamıram, sən öz elində.
Aldın təhsilini firəng dilində.
Firəng tarixini sənə keçdilər
Özünə yad oldun, yada vuruldun

Firəng tarixini sən bildin əzbər
Babandan, atandan xəbərsiz oldun.
Unutdun ay yazıq öz adını da,
Yaman oxladılar gözündən səni.
Tanıya bilmədin əcdadını da ,
Gör necə aldılar özündən səni!

Şairin poemada göstərdiyi bütün bu keyfiyyətlər yalnız əlcəzairli Ben Osmanda idimi? Bəxtiyar Vahabzadə bu poemanı elə bir dövrdə yazmışdır ki, ətrafında onlarca ben osmanlar var idi. Mahmudlar, Məmmədlər həmin dövrdə dönüb Mişa olmuşdular və onlar öz mişalılıqları ilə öyünürdülər. Azərbaycanda da tanyalar, sonyalar məsmələri əvəz etməyə çalışırdılar (hərçəndi onlar nə qədər istəsələr də bunu bacara bilməzdilər). Doğma vətəninin sərvəti yad ölkələr tərəfindən talan olurdu. Şair bu dərdə dözə bilmirdi, yana-yana var gücü ilə qışqırmaq istəyirdi, səsini bütün dünyaya çatdırırdı. "Nanalardan, onlardan olan övladlardan çəkinin, öz ölkənizin Zəhra kimi qızlarını qoyub, nanaları evinizə xanım, başınıza tac seçməyin" – deyirdi.

Əyil özün əyil,xalqı əymə sən,
Bu haqqı heç kəsə verməyib Vətən!
Sığın ömür boyu qoltuğa sığın,
Lənət bu halına min dəfə lənət!

Şair bu sözləri təkcə Ben-Osmana demirdi, bu sözlər onlarca ben osmanlara ünvanlanmışdır. Onlar müvvəqqəti kef xatirinə mənəviyyatlarını qurban verirlər. Belə "oğullar" Azərbaycanda da olub. Tükəzbanı bəyənməyənlər sonyaları, anyaları özlərinə yar edirdilər. Vətənin sərvətindən yad ölkə doya-doya istifadə etdiyi halda , "sapı özümüzdən olan baltalar"ın səyi nəticəsində vətən övladları da sərvətə möhtac yaşayırdılar. Nə idi bunun səbəbi?. Şair bu suala cavab axtarırdı. Zəhranın oğlu Mustafa Vətənini yadlardan təmizləmək istərkən, Nananın oğlu Etyen dayılarından təlim alır, kolleclərdə oxuyur. Mustafa haqq səsini ucaldan əsil oğul kimi Vətəni işğalçılardan qoruyan, böyüklərə hörmətlə yanaşan, ananı və Vətəni hər şeydən üstün tutan, tərəfindən hörmətsizlik görsə də ata adına ehtiramla yanaşırsa, Etyen Mustafanın tamamilə əksidir. O, atasının yanında qıçını qıçının üstünə aşırıb "rok-n-rol" üstə fışqırıq çalamağı da, siqaret çəkməyi də ayıb bilmir. O, həm də qorxaqdır. Onun üçün Vətən sevgisi deyilən bir çey yoxdur. Etyen yalnız yersiz pullar xərcləməyi, yüngül həyat tərzi keçirməyi sevən bir adamdır.

Şair poemada iki müxtəlif xarakterli qadını da qarşılaşdırır.Biri sadə həyat tərzi keçirən, ərindən xəyanət görsə də həmişə onun haqqında hörmətlə danışan, yeganə balasını Vətən uğrunda qurban verməyi bacaran, lazım gəldikdə özü də Vətən üçün döyüşən Zəhra, digəri isə gözü yalnız var-dövlətdə olan, məhz bunun üçün də dərisinin rənginə görə lağa qoyub güldüyü bir adamla ervlənən, işi-gücü yalnız evini və əyin başını bəzəmək olan, oğlu Etyenə mənasız var-dövlətdən başqa digər bir şey aşılamayan, ərinə bir qul, nökər kimi baxan Nananadır.

Bəxtiyar Vahabzadə poemada göstərir ki, vətənində əsir kimi yaşamaqdansa, Mustafa kimi azad və hörmətlə xatırlanan şəhid olmaq yaxşıdır. Çünki Vətən şəhid

verməzsə azadlığa qovuşa bilməz. Şəhidlər ölmür, unudulmur, yaddaşlardan silinmir – daim yaşayırlar. Vətəndə mütləq azad xalqın bayrağı dalğalanmalıdır. Onda demək Vətən var, xalq yaşayır və o xalqın adət-ənənəsi qorunub saxlanacaqdır. Onda bir daha Vətən torpağını işğal etmək üçün yadellilər cürət edib buralara basqın etməzlər. Onlar biləcəklər ki, bir daha başqa ölkəni, xalqı tapdalayıb onun torpağını mənimsəmək, zəbt etmək olmaz, çünki o ölkənin vətən torpağı üzərində daim ruhu gəzən, o torpaqları qoruyan şəhidləri var.

Poemada Əlcəzair-Fransa hadisələrindən danışılsa da oxucu hadisələrdə özünə, vətəninə bir yaxınlıq hiss edir, Belə ki, Azərbaycan da neçə illər əsarətdə qalıb, işğalçı Sovet Rusiyası tərəfindən sərvətimiz, torpağımız, üstəlik mənəviyyatımız tapdalanıb. Bizim də yetərincə ben osmanlarımız olub, nanalar hələ də bizlərə gəlindir, etyenlər əmiyə yox, dayılara bənzəyir.

Bəxtiyar Vahabzadə poeziyasının ən gözəl keyfiyyətlərindən biri insanı mübarizədə, həyatı qaynar axında, hisslər və fikirlər burulğanında təsvir etməsidir. Həyatda mübarizədən qaçanları, xeyri də, şəri də eyni laqeyd gözlərlə süzənləri sevməyən Şair bədii yaradıcılıqda da şablonçuluğun düşmənidir.Şair ətrafında baş verən hadisələrə həssaslıqla yanaşır.

Bəxtiyar Vahabzadə poemalarında bir daha sübut edir ki, ürəkdən gəlməyən , boğazdan yuxarı deyilmiş söz əsil şeirin və şairin təbiətinə ziddir. Şairin əsərləri oxucusuna həm yoldaş, həm də həmsöhbət olurlar. Həm də elə bir həmsöhbət ki, onunla yoldaşlıq edən yolundan azmaz,məsləki düz, amalı, əqidəsi təmiz olar.

Gərgin dramatik səciyyə daşıyan bu əsərdə Vətənini sevən, imperializmə nifrət edən nəcib bir xalqı görürük. Şairin həm əsas hadisələrin təsvirində, həm lirik ricətlərində Əlcəzair xalqına bəslədiyi məhəbbət çox gözəl ifadə olunmuşdur. Ümumiyyətlə isə Bəxtiyar Vahabzadənin əsərlərində müasir insanın hissləri, mənəvi-əxlaqi keyfiyyətləri, istək və arzuları müxtəlif bədii boyalarla əks olunmuşdur. Onun əsərlərində biz daha çox lirik qəhramanla görüşürük və bu qəhramanın səmimi, içdən gələn hissləri ilə tanış oluruq. B.Vahabzadənin əsərlərində müasirlik hissi çox güclüdür. Şair qələmə aldığı bütün ictimai-tarixi məsələlərə də insanın maddi ehtiyacları və tələbləri baxımından yanaşmışdır. Bəxtiyar Vahabzadə elə fikirləri və hissləri diqqət mərkəzinə çəkmişdir ki, onlar bu gün müasir insanı düşündürən, həyacanlandıran fikir və hisslərdir. Şair insanı zaman və məkandan təcrid olunmuş halda təsvir etmir. O yerdə ki, bədii meyar imkan verir, orada B.vahabzadə insanın yerini, yurdunu, ünvanını göstərmişdir. O yerdə ki, imkan vermir, orada qəhrəmanın kimliyi və haradan olduğu hissiyyatından, fikirlərindən, danışıq tərzindən, əxlaqi sifətlərindən aydın olur.

"Müasirlərinin mənəvi aləmini bütün incəliklərinə qədər öyrənib poeziyanın yeni, bitməz-tükənməz imkanları ilə dərin fəlsəfi planda əks etdirmək Bəxtiyar yaradıcılığının səciyyəvi əlamətidir" (B.Nəbiyev, "Kommunist" qəz.1985, 16 avqust). Şair yaşanmış illəri ürəyin döyüntüsü ilə ölçür və bu dəqiq, ölçüdür. Belə bir ürək döyünəndə, ağrıyanda və hökm edəndə, nifrət edəndə və sevəndə yaşayırıq! Bütün bu dediklərimizi B.Vahabzadə poeziyasını oxuyanda hiss edirik. Poeyiyanı öz ömrümüz kimi yaşayırıq. Həyatda rast gəldiyimiz hər cür insanla burada rast gəlirik. Vahabzadə poeziyası hər bir oxucu üçün müəllimdir, hər birimizə ayrı-ayrılıqda həyatı öyrədir,olmuşlardan dərs almağa çağırır.

Şair şeirlərində yaşaya-yaşaya yaşamayan, diri ikən ölənlərə acıyir. Qələmə aldığı əsərlərində zamanın insan fikrində doğurduğu təbəddülatları əks etdirir.İnsan, tarix və zaman Bəxtiyar Vahabzadə poeziyasının əsasını təşkil edir. Bəxtiyar poeziyası döyüşdür o, ictimai haqsızlıqla, biganələrlə, şöhrətpərəstlərlə, qorxaq və əxlaqı natəmizlərlə döyüşür. Bəxtiyar poeziyasının hər misrasını oxucu anlayır və özü üçün təhlil edib nəticə çıxartmağı bacarır.

Bəxtiyar Vahabzadə "Mənə nə var? Mənə dəyməyən ilan min il yaşasın" devizi ilə yaşayanları da qəflət yuxusundan oyanmağa çağırır.Şair oxucularını haqqa göz yummamağa səsləyir.Oxucuya müraciətlə deyir ki, fikirləşməyin ki, haqqı tapdanan şəxs nə dostundur, nə qohumun.Mənə nə var haqqı tapdanan şəxsdən, məndən ötsün kimə nə olur olsun.Fikirləşin ki, bu gündən sizin üçün də var.Bir gün sizin də haqqınız tapdanmasın deyə ətrafda olanlara göz yummayın.

Bəxtiyar Vahabzadənin əsərlərində müasirlik hissi güclüdür. O qələmə aldığı bütün ictimai-tarixi məsələlərə də insanın maddi ehtiyacları və tələbləri baxımından yanaşmışdır. Şair elə fikirləri və hissləri diqqət mərkəzinə çəkmişdir ki, onlar bu gün insanı düşündürən, həyacanlandıran fikir və hisslərdir.

Ədəbiyyat

1.M.Hüseyn, Narahat şair, Bakı,964
2.Şənbə gecəsinə gedən yol, Bakı,1991
3.Azərbaycanın Bəxtiyarı, Bakı,1995
4.B.xtiyar Vahabzadə, Fəryad, Bakı,1995
5.B.Vahabzadə, Avtobioqrafiyam, "Ədəbiyyat qəzeti", 19 avqust, 2001
6.B.Vahabzadə, Əsərləri, 10 cilddə, Bakı, 2009.
7.Yusifli Vaqif, Poeziyamızın Bəxtiyarı, "Ədəbiyyat" qəzeti, Bakı 2010, 20 avqust.

У.Гусейнова

Тема родины в творчестве Б.Вахабзаде

Резюме

В статье объектом анализа стала любовь к Родине, привязанность к Родине и проблема свободы в творчестве Бахтияра Вахабзаде – одного из выдающихся представителей азербайджанской литературы. В центре внимания в статье находится поэма поэта «Пути сыновья».

В статье говорится о разграблении богатств государства Алжир иноземцами, о том, что земли родины остались под топотом врагов, и об отношении разгневанного Поэта к данной горькой действительности. Слухи об изложении Б.Вахабзаде горечи израненной и разрубленной Родины в поэме «Гюлустан» в тот период, когда Советское государство готовилось к 150-летию договора Гюлустан, разнеслись по всей стране. В статье говорится о том, что Вахабзаде призывал страну к пробуждению еще в 1950 годах.

Y.Huseynova

The subject of Motherland in the creative work of V.Vahabzade

Summary

The problem of Love for Motherland, Affection for Motherland and freedom of Motherland have become the object of analysis in the creative work of V.Vahabzade one of the prominent representatives of modern Azerbaijan literature in the article. The poem of "Roads sons" of the poet is in the focus of attention in the article.

The article is about the occupation of the wealth of the state of Algeria, motherland's being under the heels of the enemies and the opinion of the poet getting furious because of this bitter truth. The description of the sorrow of the injured and splintered motherland by the poet in the poem of "Gulustan" in the period of preparation of Soviet country for 150 anniversary of Gulustan treaty has been heard in all country. The article is about calling the people to awakening by Vahabzade even from the 1950th years.

The freedom of motherland and love is spoken generally in the poems of Bakhtiyar Vahabzade, the poem "Roads sons" has been researched more and different images (Ben Osman, Zahra, Nana…) in the poem have been analyzed.

The certain origins related to the subject about Bakhtiyar Vahabzade are referred in the article.

Rəyçi: Professor Xəlil Yusifli

SAKİBƏ ƏLƏSGƏROVA
filologiya üzrə fəlsəfə doktoru,
Azərbaycan Dövlət Pedaqoji Universiteti
sakibemail.ru

MƏHƏMMƏD HADİ, YAXUD «MAT VƏZİYYƏTDƏ OLAN ŞAH»A ÖLÜMÜNDƏN SONRA DEYİLƏN «SAĞLIQLAR»

Açar sözlər: M.Hadi,fəlsəfə, bədiilik, elm, publisistika
Ключевые слова: Махаммад Хади, философия, художественность, публицистика.
Keywords: Mahammad Hadi, philosophy, artistry, journalism

Romantizm özünəməxsus ideya məzmunu olan bir yaradıcılıq metodudur və fəlsəfi prinsipləri mövcuddur. «İnsan öz ağlının, təxəyyülünün sayəsində azad cəmiyyət və həyat qura bilər» düşüncəsi ilə gələcəyin parlaq olacağına inanan romantizmin nümayəndələri azadlıq, bərabərlik, insani münasibətlərin bərqərar olması və s. kimi mütərəqqi ideyalar təbliğ edirdi. Ancaq ağlın gücünə arxalanan bu cərəyanın nümayəndələri uzaqda olmayan xoşbəxt yaşamı düşünür, özlərində olan romantizmi daha da gücləndirirdilər. H.Cavid, M.Hadi, A.Səhhət, A.Şaiq və b. demokratik cərəyanın qabaqcıl nümayəndələri sırasındadırlar.

XX əsr Azərbaycan romantizminin ilk böyük nümayəndəsi olan M.Hadi yaradıcılığının dünya kontekstində qiymətləndirilməsi, romantizm tarixində mövqeyinin müəyyənləşdirilməsi üçün hadişünaslıqda çox işlər görülüb. Müxtəlif elmi əsərlərdə şairin «İnsanların tarixi faciələri, yaxud əlvabi-intibah» əsəri, onun Türkiyə səfəri, müharibə iştirakçısı olması, Şərqə və Qərbə münasibəti öyrənilmiş və ədəbi qiymətini almışdır. M.Hadi tədqiq olunarkən onun yaradıcılığına münasibət birmənalı olmamışdır. Vulqar-sosioloji təmayülün nümayəndələrinin ən çox zərər verdiyi şəxslərdən biri M.Hadi olub. Onun yaradıcılığından nümunələrin orta məktəb kitablarına salınmasına qarşı çıxıblar. Xalq şairi S.Vurğun 1947-ci ildə çıxışlarının birində deyirdi: «Məhəmməd Hadi barəsində bir-birinə zidd fikirlər söyləyirlər. O, bizim ədəbiyyatımızın böyük şəxsiyyətlərindən biridir. Belə bir şairin bütün zəif cəhətlərini göstərmək olar və lazımdır, ancaq onu tamamilə rədd etmək olmaz».

M.Hadidən danışarkən «Füyuzat» jurnalını, onun redaktoru Ə.Hüseynzadəni xatırlamamaq olmaz. Ona görə ki, Hadi yaradıcılığında olan ziddiyyətli fikirlərin bir çoxu füyuzatçıların arasında olarkən formalaşıb. Mürtəce dini mövhumatı dəstəkləmək, azadlıq ideyalarına qarşı çıxmaq və s. kimi ideyalar ancaq mürtəce dairələrin rəğbətini qazana bilərdi. Sonralar Hadidə bu hisslər bir qədər zəiflədi və 1906-cı ildə «Təkamül»də «El fəryadı» adlı bir şeirlə çıxış etdi.

Hürriyyət ilə millət edər kəsbi-məali,
Hürriyyət ilə mümkün olur qiyməti-ali…

Sonrakı illərdən etibarən Hadi yaradıcılığında vətənpərvərlik ideyaları güclənir, artıq vətənini «Ey pəriyi-vicdanım» deyə vəsf etməyə başlayır. Zaman keçdikcə Hadi bu nəticəyə gəlir ki, azadlıq, müstəqillik yoxdursa, inkişaf da

olmayacaq, xoşbəxtlik də. Xarici dövlətlərin Azərbaycanı soyub talaması, xalqın mədəni səviyyəsinin və milli şüurunun aşağı olması şairi düşündürür. «Nəyimiz var?» şeirində bu msələlərə ürəkağrıdıcı olsa da cavab verməyə çalışır: «Çox azdır bizdə insan, çox da çox heyvanımız vardır».

Görkəmli mollanəsrəddinçi C.Məmmədquluzadə dəfələrlə Hadi yaradıcılığına müsbət münasibətini bildirmiş, onun diqqətini xalqımızın həyatındakı çatışmamazlıqlara yönəltməyə çalışmışdır. O, Füzulini dərindən sevən Hadinin tarixin ibrət dərslərindən möhkəm nəticə çıxardığı qənaətinə gəlmişdir. Azərbaycan ədəbiyyatşünaslığının sayılıb-seçilən alimlərindən olan Ə.Mirəhmədov Hadi kimi insanlar üçün tarixi sığınacaq hesab edirdi. Hadi dözülməz həyat keçirib, sevdiyi Füzulini də «bəxtsiz şair» hesab edir.

Arif olmuşkən pərişan, gülmədə cəmiyyəti.

Hadi yaradıcılığında insan konsepsiyası bir xətt olaraq keçir. İnsanın yaşam uğrunda mübarizəsi, arzuları, başına gələnlərin xeyirli və zərərli tərəfləri, nadanlığı Hadinin ümumi-sosioloji düşüncələrinin məntiqi nəticəsidir.

Nəzər qıl, diqqət et, öyrən həyatın əsl mənasını,
Həyatından sənin bir mətləbü mənzur lazımsa.

Hadi yaradıcılığı hər dövr üçün oxunaqlıdır. Ona görə ki, onun əsərlərində həyat dərslərindən xeyli sayda nümunələr var. Hadi oxumağa, öyrənməyə və nəticə çıxarmağa səsləyir, öz müşahidələri ilə mövcud ictimai-siyasi quruluşu idealizə edir, əxlaqi və mənəvi tərbiyəyə çağırır.

Qardaşım, işsiz oturma karigahi-dəhrdə,
Qul olur kar əhlinə ol kimsə kim bikardır…

Filosofların əksəriyyəti o qənaətə gəlib ki, hər ölkənin tənəzzülü və tərəqqisi o ölkənin xalqının əxlaqi və mənəvi tərbiyəsi ilə bağlıdır. Məzlumluq qismət deyil, qisməti insanın özünün çağırmasıdır.

Əziz Mirəhmədov, Müdhəm Ağamirov Azərbaycan ədəbiyyatı və ictimai-siyasi fikri tarixində görkəmli şəxsiyyətlərdən biri kimi qiymətləndirilən Məhəmməd Hadinin yaradıcılığına ədəbi-fəlsəfi baxımdan yanaşaraq onun dünyagörüşü və yaradıcılığının ideya-siyasi istiqamətini işıqlandırmışlar. Mir Cəlal Paşayev, M.Arif, C.Xəndan, M.C.Cəfərov, K.Talıbzadə kimi görkəmli ədəbiyyatşünaslar Azərbaycan ədəbiyyatında romantizm probleminin mühüm cəhətlərini nəzərdən keçirmiş, onun nümayəndələrini dönə-dönə ədəbi ictimaiyyətə xatırlatmışlar. «Azərbaycan ədəbiyyatında romantizm» əsəri ilə M.C.Cəfərov bu sahədə olan boşluğu aradan götürmüş, Hadi kimi sənətkarları mütərəqqi romantizmin nümayəndəsi kimi təqdim etmişdir.

AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru İslam Qəribli romantik poeziyamızın yaradıcılarından olan Məhəmməd Hadinin irsini uzun illərdir tədqiq edir. Onun davamlı tədqiqatı hərtərəfliliyi, obyektivliyi, eyni zamanda elmi-filoloji təhlili ilə çox fərqlidir. Bu fərqli üstünlük Hadi haqqında daha bir monoqrafiyanın ortaya çıxmasına səbəb oldu. Klassik ədəbiyyatın tədqiq olunması, nəşri ədəbiyyatşünasların mənəvi borcudur. Ancaq bu bəs eləmir. Ortaya qoyulan hər əsər İslam müəllimin «Məhəmməd Hadi və mətbuat (1905-1920)» monoqrafiyası kimi ədəbiyyatşünaslıq elmimizin uğuru kimi qiymətləndirilmir. Ağır zəhmət, uzun illərin təcrübəsi, hərtərəfli elmi dünyagörüş, bir mətnşünas alim səriştəliliyi ona imkan verib ki, dörd fəsildən, 444 səhifədən ibarət irihəcmli elmi əsərlə Hadinin ədəbi,

elmi, publisistik fəaliyyətini sistemli şəkildə təhlilə cəlb edərək qiymətləndirsin. İslam Qəriblinin özü bundan əvvəl Hadi haqqında iki elmi əsər yazıb.

Mərhum akademik Bəkir Nəbiyevin sözləri ilə desək, «Məhəmməd Hadi və mətbuat» monoqrafiyası hadişünaslığa yeni töhfədir. Əsərin əvvəlində verilən giriş hissədə Hadi haqqında yazılan bir sıra məqalə, kitab və monoqrafiya müəllifləri hörmətlə anılmış, verilmiş əmək tədqiqatçı gözü ilə qiymətləndirilmişdir. Monoqrafiyanın birinci fəslində Məhəmməd Hadinin «Həyat» və «Füyuzat» səhifələrində nəşr olunmuş şeirləri, publisistik yazıları, həyatın bir çox sahələrinə fəlsəfi münasibəti, poetik tərcümələri, iqtibasları və s. geniş şəkildə təhlilə cəlb olunmuş, alim tərəfindən orijinal fikirlər söylənilmişdir.

Mətbuatla ən çox əlaqəsi olmasına baxmayaraq, hələ də Hadi yazılarının bir çoxunun diqqətdən kənarda qalması alimi təəssüfləndirir. M.Hadi ərəb, fars dillərini, osmanlı türkcəsini yaxşı bilirdi, nəinki ölkəmizdə çıxan, hətta kənardan gələn mətbu orqanları izləyir, şəxsi mütaliəsi nəticəsində biliyini artırır, məlumatını zənginləşdirirdi. Monoqrafiyada XX əsrin əvəllərində Bakıda çıxan mətbu orqanlarla əlaqə saxlayan Hadinin publisist yazılarına, məqalələrində özünün yazdığı şeir nümunələrini verməsinə diqqət çəkməsi onu göstərir ki, müəllif Hadinin çap olunduğu bütün mətbu orqanları səhifə-səhifə izləmiş, hadişünaslığa orijinal fikirlər əlavə etmişdir. Hadi ilk əsərlərinin çap olunduğu «Həyat» qəzetində diqqəti əsasən vətənin inkişafına, cəhaləti törədən səbəblərə və onun aradan qaldırılması yollarına, insanlar arasında olan münasibətlərin müsbət tərəfə yönəlməsinə və s. diqqəti yönəldirdi. Onun üçün yeni nəslin tərbiyəsi, qadın azadlığı, cəhalətdən xilas olmaq kimi ən ümdə məsələlərin yazarlar tərəfindən işlənilib xalqa çatdırılması çox qiymətli idi. Elmsizliyi insanın özünə vurduğu zərər kimi qiymətləndirən Hadi cəhaləti «əhli-zəlalət» kimi qiymətləndirir, tərəqqi və təkamülə səsləyirdi.

İ.Qəribli əvvəllər təzadlar problemi ilə üz-üzə qalan, sonralar mühitin və demokratik əhvali-ruhiyyəli şəxslərin müsbət təsiri ilə istiqamətini tənzimləyən M.Hadinin yaradıcılığını haqsızlıq və ədalətsizliyə qarşı mübarizə edən, binəsib tərəfində olan, məzlumun həyat tərzinə etiraz edən, əzəli ədalətsizliyin əbədi olmaması uğrunda mübarizə aparan, bir sözlə ictimaiyyətin köməyi ilə həyatda olan bütün mənfilikləri aradan qaldırmaq istəyən bir yazarın ümdə arzuları baxımından təhlil edir, bununla bərabər cəmiyyətin inkişaf qanunauyğunluqları barədə şəxsi mülahizələrini ictimaiyyətə çatdırmağa çalışır. Əvvəllər dinə münasibətdə fərqli düşüncələri olan Hadinin sonralar dindən müsbət əxlaqi keyfiyyətlər kəsb etməyə çağırışı, İslam dinində tələb olunan qaydalara əməl olunmasının insanların xoşbəxt həyat sürməsinə səbəb olan bir vasitə kimi qiymətləndirilməsi müəllif tərəfindən şairin müsbət yöndə inkişafı kimi dəyərləndirilir və mənfi əxlaqi keyfiyyətlər inkişafa mane olan bir amil hesab edilir. Hadi insan arzularını maddi və mənəvi olaraq iki yerə ayırır, buna nail olmaq üçün səylə çalışmağı tövsiyə edir, tənbəlliyi tənəzzülə aparan mənfi keyfiyyət kimi qiymətləndirir. Alim Hadinin bu kimi düşüncələrini real gerçəkliyin bədii təcəssümü və intibahının rüşeymləri kimi qəbul edir. Cəhalətdən çıxmağın maarif və mədəniyyətlə bərabər işgüzarlıq kimi bir aparıcı yolunun olmasını görən M.Hadi «Edək bu yolda ehrazi-məratib» deyə oxucularına müraciət edir. İslam Qəribli Hadinin vətənpərvərliyini, onun başqa xalqların tərəqqisini «qısqanmasını» xalqını sevən şairin əsas məramı kimi

göstərir. Alim qeyd edir ki, dərin vətəndaşlıq kədəri xalqını sevən şairi çıxış yolu axtarmağa sövq edir. Odur ki, Hadinin xalqının tərəqqisi üçün göstərdiyi yol, söylədiyi mülahizələr qibtə hissi doğurur. Onun dövründə söylədiyi fikirlər zaman-zaman müasir səslənir:

Deyir: üqba gərək, dünya fənadır,
Cahan islamə zindani-bəladır.

Sonrakı fəsillərdə Hadinin digər mətbu orqanlarla əlaqəsi, ədəbi-elmi irsi, publisist yazılarında şərq xalqlarına, Avropaya münasibəti, cəmiyyətin tarixi tənəzzülü və tərəqqisi məsələsi, poetik tərcümələri, Türkiyəyə qayıdandan sonra dövrü mətbuatımızda fəaliyyəti, müharibə dövründə yazdığı əsərlər, müharibələrdən sonrakı dövr yaradıcılığı və s. alim tərəfindən elmi təhlilə cəlb olunmuş, millətinə xeyirli övlad kimi xidmət edən Hadi yaradıcılığı əhatəli tədqiqə cəlb olunaraq ədəbiyyat tariximizin yaddaşına bir daha həkk olunmuşdur.

Romantik şair kimi orta və ali məktəb dərsliklərindən tanıdığımız Məhəmməd Hadi yaradıcılığının ümumi mənzərəsini özündə cəmləşdirən «Məhəmməd Hadi və mətbuat (1905-1920)» adlı monoqrafiyanı hadişünaslığın ensiklopadiyası kimi də qiymətləndirmək olar. Bunu deməyə həm əsərin həcmi, həm əhatə etdiyi mövzu dairəsi, həm də müraciət etdiyi mənbələrin çoxluğu və bir çoxunun orijinallığı imkan verir. Hadi bir klassikdir. İslam Qəriblinin şəxsi maraqlardan uzaq, elmimizin inkişafı xatirinə işlədiyi bu tədqiqat əsəri hərtərəfli dünyagörüşə və dərin biliyə malik Məhəmməd Hadi yaradıcılığına layiqli töhfədir. M.Hadinin iqtibasları, tərcümələri belə xalqımızın tərəqqisinə xidmət edən mövzuları əhatə edib. Əvvəlcə cəmiyyətin və təbiətin qanunlarını anlamaqla çətinlik çəkən, idealist bir mütəfəkkir mövqeyində dayanan, sonralar şəxsi mütaliəsi, mühiti və dostları tərəfindən idealizə edilən, əsərlərinin dilindəki çətinliyə görə bir qədər asan anlaşılmayan M.Hadi yaradıcılığını tədqiq etmək hünər tələb edir. İ.Qəriblidən əvvəl bu işlə məşğul olan alimlərimizin, eyni zamanda İ.Qəriblinin güclü məntiqi və ədəbiyyatşünas qələmi var olan çətini asana çevirə bildi. Zamanında, xüsusən ilkin yaradıcılıq illərində qarşısında çıxan suallara cavab axtaran şairin tutduğu mövqe sadəlöhvlük adlandırılırdı. Ancaq ciddi məsələlər ətrafındakı düşüncələri nəzərə alınmadı. Vaxt keçdikcə fikri aydınlaşan, ədəbiyyat tariximizə «Beşikdən məzara qədər bəşərin əhvalı» kimi güclü məntiqi olan bir əsər bəxş etmiş M.Hadi bizə ikili həyat lövhələri haqqında bir ballada miras qoydu. Məişət, cəmiyyət hadisələri siyasi hadisələrə də yelkən açır. Biz bunu əhatəli bədii, elmi, publisist və s. yaradıcılığa malik olan M.Hadi təqdimatında gördük. Bu yaradıcılığı bizə elmi cəhətdən təhlil edərək bir buket halında təqdim edən hörmətli alimimiz İ.Qəribli həm bədii, həm fəlsəfi, xüsusilə idrak baxımından tarixdə öz qiymətini almış M.Hadi yaradıcılığını bir daha kəşf etdi. Hadı yazır:

Bir müəyyən qanun üzrədir həyat,
Bir doğuş, bir təkamül, bir inhitat.
Belə qoyulmuş aləmin binası,
Dəyişməkdir tərəqqinin əsası.
Dəyişmək olmasa, tərəqqi olmaz,
Təbiətin bu qanunu pozulmaz.

Həyatın əzəli və əbədi qanunlarından danışan Hadi yaradıcılığı ölümsüzdür.

Ədəbiyyat

1. Məhəmməd Hadi. Seçilmiş əsərləri.Bakı,2005
2. Mirəhmədov Əziz.Məhəmməd Hadi.Bakı,1985
3. Zəka Rafiq. Məhəmməd Hadi.Bakı,1979
4. Zamanov Abbas. Sabir və müasirləri. Bakı, 1973
5. Vəliyev Şamil. Füyuzad ədəbi məktəbi.Ankara,2000
6. İslam Qəribli. Məhəmməd Hadi və mətbuat.Bakı,2011

Сакибе Алескерова

Махаммад Хади или «тост»ы в честь «шаха в ситуации мат»

Резюме

Творчество Хади является читабельным на все времена. Потому что, в его произведениях можно найти немало образцов жизненных уроков. Хади призывает читать, учиться и делать выводы, идеализирует настоящую социально-политическую ситуацию и призывает к морально-эстетическому совершенству.

Большинство философов пришли к такому заключению что, развитие и падение каждой страны зависит от морально-этического воспитания народа этой страны.

Sakiba Alasgarova

Mahammad Hadi or "toast"s in honor "the shah in a situation of a mat"

Summary

Hadi's creativity is readable for all times. Because, it is possible to find many samples of vital lessons in its works. Hadi urges to read, study and draw conc-lusions, idealizes the real socio-political situation and calls for moral esthetically perfection.

The majority of philosophers came to such conclusion that, development and falling of each country depends on moral and ethical education of the people of this country.

Rəyçi: Professor Alxan Bayramoğlu

FƏRQANƏ ZÜLFÜQAROVA
filologiya üzrə fəlsəfə doktoru
ARPDİA
farqana@gmail.com

İCTİMAİ-SİYASİ VƏ ELMİ FƏLSƏFİ FİKRİNDƏ QADIN KONSEPSİYASI

Açar sözlər: Qərb, qadın, ictimai, problem , ingilis ədəbiyyatı, Şərq
Key words: West, woman, social, problem, English literature, East
Ключевые слова: Zapad, женщина, социальные проблемы, английской литературе

Fundamental problemlər Azərbaycan şifahi xalq ədəbiyyatının növlər üzrə təsnifi, janrlar və onların xarakteristikası, aşıq yaradıcılığıın şəkilləri, ayı-ayrı dastanların ideya məzmun, struktur, poetika və surətlərin təhlili cəhətdən əsaslı şəkildə tədqiqi, mifik obrazlar mifalogiyaların müxtəlif növləri və digər mövzular barədə sanballı əsərlər yazılmışdır.Lakin bəzi mövzular müəyyən dərəcədə diqqətdən kənarda qalmış, arxa plana keçmişdir.Etiraf edək ki, hər hansı bir problemi tədqiq edərkən yalnız öz ədəbiyyatımızın çərçivəsində qapanıb qalmaq olmaz.Həmin problemə dünya ədəbiyyatı prizmasından baxmaq,onun əsl qiymətini vermək üçün müxtəlif xalqların şifahi,yazılı ədəbiyyatındakı mövqeyini müəyyənləşdirmək, mövcud nəzəriyyənin ona münasibətinə diqqət yetirmək lazımdır.Bu baxımdan da problemin hərtərəfli açıqlanması üçün Azərbaycan ədəbiyyatı ilə yanaşı ingilis, fransız,alman, rus hətta eyni kökə malik olduğumuz türk xalqlarının ədəbiyyatı ilə də paralellər apardıqda qarşımızda problemin bütöv panoraması canlanır və obyektiv mülahizələr irəli sürməyə imkan yaranır. Müasir ingilis və Azərbaycan ədəbiyyatlarında qadına münasibət probleminin əksi dedikdə mövzumuzla bağlı digər elmlərin verdiyi məlumatlarla tanış olmuş, fəlsəfə, psixologiya, etnoqrafiya, arxeologiya və digər elm sahələrinin materiallarından istifadə etmişik.

Azərbaycan ədəbiyyatında qadın probleminin ictimai rolunun əksi zəngin araşdırma tələb edən bir mövzudur. Qadınlara ilkin olaraq seçib-seçilmək hüququ 1893-cü ildə Yeni Zelandiyada verilmişdir. Şərqdə ilk demokratik respublika olan Azərbaycan 1918-ci ildə İstiqlal bəyannaməsi ilə qadınlara seçmək və seçilmək hüququ verdi.Xatırladaq ki, Azərbaycan qadınları bu hüququ bu gün inkişaf etmiş bir sıra Qərb ölkələrinin sakinlərindən daha tez almışlar.Respublikamızda isə qadınlar 1919-cu ilin sentyabrında ADR parlamentinin payız sessiyasında bərabərlik haqqında təkliflərin təsdiqi ilə seçib-seçilmək hüququ qazanıb. Bu faktor dünyanın ən qədim dövrlərindən başlayaraq bu günə qədər davam edən problemin araşdırılması üçün bu mövzunun aktual olduğunu əsaslandırır.

Dünya ədəbiyyatının müxtəlif dövrlərində, ərazilərində qadına münasibət fasiləsiz olaraq xüsusi aktuallıq kəsb etmiş və bu sahədə fərqli yanaşmalardan çıxış edilərək çoxsaylı qiymətli, əsərlər yazılmışdır. Şərqdə və Qərbdə qadına münasibət fərqli olmuşdur. Azərbaycan ədəbiyyatında Nizami Gəncəvidə, Yusif Vəzir Çəmənzəminlidə, Məmməd Səid Ordubadidə, Mirzə Fətəli Axundovda, Cəfər Cabbarlıda, Nəriman Nərimanovda, Hüseyin Caviddə- İngilis ədəbiyyatında Uilyam

Şekspirdə, Corc Qordon Bayronda, Virciniya Vulfda, Tomas Hardidə, Corc Bernard Şouda,Ceymz Oldricdə, Con Qolsuorsi və bu kimi digər yazarların əsərlərində qadın mövzusu çox güclüdür.Bədii ədəbiyyatda qadına münasibət probleminin əksi son dövrlərə qədər davam etməkdədir. Təsadüfi deyil ki, bizim yaşadığımız dövrdə XX-əsrin sonu XXI-əsrin əvvəllərində dünyanın ən aktual problemlərindən biri də gender problemidir.Müasir təsəvvürlərə görə, gender (ingiliscədən tərcümədə soy anlamına uyğun gəlir) anlayışı cəmiyyətin sadəcə fərdlərdən yox, kişi və qadından ibarət olduğunu bildirmək üçün işlənir.Tarix boyu onların rolu və əhəmiyyəti dəyişib, bu səbəbdən də qadın və kişilər heç vaxt bərabərhüquqlu ola bilməyiblər.Gender araşdırmaları əsrimizin 70-ci illərindən sonrakı feminist hərəkatı və nəzəriyyəsinin inkişafı nəticəsində yaranıb. Qeyd etmək lazımdır ki, Gender araşdırmaları ilə daha çox qadınlar məşğul olur.Ancaq o, liberal feminizm əsasında yaransa da, onu sadəcə qadın problemi ilə eyniləşdirmək olmaz.Gender araşdırmalarını çox vaxt cinslərin fəlsəfəsi adlandırırlar.Bu zaman iki növ fərqləndirmə aparılır: 1.Qadın və kişi arasında təbii, gerçək , təbii –fizioloji fərqlər; 2.Cinslər arasında süni, sosial-mədəni müxtəliflik. Bunlar da öz növbəsində cəmiyyətin bütün sferalarında öz praktik əksini tapır.Yəni gender qadın problemi yox, cinslər arasında ahəngdarlıq axtarışı praktikasıdır.

Qadın problemlərinin öryənilməsində isə əsas məqsəd qadın hüquqlarının qorunması, onun problemlərinin həlli, maariflənmə işinin aparılmasıdır. Bu problemin milli -mənəvi istiqamətdə işlənməsi Azərbaycan və ingilis elmi-nəzəri fikri üçün həmişə tamamilə yeni bir hadisə kimi təqdim edilir.

Milli-mənəvi, əxlaqi –dini, sosial mədəni və fəlsəfi düşüncədə qadın problemləri bütün dövrlərdə mövcüd olmuş, cəmiyyətin həyatında çox mühüm əhəmiyyət kəsb edərək daima diqqət mərkəzində olmuşdur. Müasir Azərbaycan ədəbiyyatında qadına münasibət probleminin əksi XIX və XX əsrlərdə Azərbaycan ziyalılarının, yazıçı və şairlərin marağına səbəb olmuş və onlar qadın azadlığı uğrunda ardıcıl mübarizə aparmışlar. Modernist yazıçı T.Kazımovun fikrincə, qadınla təbiətdəki çiçəyin bir-birini tamamlayan oxşarlıqları vardır. Qadınların ilahi imkanları və intuitik, gözəl duyğulu düşüncə tərzləri bunu sübut edir. Bununla belə, kişilərin onlar haqqında yüzillər boyu formalaşmış düşüncələri ilahiliklə yanaşı, həm də təzadlı xarakter daşıyıb. Əslində cəmiyyətdə qadınlarla bağlı yaranan təzadlı fikirlərin səbəbkarı çox hallarda kişilər olub.Fikrimizcə, kişilərin qadınlar haqqında olan düşüncə tərzləri öz dünyagörüşlərinin baxımından araşdırılır desək yanılmarıq. Gerçək həyatda qadın həmişə kişi idrakına, ruhuna ehtiyac hiss etdiyi kimi, kişi də qadın zərifliyinə gərək duyub, onu idealizə edib.Həmişə türk ailəçiliyində qadına ilahi, uca sayğı olub. "Dədə Qorqud dastanları"nda qadın kişinin "başının baxtı, evinin taxtı" sayılır. İndi isə ölkəmizdə və dünyada qadına belə yanaşma çox fərqlidiir.Ailə həyatında əvəzsiz varlıq olan qadının özəlliklə ötən yüzildə ictimai həyata ardıcıl şəkildə cəlb edilməsi bir yandan da ailədə problemlərin yaranmasına gətib çıxarırdı.Çağdaş qlobal qadın probleminin və qadının ictimai rolunun əksi ailədə qəbul edilib-edilməməsi müasir insanların daima diqqət mərkəzində olmuşdur. Fikrimizcə, əgər ailə kimi əvəzsiz bir quruma zərbə dəyirsə, bununla dövlət,cəmiyyət də ziyan çəkir.İri dövlətlərin bu anlamda qloballaşma məsələsində hesaba aldıqları hədəflərin mahiyyətini anlamaq çətin

deyil.Müasir Şərq qadını cəmiyyətdə nə qədər fəal olsa da o ən böyük önəmi öz ailəsinə verir.

Qadının nəzəri və təcrübi baxımdan öyrənilməsi sübut edir ki, ədəbiyyatda, sənətdə daha çox öyülən qadın gerçəklikdə döyülüb, söyülüb. Qadına yanaşma niyə bu dərəcədə qarışıqdır? Çünki, cəmiyətdə insani dəyərlərə olan münasibət bütöv deyil, tamamlanmamışdır.Qadın və kişilərin maddi-mənəvi , fəlsəfi- psixoloji tələbatlarının ödənilməməsi qeyd edək ki, hərtərəfli anlaşılmazlıq yaradır,çünki, layiqincə öz çözümünü tapa bilmir.

Qadına münasibət probleminin əksi ingilis ədəbiyyatında V.Vulfun, Corc Bernard Şounun ,Tomas Hardinin, Con Qolsuorsinin və Azərbaycan ədəbiyyatında Hüseyn Cavidin, Cəfər yaradıcılqları əsasında həmişə tənqidin, ədəbi-nəzəri fikrin diqqət mərkəzində olmuşdur. Cəmiyyəti təkamül yolu ilə yenidən dəyişib qurmağın mümkün olduğuna inanan, adamları da inandırmaq və yenidən tərbiyə etmək yolu ilə cəmiyyəti düzəltməyi mümkün hesab edən bu yazıçıların əsərlərindəki ideya, məzmun dərinliyi, təsvir olunan həyati əksliklərin kəskinliyi yüksək bədii ustalıqla, dərin psixologizmlə birləşdiyindən, onların yaradıcılığı hələ sağlığında tədqiqatçı və tənqidçilərin diqqətini cəlb etmiş, əsərlərinin qiymətləndirilməsinə həm ingilis ədəbiyyatında, həm də digər ölkələrdə çoxsaylı elmi əsərlər həsr olunmuşdur.

Azərbaycan oxucusu bu ingilis yazıçılarının yaradıcılığı ilə nisbətən gec tanış olmuşdur. XX əsr ingilis ədəbiyyatı və incəsənətinin seçilən nümayəndələri olan Corc Bernard Şou qadının kor - koranə həyatı, bayağılıq, avamlıq və mütiliyi, yırtıcılıq, yalan və istismar üstündə qərarlaşan cəmiyyət qanunlarını təsvir edərək əsərlərində qadın azadlığından özəlliklə bəhs etmişdir. Con Qolsuorsinin əsərləri kapitalist dünyasındakı bir qadının öz səadətini yalnız digərinin bədbəxtliyi üzərində qurması, sülh və demokratiya uğrunda, müharibə və zəhmətkeş xalqın əsarətinə, köləliyinə qarşı, qadın azadlığına, xoşbəxtliyinə qarşı mübarizə aparanların əlində onları səfərbər edən böyük bir silah kimi xidmət göstərir.Ceyms Oldricin əsərləri isə sosial bəlalara, ədalətsizliyə, riyakarlığa qarşı hücumla xarakterizə olunur. V.Vulfun yaradıcılığında isə qadına münasibət probleminin əksi əxlaqi-dini, ictimai-siyasi , ədəbi- fəlsəfi, elmi psixoloji şəkildə öz əksini tapmışdır.

Ailədə ən böyük yük qadının üzərinə düşür çünki, qadın ailənin əsas qurucusudur, idarə edənidir.Belə bir zərb məsəl vardır ,, Qadın var ev yıxar, qadın var ev qurar" və yaxud ,, Qadın yıxan evi aləm yığılsa qura bilməz". Qadın ailəni idarə edir deyə əsasən o, səbrli, müdrik və ağıllı olmalıdır .O, ailədə öz hüquqlarını kişi ilə bərabər şəkildə bölüşərək qadınlıq və analıq haqqını tələb etməyi bacarmalıdır.Hüquqlar təbii ki, bütün sahələrdə bərabər olmalıdır.Təhsil,əmək, səyahət və sairə.Əgər qadın ana olubsa o nə iş görürsə ailəsi üçün edir.Bu baxımdan da onun əri tərəfindən edilən yersiz təzyiqlər və sosial cəmiyyətə qısqanılması təbii ki, qadın üçün psixoloji sarsıntıdır.Əgər ailədə qadının tələbatı ödənilmirsə belə vəziyyət aqressivliyə gətirib çıxar bilər.

Zənnimizcə, biz öz milli-mənəvi dəyərlərimizə və mentalitetimizə əsaslanaraq postsosialist Azərbaycanın sosial-mədəni vəziyyətini tam təfərrüatı ilə tədqiq edərək qadın problemlərinin kökünü araşdırmalıyıq. Bu mənada təlimatlandırma işləri aparılmalıdır xüsusilə, kişilər arasında çünki, qadın problemlərinin köklü şəkildə həlli üçün kişilərin mənəvi-psixoloji baxımdan təkmilləşməyə ehtiyacı vardır. İntellektual dəyişilmə üçün isə müasir zamanımızda saysız-hesabsız vasitələr vardır.(

müəyyən ictimai-siyasi, mənəvi-psixoloji ,əxlaqi – dini qürumlar, birliklər, təşkilatlar, internet və digər vasitələr)Təbii ki, hər şeydən əvvəl mütaliə etmək daha önəmlidir, Azərbaycan və dünya ədəbiyyatının rolu danılmazdır.Bu problemin həlli əsasən ailədən başlayır. Əgər ailədə qadın bir ana olaraq, həyat yoldaşı kimi sivil mənada dərk edilirsə , cəmiyyətddə də qadın promleminin həlli öz çözümünü tapdığı halda, digər problemlər öz yolunu tapa bilər.Əgər qadın nə istədiyini duyub və bunu necə həyata keçirəcəyini bacarmırsa bu onun şəxsi psixoloji problemidir.Nəyə görə kişilərin timsalında qadına daha çox vasitə kimi baxılır? Təbii haldır ki, kişi qadın gözəlliyi qarşısında öz şəxsi münasibətini sivil formada, dərk edərək büruzə verməlidir.Bu zaman o, kosmoqonik ideyalara əsaslanaraq hisslərinin gerçək olduğuna əmin olaraq emosiyalara qapılmamalıdır.Çünki, qadının ilahiliyi Tanrının ən sirli-sehrli möcüzəsidir. Təəssüf ki, cəmiyyətimizdə qadındakı bu ilahiliyi görüb dərk edə bilməyənlər az deyildir. Qadın zəriflik rəmzidir. Cəmiyyət isə bu zərifliyi daim əzməyə, tapdalamağa çalışır.Cəmiyyətdə qadına layiq olduğu dəyər verilməlidir, onun müqəddəs haqqları və hüquqlarına göz yummaq olmaz!Qadın anadır, bu səbəbdən də o heç bir ölçüyə sığmır. Qeyd edək , bəşər övladı yaşından asılı olmayaraq hər zaman anaya ehtiyac duyub. Qadının ən böyük özünütəsdiqi, məsuliyyəti onun ailəsi ilə bağlıdır. Müasir çağımızın fəlakəti ondadır ki, bu ali varlığın əzab -əziyyəti müsbət anlamda duyula bilinmir. Bu fikirlərə əsaslanaraq qeyd edək ki, bu dünyanı, insanı tam bütün təfsilatları ilə öyrənmək mümkün olmadığı kimi qadını da hərtərəfli öyrənmək qeyri-mümkündür. Fikrimizcə, qadınsız ailə, ailəsiz isə xalqın təsdiqi mövcud deyildir.

Qeyd edək ki,1911-ci ilin 22 yanvarında başlamış və 1912-ci ilə qədər fəaliyyətini davam etdirmiş ,,İşıq " jurnalının milli mətbuat tarıximizdə ilk qadın mətbu orqanı kimi önəmli bir yeri vardır.O vaxt cəmi 68 sayı işıq üzü görən ,,İşıq"ın baş redaktoru maarifpərvər ziyalı Xədicə xanım Əlibəyova , naşiri isə Mustafa bəy Əlibəyov olmuşdur.Milli dəyərlərimizə, irsimizə, zəngin mədəniyyətimizə, tarixi köklərimizə bağlı qalmaqla xalqımıza və dövlətimizə faydalı olmaq amalını davam etdirən Milli İrsi Mədəni Tarixi Araşdırmalar (MİMTA) Fondu ədəbi irsimizin incilərindən olan ,,İşıq"ı bərpa etmiş və jurnal 2012-ci ilin yanvar ayından etibarən nəfis şəkildə çap edilir.,,İşıq-qadın " jurnalı ailə tərbiyəsi , qadın problemləri və bir sıra tarixi, mədəni-əxlaqi mövzulardan bəhs edir.

Təsadüfi deyil ki, o dövrün tərəqqipərvər ziyalılarından Nəcəf bəy Vəzirovun (1854-1926) bədii əsərlərində ailə və qadına münasibət məsələsi geniş təhlilini tapmış ən mühüm mənəvi mövzulardandır.O, cəmiyyəti müşahidə edir, burjua-mülkədar ailələrində baş verən mənəvi tənəzzülü özünə xas olan sərrastlıqla nigah bağlayan şəxslərin bir-birinə münasibətində təbii meyl deyil, kobud maddi haqq-hesab, fayda güdmək kimi amillər hökmranlıq edirdi.Buna görə də yazıçı bütün pyeslərində ailə və qadın məsələlərinə toxunurdu.Bir sıra maarifçilər kimi o da yaşadığı dövrdə Azərbaycanda geniş yayılmış çox arvadlılıq , qızların qaçırılması, maddi səbəblər üzündən qocaların gənc qızlara- xüsusən də yetkinlik yaşına çatmayan qızlara evlənməsi kimi hadisələri özünün ifşaedici və amansız tənqidinin hədəfinə çevirirdi.

XX əsrin əvvəllərində Azərbaycanda müsəlman qızlarına oxumaq, yazmaq, elm, fəlsəfə, mədəniyyət öyrətmək üçün ,,Nicat" qadın maarifçilik cəmiyyəti yaradıldı; onun ruhlandırıcısı qadın yox, Həsən bəy Zərdabi idi. Həsən bəy

Zərdabinin xanımı Hənifə Məlikova isə həm də öz evində yaşlılara dərs demiş və Bakıda ,, Nicat" xeyriyyə cəmiyyətinin qadın bölməsinin qurucularından biri olmuşdu. Rəhilə Hacıbababəyovanın təşəbbüsü ilə Bakıda qızlar üçün 1910-1914-cü illlərdə 2 sinifli adi ibtidai məktəb açılması da nəzəri cəlb edən örnək hadisəsidir. Bundan əlavə C.Məmmədquluzadə ilk qadın jurnalı olan ,,İşıq" ın işıq üzü görməsi üçün çalışıb. C.Cabbarlı Azərbaycanda feminist klubun yaradılması təşəbbüsüylə çıxış edib.Çünki, qadın azadlığı problemi bu günkü günümüzə qədər davam edən və müzakirə olunan ən başlıca məsələlərdəndir.

Qeyd edək ki, M.T.Sidqinin (1854-1903) mənəvi tərbiyədə ailənin xüsusilə də qadının roluna dair əhəmiyyətli fikirləri vardır: ailə insanların əxlaqi simalarını müəyyən edir, onların mənəvi keyfiyyətlərinə görə birbaşa məsuliyyət daşıyır. Müsəlman ailələrində uşaqların tərbiyəsi ilə əsasən analar məşğul olduğuna görə uşaqların əqli və mənəvi tərbiyəsi analarının əqli inkişaf səviyyəsindən çox asılıdır.

Deyilənlər baxımından M.Ə.Sabir bütün əsərlərində müsbət surət kimi təsvir etdiyi qadınların mənəvi əzablarının, ağrılarının və çətinliklərinin mənbələrini göstərməyə çalışır.O,yalnız qadının ailədə və cəmiyyətdə hüquqsuz vəziyyətini sadəcə diqqətə çəkməklə kifayətlənməyərək mütəfəkkir şair kimi minlərcə qadının məşəqqətli həyatını doğuran səbəbləri arayırdı.Qadınların kişilərlə birlikdə elm öyrənmək, mədəniyyətlərini artırmaq imkanının verilməsinin qadın azadlığında həlledici rola malik olduğunu M.Ə. Sabir görür və təqdir edirdi. XIX əsrin sonu –XX əsrin əvvəllərində kişi ziyalılarımızın dəstəyi ilə Azərbaycan qadınları milli mənliklərini əsas götürərək mariflənmə yolunda ciddi mübarizəyə qoşulmuşlar. Hələ XIX əsrin 50-ci illərində Zaqafqaziyada fəaliyyət göstərən ,,Müqəddəs Nina" cəmiyyətinin Azərbaycandakı eyni adlı qadın təhsil idarəsində 17 nəfərədək azərbaycanlı qadın fəaliyyət göstərirdi. Onlardan Fatma Əsədbəy, Xədicə Haqverdiyeva, Gövhər Qurtqaşinskaya, Balaxanım Xandəmirova kimi marifçi qadınlarımız yeni dünya görüşlərinə görə fərqlənmişlər.Maarifpərvər qadınlardan biri olan Dilbər xanım atası Mirmahmud kişinin köməyi ilə 1850-ci ildə Şamaxıda, öz evində qız məktəbi açmışdı.Sonralar Dərbənddə, Zaqatalada, Şuşada qız məktəbləri ,Bakıda ilk qadın gimnaziyası açılmışdı.1896-1901-ci illərdə H.Z.Tağıyevin bilavasitə maliyyə dəstəyi ilə (183 min rubl qızıl pul) ilk qadın Rus –Müsəlman Pedaqoji Məktəbi tikilmişdir.Bu məktəbin tarixinə diqqət yetirdikdə görürük ki, dünyəvi təhsilin inkişafında və savadlı mütəxəssislərin yetişməsində hədsiz zəhməti olan bir sıra maarifçi qadınlarımız öz əməlləri ilə fərqlənmişlər.Onlardan Rəhilə Hacıbababəyova, Məryəm Silkeviç, Nabat Nərimanova, Şəhrəbanu Şabanova, Səkinə Axundzadə Şəfiqə Əfəndizadə, Ayşad Dibirova, Məryəm Qembitskaya və digərlərinin adlarını çəkə bilərik. Başqa bir nümunəvi misal isə hələ 1906 –cı ildə Gəncədə ilk dəfə Müsəlman Qadın Komitəsinin qadınlar arasında xeyriyyə marafonu keçirməsi faktıdır.Bu dövrdə Həmidə xanım Cavanşirin də xüsusi fəaliyyəti nəzərə çarpır.1910-cu ildə Həmidə xanım və Sofya Şaxtaxtinskayanın şəxsi təşəbbüsü ilə Tiflisdə Qafqaz xeyriyyə cəmiyyəti yaradılır.45 üzvdən ibarət bu cəmiyyətə Gövhər xanım Qacar sədr seçilir.Tarixin səhifələrini vərəqlədikcə qadınla bağlı tariximizin parlaq nümunələri ilə üz-üzə dayanırıq.1911-ci ildə Xədicə xanım Əlibəyovanın rəhbərliyi altında ilk qadın jurnalı ,,İşıq"ın çap edilməsi də məhz bu nümunələrdəndir. Qeyd edək ki, Babilik hərəkatının xarakterik cəhəti tarixdə ilk dəfə qadınla kişiyə hüquq bərabərliyi verilməsi tələbinin irəli

sürülməsi 1848-1852-ci illəri əhatə edir. Bu dünyanı,insanı tam öyrənmək mümkün olmadığı kimi ,qadını da sona qədər bütün tərəfləri ilə öyrənmək mümkün deyil.

Tarix göstərir ki, məhz belə ziyalı şəxsiyyətlərin ailələrində yaşayan qadınların özləri təhsil almaqla yanaşı , həm də mənimsədikləri bilik və mədəniyyəti digər Azərbaycan qadınlarına aşılamaqla onların inkişafına şərait yaratmış, yüksəlişləri naminə çalışmışlar.

Daima aktuallıq kəsb edən önəmli və mürəkkəb problem olan qadın probleminin Qərb-Şərq dünyagörüşlərində öyrənilməsi qadın və cəmiyyət münasibətlərinin fəlsəfi-psixoloji cəhətdən açıqlanması, qadın və sosial mühit əlaqələrinin daxili mahiyyət və məzmununun dərki, təsdiqi, bədii təhlilidir. Qadın və kişi mif, epos tarix boyu dinin güzgüsündə olmuşdur.Müqəddəs mətnlərin buddizm, daosizm mətnləri, Bibliya-Tövrat, İncil və Quranın rolu qadına hansı münasibətlərin tədqiqni izah edir.Cəmiyyətin və müxtəlif mədəniyyətlərin tarixi inkişafında qadın münasibətlərinin tipologiyası qadın mədəniyyətinin obyekt və subyekti kimi qiymətləndirilir.Qadınların dünya mədəniyyətinə töhvəsi yalnız sülhlə nəticələnir. Bu sülh siyasətinin öz nizamlı həlli isə Qadın hərəkatının müəyyən mərhələləri nəticəsində: kortəbiiliyi aradan qaldırmaq; səviyyəli təzahürlər; qadın fəhlə hərəkatı radıkal və liberal feminizm nəticəsində aşkarlana bilər. Şərq qadınları həmişə lap qədim zamanlardan azad, xoşbəxt həyatın arzusunda olmuş və daima belə bir həyat üçün mübarizə aparmışlar. Böyük bir zaman əhatə edən sovet dövrünün mürəkkəbliklərinə baxmayaraq, XX əsrdə Azərbaycan qadınları nəinki təhsil almağı, həm də elmdə yeni nailiyyətlər qazanmağı, cəmiyyətin müxtəlif sferasında özlərini təsdiqləyərək bir çox uğurlara imza atmağı bacardılar.Onların cəmiyyətdə, ictimai həyatda, ailədəki mövqelərində köklü dəyişikliklər baş verdi.

Qeyd edək ki, T.Hardinin yaradıcılığı L.Dorofeevanın ictimai-dini, L.V.Dorofeevanın faciəvi müharibə haqqında mövzularının bir ədəbiyyatçı kimi elmi əsərlərində tədqiqata cəlb edilməsi dünya ədəbiyyatında da çox diqqətəlayiqdir. T.Hardinin yaradıcılığı janr baxımından da zəngindir.Onun realizmi zamanın, dövrün ilahi qüvvəsinə bağlıdır. Yazıçının qəhrəmanlarının taleyi ilahi konsepsiyaya əsaslanmışdır.

Bernard Şounun yaradıcılığını tədqiqatçılardan A.Anikst ,,Narahat klassik", İ.Anisimov B.Şounun Yaradıcılığının ikinci dövrü, M.İ.Bent ,,Onun insanlığı başqa idi", S.Dinamov ,,Xarici ədəbiyyatda tendensiya və üslub", İ.Bella ,,Xatirələr" adlı mövzuları elmi və ədəbi baxımdan araşdırmışdılar. C.B.Şounun qadın azadlığı problemi və qadının cəmiyyətdə ictimai-fəlsəfi rolu çox fərqlidir.

C.Qolsuorsinin yaradıcılığı İngilis ədəbiyyatında XX əsrin 40-50-ci illərindən etibarən romanlarının ideya-məzmun xüsusiyyətləri və üslubu müxtəlif problemlər üzrə araşdırılmışdır.70-80-ci illərdə isə C.Qolsuorsinin yaradıcılığında ənənə və novatorluq problemi daha çox diqqəti cəlb etmiş, onun ədəbi fəaliyyəti XX əsr ingilis ədəbiyyatını səciyyələndirən cərəyan və istiqamətlərin mübarizəsi kontekstində öyrənilmişdir. Bütün bu məsələlər M.İ.Voropanova, A.M.Qavrilyuk, İ.A.Dubaşinski,N.Y.Dyakonova,M.P.Tuquşeva, D.Q.Jantiyeva kimi tədqiqatçıların monoqrafiyalarında əksini tapmışdır.

C.Qolsuorsi realist yazıçı idi.Realistlər və modernistlər arasında gedən mübarizə bəzi sənətkarları ifrat qiymətləndirməyə vadar etmişdir.Məsələn: V.Vulf əsil novatorluğu gerçəkliyin təqlidindən, realist metodun xarakterlər yaratmaq,

qəhrəmanların mənəvi aləmini və onların ətraf dünya ilə mürəkkəb qarşılıqlı əlaqələrini əks etdirmək kimi prinsiplərindən tamamilə imtina etməkdə görürdü. C.Qolsuorsi isə bir çox məqalələrində və esselərində tədricən özünün estetik sistemini formalaşdırır, bununla da yeni tipli realist sənətkar kimi əsil novatorluğunu açıqlayırdı. Onun yaradıcılıq metodunda realizmlə impressionizmi üzvi sintezi baş verirdi.Burada C.Qolsuorsi sırf realist incəsənətin sərhədlərini asan elementlərəhissə, ritmə, musiqiyə və s. üstünlük verirdi.

Ceyms Oldricin yaradıcılığı Azərbaycan ədəbiyyatında Şahin Xəlillinin, Rus ədəbiyyatında isə E.Kalaşnikovanın ,,Sevgi" haqqında əsərlər, L.Styubek ,,Haqq yolu" adlı monoqrafiyalarında tədqiq olunmuşdur.

V.Vulf haqqında üç yüzdən çox məqalə və rəylər yazılmış, fikirlər söylənilmişdir, tədqiqatlar aparılmışdır. Məs:V.Vulfun əsərləri dünyanın bir çox dillərinə tərcümə edilsə də, təəssüf ki, Azərbaycan dilinə onun hələ heç bir əsəri tərcümə olunmamışdır.Amerikada, İngiltərədə Virciniya Vulfun adını daşıyan kitabxanalar, dərnəklər və təhsil ocağı vardır. Şimali və Qərbi Virciniya şəhərləri onun adını daşımaqdadır.

V.Vulfun yaradıcılığı Azərbaycan və rus ədəbiyyatşünaslığında da çox az tədqiqata cəlb edilmişdir. Rus mütərcimlərindən Q.Nikitin onun bəzi əsərlərini tərcümə etmiş, ədəbiyatçılardan Y.Qeniyeva,V.İvaşova yazıçının yaradıcılığını tədqiq etmişdir. Qeyd edək ki, Azərbaycan ədəbiyyatında V.Vulfun yaradıcılığında insan problemi adlı monoqrafiya isə bu məqalənin müəllifinin elmi-tədqiqat əsərində öz əksini tapmışdır.Lakin bu yazıçıların yaradıcılığında qadına münasibət probleminin əks elmi tədqiqata cəlb edilməmişdir.

M.Qocayev Dostoevski ətrafında düşüncələr ,,İdiot" romanında ana simvolikası, M.Qocayev Dostoevski ətrafında düşüncələr Qadın xarakterləri (M.Karamazov qardaşlarında) adlı mövzulrı da rus ədəbiyyatında çox diqqətəlayiqdir.Lakin bu yazıçıların yaradıcılığında qadının ictimai rolu və yaxud İngilis və Azərbaycan ədəbyyatlarında qadına münasibət probleminin əksi mövusu işlənməmişdir.

Fikrimizcə, C.B.Şounun simasında biz dünya ədəbiyyatının güclü satirik yazıçısını publisist və dramaturqunu görürük.Digər dünya yazıçılarından fərqli olaraq C.Oldric qadında ictimai-siyasi mövzuları daha çox dəyərləndirərək əsərlərində onların fəlsəfi-psixoloji əlaqələrini verməyə çalışmışdır.Çünki, o bədii yaradıcılıqla ictimai fəaliyyəti birləşdirməyi bacaran sənətkardır.Yazıçının qəhəmanları əsasən realist qəhrəmanlardır.

Virciniya Vulf, Ceyms Oldric, Corc Bernard Şou , Con Qolsuorsi, Tomas Hardi və yaxud öz əsərlərində XX əsrin əvvəllərindəki İngiltərənin ictimai bərabərsizliyindən, qadın yoxsulluğundan, təhsil sistemindən danışsa da bu problemlər, xüsusilə də yoxsulluq, elə indi də ingilis siyasətçilərinin müzakirə mövzusu olaraq qalır.Həmçinin qeyd etmək lazımdır ki, sovet ədəbiyyatşünaslığında bu yazıçıların həm nəsri, həm də dramaturgiyası müəyyən qədər araşdırılsa da, sərt, birtərəfli ideoloji prinsiplər onların düzgün qiymətini verməyə mane olurdu.İdeoloji zorakılıqdan xilas olmuş Azərbaycan ədəbiyyatşünaslığının bugünkü ab - havası görkəmli sənətkarların yaradıcılığının daha obyektiv prinsiplərə əsaslanan yeni qiymətini verməyə imkan yaradır.

Nəhayət, XX əsrdə Azərbaycan nəzəri - estetik fikri və ədəbiyyatşünaslığı böyük uğurlar əldə etsə də, onun obyekti dar olmuş, xarici ədəbiyyat sahəsində daha

çox rus ədəbiyyatı problemlərinin araşdırılmasına yönəldilmişdir və Qərb xalqlarının ədəbiyyatları, o cümlədən ingilis ədəbiyyatı, İ.Rəhimovun, C.Nağıyevin, Z.Ağayevin, Ş.Xəlillinin bəzi tədqiqatları istisna olunmaqla faktiki olaraq bizim ədəbiyyatşünaslığımız tərəfindən tədqiq olunmamışdır. Halbuki, ingilis xalqı XX əsrdə təkcə iqtisadiyyat və texnologiya sahəsində deyil, mədəni-bədii fikir istiqamətində də çox böyük nailiyyətlər əldə etmişdir. XX əsrdə dünya ədəbiyyatına Oskar Uayld, Bernard Şou, Ceyms Coys, V.Vulf kimi görkəmli sənətkarlar bəxş etmiş ingilis ədəbiyyatının spesifik problemlərinin öyrənilməsi bizim ədəbiyyatşünaslığımız üçün yenilikdir.

Ədəbiyyat

1.R.Majumdar and a Mclaurin, Routledge and Kegan Paul.
The Critical Heritage. London, 1975, 466 p.
2.James Aldridge. The Diplomat (, Penguin Modern Classics, Hogarth Press 1949, 466 p.
3.Witgenstein L.Philosophical Investigations. Oxford. N.Y., 1963, 159 p.
Virginia Woolf. The Waves, The Common Reader, Hogarth, Press P.M.C. Great Britain, 1964, 390 p.
4.Forester E. M. Review Dayly News and Leader. The Cristical Heritage. N.Y., Cambridge University Press , 1975, 465 p.
5.Tahir Kazimov .Without you with you. Baku.2008. 265p.
Nurlan.Press.
6. Tahir Kazimov . "The miracle of the voice".2000.214p.

F.Zulfugarova

The Conseptions of woman in socio-political scientific-philosophical thoughts

Summary

The article deals with the social problem of woman in English literature at the beginning the of the XX century on the basis of the works by Sharlotte Bronte, Bernard Shaw, James Aldridge as the writer played an enormous role in social, moral and literary life of Great Britain.The philosophical and psycholojical peculiarities of the attitudes of woman personality and society in the English writers' creativity.The problem of woman and her social life , psychological freedom, feminist action are being discussed in chronological order in this article.

Ф.Зулфугарова

Концепция женщина в общественно-политических
и научно-философских
Резюме

В статье осуществлено исследование социальные проблемы женщина в английской литературе первой половины XX века на основе творчества Шарлотта Бронте, Бернард Шоу**,** Джеймс Олдридж так как писательницы сыграла болящую роль в социальной, нравственной и литературной жизни Великобритании.Концепция женщина в общественно-политических и научно-философских Запада- освещается проблема женщина в Европе и философия свободы Запада.Данная статья посвящена также сравнительно – типологическому исследованию проблемы психологической прозы в английской литературах, выявлению их общих и индивидуальных, особенно

Rəyçi: Professor Akif Bayramov

NƏRGİZ ABDULLAYEVA (Cabbarlı)
AMEA, Nizami adına Ədəbiyyat İnstitutu
cabbarlin75@rambler.ru

ÇAĞDAŞ AZƏRBAYCAN ŞEİRİNDƏ ƏNƏNƏ VƏ YENİ YARADICILIQ İSTİQAMƏTLƏRİ (1993-2005)

Açar sözlər: müasir şeir, ənənə, yenilik, mövzu, forma, postmodernizm
Key worlds: modern poem, tradition, innovation, subject, form, postmodernism
Ключевые слова: современный стих, традиция, новаторство, тема, форма, постмодернизм

Çağdaş Azərbaycan şeiri qədim ənənələrə malik, dərin kökləri, qaynaqları olan şeirdir. Əgər bu köklər bir tərəfdən klassik Şərq poeziyasına - əruza doğru uzanırsa, digər tərəfdə təmiz xalq ruhunu yaşadan folklor, aşıq yaradıcılığı - heca şeiri ənənələrinin mövcudluğu fakt olaraq ortaya çıxır. Bu, çağdaş Azərbaycan şeirini xarakterizə edərkən əsaslanmalı və nəzərə almalı olduğumuz amillərdir.

Bu günün şeiri daha çox xalq poeziyası və şifahi ədəbiyyatdan gələn ənənələrə söykənərək öz yaşamını sürdürür. Əruz və klassik şərq şeiri (qismən qəzəl istisna təşkil edir) demək olar ki, müasir poeziya üçün aktuallıq daşımır. Lakin klassik aşıq şeiri, şifahi ədəbiyyatdan gələn ənənəvi şeir formaları çağdaş şairin hələ də müraciət etdiyi və müasir poeziya üçün aktuallığını qoruyan formalardır. Və bu, özünü müxtəlif aspektlərdə – istər mövzu və problem müstəvisində, istər poetik obrazlar yaradılması prosesində, istər istifadə edilən forma qəliblərində, qafiyə sistemində, istərsə də eyni (və ya oxşar) ifadə və təsvir vasitələrinə təkrar-təkrar müraciətin mövcudluğunda göstərir.

Ümumiyyətlə, çağdaş şeirdə ənənəvilik və novatorluq problemi ədəbiyyatşünaslıqda hər zaman araşdırılan məsələ olub və bu gün də belədir. Çünki, poeziya (ümumi halda həm də ədəbiyyat) öz inkişaf qanunauyğunluqları və ədəbi prosesin ona qazandırdığı keyfiyyət dəyişiklikləri ilə bu problemin aktuallığını təmin edir.

Çağdaş şeir yaradıcılığında meydana çıxan yeni tendensiyalar ənənə və ənənəyə münasibətlə qarşılıqı müqayisədə araşdırılmalıdır. O səbəbdən ki, çağaş şeirə yenilik gətirmək istəyənlər bunu ənənəvi formaları, ifadə və təsvir fiqurlarını, fikir strukturlarını qəbul etmədikləri üçün edir və bunu novatorluq kimi dəyərləndirirlər. Bu prosesin dəqiq izahını verən A.İ.Nikolayev «Ədəbiyyatşünaslığın əsasları» kitabında çox vacib bir məsələyə toxunaraq ənənə və novatorluğun dünya mədəniyyəti kontekstində araşdırılmalı olduğunu problem olaraq qaldırır: «Ənənə və novatorluq ədəbi prosesin vacib tərkib hissələridir. Elə bir böyük ədəbi əsər yoxdur ki, onu minlərlə bağ dünya mədəniyyəti konteksti ilə bağlamamış olsun, amma eyni şəkildə də hansısa bir estetik hadisə təsəvvür etmək mümkün deyil ki, o dünya ədəbiyyatını özünün olan nələrləsə zənginləşdirməsin. Ona görə də ənənə və novatorluq bir medalın iki tərəfidir: gerçək ənənə həmişə novatorluğu təmin edir, novatorluq isə yalnız ənənənin fonunda mümkündür» (7).

«Çağdaş Azərbaycan şeirində ənənəvi olan nədir» sualını cavablandırmaq istədikdə, ənənəviliyi və novatorluğu hansı aspektdən araşdırmalı olduğumuzu

müəyyən etməyə çalışdıqda, aparılan ümumiləşdirmələr və çıxarılan nəticələr mütləq olaraq məsələnin aşağıdakı suallar və istiqamətlər əsasında öyrənməyimizi tələb edəcək.

1. **Çağdaş şeirdə ənənəvi və yeni mövzular;**
2. **ənənəvi və yeni obraz və xarakterlər;**
3. **ənənəvi və yeni simvol yaradıcılığı;**
4. **ənənəvi və yeni şeir formaları;**
5. **Çağdaş şeirdə istifadə edilən ənənəvi və yeni poetik fiqular, ifadə və təsvir vasitələri, detallar;**
6. **Çağdaş şeirdə yeni ədəbi cərəyanlara maraq və postmodernizmin müasir poeziyaya təsiri;**
7. **Ənənəvilik və millilik problemi;**
8. **çağdaş şeirdə sufilik və dərvişlik xəttinin ənənə ilə bağlılığı;**

Ənənəvilik və novatorluq problemi araşdırıldığı zaman bu istiqamətli təhlillərin aparılması zəruridir. Çünki hər iki problem özünü məhz yuxarıdakı istiqamətlərdə biruzə verir.

Çağdaş şeirdə istifadə edilən ənənəvi mövzular həddindən artıq çoxdur. Əslində, mövzu ilə bağlı ənənə və novatorluq məsələsinin araşdırılması bir qədər mübahisə doğura bilər. O səbəbdən ki, burada məsələ mövzudan daha çox ona münasibətin, müəllif yanaşmasının yeniliyindən, fərqliliyindən və yaxud ənənəviliyindən gedə bilər. Çünki çağdaş şeirdə istifadə edilən bütün mövzular tarixən işlənib və bundan sonra da işlənəcəkdir. Dəyişən və fərqli olan yalnız yanaşma, mövzunun işlənilməsi zamanı ənənəvi və ya yeni, fərqli ifadə və təsvir vasitələrindən yararlanma, ənənəvi və ya yeni simvol yaradıcılığı, ənənəvi və ya yeni detal tapıntısı və s. ola bilər.

Bu baxımdan çağdaş şeiri təhlil etdikdə istifadə edilən bəşəri-fəlsəfi, tarixi, sosial, siyasi, təbiət mövzulu şeirlərə yanaşmada fərqin mövcudluğu müşahidə edilən istiqamətləri müəyyənləşdirək. Konkret olaraq bəşəri-fəlsəfi mövzudan danışmalı olsaq, Tanrı, Ölüm, Tənhalıq, Sevgi, Kədər kimi bəşəri mövzular çağdaş şeirdə yenə də var. Məsələn, ənənəvi olan müasir poeziyada Tanrı ünvanlı duaların, Tanrıya üz tutmanın ifadəsi idisə (F.Sadıq, Z.Yaqub, R.Sabir və s.) yeni olan Tanrı ilə bərabərlik ideyasının (V.B.Odər, R.Rövşən, V.Səmədoğlu, Q.Ağsəs və s.), Tanrının Dindən ayrı olması ideyasının (məsələn, R.Sabir), Tanrı ilə Din bağlılığı fikrinin (Z.Yaqub, F,Sadıq və s.), Şeytana sevginin və tapınmanın (R.Behrudi və s.) şeirdəki ifadəsi idi. Aydın məsələdir ki, mövzuya bu aspektdən yanaşma və ümumiyyətlə, şeirdə Tanrı xətti çağdaş şeirə müəyyən tarixi mərhələdən sonra yol tapdı. Yəni cəmiyyətdə və düşüncədə azadlıq faktorunun mövcudluğu bu yeni yanaşmaların poeziyaya gəlişinə şərait yaratdı. Və ya Ölüm mövzusuna münasibətdə ənənəvi olan Ölümün son, qurtarış, yekun olması fikrinin ifadəsi idisə, yeni olan onun başlanğıc olması, Tanrıya aparan yol olması, O dünyanın astanası olması fikirlərinin yeni interpretasiyada təkrarən şeirə qayıdışı idi (V.B.Odər, F.Sadıq, Z.Yaqub). Hətta bu mövzunun qəribə bir «özünüyemə» həddi Salamın yaradıcılığında müşahidə edildi. Bu yaradıcılıqda insan təfəkkürünün özünə və ölümə ironiyalı münasibətinin ən böyük təzahürünü görmək olar.

Siyasi mövzuya müraciətin özündə belə bir yenilik müşahidə olunur. Çünki əvvəlki illərə nisbətən çağdaş şeirin araşdırdığımız mərhələsində, xüsusilə də 1988-ci il hərəkatından sonra azad mühit formalaşdı. Bu isə siyasi proseslərin və onların

təsiri ilə formalaşmış fikir və emosiyaların şeirə yol tapmasına səbəb oldu. Sovet dövrü ilə müqayisədə bu, çağdaş şeirimiz üçün yeni idi. Eyni fikri tarixi mövzuya da aid etmək olar. Çünki müstəqillikdən əvvəlki illərdə tarixi mövzuya müraciət tamamilə fərqli nəticələr ortaya qoyduğu halda, müstəqillik illərində bu mövzu daha azad və sərbəst fikirlərin ifadəsi ilə diqqət çəkdi.

Çağdaş şeirdə ənənəvi və yeni obrazlar həm də real tarixi şərait və tarixi mərhələnin verdiyi imkanlar, ortaya çıxardığı problemlərlə sıx bağlıdır. «Novatorluğun özülündə həyatın inkişaf prosesi durur. Elə bir zaman yetişir ki, gerçəkliyin özü yazıçını və ya şairi yeni forma və ifadə vasitələri, yeni mövzular axtarmağa vadar edir. Çünki köhnələr artıq yeni həyat mərhələsinin ifadə olunması üçün yetərli olmur. Hər bir dövr keçmiş mədəniyyətdən və ədəbiyyatdan o şeyi götürür və mənimsəyir ki, o, onun üçün həqiqətən də dəyərli və əhəmiyyətlidir» (6). Çağdaş şeirdə də ənənəvi obraz və xarakterlər çoxluq təşkil edir. Yenə də sevgili, aşiq, məşuq, övlad, vətənpərvər qəhrəman, ana, təbiət vurğunu, gül, bülbül, zalım-məzlum, quzu, qurd və s. kimi ənənəvi obrazlar müşahidə olundu. Lakin yeni olan, fərqli görünən obrazlar da vardı ki, bu da məlum tarixi hadisələrdən sonra və məlum tarixi mərhələnin ortaya çıxardığı yeni qaçqın, didərgin, şəhid, şəhid anası, şəhid balası və s. obraz və xarakterləri idi. Bunlara da əksər şairlərin yaradıcılığında rast gəlmək mümkündür.

Və bu fərdi yaradıcılığın yeniliyindən daha çox dövrün tələbi ilə ortaya çıxan yenilik kimi qiymətləndirilməlidir. Amma bu heç də o demək deyil ki, çağdaş şeirə gətirilən obrazlar bütün yaradıcılıqlarda eyni şəkildə uğurlu ifadəsini tapıb. Əksinə, obraz yaradılışında mövcud ənənə – əsrlərdən gələn deyil, konkret bir dövrün öz daxilində formalaşmış ənənə onları bir-birinin surətinə çevrilmək təhlükəsi ilə üz-üzə qoydu. Yəni çox az şairin yaradıcılığında məsələn, qaçqın ana, yaxud şəhid anası obrazı (Z.Yaqub, C.Novruz), şəhid balası (B.Vahabzadə) obrazı və xarakteri novator müəllif yanaşması və öz fərqli çalarları ilə yadda qaldı. Ümumi olan görüntü bu obrazları həddindən artıq oxşar görünüşdə və oxşar xarakterdə təqdim etməsi ilə bağlı idi.

Çağdaş şeirdə hər zaman olduğu kimi, ənənəvi simvollardan istifadə daha qabarıq müşahidə edilir. Hətta ən istedadlı, çağdaş şeirimizin müasir mənzərəsinin yaranmasında müstəsna rolu olan şairlərin yaradıcılığında belə bu tendensiya üzdədir. Ənənəvi simvollar kimi papaq (qeyrət, namusu simvolizə edir – C.Novruz, B.Vahabzadə), qala (qeyrət qalası – C.Novruz), çadır (F.Sadıq, C.Novruz, Z.Yaqub), güzgü, ayna (R.Rövşən, A.Mirseyid), xarıbülbül, fələyin qılıncı (Z.Yaqub), körpü (B.Vahabzadə, R.Rövşən, İ.İlyaslı) və s. simvol-detallar çağdaş şeirimizdə çox yayılıb. Hərçənd ki, bu eyniyyət istifadə olunan simvolların mətn daxilində uğurlu obrazlaşmaq xüsusiyyətinə, hansısa uğurlu poetik tapıntı və təsvirin bir parçası kimi çıxış etməsinə mane olmadı. Amma bununla belə, çağdaş şeirin araşdırılan mərhələsində mətnlərə yol tapmış bu simvolların ifadə etdikləri məna daşlaşmış, qəlibləmiş və dəyişməz qaldı.

Bu heç də o demək deyil ki, müasir poziyada simvol yaradıcılığı yalnız ənənə üzərində həyatını sürdürür. Simvol-obrazlardan istifadənin çağdaş şeir üçün aktuallığı nəzərə alınarsa, yeni simvolların yaradılmasına marağın da təbii bir proses olması qənaəti meydana çıxar.

Çağdaş şeirdə «kəpənək qanadı», «başı kəsik gözəl kötük» (R.Rövşən), «nərdivan» (R.Rövşən), «itmiş papaq» (C.Novruz) və s. kimi yeni simvol-detallardan da yararlanılıb.

Çağdaş şeirdə ənənəvi şeir formalarından yararlanma daha çox müşahidə edilib. 11-lik, gəraylı, qoşma, təcnis, bayatı, ağı formaları araşdırılan tarixi mərhələdə daha aktual oldu. Hətta bayatı-nəğmə formasından yaradıcılığının bir mərhələsinin ifadəsi kimi istifadə edən R.Rövşəni nümunə göstərmək olar ki, o, bu ənənəvi qəlib daxilində tamamilə fərqli ab-hava, yeni poetik nəticələr ortaya qoya bildi. R.Rövşənin davam etdirdiyi bu ənənəni digər şairlər – Səhər, B.Sadiq, M.Ağa, R.Behrudi və s. kimi davaçıları da vardı.

Əlbəttə, ənənəvi şeir formaları çağdaş şeirimizin birbaşa Azərbaycan klassik aşıq və xalq şeiri ənənələrinə söykənməsi və ümumiyyətlə, heca vəzninə bağlılığı ilə əlaqəlidir. Çağdaş şeir də vəznli şeirin bütün tələblərinə – qafiyə, ritm, ölçü – cavab verən şeirdir və bu şeir poeziyada öz çəkisini qorumaqdadır.

Aşıq şeirindən forma (eyni zamanda da məzmun) yararlanması bir çox şairlərdə (M.İsmayıl, A.Səməd, S.Sarvan, Ş.Ağayar, M.Köhnəqala, M.İlqar, M.Aslanbəyli, İ.İlyaslı və s.) müşahidə edildi. Bu şeirlərin bəziləri klassik aşıq şeirindən heç bir şeylə fərqlənmədi. Eyni «zalım-məzlum» mövzusu, dünyadan şikayət, haqq ədalət axtarışının ənənəvi ifadəsi və s. onlarda diqqət çəkən əsas xüsusiyyətlər idi. Bununla belə, aşıq şeiri formasında yazılmış uğurlu nümunələr də mövcuddur ki, bu nümunələrin müəllifləri cərgəsində M.İsmayıl, M.İlqar, İ.İlyaslı, Ş.Ağayar, M.Köhnəqala və s. şairlərin yaradıcılığını misal çəkmək olar. Bu şairlər ədəbi ənənəyə qayıdış və əsaslanma, ənənəvi poetik forma, intonasiya və ritmlə yeni poetik nəticələrin əldə oluna biləcəyini sübut etdilər. Ş.Alışlanlının fikri bu məqamda yerinə düşür: "Ədəbi ənənəyə qayıdış müasir şeirin məzmunu ilə yanaşı onun poetik sistemində də özünün orijinal təcəssümünü tapır. Əslində ənənəvi poetik vasitələr: ritm, intonasiya müasir həyatda bədii fikri narahat edən problemləri, mənfi halların bədii təhlilini kəskinləşdirmək də poetik məzmun daşıyır" (2, 106).

Yeniliyə gəlincə, qafiyəli şeir daxilində «konstruktiv şeir» qurmaq meyli də müşahidə edildi ki, bu yeni itiqamət kimi diqqəti çəkdi və əsasən forima ilə məzmun əlaqəsi baxımından maraq doğurur. Bu tendensiya ilk olaraq Salamın yaradıcılığında özünü göstərdi. Onun «konstruksiyalı şeir konsepsiyası» maraq doğurur. Məsələn, o üç bəndlik 11 hecalıq mətn daxiliqdə 3 ayrı-ayrı mövzunu işləməyi, hər bəndi fərqli mövzuya həsr etməyi, əsas «fikir partlama»sını isə sonuncu bənddə verməklə sarsıntı yaratmağı bu konsepsiyanın əsas qayəsinə çevirmişdi. Bu cür şeir formasında əsas fikir məntiq və təzad oyunu üzərində cəmlənir. Əsas məsələ hissin, duyğunun birbaşa şeirə ötürülməsi yox, fərqli məntiqi nəticələrin, zidd hisslərin, təzadlı duyğu və fikirlərin xüsusi seçim əsasında qarşı-qarşıya gətirilməsidir. Bəndlər arasında məntiqi əlaqənin, fikir ardıcıllığının və davamlılığının olmaması da bu şeirin əsas şərtlərindəndir. Bu şeir formasını öz yaradıcılıqlarında sınaqdan keçirən müəlliflər arasında Səhər, B.Pərviz, R.Sabir və s. adlarını çəkmək olar.

Çağdaş şeirdə novatorluq naminə vizual effektlərdən yararlanma ilə diqqət çəkən formalara müraciət, ayrı-ayrı sözlərin və ya bir neçə ifadənin təkrarı ilə şeir yaratmaq cəhdləri də diqqət çəkdi. Amma təəssüf ki, bu cür cəhdlər yalnız eksperiment xarakteri daşıdı və uğurlu nəticələr vermədi. Məsələn,

da-da-da-da-da

dam! dam! daraaaamm!!!
əyil aşağı əyil!
dam! dam!
ay ana!
nə oldu sənə
….da-da-da-da
əlvida
əlvida
əlvida!

Bu parça Şərif Ağayarın «Səngər» adlı şeirində götürülüb və müharibə-döyüş səhnəsi effektinin yaradılması üçün bu cür səs yığınından istifadə olunub.

1993-2005-ci illərdə müşahidə edilən tendensiyalardan biri də nəsr əlamətli şeirin yaranmasına, şeirdə publisistik ağırlığın artmasına, şeirin daşıdığı əsas keyfiyyətlərdən – ritm, qafiyə, vəzn, daxili musiqi və s.-dən təcrid edilməsinə marağın çoxalması idi. Xüsusilə də ədəbiyyata yeni gələn qələm sahiblərinin yaradıcılığında bu istiqamət daha çox duyuldu (S.Babullaoğlu, A.Yaşar, Xanəmir və s.).

Sərbəst şeir müstəvisində eksperimentlərin çoxluğu, sərbəst şeirin belə daxili strukturunu pozmağa, hətta onun daxilində mövcud ritmli intonasiyanı yox etməyə meylli fəaliyyətlər də oldu ki, bu cür eksperimentlərin də çoxluğu diqqət çəkdi.

Əlbəttə, qətiyyən söyləmək olmaz ki, çağdaş poeziyada sərbəst şeirin daxili ritmi, ritmik intonasiyası tamamilə yoxa çıxdı. Əksinə, bu prinsipləri qoruyan gözəl nümunələr yarandı ki, bunların müəllifləri sarasında F.Qoca, Z.Yaqub, M.Yaqub, C.Novruz, Ç.Əlioğlu, V.B.Odər, V.Səmədoğlunun adlarını çəkə bilərik. Ritm və intonasiyanın pozulduğu nümunələr, nəsr ritminin göründüyü mətnlər isə əsasən postmodernizmə meyl göstərən şairlərin yaradıcılığında müşahidə edildi və çağdaş dünya şeirində gedən tendensiyaların təzahürü kimi meydana çıxdı.

Eyni qənaəti 1990-cı illər poeziyasında, xüsusilə 1992-ci ildən sonrakı mərhələdə formalizmə meylin meydana gəlməsi ilə əlaqədar da söyləmək olar. Belə ki, məhz bu dövrdə forma üzərində eksperimentlərin artması, «pilləli şeir», durğu işarələrindən imtina edilmiş və bütün mətni yalnız kiçik hərflərlə yazılmış şeir (A.Mirseyid, E.İskəndərzadə, Ş.Ağayar, M.Köhnəqala, R.Qaraca və s.), kub formada, romb formada və s. həndəsi fiqurlar formada qurulan şeir (A.Yaşar), sərbəst şeirin forma hüdudlarına salınan, lakin daxili qəzəl intonasiyasını qoruyub saxlayan şeir (M.Köhnəqala), heca vəznində yazılmış olsa da, sərbəst şeirin formasında təqdim edilən şeirlər dəb halını aldı. Amma qeyd edildiyi kimi, bu ötən əsrin sonunda məlum hadisələrdən sonra ədəbi prosesdə meydana gələn azadlığın və yaradıcılıq axtarışlarının nəticəsi idi. Belə ki, dövrün yeni mərhələyə qədəm qoyması, əvvəlki kanonlaşmış estetik standartların birdən-birə sıradan çıxması və köhnəlməsi bu cür yaradıcılıq axtarışlarına və eksperimentlərin aparılmasına ehtiyacı ortaya çıxardı. Lakin məlum olduğu kimi, bütün eksperimentlər uğurlu alınmır. Təəssüf doğuran hal bir də ondan ibarətdir ki, əslində dünya ədəbiyyatının hələ əsrin əvvəllərində formalizmi bir mərhələ kimi keçməsinə baxmayaraq, çağdaş Azərbaycan şeirində bunu yeni tendensiya və postmodernizmin təzahürü kimi qiymətləndirdilər. Bu haqda aşağıda xüsusi danışacağıq.

O da qeyd edilməlidir ki, ənənəvi şeir formaları, xüsusilə daşlaşmış aşıq şeiri qəliblərinin tələblərindən irəli dələnənənvi ifadə və təsvir vasitələrinin çağdaş şeirdə

tez-tez işlədildiyi əhəmiyyətli faktdır. XX əsrin ən görkəmli filoloqlarından biri olan M.M.Baxtin bu problemlə bağlı yazırdı: «hər zaman irəli doğru atılan hər bir əhəmiyyətli addım geriyə qayıdış ilə müşaiyət olunur, daha dəqiq desək, başlanğıcın (mənşənin) yenilənməsinə gətirib çıxarır. Yalnız yaddaş irəli doğru gedə bilər, unutqanlıq yox. Yaddaş kökə qayıdır və onu yeniləndirir. Əlbəttə, «irəli», «geri» terminlərinin özü də bu mənada öz qapalı mütqəliyini itirirlər və daha çox öz qarşılıqlı təsirləri nəticəsində hərəkətin canlı paradoksal təbiətini ifadə etmiş olurlar» (5, 533).

Bu cür "geriyə qayıdışı" reallaşdırsalar da, çağdaş şeirin ən uğurlu ifadə və təsvir vasitələri, poetik fiqurları M.Yaqub, M.İsmayıl, M.İlqar, Z.Yaqub kimi şairlərin yaradıcılığında müşahidə edildi.

Bu gün çağdaş ədəbiyyatşünaslığımızda bir sıra ədəbi meyllərun, emi-nəzəri anlayışların, sovet dövründə mövcud olmuş ədəbi dəyərlərin inkarı kimi, realizmin, romantizmin də bir yaradıcılıq metodu, cərəyan tək əleyhinə olan tamamilə fərqli konsepsiyalar, manifestlər mövcuddur. Və bu proses 90-cı illərin əvvəllərindən başlayıb. Hətta müxtəlif ədəbi qruplar, birliklər də meydana çıxdı ki, ("Baca", "EQO"-çula", "2+", "AYO"-çular, "Pərvanə"çilər və s.) onların fəaliyyəti ya yarımçıq qaldı, ya da sadəcə manifestasiya səviyyəsini adlaya, şairləri yaradıcılıq baxımından öz ətrafında birləşdirə bilmədi.

Dünya ədəbiyyatı və estetik fikrinə hakim kəsilmiş və müxtəlif mədəniyyətlərdə özünü təsdiq etmiş ədəbi cərəyanların və meyllərin isə çağdaş şeirdə (eyni zamanda da ədəbiyyatda) yalnız müəyyən təzahürləri müşahidə edildi. Məlum olduğu kimi, 70-80-ci illər elmi-nəzəri ədəbiyyatda Azərbaycan ədəbiyyatının modernizm dövrünün başlanğıcı kimi təhlil edilir. Məsələn, XX əsr ədəbiyyatını dörd mərhələyə bölən professor N.Cəfərov bu mərhələni nəsr təfəkkürünün inkişaf etdiyi mərhələ kimi xarakterizə etsə də, poeziyanın imkanlarının genişləndiyini də müəyyən edir və bunu iki məktəb, yaxud tendensiya əsasında formalaşdığını göstərirdi. Onun müəyyən etdiyi iki məktəbdən biri Rəsul Rzanın yaratdığı modernist-eksperimental məktəb, digəri isə Səməd Vurğunun rəhbərlik etdiyi ənənəvi məktəb idi. Bu bölgü həqiqətən də o dövr ədəbiyyatının real mənzərəsini tam olaraq özündə əks etdirə bilir (4, 155).

Bu bölgünü davam etdirməli olsaq, qeyd edə bilərik ki, XX əsrin son onilliklərini həqiqətən də poeziyada bu iki məktəbin davamı kimi xarakterizə etmək həqiqətə uyğundur. Lakin artıq XXI əsrin əvvəllərindən başlayaraq əsasını XX əsrin sonundan götürmüş bir sıra tendensiyalar poeziyada (eyni zamanda da nəsrdə) özünü təsdiq etməyi bacardı. Yeni meyllər, yeni poetik axtarışlar ənənəvi şeirlə modernist şeiri birləşdirən şairlərin cərgəsində M.İsmayıl, R.Rövşən, V.B.Odər, R.Behrudi, Salam yaradıcılığını ehtiva edirsə, daha sonrakı dövrdə «postmodernist» adlandırılan eksperimental şeir nümunələri sırf klassik, sırf ənənəvi hecada yazılan, aşıq şeiri ənənələrini davam etdirən (bəzən hətta eyni yaradıcılıqla) şeirlər paralel olaraq öz yaşamına başlayır və daha çox aktuallaşır.

Xüsusi olaraq vurğulamağı vacib bilirik ki, postmodernizm yaşından və mənsub olduğu ədəbi nəsildən asılı olmayaraq, bir sıra qələm sahiblərinin yaradıcılığına təsir göstərə bildi. Bu, çağdaş Azərbaycan şeirinin də, nəsrinin də təkzib edilməsi mümkün olmayan bir faktıdır.

«Postmodern» şeir əslində, çağdaş Azərbaycan ədəbiyyatı üçün bir qədər yeni anlayışdır və onu modernist-eksperimental şeirin davamı, bir qədər də dəqiqlədirsək, yeni mərhələsi kimi qiymətləndirmək olar. Bu şeir ənənəni qəbul etmir, hətta onun bəzi nümayəndələri (A.Yaşar, R.Qaraca) ənənəni dağıtmaq kimi bir məqsədi də öz qarşılarına qoymuş olurlar. Hərçənd ki, postmodernist-eksperimental şeirin də uğurlu nümunələri ədəbiyyatımızda yaranmaqdadır, amma hələ ki, onun əsaslanmış, təsdiqini tapmış və çağdaş Azərbaycan poeziyasında şaxələnmiş bir tendensiya kimi təsdiqləmək tezdir.

Məlumdur ki, istənilən cərəyanın nəzəri təməlləri olmalıdır. «Posmodernizm» anlayışının atası və yaradıcısı hesab olunanların belə etirafına görə, onun nə nəzəri əsasları, nə də özündən əvvəl mövcud olan, hələ də bir çoxlarının fərziyyəsinə görə mövcudluğunu sona yetirməmiş «modernizm»lə ayıran sərhədləri var. Postmodernizm üslub, metod yox, dünyagörüşü, dünyayabaxış, təfəkkür istiqamətidir. O Avropada fəlsəfi fikrin tənqidinin nəticəsi kimi meydana gələn «modernizm»dən sonra yaranıb. Modernit dünyagörüşünün əsas ideyası belədir: o, insan təfəkkürünün obyektiv qanuna tabe olan dünyanı bütöv, tam, yeganə sistem kimi başa düşməyə inamdan ibarətdir. Həmçinin təbiətin və cəmiyyətin əsas qanunlarının öyrənilməsi vasitəsilə tarixi prosesə təsir etmək və dünyanı yenidən qurmağa mümkünlüyünə inam da bura aiddir. Beləliklə, modernizmin nəzəri əsasında «insan elmi öyrənə və reallığa çevirərək dünyanı dəyişdirə bilər» fikri durur. Ondan sonra gələn postmodernizm isə eynilə modernizm kimi özündən əvvəl mövcud olanın üzərində, onu inkar etmədən, amma xüsusiyyətlərindən istifadə edərək inkişafı nəzərdə tutur.

Fəlsəfi termin kimi postmodernizmin ilk statusunu J.F.Liotarın «Postmodern vəziyyəti» kitabında qazandığına görə, onun «zamanın ruhu» mənasını verən bu terminlə bağlı «Müasir cəmiyyətdə biliyin vəziyyətini postmodern adlandırırıq. Bu söz elm, ədəbiyyat və incəsənətdə oyun qaydaları transformasiyaya uğradıqdan sonra mədəniyyətin vəziyyətini əks etdirməlidir» fikrini xatırladırıq. Postmodernizmin nəzəriyyəçilərindən biri olan Umberto Eko isə yazırdı ki, «postmodernizm xronoloji fakt yox, ruhi vəziyyətdir. Ona görə də hər bir dövrün öz postmodernizmi var».

Alman filosofu Rudolf Panvitsin 1917-ci ildə işlətdiyi «postmodernizm» termini o zaman tənəzzüldə olan Avropa mədəniyyətini xilas etməyə çağırılmış insanlara aid edilirdi. Sonra bu söz 60-cı illərdə Amerika Birləşmiş Ştatlarında keçirilən müzakirələr zamanı avanqard ədəbiyyatın tənəzzül dövrünü, həmçinin tənəzzüldən çıxmaq mərhələsini ifadə etmək üçün işlədilib.

Çağdaş şeirimiz və şairimiz nəyi postmodern hesab edir? Məsələn, Xanəmirin «Qarğa beyni yeyən Əli» şeiri tənqidçi Ə.Cahangir tərəfindən «manqurtlaşmış çağdaşımızın timsalı olan qarğabeyin Əlinin üzünün cizgiləri ərəb əlifbaının müqəddəs hərflərinə təşbeh etməklə» «postmodern şeirin əlifbasını yaradanlardan biri» adlandırır. Yaxud Zahir Əzəmətoin «mərkəzi dayan nöqtəsi kimi Allah ideyasından şüurlu imtina» tədricən yetişməkdə olan postmodernizm çaları adlandırılır (3, 35). Halbuki bu cür xüsusiyyətlər hürufilik qalıqlarından başqa bir şey deyil.

Postmodernizmin əsas xüsusiyyətləri plüralizm, dəyişkənlik, fraqmentarlıq, ironiya və çoxcəhətlilikdir. Şərif Ağayarın «Gəlin ermənilərə verək torpaqlarımızı müzakirəsiz-filansız» misraları ilə başyan «Təklif» və «Darmadağın etməli o kəndi:

bir nəfəri belə sağ buraxmamalı, o kəndin acılarıyla yaşamağına qıymamalı» hökmü ilə bitən «Humanizm» şeiri öz müəllifinin postmodern ironiyaya çatdığını göstərdi» (Ə.Cahangir). Fərqli görünmək, fərqli təqdim olunmar istəyi ilə deyilmiş bu şeirlərdə həqiqətən də poctmodernizmin əsas xüsusiyyətlərindən və tələblərindən biri olan ironiya görünür.

Postmodernizmin daha bir əlaməti dekanstruksiyadır. Mövcud mətn üzərində tamamtlə yeni nəticələrə gəlmək. Rasim Qaraca, Azad Yaşar, Həmid Herisçi, Murad Köhnəqala, Elxan Zal Qaraxanlı, Aqşin kimi postmodernistlərin əksəriyyəti xalq şeiri, aşıq şeiri və ənənəvi şeir üslubunda yaradıcılığa başlayıblar. Sonradan postmodern şeirə maraq onların yaradıcılığının ikinci mərhələsi kimi dəyərləndirilə bilər. Şeirlərində eyni xüsusiyyət müşahidə olunur: ironiya, artıq yaradılmış, mövcud ədəbi nümunələrirn dekonstruksiyaya uğradılması, fərqli, qeyri-adi və əksər hallarda təsəvvür edilməsi belə mümkün olmayan abstrakt ifadə və təsvir vasitələrindən istifadə, cəmiyyətin və insan qüsurlarının qabardılması, parno elementlərə meyl, indiyə qədər poeziyada işlədilməsi düzgün hesab edilməyən ifadə və əşyaların təsvirinə geniş yer verilməsi və s.

Özlərini postmodernist adlandıran şairlərin əksəriyyətində «şer»in xüsusiyyətlərinin pozulması baş verir.

Sözünü unutma, dərdini unut
Qarabağsız hər vaxt dilənəcəksən
çünki sənə hər zaman
şərəfsiz şey kimi baxacaq dünya (Murad Köhnəqala,
«Sözünü gülnən kəsirəm» şeirindən).

Burada təkcə şeirin qanunauyğunluqlarından, mövcud qəliblərdən çıxma yox, həm də dilin qanunlarının pozulması, məntiqi fikir ardıcıllığında yol verilən yerdəyişmələr də var.

Yaxud «Mən hansı bir meymuna bənzədim ki insanı» şeirindəki orijinallıq göz önündə olsa da, mükəmməllikdən, nə də poetiklikdən danışa bilərik. "Mən hansı bir meymuna/Bənnzədim ki insanı/Meymun onun yanında toya getməli olsun//-Mən hansı bir Anaya/Bənzədim ki tumsatan qalını/Doğrudan da onun gələcəyi/Perspektivli və parlaq olsun" (Murad Köhnəqala) yazılan mətndə həm postmodern ironiya, həm də dekonstruksiya var. Mövcud şeir qəlibi götürülərək onun üzərində yeni bir məzmun yaradılıb. Müəllifin cəmiyyətlə bağlı bütün kini və nifrəti burada öz əksini tapıb. «Ziyarət» şeirində isə "Mənim ağzım əyilməz/Sənin ağlın əyilib/Səccadəyə qul olunca/Get bir yetimin saçını öp/Ərəbin daşını öpüncə/-Xəritədə Laçını öp" (Murad Köhnəqala) ağır problemin kinayəli ifadəsi var.

Azad Yaşarın «Aşıq Qurbanidən bir deya və parodiya» şeirində "Başına döndüyüm a şair bala/Adətdir, dərərlər yaz bənövşəni/Bu yaz gecəsində ölməyə nə var/oğulsan şeirə sal, yaz bənövşəni.//Ayrı düşdüm vətənimdən elimdən/Hələ gəncsən, çox söz etmə ölümdən/Adını eşitsək bir qız dilindən/Şairlər qız öpər, qız bənövşəni", - yazır. Eyni sözü «Nəsimi və Qarabağ konflikti» (postmodernist analiz) haqqında da demək olar. Analizdə Nəsiminin erməni rədifli qəzəli təhlil olunub. Bir şeir fərqli yozumda təqdim edilib.

Postmodernist şeirdə ən çox narahatlıq doğuran postmodernist ironiyadır. Və bu özünü ilk növbədə ifadə aqressivliyində, kəskin etirazda göstərir. Yəni qarşıya qoyulan məqsəd təkcə mövcud qəliblərin dağıdılması yox, həm də şeirin xaotik

təsəvvür və çaşqınlıq yaratmasıdır. Ən maraqlısı isə odur ki, bu şairləri yaradıcı xüsusiyyətlərindən əlavə ədəbi mühitə, prosesə, cəmiyyətin mövcud qanun və çərçivələrinə əks mövqdə durmaları birləşdirir.

Yekun olaraq qeyd eilməlidir ki, «…yalnız özündən əvvəlki ədəbi irsin ən yaxşı nailiyyətlərinə arxalanmaqla, onu şüurlu və yaradıcı surətdə davam etdirməklə yanaşı, sənət qarşısında öz borcunu dərk etmək, yəni fərdi yaradıcılıq kəşfləri ilə bu sənəti tamamlamaq, sənətdə tamamilə yeni özünəməxsus bir cığır açıb əsərdən əsərə bu cığırı geniş yola çevirmək vasitəsilə müstəqilliyə və beləliklə də gələcək nəsillər üçün layiqli bir irs yaratmağa – ənənəyə çevrilməyə nail olmaq mümkündür (1, 31).

Azərbaycan şeirində isə ənənənin, şeir qanunlarının möhkəmliyi eksperimentlərə yol versə belə, yalnız öz xarakterinə, daxili poetik xüsusiyyətlərinə uyğun olan dəyişiklikləri qəbul edə bilir. Ruhuna və daxili poetikasına yad eksperimentlər və meyllər isə özünü təsdiqləməmiş qalır.

Ədəbiyyat

1. Abdullazadə Arif, Novatorluq və üslub, Bakı, 2004
2. Alışanov Şirindil, Sözün estetik yaddaşı, Bakı, Elm, 1994, 226 səh.
3. Cabbarlı Nərgiz, Yeni nəsil ədəbiyyatı, Bakı, Elm, 2006, 456 səh.
4. Cəfərov Nizami, Klassiklərdən müasirlərə, Bakı, Çaşıoğlu, 2004, 272 səh.
5. Бахтин М.М. Эпос и роман// Бахтин М.М, Вопросы литературы и эстетики. М., 1975, с.447-483
6. Белая Н.В. Традиция и новаторство как важнейшие составляющие литературного творчества//Вестник Адыгейского Государственного Университета. Серия2. Филология и искусствоведение, 2007, №2*Николаев А.И. Основы литературоведения: учебное пособие для студентов филологических специальностей. Иваново: ЛИСТОС, 2011*

Nargiz Abdullayeva (Jabbarlı)

The tradition and new creative trends in the modern Azerbaycan poem – 1993-2005

Summary

The article investigated the emergence of new trends, new creative trends of modern Azerbaijan poetry is comment a number of literary school and associations activities jam in the form of declaration, is determined that development confirm himself not knowing. The initial manifistations of a postmodernism in literature began to appear in the late of 1990's. Especially in Azerbaijani publications and poetry its various functions were illegally appropriated and applied. Society takes own place in a political situation. Everything what happened in the country, ironical approuch to life, traditions, subjects, forms of reconsideration created opportunity to break.

Explores of poem indicating himself in the form at the end of 90 years, since the early 2000 s in the modern literature, the trend of postmodernism as a creative modern manifestations can be seen, but could not confirm.

Наргиз Абдуллаева (Джаббарлы)

Традиция и новые творческие тенденции в современной Азербайджанской поэзии 1993-2005

Резюме

В статье исследуются традиция и новаторство в современной Азербайджанской роэзии. Так же новые тенденции и творческие направления, возникшие в современной азербайджанской поэзии. Путем анализа ряда художественных школ и объединений, было установлено, что их развитие осталось на уровне манифестаций, а их самоутверждение в ходе развития стало невозможным. Так же исследуется тот факт, что постмодернизм, появившийся в современной литературе в конце 90-х начале 2000-х гг., как творческое направление и проявляющийся в современной поэзии в форме явлений, так и не нашел подтверждения.

Rəyçi: Professor Akif Hüseynli

ESMİRA RƏHİMOVA
AMEA Nizami adına Ədəbiyyat İnstitutu
esmira@mail.ru

MÜASİR ƏDƏBİYYATŞÜNASLIĞIN TƏHLİLİ METODOLOGİYASINA BİR BAXIŞ

Açar sözlər: sosrealizm, ədəbiyyatşünaslıq, metodoloji baxış, təhlil
Ключевые слова: соцреализм, литературоведение, методологическое обозрение, анализ
Key words: sosrealism, literary criticism, metodological view, analysis

80-ci illərin sonları 90-cı illərin əvvəllərindən ədəbi bədii düşüncə kimi, ədəbiyyatşünaslıq və ədəbi tənqid də yeni bir sferaya daxil olur. Sovet elmi-nəzəri fikri üçün xarakterik olan yanaşma və yeni yaradıcılıq metodu süquta uğramış, birpartiyalı sistem ləğv olunmuşdu. Məlumdur ki, sosialist realizminin əsas məzmunu ədəbiyyatı təbliğat vasitəsinə çevrilməsi ilə yanaşı, onu sosializm cəmiyyətinin inkişafında "təkərcik" və "vintcik" funksiyasına artırmaqdan ibarət olmuşdur. Dünyadan təcrid olunmuş fövqəlcəmiyyətdə ədəbi metod da fövqəl olmalı idi. Buna görə də ədəbi gedişatın özündən doğmayan, hakim ideologiyanın mətbəxində hazırlanaraq ədəbi siyasətin aparıcı metoduna çevrilən sosialist realizminin ömrü o qədər də uzun olmur. Ötən yüzilin 60-cı illərindən zəifləməyə başlayan sosrealizmin dayaqları o artıq 80-ci illərdə yalnız deklorativ xarakter daşıyırdı. 80-ci illərin əvvəllərindən başlayaraq sosialist realizminin bir metod kimi artıq sosialist realizminin öz mövcudluğunu sürdürməsi sual altına alınır: "...Sosialist realizmi söz sənəti qanunlarının başı üzərindən, onun əzəli prinsiplərinə təcavüz edərək, sırf siyasi məqsədlərlə yeni cəmiyyətə uyğunlaşdırılmış, yalnız ideoloji dayaqlar üzərində duran süni və qurama bir metoddur. Bu, əslində dünya bədii təcrübəsində realizmdən imtina etməyin klassik forması idi: realizm həm prinsip etibarilə, həm də bir bədii inikas üsulu kimi tərksilah olunur, onun maarifçillikdən başlanan və tənqiddən keçən yolu qapanır, yeni ədəbiyyat isə klassik poetik irsdən və dünya ədəbi prosesindən təcrid olunurdu" (1, 168).

Müasir nəzəri estetik fikir və elmi metodologiyanın formalaşması prosesi, əsıində elə sosrealizmin süquta uğramasından başlayır. Burada 60-cı illərdə gedən ədəbi prosesi və 60-cıların yaradıcılığını kənara qoymaq olmaz. Belə ki, nəzəri fikrin də bədii düşüncənin üzərində tədqiqatlar apardığını nəzərə almış olsaq, onda sosrealizmin sərhədlərinin məhz bədii düşüncə vasitəsilə pozulduğunu görmək mümkündür. Doğrudur, 50-ci illərdə siyasi düşüncədə gedən yumşalmanın da rolu burada az olmamışdır; N.Xruşşov "yumşalma" siyasətindən sonra ədəbiyyatın inkişafı perspektivinin artması yeni düşüncənin imkanlarını artırdığı kimi, ədəbi-tənqidi təfəkkürün də təşəkkülünə rəvac vermişdir. Ehkamçı və hakim ədəbi-estetik fikirin vurduğu zərbə onillər boyu ədəbi, ictimai fikrimizdə davam etmişdir. Lakin bu illərdə də mövcud sosial model qaldığından, Sovetlər birliyi öz mövcudluğunu qoruyub saxladığından köklü dəyişikliyin baş verməsi mümkünsüz olmuşdur. Bu isə o demək idi ki, sosrealizmin zərərləri hələ davam edir. 80-ci illərin ortalarından ədəbi, ictimai-siyasi təfəkkürdə yeniləşmə meylləri güclənir. Demək lazımdır ki,

müstəqillik dövrü Azərbaycan ictimai-siyasi düşüncəsinin formalaşması da bu mərhələyə təsadüf edir. Millilik və beynəlmiləlçilik ideologiyasının mövcud şəraitdə bir-birilə uzlaşmaması ölkədə gedən siyasi proseslərdə üzə çıxır. Yeni təfəkkür və yeniləşmə ideologiyası ədəbi siyasətin başlıca parametrlərini təşkil edir. Dövrün, zamanın tələbi olaraq yeniləşmə ideologiyası, yaxud yeni ictimai-siyasi, estetik fikir folklorumuzdan tutmuş çağdaş ədəbiyyatımıza kimi bütün ədəbi həyat faktlarına yeni münasibət tələb edirdi. Yeni düşüncə tərzi ədəbi yeni əsərlərlə meydana gəldiyi kimi, özündən əvvəlki ədəbi prosesə də münasibət bildirməyi tələb edirdi. Əgər 60-cı illər ədəbiyyatını 40-50-ci illər ədəbi tənqidi qiymətini verə bilmirdisə və bunun müqabilində 60-cıların öz tənqidçisi formalaşırdısa, 90-cı illər ədəbiyyatında ədəbi tənqidin üzərinə daha ağır vəzifə düşürdü. Bu vəzifəni vaxtında dərk edən tənqidçi Nizami Cəfərov həyəcan təbili çalaraq yazırdı: "Ədəbi-tənqidi təfəkkürün inkişafı üçün, heç şübhəsiz, ədəbiyyat tarixinin qarşısında duran bir sıra problemlər həll olunmalıdır; buraya birinci növbədə, ədəbi-bədii fikrin inkişaf məntiqinin aşkarlanması daxildir,-indiyə qədər Azərbaycan ədəbiyyatı tarixini əsasən Firudin bəy Köçərlinin təqdim etdiyi məzmunda qavrayırıq. Nəzəri fikir ədəbiyyat tarixinə demək olar ki, yerimir..." (2).

Mövcud nəzəri fikrin ədəbiyyat tarixinə yeriməməsi o demək idi ki, hələ də ədəbi mühitdə sovet ədəbi-estetik düşüncəsi qalmaqdadır. Çünki mövcud vəziyyətdə ədəbi-tənqidi fikrin inkişafı iki tipoloji meylin-sosioloji tənqidlə estetik tənqidin dialektikasına münasibətdə müəyyən olunur. Bu iki meylin ədəbi-tənqidi, nəzəri fikrə inteqrasiyası prosesi isə olduqca ləng və ağrılı keçir. Bunun bir çox obyektiv və subyektiv səbəbləri vardır ki, onun üzərində bir qədər geniş dayanmaq lazım gəlir. Diqqət edilirsə, 90-cı illərin sonuna qədər Azərbaycan ədəbi tənqidi, nəzəri fikri hələ də öz yolunu müəyyənləşdirməmiş qalırdı.

XX yüzilin sonlarında dünyanın ictimai-siyasi mənzərəsi dəyişdiyi kimi, humanitar düşüncə də dəyişikliyə məruz qaldı. Humanitar təfəkkürdə qlobal dəyişiklik baş verdi. Yabançı ideologiyanın təsiri altında formalaşan ədəbiyyatşünaslıq elmimiz çətin və mürəkkəb bir mərhələyə daxil oldu. Mərhələnin mürəkkəbliyinin şərtləndirən yalnız ədəbiyyatşünaslıq elmimizin bir sistemdən digərinə keçidi ağrılı keçirməsində deyildi, həm də ümumən humanitar təfəkkürdəki boşluğu doldurmaq, yeni humanitar təfəkkürün formalaşmasını təmin etməkdən ibarət idi. Elmdə baş verən yeni texnologiyalar onun məzmununu da dəyişdi; kompyüter və ingilis dili məkanının artması onun dünyaya inteqrasiyasına rəvac verdi. Bu mərhələdə ideoloji meyllərin ədəbiyyatşünaslığa və bədii düşüncəyə təsir imkanları azalır. Humanitar təfəkkür partiya liderlərinə deyil, saf, təmiz elmin nəzəriyyəçilərin əsərlərinə üstünlük verir. K.Marks. F.Engels, V.İ.Lenin əsərləri öz funksionallığını itirdiyindən ona istinadlar da azalır. Bunun əvəzində nəzəri ədəbiyyatşünaslıqda Z.Freydin, R.Bartın, M.Baxtinin, Y.Lotmanın, Proppun və başqalarının əsərlərinə etibarlı mənbə kimi müraciətlər çoxalır. Bir əsrə yaxın bir dövrdə ədəbiyyatın marksist-leninçi metodologiyasının birdən-birə ədəbi prosesdən çəkilməsi ədəbi mhitdə bir vakuum yaratmış oldu. Doğrudan da bu mərhələdə siyasi proseslərin sürətlə inkişafı 20-30-cu illərdəki ədəbi prosesə bənzəyən bir inkişaf yolunu şərtləndirdi. Bu dəfə fololoqiya elmləri dokrtoru, prof. Şirindil Alışanlının qeyd etdiyi kimi "qloballaşma və milli mədəniyyətlər problemi" (3, 14) ortaya çıxdı. Mövcud qəliblərin dağılması prosesinin sürətlə getməsi nəticəsində yaranan boşluq

bir müddət doldurulmadı. Bundan başqa, əvvəlki dövrün ədəbi-tarixi prosesinə, ayrı-ayrı yazıçıların yaradıcılığına qiymәvermədə də əvvəlki dövrlərə uyğun səhvlər buraxıldı. Hətta sovet dövrü ədəbiyyatının üstündən bütünlüklə xətt çəkmək tendensiyası bir müddət ədəbi prosesi məşğuk etdi. Ədəbiyyatşünas Ş.Alışanlının qeyd etdiyi kimi: "XX əsr ədəbiyyatını qiymətləndirmədə belə ədəbi-estetik təsəvvürlərin inersiya ilə davamı, ədəbiyyatşünaslığın şüuraltı qənaətinə çevrilməsi prosesi davam edir. Çünki yanlış təsəvvür yaradan tarixi proseslər cari ədəbi prosesdə də mövcuddur. Halbuki, bu dövrün bir çox nümayəndələrinə, konkret əsərlərə verilən qiymətləridəyişməyə, daha doğrusu, yenidən dəyərləndirməyə ədəbiyyatşünaslığın şüuraltı qənaətləri, vərdişləri mane olur" (3, 22).

Yeni mərhələdə ədəbi tarixi proses özünəməxsus bir yol keçir; bu yol ictimai-siyasi epoxanın təzühürü olaraq meydana çıxan milli müstəqilliyin, azadlığın və bununla yanaşı Qarabağ işğalının ağrıları altında davam edən bir prosesdir.

Tənqidçinin ədəbi prosesdə tənqidin rolunu düzgün müəyyənləşdirur. Doğrudan da 90-cı illər ədəbi prosesində tənqidin zəifləməsi kimi görünən nəsnə, əslində tənqidin öz yerini tapması kimi müəyyənləşir. Bundan bəzi tənqidçilər narahat olmağa başlaması isə tənqidin köhnə nüfuzunu qaytarmaq məqsədi güdür. Yeni ədəbi tarixi prosesdə tənqidin bu durumunu "tənqidin ölümü" (C.Yusifli) olaraq müəyyənləşdirənlər özləri də bilmədən tənqidin "prokuror ədası"nı qaytarmaq üçün çalışırlar.

Burası etiraf edilməlidir ki, 90-cı illərin əvvəllərindən başlayaraq ta sonuna yaxın ədəbi prosesin özündə bir süstlük vardı; lakin bu süstlüyü yalnızca tənqidin ayağına yazmaq doğru olmazdı; çünki bütün siyasi təlatümlər dövründə siyasi publisistika önə çıxdığında ədəbi proses bir qədər geri çəkilməli olur. Nəinki ədəbi tənqid, elə bədii düşüncənin özündə də yeni yol arayışları bir müddət ədəbi mühitdə boşluq yaradır. Ancaq bunu tənqidin və onun hələ tam formalaşmamış metodologiyasının ayağına yazmaq doğru olmazdı.

Tənqidçi E.Akimovanın 90-cı illərin əvvəllərində ədəbi tənqidin tənəzzülə doğru getməsi fikrində (4, 185-187) müəyyən həqiqət vardır; tənqidçinin o iddiası da yerinə düşür ki, tənqidin tənəzzül prosesi 80-ci illərin sonlarından özünü göstərməyə başlamışdır. O, 1985-ci ildə "Azərbaycan" jurnalında təşkil edilən "Gəlin tənqidi unutmayaq" adlı toplantıda ədəbi tənqidin həlli ilə bağlı heç bir tədbirlərin görülməməsinə diqqət çəkir. Tənqidçilər bu toplantıda "tənqidin bugünkü ədəbiyyatın problemləri ilə ciddi maraqlanmamalarını" irad tutmuşdular. E.Akimovanın fikrincə "...bir qədər sonra tənqidin ixtiyarına verilən ədəbi tribunalar, demək olar ki, sahibsiz qalır" (4, 185).

Qeyd etmək lazımdır ki, ədəbi tənqidin 90-cı illərin əvvəllərindən zəifləməsi ilə bağlı fikirlər hər zaman olmuşdur, ancaq bu dəfə doğrudan da ədəbi tənqid özünün ən zəif günlərini yaşayırdı. Əslində isə ədəbi tənqidin bu dəfəki zəifliyini, dişsizliyini şərtləndirən amillər olmuşdur. Bu amillər içərisində ədəbi tənqidin digər mərhələsi ilə üst-üstə düşən faktorlar da vardır. Lakin başlıca faktor ədəbiyyatın, ədəbi prosesin özünün siyasi hadisələr fonunda görünməməsi, yaxud bilərəkdən geri çəkilməsi olmuşdur. Silahlar açılanda, toplar, mərmilər partlayanda, torpaqlar işğal olunanda ədəbi prosesin durumu bütün reallığı ilə aydın olur. Qarabağ müharibəsində hər atılan top, mərmi, güllə bir vətəndaşa, onun evinə, ailəsinə tuşlananda ədəbi tənqid ona nə ilə cavab verməli idi?!Tənqidçi T.Əlişanoğlu da 90-

cı illərin ədəbi tənqidinin metodoloji arayışlarını önə çəkərək ədəbi tənqidin nəzəri və funksional imkanlarının daraldığını, tədricən tükənməyə doğru getdiyini iddia edirdi (107). Tənqidçi doğru olaraq çağdaş ədəbiyyatşünaslıq və ədəbi tənqidin metodoloji baza və dəyərlər sistemini hansı milli irsin müəyyən etməsi sualına cavab axtarır. Məlumdur ki, uzun müddət yüzilliklər boyu Azərbaycan ədəbiyyatı Şərq kontekstində inkişaf etdikdən sonra Qərb kontekstinə daxil olmuş və hər iki kontekstdə çoxlu bədii düşüncə məhsulları vermişdir. Müstəqillikdən sonra isə Azərbaycan tənqidinin qarşısında yeni bir metodoloji bazanın yaranması ehtimalı durur ki, tənqidçi milli ədəbi tənqidin bir neçə əsrdən sonra maarifçilik funksiyasından sonra yeni mərhələyə daxil olmasını əsaslandıraraq yazır: "İlk baxışda obyektiv şərait-milli həyatın müstəqillik epoxasına qədəm qoyması ilə humanitarinin bir zaman mövcud olan vahid ideoloji məkan, total təfəkkürdən uzaqlaşmaq imkanı (1) və subyektiv amil-yuxarıda haqqında danışdığımız mündəricə, milli ədəbiyyatşünaslığın bu vaxtadək topladığı təcrübə sahənin uğurunu təmin etməli idi. İntensivlik baxımından həqiqətən də belədir; elmi məqalələr, monoqrafiyalar, kitablar əvvəlkindən bəlkə də çox yazılır, dissertasiyalar müdafiə olunur, amma bu heç bir yeni metodoloji səviyyəyə, sıçrayışa gətirib çıxarmamışdır; bu-özünü məxsusən ədəbi tənqidin təcrübəsində, yeni platforma yoxluğu və zəminsizliyində hiss elətdirir (5).

Qeyd etmək lazımdır ki, əvvəlki nəzəri-metodoloji bazanın öz əhəmiyyətini itirməsindən sonra onun yerini nəyin dolduracağı ilə bağlı tənqidçi və ədəbiyyatşünaslardan B.Nəbiyev, Ş.Salmanov, Ş.Alışanlı da müxtəlif məqalə və çıxışlarında vurğulamışlar. Nəzəri-metodoloji düşüncə hər zaman dəyişməyə məhkum olmadığı kimi, onu süni yolla da dəyişdirmək mümkün deyil. Tarixi şəraitə uyğun olaraq formalaşan nəzəri-metodoloji aspektlərin ömrü çox zaman elə həmin sistemin ömrü qədər olur. Tənqidçilərin narahatlığı da başadüşüləndir; marksizm-leninizm nəzəri metodologiyasə öz ömrünü başa vurduqdan sonra yaranmış boşluq öz yerini nəyin hesabına doldurmalıdır? Bir şey aydındır ki, hələ bu nəzəri-metodoloji baza formalaşmamış, necə deyərlər bütünlüklə ədəbi tənqid və ədəbiyyatşünaslıq elminin sütununa çevrilə bilməmişdir. Tənqidçi Ş.Alışanlı ədəbiyyatşünaslığın öz nəzəri-metodoloji "meyarlarını, dəyərlərini və prinsiplərini müəyyənləşdirməsi" ilə bağlı narahatlıqları ümumən ədəbi mühitə də aid etmək olar. O, marksizm-leninizm metodologiyasının öz ömrünü başa vurmasından sonra hansı nəzəri metodologiyaya sahib olmanın və hansı istiqamətdə inkişaf etmənin qayğılarını paylaşaraq "müasir ədəbi-nəzəri fikir yeni metodoloji məktəblər istiqamətində inkişafa tarixi təcrübənin nailiyyətləri zəminində hazırlanmalıdır" (2, 15) qənaətinə gəlirdi.

Əslində, sosrealizmin mövcud bədii düşüncəni axıradək apara bilməməsi 60-cı illərdən özünü biruzə verməyə başlamış və bunun da nəticəsi olaraq ədəbiyyatda yeni bir nəsil yaranmışdı. Bədii düşüncədəki bu yenilikçiliyin ardınca elmi düşüncədə də bir dəyişmə, yeniləşmə özünü göstərir. Tənqidçi Asif Əfəndiyevin, Məsud Əlioğlunun araşdırmaları isə, demək olar ki, marksist-leninçi metodologiyanın stereotiplərinə uyğun gəlmirdi. Yaşar Qarayevin obrazlı tənqidi dövrün ədəbiyyatını mövcud ideolojiyə əsaslanan metodlarla təhlil etməkdən uzaq olub yeni bir streotip formalaşdırmağın yollarını göstərirdi. "Altmışıncıların" özünün tənqidçilərini formalaşdırması da mövcud metodologiyanın sərhədlərinin məhduduğuna bir işarə

idi. "Altmışıncılar" nəslinin əsərlərinin köhnə stereotiplərlə təhlilinin mümkünsüzlüyü yeni bir tənqidçi komandasının formalaşmasını şərtləndirdi. baxmayaraq ki, bu komanda bir qədər gec formalaşdı, ancaq artıq 60-cı illərdən başlayaraq Pənah Xəlilov, Qulu Xəlilov, İsrail Mustafayev, Akif Hüseynov, Kamil Vəliyev, Aydın Məmmədov, Kamal Abdullayev və başqalarının məqalə və tədqiqatlarında bədii materiala mətn baxımından yanaşmanın əsası qoyuldu.

Beləliklə, XXI yüzilin astanasında Azərbaycan ədəbi tənqidi fikrinin ziddiyyətli bir yol keçdiyinin şahidi oluruq; nə qədər mürəkkəb dövrlərdən keçməsinə rəğmən böyük bir ədəbi-nəzəri təcrübə də toplamış olur. Yeni nəzəri-metodologiya axtarışı isə, bizə elə gəlir ki, öz ömrünü başa vurmuş bir metodologiyanın yerini sadəcə bir başqası ilə doldurmaqdan ibarət deyil. Metodoloji məktəblər də hər zaman yaranmır, yaxud hər bir xalq ayrıca bir metodolojiyə əsaslanmır. Bunun üçün müəyyən vaxt və zaman lazımdır. Fikrimizcə, bu zaman artıq gəlmişdir və yalnız humanitar təfəkkürdə deyil, bütün sahələrdə modernizm və postmodernizm yeni bir istiqamətdə nəzəri-metodoloji istiqamət açmışdır ki, bədii düşüncə kimi, elmi araşdırmalar da getdikcə öz işini məhz bu istiqamətdə qurmalıdır.

Ədəbiyyat

1. İsmayılov T. Əlvida, sosialist realizmi. "Azərbaycan2 jurnalı, 1994, N1-3, s.167-170
2. Yeni təfəkkür və nəzəri estetik irsimiz. "Ədəbiyyat və incəsənət" qəzeti, 1988, 29 iyul
3. XX əsr Azərbaycan ədəbiyyatı məsələləri. Bakı, "Elm" nəşriyyatı, 2006, 428 s.
4. Akimova E. 90-cı illər ədəbi prosesində tənqidin yeri. "Azərbaycan" jurnalı, 2005, N3, s. 185-187
5. Əlişanoğlu T. Ədəbi tənqidin nəzəri problemlərinə dair. "Ədəbiyyat qəzeti, 2000, 27 oktyabr

Эсмира Рагимова

Обзор методологии анализа современной литературоведения

Резюме

В резюмируемой статье освещены проблемы, связанные с изменением методологических подходов в оценке литературного процесса, в частности, современной национальной прозы, обусловленных переосмыслением критериев литературоведения и критики в период независимости. Отмечается расширение теоретических и чисто функциональных возможностей литературной критики, в том числе в процессе формирования инструментария литературно-эстетического анализа. Данные позиции раскрываются на примере конкретного анализа образцов современной азербайджанской прозы.

Esmira Rahimova

A review of the methodology of analysis of contemporary literary criticism

Summary

In the article searched the problems associated with changes in methodological approaches of literary process, in particular, modern national prose caused rethinking criteria and literary criticism in the period of independence. Noticed growing theoretical and purely functional possibilities of literary criticism , including in the process of forming tools literary and aesthetic analysis. This item disclosed by the example of a concrete analysis of samples of modern Azerbaijani prose.

Rəyçi: Bədirxan Əhmədov
filologiya elmləri doktoru, professor

FİKRƏT SÜLEYMANOĞLU
AMEA Ədəbiyyat İnstitutu
fikret55@mail.ru

BULUD QARAÇORLU SƏHƏNDİN ƏSƏRLƏRİNİN NƏŞRİ TARİXİNDƏN

Açar sözlər: Ana dili, ilk mətbu şeirlər, ilk kitab, divan, "Dədəmin kitabı" poemalar silsiləsi.
Ключевые слова: Родной язык, первые опубликованные стихи, первая книга, диван, серия поэм "Книга моего отца".
Key words: Mother tongue, his first published poems, the first book, the selected poems of the poet, a series of poems "My Fathers book"

Cənubi Azərbaycanda anadilli ədəbiyyat və milli özünüdərk tarixinin ən parlaq simalarından biri olan Bulud Qaraçorlu Səhəndin (1926-1979) 35 illik ədəbi yaradıcılıq fəaliyyətindən ədəbiyyatımıza 16 000 misraya yaxın poetik irs yadigar qalmışdır. Farsca qələmə aldığı bir necə şeir, tərcümə və məqaləsini çıxmaqla, o, bütün əsərlərini ana dilində yazmışdır.

Cənublu şairlərimiz arasında şeirləri rəsmi nəşrlərdə ən erkən yaşında çap olunanlardan biri də Səhənddir. Milli azadlıq mücadiləsi günlərində qələmə aldığı "Alqış", "Fədailər marşı" və "Keçmiş fədailərimizin yadı" sərlövhəli üç şeiri 1945-ci ildə Təbrizdə "Şairlər məclisi" məcmuəsində [31/346-348] "Razi" təxəllüsü ilə dərc olunanda onun cəmi 19 yaşı vardı. Halbuki həmin məcmuədə toplum arasında artıq bu və ya digər dərəcədə tanınmış sənətkarlara yer verilmişdi. Lakin el dili ilə desək, Səhəndin ilk mətbu şeirlərinin "ayağı elə də sayalı olmadı".

1946-cı ildə Milli Hökumətin süqutundan sonra Pəhləvi rejiminin bütün basqılarına və ana dilində nəşrlərə qoyduğu qadağalara rəğmən, Səhənd ədəbi yaradıcılıqdan əl çəkməsə də əsərlərinin növbəti nəşrini görmək üçün uzun müddət gözləməli oldu. Zindanlarda və sürgündə keçən illər ərzində onun hələ işıq üzü görməmiş əsərlərinin bir çoxu it-bata düşdü. Amma bütün bu məhrumiyyətlərə baxmayaraq şair "Xatirə" və "Araz" poemalarını 1953-cü ildə gizli şəkildə rotator üsulu ilə kiçik tirajla çap etdirib yaxın adamları arasında yaymağa müvəffəq oldu [28/25]. Onun mətbəə üsulu ilə çap olunan ilk kitabı – "Sazımın sözü" isə yalnız 1965-ci ildə Tehranda "Şəms" nəşriyyatında işıq üzü gördü [27]. Kitab qeyri-rəsmi şəkildə – müvafiq dövlət qurumlarından gizli çap olunmuşdu. Nəşrə şairin dostu Məhəmmədəli Fərzanənin (1923-2006) yazdığı "M.Ə.F" imzalı ön söz, "Dədəmin kitabı" poemalar silsiləsinin üç bölümü – "Duxa Qoca oğlu Dəli Domrul", "Dirsə xan oğlu Buğac" və "Qanlı Qoca oğlu Qanturalı" boyları, eləcə də 5 səhifəlik lüğət daxil edilmişdi. Qeyri-rəsmi də olsa, bu nəşr Səhəndin Cənubi Azərbaycanın ədəbi dairələrində yalnız istedadlı bir şair yox, həm də vətənpərvər bir insan kimi tanınmasında və söz sahibi olmasında böyük rol oynadı.

Şah senzurası xəbər tutub kitabı yığışdırınca onun tirajının yarıdan çoxu artıq yayılmışdı. Şair sonralar kitabın hətta Bakıya gəlib çıxmasından uşaq kimi sevinir, həmin hadisəni xatırlayaraq deyirdi: "Söz kamandan ayrılan ox kimidir, ağızdan çıxdımı, daha onu geri qaytarmaq olmaz. Kitabım toqif olanda mən bu həqiqəti də

dərk etdim ki, kitab mətbəədən çıxdımı, onu yığıb-yığışdırmaq mümkün deyil. Şəhər-şəhər, hətta ölkə-ölkə yayılır" [2].

Kitabın "Qaracıq çoban", "Bəkil oğlu Əmran" və "Təpəgöz" boy//poemalarının daxil olduğu ikinci hissəsi də beləcə – gizli şəkildə 1971-ci ildə çap olunub yayılmışdı.

Səhəndin əsərlərinin Şimalda – Azərbaycan SSR-də ilk nəşri də elə həmin dövrə təsadüf edir. 1965-ci ilin martında musiqı xadimlərimiz Tehranda qastrol səfərində olarakən tamaşaçılardan biri konsertdən sonra xalq artisti Şövkət Ələkbərovaya gül yerinə bir kağız bükülüsü uzadıb deyir: "Mənim də hədiyyəm budur!" Şövkət xanım Bakıya qayıtdıqdan sonra bükülünü – 23 vərəqədə çap olunmuş 786 misradan ibarət olan "Dəli Domrul" poemasını ədəbiyyatçı alimlərimizə verir. Onlar da bu "hədiyyə"ni akademik Mirzə İbrahimova çatdırırlar. Mirzə müəllim "Ədəbiyyat" qəzetində "Dəli Domrul" adlı məqalə ilə çıxış edir, poemadan parçalar verməklə əsərin bədii məziyyətlərindən söhbət açır və onu "Şəhriyarın "Heydərbabaya salam"ından sonra Cənubdan bizə gələn ən qiymətli yadigar və qardaşlıq töhfəsi" adlandırır. Lakin altında "*1343-cü il, azər ayı*" və mürəkkəblə "*B.K.Şimşək*" yazılmış poemanın müəllifinin kimliyinin "məlum olmadığını" qeyd edir [21].

Əlbəttə, indi hamı yaxşı başa düşür ki, böyük ziyalı bununla irtica mühitində ana dilində əsər yazıb gizli şəkildə çap etdirmiş, yaxından tanıdığı Səhəndi şah rejimindən qorumağa çalışmışdır. Qeydin maraqlı tərəflərindən biri isə şairin özünü başqa bir təxəllüslə – "*B.K.Şimşək*" təxəllüsü ilə təqdim etməsidir. Şübhəsiz ki, bu məsələ ayrıca araşdırma tələb edir. Belə ki, bunun konspirasiya məqsədilə edildiyi, yaxud Səhəndin həmin dövrdə həqiqətən də "*B.K.Şimşək*" təxəllüsü ilə əsərlər yazıb-yazmadığı aydınlaşdırılmalıdır. Çünki həmin dövrdə Tehranda Azərbaycanlı ziyalıların gizli ədəbi məclislərində Səhəndlə birlikdə fəaliyyət göstərmiş Dr.Salamullah Cavid "Xatirələr"ində bu haqda müəyyən ipucu da verir: "O dövrdə azərbaycanca bir cümlə belə çap etdirməyə icazə verilmədiyi üçün arabir ana dilində gizli çap olunan kitablara "rəmzi" adlar və imzalar qoyurduq" [13/78]. Bu da məlumdur ki, Səhənd hətta professor R.Əliyevin Tehranda nəşr etdirdiyi "Fəzlullah Nəimi və İmadəddin Nəsiminin farsca divanı"na yazdığı ön sözü də "*S.Cuya*" imzası ilə çap etdirmidir [29/13]...

İranda nəşriyyat qapıları üzünə bağlandığından Səhənd çətin də olsa, Bakıda dərc olunmağa böyük önəm verir, bunun üçün fərqli yollar axtarırdı. Məsələn, o, 1973-cü ildə bir neçə şeirini İranda səfərdə olan Dağıstanın xalq şairi Rəsul Həmzətov vasitəsilə Bakıya göndərmişdi. O da öz dostu – xalq şairi Nəbi Xəzrinin dəstəyi ilə həmin şeirlərin – "Moskva səfəri", "Almazlar", "Buzçiçəyi" və "Səbir daşı"nın 1974-cü ildə "Azərbaycan" jurnalında dərc edilməsinə nail olmuşdu [1/178-180]. Lakin redaksiyada həmin şeirlər üzərində aparılan əməliyyat redaktə işindən daha çox "cərrahiyyə" işinə bənzəyirdi. Jurnalda şairin məşhur "Mədineye-fazilə" şeirinin "Moskva səfəri" adı ilə təqdim edilməsinin məntiqi yenə də anlaşılandır. Belə ki, "Mədineye-fazilə" deyərkən, elə Səhənd özü də Moskvanı nəzərdə tuturdu. Amma "İncilər" şeirinin adının "Almazlar" kimi verilməsinin və üzərində aparılmış "redaktə" əməliyyatının məntiqi başa düşülən deyil. Məsələn, şeirin orjinalı ilə "Azərbaycan" jurnalındakı nəşri arasında fərqi nəzərdən keçirək:

Göy öz incilərini,	*Göy öz almazlarını*
seçib qəlbirləyirdi.	*Töküb qəlbirləyirdi.*
İncilər damla-damla,	*Gor təkin ağız açan*
tökülüb ələnirdi	*Gecənin daxmasına.*
gor təkin ağız açan	*Ətəyi yırtıq imiş*
gecənin daxmasına.	*Bulud ətəyin açdı,*
Yellər buludu qovdu,	
Bulud ətəyin açdı,	*Almazlar damla-damla*
incilər yağış oldu,	*Süzülüb tökülürdü*
yağdı dənizlər doldu.	*Göyün qəlbiri yenə*
Yel əsdi	*Almaz ilə doluydu.* [1/178]
bulud qaçdı,	
göyün qəlbiri yenə,	
incilərlə dolu idi. [5/205]	

Əlbəttə, açıq-aydın görünür ki, jurnal redaktorunun şeirin mətninə müdaxiləsi yalnız onun adının dəyişdirilməsi ilə deyil, həm də üslubuna və poetik ruhuna neqativ təsirlə nəticələnmişdir.

1982-ci ildə "Ədəbiyyat və incəsənət" qəzeti şairin "Araz" poemasını ilk dəfə müəyyən ixtisarlarla dərc etmişdir [25]. İxtisarların xarakteri "əməliyyat"ın sovet senzurasının təsiri altında aparıldığını güman etməyə əsas verir. Belə ki, həmin parçalarda Azərbaycanın iki yerə bölünməsi və şimal hissəsinin ilhaqı ilə bağlı çar Rusiyasının ünvanına ağır ittihamlar yer alır. Şübhəsiz ki, bu, həmin dönəmdə Şimali Azərbaycanın Rusiyanın tərkibinə könüllü surətdə daxil olması ilə bağlı uydurulmuş "rəsmi baxış"a uyğun gəlmirdi.

Səhəndin ilk rəsmi kitabı isə 1980-ci ildə Ankarada Türkiyə Kültür Bakanlığı tərəfindən "Sazımın sözü" adı altında nəşr edilmişdir. Tərtibatçı – professor D.Yıldırım əsərə "Söz başı" və "Dədəmin kitabı"nın altı bölümünü daxil etmişdir: "Duha Kocaoğlu Deli Dumrul", "Dirse Hanoğlu Boğac", "Kanlı Kocaoğlu Kanturalı", "Karacuk Çoban", "Bekiloğlu Emren" və "Tepe Göz" [8]. Bu nəşr türk oxucusunu XX əsrin ortalarında Cənubi Azərbaycanda gedən ədəbi proses və onun ən fəal iştirakçılarından biri ilə yaxından tanış etmək baxımından təqdir edilməli addım idi. Kitabın sonunda anlaşılmayan sözlərin lüğəti də verilmişdir.

"Dədəmin kitabı" poemalar silsiləsi tam şəkildə 2002-ci ildə Ankarada Türk Dil Kurumu tərəfindən professor Dursun Yıldırımın tərtibatı ilə 4 kitabda, həm də eyni zamanda ərəb və latın əlifbaları ilə nəşr olunmuşdur [6-7].

Kitabların hər birində tərtibçinin qələmə aldığı "Söz başı", eləcə də şairin həyat və yaradıcılığından bəhs edən "Bulud Karaçorlu Sehend" adlı məqalə verilmişdir. Çox qiymətli hesab etdiyimiz bu nəşrin ən ciddi qüsuru isə mətnlərin türk dilinə adaptasiyası zamanı yol verilmiş səhvlərdir. Onu da qeyd etmək lazımdır ki, ədəbiyyatşünas Fethi Gedikli də nəşrin bu qüsurlarına diqqət yetirmişdir [18].

Məsələn, şair "Dədəmin kitabı"nı çox sevdiyi S.Vurğunun "Şəfqət bacısı" şeirindən götürdüyü məşhur misralarla, həm də ona fərqli mənalar verməklə tamamlayır:

Haqq mərd igitləri qoruyar, saxlar,
Vurğunsuz bu gözəl məna doğrulmaz:
"Əlinlə qurduğun barlı bağçalar,
Tufanlar qopsa da saralıb solmaz". [26/486]

Türkcə mətndə isə oxuyuruq: "**Vurgun, söz gözel mana doğrulmaz**" [6/772]. Və yaxud, "Hələ yeni güllər açacaq bağın" misrası "**Hele, yėni guller acanaġ bağın**" kimi təqdim olunub. Göründüyü kimi, adi səhvlər misraları mənasız söz yığınına çevirmişdir. Bu cür səhvlər isə kitabda elə də az deyil.

1984-cü ildə Azərbaycan SSR-də "Yazıçı" nəşriyyatında Səhəndin "Sazımın sözü" adlı kitabı işıq üzü görmüşdür. Fiolologiya elmləri namizədi R.Qəmbərqızı tərtib edib çapa hazırladığı bu nəşrə ön söz və "Dədəmin kitabı"nın ilk altı bölümü ilə yanaşı şairin bir neçə şeirini və mənzum məktublarını daxil etmişdir. Sonda çətin başa düşülən sözlərin lüğəti verilmişdir. Kitab Səhəndin həmin dövrdə Sovet Azərbaycanında tanıdılması və yaradıcılığının təbliği baxımından böyük əhəmiyyət kəsb etsə də, bəzi qüsurlardan da xali deyildir. Belə ki, heç bir izahat verilmədən bəzi şeirlərin ixtisarla dərc edilməsi, ikinci və üçüncü ərmağanların kitaba daxil edildiyi halda birinci ərmağana yer verilməməsi bu baxımdan xüsusilə diqqəti çəkir və oxucuda müəyyən suallar doğurur.

Təəssüflər olsun ki, kitabın 2006-cı ildə "Seçilmiş əsərlər" adı ilə çap olunmuş ikinci nəşrində ("*Şərq-Qərb*") həmin qüsurların aradan qaldırılması bir yana, onların üstünə yeniləri də əlavə edilmişdir. Belə ki, "Fədailər marşı" [29/26], "Düşünmək" [29/27] şeirləri yarımçıq, "Taleyimə sən bax!" şeiri yarımçıq və "Yasaq" adı ilə [29/28] təqdim olunmuşdur. Kitaba daxil edilmiş "İkinci ərmağan"ın bir parçası isə "Kükürd kibritilə hər axşamüstü" adı ilə ayrıca şeir kimi verilmişdir. Bütün bu qüsurlar nəşriyyatda kitaba başdansovdu yanaşılmasına bariz sübutlardır.

Səhəndin vəfatından sonra onun əlyazmalarının demək olar ki, əsas hissəsi nəşr və yayımlanmaq üçün dostu M.Fərzanəyə həvalə olunmuşdu. Lakin bütün cəhdlərinə baxmayaraq, hörməli ədəbiyyatşünas uzun illər ərzində bu işi başa çatdıra bilməmişdi. 1998-ci ildə Marağada "Səhənd əsərlərini nəşrə hazırlama topluluğu" adlı bir təşkilat yaradılsa da, o da problemi həll edə bilmədi. Yalnız 2001-ci ildə M.Fərzanə "Dədəmin Kitabı"nı xaricdə – Stokholmda hər iki əlifba ilə bir cilddə çap etdirməyə nail oldu. Əslində bu, Səhəndin şah əsərinin ana dilində latın əlifbası ilə ilk tam nəşri idi. Lakin onu da qeyd etməliyik ki, bu nəşrin latın əlifbası ilə verilmiş mətnində çoxlu sayda orfoqrafik səhvlərə yol verilmişdir.

Əgər belə demək mümkündürsə, Cənubda bir çox vətənpərvər ziyalının qoşulduğu və 30 il davam edən Səhəndin əsərlərini nəşretmə "marafonu"nu Bəhruz İmani tamamlamışdır. O, 2003-cü ildə Təbrizdə "Əhtar" nəşriyyatında şairin 14.692 misradan ibarət olan iki cildliyini nəşr etdirmişdir [4]. Kitabda əsərlər "Sazımın sözü", "Qardaş andı", "Dədəmin kitabı" və "Başqa şeirlər" başlıqlı bölmələrdə verilmişdir.

2010-cu ildə nəhayət ki, Səhəndin bütün Azərbaycan ədəbi ictimaiyyətinin həsrətlə gözlədiyi "Divan"ı işıq üzü gördü [3]. Şairin əsərlərinin nəşri və öyrənilməsi tarixində bu nəşrin əhəmiyyətini ayrıca qeyd etmək lazım gəlir. Belə ki, onun adları ədəbiyyatşünaslığa çoxdan məlum olan poemaları ("Xatirə", "Araz", "Fərhad") və şeirlərinin əksəriyyəti, o cümlədən fars dilində yazdığı beş şeiri ilə

oxucular ilk dəfə tam şəkildə məhz bu kitab vasitəsilə tanış olmaq imkanı əldə etmişlər. Ona görə də "Divan"ı Səhəndin əsərlərinin həmin vaxtadək işıq üzü görmüş ən mükəmməl nəşri hesab etmək olar.

Əlbəttə, bütün üstün cəhətlərinə baxmayaraq, "Divan" da qüsurlardan xali deyil. Belə ki, şairin oxuculara yaxşı tanış olan bir sıra əsərlərinin – "Alqış", "Fədailər marşı", "Keçmiş fədailərimizin yadı" və "Sovet gözəli" sərlövhəli şeirlərinin, "Elimin dayağı, yurdumun fəxri" sərlövhəli mənzum məktubunun "Divan"a daxil edilməməsini nəşrin siyasi konyunkturaya uyğunlaşdırılması və ya senzura müdaxiləsinə məruz qalması kimi qiymətləndirmək olar. Elə "Şallaq" şeirindəki aşağıdakı misraların ixtisarı da bunu sübut edir:

Quranları, İncilləri
Mollaların, keşişlərin
Vur başına! [29/17]

"Bir məzar boyunda yer sorağında" adlı şerin [3/110-115] kitaba həm də "Qardaşım Valehin məktubuna cavab" [3/265-295] kimi müəyyən dəyişikliklərlə daxil edilməsini də düzgün hesab etmirik. Bu, eyni əsərin bir nəşrə iki dəfə daxil edilməsindən başqa bir şey deyil. Onu da qeyd edək ki, şeir özü 60 bənd olduğu halda, məktub 109 bənddir. Bütün bu qüsurlar isə son nəticədə şairin yaradıcılığını, ədəbi və siyasi görüşlərini bütöv şəkildə qiymətləndirməyə imkan vermir. Onu da qeyd edək ki, naşir E.M.Sədiq "Divan"a fars dilində "Çənd kəlmə" ("*Bir neçə kəlmə*") sərlövhəli təqdimat, şairin həyat və yaradıcılığını əhatə edən "Qaraçorlu elinin sağanaq buludu" sərlövhəli ön söz, doktor H.M.Sədiq isə "Fəlsəfi düşüncəli və mübariz ruhlu şair" sərlövhəli giriş məqaləsi yazmışdır [3/11-22].

2012-ci ildə isə tanınmış şair və araşdırmaçı Səid Muğanlı Tehranda Səhəndin "Qardaş andı" adlı daha böyük həcmli – 1074 səhifədən ibarət kitabını çap etdirmişdir. Bu nəşrə şairin müxtəlif illərdə fərqli nəşrlərdə dərc olunmuş əsərləri ilə yanaşı, M.Fərzanə, G.Səbahi, U.Barışmaz və S.Muğanlının şair haqqında məqalələri də daxil edilmişdir. Lakin "Səhəndin bütün şeirlərni əhatə edir" iddiası ilə buraxılmış bu kitaba "Alqış", "Fədailər marşı", "Keçmiş fədailərimizin yadı" kimi dərsliklərə daxil edilən şeirlərin daxil edilməməsi təəssüf doğurur.

Şairin 1974-cü ildə Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevə ünvanlandığı "Elimin dayağı, xalqımın fəxri" sərlövhəli 13 bənddən ibarət mənzum məktubunun "Səfər yarağı" (?!) adı ilə, həm də son 2 bəndinin ixtisarla dərc olunmasının məntiqi də anlaşılmır. Belə ki, ixtisar olunan –

Bu gün millətimin dayağı sənsən,
Elimin çörəyi halalın olsun!
Dünyalar durduqca əsən dur, əsən!
Sənə göz dikmişdir bütün Vətənin! [29/60]

– misraları əslində ünvan sahibinin şairin düşüncəsindəki və qəlbindəki yerini göstərir. Deməli, şeirin bu misralarsız çap olunması onu yalnız ünvasızlaşdırmır, həm də mənasız hala salır. Digər tərəfdən, Səhəndin qəddar şah rejimi dövründə yazdığı əsərin XXI əsrdə hələ də tam şəkildə çap edilə bilməməsi onun həyatını

həsr etdiyi mübarizənin bu gün də aktual olduğunu göstərir... Səhəndin əsərləri istər Azərbaycan Respublikasında, istər Türkiyədə, istərsə də İranda ayrı-ayrı toplularda da dərc olunmuşdur. Azərbaycan Milli Elmlər Akademiyası Ədəbiyyat İnstitutunun 1988-ci ildə nəşr etdirdiyi "Cənubi Azərbaycan ədəbiyyatı antologiyası"nın III cildinə "Alqış", "Fədailər marşı", "Keçmiş fədailərimizin yadı" adlı şeirləri və "Araz" poeması daxil edilmişdir [10/279-292]. Antologiyanın 1994-cü ildə nəşr olunmuş IV cildində isə şairin "Qardaşım Əliağa Kürçaylıya" başlıqlı mənzum məktubu və "Duxa Qoca oğlu Dəli Domrul" poeması dərc olunmuşdur [11/188-190]. Professor Ali Kafkasiyalının tərtibatı ilə Ərzurum Atatürk Universitəsinin 2002-ci ildə nəşr etdiyi "İran Türk edebiyyatı antolojisi"nin VI cildinə Səhəndin həyat və yaradıcılığı haqqında məqalə ilə yanaşı "Alqış", "Fədailər marşı", "Keçmiş fədailərimizin yadı" sərlövhəli şeirləri, "Araz" poeması, "Qardaşım Əliağa Kürçaylıya" başlıqlı mənzum məktubu və "Sazımın sözü"ndən "Duha Kocaoğlu Deli Dumrul" poeması daxil edilmişdir [20/46-67]. Hər şeydən göründüyü kimi, professor A.Kafkasiyalı bu bölməni hazırlayarkən Bakıda nəşr olunmuş "Cənubi Azərbaycan antologiyası"nın III və IV cildlərindən, eləcə "Sazımın sözü" kitabından bəhrələnmişdir. Səhənd irsinin nəşri və təbliği sahəsində İran İslam İnqilabından sonra Tehranda professor Cavad Heyətin rəhbərliyi altında dərc olunan "Varlıq" jurnalının xidməti ayrıca qeyd olunmalıdır. İlk nömrəsi 1979-cu ildə şairin ölümündən sonra işıq üzü görən bu jurnal uzun illərdir ki, Səhənd mövzusunu daim nəzərdə saxlayır, "çap olunmamış əsərlərindən nümumələr, xidmətlərini işıqlandıran məqalələr nəşr etməklə yanaşı, diqqəti daim şairin ədəbi irsinə yönəldir, onun yaradıcılığını tədqiq etməyə, obyektiv dəyərləndirməyə çağırır" [22/143]. Onu da qeyd etmək lazımdır ki, jurnalın ilk nömrəsi tamamilə Səhəndin vəfatına həsr olunmuş, cənublu ziyalıların, ümumiyyətlə, Azərbaycan xalqının bu böyük itkiyə dərin üzüntüsünü əks etdirmişdir. Səhəndin əsərlərinin nəşri ilə bağlı ən təəssüf doğuracaq məsələlərdən biri, bu günədək onun nə "Dədəmin kitabı" poemalar silsiləsinin, nə də digər əsərlərinin əksəriyyətinin latın qrafikalı əlifba ilə akademik nəşri bir yana, heç olmasa, onların mükəmməl bir nəşrinin də ortada olmamasıdır. Ona görə də şairin əsərlərinin bir çoxu hələ də fərqli adlarla, bəzən də yarımçıq şəkildə çap olunmaqdadır. Ümimiyyətlə, Səhəndin əsərlərinin nəşri məsələsindən danışarkən bir amilə xüsusi diqqət yetirilməlidir. Belə ki, onların əksəriyyəti müəllif redaktəsindən keçmədən (ölümündən sonra) dərc edilmiş və çox vaxt əlyazmalarındakı sətri bölgüyə, dil və üslubuna əməl olunmamışdır. Şairin əsərlərinin sənətkarlıq məsələləri ilə bağlı mötəbər fikir söyləmək üçün belə "əməliyyat"ların yaratdığı problemləri isə yalnız onları müəllifin öz əlyazmalarına uyğunlaşdırmaqla – akademik nəşrini çap etməklə aradan qaldırmaq olar.

Ədəbiyyat

1. Azərbaycan" yurnalı, № 5, 1974.
2. *Balaş Azəroğlu*. Üç tale. "Ədəbiyyat və incəsənət" qəzeti, 6 aprel 1984.
3. *Bulud Qaraçorlu Səhınd*. Divan (*hazırlayan* E.M.Sədiq). Təbriz, 2010.
4. *Bulud Qaraçorlu Səhınd*. Əsərləri (*hazırlayan* B.İmani), Təbriz: "Şəms", 1979, .
5. *Bulud Qaraçorlu Səhınd*. Qardaş andı (*hazırlayan* S.Muğanlı). Tehran, 2012.

6. *Bulut Karaçorlu Sehend.* Dedem Qorqudun dilinden Qardaş andı-I-II (*basıma hazırlayan* D.Yıldırım). Ankara, 2002.
7. *Bulut Karaçorlu Sehend.* Dedem Qorqudun dilinden Sazımım sözü-I-II (*basıma hazırlayan* D.Yıldırım). Ankara, 2002.
8. *Bulut Karaçorlu Sehend.* Sazımım sözü (*basıma hazırlayan* D.Yıldırım). Ankara, 1980.
9. *Cavad Heyət*. Azərbaycan ədəbiyyatı tarixinə bir baxış. Bakı: "Azərnəşr", 1998.
10. Cənubi Azərbaycan ədəbiyyatı antologiyası (III c.), Bakı: "Elm", 1988.
11. Cənubi Azərbaycan ədəbiyyatı antologiyası (IV c.), Bakı: "Elm", 1994.
12. Cənubi Azərbaycan ədəbiyyatı tarixi (II c.). Bakı: "Qanun", 2013.
13. *Doktor Salamullah Cavid.* O günün həsrətiylə (Xatirələr). s.78.
14. *Esmira Fuad*. Muhammed Hüseyn Şehriyar. "Peon kitab". İstanbul", 2014.
15. *Fiktət Süleymanoğlu*. Səhənd (*Oçerk*). Cənubi Azərbaycan ədəbiyyatı tarixi (II c.). Bakı: "Qanun", 2013.
16. *Gəncəli Sabahi*. Səhənddən xatirələrim. "Ədəbiyyat və incəsənət" qəzeti, 1 aprel 1983.
17. *Gəncəli Sabahi*. Səhənd həmişəlik həyata göz yumdu. "Varlıq" jurnalı, 1358, № 1.
18. http://www.ufukotesi.com/yazigoster.asp?yazi_no=20030721
19. İran türk edebiyyatı antolojisi, V c. Erzurum, 2002.
20. İran türk edebiyyatı antolojisi, VI c. Erzurum, 2002.
21. *Mirzə İbrahimov*. Dəli Domrul. "Ədəbiyyat" qəzeti, 17 aprel 1965.
22. *Pərvanə Məmmədli*. "Varlıq" jurnalında ədəbiyyat məsələləri. Bakı: "Elm", 2000.
23. *Rüstəm Əliyev*. Şəhriyarla görüşlərim. "Şəhriyar" qəzeti, 5 noyabr 1979.
24. *Sabir Nəbioğlu*. Səhənd. Bakı: "Nurlan", 2006.
25. *Səhənd*. Araz. "Ədəbiyyat və incəsənət" qəzeti, 24 sentyabr 1982.
26. *Səhənd*. Dədəmin kitabı (*redaktor* M.Ə.Fərzanə). Stokholm, Durna och Tribun. 2001.
27. *Səhənd*. Sazımın sözü. Tehran: "Şəms", 1965.
28. *Səhənd*. Sazımın sözü (*tərtib edən* R.Qənbərqızı). Bakı: "Yazıçı", 1984.
29. *Səhənd*. Seçilmiş əsərləri (*tərtib edən* Ruqiyyə Qənbərqızı). Bakı: "Şərq-Qərb", 2006.
30. *Səməd Vurğun*. Seçilmiş əsərləri, c. II. Bakı: "Şərq-Qərb", 2005.
31. Şairlər məclisi. Təbriz, № 3-4, 1945.
32. "Varlıq" jurnalı, 1981, №1 (24).

Фикрет Сулейманоглу

Из истории издания роизведении Булуда Гарачорлу Сехенда

Резюме

Булуд Гарачорлу Сехенд (1926-1979) является одним из ярких представителей тюркоязычной литературы и истории национального самосознания в Южном Азербайджане. Он вошел в историю литературы Азербайджана как поэт-патриот, имевший огромный поэтический талант и трагическую судьбу. Его жизнь, творчество, общественно-политическая деятельность была тесно,

органично связана с национально-освободительным движением азербайджанских тюрков Ирана в середине XX века.От 35-ти летнего литературного творчества Сехенда до нас дошло его поэтическое наследие, состоящее почти из 16 тысяч строк. Сехенд создал все свои произведения на родном языке, исключение составляют несколько стихотворений, переводов и статей, написанные на персидском языке. Сехенд был одним из ведущих поэтов, сыгравших исключительную роль в процессе формирования модернистской поэзии в расширении границ содержания и формы политической лирики в Южном Азербайджане.В предлагаемой статье рассматриваются вопросы публикации отдельных книг, произведения Сехенда в журналах и сборниках, изданных в Азербайджанской Республике, Турции, Иране, Швеции. Анализируется ряд различий и недостатков, в этих изданиях, привлекающих наше внимание. Автор статьи отмечает, что необходимо академическое издание произведений Сехенда, которое позволит исследователям глубоко исследовать, анализировать творчество видного азербайджанского поэта.

Fikrat Suleymanoqlu

From the history of the publication of Bulud Garachorlu Sahand's works

Summary

One of the brilliant personalities of the native literature history and national consciousness in southern Azerbaijan **Bulud Garachorlu Sahand** (1926-1979) has been included to our history of literature as a patriotic poet owned a great poetic talent and a tragic destiny. All his life, his literary and socio-political activities are related in part to the national freedom movement of Azerbaijani Turks in Iran in the middle of the XX century. Nearly 16000 hemistiches of poetic heritage of Sahand's 35 years literary activities has been kept as a keepsake in our literature. Besides of his some poems, translations and articles that were written in Persian he wrote all his works in his native language. Sahand also was a leading person in the formation of the modern poetry in the South. The published issues of Sahand's works printing as a separate book, journal and collections in the Azerbaijan Republic, Iran, Turkey and Sweden are being reviewed and the distinctions and shortcomings between these editions are being appreciated in this article. The publication of the academic edition of the poet's works is the main work to investigate his literary activities deeply.

Rəyçi: İslam Qəribli
filologiya üzrə elmlər doktoru

PƏRİXANIM MURADOVA
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin şöbə müdiri
perixanum@gmail.com

FİRİDUN BƏY KÖÇƏRLİNİN PEDAQOJİ FƏALİYYƏTİ

Açar sözlər: Pedaqogika, təhsil, maarifçilik, məktəb, ədəbiyyat, dil.
Ключевые слова: Педагогика, образования, просвещение, школа, литература, язык.
Keywords: Pedagogy, edication, enlightenment, school, literary, language.

Azərbaycan ədəbiyyatında görkəmli yerlərdən birini tutmuş böyük tənqidşünas Firidun bəy Köçərli ədəbiyyatşünas, maarifpərvər, publisist olmaqla yanaşı eyni zamanda çox gözəl bir pedaqoq olmuşdur. O bir ziyalı olaraq Azərbaycan ədəbiyyatında öz sözünü demişdir. Firidun bəy Köçərlinin pedaqoji fəaliyyəti Azərbaycan ədəbiyyatında öz dərin izini qoymuşdur. Azərbaycanın ədəbi fikrinin inkişafında böyük xidmətləri olan ədəbiyyat, dil, fəlsəfə, tarix, iqtisadiyyat və beynəlxalq siyasi hadisələr haqqında bir çox qiymətli əsərlər yazan Firidun bəy Köçərli eyni zamanda, görkəmli pedaqoq olmuş, tədris və təlim-tərbiyə məsələlərinə həsr edilmiş əsərlər müəllifi kimi tanınmışdır(1. s. 311).

Firidun bəy Köçərli peşə xatirinə dərs deməmişdir. O tədris və təlim-tərbiyə məsələlərində canını fəda etmiş ziyalımız olmuşdur. Eyni zamanda pedaqoji fəaliyyətə həsr olunmuş əsərləri ilə də məşhurlaşmışdı. F. b. Köçərlinin müəllimlik fəaliyyəti 1885 -1920-ci illərə qədər olan dövrü əhatə edir. O bu illər ərzində Azərbaycanın təhsil və maarif məsələləri ətrafında gedən bütün müzakirə bə mübahisələrdə demək olar ki, fəal iştirak etmişdir. O müəllimlikdən əlavə həm də bir nəzəriyyəçi kimi də fəaliyyət göstərmişdir. Tədris kitablarının hazırlanması, dərsliklərin tərtib edilməsi və nəşrə göndərilməsi üçün hazır vəziyyətə gətirilməsi işi birbaşa Firidun bəy Köçərlinin adı ilə bağlıdır. F. b. Köçərlinin böyük bir müəllim nəslinin yetişməsində əməyi çox böyük olmuşdur.

F b.Köçərli yorulmadan çalışaraq 35 il pedaqoji fəaliyyətlə məşğul olmuşdur. Ümumiyyətlə F. b. Köçərlinin çox zəngin ədəbi irsi olmuşdur. Məktəblərin açılmasında, şagirdlərin təhsilə cəlb edilməsində, gələcək nəslin savadlanmasında, qadınlarımızın çadradan çıxaraq təhsilə yiyələnmələri üçün məsələlər qaldırır və bu məsələlər ətrafında ara-sıra mübahisələr də edirdi. Öz peşəsinin vurğunu olan böyük ədib, həyatını əsasən ədəbiyyatşünaslığa və pedaqoji fəaliyyətə həsr etmişdir.

Zaqafqaziya müəllimlər seminariyasını bitirdikdən sonra Firidun bəy Köçərli Qafqaz tədris dairəsi popeçitelinin 14 iyun 1885-ci il tarixli qərarı ilə İrəvan gimnaziyasına şəriət və tatar dili müəllimi təyin olunur. 1887-ci ilin 6 noyabrında isə yenə popeçitelin 6801 № li qərarı ilə İrəvan gimnaziyası mürəbbisinin müavini vəzifəsinə irəli çəkilir. 1886-cı ildən başlayaraq "əla və həvəslə" müəllimlik etdiyi üçün demək olar ki, hər il mükafat alır. 1892-ci ilin 20 aprelində 1887-ci ilin 7 noyabrından hesab edilmək şərti ilə ona "Kollejiski sekretar" rütbəsi verilir. Belə ki,

bu illərdə ona "Titulyar sovetnik", "Statski sovetnik" kimi rütbələr verilir. 1894-cü ildə "Əla xidmətinə görə" üçüncü dərəcəli Stanislav ordeni ilə təltif olunur. 1895-ci ilin oktyabr ayında isə Zaqafqaziya müəllimlər seminariyasının tatar şöbəsinə şəriət müəllimi təyin edilir. Bundan sonra F. b. Köçərlinin pedaqoji fəaliyyətində yeni bir dövr başlanır(1. s. 312).

Bütün bunlar Firidun bəy Köçərlinin əmək fəaliyyətini yüksək dərəcədə həyata keçirdiyini, verilən tapşırıqların öhdəsindən layiqincə gəldiyini və vicdanlı bir müəllim olaraq şagirdlərə bilik verdiyini göstərir. F. b. Köçərli təkcə pedaqoji fəaliyyəti ilə kifayətlənməyirdi. O müxtəlif mətbuat orqanlarında tez-tez məqalələr dərc etdirir, tərcümə işləri ilə məşğul olur və eyni zamanda dərsliklərin də nəşr edilməsində çalışqanlıq göstərirdi. Həmin illərdə "Təlimi-lisani-türk" adlı dərsliyin buraxılmasında da F. b. Köçərlinin böyük əməyi olmuşdur.

Firidun bəy Köçərlinin yaradıcılığı ilə yaxından tanış olduqda onun pedaqoji fəaliyyətinin çox yüksək olduğunu, əsl müəllimə xas olan müəllimlik həvəsinin olduğunu aydın görmək olur. O öz üzərində müntəzəm çalışır, öz məlumat dairəsini genişləndirmək üçün başqa xalqların bir çox ədəbiyyatlarını mütaliə edirdi. Bunun üçün Qori müəllimlər seminariyasının o dövr üçün çox zəngin olan kitabxanasından istifadə edirdi. Firidun bəy Köçərlinin mütaliəsi təkcə bu kitabxana ilə məh-dudlaşmayırdı. O, Azərbaycanın və Zaqafqaziyanın, demək olar ki, bütün bölgə və rayonlarında yaşayan və əmək fəaliyyəti ilə məşğul olan həmkarları ilə məktublaşır və dostlarından yeni ədəbiyyatlardan ona da göndərmələrini xahiş edirdi. Yorulmadan çalışan F. b. Köçərli pedaqoji fəaliyyətini daha da genişləndirərək daha da böyük müvəffəqiyyət qazanır.

Təhsil, təlim-tərbiyə Firidun bəy Köçərlinin ən vacib saydığı məsələlərindən birincisi idi. Zaqafqaziya müəllimlər seminariyasında canını təhsilə, təlim-tərbiyə işinə həsr edən Firidun bəy Köçərli, orada daha da yüksək vəzifəyə keçməyə səy göstərirdi. Onun məqsədi sadəcə vəzifə tutmaq xatirinə yüksəlmək deyildi, yalnız seminariyanın Azərbaycan şöbəsində olan nöqsanların düzəldilməsinə çalışmaqdan ötəri idi. Firidun bəy Köçərli seminariyada çoxdan bəri arzuladığı vəzifəyə müvəqqəti də olsa təyin olunur.

F. b. Köçərli Azərbaycanın istər ictimai, istər sosial, istərsə də siyasi həyatı ilə maraqlanmış, millətinin çətin həyat tərzi, cəhalət içərisində yaşaması və başqa millətlərdən çox geridə qalması bir vətəndaş kimi onu narahat edirdi. Bu səbəbdən o ilk növbədə xalqın qəflət yuxusundan oyanması yolunda mübarizə apararaq, millətinin maariflənməsi üçün çalışırdı.

Görkəmli pedaqoq F. b. Köçərli pedaqoji fəaliyyətində təkcə dərs deməklə kifayətlənməmişdir. O, eyni zamanda savadlı, oxumuş, mədəni yeni bir nəslin formalaşmasında məxsusi olaraq çalışır və bu yolda heç nədən çəkinməyərək maariflənmə işini daha da geniş təbliğ edirdi. Ailələrlə, valideynlərlə mütəmadi görüşən, onlarla söhbətlər aparan F. b. Köçərli sonunda qismən də olsa istəyinə nail ola bilirdi. Ona belə ağır işində dayaq duran ömür-gün yoldaşı Badisəba xanım həmişə köməklik göstərirdi.

Böyük bir müəllim nəslinin yetişməsində diqqətəlayiq işlər görən F, b. Köçərlinin pedaqogikaya aid yazılmış "Didaktika haqqında" üç məktub və "Ümumi pedaqogika" adlı əsər yazmışdır.

Öz peşəsinin vurğunu olan F. b, Köçərli pedaqoji fəaliyyətə başladığı ilk vaxtlardan bu sahədə istedadını göstərərək yaxşı müəllim adını qazanmışdır. Zaqafqaziya müəllimlər seminariyasında F. b. Köçərlinin həyatında yeni bir dövrün başlanğıcı olur.

Gənc bir müəllimin düşdüyü yeni mühit onun həyatının formalaşmasında böyük rol oynamışdır. Artıq tez-tez dövrü mətbuatda məqalələr dərc etdirən F. b, Köçərli pedaqoji fəaliyyəti ilə yanaşı tənqidçilik, ədəbiyyatşünaslıq və s. Maarifləndirici işlərlə də məşğul olur.

Azərbaycan ədəbiyyatı tarixində böyük tənqidşünas və pedaqoq kimi yadda qalan F. b. Köçərli 1899 -1902-ci illərdə üçüncü dərəcəli müqəddəs Anna və ikinci dərəcəli müqəddəs Stanislav ordenləri ilə və başqa mükafatlarla da təltif edilmişdir.

Görkəmli pedaqoq və maarifpərvər F. b. Köçərli 1910-cu ildə Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsinə təlimatçı vəzifəsinə təyin olunur və uzun müddət bu vəzifəni icra edir.

F b.Köçərli 1896-cı ildə Qori seminariyasına şəriət və türk dili müəllimi təyin edilir. Buraya köçürülməsi ruhanilərə xoş gəlmirdi, çünki qorxurdular ki, "başı şapkalı" molla sonralardan şeyxislamlıq iddiasına düşsün. Amma necə ki, aşağıda görəcəyik, ruhanilərin zənni yanlış idi. Onun məqsədi bütün Qafqazda müəllimlər hazırlayan seminariya məktəbində müəllimlik yerini tutmaq idi. Burada öz fikrini tələbələr vasitəsilə həyata keçirə bilərdi, yəni milləti savadlandırıb tərbiyə verə bilərdi. Odur ki, öhdəsinə götürdüyü bu ağır vəzifəni layiqincə aparırdı və ömrünün axırına kimi bir müəllim sifəti ilə yaşadı. Halbuki, başqa köhnə müəllimlər kimi, istəsə idi (özü üçün) faydalı bir vəzifə də ala bilərdi. Bunu Firidun bəy yapmadı və yapanlardan da razı qalmazdı, çünki müəllimlik onun nəzərində ən müqəddəs bir iş idi(2. s. 20).

O, şəriət dərslərini keçməklə heç də o dövrün mollaları və dindarları kimi düşünməyirdi. Dininə böyük hörmətlə yanaşan ədibin düşüncələri tamamilə fərqli idi. Baxmayaraq ki, o şəriət dərsi deyirdi bununla belə dinin bəzi məsələlərini onlar kimi qəbul etmirdi. Yəni ilk növbədə millətin əməlli-başlı təhsilə yiyələnməsini, qadınlarımızın savadlanmasını, hətta çadradan çıxmasını həyatın ən vacib problemlərindən hesab edirdi. Bundan başqa Firidun bəy Köçərli dinin düzgün təbliğ olunmamağından irəli gələn məsələləri görərək bunlara etirazlını bildirirdi. Onun şəxsi arxivindən toplanmış məktublar əsasında hazırlanmış kitabında çox maraqlı məqamlar vardır. Bir məqaləsində deyilir: Məsəla, müharibənin şəriət nəzərincə zərərlərini göstərərək bir yerdə yəhudi peyğəmbərlərinin sözlərini zikr edir: "Qılıncı sındırın, cüt qayırın, nizəni sındırın kotan və oraq qayırın..." ("Həyat", 1905)(2. s. 22).

Bu dövrdə mütərəqqi ictimaiyyətin qadın təhsilinin genişləndirilməsi və Azərbaycan qadınlarının həyata cəlb olunması uğrunda daha fəal çıxış etməyə başladılar. Pedaqoq və publisist firidun bəy Köçərli yazırdı ki, yalnız təhsil müsəlman qadınına ailəni dolandıran, tərbiyəçi və evdar xanım kimi layiqli yer tutmağa imkan verə bilər(9. s. 7).

Ədəbi irsin nəşri, ədəbiyyatşünaslıq elminin inkişafı üçün nəşriyyatın, ədəbiyyatı intişar etdirən cəmiyyətin olmasını zəruri məsələlərdən sayan Yusif Vəzir Çəmənzəminli Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi kimi klassiklərin

çap olunub geniş xalq kütləsinə çatdırılmamasından şikayətlənirdi: "...Keçmişlərin əsərləri çap olunmamış dururlar. Firidun bəy Köçərli kimi məqtədir bir ədib on beş il zəhmət çəkib, üç cild "Azərbaycan türklərinin ədəbiyyat tarixi"ni vücudə gətirib. Bunları çap etdirən yoxdur". Bu kitabı bir əcnəbi yazsa, Avropada onun ilə böyük ad qazanardı. Görəsən nə üçün bizim aramızda Firidun bəy Köçərli cənabları kimi adamların əmələ gəlməsini şövq və həvəslə qarşılamırıq? "(3. s. 254).

Firidun bəy Köçərli elm və maarifin insanın mənəvi inkişafında müsbət təsirini göstərməklə bərabər qeyd edir ki, "elmsizlikdən və avamlıqdan müsəlmanların ürəyinə qorxu bərk sirişt edibdir, cəhl və nadanlıq onları cürətsiz, hünərsiz və bir növ üftadə, xar və zəlil edibdir(4. s. 71).

Firidun bəy Köçərlinin həyat və yaradıcılığını araşdırdıqda onun pedaqoji fəaliyyətinin həyatının ayrılmaz hissəsi olduğunu görürük. Sözsüz ki, bu məhəbbət ilk olaraq onun böyüyüb boya-başa çatdığı ailəsindən, eləcə də yaşadığı Şuşa şəhərinin o dövrdəki mühitindən qaynaqlanmışdır. Atasının ədəbiyyata olan həvəsi onun tanınmış şairlərin dövrəsində böyüməsi balaca Firidun bəyin gələcəyinin formalaşmasında rol oynamışdır. Bir tərəfdən də özünün ağıllı, zəkalı olması buna rəvac vermişdir.

Pedaqoji fəaliyyəti dövründə bir pedaqoq kimi artıq tanınan, məşhurlaşan Firidun bəy Köçərlini hətta o zaman Tiflisin ali məktəblərinə mühazirələr oxumağa çağırırdılar. Ona tapşırılan hər bir işi o şərəflə yerinə yetirirdi. Firidun bəy Köçərli təkcə pedaqoji sahədə istedadlı olmamışdır, o eyni zamanda bir ədəbiyyatşünas, folklorşünas, publisist və filosof kimi də ədəbiyyatsevərlərə yaxşı tanışdır. Pedaqoji fəaliyyətində tələbələrə ən çox Azərbaycan dilinin estetikasını aşılayan Firidun bəy Köçərli bu dilin dünya xalqları dilindən heç də geri qalmadığını, sadəcə dili özünəməxsus formada işlədilməsinin və təbliğ olunmasını tövsiyə edirdi. O bir pedaqoq olaraq ilk növbədə Vətənimizi və dilimizi sevməyi öz şagird və tələbələrinə öyrədirdi. Bunu Firidun bəy Köçərlinin dərs dediyi tələbələrinin yazdıqları xatirələrindən görmək olur. Görkəmli alimin daima Azərbaycan dilinin üzərində çalışması, dil üslubunun zənginləşdirməyə, təkmilləşdirməyə çalışması onun əsl pedaqoq olduğunun göstəricisidir. Firidun bəy Köçərlinin yaradıcılıq fəaliyyəti ilə tanış olduqda bunun müəllimlikdən əlavə bir vətəndaşlıq borcu hesab etdiyinin anlamına gəlmək olur. Firidun bəy Köçərlinin dərs dediyi tələbələrinin əksəriyyəti sonralar özlərinin pedaqoji fəaliyyəti dövründə müəllimlərinin öyrətdiyi yolla getməyə və bəzən ona bənzəməyə çalışırdılar. Bu da müəllimin tələbələr yanında qazandığı məhəbbətindən irəli gələn bir hadisədir. Firidun bəy Köçərli haqqında yazılmış xatirələrdən bunu aydın görmək mümkündür.

Müəllimlərə və məktəblərə bu qədər böyük mənalar verdiyi üçün müəllimlərin və şagirdlərin də Firidun bəyə ürəkdən hörmətləri var idi. Firidun bəy Qafqazın hər yerinin özünə vətən bilirdi və hər yerinə məhəbbəti var idi.

1910-cu il Firidun Köçərlinin pedaqoji fəaliyyətinin ən qızğın dövrlərindən biri olmuşdur. Məsələn 1910-cu ildə çap etdirdiyi "cənab Şirvanskinin "Vətən dili" dərsliyinə yazdığı resenziyaya dair " adlı məqalədə, müəllifin bəzi iradlarının əleyhinə çıxaraq, göstərir ki, birinci sinif üçün tərtib edilmiş dərslik, hər şeydən əvvəl, sadə, anlaşıqlı, canlı və şirin dildə yazılmalıdır, dərsliyin şəkilləri mətn ilə tamamilə uyğun olmalıdır(1. s. 315 -316).

Azərbaycan ədəbiyyatının zəngin tarixi, klassiklərimizin bu tarixi yaratması məhz ədəbiyyatımızın dünya ədəbiyyatları içərisində tanınmasına səbəb olmuşdur. Dilimizin poetikliyi, səlisliyi ədəbiyyat nümunələrimizin bir ana laylasını xatırladan axıcılığı başqa xalqların tərəfindən də yüksək qəbul edilmişdir. Bunun təbliğində sözsüz ki, müəllimlər böyük rolu olmuşdur. Ədəbiyyat elə-belə meydana gəlməmişdir. Bu ədəbiyyatın yaranması yaşadıqları hər bir dövrdə mühitə uyğun olaraq müəllimlərin çəkdikləri zəhmətlərin və fədakarlıqlarının sayəsində meydana gəlmişdir. Məlumdur ki, istər mollaxanalar da ruhani dərsləri alan, istərsə də ölkəsinin hüdudlarından kənarda təhsil alan və keçmişdən üzü bəri gələn klassiklərimizin hər birinin bu ədəbiyyatın əmələ gəlməsində rolu olmuşdur. Daha çox əziyyəti isə bu yazıların, deyimlərin toplanaraq kitab halına gətirilməsində sözsüz ki, görkəmli Azərbaycan ədəbiyyatşünası Firidun bəy Köçərlinin əməyi danılmazdır. Bütün ömrünü ədəbiyyata, pedaqoji fəaliyyətə həsr edən ədibin bu gün ki, ədəbiyyatımızda qoyduğu izi silinməzdir. Yəni yenə müəllimin zəhməti burada da özünü göstərir.

F. b. Köçərlinin pedaqoji fəaliyyəti tənqidçiliyi ilə birləşirdi ki, bu da xalqın səadəti, xoşbəxt, mədəni gələcəyi uğrunda ardıcıl mübarizə idi. Sonralar, Qori seminariyasında Azərbaycan şöbəsi Qazağa köçəndə(1918) F. b. Köçərli seminariyanın direktoru olur. Bütün səy və bacarığını milli ziyalıların yetişməsinə sərf edir. Xalq şairi S. Vurğun, O. Sarıvəlli və başqaları bu zaman Firidun bəyin tələbələri olmuşlar(5. s. 378).

Görkəmli pedaqoq Mehdixan Vəkilov öz xatirəsində qeyd edir ki, F. Köçərli vətənini, xalqını və dilini böyük məhəbbətlə sevən vətənpərvər bir alim idi. Ömrünün axırına kimi övladı olmayan Firidun bəy bütün məhəbbətini, mehr və ülfətini, ümid və arzularını seminariyada oxuyan azərbaycanlı balalarına bağlamışdı(2. s. 10).

Azərbaycan oxucuları Firidun bəy Köçərlinin təkcə pedaqoq kimi deyil, eyni zamanda Azərbaycanın görkəmli ədəbiyyatşünası, tənqidçisi, folklorşünası, publisisti və alimi kimi də tanıyırlar. O, topladığı ilk materiallar əsasında əvvəlcə 1895-ci ilin ortalarında "Tatarskiye komedii" adlı silsilə məqalələri çap etdirir. 1903-cü ilin ikinci yarısında isə "Azərbaycan türklərinin ədəbiyyatı" adlı kitabçası da çapdan çıxır(8. s. 11). Onun Azərbaycan ədəbiyyatı tarixinə verdiyi ən böyük hədiyyəsi öz sağlığında 1903-cü ildə Tiflisdə nəşr etdirdiyi "Azərbaycan türklərinin ədəbiyyatı" və 1925-ci ildə isə onun ölümündən 5 il sonra həyat yoldaşı Badisəba xanımın nəşr etdirdiyi "Azərbaycan ədəbiyyatı tarixi materialları" kitabları olmuşdur. Bu kitabın sonrakı nəşrlərdə "Azərbaycan tarixi materialları" adı "Azərbaycan ədəbiyyatı" adı ilə əvəz olunmuşdur.

Firidun Köçərlinin vətəninə, millətinə olan məhəbbəti onun xalqı üçün qoyub getdiyi qiymətli irsindən məlumdur. O dövrdə kitab nəşrinin çox çətinliklərlə üzləşdiyini nəzərə alsaq Firidun bəyin bu yolda nə qədər əzab-əziyyət çəkdiyini müəyyən edə bilərik. Maraqlısı budur ki, F. b. Köçərli bu əziyyətinin maddiyyat tərəfini qətiyyən düşünməyirdi. Onun bir qeydində oxuyuruq "...Bu zəhmətlərimin (oxu kitablarımın) çap olunmasından mənim niyyətim pul qazanmaq deyil, ancaq ədəbiyyatımıza cüzi bir xidmət etməkdir" deyən təvazökar, vətənpərvər alimin uzun

illərdən bəri böyük zəhmət və çətinliklə yazıb, yaratdığı əsərini çap etdirə bilməməsi tərəqqipərvər Azərbaycan ziyalılarını çox düşündürürdü(6. s. 26).

Firidun bəy Köçərlinin pedaqoji fəaliyyəti çox şaxəli olmuşdur. Onun istər tələbəlik illərindən, istər İrəvan gimnaziyasındakı fəaliyyətindən, istərsə Qori müəllimlər seminariyasındakı fəaliyyətindən və nəhayət min-bir əziyyətlə əmələ gətirdiyi Qazax müəllimlər seminariyasındakı fəaliyyətinin eynilik təşkil etdiyini görərik. Görkəmli pedaqoqun bu illər ərzində vətənə, xalqa olan sevgisi nəinki azalmamış, əksinə daha da artmışdı. Yüksək maarifpərvərlik nümayiş etdirən Firidun bəy Köçərlinin haqqında yazılan xatirələrdən bunu aydın görmək mümkündür. Vətənpərvər, maarifpərvər və tərəqqipərvər olan Firidun bəy Köçərlinin ən böyük arzusu yuxarıda sadaladıqlarımın həyata keçirilməsinə çalışması idi. O, xalqını təhsilli, mədəni görmək üçün var qüvvəsini bu yola sərf etmişdir.

O hələ müəllimlik etdiyi vaxtlarda Azərbaycan xalqının klassikləri haqqında materiallar toplamağa başlamışdır. Gələcək nəsillərin Azərbaycan klassiklərini tanıması üçün zəhmət çəkmişdir. bu məqsədlə o, bir tərəfdən mövcud kitabxana və arxivlərdən istifadə edir, digər tərəfdən isə ziyalılarla, ayrı-ayrı şeir, kitab həvəskarları ilə əlaqə saxlayır, lazım olan materialları toplayırdı. Bu gün də məktəblərdə və ali təhsil müəssisələrində klassiklərimiz Nizami, Füzuli, Firdovsi, Sədi, M. P. Vaqif, Q. Zakir, S. Ə. Şirvani, Sabir və başqaları haqqında məlumatlı olmağımız Firidun bəy Köçərlinin və onun timsalında olanlarımızın zəhmətinin nəticəsidir. Belə ziyalılarımız bəzən həyatları bahasına qadağan olunmuş mövzular ətrafında gizlin də olsa tələbələrini maarifləndirməyə çalışmış və onlara kimliklərini tanıtdırmağa səy göstərmişdilər.

Firidun bəy Köçərlinin övladı olmamışdır. Lakin o dərs dediyi bütün şagird və tələbələrini öz övladı hesab edərək, ata qayğısı ilə yanaşmış və onları narahat edən məsələlərin həllinə çalışmışdır. Bu səbəbdən də dərs dediyi tələbələri F. b. Köçərlini ata kimi qəlbən sevmiş və ona hörmət etmişlər. Firidun bəy Köçərli hətta seminariyanı bitirən tələbələrlə mütəmadi əlaqələr saxlayırdı və məktub vasitəsi ilə onlara məsləhətlər verirdi. Onları ölkədə baş verən hadisələrdən kənarda qalmamağı, bu hadisələr barəsində yazıb mətbuatda dərc etdirməyi də tövsiyə edirdi(7. s. 369).

Firidun bəy, müəllimin yüksək pedaqoji hazırlığa malik olmasını, uşaq psixologiyasına nüfuz etməsini tələb edirdi və köhnə məktəblər üçün səciyyəvi olan "əti sənin, sümüyü mənim" prinsipini qəti şəkildə rədd edirdi. F. b. Köçərli həmçinin pedaqoji fəaliyyət zamanı ədəbiyyatın, istər Azərbaycan ədəbiyyatının istərsə də başqa xalqların ədəbiyyatının təbliğinə geniş yer verirdi(8. s. 6).

Firidun bəy Köçərlinin Azərbaycan ədəbiyyatı tarixində həm publisist, həm ədəbiyyatşünas, həm pedaqoq, həm də bir folklorşünas olaraq zəhməti çox böyükdür. F. b. Köçərlinin yaradıcılığının öyrənilməyən tərəfləri hələ də öyrənilməkdədir. Azərbaycanın görkəmli şəxsiyyətləri içərində Firidun bəy Köçərlinin xüsusi yeri vardır. Ailə həyatında onu anlayan, onu hamıdan yaxşı başa düşən ömür-gün yoldaşı Badisəba xanımın Firidun bəy Köçərli yaradıcılığında əvəzsiz rolu olmuşdur. F. b. Köçərlinin yazdıqlarının ilk oxucusu və məsləhətçisi məhz Badisəba xanım olmuşdur. Bacarıqlı tənqidçi, gözəl ədəbiyyatşünas və istedadlı pedaqoq Firidun bəy Köçərlini ədəbiyyatsevərlər heç zaman unutmayacaqdır.

Ədəbiyyat

1. Kamal Talıbzadə: "Ədəbi irs və varislər". Bakı, 1974, səh 317.
2. Firidun bəy Köçərlinin şəxsi arxivi. Bakı, 2006. s. 279.
3. Kamran Məmmədov: "Yusif Vəzir Çəmənzəminli ", Bakı, 1981, səh. 263.
4.XX əsr Azərbaycan ədəbiyyatı məsələləri. Bakı, 1979, s. 260.
5.Mir Cəlal, F.C. Hüseynov: "XX əsr Azərbaycan ədəbiyyatı ", Bakı, 1974, səh. 390.
6.Firidun bəy Köçərli: "Azərbaycan ədəbiyyatı". Bakı, 1978, səh. 596.
7.Ş. Nəzirli: "Qoridən gələn qatar". Bakı, 2011, səh. 490.
8.Firidun bəy Köçərli: "Əsərləri". Bakı , 2013, səh. 493.
9.Fərhad Cabbarov: "H. Z. A. Tağıyevin qız məktəbinin tarixindən", Bakı, 2011. səh. 390.

Периханум Мурадова

Педагогическая деятельность Ф. б. Кочарлинского

Резюме

Фиридун бек Кочарли занимает видное место в азербайджанской литературе. Он являлся не только литературный критиком, но и хорошим педагогом. Ф.б. Кочарли также был фольклористом. Ярким примером этому служит его книга «Материалы по истории азербайджанской литературы».

Ф. Кочарли был интеллигентом и патриотом, любящим свой народ. Он стремился к просвещению своего народа. К своим ученикам и студентам Ф. Кочарли относился как к родным детям.

Perixanim Muradova**.**

Pedagogical Activity Firidun bey Kocharlinski

Summary

F. Kocharli one of the well known persons in the Azerbaijan literacy. F. Kocharli was not only the literary critic, at the same time he was a good teacher. The bright example of his folklore literary was the book "The Materials For the History of Azerbaijan literature".

. Kocharli was an intellectual and a patriot who loved his nation. He sought to educate its nation. To his students Kocharli treated as own children.

Rəyçi: Professor Şamil Vəliyev

KƏRİMULLA MƏMMƏDZADƏ
AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu
kerimullah@box.az

GELİBOLULU MÜSLİHƏDDİN MUSTAFA SÜRURİNİN "BƏHRÜL-MAARİF" ƏSƏRİNDƏ MÜƏMMA SƏNƏTİ

Açar sözlər: "Bəhrül-maarif", Süruri, müəmma,
Ключевые слова: "Бахрул-маариф", Сюрури,
Key words: "Bahrul-maarif", Sururiy, muamma

Orta əsr türk ədəbiyyatının tanınmış alimi Gelibolulu Müslihəddin Mustafa Sürurinin m. tarixlə 1549-cu ildə qələmə aldığı bu əsər poetikaya daha dəqiq desək ədəbiyyat nəzəriyyəsinə aid yazılmış əsərlərin ən samballısıdır. Düzdür Sürüriyə qədər bu mövzuda bir neçə əsər yazılmış olsa da bunların heç biri "Bəhrül-maarif" qədər geniş, zəngin və poetikaya aid məsələləri ən xırda detallarına qədər incələyən əsərlər olmamışlar. Sürüriyə qədər bu səpkidə bir neçə əsər yazılmışdı və təbii ki, o, da bu əsərlərin mövcudluğundan xəbərsiz deyildi amma həqiqətən diqqət yetirsək görərik bu mövzuya aid yazılmış olan Əlişir Nəvainin "Mizanül-övzan", Babur Şahın "Əruz-risaləsi" kimi əsərlər yalnız əruz və əruzun Türk şeirində tətbiqi ilə bağlı bilgilərdən ibarət olmuşdur. Amma Sürurinin "Bəhrül-maarif"inə nəzər saldıqda görürük ki, müəllif öz əsərində əruzla yanaşı nəzm və onun janrlarına, ədəbi sənətlərə və hətta o zamanlar ədəbiyyatda çox da yayqın olmayan nəsrə aid çox dəyərli bilgilər vermiş, ədəbiyyata aid terminləri açıqlamış, onların lüğəvi mənalarını qeyd etmişdir. Əsəri tədqiq edərkən müasir ədəbiyyatşünaslıqda mövcud olan ədəbi bilgilərin hələ dörd əsr bundan əvvəl Süruri tərəfindən qələmə alınmasını müşahidə etmək çox heyrətvericidir. Belə ki, günümüzdə bu mövzuda qələmə alınmış əsərlərə diqqət etdikdə "Bəhrül-maarif"in nəinki onlardan geri qaldığını hətta sahib olduğu geniş şəkildə açıqlamalarla, misallarla onlardan daha zəngin olduğunu müşahidə edirik.

"Bəhrül-maarif"in əsas mövzusu əruz və əruzun Türk şeirində tətbiqidir. Əsər bir müqəddimə, üç məqalə və xatimədən ibarəttir. Müqəddimədə əsərin yazılmasına səbəb olan zərurətlərdən söz açılmış, əruzun öyrənilməsinin çox vacib olması vurğulanmışdır. Birinci məqalə əruz və onun bəhrlərindən bəhs edir, ikinci məqalə isə nəzm qaydaları, nəzmdə mövcud olan ədəbi ifadə vasitələri və nəsrlə bağlı müəyyən məlumatları, nəsrin növləri haqda bilgiləri ehtiva edir. Üçüncü məqalə isə Rami Təbrizinin "*Ənisül-üşşaq*" əsəri ilə bağlıdır və müəllif bu əsərdən misallar gətirərək klassik poetkada işlənən bütün bədii nümunələr, onların işlənmə yerləri, mənaları ilə bağlı geniş şərhlər, izahlar vermişdir.

Süruri əsərinin təşbeh və digər bədii ifadə vasitələri ilə bağlı olan hissəsini tamamladıqdan sonra praktiki cəhətdən yazılması və oxunması çətin olan və xüsusi qabiliyyət tələb edən nəzm nümunələri haqqında da məlumat verməyi məqbul görür. Ümumiyyətlə klassik şərq ədəbiyyatında müəmma yaratmaq sənəti adlanan bu şeir yazmaq forması orta əsrlərdə geniş şəkildə yayılmışdı. Müəmma sənətinə biz əsasən Xaqani, Nizami, Qivam Mütərrizi, Zülfiqar Şirvani kimi XII-XIII əsrlərdə yaşamış görkəmli şairlərin əsərlərində təsadüf edirik. Bu dövrlərdə yaşamış

bir çox şairlər də müəmma yaratmaqda qələmlərini sınamış və bu sahə ilə bağlı bir çox əsərlər də yazılmışdır (5, 3). Lakin müəmma xüsusi bir ədəbi janr kimi, XV əsrdən başlayaraq geniş şəkildə işlənməyə başlamışdır. Bu dövrdə şeirdə mürəkkəb mənalar işlətmək məharət sayıldığından şeir yaradıcılığında müəmmaya geniş yer verilmiş-dir. Təsadüfi deyil ki, Cami, Nəvai, Füzuli kimi böyük alim-şairlər öz poeziya-larında müəmmaya xüsusi yer vermiş və bu sənətin başqa alim və şairlər tərəfindən öyrənilməsində rol oynamış, bu sahə ilə bağlı əsərlər qələmə almışlar. Əbdürrəhman Cami bu sahə ilə bağlı üç əsər yazmışdır ki, "Müəmmayi-kəbir" bunlardan ən məş-hurudur. Mir Hüseyn Nişapurinin "Müəmma" adlı bir əsəri də vardır ki, mənbələrdə olan məlumata görə o bu əsəri Əlişir Nəvainin tapşırığı ilə qələmə almışdır (5, 3). Müslihəddin Mustafa Sürurinin də şərh yazmış olduğu bu əsəri Cami yüksək qiymətləndirmiş və çox mürəkkəb, çözülməsinin çətin olduğunu qeyd etmişdir. Görünür elə Süruri də bu xüsusiyyətinə görə adıçəkilən bu əsərə şərh yazmışdır. Bundan başqa "Əbdəül-bədayə" əsərinin müəllifi Şəmsül-üləma müəmma tərtibi və kəşfi haqqında Bədiüz-Zamanın "Kənzül-əsma fi kəşfül müəmma" adlı əsər yazdığını, habelə Əbdülmüin Bəlxinin də bu sahəyə aid əsəri olduğunu qeyd edir (5, 5). XV-XVI əsərlərdə müəmma yaratmaq o qədər yayqın olmuşdur ki, bəzi şairlər özlərinə "Müəmmayi" təxəllüsü belə götürmüşlər beləki, Xosrov Dəhləvinin əsərlərini toplayan Mövlana Məhəmməd Müəmmayini buna misal göstərmək olar. Görkəmli Azərbaycan alimi Həmid Araslı qeyd edir ki, hətta orta əsr mədrəsələrində "elmi müəmma" adlı xüsusi bir dərs də keçirilmişdir (1, 28). Məhəmməd Füzuli müəmmanın zərifliyindən, incəliyindən bəhs edərkən yazır: "Müəmma bütün şərtlərinə uyğun bir fikir ifadə eədn bədii nəzm parçası olmalıdır" (5, 6).

Müəmma klassik poetikada müxtəlif bədii vasitələrlə fikrin, bir adın və ya tarixin gizlədilməsinə və xüsusi qaydalarla üzə çıxarılmasına deyilir. Burada bəzən hərf söylənilib rəqəm vəya rəqəm söylənilib hərf nəzərdə tutulur, bəzən "təshif" (təhrif etmə, səhv oxuma) və "təqlib" (çevirmə, bir şeyin şəklini dəyişmə) adlanan poetik xüsusiyyətlərlə yaradılmış fikirlər irəli sürülür, bəzən ərəbcə deyilib farsca, türkcə vayaxud da əksinə söz nəzərdə tutulur. Müəmmalar öz quruluş etibarları ilə müxtəlifdirlər və mənbələrdə 24 vasitə ilə yaradıldığı qeyd edilir. Bu sahəyə aid müxtəlif araşdırmaları olan alim Məmmədağa Sultanov qeyd olunan bu 24 tərtib vasitəsini 18 tərtib vasitəsilə birləşdirərək onları daha sadə bir şəkildə izah etməklə bərabər mövzu ilə bağlı 25 müəmmanın kəşfini də qeyd etmişdir (5, 6-26). Müəmmaların yarnma metoduna gəlincə bu cür nəzm formaları əbcəd hesabı, həndəsi rəqəmlərdən istifadə, günlər üzrə, səma cismləri ilə bağlı, dil, qrammatika ilə əlaqəli, kəlmənin hərfləri, təşbeh, məcaz, istiarə kimi bədii ifadə vasitlərindən istifadə etməklə, hərflərin düşməsi, sözlərin bölünməsi və s. bu kimi vasitələrin köməyi ilə müxtəlif məzulu müəmmalar yaradılırdı.

"Bəhrül-maarif" əsərinin bir hissəsində bu mövzuya toxunan Süruri də yazır ki, bəzi ustad şairlər oxşar hərfli, nöqtəli vəya nöqtəsiz hərfli, əsasən dörd hərfli, tələffüzü zamanı dodağın və yaxud da dilin hərəkət etmədiyi, təkrar söylənən, yazılışı, oxunuşu, tələffüzü çətin olan, eyni hərflə başlayan, eyni hərflə bitən və s. kimi bu qəbildən olan söz və ibarələrin yardımı ilə qəribə formalı şeirlər, beytlər yazmışlar. Biz də bu kitabda onların bir çoxu haqqında məlumat və izahlar verməyə, bu cür beytlərin düzgün yazılış və oxunuş qaydalarını öyrətməyə calışacağıq (3, 137a). Müəllif bunlardan ilk olaraq "**müşabih** və **müştəbih**" yəni

bənzər və aydın olmayan adlanan şeir forması haqqında misal verir və bunun oxunuş qaydasını qeyd edir:

تیروتبربر ببرپیرتیر پیرتیرکرتبر وتریتیرکس (3, 137a).

Bu yazının düzgün oxunma qaydası yalnız hərəkə və nöqtələrin yardımı ilə müm-ükündür:

تِیروتَبَرببَر بَبَرپِیرتِیز پِیرتِیزکَرتَبَر وَتِیزتِیزکُن (3, 137a).

Tirü təbər bebər, bebər piri tiz gər, Pir tiz gər təbər və tiz tiz kon.

Mövzu ilə bağlı başqa bir türkcə misala diqqət yetirək:

دیدم شها یوزکده کی در درمیدر ندر دیر در دردرر دورر درده درده دروا

Bu beyti də yalnız hərəkələrin köməkliyi ilə düzgün oxuya bilərik:

Didim şaha yüzündəki dürrdür midür nədür,
Dir dürrdür vurər durər dərdə-dərdə dər dəva (3, 137b).

Başqa bir misalda isə fars dilində aşağıdakı bir beyt verilmişdir:

دراندرکه که که که و که که که آمد که مشوایمن اکر هستی زلطف و قهر او اکر

Süruri yazır ki, bu beyti asan şəkildə oxumaq üçün onu nəsr formasında yazmaq lazımdır:

در ان درکاه که کاه کاه کاه کوه و کاه کاه کوه امد کاه مشوایمن اکر هستی زلطف و قهر او اک

"Dər an dərgah ke gah, gah, gah kuh və gah gah gah kuh aməd gah, məşvayimən əgər həsti ze lütf və qəhri-u agah" (3, 137b)

Digər bir üsul isə əsasən oxşar, zahirən eyni sözlərin, sinonimlərin oxunuşundan, asılı olaraq dəyişən mənalarından istifadə etməklə nəzm nümunəsi, müəmma yratmaq bacarığıdır:

چراغم تو بو دی مراغم نبود چراغم توباشی چراغم بود

Çerağəm to budi mə ra ğəm nəbud,
Çerağəm to başi çe ra ğəm bud (3, 137b).

Bu beytdə üç dəfə işlədilmiş "çerağəm" sözünün ilk ikisi eynidir və "çerağəm" yəni mənim çırağım mənasındadır, amma üçüncü "çerağəm" kəlməsi oxunuşca eyni olsa da fərqli məna daşıyır və bir sadə söz olmayıb "nə üçün qəm" mürəkkəb söz birləşməsini ifadə edir. Beytin tərcüməsi isə belədir ki, əgər mənim çırağımsansa mənə qəm yoxdur, çırağım sən olacaqsansa nə üçün mənə qəm olsun.

Bu fəsldə Sürurinin qeyd etdiyi başqa bir müəmma yaratmaq sənəti isə şeir yazarkən əsasən tərkibində ərəb əlifbasının "əlif" hərfi mövcud olmayan sözlərdən istifadə edərək nəzm nümunəsi yaratmaq bacarığıdır. Müəllif bu sənəti "məhzufil-əlif" yəni əlifi silinmiş, atılmış adlandırır və özünün yazmış olduğu aşağıdakı qəzəli nümunə göstərir (3, 138a):

زلفك دشوردی حیرته مشکیله عنبری قدك برقدی خجلته سروو صنوبری ،
غنچهدرر لبك و یوزك کلشن بهشت خطك بنفشه در و کوزك نرکس طری...

Fəsldə verilmiş başqa bir müəmma forması isə yazılışında ərəb əlifbasının yalnız nöqtəsiz hərflərindən istifadə edilmiş sözlərdən istifadə etməklə poetik nemunə yaratmaq bacarığıdır. Buna misal verilmiş bir rübai:

اول مالک ملک ماه عالم اول سالک سلک رآه آرم ،
عادل دل و کامل و مکمّل آدم دم واکرم مکرّم. (3, 138a)

Şeirin ərəb əlifbası ilə yazılmış variantından göründüyü kimi rübainin yazılışı zamanı istifadə olunmuş sözlərin hamısı ərəb əlifbasının nöqtəsiz hərflərindən ibarətdirr. Mövzu ilə bağlı Süruri özünə aid türkcə daha bir qəzəli də misal olaraq qeyd etmişdir (3, 138b).

Əsərin bu hissəsində haqqında danışılan başqa müəmma yaratmaq sənəti isə tələffüzündə dilin istifadəsinə ehtiyac olmayan hərflərdən ibarət sözlərin yardımı ilə şeir yaza bilmək, müəmma yaratmaq bacarığıdır:

اِمام اَمام و همام هما محبّ محابیب و حبّ وفا (3, 138b).

Əsərdə haqqında söz açılan buna bənzər bir sənət isə dodaqlanmayan hərflərdən ibarət sözlərdn istifadə etməklə nəzn nüminəsi yaratmaq bacarığıdır. Qeyd etmək yerinə düşər ki, bu cür nəzm nümunəsi yartmaq metodu Azərbaycan aşıq poeziyasında da vardır və "dodaqdəyməz" adlanır (43, 284):

عن عساکر ده شهیر دیار تیغ کش عسکر شکر شکار (3, 138b).

Müəllifin qeyd etdiyi başqa bir müəmma yaratmaq bacarığı isə sözlərin təkrar tələffüzü ilə şeir yazmaq formasıdır (3, 138b).

Süruri qeyd edir ki, "**cəvab** və **itab**" adlı bir şeir yazma qaydası da vardır ki, burada nəzm sual cavab üzərində qurulur:

Dün bana bir yar süxuni dedi kim; ey hatifi!,
Gəl məna dəftərimi hərf it bəyani-müstəqim,
Ləfzullah didi kim; məful olurmi sözdə hiç,
Bən didim kim; bu nədür əstəğfürullah əl-əzim (3, 139a).

Bu fəsldə yer alan maraqlı müəmma növlərindən biri də əvvəli ərəb əlifbasının "mim" hərfləri ilə başlayan sözlərdən istifadə etməklə müəyyən fiqurlar şəklində şeir yazmaqdır, bu cür yazılan şeirlərdə beytlər başladığı hərflərin mərkəzdə bir nöqtədə birləşməsi etibarilə dairəvi şəkildə olur:

Yuxarıda verilmiş misalda sözləri "1" rəqəmi ilə işarələnmiş kəlmədən başlayaraq saat əqrəbinin əksi istiqamətində oxusaq bu müəmmada aşağıdakı farsca beytin yazıldığını görə bilərik:

Mən məsti-müdami-meyi-məhbubi-muğanəm,
Məhbubi-məra muğbəççeyi, meyxanə məkanəm (3, 139a).

Buna bənzər başqa bir forma isə əvvəli eyni hərflərlə başlayan sözlərin ilk hərflərini bir nöqtədə birləşdirməklə plyus formasında nəzm nümunəsi yratmaqdır:



Bu formada yazılmış şeiri oxumaq üçün eynilə yuxarıdakı üsuldan istifadə etmək lazımdır:

Məgər etdi gözün məkr bu canə,
Məkri kərəm it, mükərrər etmə (3, 139b).

Fəsldə verilmiş maraqlı müəmma yaratmaq bacarığından biri də xüsusi şifrələrdən, şəkillərdən istifadə etməklə şeir yazmaqdır:



Bu müəmmanın kəşfi isə belədir:

Çar mim və çar əlif həm çar məd,
İki lamın ortasında üç nüqət.

Kim oqursa iş bu xətti afərin,
Bir avuc taru yeyirlər iki bət (3, 140a).

Birinci beytin ilk misrasını bu cür oxumaq da mümkündür; "mim, mim, mim, mim və əlif, əlif, əlif, əlif, məd, məd, məd, məd". Beytlərin açıqlaması isə belədir; dörd "mim", dörd "əlif" və dörd "mədd", iki "lam"ın ortasında üç nöqtə, kim bu yazını oxusa ona afərin, bir ovuc darı yeyir iki ördək. Rəqəmlərdən istifadə olunmaqla yazılmış başqa bir misala diqqət yetirək:

۱سن۲ بن۳می۴ پخته کوکرجین ۵ ۶ تاوق ۷ ۸ قاز کهرچین
۹طبقه قصرک ایچنده سنوکله ۱۰کونه دکن ایلیلم صحبت مه چین

Müəmmanı kəşf etmək üçün rübaidə verilmiş rəqəmləri türkcə adları ilə əvəzləmək və aşağıdakı kimi oxumaq lazımdır:

Bir sən, iki bən, üç mey, dörd püxtə gögərçin,
Beş-altı tavuq, yeddi-səkkiz qaz, kəhəri-çin,
Doqquz təbəqə qəsrin içində sənünlə,
On günə dəgin eyləyəlüm söhbəti-məhçin (3, 140a).

Oxunması xüsusi bacarıq tələb edən və dördguşə formasında yazılmış başqa bir beytə diqqət yetirək:



Şəb-şəb əl-qəm be taşəb şəb şəb danəm,
Şəb şəb ze qəmət və kərim naləm (3, 140b).

Mürəkkəb həndəsi fiqur formasında yazılmış başqa bir rübaiyi formasında olan müəmma da çox diqqətçəkicidir:



Bu şeir formasını da yuxarı sağ tərəfdən başlayaraq saat əqrəbinin əksi istiqamətində oxumaq lazımdır. İlk misra dördguşə formasında yazılmış hissədir və misranın son beyti də fiqurun ortasında olan "idər" kəlməsidir. İkinci misra isə yenə də yuxarı sağ tərəfdən başlayaraq saat əqrəbinin əksi istiqamətində yazılmışdır və kvadratşəkilli ilk beytin ortasında romb şəklində yazılmışdır və bu misranın da son sözü mərkəzdə olan "idər" kəlməsidir. Üçüncü misra kvadratla romb arasında, dördüncü misra isə rombun ortasında yazılmışdır :

Gönlümü cana saçın heyran idər,
Bağrımı məstanə çeşmin qan idər,
Uralı al rəxin canıma od,
Şövqi-lələin bu dəli şükran idər (3, 141a).

Növbədə gələn başqa bir fiqurda isə gizlin şəkildə verilmiş misranı oxumaq üçün hərfləri müxtəlif kombinasiyalarla birləşdirmək lazımdır:



Bu müəmma bir mürəbbe formasındadır, bildiyimiz kimi klassik ədəbiyyatda dörd misralı şeir növünün adı olan mürəbbe sözünün mənası dördguşəli deməkdir. Bu misalda da mürəbbenin dörd misrası dördbucaq şəklində kənarlarda yazılmışdır ortada isə plyus şəklində yazılmış "Məhəmməd" və "şəms" sözləri verilmişdir. Kənarda yazılmış misarlar tam deyildir və misraların ilk kəlmələri müəyyən hərflər çatışmır, bunun üçün ortada verilmiş "Məhəmməd" və "Şəms" sözlərinin hərflərini müxtəlif variantlarda birləşdirərək misraların əvvəlindəki yarımçıq sözlərin önünə artırmaq lazımdır. Belə ki, "Məhəmməd" sözündən "mim" və "şəms" sözündən "şin" hərflərini götürərək birləşdirib birinci misranın yarımçıq qalmış "rəbi" sözünün əvvəlinə əlavə etdikdə "məşrəbi", "Məhəmməd" sözündən "ha" və "şəms" sözündən "mim" götürüb birləşdirərək ikinci misranın yarımçıq qalmış ilk sözü olan "ritə"yə əlavə etib "hümrəti", "Məhəmməd" sözündən "mim" və "şəms" sözündən

"sin" hərflərini götürərək üçüncü misranın birinci kəlməsinin əvvəlinə əlavə edib "məst" və nəhayət "Məhəmməd" sözünün sonuncu hərfi "dal" hərfini götürüb dördüncü misranın ilk sözünün əvvəlinə əlavə edərək "di" oxumaq lazımdır. Bundan sonra bütün parçaları birləşdirərk rübaini tam şəkildə oxumağa çalışaq:

Müşrəbi-candır tudağın ey pəsər,
Humrəti-güldür yanağın sərtəsər,
Məst olubdur gözlərin qanım içər,
Di kim, ana eyləməsin şurü-şər (3, 141a).

Sürurnin bu bölümdə haqqında söz açdığı sonuncu müəmma forması da çox maraqlıdır. Belə ki, bu formada yazılmış şeiri oxumaq qaydası bu cürdür ki, şeir oxunarkən ilk misranın son sözünü tərs oxuyaraq özündən sonra gələn misranın əvvəlinə əlavə etmək lazımdır. Sürurinin buna misal olaraq verdiyi nümunəyə diqqət yetirək:

Ta tələtini görəlidən ey yüzü qəmra**,**
Gibi çeşmimdən aqar şamü-səhər ma (3, 142b).

Diqqət yetirsək görərik ki, birinci misranın son sözü "qumra"dır və bu söz ərəb əlifbası ilə "قمرا" formasında yazılır. Əgər bu sözü biz yuxarıda qeyd olunmuş qayda ilə yəni əksinə oxusaq onda bu söz "ارمق" irmaq kimi oxunar və bu da bildiyimiz kimi axar çay mənasındadır. Qaydaya əsəsən də "irmaq" sözünü ikinci misranın əvvəlinə əlavə etməliyik:

Ta tələtini görəldən ey yüzü qəmra,
İrmaq gibi çeşmimdən aqar şamü-səhər ma (3, 142a-143a).

Ümumiyyətlə dini, təsəvvüfi ədəbiyyatda hərflərlə bağlı xüsusiyyət və vasitələrlə az-çox qarşılaşmaqdayıq. Dolayısıyla bu cür əsərlərə daha dərindən nüfuz etmək, bu əsərləri daha dərindən öyrənmək üçün hərf və simvollarla əlaqəli çeşidli xüsusiyyətlərin bilinməsi, bu əsərlərə xüsusi bir diqqətlə yanaşma tələb edir. Müəmma və simvollarla dolu olan əsərlərə uğurlu bir şəkildə yazılmış şərhləri Sürurinin çağdaşları arasında elmi cəhətdən çox güclü bir şəxs olmasına böyük bir sübutdur. Tanınmış Azərbaycan alimi Məmmədağa Sultanov müəmma yratmaq, müəmma çözmək sənəti ilə bağlı fikirlərinə diqqət etdikdə bizim bu qənaətimizin doğru olması bir daha təstiqlənir: "Müəmma yaratmaq və ya müəmma kəşf etmək yüksək sənətkarlıq qüdrəti və dərin elmi bilik tələb etdiyindən bu məsələyə ədəbiyyat aləmində məhz böyük istedada malik olan şairlər girişmişlər" (5, 3).

Ədəbiyyat

1. Araslı Həmid, "Füzulinin müəmmaları haqqında", Nizami adına Ədəbiyyat İnst.nun əsərləri, Ədəbiyyat Məcm., I cild. Bakı, 1946, s. 27
2. Gövşa Alaeddin. Türk Meşhurları Ansiklopedisi. İst., 1948
3. Müslihəddin Mustafa Süruri."Bəhrül-Maarif", AMEA Əlyazmalar İnstitutu arxivi, şifrə M-20-3329 (Ərəb əlifbası ilə)

1. Musayeva Azadə. "Əlyazma Kitabı və XV-XVI Əsrlər Azər. Ədəbiyyatı". Bakı, 2002, 340 s.
2. Mirəhmədov Əziz. Ədəbiyyatşünaslıq Terminləri Lüğəti. Bakı, 1998, 240 s.
3. İpekten Haluk, İsen Mustafa. XVI. Yüzyıl Divan Edebiyatı, Türk Dünyası El Kitabı. Ankara, 1992 s. 169-201
4. Sultanov Məmmədağa. Azərbaycan Əlyazmaşünaslıq Məsələləri. Bakı, 2000, 95 s.
5. Sultanov Məmmədağa. Yazılı abidələrin tədqiqi. Bakı, 2010, 170 s.

K.Mammadzade

Muamma poetik literary art in Gelibolulu Musilihaddin Mustafa's "Bahrul-maarif"

Summary

Musliheddin Mustafa Sururi (1491-1562) was one of the talanted scientist in Ottomon's turkey literature of XVI century. His "Bahrul-Maarif"s manuscript is kept at the different treasur-house of art and literature of world and İnstitute of Manuscripty named after M. Fuzuli of National Academy of Sciences. Sururi's "Bahrul-Maarif" is to be researched for its literary and paleographical peculiarities.

К.Мамедзаде

Муамма в творчество Муслихиддин Мустафа Сюрури и его произведения «Бахрул-маариф»

Резюме

Муслихеддин Мустафа Сурури (1491-1562) был одним из талантливых ученый Турецкой литературы XVI в. До нас дашли несколко экземпляров из его произведениех. Списки вышеуказанных произведениех ученый сохраняются в фонде Института Рукописей имени М. Физули НАНА Азербайджана и различных библиотеках мира. Судя по литуратурным, философским и полеографическим особенностям произведение, было бы целосообразно его далнейщее изучение.

Rəyçi: Aybəniz Rəhimova
filologiya üzrə fəlsəfə doktoru

GÜLŞƏN İMANOVA
Azərbaycan Texniki Universiteti
filologiya üzrə fəlsəfə doktoru
gulshen@mail.ru

ŞEİR DİLİNİN ÖZƏLLİKLƏRİ

(B. Vahabzadə poeziyasının materialları əsasında)

Açar sözlər: şair, dil, poeziya, sənətkar, forma, üslub.
Ключевые слова: поэт, язык, поэзия, мастер, форма, стиль.
Key words: poet, language, poetry, craftsman, shape, styles.

Sözün, hər hansı bir ifadənin poetik deyim tərzi, onun obrazlı mahiyyət kəsb etməsi şeir dilində daha rəngarəng və intensiv formalarda təzahür edir. Dilin bütün çalarları, onun fonetik sistemi, ritm-intonasiya vasitələri, leksik-frazeoloji dil materialları, məcazlar sistemi, bütün qrammatik kateqoriyalar, dilin sintaktik quruluşu və s. obrazlılığın yaranması üçün üslubi vasitələrdir. Onların obrazlılıq yaratma imkanları müəyyən üslubi situasiyalarda reallaşır. Ona görə də obrazlı anlayışlar şeir dili ilə birbaşa bağlıdır.

"Sənət növləri sırasında bədii ədəbiyyat, xüsusən poeziya həm ilkinliyinə, həm də obrazlılıq və poetiklik imkanlarının genişliyinə görə birinci yerdə durur" (2,7). Sözləri bir-birinin ardınca düzmək, misralarda qafiyələr yaratmaq hələ şairlik demək deyil. Əsl söz sənətkarı "dilimizin gülzarından elə güllər, çiçəklər dərib üzə çıxarmalıdır ki, onların rəngi də ətri də gərək təzə olsun..." (6, 143-145). Şair hər sözü zərgər kimi cilalamalı, onlardan zərgər dəqiqliyi ilə davranmalı, sözlərdən söz çələngi yaratmalıdır. Hər misrada fikir bitkinliyi, məzmun dolğunluğu olmalıdır, hər bir hadisəyə baba müdrikliyi ilə yanaşmalıdır. Bu cür xüsusiyyətlər nəzərə alınmaqla yaranan şeir insanı riqqətə gətirir, onun qəlbini titrədir, damarlarından qanı hərəkətə gətirir. Bu qayda ilə yaradılan əsərlər insanı rahatlandırır, onun duyğularına sərinlik gətirir, hisslərini tumarlayır. Bu cür əsərlər ecazkar dilin qüdrətindən, şöhrətindən yaranır, dilin zənginliklərindən bəhrələnir. Dilin qüdrəti ilə zirvələr fəth edən bu əsərlər, eyni zamanda dili şöhrətləndirir, dilin gücünün əzəmətinin təcəssümçüsünə çevrilir. Məhəmməd Peyğəmbərin kəlamlarından birində deyilir: "Dünyanın gözəlliyi dildədir". Dildə bu gözəlliyi, bu füsunkarlığı, ecazkarlığı yaradan şair sözünün şöhrəti, şair sözünün qüdrətidir. Ulu Füzulinin təbirincə desək: "*Artıran söz qədrini sidq ilə qədrin artırar.*"

Bəli, sözdən layiqincə yararlanan, onun dərinliklərinə baş vuraraq, daha tutarlı, daha siqlətli ifadələri tapıb üzə çıxaran, hər bir sözü yerli-yerində, məqamında işlədən hər bir sənətkar sözün şöhrətini, qüdrətini artırmaqla yanaşı, özünü də şöhrətləndirir.

Şeir sənətinin gözəlliyi, ondakı forma və məzmun rəngarəngliyi, hikmətli fikirlərin təcəssümü onun poetik obrazlılığındadır. Şeirdə poetik obrazlılıq da dil vasitəsilə yaranır. Dildən məharətlə yararlanan, onun zəngin boxçasından sənətkarlıqla bəhrələnən, dilin əzəməti hesabına dərin hikmətlər, ifadələr, aforizmlər yaradaraq xalqın milli dəyərlərini, mənəviyyatını daha da zənginləşdirən söz sənətkarlarından biri də Bəxtiyar Vahabzadədir. Dil və üslub etibarilə müasir

ədəbi dilimizdə xüsusi mövqeyi olan B.Vahabzadənin əsərləri böyük mədəni sərvət təşkil edir. B.Vahabzadənin şeir mətninə daxil olan hər bir sözün dərin mənalandırma qüdrəti vardır. Onun şeir dili üçün ümumilləşdirmə vüsəti çox geniş və tutumludur. Poetik duyumda düşüncə zənginliyi yaradıcılıq məziyyəti kimi özünü bütün dolğunluğu ilə büruzə verir. Ədəbiyyatşünas alim R.Xəlilovun sözləri ilə desək: "O, Azərbaycan dilinə məhəbbətlə yanaşmağa öyrədən, Füzulinin, Xətainin, Cəlil Məmmədquluzadənin, Sabirin, Səməd Vurğunun dil mədəniyyətinə varis çıxan, sadiq qalan şairlərimizdən biridir" (4,188). "Şair xalqı öz dili ilə dindirməyi, danışdırmağı ən doğru yol hesab edir" (1,16).

B.Vahabzadənin yaradıcılığında gözəllik yaradan, estetik meyarlara istiqamətlənən hər bir amillər (ahəng qanunu, alliterasiya, vurğu, sinonimlik, omonimlik, antonimlik, arxaizm və dialektizm, evfemizm və poetik sözlər, vulqarizm və tabular, idiom, ibarə və aforizmlər, çoxmənalılıq və məcazi mənalılıq, bənzətmə qoşmaları, ədat və nidalar, model və təqlidi sözlər, ritorik sual, həmcins üzv və əlavələr, sifət və təyinlər, sintaktik təkrarlar və s.) ayrı-ayrılıqda poetiklik, obrazlılıq yaradır, ifadə gözəlliyi formalaşdırır, şeirin bədiilik məziyyətlərini daha da yüksəldir. Şeirin dilini xəlqi ruhun dilinə çevirir. Şeirin dili emosional-ekspressiv xarakterə malik olmalıdır. Emosionallıqda yalnız bədiilik məziyyətləri özünü büruzə verirsə, ekspressivlikdə isə həm bədiilik, həm də obrazlılıq xüsusiyyətləri olmalıdır. Bu səbəbdən də obrazlılığın formalaşmasında sözlərin leksik-semantik mənasından əlavə olaraq söz, ifadə və cümlələrdə məcazi mənalıqdan yaranan ekspressivlik əsas faktora çevrilir. Məcazlıq da müvafiq olaraq metaforikləşməyə, söz və ifadələrin yeni məna qazanmasına imkan verir.

Qaloşlu adamlar, Şərbətalılar
Əyilib önündə yumağa döndü.

İş, hal, hərəkət bildirən söz və ifadələr sırasına aid olan *"əyilib önündə yumağa döndü"* şeir nümunəsində metaforikləşmiş və məcazi məna ifadə etmək bacarığı qaranlıqdır.

Metaforikləşmənin bitkin formalarından biri *"kimi, tək, qədər"* qoşmaları əsasında yaranan təşbehlərdir. Bu qoşmalar və onlara sinonim kimi işlənən *bənzər, oxşayan* sözlərinin idarəsi ilə yaranan birləşmələr nitqdə obrazlılıq yaradır:

Od kimi istiqanlı, dəliqanlıyam,
Həyat qədər qədiməm, torpaq qədər şanlıyam.

Sintaktik təkrarlar da çox zaman dildə geniş üslubi imkanlara malik olur. Lirik intonasiyanın coşqunluğu da söz təkrarlarının intensivliyini tələb edir, bədii mətləbi mətnin maksimum üslubi-semantik tutumu səviyyəsində qavramaq vərdişi hazırlayır. Eyni sözün, yaxud da eyni köklü sözlərin təkrarı tezləşdikcə təkrar olunan həyat faktlarının gözəl estetik ifadə formaları, lirik predmet əhatəli poetik təhlilə cəlb olunur. Nəzərdən qaçırmaq olmaz ki, söz təkrarları şeir dilində həm də danışıq dilinin, ümumiyyətlə, milli ədəbi dilin mühüm əlamətləri, estetik çalarlarının üslubi istiqamətləri aşkarlanır. "Şeir dili strukturunun əsası təkrarlardır"

(5, 169). Təkrarlarla obrazlılıq, poetik gözəllik yaratma məziyyəti dilin bütün laylarında mövcuddur:

Bu dil *bizim ruhumuz, eşqimiz, canımızdır,*
Bu dil *bir-birimizlə əhdi- peymanımızdır.*
Bu dil *tanıtmış bizə bu dünyada hər şeyi,*
Bu dil *əcdadımızın bizə miras verdiyi*
Qiymətli xəzinədir... Onu gözlərimiztək
Qoruyub, nəsillərə biz də hədiyyə verək.

B.Vahabzadənin yaradıcılığında məsləklilik, əqidəlilik çox mühüm şərtdir, ümumbəşəri keyfiyyətdir, yaxşını yamandan fərqləndirməkdə ən düzgün məhək daşıdır. O, sənət əsərinin böyük amallar, ümumbəşəri ideyalarla zənginliyi ilə vəhdətdədir. Yaradıcılıq hər bir sənətkarın duyğu və düşüncələrinin poetik göstəricisidir. Elə buna görə də B.Vahabzadə deyir:

Ömür üzük, məslək isə üzük qaşı,
Hər üzüyün qaşındadır öz dəyəri,
İnsanın da məsləkidir düz dəyəri
Əqidəsi, cövhəridir hər insanın.
Cövhəri də dəyərlidir hər insanın,
Məslək varsa, mərddir demək,
Öz yerindən dönməyəcək.

Bu bədii parçada ilk üç misra şairin xalis poetik kəşfidir, lirik obrazlılığın ən tutumlu nümunələrindəndir. Üçüncü və dördüncü misralarda çox yatımlı, həmahəng və məntiqli söz oyunu vardır. Sonuncu misralarda isə nəticə məzmunludur.

B.Vahabzadənin şeir dilində məcazın bir növü kimi müqayisə əhəmiyyətli istiarələr də obrazlılıq yaradır. İstiarə metaforanın bir formasıdır. İbarə şəkilli birləşmələrdə ifadə olunan, təbii əşyaların müqayisəli təsvirindən gözəl lövhələr yaradır.

Yıxıb tapdadılar, haqq əzilmədi

B.Vahabzadənin dilində əlavə şəkilli metonimiyaların da qüvvətli obrazlılıq yarada bilməsi faktora da rast gəlinir.

Səngərlər – ən böyük imtahan yeri,
Səngərlər – torpağın minsirə dağı,
Səngərlər – zamanın tələtümləri,
Səngərlər – nifrətin açıq dodağı
Səngərlər – torpağın dərdi, səridir,
Döyüş kitabının həriflərıdir.

Sinonimlər dilimizin əsas semantik kateqoriyalarından biridir. “Sinonimlər ümumxalq dilinin ifadə imkanlarını əks etdirən əsas milli vasitələrdəndir. Sinonimlərin zənginliyi dilin zənginliyinin əsas şərtlərindən biridir.”(3,5) Sinonim- lər

B.Vahabzadənin əsərlərində üslubi məqamlarla əlaqədar rəngarəng xüsusiy- yətlərə malikdir. Şairin əsərlərində fikrin dəqiq və obrazlı ifadəsi üçün sinonim sözlər elə ustalıqla seçilib işlədilmişdir ki, onlar əsərin qayəsinin açılmasına yönəldilir, bədii dilin poetikləşdirmə imkanlarını nümayiş etdirir.

Baxışın qəlbimə od saldı, yandım,
*Mən də öz **dərdimi, qüssəmi** andım*

* * *

Anlaya bilmir ki, şərəf bildiyi
*Ordenə satılıb **şərəf, namus, ar.***

* * *

*Ax **rəngli** cümlələr, **boyalı** sözlər,*
***Abırlı, ismətli, həyalı** sözlər.*

Obrazlılığın mükəmməl formalarından biri də antitezalı portretlilikdir.

Ağlasan, hönkür ağla,
Gülsən, qəhqəhə çək gül,
*Elə **gül**, elə **ağla** –*
Qoy doysun tamam könül.

Sadalanma nə qədər çox olarsa, antiteza əsasında yaranan lirik və ya portretli obrazlılıq da o qədər güclü olur. Antitezalarda həyatilik əzəmətli dərəcədə qüvvətlidir, çünki bu növ bədii ifadə vasitələrində dialektikanın "əksliklərin vəhdəti və mübarizəsi" qanunauyğunluğu vardır.

*Gəl **qışa "zəhrimar", yaza "can"** demə,*
***Qışın** dəhşətləri, **yaz** içindədir.*
Enişdə yoxuş** var, **yoxuşda eniş
Ən böyük atəş də buz içindədir.
Yüz təpə boyu var bir uca dağda,
***Yaxından** yaxındır bəzən **uzaq** da,*
***Nifrət** də, **sevgi** də, **qara** da, **ağ** da,*
***İşıq** da, **zülmət** də göz içindədir.*

Antitezalar sadəcə söz və ya ifadə antonimliyi deyil, xalis fikir təzadıdır. Hər növ antonimlər təzad yarada bildiyi halda, hər növ təzadlar antiteza yarada bilmir.

Dilimizdəki frazeoloji birləşmələr dilin milli ruhunu, gözəlliyini, rəngarəngliyini əks etdirən vahidlərdəndir. Xalqın yaratdığı obrazlı ifadələr, hikmətli deyimlər, aforizmlər frazeologiyanın əsasını təşkil edir. B.Vahabzadənin əsərlərinin dil materialları içərisində frazeoloji birləşmələr şəkil və məzmunca, habelə üslubi funksiya cəhətdən nəzəri cəlb edir:

Qızım, təpik atma, gəl, öz baxtına.

***

Ətəyindən tutmuşam,
Qadan alım, tək sənin,
Əl mənim, ətək sənin

***

Sərçə uçdu budağından
Budağını bəyənmədi.
Bağa çıxdı çanağından
Çanağını bəyənmədi.

Göründüyü kimi, frazeologiya B.Vahabzadənin bədii dilində obrazlılıq və ifadəliliyin əsas üsullarından biridir.

B.Vahabzadənin şeirlərində xitablardan da geniş şəkildə istfadə olunur. Bunlar bədii-funksional səciyyə daşıyır və şairin şeirində tez-tez rast gəlinir:

Ey bahar! *Mizrab al çal ürəyimi,*
Kaş, o da sənin tək aşıb-daşaydı!

* * *

Ey Bəxtiyar! *Olma bu qədər heyran o mahə,*
Sən heyran olan tək, qoy, o da heyranın olsun!

* * *

Ey könül!...
Elə bil ki, sən dağların başında
Ucalan bir qayasan.

Beləliklə, məlum olur ki, bədii xitablar B.Vahabzadə poeziyasının dil xüsusiyyətlərinin mühüm bir qismini təşkil edir.

Fonoqrafik yazı meydana gəldikdən sonra səslərin yazıdakı işarəsi olan hərflərdən-qrafik vasitələrdən də poeziyada müqayisə yaratmaq imkanı kimi istifadə edilmişdir. O da aydın məsələdir ki, tək-tək səslər nitqdə işlədildikcə, yazıda onu əks etdirən hərf şəkli göz önündə canlanır. Poeziyada bu imkandan da portretli obrazlılıq yaratmaq üçün istifadə olunur.

"A"*-dan ana yazdıq,* ***"b"****-dənsə baba,*
"V"*-dən vətən yazdıq,* ***"e"****-dən el, oba.*
Ana dilimizi bu səslərlə sən,
Ruhuna, qəlbinə həkk edəcəksən.

Bu nümunədə səslərin adı çəkildikcə hərf forması gözümüzün önündə canlanır.

B.Vahabzadənin şeir dilində canlı danışıq sözlərinin yaratdığı ekspressivlik, onun verdiyi poetik özəllik təbilik çərçivəsində öz gözəlliyini daha da artırır.

Ədəbiyyat

1. Alməmmədova S. Bəxtiyar Vahabzadənin poeziya dili. Bakı, Elm, 2010.
2. Cabbarov X. Bədii ədəbiyyatda obrazlılıq.
3. Cəfərov S. Azərbaycan dilində söz yaradıcılığı. Bakı, BDU,1960.
4. Xəlilov R. Azərbaycan sovet ədəbiyyatı. Bakı, Yazıçı, 1966.
5. Лотман Ю.М. Анализ поэтического текста. Структура стиха. Ленинград, 1972.
6. Vahabzadə B. Sadəlikdə böyüklük. Bakı, 1978.

Gulshen Imanova

The particulars of poetic language

Summary

The article dedicated to the improvement literary language of Baxtiyar Vahabzadeh, to enrich the vocabulary of a language dedicated to the role of norms. The data in this area, poetic style samples are proof above above mentioned.Poetic words values in the figurative language of poetry are more colorful and in intense form. As a literary language and style, the works of artists of great cultural wealth of our language is in a special position. Expressive form was created in poetry of B.Vagabzade.These ideas have been clarified on the basis of the article, examples of the poetry.

Гюльшен Иманова

Особенности языка поэзии

Резюме

Статья посвящена совершенствованию литературного языка в творчестве выдающегося азербайджанского поэта Бахтияра Вагабзаде, обогащению словарного запаса, внедрению языковых норм и вырази- тельности. Поэтические слова, этих значения образного языка в поэзии. Данны в более красочной и интенсивной форме.В области стиля и литературного языка особое значение занимает произведения выдающихся мастеров слова, которое является достоянием нашей культуры. Експрессивная форме которую создал Б.Вагабзаде в своей поэзии возвышел красоту. Данные в этом направлении образцы поэтического стиля являются доказательством выше сказанного.

Rəyçi: Şövkət Kərimov
filologiya üzrə fəlsəfə doktoru, dosent

AYNUR FƏRƏCOVA
Azərbaycan Texniki Universiteti
karimovaaynur@gmail.com

AZƏRBAYCAN ƏDƏBİYYATINDA ETİK FİKİR NÜMUNƏLƏRİ

Açar sözlər: etika, fikir, Azərbaycan, ədəbiyyat, zəhmətkeş insan, hörmət, insanpərvərlik.
Ключевые слова: этика, идеи, Азербайджан, литература, трудолюбивый человек, уважение, патриотизм.
Keywords: ethics, ideas, Azerbaijan, literature, hardworking person, respect, patriotism.

Uzun əsrlik tarixə və zəngin ənənələrə malik olan Azərbaycan xalqının etik mədəniyyəti və onun ayrı-ayrı problemləri xüsusi tədqiqat obyekti olmuşdur. Ərazisində ibtidai insan məskənləri, mağaralar, şəhər xarabalıqları, qaya təsvirləri, istehkamlar, silahlar, əmək alətləri, gil qablar, bəzək əşyaları və s. tapılan Azərbaycan çoxəsrlik tarixə malik qədim mədəniyyət ölkəsidir.

Arxeoloji tədqiqatlar nəticəsində əldə edilmiş müxtəlif materiallardan məlum olur ki, hətta qədimlərdə Azərbaycanda zəhmətkeş insana, şəxsiyyətə hörmət, insanpərvərlik, kollektivçilik hissi geniş təbliğ edilmişdir. Müəyyən mədəni abidələrimizdə, mədəniyyət nümunələrində insanlar əməksevərliklərinə görə tərifl ənir, onların öz peşəsi sahəsindəki məharəti, mənəvi qüdrəti təsvir edilir.

Azərbaycan maddi mədəniyyət nümunələri ilə yanaşı, mənəvi mədəniyyət abidələri ilə də zəngindir. Bu baxımdan, şifahi xalq ədəbiyyatımızda insanların humanist arzularını, istəklərini əks etdirən çoxlu nağıllar, dastanlar və mahnılar mövcuddur. Burada zülmə, haqsızlığa qarşı nifrət, xoşbəxt gələcəyə çağırış sədaları nəzərə çarpır. Humanist ideyaların əsasında isə insanların dinc həyatını, əməyini qoruyan sədaqətə və dostluğa çağırışlar durur. Belə humanist fikirlərə əmək nəğmələrində də rast gəlirik. Əmək nəğmələri xalq yaradıcılığının ən qədim janrlarından olub əmək prosesində insanların zəhmətini yüngülləşdirmək məqsədilə ifa edilirdi. Bu həvəsə gətirir, işə səfərbər edir, əməyin çətinliyini, ağırlığını aradan qaldırır, insanlarda xoş əhval-ruhiyyə yaradırdı. Burada həmçinin yoldaşlıq, qayğıkeşlik, dostluq tərənnüm edilirdi.

Şifahi xalq ədəbiyyatımızın ən maraqlı janrlarından olan Azərbaycan xalq nağılları etik fikir baxımından daha çox diqqəti cəlb edir. Nəinki realist səpkili məişət nağıllarında, hətta romantik səpkili sehrli nağıllarda, həmçinin heyvanlar haqqında olan nağıllarda da xeyir və şər, ədalət və haqsızlıq, dostluq, əməksevərlik, sədaqət, xəyanət, məhəbbət və s. kimi problemlərdən bəhs edilir.

Dünya mifoloji və fəlsəfi fikir tarixi insanın mənəvi həyatı ilə bağlı nümunələrlə zəngindir. Belə nümunələrdən biri «Avesta»dır. Şərq xalqlarının və ümumiyyətlə Dünya xalqlarının fikir tarixində görkəmli yer tutan Zərdüştilik və onun nəzəri təcəssümü olan «Avesta» dualist zəmində inkişaf tapmışdı. Dini-fəlsəfi doktrina olmaqla yanaşı, Zərdüştilik etik ideyalarla da zəngindir. O, insanların həyat tərzini, davranışını əks etdirərək insanları bir-birinə hörmət etməyə, qardaşlıq münasibətləri bəsləməyə, xeyirxah olmağa, şər qüvvələrə qarşı mübarizə aparmağa

səsləyir. Zərdüşt inamına görə bütün varlıq 2 əks qüvvənin mübarizəsi üzərində qurulub: işıq və zülmət. Bütün şəxsiyyət idealı 3 amilin vəhdətindən yaranıb: xeyirxah niyyət, xeyirxah niyyət, xeyirxah niyyət.

Yazılı ədəbiyyatımız da bu baxımdan az maraq doğurmur. Məsələn, XI əsr Azərbaycan filosofu Bəhmənyar ibn Mərzban müxtəlif əsərlərində – «Məratib əl-mövcudat» («Mövcudatın mərtəbələri»), «Mabəd ət-təbiə» («Metafizika») və məktublarında humanist fikirlər söyləyərək xoşbəxtliyin xeyirxahlıq yolu ilə əldə edilməsini, insanın sədaqətli, əxlaqlı olmasını, insanpərvərliyini və s. problemləri və bunların ağıl və bilik yolu ilə əldə edilə biləcəyini ön plana çəkir.

Nizami Gəncəvinin əsərlərinin ana xəttini məzlum insan üçün səadət və ədalət axtarışları, zülmə, istismara, qeyri-bərabərliyə etiraz və nifrət təşkil edir. İnsan başqasından sədəqə istəməməli, öz ləyaqətini alçaltmamalıdır. İnsanın ağıl və biliyi Nizami əsərlərinin baş qəhrəmanıdır. «Sirlər xəzinəsi», «İskəndərnamə» və digər poemalarda xeyirxahlıq idealı siyasi idealla bağlı nəzərdən keçirilir. Dövlətin idarə edilməsində ədalət prinsipi ön plana çəkilir. «İqbalnamə»də insanın səmimi olmasının vacibliyi vurğulanır, onun təbiətlə ayrılmazlığından danışılır. Nizamiyə görə ideal cəmiyyətdə şəxsi və ictimai mülkiyyəti oğrulardan, çapqınçılardan və qənimətçilərdən qorumağa ehtiyac yoxdur. Cəmiyyət üzvləri iqtisadi cəhətdən təmin olunduqları və eyni zamanda tərbiyəli, əxlaqlı, düşüncəli adamlar olduqları üçün onlar nalayiq hərəkətlərlə məşğul olmurlar. Nizami oğurluğu, hər hansı bir qəbahət və xəyanəti cəmiyyət üçün fəlakət hesab edərək, ayrı-ayrı şəxslərdən tələb edirdi ki, onlar ancaq öz əmlaklarını yox, eyni zamanda başqalarının da əmlakını müdafiə və mühafizə etməlidirlər. Onun fikrincə, birisi başqasının əmlakına tamah məqsədi ilə toxunmadıqda o, özünü müdafiə etmiş olur. Maraqlı burasıdır ki, Nizaminin təsvir etdiyi ideal cəmiyyətdə bütün sürülər çobansız otlamaqla bərabər əkinlərə də ziyan vermirlər. Əkini qorumaq üçün heç bir qoruqçu da yoxdur. İdeal cəmiyyətin ağsaqqalları bu barədəİskəndərə deyir: əkin əkəndən altı ay sonra bir də onu biçmək üçün ora gedirik. Şair göstərir ki, əkin, bağ və bostanın becərilməsi mədəni cəmiyyətin ümumi səviyyəsinə müvafiq olaraq həyata keçirilməlidir. Nizami xəbərçilik və böhtançılığı fitnə və fəsadların səbəbi kimi qeyd etməklə bunları özünə peşə edən düşkün, amalsız adamlara həmişə nifrət etmişdir. Nizaminin fikrincə, alicənab adam heç bir əsas olmadan başqasına eyib tutub onun əsəblərinə toxunmaz, başqasını öz hərəkətləri ilə narahat etməz. Eyni zamanda nəzakətli və nəcib adamlar söz gəzdirməklə məşğul olub, başqasının nüfuzuna toxunmamalıdırlar. Bu barədə ideal cəmiyyət adamlarının adından danışan Nizami «İqbalnamə»də yazır:

Xəbərçilik bilməz bir nəfərimiz,
Özgənin eybinə göz yumarıq biz.

Şair bununla da insanları pis əməllərdən əl çəkib xeyirxah olmağa çağırır. Nizami öyrədir ki, ağıllı və xeyirxah adamlar özlərinin yaxşı əməllərini öz mənfəətlərindən daha çox başqalarının mənfəətinə sərf etməlidirlər. Nizami göstərir ki, birisi hirsli və ya qəzəbli olarsa, xeyirxah adamın borcu özünün mülayim və ağıllı məsləhətləri ilə əsəbiləşmiş adamı sakit edib ona köməklik etməkdir ki, həmin adam pis yola getməsin, fitnə törədib nahaq yerə qan tökülməsinə səbəb olmasın. Digər tərəfdən Nizami göstərir ki, birisinə qarşı bir bədbəxtlik üz verərsə, cəmiyyət üzvləri onun qəminə şərik olmalıdırlar. Şad günlərdə – toyda, bayramda hamı bir

yerdə şadlıq edib şən həyat keçirməlidir. Nizaminin fikrincə, cəmiyyət üzvləri lazımi qaydalara əməl etsələr, orada xəstəliklərin qarşısı alınar və insanlar vaxtsız ölməzlər. Nizami göstərir ki, yüksək tərbiyəli cəmiyyətdə möhkəm əxlaqi qaydalar olmalıdır. Bu cəmiyyətin adamları əxlaqi cəhətcə təmiz və xüsusilə tamahkar olmamalıdırlar. Nizaminin fikrincə, ideal cəmiyyətdə əxlaqi təmizlik, yəni insanların əxlaqlı olması bir adət kimi həyata keçirilməlidir. Hər kim cəmiyyətin bu müqəddəs qaydalarını pozsa, o, həmin cəmiyyətdən qovulmalıdır». Nizami həmçinin göstərir ki, « təlim və tərbiyə cəmiyyətin inkişafında böyük əhəmiyyəti olan vasitələrdən biridir. «Sirlər xəzinəsi»ndə Nizami təlim, tərbiyə və əxlaq qaydalarından bəhs edir. Qitələrin bəzilərində şair yaxşı insanları tərənnüm, pis adamları isə tənqid etməklə, birincilərə hüsn-rəğbət, ikincilərə isə nifrət bəslədiyini bildirir. Nizami vətənpərvər, bacarıqlı və əxlaqlı insan tərbiyə etməyi cəmiyyətin əsas vəzifələrindən biri hesab edirdi. Çünki cəmiyyətin səadəti insanın kamilliyindən, onun xalqa düzgün münasibətindən çox asılıdır. Şair «Leyli və Məcnun» da belə deyir:

Səadət kamalla yetişir başa,
Xalqa hörmət elə, ədəblə yaşa.

Böyük şairin fikrincə, yaxşı təlim-tərbiyə almış adam sağlam və tərəqqipərvər ideyalar irəli sürməklə, yaxud bu ideyalara tərəfdar olmaqla həyatda yaxşı yaşamağa adət edər, qarşıya çıxan bütün çətinliklərin öhdəsindən asanlıqla gələr. Nizami göstərir ki, gözəl bir həyat qurub səadətlə yaşamaq ən böyük xoşbəxtlikdir. Nizami adamların yüksək tərbiyəli, nəcib sifətli, nəzakətli, gözəl, mülayim xasiyyətli və xüsusən elmli olmasını gözəl həyat qurmaq üçün nəcib bir şərt hesab edir. Şair göstərir ki, insan yaxşı tərbiyə alıb kamal sahibi olarsa, həyatda həmişə hörmətlə qarşılanar.. Nizami hiyləgərlik və fitnə ilə məşğul olanlara həmişə nifrət etmişdir. İnsan çalışıb həyatda və məişətdə həmişə təmiz və namuslu olmalıdır. Nizami insanları səmimi yaşamağa çağırır».

Nizami dünyadakı bəlaların «bir səbəbini də cəmiyyətdəki əxlaq pozğunluğunda, xudpəsəndlik, lovğalıq, şöhrətpərəstlik, ikiüzlülük, hiyləgərlik, saxtakarlıq, paxıllıq, kinlilik, xəsislik, tamahkarlıq, tüfeylilik, əməyə, əməkçiyə xor baxmaq, kobudluq, qərəzçilik, eyş-işrət düşkünlüyü, hədsiz varlanmaq hərisliyi, məsləksizlik kimi mənfi əxlaqi keyfiyyətlərdə görürdü. «Xəmsə»də biz bu mənfi əxlaqi keyfiyyətləri zülmkar şahlarda, saray əyanlarında, böyük rütbə və ixtiyar sahiblərində, sələmçi tacirlərdə, yalançı dindarlarda – bir sözlə, başqalarının əməyi ilə yaşayan tüfeylilərdə görürük.

Ədalətli olmaq fikri XIII-XIV əsr Azərbaycan filosofu Şəbüstərinin yaradıcılığında da öndədir. O hamını bir gözdə görmək, insanlara sədaqətlə xidmət göstərmək, dostluq etmək kimi nəcib keyfiyyətləri təbliğ edir. Demək olar ki, bütün əsərlərində gözəl əxlaqa malik olmaqdan bəhs edir. «Ədalətli olmaq gözəl əxlaqın əsas xüsusiyyətlərindən biridir, ona görə ki, ədalətə sahib olan hər kəsin əxlaqı gözəl olur, çünki ondan heç vaxt zülm baş verməz».

Yaxın və Orta Şərq xalqlarının ictimai-fəlsəfi həyatında mühüm yer tutan Nəsirəddin Tusinin «Əxlaqi-Nasiri» (Nasir əxlaqı) əsəri Azərbaycanın etik fikir tarixində mühüm hadisədir. Elmi-ədəbi irsi olduqca rəngarəng olan N. Tusi əhatə etdiyi sahələrin diapazonu ilə də fərqlənir: nücum (astronomiya), riyaziyyat, tibb, məntiq, psixologiya, fəlsəfə, ədəbiyyat, coğrafiya, mədənşünaslıq (kimya), ilahiy-

yat, incəsənət, musiqi, tarix, iqtisadiyyat və s. H. Məmmədbəyli özünün «Marağa rəsədxanasının banisi Nəsirəddin Tusi» adlı əsərində Tusinin 76 əsərinin adını çəkir. Tusiyə dünya şöhrəti qazandıran onun riyaziyyat və nücum elmlərinə aid yazdığı «Zince Elxani» kimi əsəri və Marağa rəsədxanasıdırsa, onu Şərq xalqlarına sevdirən «Əxlaqi-Nasiri» əsəri olmuşdur. Bu əsərin qəribə yazılma tarixi vardır. Əxlaq, fəlsəfə, məntiq məsələləri ilə maraqlanan, bəzən özü də bu məsələlərə aid əsər yazan İsmaili hökmdarı Nasir, Tusini yanına çağıraraq ona Əli Misgəvehin «Ət-təharə» adlı kitabını fars dilinə tərcümə etməyi təklif edir. O zaman İbn Misgəvehin bu kitabı ərəb dilindəəxlaq haqqında yazılmışən gözəl əsər hesab edilirdi. Tusi bu kitabı tərcümə etmək əvəzinə onu çoxdan məşğul edən fəlsəfi-əxlaqi, ictimai-siyasi məsələləri dərindən şərh etmək üçün daha mükəmməl bir kitab yazmaq qərarına gəlir. Tusi özü bu barədə yazır: «Bu kitabın yazılması onun əmri və təşviqi ilə olduğundan adı «Əxlaqi-Nasiri» qoyuldu».

«Əxlaqi-Nasiri» 3 məqalə və 30 fəsildən ibarətdir. Əsərin əvvəlində «Müqəddimə», «Bu kitabın yazılmasının səbəbi haqqında», «Kitabın məqsədi və fəsilləri haqqında başlanğıc» adlanan hissələr yerləşdirilib. «Əxlaqın saflaşdırılması haqqında» adlanan birinci məqalə «Əsaslar (başlanğıclar) haqqında» və «Məqsədlər haqqında» adlanan 2 hissədən ibarətdir. Birinci hissədə 7, ikincidə 10 fəsil mövcuddur. «Evdarlıq elmi haqqında» adlanan ikinci məqalə 5, «Ölkə (şəhərləri) idarəetmə qaydaları» adlanan üçüncü məqalə isə 8 fəsildən ibarətdir. Hələ kitabın əvvəlində əsərin məhz fəlsəfi əsər olduğu bəlli olur: «Bu kitabın məqsədi hikmətə aid məsələlərdən biri olduğundan ilk növbədə hikmətin mənasını şərh etmək, onun təsnifatını vermək lazımdır». Müəllif hikmətə tərif verərək onu 2 yerə bölür: biri – elm, o biri – əməl (iş). Sonra müəllif hikməti nəzəri hikmət və əməli hikmətə bölərək bunların hər birinin bölmələrindən danışır və onların geniş təsnifatını verir ki, bunların da hər biri öz-özlüyündə böyük maraq doğuran problemlərdir. Məsələn, 3 yerə ayrılan nəzəri hikmətin birinci hissəsinə ilahiyyat, fəlsəfə, «Riyaziyyat» adlanan ikinci hissəyə həndəsə, astronomiya, astrologiya, musiqi, «Təbiət elmi» adlanan üçüncü hissəyə kimya, botanika, biologiya, psixologiya, fizika və s. aiddir. Əməli hikmət də üç yerə bölünür: birinci – əxlaqın saflaşdırılması; ikinci – evqurma qaydası; üçüncü – şəhərsalma siyasəti.

Etik görüşləri hələ kifayət qədər tədqiq edilməyən Tusi insan və ona məxsus olan xüsusiyyətləri mərkəzi planda nəzərdən keçirir, yaradıcılığı boyu insanın əxlaqi keyfiyyətlərini tərənnüm edir. Tusi əxlaqi sifətlərin yaranmasını real gerçəklikdə görür: «əxlaqi sifətlər yalnız ictimai həyatda yaranır və heç də anadangəlmə proses deyil», «insanlar öz əxlaqi sifətlərini həyatda tapdıqlarına görə özlərini yaxşı tərbiyə etməyi də bacarmalıdırlar». Tusinin etik sisteminə əsasən, insanlar öz xarakterinə görə dörd qrupa bölünür: birinci, o adam ki, bilir və bildiyini başqalarına öyrədir, o, alimdir, ona ehtiram edin; ikinci, o adam ki, bilir və bildiyinə güvənir, o özündən xəbərsizdir, lovğadır, onu tənqid edin; üçüncü, o adam ki, bilmir və öyrənməyə ciddi cəhd edir, o zəhmətkeşdir, ona kömək edin; dördüncü, o adam ki, bilmir və öyrənmək də istəmir, o adam ağılsızdır, ondan uzaq olun. Tusinin fikrincə, insanlar həyatda əxlaqi sərvətləri, keyfiyyətləri yaxşı mənimsəmək üçün uşaqlıq dövründən düzgün tərbiyə edilməlidir, ata və analar hər şeydən əvvəl övladlarını vicdanlı olmağa öyrətməli və sonra təlim və tərbiyə işlərinə başlamalıdırlar. Tərbiyə lap körpə yaşlarından başlamalıdır, çünki kiçik yaşda

uşaqların mənəviyyatı sadə və təmiz olur. Hər bir valideyn öz övladının idealına çevrilməyə çalışmalıdır. Hər bir valideyn və tərbiyəçi uşaqlara həyatda zəruri tələbatı ödəmək üçün maddi nemətlərə sərf edilən əməyin və zəhmətin rolundan geniş danışmalıdır. Uşaqlar başa düşməlidirlər ki, onların yediyi, içdiyi və geyindiyi maddi nemətlər üçün valideynləri böyük əmək və zəhmət sərf etmişlər. Belə olarsa, uşaqlar körpə yaşlarından əməyin və zəhmətin nəyə qadir olduğunu düzgün dərk edərlər. Onlar uşaqların nəzərində mal-dövlətin, qızıl və gümüşün rolunu heç vaxt şişirtməməlidirlər, çünki qızıl və gümüşün vurduğu ziyan böyük bəlalara səbəb olar. Heç kəs anadangəlmə fəzilət sahibi olmur, məsələn, heç kəs dülgər, katib ya başqa mütəxəssis doğulmur. Fəzilət təcrübə nəticəsindəəldə edilir, lakin çox zaman bir adam fitri olaraq bir fəziləti tez qəbul edir, onu mənimsəmək istedadı çox olur. İnsanı dörd amil hörmətli edər: doğruçuluq, ədəblilik, elmlilik və xoşxasiyyətlilik. Doğruçuluğun zinəti həya, camalı mənəvi saflıq, səmərəsi isə elmdir. Ədəblilik hörmət artırar, elm səni yüksəldər. Elmin dəyəri mal-dövlətin dəyərindən faydalıdır. Xoş xasiyyətlilik insanın xoşbəxtliyi deməkdir. Xoş xasiyyətlilik yaxşılığın mayasıdır. Tusinin fikrincə, dostluq edənlər eyni xasiyyətə malik olmalıdırlar. Bir-birinə həsəd çəkib paxıllıq etməməlidirlər. Bir-birlərindən mənfi xasiyyətləri gizlətməməlidirlər. Bir-birinə etibar etməlidirlər. Vəfalı dost seçib onu axıra qədər qorumaq çətindir. Xeyirxah insanlarda 10 cür müsbət əxlaqi sifət olmalıdır: əvvəla, yalançı olmamalıdır; ikinci, insaflı olmalıdır, üçüncü, eyib axtarmamalıdır; dördüncü, xalqın günahından keçməyi bacarmalıdır; beşinci, üzrxahlığı bacarmalıdır; altıncı, əziyyətə dözməyi bacarmalıdır; yeddinci, özünü tənbeh etməyi bacarmalıdır; səkkizinci, öz eybini başqasının eybindən tez görməlidir; doqquzuncu, hamı ilə mülayim rəftar etməlidir; onuncu, özünü çox tərifləməməlidir, özü haqqında yüksək fikirdə olmamalıdır. Tusi xeyir və səadətin növlərini göstərir: xeyirlər şərafətli, tərifəlayiq, qüvvə artıran və fayda verəndir. Xeyirlər kimi səadətin də dörd növü var: hikmət, şücaət, iffət vəədalət.

«Ən yüksək dərəcədə arzu edilən xeyir və səadət haqqında» adlanan fəsildə xeyir və səadət arasında olan fərq aydınlaşdırılır, xeyir və səadətin növlərindən danışılır, bəzi qədim alimlərin rəyi verilir.

«Xasiyyətin mahiyyəti, həddi və əxlaqın dəyişdirilməsinin mümkünlüyü haqqında» adlanan fəsildə xasiyyətə tərif verilir, xasiyyətin fitri olub-olmaması barədə fikirlərin müxtəlif olduğu söylənir. Bununla əlaqədar Aristotel və digər filosoflardan misal gətirilir: «Sonrakı alimlərin xasiyyətin fitri olmaması haqqında dəlilləri bundan ibarətdir, onlar deyirlər ki, xasiyyətlər dəyişkəndir, dəyişkən isə fitri ola bilməz. Buradan belə nəticə çıxardırlar ki, heç bir xüsusiyyət fitri deyil» . Sonrakı fəsillərdə fəzilət cinslərinin sayı, növləri, onlara zidd rəzilət zümrələri, fəzilətlərin ox-şarları və fərqləri, ədalət və s. məsələlərdən danışılır.

«Evdarlıq elmi haqqında» adlanan ikinci məqalədə «Mənzilə olan ehtiyacın səbəbi, onun əsasları və ən mühüm cəhətləri», «Ailə dolandırmaq və evdarlıq qaydaları haqqında», «Övlad saxlamaq və tərbiyə etmək qaydaları haqqında», «Xidmətçiləri və qulları idarə etmək qaydaları haqqında» fəsillər, «Söz demək qaydaları», «Oturub-durmaq adətləri, hərəkət və sükut qaydaları», «Yemək qaydaları haqqında», «Şərab içmək qaydaları» kimi yarımfəsillər mövcuddur.

Nəhayət, «Ölkə (şəhərlərin) idarəetmə qaydaları» adlanan üçüncü məqalədə «İctimaların əlaqəsi üçün zəruri olan məhəbbətin fəziləti və növləri haqqında», «İc-

timaların növlərinin və şəhərlərin əmələ gəlməsi haqqında», «Sədaqətin fəziləti və sədaqətli adamlarla (dostlarla) davranış qaydaları haqqında», «Ölkə dolandırmaq siyasəti vəşahların xisləti haqqında», «Şah xidmətində olmaq və rəiyyətin qayda-qanunları haqqında», «Xalqın bütün təbəqələr ilə davranış qaydaları (xüsusiyyətləri) haqqında» fəsillərindən sonra sonda «Bütün fəsillər üçün faydalı olan Əflatunun vəsiyyətləri haqqında» fəsil gəlir ki, bununla da əsər bitir.

Füzuli yaradıcılığında məhəbbət problemi ön plandadır. Füzuli məhəbbəti ilahi məhəbbət olub, insanın mənəvi gözəlliyini təsdiq edir. Füzuli məhəbbəti həm də ideal məhəbbətdir. Şair onu təzadların inkarı kimi göstərir. «Fəzliyə nəsihət» əsərində Füzuli yazır ki, hər kəs özünə əməklə yol açır, cəmiyyətdə etibar sahibi olur və şöhrətlənir. Ona görə də əməksevər olmaq lazımdır. İnsanın zəhmətə, əməyə qatlaşması onu ədalətli, yüksək əxlaqi sifətlərə sahib edir . «Şikayətnamə», «Rind və Zahid», «Ənisül-qəlb» əsərlərində ictimati ədalətsizlik və zülm tənqid edilir. Şairin fikrincə bədxah adamlar heç vaxt həyatda xoşbəxt ola bilməzlər». Füzulinin fəlsəfi, etik və estetik görüşlərini diqqətlə tədqiq etmiş akademik Fuad Qasımzadə «Qəm karvanı», yaxud zülmətdə nur» əsərində yazır: «Füzuli öz əsas fəlsəfi traktatı olan «Mətləül-etiqad»da yunan fəlsəfəsinə dərindən bələd olduğunu büruzə verir. Əsər bir çox yunan mütəfəkkirləri haqqında dolğun və yığcam, həm də əsasən düzgün məlumat verdiyindən, o, bir növ fəlsəfə tarixinə aid olan əsərə, ayrı-ayrı filosoflar və cərəyanlar haqqında biliklər verən məlumat kitabçasına, ensiklopediyaya oxşayır. «Mətləül-etiqad»da qədim yunan fəlsəfəsinin Fales, Heraklit, Demokrit, Anaksaqor, Empedokl kimi materialist, Aristotel , Pifaqor, Sokrat, Platon, Prokl kimi idealist nümayəndələrinin və başqalarının, habelə bir sıra alimlərin adları çəkilir, yaradıcılığı izah olunur. Füzuli bədii əsərlərində də yunan alim və mütəfəkkirlərini, tarixi şəxsiyyətləri tez-tez qeyd edir, onların işlərinə yüksək qiymət verir. Onun şeirlərində Ərəstunun (Aristotel), Əflatunun (Platon), Makedoniyalı İskəndərin (Aleksandr), Buqratın (Hippokrat) və başqalarının adına rast gəlirik. Farsca yazılmış qəsidələrdə Füzuli Aristotelin fəlsəfəsini, Hippokratın tibbi görüşlərini tərifləyir, onları İbn-Sina və Loğmanla yanaşı təbliğ edir. Şair su, od, torpaq və havadan danışaraq yunanlarda böyük alimlərin olduğunu yazır. «Ənisül-qəlb»də də yenə Əflatunun adı çəkilir, onun həqiqət sirlərini açа bilmədiyi qeyd olunur və bununla belə yunan mütəfəkkirinə, ümumiyyətlə, yüksək və layiqincə qiymət verən Füzuli onları «yunan biliciləri» adlandırır . Əsərdə Əflatunun (Platonun) adını hörmətlə çəkən şair oxucuya xitabən deyir ki, hətta Əflatunu belə hikmətdən xəbərdar güman etmə. Məhz platonik eşqi nəzərdə tutan Füzuli «ğərəz» rədifli qəzəlində göstərir ki, xalqın qərəzi gözəl vüsalından rahatlanmaqdır, aşiq üçün isə qərəz bu deyildir, təsərrüfsüz tamaşadır (seyr etməkdir). Platonik eşqin müəyyən təzahürləri «Leyli və Məcnun»da da vardır. Əsərin başlanğıcında verdiyi rübailərdə Füzuli ilahi eşqə, platonik eşqə işarə edərək yazır ki, o, həqiqət tələbinə görə məcaz yolunu tutmuşdur. Füzulinin etik görüşlərini təhlil edən müəllif daha sonra yazır ki: «şair əxlaq məsələləri ilə elmin məşğul olması zərurətini dərk etmiş və əxlaqdan xüsusi olaraq bəhs etməyi bir elm saymışdır. Yəni o, etikanı – bu istilahın özü onda olmasa da – əxlaq haqqında təlim, əxlaqi anlayış və qaydalardan bəhs edən elm olduğunu bilmişdir. Şair etikanı (fünuni-ədəb, yəni ədəb elmi) bir elm kimi qəbul etsə də, nəhayətdə insan əxlaqının əvvəlcədən təyin edildiyi kimi təzahür edəcəyini, pis təbiətli adamın bütün ömrü boyu məhz belə

qalacağını söyləmiş və beləliklə də əxlaqın çıxış nöqtəsi kimi ilahi başlanğıcı, allahı qəbul etmişdir. Əxlaqın mənşəyi məsələsində onun idealist mövqeyi bir çox şeirlərində aydın görünməkdədir və şair bunu dəfələrlə, dönə-dönə söyləmişdir. «Leyli və Məcnun» poemasındakı minacatlardan birində Məhəmməd peyğəmbəri mədh edərək yazır:

Keyfiyyəti-halı rövşən etdin,
Xeyrü şər işin müəyyən etdin.

Füzuli insan əxlaqının, davranış və əməllərinin Allahın iradəsindən asılı olması məsələsində daha da irəli gedərək iqbal və idbarın, xoşbəxtliyin və bədbəxtliyin büsbütün allahdan, ilahi iradədən asılılığını qəbul edir və bunların izahında fatalist mövqe tutur. Allahın qoyduğu səadəti əzəli sayan şair xoşbəxtlik və bədbəxtliyin təyinində ilahi buyuruğun, qeyridən edilən «əmri-mühalın» həlledici rolunu qəbul etməklə əxlaqi əməllər məsələsində açıq-aydın qəza-qədər ideyasına gəlib. Şair qəza-qədər ideyasını, əsasən dünyəvi hissləri, saf və real məhəbbəti tərənnüm edən «Leyli və Məcnun» dastanında da irəli sürür. Bəs bu bədbəxtlik haradan gəlir, onu aradan götürmək, səadət və xoşbəxtliyə yetmək mümkündürmü? Məlum olur ki, bu, Məcnunun əvvəlcədən müəyyən edilmiş taleyidir, onun bəxti, müqəddəratı, qisməti irəlicədən məhz belə yoğrulmuşdur ki, o, bədbəxt olmalı və eşqinə qovuşmamalıdır». Şair həyatın mənasını mal-dövlət toplamaqda, simü-zər cəmləməkdə deyil, bilik və elm əldə etməkdə görür, o, hünər kəsb etməyi, biliklərə yiyələnməyi daim fəzilət və hünərin şərti sayır. Əxlaqın yüksəlməsində əqlin, elmin gücünə verdiyi qiymət demək olar ki, bütün əsərlərində dönə-dönə təkrar edilir və onun rasionalist etikası geniş şəkil alır. Əxlaq normalarının müəyyən edilməsində, insanların davranışlarında əqlin roluna verilən bu fikir Füzulidə sistemləşdirilmişdir. O, insan şərəfinin səbəbini də əqlin gücündə, elmin rolunda görür. Farsca olan rübailərindən birində deyir:

Elm ilə, ədəblə tapılar şərəf,
Mirvari olmasa, nə lazım sədəf?

Füzuli əxlaqi əməllərin təyinində əqlə verdiyi yüksək rola bir növ yekun vuraraq yazır ki, əvvəl fikir, sonra əməl, yəni işi başlamazdan əvvəl onun nəticələrini düşünmək lazımdır. Beləliklə, Füzulinin rasionalist etika tərəfdarı olduğu, əxlaqın əsas meyarı kimi əqlə və biliyə yüksək qiymət verdiyi, onları insanın yüksəlməsi və şərəfi üçün vacib şərtlər saydığı aydın olur.

XVII-XVIII əsrlərdə Azərbaycanda ictimai–siyasi və fəlsəfi fikir dövrün tarixi hadisələri ilə sıx əlaqədar inkişaf edirdi. Qövsi Təbrizi, Saib Təbrizi və b. Füzuli ənənələrini davam etdirirdilər. XVIII əsrdə Molla Vəli Vidadi və Molla Pənah Vaqif humanist idealların ən güclü ifadəçiləri oldular.

Həmin dövrdə yaşamış Zeynalabdin Şirvani insanın kamil olması və təkmilləşməsi üçün 50 keyfiyyət qazanmağın zəruriliyini göstərirdi. Şirvaniyə görə insan mülayim, təvazökar, ehtiyatlı, xeyirxah, vicdanlı, əməksevər olmalı və bu kimi yüksək keyfiyyətlər daşımalıdır.

XIX-XX əsrlərin Azərbaycan ədəbiyyatı etik fikir tarixində mühüm bir mərhələ təşkil edərək yalnız gənc nəslin deyil, cəmiyyətin bütün təbəqələri və siniflərinin əxlaq tərbiyəsində və həyat təcrübəsinin zənginləşməsində əvəzedilməz mənbə rolunu oynamışdır. Bu dövrün görkəmli maarifçiləri və mütəfəkkirlərindən Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Seyid Əzim Şirvani, Nəriman

Nərimanov, Əbdürrəhim bəy Haqverdiyev, Cəlil Məmmədquluzadə, Üzeyir Hacıbəyli, Mirzə Ələkbər Sabir, Hüseyn Cavid, Cəfər Cabbarlı və digərlərinin əsərləri buna misaldır.

Ədəbiyyat

1. Əlyar Səfərli, Xəlil Yusifli "Qədim və Orta əsrlər Azərbaycan ədəbiyyatı", Bakı-1998.
2. Firidun Bəy Köcərli "Azərbaycan ədəbiyyatı", I cild, Bakı-1978.
3. Ələkbərov Fərid "Orta əsrlər Azərbaycan alimlərinin təkamül görüşləri", Bakı-1988.
4. Nəsrəddin Tusi "Əxlaqi Nasiri", Bakı-1989.
5. Kərimli Teymur "Nizami və tarix" Bakı-2002.

Aynur Farajova

Examples of ethical views in Azerbaijani litetature

Summary

According to the article, long history and rich traditions of Azerbaijani culture and ethics of the people was the object of a special study. Primary area of human settlements, caves, city ruins, rock carvings, fortifications, weapons, tools, and lots of other things shows the ancient history of the country.

Humanity, respect and collectivism to working human have been widely popularized in the literature of Azerbaijan. In certain cultural monuments, people are praised and described in their own profession, skill, and moral power are described. Along with the material culture, Azerbaijan is also rich for spiritual cultural. XIX-XX centuries Azerbaijani literature which had a major role on ethical view history had a great influence not only on young generation, but in all layers of society.

Айнур Фараджова

Примеры этических взглядов в азербайджанской литературе

Резюме

Согласно статье, долгая история и богатые традиции азербайджанской культуры и этики народа была объектом специального исследования. Главные области населенных пунктов, пещеры, руины города, наскальные рисунки, укреплений, оружия, инструментов и множество других вещей показывает древнюю историю страны. Гуманизм, уважение и коллективизм в рабочей человеке были широко популяризированы в литературе Азербайджана. В некоторых памятников культуры, люди восхваляют и описают в собственной профессии, квалификации, и моральная сила. Вместе с материальной культуре, Азербайджан также богат на духовной культуры. XIX-XX веков азербайджанская литература, которая играла главная роль на этической истории оказали большое влияние не только на молодое поколение, но во всех слоях общества.

Rəyçi: Həbib Mirzəyev
filologiya üzrə fəlsəfə doktoru, dosent

SOLMAZ HƏYATOVA
AMEA Nizami adına Ədəbiyyat İnstitıutu
filologiya üzrə fəlsəfə doktoru
zahra.meryam@mail.ru

XALİD XÜRRƏM SƏBRİBƏYZADƏNİN YARADICILIĞINDA BALKAN MÜHARİBƏSİ

Açar sözlər: Xalid Xürrəm, məzmun, müharibə, yeniləşmə, döyüşkən, zülm, gözəl, vəhşi.
Ключевые слова: Халид Хуррам, содержание, война, обновление, борец, тирания, красивый, дикий.
Keywords: content, war, renewal, warlike, oppression, beautiful, wild.

20-ci yüzilin ilk on illərində Azərbaycan ədəbiyyatının biçim və məzmun baxımından yeniləşməsində, zənginləşməsində istedadlı şair və nasir Xalid Xürrəm Səbribəyzadənin sözün gerçək anlamında böyük əməyi olub. Yalnız Azərbaycan və Türkiyənin deyil, eləcə də bütün dünya Türklüyünün, bütün müsəlman xalqlarının maariflənməsi, işıqlanması və istiqlaliyyəti işində X.X.Səbribəyzadə az vaxt içində qələmiylə çox dəyərli işlər görmüşdü. Onun istər şeir yaradıcılığında, istərsə də nəsr və publisistikasında millətinin həyat, varolma məsələləri qarşıya qoyulur, çözümünə yollar axtarılırdı.

Xalid Xürrəm "Şəlalə"nin redaktoru olduğu dövrdə Balkan savaşı bütün azğınlığı ilə baş alıb gedirdi. Onun lirik-romantik şeirləri, həssas, çevik publisistikası Balkan müharibələrinin iç üzünü, gedişini, məqsədlərini dərgi və qəzet səhifələrində bütün aydınlığı ilə işıqlandırırdı. Bu məsələ ilə bağlı daha sağlam və aydın ictimai fikrin yaranmasına yardım göstərirdi.

Balkan müharibələri Azərbaycan və Türkiyə ədəbi mühitlərinin bir-birinə yaxınlaşdıran, türk millətçiliyini qüvvətləndirən ən güclü bir amil idi. Osmanlı və Rusiya türklərinin mədəni-mənəvi birliyi bu dönəmdə ən yüksək səviyyəyə çatır. Ədəbiyyat da bu mərhələdə milli duyğuların, ağrıların tərcümanı oldu.

Azərbaycanda Ənvər Paşa milli qəhrəman kimi qəbul edilmiş, romantik ədəbiyyatda onun obrazı yaradılmışdır. Heç təsadüfi deyil ki, X.Xürrəm də bu müharibəyə biganə qalmamış və özünün "Ədirnə" adlı şerini, türk millətinin milli qəhrəmanı Ənvər Paşaya həsr etmişdir.

1913-cü ilin yanvar ayı dost və düşmən gözlərin Ədirnəyə yönəldiyi, onun diqqət mərkəzində olduğu aylardandı. Başda Şükrü Paşa olmaqla Ədirnənin müdafiəsi davam etməkdə idi. Bu günlərin birində "İqbal" qəzetinin 7 yanvar 1913-cü il tarixli sayında X.X.Səbribəyzadənin "Ədirnə" adlı şeiri də dərc olunur (1).

Tarixdən də bəllidir ki, Ədirnə 1828-1829 və 1877-1878-ci illərdə Türk- Rus müharibələrinə məruz qalmış, sonda isə yenidən azadlığa qovuşmuşdur. X.Xürrəm şeirin başlanğıcında Ədirnənin o qəmli günlərinin belə təsvir edir:

Ey şəhri-qədim, ey əzəli hüzni-mücəssəm!
Çöhrəndə nədən afəti qəm böylə mürəssəm?

Məmur olalı, olmadın azadi-ələm hiç?
Qüdrətmi dedi? Söylə! Sana zəhri-vəğayiç!
Kİ, bu məablər ətrafını al qanlara saldı,
Kİ, cismini atəşi-bəd təxribinə aldı.

X.X.Səbribəyzadə Ədirnənin bədii-simvolik obrazıyla türk milli ruhunu, psixologiyasını, zülmə, haqsızlığa yenilməzliyini ifadə edirdi. Ədirnə - tarixin gözəl yadigarı, döyüşən şəhəri, türkün yenilməz vüqarı, çöhrəsində "hüzn və hüsnün tərsim" olunduğu bir türk eli, bir türk diyarıdır.

X.X.Səbribəyzadə Ədirnənin bədii obrazıyla Türk milli ruhunu, "İqbal" qəzetinin 22 yanvar 1913-cü il tarixli sayında çıxan "Şükrü paşa" (Bir Osmanlıya rəsmi xitabı") adlı şeirində bir daha öz təsdiqini tapdı.Şükrü Paşa ləyaqətlə, türklərə xas olan dəyanəti, bacarığıilə, öz istedadıyla Ədirnənin düşməndən müdafiəsinin başında duraraq mübarizəni davam etdirirdi. X.X.Səbribəyzadə Ədirnənin qəhrəmanlıqla mübarizədə böyük xidmətləri olan Şükrü Paşaya şeir ithaf edərək "İqbal" qəzetində çap etdirmişdi. Bu şeirdə Xalid Xürrəm ilk misraları olan Şükrü Paşanın yüksək mənəvi özəlliklərini, qəhrəmanlığını bədii boyalarla əks etdirir, böyük bir vətən sevgisinin ("hubbi-vətən"in) daşıyıcısı olan Şükrü Paşanın daxili ilə zahiri aləminin ayrılmaz bir bütün olduğunu canlandırırdı:

Ey nasiyeyi-pak, əzəli çöhreyi-rəxşan!
Ey göylərə zinətverici nəcmi-dirəxşan!

Çeşmində parıldar bütün ənvari-zəkavət,
Qəlbində olur "hübbi-vətən" cüsü-xüruşan.

Sinən dolu asari-şücaətlə sərasər,
Ülviyyəti təmsil ediyor səndəki vicdan.

Şöhrəti bütün dünyaya, bütün varlıqlara bəlli olaraq Şükrü Paşanın adı Plevnə qəhrəmanı (1877-1878-ci il Türk-Rus savaşı) Osman Paşanın adı kimi çox yüksəklərdə durur, bu isə hətta düşmənləri belə heyran edir:

Osman Paşanın namı kibi namı büləndin,
Xəzmin belə hörmətlərini calıb o,hər an

X.Xürrəmin "Şəlalə"nin müxtəlif nömrələrində Balkan müharibəsinə "Ədirnə"dən savayı "Zübeydə xanım", "İntiqam" şeirləri də çap olunmuşdur. X.Xürrəmin "Şəlalə"nin 9 noyabr 1913-cü il tarixli 40-cı sayında çıxan "İntiqam" (2, 81) adlı şeiri də şairin ürək yanğısı ilə bu müharibəyə son cavabı idi. Şair deyirdi ki, "Kədərimə", "çətin günlərimə səbəb olanlara, söylə bir ürfə, adət-ənənəyə düşmənəm". Bu kimi şeirlərində şair türklüyün mənəvi özəlliklərini, onun ideallarını qüdrətli gələcəyə inamını ifadə edirdi:

Ey millətin qaniçici düşməni, canı,
Baisi - həmən! (2, 1)
Yapdıqlarını yapmadı, yapmaz da ədani,
Ürfunə xəsmən! (3)

Mənsub olduğu millətin ağrı-acılarına biganə qala bilməyən Balkan müharibəsinə həsr etdiyi şeirlərində düşmən obrazlarının xislətini, onun vəhşi, yırtıcı simasını, əllərinə keçən nə varsa dağıtmaq, xarabazara çevirmək, ölüm daşıyıcıları olduqlarını açıq və qəzəbli bir dil ilə, ürək ağrısı ilə qələmə alırdı.

Şükrü Paşanın varlığıyla Ədirnə bir savaş mərkəzinə çevrilmişdir. Xalid Xürrəm türkçülüyə xas olan mərd və insani keyfiyyətlərini özündə cəmləşdirən bu igid komandanın adının qızıl suyuna çəkilmiş hərflərlə zəfər tarixinin səhifəsinə yazılacağını, şairin özünün isə bu ad qarşısında səmimiliklə təzim etdiyini söyləyir və cəsur komandana uğurlar diləyir:

Bolqarlar olur zərbeyi-seyfinlə fəqanqər,
Osmanlıları etməkdəsən Xürrəmü şadan.

Bir mərxəzi-hərb oldu vücudunla Ədirnə,
Titrətdilər afaqı komandan ilə şucan.

Qəlbim sana ibraz edər ixlas ilə təzim,
Versin sana həqq feyzü zəfər, ömri-firavan.

Bununla belə, zalim düşmən azğın niyyətini həyata keçirmək üçün gözəl Ədirnədə dağıntılar törədib onu ələ keçirməyə çalışsa da, son məqsədinə, Ədirnəni birdəfəlik ələ keçirmək niyyətinə çatmayacağına şair tam əminliklə inanır. Çünki Ədirnə zülmə, köləliyə boyun əyməyib, buna görə də Ədirnəyə üz tutub "olmaz səbrə sücudun" deyir:

Təxrib edərək gərçi gözəl vəchini daim,
Təsxirə çalışmaqda səni pənceyi-zalim.
Heyhat! Əməli boş sanıram, çünki vücudun
Qayətlə qəvidir, olamaz səbrə sucudun.

X.X.Səbribəyzadə Ədirnənin bədii obrazıyla bir daha Türk milli ruhunu, psixologiyasını, zülmə, haqsızlığa yenilməzliyini açıq-aydın şəkildə göstərmişdir.

X.X.Səbribəyzadənin lirik şeirləri məzmun, mündəricə və mövzu cəhətdən nə qədər rəngarəng olsa da milli çağdaş və istiqlal ideyası bu şeirlərin baş aparıcı xəttini təşkil edir. Qalan bütün şairanə hisslər və təlatümlər bu baş mövzu ətrafında cərəyan etməklə mahiyyətin açılmasına xidmət edir. Şair gözüaçıq milli birliyi təbliğ edir, bu torpaq üzərində yaşayanların varlığı zaman-zaman yadların hiylə dolu gözlərinə ox kimi sancılmış, lakin heç bir məhrumiyyət bu məmləkətin, millətin varlığına son qoya bilməmişdir. Şair "Zubeyda xanım" adlı şeirində bir sənətkar olaraq amalını aşağıdakı şəkildə elan etmişdir:

Hərb artmış idi türklərə dörd düşməni-ədna,
Sərhədləri keçmişdi və etmişdir ifna.
Hər canibi, hər bəldəyi, hər cismi-lətifi,
Kəsmişdilər islami... bütün mərdü zəifi.
Keçdikləri yer olmuşdu qanla ləbaləb,
Ölmüdi səbilər ilə çox madəri çox əb.
Əcsad dolu, məhşəri-kübradı o yerlər,

Zövq olmuş idi nalə eşitməklə bu ərlər,
Qanlar tökərək, can yaxaraq, ev yıxaraqdan,
Axmışdılar "Osmanlı"ların qəlbinə doğru.
Bir xətdi (çıtalca) oni yarmaqla, siyəhru.
Düşmənlərə məftuh idi əbvabi-səadət,
Məşhud idi "Osmanlı"lara təyfi-qiyamət.

X.Xürrəm bu şeiri ilə düşmənlərə meydan oxuyur. O, qeyd edir ki, düşmən nəinki bizim kişilərin qarşısında acizdir, hətta bizim "ər" kimi qadınlarımız var ki, düşmənin bağrını yarır. Vətən əsarətə düşəndə isə istər kişilər, istərsə də qadınlar belə canlarından keçməyə hazırdırlar. Vətəni azad etmək üçün al qanlarına boyanmağı özlərinə şərəf biliblər. Kimsənin haqqında gözümüz olmadığı kimi, kimsəni də haqqımıza şərik çıxmağa qoymarıq. İllər boyu özümüzü hifz edərək qorumuş, iliyimiz, canımız, qanımızla yurdumuza bağlı olmuşuq. Bizim üçün bir amal, bir məqsəd vardır ki, onu da şair aşağıdakı misralarda öz fikrini bildirir:

Meydanına hərbin gedəlim əldə tüfənglə,
Hər şey gəlir əncamə bu dünyada əməklə.
Erkəklərə məxsus isə hər dürlü diləklər,
Nisvan deyilən taifə bilməm nəyi bəklər?
Erkək də, qadın da bir vətəndən yedi, içdi,
Hərb oldu, qadın qaldı da, erkək önə keçdi.
Layiqmi bu zillət bizə? Ey şanlı nisalər!
Keçsinmi həp ehmal ilə hicranla məsalər?
Yox, yox, keçəməz, etməliyiz biz də təhəlla,
Nusrətdə edər əzm ilə bişübhə təcəlla.
Qəlbim bənə təlqin ediyor getməyi hərbə,
Ya ölməli, ya vurmalıyam düşmənə zərbə.

Başıbəlalı, həyatı faciələrlə dolu olan X.Xürrəm hər şeydən əvvəl böyük lirikdir. Klassik şəq poeziyasından, eyni zəngin Azərbaycan folklorundan məharətlə bəhrələnən X.X.Səbribəyzadə lirikası zamanla nəfəs alır və dövrün bir sıra cahanşümul hadisələri çox böyük ustalıq və bir qədər də romantik pafosla onun poeziyasının predmetinə çevrilir. Şair "Zubedə xanım" şeirini belə pafoslu misralarla bitirir. Şair də qəhrəmanı kimi vətən, torpaq, millət uğrunda ölməyi, sədət şərbətini içməyi özünə müqəddəs and kimi qəbul etmişdir:

Türkəm, diri olduqca bu hicrani unutmam kinimi atmam.
Sülh olmaq ilə bən əməli-sari soyutmam, mərdliyi satmam.

Şeir türklüyün mənəvi özəlliklərini, onun idealını qüdrətli gələcəyə sönməz diləklərini ifadə edir, onu gözəlliyə səsləyir və bir simvol mahiyyətini daşıyır.

Yaxşı deyiblər: Tarix təkrar olunur. Türk dünyasının, türk xalqlarının başına gətirilən müsibətlər, vəhşiliklər XX əsrin son illərinə də təsadüf edildi. Ermənipərəst rus şovinistlərinin erməni riyakarlarının 1992-ci ilin fevralında Azərbaycanın Xocalı şəhərində Ədirnənin başına gətirilənlər bir daha təkrar olundu. Eyni qəddarlıqlar burada da baş verdi. Eyni ssenari burada da davam etdirildi. Uşaqlar, böyüklər, yaşlılar amansızcasına qətlə yetirildi. Elə bir tarixi səhnə yarandı ki, bu heç vaxt türk adlandırılan şəxslərin yaddaşından, hafizəsindən silinə bilməz.

Yazılarında savaşa, xurafata, sosial-iqtisadi tənəzzülə qarşı barışmaz mövqe tutan X.Xürrəm və "Şəlalə" jurnalında iştirak edən digər şair və publisistlər, xüsusilə də Ə.Cavad, M.Akif Ərsoy, R.Tofiq, M.Ə.Yurdaqul, Ə.Hamidi, T.Fikrətin yaradıcılığında da Balkan və Birinci Cahan Savaşı illərində Türkiyədə cəbhə bölgələrində olması, Şəlalədə məqalələr və şeirlər yazması, bu mövzulara, eləcə də Türkiyə, onun tarixinə, taleyinə geniş və mümkün olduğu qədər obyektiv şəkildə araşdırılaraq, qiymətləndirilir (4).

"Şəlalə" jurnalında iştirak edən şairlərin lirik şeirləri məzmun, mündəricə və mövzu cəhətdən nə qədər rəngarəng olsa da milli çağdaş və istiqlal ideyası, Balkan müharibələrinə münasibət bu şeirlərin baş, aparıcı xəttini təşkil edir. Qalan bütün şairanə hisslər və təlatümlər bu baş mövzu ətrafında cərəyan etməklə mahiyyətin açılmasına xidmət edir.

Şair milli birliyi təbliğ edir, bu torpaq üzərində yaşayanların varlığı zaman-zaman yadların hiylə dolu gözlərinə sancılmış, lakin heç bir məhrumiyyət və məmləkətin, millətin varlığına son qoya bilməmişdir. X.Xürrəm "Ədli-İlahi" şeirində bir sənətkar olaraq amalını aşağıdakı şəkildə elan etmişdir:

"Üç dörd törədi dövrə inandı,
"Yox ədli-ilahi"! deyə sandı.
Bihəqqü səbəb türkə sataşdı,
Dağlar, dərələr dəmlə boyandı:
Binlərcə bəşər xaxə sərildi,
Yüzlər ilə xüy batdı və yandı.
Sülh olmadan ən sonra qənimət,
Təqsiminə yaran ki, dadandı.
Kardeş kanı sellər kibi axdı,
Balkan yenə bir vulkanı andı (5, 1).

Və yaxud "Həqq" şeirində bu savaşda Türklüyə, müsəlmanlara qarşı insanlığı yerdən-yerə vuran, ölçüyə gəlməz vəhşiliklər edildi. İnsanlığa qarşı son dərəcə faciə işləndi:

Derlər: əzilir, zaye olur həqq,
qüdrət önündə,
mürdəvü bəndə.
Bir söz ki, degil həqqə bu mütbəq,
bəlkə süxəndə,
calibi-xəndə.

Bir an belə həqq yerdə sürünməz,
olsa da möhməl,
qalsa da müxtəl.
Zülmün, şərin altında görünməz,
axirü əvvəl,
əkməlü-əfzəl.
Şahit buna Balkandakı canlar
eylədi peyda
leyleyi-yəlda (7, 1).

Həqiqətən, türkçülüyün əsas mahiyyəti Türkiyəyə, onun tarixinə, ədəbiyyat və mədəniyyətinə məhəbbət, Türkiyədəki görkəmli türkçü, istiqlalçı şairlərlə əlaqələri, onlardan təsirlənməsi. Balkan savaşı və Birinci Cahan savaşı illərində Türkiyə əsgərlərinin yanında olması, yaralılara, kimsəsizlərə, qaçqın, köçkünlərə yardımı, btün bunları Azərbaycan mətbuatında və ədəbi publisistik əsərlərində, şeirlərində qələmə alması, Qafqaz türklərini qardaş xalqın dərdinə şərik olmağa, yardım etməyə çağırmasındadır. Bir əsas səbəb də türk xalqlarının, türk dövlətlərinin birliyi, ortaq ədəbiyyat, ortaq dil, din, turançılıq ideyalarının müdafiə və təbliğidir.

Ədəbiyyat

1. "İqbal" qəzeti, 1913-cü il. 7 yanvar, "İntiqam" şeiri
2. "Şəlalə" jumalı, № 40, səh.l
3. "İqbal" qəzeti, 1913-cü il, 7 yanvar, "Ədirnə" şeiri.
4. Səbribəyzadə X.X. Altın qələm. Şəlalə jurnalı, 8 iyin, № 24, 1913, səh. 1
5. Səbribəyzadə X. "Şəlalə" № 23, 1913, səh.1.
6. Şamil Vəliyev. "Füyuzat" ədəbi məktəbi, Bakı, "Elm", 1999

Хаятова Солмаз

Тема Балканской войны в творчестве Халида Хуррама Сабрибейзаде

Резюме

В период Балканской войны Х.Хуррам являлся редактором журнала «Шалала». Он со всей остротой своего пера раскрывал и обличал сущность и цели этой войны. На тему Балканской войны Х.Хуррам опубликовал стихи «Эдирне», «Шукру Паша», «Зюбейда ханум», «Интигам» и др. Публицистические статьи.

Hayatova Solmaz

The Theme of the Balkan War in H. Hurram's Creation

Summary

During the Balkan War H. Hurram was the editor of the magazine "Shalala" (waterfall). With all of the sharpness of his pen he revealed and discovered the essence and purpose of this war. On this theme H. Hurram published: "Edirne", "Shukru Pasha, Zubeyde khanum", "Revenge" and other essays.

Rəyçi: Asif Rüstəmli
filologiya elmləri doktoru

Dosent İRADƏ ŞƏMSİZADƏ
BDU
Irade.şamsizade@gmail.com

ƏDƏBİYYAT DƏRSLƏRİNİN TƏŞKİLİNİN ƏSAS PRİNSİPLƏRİ

Açar sözlər: dərs, dərsin məqsədləri, dərsin strukturu, dərsin təşkili
Ключевые слова: урок, цели урока, структура урока, организация урока
Key words: class, aim of the lesson, structure of the lesson, arrangement of the lesson

Qloballaşma və inteqrasiya şəraitində milli təhsil sistemlərində yeniliklərin, qabaqcıl təcrübənin tətbiqi mühüm əhəmiyyət kəsb edir. Tədris prosesi yeni biliklərin öyrədilməsi yolu ilə gələcəyin vətəndaşını yetişdirməyi də nəzərdə tutur. Azərbaycanın müstəqilliyini bərpa etməsi, onun təhsil sistemində də bir çox məsələlərə yeni prizmadan baxılmasına səbəb olmuşdur. Sovet ideologiyasının sıradan çıxması, hər şeydə, ocümlədən də ədəbiyyatda partiyalılıq axtarışına son qoymuşdur. Bu cəhət ədəbiyyatın tədrisinin müasir elmi əsasları zəminində qurulmasına indi böyük ehtiyac hiss olunur. Hər bir fənnin öz spesifik cəhətləri, predmeti, obyekti var, onun öyrədilməsi müəyyən məqsədlərə xidmət edir. Qeyd olunan cəhətlər tədris və təlimdə nəzərə alınır. Tədris olduqca mürəkkəb prosesdir. Başlıca məqsəd öyrətmək olsa da, necə öyrətmək və necə öyrənmək, əldə olunan biliklərdən istifadə etmək bacarığını formalaşdırmaq mühüm əhəmiyyət kəsb edir.

Öyrədilən fəndən asılı olmayaraq, tədris prosesinin məqsəd və vəzifələrinin əsas spektri ümumidimr. Başlıca məqsəd tədris fənninin nəzərdə tutulan səviyyədə mənimsənilməsini nəzərdə tutur. Şagird fənnin tədrisinin ilk dövrlərindən başlayaraq predmetin nə üçün öyrədilməsi sualına cavab tapa bilməlidir. Təhsil sistemi pilləlidir. Bu, həm yeni fənlərin daxil edilməsi, həm də artıq tədris edilən fənnin mürəkkəb məsələlərinə keçiddə özünü göstərir. "Dərsin məzmunu tədris proqramına uyğun olmaqla yanaşı, o, digər dərslər sisteminin bir manqasına çevrilməlidir. Hər bir dərsdə şagirdlərin əvvəl nə keçməsi və bu dərsdən sonra nə keçəcəkləri nəzərə alınmalıdır. Nəzərəalma gələcəkdə keçiləcək dərslərlə qabaqcadan ilkin tanışlıqla bağlı tədris fəaliyyətini əhatə etməlidir" (1, 130-131). Pedaqoji nöqteyi-nəzərdən bu, dərsə verilən tələblərdən biridir. Ümumiyyətlə, dərsə verilən tələblər çoxdur. Bu tələblər iki qrupa bölünür: 1) ümumi tələblər; 2) xüsusi tələblər. Ümumi tələblər dərsdə didaktik prinsiplərin -həyatla əlaqə, elmilik, sistematiklik, şüurluluq və fəallıq, əyanilik, müvafiqlik, fərdi yanaşma və s. kompleks şəkildə həyata keçirilməsini nəzərdə tutur.

Xüsusi tələblər dərsdə yüksək təhsil, inkişaf və tərbiyə səmərəsinin əldə edilməsini, təlim materialının optimal məzmununun müəyyənləşdirilməsini, səmərəli metodik variantın tətbiqini, dərsin mütəşəkkil və çevik təşkilini əhatə edir. Dərs məntiqi və psixoloji tamlıq şərtlərinə cavab verməlidir. Bu baxımdan dərs elə təşkil olunmalıdır ki, şagirdlər nəyi isə tam öyrəndiklərini hiss etməlidirlər.

Çağdaş dövrümüzdə uzun illər boyu təcrübədən, elmi təhlil və araşdırmalar süzgəcindən keçmiş pedaqoji irsin bütün nailiyyətləri dərsin təşkilində nəzərə alınır. Təlim və tədrisdə məlumdan məchula, yaxından uzağa prinsipi gözlənilməlidir.

"Yeni məlumatların keçmiş biliklərlə əlaqələndirilməsi hər bir dərsdə başlıca prinsip olmalıdır. Yəni hər bir dərsdə varislik prinsipi gözlənilməlidir" (2, 38).

Ədəbiyyat dərsləri metodika elminin müasir nailiyyətlərinin tətbiqi ilə zənginləşdirilmiş şəkildə təşkil olunmalıdır. Tədrisin yeni texnologiyaları və innovasiya təcrübəsi predmetin nəzəri bazasına, onun strukturuna köklənməklə tətbiqini tapmalıdır. Struktur ictimai elmlərə aid anlayışdır. Struktur predmetin, hadisə və proseslərin bir tam şəklində kifayət qədər dayanıqlı qarşılıqlı təsiri və əlaqəsi olub onun daxili quruluşunu ifadə edir (3, 500).

Hər bir dərsin öz tərkibi və quruluşu vardır. Həmin quruluş dərsin hansı elementlərdən və mərhələlərdən təşkil olunmasını, dərslərdə bu elementlərin hansı ardıcıllıqla yerləşməsi ilə təyin olunur. Dərsin srukturu dərsin əsas komponent və elementlərinin didaktik şərtlənmiş funksional daxili qarşılıqlı əlaqəsi, eləcə də onların məqsədəuyğun ardıcıllığı və qarşılıqlı təsiridir.

Dərsin strukturunun düzgün təyin olunması, onun elementlərinin bir-biri ilə məqsədəuyğun şəkildə birləşdirilməsi tədris prosesinin dəqiq təşkilini və onun yüksək effektivliyinin təyin olunmasını təmin edir. Dərsin strukturu onun formasıdır. Dərsin məqsədinin bacarıqla müəyyənləşldirilməsi, dərs situasiyalarının miqdarının və qarşılıqlı əlaqəsinin aydınlaşdırılması xüsusi metodik dəst-xətti yaradır. Hər bir ədəbiyyat dərsi digərindən fərqlənməlidir. Bir-birinə oxşayan iki dərs olmamalıdr.

Dərsin məqsədi həm də onun tipini təyin edir. Proqramın tələbi, dərsin mövzusu, dərsin məqsədləri, dərsin tipi, dərsin strukturu, vaxtın müxtəlif struktur elementlər üzrə birləşdirilməsi ədəbiyyat dərslərinin ümumi təşkilində əsasdır.

Ədəbiyyat dərslərinin predmeti bədii əsərələrin öyrədilməsidir. Bununla yanaşı, ədəbiyyat dərslərinin özünün xüsusi məqsədi vardır. Həmin məqsəd məktəb kursunda öyrədilən bədii əsərlər üzrə gələcəyin yaxşı oxucusunu yetişdirməkdir. Dərsin təşkilinə qoyulan ümumdidaktik tələblər sırasında məqsədəuyğunluq, dəqiqlik, məntiqilik, ardıcıllıq, struketur elementlərin ardıcıllığı yer alır. Dərsin planlaşdırılması və təşkili zamanı şagirdlərin yaşı, bədii əsəri qavrama bacarıqları da nəzərə alınır.

V.Qurbanov qeyd edir ki, «müasir dərs öz məzmunu və strukturuna görə müəyyən sistemə tabedir; onun optimal təşkili müəllimdən ciddi pedaqoji-psixoloji hazırlıq tələb edir. Bu hazırlığa isə, başlıca olaraq, dərsin ümumtəhsil, tərbiyə və inkişafetdiricilik funksiyalarına uyğun planlaşdırılması daxildir» (4, 12).

Müasir pedaqoqikada təlim metodlarının müxtəlif təsnifat formaları vardır. Bunlardan aşağıdakı meyarlar əsasında təsnifat daha geniş yayılmışdır: 1) biliyin alındığı mənbəyə görə (dərslik, müəllim, əyani vasitə, əməli məşğələ); 2) müəllimin fəaliyyət formasına görə (tədris metodları); 3) şagirdin fəaliyyət formasına görə (öyrənmə metodları); 4) şüurlu fəaliyyətə və qavrama fəallığına görə (reproduktiv, əyani-izahlı, problem-axtarışlı, tədqiqi); 5) mühakimə növünə görə (induktiv, deduktiv) (1, 48, 111-112).

Təlimin əsas məqsədi sistemli bilik verməkdir. Sistem isə onun elementləri arasında əlaqəni həmişə nəzərdə tutur. Elementlərarası əlaqə olmazsa, sistem yoxdur. Interferensiyaya əsaslanmaq qanununu pedaqoji aspektdən şərh edərkən aşağıdakı məsələlərin bir kompleks kimi izlənməsini əsas sayılır: a) şagirdlərin əvvəl qazandıqları biliklərə istinad etməklə yenini şüurlu surətdə mənimsətmək; b)

problem-situasiya yaratmaq və şagirdlərin yenini öyrənərkən keçmiş biliklərdən bacarıqla və müstəqil istifadə etmələrinə nail olmaq; c) şagirdlərin keçmiş bilikləri nə dərəcədə yadda saxladıqlarını müəyyənləşdirmək və əvvəlki məlumatları bir daha dəqiqləşdirmək və dərinləşdirmək; d) keçmiş yeni bilikləri dəqiq müqayisə edib onlardakı əsas oxşar və fərqli cəhətləri müəyyənləşdirməklə şagird təfəkkürünü inkişaf etdirmək; g) keçmiş və yeni bilikləri vahid biliklər silsiləsində sistem halında birləşdirmək (4, 41). Göstərilən məsələlərin hər biri dərsin təşkili ilə bilavasitə bağlıdır. Tam dərs - dərsin əvvəlinin təşkili, öyrənilmiş materialın mənimsənilmə səviyyəsinin yoxlanılması, yeni dərsin məqsəd və vəzifələrinin qoyuluşu, izah, öyrədilənin dəqiqləşdirilməsi və dərinləşdirilməsi, təkrar, dərsə yekun vurma, ev tapşırıqlarının verilməsi struktur bölmələrinə bölünür. Qeyd edilənlər dərsin ənənəvi təşkilini əhatə edir. Müasir dövrdə ədəbiyyatın öyrənilməsinə kompleks şəkildə yanaşma bir sıra xüsusi dərslərin təşkilinin effektivliyini təsdiq edir. Xüsusi dərslər ənənəvi dərslərdən bir çox cəhətlərinə görə seçilir. Xüsusi ədəbiyyat dərslərinin bəzi növlərini və onların təşkili məsələlərini nəzərdən keçirək.

Həyatda baş verən hadisələrdən alınan təəsüratlar üzrə yaradıcı işin tədrisini nəzərdə tutan xüsusi dərsdə şagirdlərə onların diqqətini cəlb etmiş və onlarda müəyyən təəssürat yaratmış hadisənin qələmə alınması və danışılması tapşırığı verilir. Belə dərsin təşkili mərhələli qaydada gedir. Müəllim bu dərslə bağlı əvvəl özü izahat verir. Izahat zamanı müəllim gördüyü müəyyən hadisəni təsvir edir, bu hadisə haqqında danışır, onu başqa məsələlərlə bağlayır. Dərsin təşkilinin əsasında şəxsi müşahidə durur. Şagirdlər müşahidələrini cəmləşdirir, onların arasından bir neçəsini seçirlər. Müəllim şəxsi müşahidəyə əsaslanın hadisənin birini müəyyənləşdirir və onun üzərində işləməyi tapşırır. Şəxsi müşahidə ilə yanaşı müəyyən bədii əsərin, filmin süceti də əsas götürülə bilər. Belə dərslərin təşkili zamanı şagirdlərin yaş xüsusiyyətləri nəzərə alınır. Kiçik hekayənin sücetini dəyişmək, onun iştirakçılarının, personaclarının sayını dəyişmək, həmçinin əsərdə baş verən müəyyən hadisənin başqa bir hadisə ilə əvəz etmək kimi tapşırıqlar yuxarı sinif şagirdlərinə verilir. Belə tapşırıqlar şagirdlərdə yaradıcılıq və fantaziya qabiliyyətini artırır.

Xüsusi dərs müəyyən əsər haqqında rəy, resenziya yazmağa da həsr oluna bilər(7). Belə dərsin keçilmiş bədii əsərlə bağlı təşkili həmin bədii əsərin daha yaxşı mənimsənilməsini reallaşdırır. Təbii ki, rəy və ya resenziyanın yazılması inşa yazıdan fərqləndirilməlidir. Ona görə də müəllim rəy, resenziya yazmaq qaydıları, bu tipli yazılarda nəyə diqqət verilməsi ilə bağlı şagirdlərə məlumat verir. Qeyd edilən cəhət, xüsusi dərsin pilləli təşkilini tələb edir. Müəllim bir həftə əvvəl bu dərs barədə məlumat verir. Sonra hansı əsər haqqında rəyin yazılacağını müəyyənləşdirir. Növbəti həftədə isə xüsusi dərs təşkil olunur. Bu dərsdə şagirdlərin yazdıqları rəylər növbə ilə oxunur və müzakirə edilir. Əvvəlcə biir neçə rəyin oxunması sonra onların müzakirəsinin təşkili daha məqsədəuyğundur. Belə dərsin təşkili zamanı sonuncu struktur bölmə kimi, qəzet və ya curnalda çap olunmuş rəyin oxunması nəzərdə tutulur. Şagirdlər tənqidçinin və ya peşəkar ədəbiyyatçının yazdığı rəylə tanış olur və bununla da öz yazdıqlarını qiymətləndirmək imkanı qazanırlar.

Bədii əsərin təhlili ilə bağlı xüsusi dərslər də yaradıcı qabiliyyəti artırır. Belə dərs keçilmiş bədii əsər üzərində qurulur. Müəllim şagirdlərin müəyyən qisminin

ardıcıl əsəri təhlil etməsini təşkil edir. 4-5 təhlildən sonra müzakirə təşkil olunur. Müzakirə prosesində əvvəl öz təhlillərini oxumamış şagirdlər dinlədikləri təhlillərə əlavələr edirlər. Bundan sonra müzakirələr başlanır. Müzakirə müxtəlif təhlillərin müqayisəsi yolu ilə aparılır. Sonda müəllim ümumiləşmələr verir. Qeyd edək ki, xüsusi dərslərdə dialoji yanaşma prinsipinin tətbiq olunması xüsusi əhəmiyyət kəsb edir. Dioloji yanaşma şagirdlər arasında dioloji münasibətlərə (subyekt- subyekt münasibətlərinə) üstünlük verilməsini nəzərdə tutur. Bu zaman dərsdə problemli, dialoqlu, refleksiv təlim texnologiyalarına, kollektiv (qruplarla) fəaliyyətə üstünlük verilir. Ünsiyyət, dinləmə və eşitmə açıqlıq, səmimilik, şəraitində təşkil edilir. Dialoği nitq prosesində tələb olunan informasiya mənimsənilir.

Məşhur rus pedaqoqu P.R.Afanasyev hər bir dərsin əsas mərhələlərinə aşağıdakıları aid edir: 1) ev tapşırığının yoxlanması; 2) yeni materialın izahı; 3) izah edilmiş qaydaların qavranmasını möhkəmləndirmək üçün tapşırıqlar; 4) dərsin ümumiləşdirilməsi və nəticəsi; 5) evə tapşırıq» (5, 151).

Dərsin göstərilən şəkildə təşkili zamanı müəllim bütün bu göstərilən mərhələlərdə fəndaxili əlaqənin elementlərini nəzərə almalı, onları tətbiq etməyi bacarmalıdır. Xüsusi dərslər qeyd olunan prinsiplərdən bir qədər kənara çıxır. Lakin burada da ev tapşırıqları məsələsi qoyula bilər. Lakin tapşırıq növbəti ənənəvi dərsdə deyil, başqa xüsusi dərsdə yoxlanıla bilər. Məktəblərdə ədəbiyyat dərnəklərinin yaradılması xüsusi dərslərlə dərnəyin işinin əlaqələndirilməsi üçün zəmin yaradır. Müəllim xüsusi dərsdə qoyduğu mövzunun aktuallığını nəzərə almalıdır. «Bir çox hallarda mövzu aktual olur, lakin alınan nəticələr həyatdan ayrı düşür, praktikada özünə yer tapa bilmir. Tədqiqat, əsasən, kabinetdə aparıldığından ondakı metodik müddəalara istinad etmək qapının gözlüyündən baxıb xarici aləmi dərk etməyə bənzəyir.» (6, 8-9).

Mövcud pedoqoji ədəbiyyatın təhlili göstərir ki, hazırda təcrübədə istifadə edilən xüsusi dərslərin xeyli sayda növləri vardır. Dərs- işgüzar oyun, dərs -mətuat konfransı, dərs-yarış, teatrlaşdırılmış dərs, qrup şəklində iş üzər aparılan dərs, dərs-yaradıcılıq, dərs yaradıcılıq hesabatı, dərs ümumiləşdirmə, dərs-dialoq, dərs-oyun, dərs ekskursiya və s. xüsusi dərs növləridir. Bu dərslərin hər birinin öz təşkili prinsipləri vardır. Həmin prinsiplər dərsin məqsədindən doğur.

Ədəbiyyat

1. 1. Баранов С.П., Болотина Л.Р., Сластенин В.А. Педагогика. - М.: Просвещение, 1987.
2. Balıyev H. Azərbaycan dilinin tədrisi metodikasından mühazirələr. -Bakı: API nəşri, 1978.
3. Abbasov Ə. Azərbaycan dili təlimi məzmununa dair üç məsələ barədə //Azərbaycan dili və ədəbiyyatı tədrisi, 2000, №1.-S. 34-37
4. Qurbanov V. Aərbaycan dili dərslərində fəndaxili əlaqədən səmərəli istifadə metodikasına dair// Azərbaycan dili və ədəbiyyatı tədrisi. 1988, №3. -S.49-55
5. **Афанасев П.О.** Методика русского языка в средней школе// Хрестоматия по методике русского языка. -М.: Просвещение, 1991. –С. 68-77.

6. Kərimov Y. Azərbaycan dili üzrə metodik tədqiqatlar, onun məktəb praktikasında tətbiqi və yaxşılaşdırılması yolları / Azərbaycan dili və ədəbiyyatı tədrisi. 1987, №1. -S. 7-12.
7. Абасов З. Диалог в учебном процессе.// Народное образование 1993-№ 9-10

И.Шамсизаде

Основные принципы организации уроков литературы

Резюме

Организация уроков литературы тесно связано с целями и задачами проведения уроков. Анализ работ по методике преподования литературы показывают, что кроме основного урока литературы на практике используются и специальные уроки. Специальные уроки организуются с целью обучения творческим работам по жизненным впечатлениям и по произведениям литературы, обучения рассказам, устным ответам и устным докладам, обучения анализа сочинений и т. д. Перечисленные виды уроков могут иметь различные варианты в зависимости от конкретной цели, содержания, методов и приемов обучения.

I.SHfvsizde

Main principals of arrangement of literature lessons

Резюме

The arrangement of literature lessons is closely connected with goals and tasks of conducting of lessons. The analysis of work on methods of teaching of literature shows that besides the main literature lessons special lessons are implemented on practice. The special classes are arranged with the aim to teach creative work basing on life experience and on literary work, learning stories, oral response and reports, learning of analyses of compositions and so on. The above listed types of lessons can be various depending on certain aim, content, methods and way of teaching.

Rəyçi: Şəlalə Abdullayeva
filologiya elmləri namizədi, dosent

БЕКИРОВА ЗЕРА БАВАДИНОВНА
Аспирант кафедры крымскотатарской и турецкой литературы Крымского инженерно-педагогического университета,:
zerabekir@rambler.ru zera.bekirova@gmail.com

ПЕРВАЯ ПУБЛИКАЦИЯ КРЫМСКИХ ВАРИАНТОВ ДАСТАНА «АРЗЫ ВЕ КЪАМБЕР» В ГАЗЕТЕ «ЯНЪЫ ДЮНЬЯ»

Açar sözlər: "Yeni dünya" qəzeti, krımtatar xalqının folkloru, deportasiya,“Arzu və Qəmbər” dastanı
Keywords: newspaper "Yany dunya", folklore of Crimean Tatars, deportation, dastan "Arzu and Kamber".
Key words: «Янъы дюнья» газета, фолклор крымских татар, депортация, дестан «Арзы и Камбер».

Постановка проблемы. Впервые один из вариантов широко известного в Крыму дастана (эпоса) «Арзы и Камбер» был опубликован в сокращённом виде на русском языке известным крымским краеведом В.Х. Кондараки в 1883 году, хотя был определён им как сказка ([1] Нет сомнения, что свободно владеющий крымскотатарским языком В. Кондараки, записал дастан на языке оригинала. Спустя 110 лет, неизвестные крымские варианты общетюркского дастана были впервые опубликованы и впервые на крымскотатарском языке в газете «Янъы дюнья» в (с 1957 по 1991 гг. - «Ленин байрагъы») в период депортации крымскотатарского народа в Узбекистане.

За более чем вековой период в Крыму был издан ряд сборников сказок, преданий и эпосов крымских татар, но, ни в одном из них не встречается дастан «Арзы и Камбер». В своей статье «Къырымтатар халкъ яратыджылыгъында къадын-къызлар образы», опубликованной в 1941 году в журнале «Совет эдебияты» Джеваире Меджитова пишет, что дастан «Арзы и Гъамбер» был широко распространён преимущественно в степной части Крыма и приводит примеры из известного ей варианта[2]

В первом номере газеты на крымскотатарском языке возобновившей издание после тринадцатилетнего вынужденного перерыва и теперь уже в Узбекистане публикуется отчёт председателя секции крымскотатарской литературы при Союзе Писателей Узбекистана Шамиля Алядина с декады литературы и искусства Узбекистана. В нём он сообщает об издании сборника крымскотатарских легенд и сказок в издательстве Детгиз в Москве. «Одной из важнейших задач секции является собирание и издание богатейшего народного творчества крымских татар», пишет Шамиль Алядин и выражает уверенность, что издание сборника станет первым шагом в деле выполнения поставленных целей. [3]. Обозначенный сборник увидел свет в 1959 году под названием «Татар халкъ масаллары»[4] В данном сборнике дастана «Арзы и Камбер» (чаще встречается написание Гъамбер – З.Б.) нет. Дастан не встречается ни в первом [5] ни во втором[6] , ни в третьем выпуске сборников Н. Маркса «Легенды Крыма»[7] После относительно небольшого перерыва, вызванного гражданской войной, созданием и

строительством Крымской Автономной Республики работа по изучению крымскотатарского фольклора продолжается. Результатом явилось издание сборника А. Кончевского «Сказки, легенды и предания крымских татар»[8] Название издательства выпустившего сборник говорит об ориентированности данной книги.

В 1934 году экспедиция из работников Алупкинского музея под руководством Я. П. Бирзгала в течение года в сёлах и городах Южного берега Крыма записывают крымскотатарские сказки и легенды. Были записаны более ста фольклорных текстов, но вышедший в 1936 г. первый сборник «Сказки и легенды татар Крыма» содержал всего 21 сказку и три легенды[9] . Судьба остальных текстов неизвестна.

В этот же период работала этнографическая экспедиция по Крыму для сбора фольклора под руководством первого директора Бахчисарайского музея-дворца Усеина Боданинского. Сбором фольклора на научном уровне занимаются и учёные Научно-исследовательского института крымско татарского языка и литературы им. А. С. Пушкина Керим Джаманаклы и Амет Усеин. Результатом работы экспедиции явилось издание сборника тиражом в пять тысяч экземпляров, который был подписан в печать 26 июня 1941 года. О судьбе сборника сведений нет, лишь только то, что сохранилось всего несколько экземпляров. В 2008 году сборник был переиздан[10]. В данном сборнике также отсутствует дастан «Арзы и Камбер», хотя, учитывая его широкую распространённость среди народа ещё с древних времён, можно с уверенностью предположить, что текст дастана был всё- таки записан.

В 1944 году крымскотатарский народ был депортирован и лишён всяческих прав, в том числе права собирать и исследовать своё культурное наследие. Уже с первых номеров редакция газеты обращается к читателям с призывом изучать «богатое народное творчество». Автор статьи кандидат филологических наук из Москвы Басыр Гафаров пишет, что «собирать, изучать фольклор, значит способствовать обогащению и развитию языка, литературы, музыки. И если в этой работе примут участие рабочие и колхозники, массы, интеллигенция, молодёжь, учащиеся школ, то для народа будет сделано великое дело»[11] №17.1957).Призыв газеты был услышан. Если в самых первых номерах поговорки и пословицы, сказки, песни публиковались между партийными материалами, то уже в 48-ом номере первого года выхода газеты появляется специальная рубрика «Халкъ яратыджылыгъындан» («Из народного творчества») [12] В 1972 году в газете опубликовано сообщение: «Как вспоминает 74 летний Бекир агъа его отец знал наизусть не только более сотни текстов малого фольклорного жанра, но и более двадцати больших народных эпосов типа «Чорабатыр», «Эдиге», «Ашыкъ Гъарип», «Арзынен Гъамбер», «Фархад ве Ширин»,«Сеитбаттал Гъазы», «Шахисмаил»,«Кёрогълу», «Аслыхан ве Керем», «Лейля ве Меджнун», Айгуль» и другие»[13] ЛБ 1972 №85

Чиататели газеты и в первую очередь фольклористы, народные сказители широко откликаются на призыв газеты. В адрес редакции со всех мест вынужденного поселения народа приходят письма с фольклорными текстами. Так записи из тетрадей одного из самых активных знатоков

фольклора Умера Меджитова 1896 года рожденья, уроженца села Танагельди Карасувбазарского района были опубликованы под рубрикой «Умер агъанынъ дефтеринден» (Из тетради Умер агъа). Газета сообщает, что в тетради У. Меджитова есть записи более 60 сказок. Но публикует именно дастан «Арзы и Къамбер» с некоторыми сокращениями.[14] («Ленин байрагъы» - 1974№118 (2316). Это и явилось первой публикацией дастана на крымскотатарском языке. К сожаленью Умер Меджитов не указывает когда и от кого был записан текст дастана.

Ровно через год в газете публикуется второй вариант дастана[15] («Ленин байрагъы» - 1975 №110 (2433). Его предоставил газете Зия Аксаков, который занимался не только сбором фольклора, но и вёл исследования в области народного творчества. Данный вариант газета публикует в полном объёме и он совершенно отличается от варианта Умера Меджитова.

В 1980 году был издан сборник учёного фольклориста Джафера Бекирова «Дестанлар»[16] Во вступительной статье «Къырымтатар халкъ дастанларынынъ хусусиети» (Особенности крымскотатарских народных дастанов) Дж. Бекиров пишет, что существует множество вариантов, мы должны записать все, а опубликовать самые лучшие. Также он сообщает, что «имеем 3 варианта дастана, но в статье Дж. Меджитовой (о ней упоминалось выше – З.Б.) говорится ещё об одном варианте». Кроме этого, сам Дж. Бекиров в 1976 году записал на магнитофон ещё один вариант от старика Ильяса в Ташкентской области. В свой сборник же Дж. Бекиров включил тексты двух вариантов дастана, опубликованных в газете.

Подытожив сказанное, приходим к выводу, что известны шесть вариантов дастана. К ним можно добавить ещё один вариант записанный старшим преподавателем кафедры крымскотатарской литературы Таврического Национального университета Айше Кокиевой от своего отца [17] . По утверждению А. Кокиевой данный , ещё нигде не опубликовканный, вариант совершенно отличается от упомянутых. К сожалению, по причине того, что не все варианты были опубликованы, не представляется возможным сделать подробный анализ текстов. Тогда как правильно заметил извенстный азербайджанский фольклорист, учёный Седник Пашаев «Каждый вариант «Арзы и Гамбера» неповторимый и вечный памятник культуры» [18]

Известный научными открытиями в области фольклора, в частности общетюркских вариантов дастана «Арзы и Гамбер» видный азербайджанский учёный, профессор Газанфар Пашаев в 1971 году выпустил сборник вариантов этого произведения устного творчества.[19] Если азербайджанские учёные детально изучили азербайджанские, турецкие, армянские, туркменские варианты дастана в достаточной степени, то крымские варианты дастана почти не исследованы. Начало работе над дастаном положила газета «Янъы дюнья» («Ленин байрагъы» с 1857 по 1991 гг).

В условиях депортации возможности крымскотатарских учёных исследовать культурное наследие нации были весьма ограниченны, но теперь после массового возвращения народа на историческую Родину в Крым, когда крымские татары возрождают культуру, по-новому подходят к изучению устного народного творчества, необходимо по примеру азербайджанских

учёных собрать все упоминающиеся в различных источниках крымские варианты дастана «Ары и Гамбер», сделать научный анализ и издать отдельным сборником. Это, несомненно, явится огромным вкладом не только в крымскотатарскую, но и фольклористику тюркоязычных народов.

Литература

1. Кондараки В.Х. Крымско-татарския сказки. М.,1883. – 1-3с.
2. Меджитова Дж. «Къырымтатар халкъ яратыджылыгъында къадын-къызлар образы» //Совет эдебияты. - 1941. №3. с.18
3. Алядин Ш. «Языджыларымыз Узбекистан эдебияты ве санаты декадасында.//Ленин байрагъы — 1957. №1
4. Татар халкъ масаллары. Тертип эткен Ю. Болат. - 1959. Ташкент.
5. Маркс Н. Легенды Крыма. Вып.1. - М.1913 — 40с.
6. Маркс Н. Легенды Крыма. Вып.2. - М.1915 — 48 с.
7. Маркс Н. Легенды Крыма. Вып.3. - Одесса.1917.40с.
8. Кончевский А. Н. Сказки, легенды и предания Крыма. М.Л. Физкультура и спорт. 1930.- 91 с.
9. Сказки и легенды татар Крыма. Фольклорный сборник № 1. 1936.
10. Къырымтатар халкъ масаллары. Тертип эткенлер К. Джаманаклы ве А. Усеин. Симферополь, 2008
11. Гъафаров Б. Халкъымызнынъ зенгин яратыджылыгъыны огренейик // Ленин байрагъы- 1957.№17
12. Ленин байрагъы — 1957. №48
13. Ленин байрагъы — 1972. №85
14. Ленин байрагъы — 1974. №118
15. Ленин байрагъы – 1975. №110
16. Дестанлар. Топлагъан ве тертип эткен Дж. Бекиров. -Ташкент. 1980. с.5
17. Интервью с А. Кокиевой. Запись в архиве автора.
18. Paşayev S. Qədim “Arzu-Qəmbər” dastanı və onun yayılma coğrafiyası – электронный ресурс www.sednik-pasa-pirsultanli.com/pdf/arzu-qember.doc
19. Пашаев Г. Дастан Арзу –Гамбар» Баку. 1971

Бекирова Зера Бавадиновна

The first publication of the Crimean versions of the dastan “Arzu and Kamber” in the the newspaper "Yany dunya"

Summary

Historically, in the late 18th to the early 20th century the Crimean Tatar folklore has been collected and studied mainly by Russian-speaking scholars, who translated the texts into Russian and treated it at their discretion. Only in 30-40s of the 20th century the Crimean Tatar philologists and ethnographers have been involved in this work, but the World War II and the total deportation of people interrupted the publications of their works. The only newspaper in the Crimean Tatar language "Yany dunya" ("Lenin bayragy" - 1957-1991) collected and

published the folklore works during the deportation. The first publication of a lot of folklore texts in the original language belongs to this newspaper.

Zera Bavadinovna Bekirova

"Arzu və Qəmbər" dastanının Krım variantlarının
"Yeni dünya" qəzetində ilk nəşri
Xülasə

Tarixən elə gətirmişdi ki, 18 əsrin əvvəlindən 20-ci əsrin başlanğıcına qədər krımtatar xalqının folklorunu əsasən rusdilli alimlər toplamış və tədqiq etmişdilər, onlar bu mətnləri rus dilinə tərcümə edir və öz mülahizələrinə uyğun işləyirdilər. Və yalnız 20-ci əsrin 30-40-cı illərində bu işə krımtatar filoloq və etnoqrafları qoşulur, lakin onların əsərlərinin dərc edilməsinə İkinci Dünya müharibəsi və xalqın total deportasiyası mane olur. Deportasiyası dövründə şifahi xalq yaradıcılığının toplanması və nəşri ilə Krımtatar dilində yeganə qəzet olan "Yeni dünya" ("Lenin bayrağı" -1957-1991) məşğul olur. Bir çox folklor mətnlərinin orijinal dildə ilk nəşri bu qəzetə məxsusdur.

Rəyçi: Almaz ÜLVİ (Binnatova)
filologiya elmləri doktoru

AYTƏN QURBANOVA
AMEA Nizami adına Ədəbiyyat İnstitutunun doktorantı
filoloq86@mail.ru

BƏDİİ PORTRETIN XÜSUSİYYƏTLƏRİ (XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ YAZILMIŞ HEKAYƏLƏR ƏSASINDA)

Açar sözlər: hekayə, bədii portret, portret hekayəsi
Ключевые слова: история, художественный портрет, портрет история
Keywords: story, art portrait, portrait story

XX əsri bütövlükdə arxada qoyduğumuz üçün tam qətiyyətlə deyə bilərik ki, həddən artıq qarışıq, kifayət qədər keşməkeşli və ziddiyyətli dövr kimi tarixdə qalır. Baş verən tərəqqi partlayışını, inqilabları, iki cahan müharibəsini, texnikada, mədəniyyətdə, incəsənətdə, eyni zamanda ədəbiyyatda müşahidə etdiyimiz inkişafı xatırlamaq kifayətdir.

1920 – 1930 – cu illər Azərbaycan mühiti üçün də daha ziddiyyətli xarakerə malik idi : yenilik, inqilab, kollektiv əmək, bərabər həyat, qadın hüququ, təhsil, maarif bir yanda, repressiya illəri, qan – qada, ölüm digər yanda. Təbii ki, hər bir ictimai – tarixi formasiyanın gərginlikləri olur və bu əks məqamlar daim özünü mətbuatda, mədəniyyət və incəsənətdə, bilvasitə ədəbiyyatda göstərir.

XX əsrin əvvəllərində, daha dəqiqi inqilabdan sonrakı dövrdə ədəbiyyatda yeni meyillər, fikirlər formalaşmağa başladı. Bu da səbəbsiz deyildi. Təbii ki, bədii ədəbiyyatda təsvir olunan hər ideya müəllif düşüncəsini əks etdirsə də,eyni zamanda ümumxalq ruhunun, həyatının göstəricisidir.

Əsrlər boyu müxtəlif mövzularla zənginləşən Azərbaycan bədii ədəbiyyatı XX əsrin 20 – ci illərindən tam yeni ovqatla inkişaf etməyə başladı. Belə ki, proletariatın, yeni quruculuğun, və s. kimi mövzuların təsviri də öz növbəsində mövzu baxımından dönüş yaratmağa qadir idi. Ədəbiyyata yeni gələn mövzu və ideyalar dovrün həm yaşlı, həm gənc yazarları tərəfindən işlənirdi.

"Beləliklə, milli nəsr əvvəlki səciyyəsini büsbütün itirir. O, artıq yeni məzmun, problematika, konflikt ehtiva edir, yeni ideologiya havasında yaşayır, başqa bir tipologiya göstərir. Bu – sosializm realizmi ədəbiyyatıdır." (1,150)

Mövcud siyasi – ideoloji mənzərənin təsvirindən də çəkinməyən bir sıra sənətkarlarımız hakim ideologiyanın tələbi və müəyyən qədər o dövr Azərbaycan xalqını maarifləndirmək məqsədilə üstünlüyü avam, müti, geri düşüncəli, hədsiz fanatizm və mövhumat aludəçisi olan insanları növbənöv mövzularda və janrlarda yazdıqları əsərlərinin baş qəhrəmanına çevirmişlər.

Sözsüz ki, söhbət nəsrdən gedirsə, hekayənin hər baxımdan bədii ədəbiyyatda tutduğu mövqeyi vurğulamaq lazımdır və diqqəti ona yönəltmək lazımdır. Əlbəttə, XX əsrin ilk 20 – 30 ilində hekayə janrının tipologiyası və bədii təkamülü haqqında geniş söz açsaq da, bir daha vurğulamaq lazımdır ki, hekayə məhz yığcam və çevik janr olduğu üçün hadisənin və ideyanın oxucuya catdırılması da nisbətən daha rahatdır. Istənilən halda yazıçının yazı üslubundan və sənətkarlığından asılı olaraq hər hansı bir hadisənin təsviri hekayəni oxunaqlı etməyə qadirdir.

Əsrin əvvəllərində yeni təkamül mərhələsinə qədəm qoyan hekayə janrında ideya, mövcud hadisəyə baxış, demək olar ki, bir sıra yazıçıların yaradıcılığında oxşar idi.

Məsələn, qadın azadlığı (C.Cabbarlı, S.Hüseyn, Ə. Ələkbərzadə, T. Ş. Simurq, M.S. Ordubadi), avamlıq, gerilik (C.Məmmədquluzadə, Ə. Haqverdiyev, M. S. Ordubadi, Qantəmir), ifrat fanatizm (C. Məmmədquluzadə), yalançı ruhanilik (Qantəmir, C. Məmmədquluzadə), lovğalıq, mənəmmənəmlik (M. S. Ordubadi, Y. V. Çəmənzəminli, S. Hüseyn), təhsildən, elmdən uzaqlıq (demək olar ki, dövrün bütün yazıçılarının yaradıcılığında) və s. kimi mövzular düz xətt kimi bu və ya digər dərəcədə bütün nasirlərin yaradıcılığından keçirdi.

Baş verən siyasi məsələlər, sosialist inqilabı ədəbiyyatın bütün janrlarına olduğu kimi hekayəyə də yeni mövzular gətirdi.

" İlk dəfə olaraq fəhlə mövzusu, fəhlə obrazı ədəbiyyata gəldi. Hətta bu mövzuda ilk realist hekayə yarandı. Onun ilk nümunəsini bolşevik yazıçı S. Musəvi yaratdı. " (7,5)

Sözü gedən dövrdə yazılmış bir sıra hekayələri aşağıdakı kimi qruplaşdırsaq, bəzi məqamlara daha yaxından aydınlıq gətirmək mümkündür.

1. Portret hekayələri
2. Əhvalat və xarakter hekayələri
3. Satirik hekayələr
4. Məişət hekayələri

Nisbətən oxşar təsnifat Ə. Məmmədovun 1983 – cü ildə nəşr etdirdiyi " Azərbaycan bədii nəsri " adlı monoqrafiyasında rast gəlinir. Lakin müəllif satirik, yumoristik hekayələri aşağıdakı kimi qruplaşdırmışdır.

1.Vəziyyət hekayələri
2. Portret hekayələri
3. Yumoristik miniatürlər
4. Lətifə hekayələri

Görünür, müəllifin bu cür təsnifat aparmasına başlıca səbəb XX əsrin ilk otuzilliyində yazılan satirik hekayələrin sayının nəzərəçarpacaq qədər artıq olması idi.

Bədii əsərdə surətin xarici görkəminin – boyu, bədən quruluşu, üz cizgiləri və geyimin sözlə ifadəsinə portret deyilir.

Portret bir növ yazıçının obrazın şəklini çəkmək ustalığıdır desək, yanılmarıq. Belə ki, hər hansı bir konkret şəxsin təsvirini oxucunun beynində həmin obrazı canlandıracaq səviyyədə vermək yazıçının məharətidir.Bədii portret haqqında ədəbiyyatımız da da, dünya ədəbiyyatında da bir sıra tədqiqatlar aparılmışdır. Ədəbiyyatımızda İ.Vəliyevin "Ədəbi portret və xarakter" adlı tədqiqatında ədəbi portret bir sıra aspektlərdən araşdırılır.

Ədəbiyyatımızda, Y.Qarayev, F.Hüseynov, M.Məmmədov, T.Hacıyev, M.Müseyibov, Ə. Mirəhmədov, Ə.Məmmədov və b. portretin nəzəri məsələləri haqqında dəyərli fikrilər söyləmişdir. Ədəbi portret məsələsi yalnız Azərbaycan ədəbiyyatını deyil, eyni zamanda bütün dünya ədəbiyyatında tədqiqat obyekti olmuşdur. A.S.Myasnikov, V.Y.Baraxov, V.Smirnova, İ.R.Semençuk, N.V.Nikolayev, B.S. Buryak, və b. sovet tədqiqatçılarının da ədəbi portret haqqında tədqiqat əsərləri vardır.

Hətta ədəbi portret yunan filosofu Aristotelin də diqqətini cəlb etmiş və o, Özünün "Poetika" əsərində bu haqda yazmışdır.(12, 16)

Əsəri daha real və hadisələri daha inandırıcı vermək müəllifin qarşısında duran ən vacib məsələdir. Bunun üçün müəllif obrazın bədii portretini yaratmalı olur. Bədii portret özü də fərqli ola bilər. Biri həyatda yaşamış real şəxsin təsviri və ya yazıçının öz təxəyyülü nəticəsində yaratdığı qəhrəmanın portreti. Ancaq yenə də bunların hər ikisi insanın təsviridir.

" Portret hekayələrində müəllif əsas obrazın həm xarici görünüşünü həm də onun fikir və düşüncəsini, arzu və əməlini, hərəkət və davranışlarını həmahəng şəkildə qələmə alır.Odur ki, belə hekayələr bəzən həmin obrazın adı ilə tanınır." (7,49)

C. Məmmədquluzadənin "Qurbanəli bəy" hekayəsi yuxarıdakı fikir üçün tipik nümunədir. Hekayədə əsas obraz – Qurbanəli bəyin geyimi, boyu, sifət quruluşu haqqında bir kəlməyə də rast gəlinmir. Ancaq onun bütün hərəkətləri, nökəri Kəblə Qasımla, pristavın xanımının ad günündə qonaqlarla olan münasibətində portreti ilə yanaşı xarakteri də açılır. Xüsusən, hekayənin sonunda baş qəhrəmanı olduğu kimi görürük.

" -Arvadı genə çıxdı eşiyə və bəy mələfəni götürüb çarşab kimi saldı başına, çıxdı həyətə, qaçıb soxuldu tövləyə və girdi atın axuruna."(6, 125)

Yaxud C. Məmmədquluzadənin 1923 – cü ildə yazdığı "Zırrama" hekayəsinin də qəhrəmanı bütün xüsusiyyətləri ilə təsvir olunub. Bu hekayədə də obrazın həm xarici görünüşü təsvir edilir, həm də onun hərəkətləri xarakteri oxucuların gözü önündə tam açılır.

"Axşam vaxtı çay içdiyim yerdə küçədən bir adam məni çağırdı. Başımı qalxızıb gördüm ki,Qurbanqulu bəy əllərini belinə qoyub, başını bir az da dikəldib, bizim akoşkaya tərəf boylanır." (6, 258)

Hekayəni oxuduqda oxucu boşboğaz və gəvəzə bir adamın bütün cansıxıcı xüsusiyyətlərini hiss edir və gözü önündə canlandırır.

Yuxarıda deyilən fikirləri C. Məmmədquluzadənin bir sıra hekayələrinə aid etmək mümkündür. Məsələn, "Molla Fəzləli", "Fatma xala", 'Quzu', "Rus qızı", "Hamballar", "Bəlkə də qaytardılar" və bir sıra başqa hekayələri portret təsviri ilə seçilir.

Hətta Mirzə Cəlilin hekayələrini oxuduqda "Oğru inək" hekayəsi də diqqətimi çəkdi. Təbii ki, onu portret hesab etmək ən azı gülüncdür. Amma müəllif heyvanın xarici görkəmini mükəmməl təsvir edib.

Əsrin əvvəllərində portret hekayələrinə başqa yazıcılarında yaradıcılığında rast gəlirik. Ə. Haqverdiyevin "Mirzə Səfər" hekayəsinə diqqət yetirsək, görərik ki, yazıçı bir neçə dəfə Mirzənin təsvirini vermişdir. Portret yaratmaqla o, oxucunun obraz haqqında təsəvvürünü konkretləşdirmişdir.

"Ağ çuxalı, ağ arxalıqlı, ikiüzlü buxara dərisindən papaqlı, şişman göbəyi üzərində gümüş kəmərli Mirzə Səfəri hamı yaxşı tanıyırdı. (2,202)

Hekayədə növbəti səhnədə portret bir qədər fərqli üsulda – inkar üsulunda yaradılmışdır.

"Səfər, doğurdan da, qızların xoşuna gələnlərdən deyildi. Fəqir, başıaşağı bir oğlandı, vurub – yıxan deyildi, belinə tapança bağlayıb, əlini belinə, papağını gözünün üstünə qoyub gəzməzdi. Birçəklərini qotaz daramazdı, papiros çəkməzdi,

Naşurada başını yarmazdı, qaməti də movzun deyildi. Belə adamları qızlar sevməzdilər.”(2, 203)

Portret hekayələrində hər hansı bir obrazın təsviri istənilən halda bir neçə cümlə, yaxud abzas şəklində verilir. Hekayənin çox böyük bir qismi isə məişət, satirik hadisələrin təşkil etdiyi sujetden ibarət olur.

Dövrün yazıçılarından biri olan Böyükağa Talıblının yaradıcılığı da portret hekayələri baxımından maraqlıdır. 1927 – ci ildə yazdığı “40 zopa” hekayəsində baş qəhrəman Mirzə Süleyman bəyin portreti, demək olar ki, bütün hekayə boyu təsvir edilir. Onun geyimi, danışıq tərzi, ədaları konkret boyalarla hekayədə öz əksini tapsa da, sifət cizgilərindən qəti təsəvvür yaranmır.

Ə. Məmmədov adı çəkilən monoqrafiyasında Ə. Haqverdiyevin “Mütrüb dəftəri”, “Qiraət” hekayələrində də Qasım əminin və Məşədi Qulamın portretinin təsviri haqqında da məlumat verir. Həmin hekayələr 1910 – 1911 – ci illərdə qələmə alımışdır. Lakin hekayələrin portret təsvirindən daha çox xarakter təsvirinə aid etsək, fikrimizcə, yanılmarıq. Belə ki, “Qiraət” hekayəsində Məşədi Qulamın fonunda dövrün bir sıra tipik pullu kişi obrazlarının xarakterini görmək mümkündür.

Qantəmirin “İntelligent” hekayəsi də portret hekayələrinə aid edilə bilər. Müəllif qəhrəmanın xarici görünüşünü bir neçə yerdə təsvir edir.

“Onun boyu azca uzun, şalvarı azca qalife, çənəsi azca yastı, bədəni azca arıqdır. Çeçelə barmağındakı dırnağının uzunluğu doqquz millimetr yarımdır. ”(5,64)

XX əsrin əvvəllərində Yusif Vəzir Çəmənzəminlinin hekayə yaradıcılığı özünəməxsus yer tutur. Müəllifin, xüsusən, 1920 – ci illərə qədər yazdığı hekayələrində maraqlı portret təsviri ilə qarşılaşırıq. Belə ki, bu portret sahibləri nə hər hansı bir bəy, nə intelligent və ya müəllim deyillər. Yusif Vəzir “Cənnətin qəbzi” (1909) hekayəsində Veylabad şəhərində beş kişinin biri olan başmaqçı usta Ağabalanın maraqlı portretini yaradır:

“ ...saleh, salim, mömin, Allah bəndəsi bir şəxs idi. Bir adam yox idi ki, onun saqqalına həsəd aparmasın. Doğurdan da, usta Ağabalanın saqqalı gözəl saqqal idi: qara atlaz parçası kimi üzünün iki tərəfini tutub gicgahlarına getdikcə ucları nazilir, gözəl bir surətdə qulaqlarına yapışırdı.” (11,39)

Maraqlısı da budur ki, müəllif burda obrazın yalnız bir xususiyyətini təsvir etməklə portret yaradıb. Bundan başqa, Yusif Vəzir Çəmənzəminlinin digər hekayələrində də bədii portret görürük. Məsələn, “Şair” , “Divanə”, “Ağ buxaqda qara xal”, “Xasiyyətləri tutmadı” və s.

Çəmənzəminlinin hekayələrini oxuyarkən diqqətimi cəlb edən digər bir məqam isə yazıçının yaratdığı bədii portretin, yazığı hekayələrin, təsvir etdiyi bədii obrazların və seçdiyi mövzuların qloballıq nöqteyi-nəzərindən dövrün tələbi ilə tam uzlaşdırmasıdır. Əsrin əvvəllərində yazdığı , demək olar ki, bütün hekayələrində əsasən molla, xurafat qurbanı olmuş qadınların, yalançı, fırıldaqçı dindarların təsvirini verirdisə, artıq 1920 – ci illərdən başlayaraq onun bədii portret qəhrəmanları şair, mülkədar, mirzə, kəndli qoca və başqalarıdır.

Mir Cəlal isə dövrün gənc yazarlarından olmasına baxmayaraq, bəzi hekayələrində maraqlı portretlər yaratmışdır. Məsələn, “İstifadə”hekayəsində Səadət xanımın portreti kifayət qədər dolğun göstərilir və maraqlı məcazla seçilir.

“...Mən onun üzünə baxırdım. Zahiri təntənəsinə, ədа, gülüş və nəzakətinə görə bir o qədər gözəlliyi yox idi.

Dəyirmi, mütənasib üzü vardı, ağzı balaca, boyalı dodaqları nazik, gözü yekə,qara qaşları qalın idi. Burnu aşağı getdikcə çadır kimi yayılır, sanki dodaqlarındakı boya qurumasın deyə kölgə salırdı.

Üzündən aşağı endikcə tənasüb pozulur:boynu yoxdu. Deyəsən, ağır bir qapaz vurulmuş, boynu qınına girmişdi. Ağ açıq qolları hər iki tərəfdən mərmər sütun kimi sallanırdı. Sinəsi daş ayna kimi parıldayırdı."(9,20)

Əsərdə bədii portretin verilməsi təbii ki, əsərin janr – növ xüsusiyyətlərindən asılı deyil. Əsas təsvir edilən obrazın tam aydınlığı ilə oxucunun beynində canlandırılmasıdır.

Ədəbiyyat

1. Əlişanoğlu Tehran. XX əsr Azərbaycan Nəsrinin poetikası.Bakı "Elm"2006, 312 s.
2. Haqverdiyev Əbdürrəhim. Seçilmiş əsərləri. İki cilddə.II cild. Bakı, "Lider" 2005, 408 s.
3. Hüseyn Seyid. Seçilmiş əsərləri. Bakı. Azərbaycan Dövlət nəşriyyatı. 1960, 464 s
4. Xəlilov Pənah. Nəsrimizin üfiqləri. Bakı, "Yazıçı", 1982, 183 s.
5. Qantəmir.Seçilmiş əsərləri. Azərbaycan dövlət nəşriyyatı. 1972, 349 s.
6. Məmmədquluzadə Cəlil. Seçilmiş əsərləri. Dörd cilddə.I cild. Bakı, "Öndər" nəşriyyat, 2004,664 s.
7. Məmmədov Əflatun. Azərbaycan bədii nəsri.(XIX əsrin sonu XX əsrin əvvəlləri). Bakı, "Elm", 1983,184 səh.
8. Mir Cəlal. Klassiklər və müasirlər. Bakı.Azərbaycan Dövlət nəşriyyatı 1973, 295 s
9. Mir Cəlal. Seçilmiş əsərləri.Bakı "Şərq-qərb"2005,384 s.
10. Talıblı Böyükağa. Seçilmiş əsərləri.Azərbaycan Dövlət nəşriyyatı.1960,164s
11. Yusif Vəzir Çəmənzəminli. Əsərləri.3 cilddə. I cild.Bakı Avrasiya Press 2005, 360 s
12. В. С. Барахов. Литературный портрет. Ленинград Наука 1985, 311 с.

Айтян Гурбанова

Художественные особенности портрет
(На основе рассказов написанных в XX веке)
Резюме

Статья об искусстве портрета. На основе анализа многих из историй, написанных в начале XX века, исследует различные типы портретов.статья посвящена жанру портрета – рассказа в азербайджанской литературе 1920-30 годов на материяле творчества Дж. Мамедгулузаде, С.Гусейна, Гантемира Ю.В.Чеменземинли. Исследовал исследователей в различных портретного искусства в мировой литературе. Портрет из рассказов, написанных в начале XX века была эпоха изображены в типичных людей. Серия историй, написанных до и после революции века играл наиболее характерные образы.

Aytan Gurbanova

The features of artistic portrait
(On stories written in the begining of XX century)
Summary

The article is about the art of portrait. Based on the analysis of many of the stories written in the early twentieth century, explores the different types of portraits. The article tells about the 1920- 1930 years of literary portraits narrations. J. Memmedguluzade, S. Huseyn, Gantemir, G.V. Džemenzeminoi shows how to create portraits of professionals. Researchers explored various portraiture in the world literature. Portrait of stories written in the early twentieth century was the era depicted in typical people. A series of stories written before and after the Revolution a century played the most characteristic images.

Rəyçi: Professor Şirindil Alışanlı

MEHRAM FƏRƏCOVA
AMEA Ədəbiyyat İnstitutu
mehram.faracova @mail.ru

ORXAN VƏLİ POEZİYASINDA FOLKLOR MOTİVLƏRİ

Açar sözlər: ənənə, folklor, motiv, mənbə, element, inikas
Ключевые слова: традиция, фолклор, мотив, источник, элемент, отражение
Key words: tradition, folk, motive, sourse, elements, reflection

Türk poeziyasında yeni mərhələ yaratmış Orxan Vəli Kanıkın yaradıcılığının təsirləndiyi bir neçə mənbə var. Bunlardan ən əsas olan isə Qərb şeiri (xüsusilə fransız şeiri) və türk xalq ədəbiyyatıdır. Hər iki mənbənin onun şeirlərində spesifik yeri olduğunu qeyd edə bilərik. Yaradıcılığının ilk mərhələsində türk xalq şeirinin təsirindən əsaslı olaraq bəhs edə bilməsək də, sonrakı mərhələdə bu təsirin izlərinə aşkar şəkildə rast gəlirik. Tədqiqatçıların bu məsələ ilə əlaqədar mülahizələri müxtəlifdir:

1. *Bəziləri xalq şeirinin təsirinin Orxan Vəli yaradıcılığında nəzərəçarpacaq dərəcədə olduğunu göstərir (1,25).*
2. *Bəzi tədqiqaqçılar isə bu əlaqənin elə də geniş olmadığını qeyd edirlər ((2, 284), (3,93)).*

Orxan Vəli türk xalq şeirinə ümumi baxışları əvvəldən müsbət olub: yaradıcılığının ilk mərhələsində bu, münasibət olmaqla qalıb; ikinci mərhələdə isə bu müsbət münasibətin yaradıcılığında təzahürünün şahidi oluruq: **"Gözlərin"**(4,41), **"Hicrət II"**(4,38), **"Məzar daşı kitabəsi"**(4,47), **"İstanbul nəğməsi"**(4,71), **"Yol nəğmələri"**(4,34), **"Birəli şeir"**(4,130), **"Gəlirli şeir"**(4,143) və s.

Orxan Vəli türk xalq şeir ənənəsini öz yaradıcılığında müxtəlif aspekt-lərdən istifadə edib: *forma, dil, mövzu* və s. Bu istifadə çox böyük həcmli olmasa da, şeirlərdə spesifik tərzdə təzahürünü göstərir və şairin yaracılığında əhəmiyyətli bir qol təşkil edir.

Onun **"Gözlərin"** adlı şeiri türk xalq ədəbiyyatında lirik növün janrlarından olan "təkərləmə" (yanıltmac) tərzində yazılıb:

Gözlərim,
Gözlərim nerde?
Şeytan aldı götürdü,
Satamadan gətirdi.
Gözlərim,
Gözlərim nerde? (4,41)

Şairin **"Hicrət II"** şeiri, ümumilikdə, şifahi ədəbiyyatın xüsusiyyətlərini daşımasa da, son misralarda müəyyən elementlər var. Hakan Sazyek bunun "fal"dan

yararlanma olduğunu qeyd edir: "... bu şeirin səkkizinci misrası falın istifadə olunduğu cümlə quruluşunu xatırladır" (2,276).

.....

Yol mu, para mı, mektup mu;
Bir düşündüyü var. (4,38)

O. Vəlinin xalq şeirinə marağı bəzən iqtibaslara gətirib çıxarır. **"Məzar daşı kitabəsi III"** şeirində bayatının (türk şeirində **mani** – M.F.) iki misrası olduğu kimi istifadə edilib:

Yalnız şu beyit kaldı,
Kahve ocağında, el yazısıyle:
"Ölüm Allahın emri,
Ayrılıq olmasaydı". (4,47)

Şeirdəki *"Kendi gitti, ismi bile kalmadı yadigar"* misraları da aninimləşmiş bir misranın təkrarıdır. Rıza Filizok bu şeirin məşhur **"Havada bulut yok"** nəğməsiylə də yaxın bir oxşarlığının olduğunundan bəhs edir: " Orxan Vəli əsgərin macərasını fərdi bir macəra halına gətirə bilmək üçün bu nəğmədəki bəzi ünsürlərdən yararlanır. Onu

Kışlanın önündə redif sesi var
Bakın çantasına, acep sesi var
Bir cift kundurayla bir de fesi var.

Misralarında olduğu kimi çantasıyla və geyimiylə fərdiləşdirir:

Tüfeğini deppoya koydular,
Esvabını başkasına verdiler.
Artık ne torbasında ekmek kırıntısı,
Ne matrasında dudaklarının izi" (3,107).

O. Vəlinin bu şeirində xalqdan olan bir insanı, bir əsgəri anladarkən xalq nəğməsindən hansı ölçüdə və nə dərəcədə istifadə etdiyi aydın görünməkdədir. **"Məzar daşı kitabəsi III"** şeirindəki folklordan yararlanma usulundan **"İstanbul nəğməsi"**ndə də istifadə edir. Lakin buradakı məqam bir az fərqlidir. Əvvəlki şeirdə bayatının son iki misrasını iqtibas etmişdisə, burada bir nəğməni bütün mətni ilə şeirin içinə yerləşdirib. Digər fərqli cəhət isə bu iqtibasın işlənmə səbəbidir. Hakan Sazyek buna belə aydınlıq gətirir: "Əvvəlki şeirdə bir başqasının dünyasını yansıtmaq məqsədilə işlətdiyi xalq şeirini bu dəfə öz mənəvi aləmini, ruh vəziyyətini göstərmək niyyətiylə istifadə edir" (2,278).

"İstanbul nəğməsi" şairin xalq nəğmələri üslubunda yazdığı ən əhəmiyyətli şeirlərdən biridir. Dörd bənddən ibarət şeirin birinci bəndində şair özünü tanıdır:

İstanbulda, boğaziçinde,
Bir fakir Orxan Vəliyim;
Velinin oğluyum,
Tarifsiz kederler içinde.
Urumelihisarına oturmuşum;
Oturmuş da bir türkü tutturmuşum: (4,74)

İkinci və üçüncü bəndlərdə bir xalq nəğməsini bütünlüklə iqtibas edir:

"İstanbulun mermer taşları;
Başıma da konuyor, konuyor aman, martı kuşları;
Gözlerimden boşanır hicran yaşları;
Edalım,
Senin yüzünden bu halim".

..... (4,74)

Dördüncü bənd isə birinci bəndin təkrarıdır.

Rıza Filizok bu şeiri şairin xalq ədəbiyyatı ilə əlaqəsində ən yaxşı nümunə hesab edir: "Orxan Veli xalq ədəbiyyatından forma, məzmun, mövzu və s. almaqla onlar vasitəsiylə tamamilə özünəməxsus bir şeir yaratmışdır. Bu, xalq şeirini taqlid etməkdən, yaxud o şeiri inkişaf etdirməkdən, onun davamı olmaqdan fərqli bir vəziyyətdir. Bu şeirdəki nəğmə də şairin məqsədinə çatmaq üçün istifadə etdiyi vasitələrdən biridir" (3,99)

Ümumiyyətlə, bu şeir ətrafında uzun sürən mübahisələr yaratdı. Bir şeirdə folklordan belə geniş miqyasda istifadə olşunmasını Orxan Vəlinin təsir altında qalmasıyla əlaqələndirənlər də oldu. Bu şeirə görə onun yaradıcılığını əvvəllər müsbət qarşılayanlar əleyhinə yazılar yazmağa başladılar ((5),(6,4)).

Bu paradoks münasibət isə Orxan Vəlinin heç bir çərçivəyə, ölçüyə sığmayan yeni şeirləri və ənənəyə bu qədər yaxın olan şeirləri arasındakı ziddiyyətin özündən qaynaqlanırdı.

"İstanbul nəğməsi" ənənəyə məxsus olan cəhətlərin fərdi üslubda birləşməsinin uğurlu nümunəsi sayıla bilər.

"Yol nəğmələri" şeiri O. Vəlinin türk xalq şeirindən yararlanmanın əhatə dairəsinə və ölçüsünə görə öndə gələn nümunələrindəndir. Şeirin adı, xalq nəğmələnin iqtibası (12 nəğmə), ümumi forma tərzi və s. ənənənin şeirdə üstünlüyü ilə nəticələnir. Bu, şairin ən uzun şeiridir, 174 bənddən ibarətdir. "Dastan kimi" də adlanan şeirdə şair *Anadolu insanını* və *özünü* nəğmələr vasitəsiylə ifadə edərək nəğmələrdən ibarət bir yolçuluq dastanı yaratmağa çalışıb.

Şeir Hərəkədən başlayıb Zonquldaqda bitən bir yolçuluğun hekayəsidir. O, yol boyu gördüklərini təsvir edir (bu, müəyyən qədər bizim "səfərnamələri" də xatırladır – M.F.). Şair gördüklərinin onda yaratdığı, oyandırdığı duyğu və hisslərini xalq nəğmələrindən yararlanaraq dilə gətirir:

"Herekeden çıktım yola,
Selam verdim sağa sola,

Haydi, benim bu dünyaya qarip gelmiş şairim,
Yolun açıq ola!" (4,84)

"Ada yolu kestane
Aman dökülür tane-tane". (4,85)

.....

"Uy neyimiş neymiş, aman-aman,
Kaderim böyle imiş,
Yar üstünə yar sevmek, aman-aman,
Ateşten gömleğimiş" (4,89)

.....
Siyah axar Zonquldağın deresi,
Yüz karası deyil, kömür karası;
Böyle kazanılır ekmek parası".

Gemiler vardı limanda gemiler
Her biri yeni bir ufuka gider. (4,89)

"Yol nəğmələri" ümumi quruluş baxımından Faruk Nafiz Çamlıbelin **"Xan divarları"** şerinə də bənzədilir ((2,281),(3,100)). Bənzərliklərlə yanaşı fərqli məqamların da təzahürü olduğunu qeyd etməliyik. F.N. Çamlıbeldə diqqət mərkəzində təbiət, O.Vəlidə isə insandır. **"Xan divarları"**nda qoşma janrından, **"Yol nəğmələri"**ndə nəğmələrdən istifadə olunub və s.

"Yol nəğmələri"ndən sonra yazılan **"Birəli şeir"** də xalq ədəbiyyatının forma baxımından ən çox tətbiq olunduğu nümunə kimi təqdim oluna bilər. Hakan Sazyek burada *"səmai", "dastan", "bayatı"* elementlərindən istifadə edildiyini göstərir (3,281). Şeirin **"aaba"** qafiyə sistemi bayatıdan alınıb. "Amma heca sistemi "səmai"yə tam uymur, burada 7, 9, 10 hecalı misralar da var (2,281). Rıza Filizok **"kimi"** sözü ilə başlayan misralarda xalq şairi Məstinin **"İnsan dastanı"** adlı şeiri ilə oxşarlıq olduğunu göstərir (3,108).

Kimi peyğambere inanır; (9)
Kimi saat köstek donanır; (9)
Kimi katib olur, yazı yazar; (10)
Kimi sokaklarda dilenir. (9) (4,130)

Bu şeir, sadəcə, xalq şeir ənənəsindən istifadəyə görə deyil, həm də müəyyən ictimai motivlərin *ironik* şəkildə (*ironiya* O.Vəli şeirlərinin, demək olar ki, əksəriyyətini əhatə edir) təzahürü və inikası ilə diqqət çəkir:

Bu düzen böyle mi gidecek?
Pireler filleri yutacak;

Yedi nüfuslu haneye
Üç buçuk tayın yetecek? (4,130)

"Birəli şeir" həm quruluş, həm məzmun, həm də müəyyən deyimlərin istifadəsi aspektindən xalq şeir ənənəsiylə yazılmış digər şeirlərdən fərqli məqama malikdir: "Xalq şeirindən daima iqtibas üsuluyla istifadə edən şair ilk dəfə olaraq "Birəli şeir"də onunla tam bir əlaqə qurub" (2,282).

"Gəlirli şeir" də şairin folklor motiv və elementlərindən istifadə etdiyi şeirlərdən biridir. Yeddi misradan ibarət şeirin birinci, ikinci, dördüncü misralarının sonunda *"nar gəlir", "yar gəlir"* və *"dar gəlir"* sözlərinin işlənməsi cinas şeirlərin təsiri və bu təsirin təzahürü kimi dəyərləndirilə bilər:

İstanbuldan ayva da gelir, *nar gelir*,
Döndüm baktım, bir edalı *yar gelir*,
Gelir desen *dar gelir*;
Gün aşırı alacaklılar gelir.
Anam anam,
Dayanamam
Bu iş bana zor gelir. (4,143)

Təbii ki, şair cinas söyləmək üçün bu şeiri yazmayıb. Cinas şairin məqsədinə çatması üçün işlədilən ədəbi priyomdur. Bu şeirdə də Orxan Vəli yaradıcılığının əsas prinsiplərindən olan heyrətləndirmə və yanıltmanın aparıcı və hakim mövqeyi, ilk misralarla son misraların arasında ilk baxışdan uyğunsuzluq kimi görünən ziddiyyət şairin məqsədinin uğurlu həllini təmin edib.

Orxan Vəlinin bəzi şeirlərində nağıl və əfsanələrdən gələn bəzi elementlər, ünsürlər də öz inikasını tapıb. Dini mövzuda olan **"Buğda"** şeiri Yusif-Züleyxa və Həzrəti Ömərin hekayəsi əsasında yazılıb. Şeir Yusifin qardaşlarının buğda üçün karvanla yola çıxmasıyla başlayır. "Yusifin qardaşlarının buğda istəmək məqsədiylə yola çıxmaları Yəhya Bəyin "Yusif-Züleyxa" adlı məsnəvisində:

Bu on kardeş uyup bir karbana
Diyarı Mısra dek oldu revane

Misralarıyla anladılmışdır (3,105).

Şair iknci bənddə yusifin quyuya salınması ilə əlaqəli bir əhvalatdan istifadə edib.

Okundan ayrılmak üzere yay,
Kuyuların ağzı genişledi.
Okundan ayrılmak üzere yay,
Korku ta kemiğime işledi. (4,160)

Daha sonra Həzrəti Ömərin ac uşaqlarını ovundurmağa çalışan anayla bağlı rəvayətini xatırladan bir dördlük verilir:

Eriyecek tencerede kalay,
Çocuklar ağlamasınlar dağda.
Eriyecek tencerede kalay,
Yetişmeyecek Ömer imdada. (4,161)

"Nağıl" və **"Yuxu"** şairin nağıl motivlərinin istifadə edildiyi şeirləridir. **"Nağıl"** şeirində şair uşaqlıq dövrünə duyduğu həsrəti dilə gətirir. Bu həsrətə səbəb isə uşaq ikən bütün qayğı və problemlərin içində ola-ola qayğısız yaşamaqdır. Nağıl dinləyəyn Orxan Vəli bu rahatlığın içindədir: o, bir tərəfdən anasına qısılıb, digər tərəfdən alaylarla *"Qaf dağına hərəkət"* etməkdədir. Beləcə folklor mövzusu şeirə folklor ünsürləri gətirib:

Çocuk könlüm qayğılardan azade;
Yüzlerde nur, ekinlerde bereket;
At üstünde mor kaküllü şehzade;
Unutmaya başladığım memleket.

Şakağımda annemin sıcak dizi,
Kulağımda falçı kadının sözü,
Göl başında padişahın üç kızı,
Alaylarla Kafdağına hareket. (4,172)

"Yuxu" şeirində də nağıl motivləri öz inikasını tapıb. Şair iki bəndlik şeirdə bir neçə nağıldan təsirlənərək lakonik şəkildə istifadə edib. Şeirin ümumi tendensiyası və şairin yuxudaykən nağıl qəhrəmanlarının yaşadıqlarını görməsi folklor motivinin maraqlı təzahürüdür:

Üzerinde beni uyutan minder
Yavaş-yavaş girer ılık bir suya,
Hinde doğru yelken açar gemiler,
Bir uyku alemine doğar dünya

Sırça tastan sihirli su içilir,
Keskin Sırat koç üstünde keçilir,
Açılmayan susam artık açılır,
Başlar yolu cennete giden rüya. (4,173)

Maraqlıdır ki, tədqiqatçılar arasında folklorla əlaqəli bu şeirin adını yalnız Rıza Filizok qeyd edib.

Tədqiqatçılar tərəfindən folklorla əlaqəsi olan şeirlər arasında **"Qarmaqarışıq"** şeirinin də adı çəkilir. Biz bu nümunəni xalq ənənəsi ilə əsaslı olaraq əlaqəli hesab etməsək də, R. Filizok bu şeiri nağıl ünsür və motivləriylə zəngin gözəl bir nümunə kimi təqdim edir (3,106).

Bir okla yaralı kalbim,
Boyacının sandığında;

Güvercinin kağıt helvasında;
Sevgilim kayığın burnunda;
Yarısı balık,
Yarısı insan;
İnmiyim?
Cinmiyim?
Benmiyim? (4,58)

Təbii ki, bu şeirdə xalq şeirinin müəyyən elementləri olmasını qəbul edirik (bax 5-6-cı misra). Amma **"Nağıl"** və **"Yuxu"** şeirləriylə müqayisədə burada folklor motiv və elementləri hakim deyil, sadəcə xatırlatma mövqeyinə malikdir.

Orxan Vəlinin şifahi ədəbiyyatla əlaqəsi həm də başqa aspektdə də öz bəhrəsini verib. O, Molla Nəsrəddin lətifələrindən 70-ni nəzmə çəkərək "Nasrettin Hoca hikayeleri" adıyla nəşr etdirib (7).

Əvvəldən də qeyd etmişik ki, Orxan Vəli xalq şeirinə, xalq dilinə hər zaman rəğbət duysa da, ondan əsaslı şəkildə istifadəyə yaradıcılığının ikinci dövründə başlamışdır. Əlbəttə, bu istifadənin onun yaradıcılığını əhatə etməsini fikrini söyləmək absurd olar. Folkloru onun yararlandığı bir mənbə kimi təqdim etmək daha məntiqlidir.. Belə bir sual meydana gəlir: şair nə üçün buna ehtiyac duyub? Zənnimizcə, bunun iki səbəbi olub:

1. *Bu, şairin yaradıcılıq manifestində öz əksini tapıb: " Hər şey kimi şeir də onların (xalqın – M. F.) haqqıdır, onların zövqünə xitab etməlidir" (4,22)*

2. *Digər səbəb isə zaman keçdikcə şeirin həm də gözəlliyə, formaya malik olması fikrini qəbul edən şairin bunun ən rahat ifadə vasitəsinin xalq dilində və ənənəsində olduğunu anlamasıdır.*

Yaradıcılığının ilk illərində bütün ənənələri inkar edən Orxan Vəli illər keçdikdən sonra bir müsahibə zamanı əvvəlki kimi şeirlər yazmadığını, xalq şeirindən istifadə etdiyini etiraf edir: "O zaman şeirin ustalığa əsaslandığını bilməmişik. Bu gün o şeirlərdən ayrıldıq. Xalq ədəbiyyatından istifadə edirik"(8).

Şairin folklordan istifadəsini fərqli aspektdə şərh edənlər də var. Memet Fuat xalq ədəbiyyatı ənənəsindən istifadəni Orxan Vəlinin xalqın rəğbətini qazanmaq üçün əl atdığı yol olduğunu vurğulayır (9,22). Zənnimizcə, bu fikir bir qədər mübahisəlidir. Orxan Vəli yaradıcılığı boyunca kimə və nəyə görəsə deyil, öz konsepsiyası ilə hərəkət edib: *onun üçün hər şey, həmçinin **sənət** də sadə insanlar – xalq üçündür*. Onun şeirlərində əl atdığı folklordan istifadə bu konsepsiyaya xidmət edən ədəbi priyomlardan biridir.

Bütün mülahizələrə yekun vuraraq gəldiyimiz nəticə və müddəalar bunlardır:

1. Orxan Vəli yaradıcılığının əsas qaynaqlarından biri də türk xalq ədəbiyyatıdır;

2. Şair bu qaynaqdan əsaslı şəkildə yaradıcılığının ikinci mərhələsində yararlanmağa başlayıb;

3. Bu yararlanma əksər hallarda iqtibas üsuluyla inikasını tapıb ("Məzar daşı kitabəsi", "İstanbul nəğməsi", "Yol nəğmələri");

4. "Birəli şeir" şifahi xalq ədəbiyyatı motiv və elementlərinin istifadə üsul və dərəcəsinə görə uğurlu nümunələrdən biri sayıla bilər;
5. Şair şifahi xalq ədəbiyyatından həm forma, həm mövzu, həm də hazır mətnlər şəklində (iqtibas) istifadə edib;
6. Şeirləri arasında dini mövzudan qaynaqlananlar da var (Buğda);
7. Molla Nəsrəddin lətifələrini ustalıqla nəzmə çəkib;
8. Şairin folklordan istifadəsinə iki səbəb göstərilə bilər: 1. Şeirin xalqın zövqünü oxşamalı olduğu üçün; 2. Şeirin gözəlliyinin xalq diliylə ifadəsinin rahat olduğu üçün;
9. Orxan Vəlinin şeirlərdə şifahi xalq ədəbiyyatından istifadə onun *hər şey xalq üçün* konsepsiyasından irəli gəlib.

Əlavə. Orxan Vəli yaradıcılığında xalq ədəbiyyatının təzahürü



QAYNAQLAR:

1. Меликли Т. Литература Турции:корни и крона. Москва, Русанова, 1998,159стр.
2. Sazyek Hakan. Cümhuriyet dönemi türk şiirinde Garip Hareketi. Ankara, Akçağ Yayınları, 2006, 572 səh.

3. Filizok Rıza. Şiirimizde halk edebiyatı üzerine notlar. İzmir, Ege Universitesi Basımevi, 1991, 111 səh.
4. Orhan Veli Kanık. Bütün şiirleri. İstanbul, Yapı Kredi Yayınları, 2008, 247 səh.
5. Oktay Akbal. Vazgeçemediğim üzerine bir konuşma. Vakit qazetesi, 16. 04. 1945.
6. Nurullah Ataç. Halk Şiiri. Varlık, s: 389, 01. 01. 1982
7. Orhan Veli Kanık. Nasrettin hoca hikayeleri. "Üsküp" Nova Makedoniya Basımevi, 1964, 80 səh.
8. Suat Faik. Rakı şişesinde balık olmak isteyen şair. "Yedi gün", 02. 02. 1947.
9. Memet Fuat. Çağdaş türk şiiri antolojisi. İstanbul, Adam yayınları, 1991, 651 səh.
10. Bezirci Asım. Orhan Veli. İstanbul, Gözlem yayınları, 1979, 206 səh.
11. http://...//edebialem.com/garip-akimi-hakkinda/html/
12. http://...//türkceliler.com/garip_akimi.html/

Mehram Faradjova

The folk motives in Orkhan Veli's poetry

Summary

National poems in the works of Orkhan Veli – the founder of a new branch in Turkish poetry. It is said that the poet used the folk motives in his poetry in the second half of his creative activity. The author also explains the janres, forms and characteristic features of the poems of Orkhan Veli with his motives and elements in them. The reason of Orkhan Veli's use of folk is also shown here.

Мехрам Фараджова

Фолклорные мотиви в поэзии Орхана Вели

Резюме

В статье говорится об использовании турецкое народное стиховорчество в творчестве Орхана Вели, который создал новый этап в турецкой поезии. Рассказывается об исползовании поэтом фолклорные мотивы во втором этапе своего творчества и раскрываются особенности жанра, формы и содержания стихотворений, в которых нашли свои отрожения эти мотивы и элементы. В то же время поясняются и причины исползования фолклора Орханом Вели.

Rəyçi: Füzuli Bayat
filologiya elmləri doktoru

MƏLƏK BAĞIROVA
AMİ Quba filialı
gulshen_71@mail.ru

LİRİK ŞAİR, MAARİFPƏRVƏR ZİYALİ – SEYİD ƏZİM ŞİRVANI

Açar sözlər: XIX əsr qəzəl ustadı, məşhur satirik, maarifçi ziyalı, fədakar müəllim
Key words: ghazal writer, famous satiric poet, intellectual, enlightener, devoted teacher
Ключевие слова: мастер газели XIX века, известный сатирик, интеллигент своего времени, педагог

Seyid Əzim Şirvani ədəbi yaradıcılığa 18-20 yaşlarında lirik şeirlə başlamışdır. O, klassik şeirin qəzəl, qəsidə, qitə, rübai, müxəmməs, müsəddəs, müstəzad və tərkibənd kimi janrlarında şeirlər yazmış və müasirləri arasında məliküşşüəra, yəni şairlərin başçısı adına layiq görülmüşdür. Füzuli lirikasına söykənən lirik şeirlərində, əski formalarda müasir həyat məsələlərini, insan münasibətlərini real şəkildə məharətlə əks etdirmişdir. Bu şeir formaları Seyid Əzim qələminin qüdrəti sayəsində real həyat həqiqətlərinin, cəmiyyətin müxtəlif təbəqələri arasında kəskin ziddiyyətlərin, dünyəvi hisslərin, yüksək mənəvi keyfiyyətlərin, ülvi məhəbbətin ifadə vasitəsinə çevrilmişdir. Ən çox da tərəqqi qarşısında keçilməz maneəyə çevrilən, cəmiyyətdə mürtəce rol oynayan, öz şəxsi mənafeləri üçün dini və şəriəti təhrif edərək öz istədikləri kimi təlim edən vaiz və axundların fikirlərini alt-üst etmiş, fiziki və mənəvi zülmün təzyiqi altında inləyən məzlum xalq kütlələrinin gözünü açmış və onlara həqiqəti anlatmışdır.

Seyid Əzim Şirvani klassik Şərq poeziyasının ustad sənətkarlarının – Firdovsi, Xəyyam, Xaqani, Nizami, Sədi, Hafiz, Rumi, Cami və Füzuli yaradıcılığını dərindən öyrənmiş və onların yaradıcılığından bəhrələnərək orijinal şeir nümunələri yaratmışdır.

Yaxın və orta Şərqi gəzib dolaşan, insanlara fayda verən çox bilikləri əldə edib öyrənən, vətənində isə sənaye və ticarət burjuaziyasının ilk müvəffəqiyyətli addımlarını müşahidə edən şairdə həyat və cəmiyyətin inkişaf qanunları haqqında düzgün qənaətlər yaranmışdır. Başqa sözlə desək, dini-mövhumi təsəvvürlərin buxovlarından azad olmuş və real həyata baxışı dəyişmişdi. Dünyagörüşündəki bu dəyişiklik onun yardıcılığında realizm meyillərinin yaranmasına, real istiqamət almasına səbəb oldu. Bundan irəli gələrək real həyat məsələləri və insan münasibətləri onun lirikasının əsas ideyasını təşkil etdi. Real hadisə və insan münasibətlərinin təsviri Seyid Əzim Şirvaninin yaradıcılıq uğurlarını təmin etdi. Seyid Əzim bədii yaradıcılığa qəzəl yazmaqla başlamışdır. Şərq şeirinin bu məşhur janrında əsər yazmaq sənətkarın yaradıcılığının bütün mərhələlərində davam etmişdir. Ədəbi ənənəyə, janrın şərab və qadın məhəbbətinin tərənnümünə sadiq qalaraq məhəbbətdən doğan iztirabların, ayrılıq dərdi, vüsal həsrəti, sevən, eşq oduna yanan aşiqin hisslərinin təsviri Seyid Əzim qəzəllərinin mühüm bir qismi üçün səciyyəvi idi. Aşiq-məşuq münasibətləri bu qəzəllərin əsas məzmununu təşkil edirdi. Şair məhəbbəti varlığın təməlində duran və yaranmışları fəaliyyətə sövq

edən bir qüvvə, eşq aləmini isə insanların bərabərliyini və ləyaqətini təmin edən məkan hesab edirdi:

...Eşqdir ol qüvveyi cazib ki, xaki –Məkkədən
Etdi cismi-ünsüriyyi, Əhmədi ərşasına. (S.Ə. B-2005 I cild səh.12)

Seyid Əzim klassik şeirin insan gözəlliyini tərənnüm edən və onu bütün yaranmışların ülvisi hesab etmək ənənəsini davam etdirməklə bərabər, öz müasirlərinin obrazlarını yaradır, onların səciyyəvi xüsusiyyətlərini, həyat-məişət qayğılarını, daxili aləmlərini əks etdirirdi. Şairin qəzəllərinin lirik qəhrəmanı hər şeydən əvvəl onun müasiridir və onunla bir məkanda yaşayır.

Şairin təsvir etdiyi məşuqə həm zahirən gözəl, həm də daxilən kamildir. Bu gözəl yer üzündə yaradılmış və əfsanələrdə təsvir olunan bütün gözəlliklərdən üstündür.

Yarım kimi bir sərvü qədgülbədən olmaz,
Rüxsarına bənzər o gülün nəstərən olmaz.

Məcruh olur, ey gül, bədənin sayeyi-güldən
Qurbanın olum mən, belə nazik bədən olmaz.

Başqa bir qəzəlində isə sevdiyi gözəlin dişini dürrə bənzədir ki, belə dürr heç dəryada da tapılmaz.

Dəryada dişin tək düri-şəhvar tapılmaz
Ləlin kimi kan içrə əqiqi-Yəmən olmaz.

Şair bu gözəllik qarşısında vəcdə gəlir və bu gözəlliyi dərk edib qiymətləndirməyi bacarmayanları isə heç insan hesab etmir. Belələrini başı noxtalı heyvana bənzədir.

Heyvandı ki, yox başının əfsarı, həqiqət,
Hər kimsənə kim, aşiqi-vəchi-həsən olmaz.

Şair eyni zamanda öz sevgisi yolunda çəkdiyi iztirabdan zövq alır və onun yolunda şəhid olmağı bir fədakarlıq hesab edir:

Dəfn eyləyin üryan məni küyündə o mahın,
Şərilə müşəxxəsdi, şəhidə kəfən olmaz. (I c.səh 76)

Şair qəzəllərinin çoxunda qadın gözəlliyini dində müqəddəs sayılan məkanlardan üstün tutduğunu bildirir və bununla da zahidlərin qəzəbinə tuş gəlir. Şair canlı insan gözəlliyindən, real qadın varlığından zövq almağı əsl mənalı həyat hesab edərək yazır:

Hər il ki, Kəbəyə Hüccac tazə-tazə gedərlər,
Bilib ol evdə məgər xaliqi, niyazə geərlər.

Həcər ol xal, üzün Kəbə, qarə örtügü zülfün,
Qoyub səni, niyə hüccaclar Hicazə gedərlər? (I c.səh.14)

Şair bu qəzəlində tərki-dünyalığı təbliğ edən vaiz və zahidləri tənqid edir və onları gözəlin iztirablarına dözməkdə aciz olduqlarını diqqətə çatdırır.

Ey zahidi-xudbin, bilirəm ki, hünərin yox,
Meydani-məhəbbət tərəfə bir güzarın yox. (yenə orada)

Şair başqa bir qəzəlində isə zahidi bu dünyadan və real gözəldən zövq almağa çağırır, eyni zamanda meyxanəyə getməyi məscidə getməkdən üstün tutur.

Zahidin gər güzarı bir düşə meyzanə sarı,
Kafərəm gər dönə ol məscidi-viranə sarı.

Zahida sən məni meyxara bilirsən, yoxsa,
O nə baxmaqdı həqarətlə bu divanə sarı . (S.Ə.

Seyid Əzim Şirvani ana təbiətin qoynunda sevdiyi gözəllə güzəran keçirməyi cənnət bağından da üstün tutur. Şairin fikrincə, insanı sevən, onu başa düşən bir insanla yaşamaq əsl səadət və xoşbəxtlikdir. Odur ki, zahidlərin axirət qazanmaq üçün bu dünyanın zövqi-səfasından özünü məhrum etməyi bədbəxtlik sayır. Onu da qeyd edək ki, şair şeirlərində eyni zamanda riyakar vaizləri də tənqid atəşinə tutur. Çünki onlar xalqa axirətdən, tərki-dünyalıqdan danışsa da öz əməllərində dürüst deyillər. Elə bu səbəbdən də şair onların iç üzünü cəsarətlə aşkarlayır və öz fikirlərini söyləməkdən çəkinməmişdir.

Bir biədəblik eyləmədik biz ki vaizə
Bizdən nə sadir oldu ki, dəydi dəmağinə?

Yaxud

Zahidin işi zahirdə əbadır və duadır,
Məlun kişidir, hiyləvü-təzvir nihadır. (I c.səh.15)

Şair xalqı başa salmağa çalışırdı ki, zahidlər və vaizlər onları aldadır, dinin və şəriətin qanunlarından öz mənafeləri üçün istifadə edirlər. Nəinki əməllərilə, hətta geyimləri və təsbihləri də xalqı soymaq üçün qurulmuş bir tələdir.

Könül, ta var əlində cami-mey səbhəşümar olma,
Riyayi-xəlqdir, billah, namaz əhlinə yar olma.

Qurub təhtül-hənəkdən dam, səbhədən danə,
Həzər, ey mürği-dil, ol danəvü damə şikar olma.

İmamə ixtiyarın vermə, hərgiz uyma təkbirə,
Onuntək faili-muxtarsan, biixtiyar olma! (I c.səh.14)

Seyid Əzim Şirvani qəzəllərində meyi və meyxanəni mədh edərək məscidə qarşı, real həyyatdan zövq almağı isə axirətə qarşı qoymaqla din xadimlərinin qəzəbinə səbəb olmuşdur. Öz zamanında mövhumatçılar onu "kafir" adlandırmış, sovet dönəminin tənqidçiləri isə onu ateist şair kimi qələmə vermişlər. Lakin Seyid

Əzim Şirvani nə kafir, nə də ateistdir. O, tərəqqipərvər ziyalı, maarifçi, fədakar bir müəllimdir. Onu düşündürən bir amal vardı; xalqı tərəqqiyə, inkişafa doğru aparmaq. Bunun da yeganə yolu maarif və elm idi. Bu yolda yorulmadan ömrünün sonunadək mübarizə aparan Seyid Əzim Şirvani xalqının gələcəyinə inanır, gəncləri maarifləndirməklə vətəninin inkişafına nail olacağına ümid edirdi.

XIX əsrin 70-ci illərindən etibarən şairin yaradıcılığında ciddi yeniləşmə və müasirləşmə prosesi başlanır. İndi şair, əsasən, öyüdlər, təmsillər, mənzum və mənsur hekayələr, satirik şeirlər yazmağa başlayır və bədii tərcümələr etməklə məşğul olur. "Əkinçi", "Ziya" və "Kəşkül" kimi dövri mətbuat səhifələrində zəmanəsinin müxtəlif məsələlərinə aid publisistik yazılar dərc etdirir. Yaradıcılığında satirik və didaktik pafos üstünlük təşkil edir. "Seyid Əzimin maarifçi poeziya sahəsində xidmətlərinin gerçəkləşməsində dövri mətbuatın rolu olmuşdur. Onun maarifçi realist kimi özünütəsdiqində "Əkinçi" qəzetinin, onun ardınca isə XIX əsr digər mətbuat orqanlarının önəmli xidməti var." (Tahirə Məmməd XIX əsr Azərbaycan ədəbiyyatı Bakı-2010, səh.142.)

Seyid Əzim Şirvani Azərbaycan maarifçilik məfkurəsinin demokratik cəbhəsinə mənsub idi. Seyid Əzim də həmməsləkləri kimi müstəmləkə şəraitində, dini fanatizmin təzyiqi altında yaşayan Azərbaycan xalqının fiziki və mənəvi əsarətdən qurtuluş yolunu maariflənməkdə, geriliyi təbliğ edən köhnə adətlərdən uzaqlaşmaqda, elmi-texniki biliklərə yiyələnməkdə görürdü. Cəmiyyəti səfalətə sürükləyən təbəqələri kökündən kəsməyin artıq vaxtı çatmışdır. Şair "Qafqaz müsəlmanlarına xitab" adlı H.Zərdabiyə müraciətlə yazdığı şeirində onun yaradıcılıq proqramını görmək olar.

...Günün gündən zəlili-xar olduq
Möhnətü qüssəyə düçar olduq.
Bu qədər dərd kim olur hadis
Ona bielmlik olur bais.
Bir bəladır ki, dərdi-nadani,
Ki, onun elm olubdur dərmani.
...İndi naxoşdu milləti-islam,
Ona lazımdı eyləmək əncam.
Dərdimizdi bu dərdi-nadanlıq –
Ki, tutubdur bizi pərişanlıq
Qeyrilər etdilər tərəqqiyi-tam,
Qaldı zillətdə firqeyi-islam. (II c. səh.117-118)

Şair xalqının düçar olduğu bəlaların əsas səbəbini ruhanilərin fəaliyyətində, onların təbliğ etdikləri mövhumi təlimilərin gərəksizliyində, başlıca olaraq isə müasir həyatın tələblərindən uzaq düşməyində görürdü. Ruhanilərin əsas fikri xalqı soyub-talamaq, onları quru yerdə qoymaqdır.

Hamının fikri xəlqi soymaqdır,
Quru yerdə bu xalqı qoymaqdır.

Şair həmvətənlərinin fiziki və mənəvi zülmə məruz qalaraq bir ovuc imtiyazlı təbəqənin onları insafsızcasına istismarının səbəbini də elmi-texniki tərəqqidən, elm və bilikdən geri qalmaqda görürdü. Ona görə də şair xalqını dünyanın inkişaf ahənginə qoşulmağa çağırır, onları tərəqqiyə səsləyirdi.

Seyid Əzim Şirvani xalqının xoşbəxt gələcəyi haqqında düşünür, onu dünyanın mütərəqqi xalqları sırasında görməyi arzulayırdı. Elə bu amal uğrunda da səylə çalışır, mane olanlara qarşı öz qələmilə mübarizə aparır və mövqeyindən dönmürdü.

Bir maarifçi olaraq Seyid Əzim köhnəni tənqid edir, eyni zamanda onun islahı və yenidən qurulması yollarını da göstərirdi. Şairə görə, müsəlmanların maddi yoxsulluğunun və iqtisadi tənəzzülünün başlıca səbəbini mədəni gerilikdə görürdü. Bu geriliyin aradan qaldırılmasının yolunu isə maariflənməkdə və tərəqqidə axtarırdı.

Deyəcəksən ki, ey qərini-ədəb,
Bəs gəlin tazədən açaq məktəb.
Biz bu əmrə görək ki, ey xoşnam,
Hansı qüdrətlə eyləyək iqdam?
Pulumuz varmı ol sərəncamə,
Ta yetişsin fəqirlər kamə?
Əhli-islam eyləyibdi vəfat
Dəxi müşkil tapa bu qövm-həyat.
Məgər ol Əsgəri-Gorani gələ
Neçə məktəb gələdəxi əmələ.
Vəzirov bəlkə eyləyə imdad,
Qıla bu qövmi elm üçün irşad.
Aça onlar da mən kimi məktəb,
Çəkələr ruzi şəb əzabi təəb. (Ic.səh.19)

Maarifçilik ideyalarını yaymaq, məktəbdarlıqla məşğul olmaqla Seyid Əzim öz xalqına bir fayda vermiş olduğunu başa düşür və bu yolunu çətin də olsa davam etdirirdi. Şair gənc nəslin tərbiyəsində böyük rol oynayan dərslikləri üzərində çalışır və "Rəbiül-ətfal", "Tacül-kütub" adlı məcmuələrini dərc etdirir. Bu kitablarda şairin insanları xeyirxahlığa, zəhmətsevərliyə, vətənpərvərliyə, elm və tərəqqiyə səsləyən şeirləri toplanmışdır. "Rəbiül-ətfal" dərsliyi Azərbaycan məktəblilərinin mütaliəsi və ümumiyyətlə, milli uşaq ədəbiyyatı yaratmaq üçün böyük təşəbbüs idi. Demək olar ki, uşaq ədəbiyyatımızın tarixi də "Rəbiül-ətfal"dan başlanır. Düzdür, bu vaxta qədər A.Bakıxanovun "Nəsihətlər", M.Ş.Vazehlə İ.Qriqoriyevin "Kitabi-türki" Mirzə Nəsrullah Didənin "Kitabül-nəsayeh" adlı kitablar çap edilmişdir. Lakin "Rəbiül-ətfal"da toplanmış əsərlər mövzu rəngarəngliyi, ideya xətti və dil sadəliyi baxımından daha diqqətəlayiqdir. Seyid Əzim Şirvani bu kitabı tərtib edərkən sələflərinin yaradıcılığına müraciət etmişdir. Şair bildirir ki, elə yazmaq lazımdır ki, şagirdlərin başa düşəcəyi anlaşıqlı bir dildə olsun. "Rəbiül-ətfal" dərsliyinin müqəddiməsində bu barədə məlumat verərək bildirir ki, yazıçılar fikirlərini elə qəliz ifadələrlə bəyan ediblər ki, məktəbli uşaqlar onları dərk etməkdə çətinlik çəkirlər. Seyid Əzim bu məcmuəni tərtib

edərkən N,Gəncvinin "Sirlər xəzinəsi", Sədinin "Bustan" əsərlərinin düzülüş prinsipinə əsaslanır.

Seyid Əzim də kitabını müstəqil hissələrə ayırmışdır. Klassik ənənəyə söykənən şair hər bölməni oğluna müraciətlə etik məsələlərə dair baxışlarını ifadə edən öyüd və nəsihətlərlə başlayır. Burada onun əxlaqi görüşlərinin əsas tezisləri ifadə olunur. Hər bir öyüd və nəsihətin məzmununu və ideyasını həyatdan, Şərq, o cümlədən Azərbaycan şifahi və yazılı ədəbiyyatından məharətlə istifadə edərək fikirlərini əyaniləşdirir. Öyüd və nəsihətlərin münasib hekayə və təmsillərlə müşayiət olunması, birinin digərini tamamlaması fəsillərin məzmununa bir tamlıq və bütövlük aşılayır. Öyüd və nəsihətlərdə irəli sürülmüş fikirlərin uşaqlar tərəfindən mənimsənilməsini asanlaşdırmaq məqsədilə əyaniləşdirilməsi şairi mənzum hekayə, təmsil, hədis və s. ədəbi formalara, lirik, satirik və didaktik pafosa müraciət etməyə gətirib çıxarır.

Kitabda müəllifin üzləşdiyi başlıca məqsəd arzuladığı cəmiyyət üçün müasir ruhlu, əqli və əxlaqi cəhətdən kamil vətəndaş yetirib tərbiyə etməkdən ibarət idi. Şair kitabın müqəddiməsində onu da yazır ki, bir sıra faydalı mətləblər var ki, bunları bilmək bütün adamlar üçün vacibdir. Bunlar, əsasən, bəşəriyyərin əsrlər boyu sınaqdan çıxmış və sabitləşmiş əlaqə və münasibət formalarından, əxlaq normalarından ibarətdir. Milli fərqlərdən asılı olmayaraq bunların əksəriyyəti bütün xalqlar üçün müştərəkdir. Seyid Əzim maarifçi görüşlərilə yaxından səsləşən bu ideyaların təbliğindən ötrü nizamidən üzü bəri Şərq ədəbiyyatı klassiklərinin tez-tez müraciət etdikləri öyüd və nəsihəti əlverişli saymışdır.

Şairin öyüd və nəsihətləri mövzuların rəngarəngliyi , problemlərin çoxluğu və aktuallığı baxımından maraqlıdır. Burada diqqətə çəkilən aktual məsələlər uşaqların marağına səbəb olur. Bir qayda olaraq, şair öyüd və nəsihətlərini oğluna müraciətlə başlayır. Lakin şair oğlunu şərti olaraq qələmə alır, onun simasında bütün gənclərə müraciət edir. Bu öyüd və nəsihətlərin mərkəzində zəngin həyat təcrübəsi qazanmış, həyatın bərk-boşundan çıxmış müdrik şair – atanın surəti dayanmışdır. O, sanki .şirin və acı həyat təcrübələrindən çıxardığı nəticələri uşaqlarla bölür, onlara nəyin faydalı, nəyin zərərli olduğunu başa salır, yeniyetmələrə düzgün həyat yolu və vətəndaşlıq mövqeyi seçməkdə kömək edir. Şairin gənclərə aşılamaq istədiyi ən ümdə hiss vətən sevgisidir. Yurdsevərlik Seyid Əzimimin güclü təbliğ etdiyi ideyalardandır. Vətən müqəddəs bir məkandır. Onu sevmək və qorumaq hər bir vətəndaşın borcudur.

Bir maarifçi kimi Seyid Əzim hər cür dini və irqi təəssübkeşlikdən uzaq idi. O, uşaqlara da millətçilik təəssübündən uzaqlaşmağı, bütün millətlərə hörmətlə yanaşmağı tövsiyə edirdi. Ümumbəşəri ideyalara xidmət edən şair insanların müxtəlif dini etiqadlara bölünmələrinə ehtiyac olmadığını bildirir. Şair gəncliyin xeyirxah müəllimi idi. O, gənclərin simasında gələcəkdə vətənin tərəqqisini və abadlığını, xalqın rifahını və mədəni yüksəlişini təmin edən əzəmətli bir qüvvə görürdü. Seyid Əzim öyüd və nəsihətlərində elmi biliklərə yiyələnməyin faydası, alimə və müəllimə hörmət , məzlumlara qayğı, qadına ehtiram, mənəvi təmizlik kimi keyfiyyətlər təbliğ, sadəlövhlük, cahillik, tüfeylilik, hiyləgərlik kimi mənfi cəhətlər tənqid olunur. Eyni zamanda uzaqgörən pedaqoq yeniyetmələrə həyat məsələlərini, xalq işi uğrunda döyüş və mübarizə yollarını öyrənməyi zəruri hesab edir, öyüd və nəsihətlərinin bir hissəsində məişət üçün faydalı olan məsələlərdən

söhbət açır, elmi biliklərə yiyələnməyi, müxtəlif dilləri öyrənməyi təkidlə tövsiyə edir. O cümlədən rus dilini və rus mədəniyyətini öyrənməyin vacibliyini vurğulayırdı. Çünki iqtisadi və mədəni cəhətdən inkişaf etmiş ölkələrlə əlaqə saxlamadan biz də inkişaf edə bilmərik. Odur ki, şair gəncləri başqa millətlərdən və ölkəıərdən yaxşı xüsusiyyətləri öyrənməyi məsləhət bilirdi.

Cəhd qıl, neməti-təmamə yetiş,
Elm təhsil qıl, məqamə yetiş.
Ey oğul, hər lisanə ol rağib,
Xassə ol rus elminə talib.
Onlara ehtiyacımız çoxdur,
Bilməsək dil, əlacımız yoxdur. Ic.səh.26)

Seyid Əzim Şirvaninin öyüd və təmsillərini bədii cəhətdən də diqqəti cəlb edir. Bu əsərlərdə şair qəlbinin bütün hərarəti ifadə olunmuşdur. Poetik fantaziyanın yüksəkliyi, şeiriyyətin güclülüyü, vəzn oynaqlığı və şuxluğu, fikirlərin qüvvətli poetik vasitələrlə ifadəsi bunları quru mühakimədən"soyuq əxlaqi təlimdən" xilas etmişdir.

"Rəbiül-ətfal"da mənzum hekayələr və təmsillər xüsusi yer tutur. Bu mənzum hekayələrin əksəriyyəti satirik və didaktik səciyyə daşıyır. Eyni əsərdə satira ilə didaktika paralel surətdə fəaliyyət göstərir. Bu hekayələrin mövzusu da müxtəlifdir. Əsas motivlər isə ruhanilərin hiyləgərliyi, kəndlilərin hüquqsuzluğu, qadın əsarəti, pulun hakim mövqedə durması və mənəviyyata mənfi təsir göstərməsi və s.dir. Lakin bütün bu rəngarəng problemləri ümumi bir cəhət – cəhalət, nadanlıq və mədəni geriliyin tənqidi birləşdirirdi. Şair "Əkinçi və xan", "Allaha rüşvət" hekayələrində kəndli məsələləsinə müraciət etmişdir. Birinci hekayədə əkinçi və xan münasibətləri əsas tənqid hədəfləri idi. İllərlə xanların və bəylərin zülmü altında əzilən, insan yerinə qoyulmayan kəndli onların söyüş və təhqirlərini "iltifat" kimi qəbul edir. Kəndlilər o qədər yoxsullaşmış, müflisləşmiş, alçaldılıb təhqir edilmişdir ki, Seyid Əzimin yaratdığı kəndli obrazı da tipik bir surət idi. "Allaha rüşvət" hekayəsində isə məzlum kəndlilər hər bir iş üçün rütbəlilərə rüşvət verməyə adət etmişlər ki, yağış yağdırmaq üçün də Allaha rüşvət vermək qərarına gəlirlər. Kəndli həyatından alınaraq məharətlə ümumiləşdirilmiş bu epizodlar şairə geriliyi, elmsizliyi və nadanlığı bir daha diqqətə çəkməyə lazım idi.

Bu mənzum hekayələr içərisində ruhani həyatını tısvir və tənqid də geniş yer tutur. Bu da ondan irəli gəlirdi ki, şair mədəni geriliklə kəskin mübarizə aparırdı. "Hacı və molla əhvalatı" (Köpəyə ehsan), "Qarınqulu abid", "Dəli şeytan", "Qazı saqqalın yandırır", "Bəlx qazısı və xarrat" adlı mənzum hekayələrində əsas tənqid hədəfi din xadimlərinin acgözlüyü və tamahkarlığı, din və şəriət qanunlarını alver vasitəsinə çevirmələridir. Şair tipik həyat hadisələri və surətləri vasitəsilə ruhaniliyin iç üzünü açır, onları xalqa tanıtmağa çalışırdı. "Ruhanilik təhsili", "Müctəhidin təhsildən qayıtması", "Elmsiz alim" adlı hekayələrində isə din xadimlərinin qabaqcıl və ictimai fikirlərin inkişafında heç bir rol oynamadığını diqqətə çatdırır. Onlar xalqın tərəqqisinə mane olmaqla yanaşı, onların öyrəndikləri və öyrətdiklri elm köhnə idi, müasir həyatla səsləşmirdi. Zəhmətkeş kütlənin əlindən alınan pulun hesabına Şərqin dini mərkəzlərində təhsil almış ruhanilər həmvətənlərinə faydalı bir şey verə bilmirdilər. Çünki bu təhsil sistemi köhnə idi.

...Tutalım elmə olmusan vasil
Bizə bu elmdən nədir hasil?
Hanı islam üçün sərəncamın,?
Yerə girsin o müctəhid namın.

Seyid Əzim Şirvaninin satirk qələminə ən çox tuş gələnlər elə riyakar din xadimləridir. Avam xalqı aldadan bu fırıldaqçıları şair elmin düşməni adlandırır və onlara qarşı ancaq mübarizə aparmaq yolunu tutmuş və son nəfəsinə qədər bu yoldan dönməmişdir.

Seyid Əzim şirvaninin yaradıcılığı Azərbaycan ədəbiyyatı tarixində önəmli bir yer tutur və bu əsərlər əsrlər boyu da öz əhəmiyyətini qoruyub saxlayacaq.

Ədəbiyyat

1.Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi Bakı – 1974
2.Məmməd T. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi Bakı – 2010
3.Şirvani S.Ə. Seçilmiş əsərləri Bakı-2005 Üç cilddə

Malak Bagirova

Lirical poet, enlightener and intellectual Said Azim Shirvani.

Summary

One of the poets of Azerbaijan literature in XIX century S.A.Shirvani is known as a ghazal writer. His educational and poetic verses call people for education and development.

In his ghazals the poet evokes people is lyrical senses. He also wrote fables which gives people good advices and calls them to a better life . In his satirical verses the poet severly critisises the main shortages of the society. S.A.Shirvani's poetical activity has special importance in the history of Azerbaijan literature.

Багирова Мелек

Лирический поет, просетител Сеид Азим Ширвани

Резюме

Самый видный деятель Азербайджанской литературы XIX века Сеид Азим Ширвани известен в поезии как мастер газели. Его поетические произведения призывают народа к развитию и усвоению наук. Поет в своих газелях и баснях выступает как мудрец и воспепает лирический чувства человека. В сатирическом творчестве критикует невежество, догматизм и недостатки в обществе. Его творчество – незаменимое наследие в истории нашей литературы.

Rəyçi: Gülşən Ağabəy
filologiya üzrə fəlsəfə doktoru, dosent

FƏRİDƏ HİCRAN
Filologiya elmləri üzrə fəlsəfə doktoru
feridehicran60@mail.ru

SARIQAMIŞ VƏ QARABAĞ BAYATILARININ BƏZİ ORTAQ ÖZƏLLİKLƏRİ

Açar sözlər: Sarıqamış, Topxana, sələnmə, bayatı, hüzn, kədər
Ключевые слова: Сарыкамыш, Топхана, летопись, баяты, грусть, печаль
Key words: Sarykamysh, Topkhana, annals, bayati, sorrow, sadness

Bayatıları insan həyatının canlı poetik sələnməsi adlandırsaq, qətiyyən səhvə yol vermərik. Bayatı Azərbaycan şifahi xalq ədəbiyyatının ən geniş yayılmış janrlarından biri və tükənməz xəzinəsidir. Bu janrın dərin fikir ifadə edən fəlsəfi zənginliyinə görə seçilən nümunələrinin hər birinin məzmunu da fərqlidir. Onlar insan həyatının canlı poetik sələnməsidir. Bayatı insanın varlığını, mənəvi aləmini dünyaya gəldiyi andan onu tərk edənə qədər müşayiət edir. Bu janr Azərbaycanın həm quzeyində, həm də güneyində ən çox sevilən janrlardan biri və bəlkə də, birincisidir.

Bayatılar həm də folklorun ən qədim janrlarından hesab olunur. Məlumdur ki, eramızın birinci minilliyində Azərbaycanda yaşamış və Azərbaycan xalqının enogenezində böyük rol oynamış hunlar, xəzərlər, avarlar, savirlər və başqa türk boylarının dilində geniş şifahi ədəbiyyat nümunələri olmuş və bu günə qədər gəlib çıxmış bayatıların, laylaların, ağıların çoxu o dövrdə yaranmışdır (1, 76).

"Bayatı" sözü bir termin kimi həm "köhnə, boyat" kəlməsi ilə əlaqələndirilmiş, həm "ulu Tanrı" kimi mənalandırılmış (Mahmud Kaşğarlı), həm də Oğuz xanın nəvəsi, Gün xanın ikinci oğlu Bayatın, sonralar isə soy-kökümüzdə önəmli rol oynamış eyni adlı boyun adı ilə bağlanmışdır (Salman Mümtaz). Bayatıların ən qədim növlərindən hesab edilən saya isə eyni zamanda el nəğməkarı, aşığın əcdadı, ulu babası sayılmış, bu ifaçı-sənətkar bir çox dastanların yaradıcısı – müəllifi kimi dəyərləndirilmişdir (2, 5-11).

Bayatılar insanın mənəvi ruhuna dinclik və təsəlli verən bir yaşamdır. Çünki bu janr insanın varlığını, onun daxili aləmini dünyaya göz açdığı çağdan ömrünün son anlarına kimi müşayiət edir, duyum və hisslərinə estetik və bədii zövq aşılayır. Layla, nazlama, nənni özgə beşikbaşı nəğmələrindən tutmuş ağı və sızlamalara qədər keçən ömür yolu yüzillikləri adlayaraq həm də tarixi kəsimə, epoxaya çevrilmiş, bu məsafəni isə əski çağlarda formalaşan, illəri, əsrləri ötdükcə yetkinləşən, nəticədə bayatı adı ilə şöhrətlənən poetik incilər ziynətləndirmişdir (3, 4).

Bəli, bayatılar insan həyatının və bütövlükdə bir millətin canlı poetik sələnməsidir və buna heç bir şübhə yoxdur. Elə bu səbəbdəndir ki, müxtəlif əsrlərdə, illərdə ərsəyə gəlmiş qısa poetik nümunələrdə onların yarandığı dövrün nəfəsini, həmin dövrdə cərəyan etmiş hadisələrin ruhunu duymaq mümkündür. Bu baxımdan 1990-cı ilin məlum qanlı 20 yanvar hadisəsindən sonra qoşulmuş bayatılar deyilənlərə ən gözəl misaldır:

Ayağım yalın idi,
Tikanım qalın idi.
Mən ölmək istəməzdim,
Cəlladım zalım idi.

Eləmi binə qaldı,
El köçdü binə qaldı.
Mən öldüm, heç bilmədim,
Yetimim kimə qaldı.

Qoy mən ölüm ağlayım,
Dərdə dözüm, ağlayım.
Səni belə görüncə,
Çıxsın gözüm, ağlayım (4).

Eyni sözləri bütövlükdə XX əsrdə ərsəyə gəlmiş bayatılar haqqında da söyləmək olar. Həmin əsrin başında və sonunda xalqımızın üzləşdiyi faciələri əks etdirən çox sayda olaylar baş vermişdir ki, onlara da yüzlərlə bayatı qoşulmuşdur. Deyilənlərə ən gözəl misal əsrin əvvəllərində yaradılan Sarıqamış bayatıları və əsrin sonunda ərsəyə gəlmiş Qarabağ bayatılarıdır. Onları birləşdirən ən önəmli ortaq cəhət rusların və ermənilərin, başqa sözlə, yadelli işğalçıların xalqımızın başına gətirdiyi bəlalardan doğan hüzn və kədərdir. Bu kədər o qədər dərindir ki və o qədər incə ifadə edilmişdir ki, sözügedən dövrün ab-havasının bütünlüklə əks etdirir. Onları soyuqqanlılıqla dinləmək mümkün deyildir.
Sarıqamış bayatılarından bir neçəsini gözdən keçirək:

1.
Sarıkamışta var maşın,
Urus yığmış ağır koşın.
Bizim uşak açık, çılpak,
Dağlarda buyudu kışın.
2.
Sarıkamış için meşe,
Urus yaktı hep ateşe.
Bizi koydu eli bağlı,
Nere gitti Enver Paşa.
3.
Sarıkamış al kan oldu,
Zalım Urus murat aldı.
Kimsesiz kız،dul gelinler,
Kara giyip saçın yoldu.
4.
Enver Paşa hücum dedi,
Yarıldı Moskofun ödü.
Zalım Allahüekber dağı,
Neçe yiğit aslan yedi (5).

Bu bayatılarda söhbət nədən, kimdən və hansı dövrdən gedir? Məlumat üçün bildirək ki, I Dünya Savaşı dövründə Osmanlı dövləti Almaniya ilə imzalanan anlaşmanın ardından müharibəyə girməyə məcbur olmuşdu. Ancaq Balkan savaşından yeni çıxdığı üçün və yetərli hazırlıq görməyə vaxtı olmadığından bir çox çətinliklərlə üzləşməli olmuşdu. Osmanlı donanmasının gəmilərinin Sevastopolu bombarduman etməsindən sonra Rus Ordusu 1914-cü ilin 1 noyabrında Osmanlı-Rusiya sərhədlərini adlayaraq hücuma keçmişdi. Ərzurum istiqamətində irəliləyən rus qoşunları 7-12 noyabrda Köprüköy və 17-20 noyabrda Azap döyüşlərində məğlubiyyətə uğrayaraq geri çəkilmək məcburiyyətində qalmışdı. Savaşın ilk aylarında meydana gələn bu durum ordunun zabit və əsgərlərinə ruh vermişdi. Bununla belə, ağır itkilər verən 3-üncü Türk Ordusu, geri çəkilən düşməni taqib edə bilməmiş; daha əlverişli bir ərazidə toplanmaq, yardımın gəlməsini gözləmək və yeni bir rus hücumunun qarşısını almağa hazır olmaq məqsədiylə təqribən 8-10 km geri çəkilmək məcburiyyətində qalmışdı (6, 4).

Avropada savaşın mövqe döyüşləri halı alması və Qalisiyada avstriyalıların ruslar qarşısında çətin vəziyyətə düşməsi səbəbindən baş komandan vəkili Ənvər Paşa müttəfiqlərin Avropadaki vəziyyətini yüngülləşdirmək məqsədilə Şərq cəbhəsində rusların mühasirəyə alma əməliyyatına qərar verdi. O bu əməliyyatla həm də 1877-1878-ci illər Osmanlı-Rus Savaşında Doğu Anadoluda itirilmiş topraqların (Kars, Batum, Artvin və Ərdahan) geri alınmasını və hərbin Qafqazlara keçirilməsini düşünməkdəydi.

General Həsən İzzət Paşa da məhz bu məqsədlə 14 dekabr 1914-cü il tarixində İstanbuldan Köprüköyə gəlmişdi. Türk ordusu dekabrın 22-də Sarıqamış əməliyyatına başladı. Nəticə Osmanlı üçün acınaqlı oldu. Türk qoşunları qarlı aşırımları aşmağı bacarmadı, qarlı dağ yollarında yolu itirdi, nəticədə onminlərlə türk əsgəri döyüşə girmədən donaraq şəhid oldu... Bu isə ətrafdakı ermənilər cəsarətləndirərək, müdafiəsiz qalan türk kəndlərinə hücuma keçməsinə və dinc xalqa divan tutmasına səbəb oldu (6, 4-5).

Yuxarıda bir neçəsini təqdim etdiyimiz məşhur Sarıqamış bayatıları məhz həmin faciədən doğan hüzn və kədərin poetik ifadəsidir. Eyni hisslər eyni qəbildən olan digər bayatılara da hakimdir:

5.
Sarıkamış saza döndü,
Dağları gülzara döndü.
Serçe canlı ermeniler,
Hepisi şahbaza döndü.
6.
Soğanlıda soğan olur,
Kar, tipisi boran olur.
Urusu bozgun görenler,
Anasından doğan olur.
7.
Bardız Deresi kan çağlar,
Analar ciğerin dağlar.
Çil Horoz dağı salında,
Neçe nişanlılar ağlar.

8.
Çadırlar dağa kuruldu,
Hücum borusu vuruldu.
Bir Sarıkamış uğruna,
Doksan bin fidan kırıldı.
9.
Allah(hü)ekber başı duman,
Olduk Urusa perişanə.
Kör olasın Hakkı Paşa,
Sen eyledin bizi pişman.
10.
Allah(hü)ekber Karsın dağı,
Mübarek şehit yatağı.
Allah(hü)ekberde söndü hep,
Doksan bin evin ocağı.
11.
Allahüekber kar, boran,
Tırmandık dağlara yayan.
Gökten ateş dökülse de,
Yılar mı hiç Ali-Osman.
12.
Allahüekber yan yatar,
Kırazmış da güneş batar.
Allah(hü)ekberin döşünde,
Neçe bin şetiler yatar.
13.
Yaşa babamoğlu yaşa,
Kan bulaştı çatık kaşa.
Biz Urusu alt edterdik,
Sebep oldu Enver Paşa.
14.
Aşağıdan ses geliyor,
Figan bağrımı deliyor.
Kör olasın Enver Paşa,
Gelinleri el alıyor (5).

Təqdim edilən bayatıların daşıdığı informasiya yükünün ötəri təhlili baş vermiş hadisənin geniş mənzərəsini gözlər önündə canlandrmaq üçün tamamilə yetərlidir. Belə ki, hadisənin Sarıqamış yaxınlığında baş verdiyi bu toponimin bir çox bayatıda hallandırılmasından aydın olur. Məsələn, birinci bayatıdakı "**Sarıkamışta** var maşın", ikincisindəki "**Sarıkamış** için meşe", üçüncüsündəki "**Sarıkamış** al kan oldu" misralarını misal çəkmək olar. Eyni yer adına 5-ci bayatıdakı "**Sarıkamış** saza döndü", 8-ci bayatıdakı "Bir **Sarıkamış** uğruna" misralarında da rast gəlirik.

Digər toponimlər - məsələn, 4-cü bayatıdakı "Zalım **Allahüekber dağı**", 6-cı bayatıdakı "**Soğanlıda** soğan olur", 7-ci bayatıdakı "**Bardız Deresi** kan çağlar" və "**Çil Horoz dağı** salında", 9-cu bayatıdakı "**Allah(hü)ekber** başı duman", 10-cu

bayatıdakı "**Allah(hü)ekber Karsın** dağı" və s. misralardakı yer adları hadisənin dəqiq məkanını əks etdirməkdədir.

11-ci bayatıdakı "Yılar mı hiç Ali-Osman" misrasından göründüyü kimi müharibəni Osmanlı ilə 1-ci bayatıdakı "Urus yığmış ağır koşın" misrasında adı çəkilən Rusiya arasında getdiyi aydın olur. Rusiyanın adına "Urus" formasında 2, 3, 6, 9 və 13-cü bayatılarda da rast gəlirik. 4-cü bayatıda isə "Urus" əvəzinə "Moskof" (Moskva) ifadəsinin işləndiyinin şahidi oluruq.

Olayda 90 min türkün şəhid olduğu da sözügedən bayatılarda öz əksini tapmışdır. Məsələn, 10-cu bayatıda oxuyuruq:

"Allah(hü)ekberde söndü hep,
Doksan bin evin ocağı".

8-ci bayatıda isə belə deyilir:

"Bir Sarıkamış uğruna,
Doksan bin fidan kırıldı".

Faciənin baiskarı kimi isə Hakkı Paşa və Ənvər Paşanın adları çəkilir. 9-cu bayatıdakı "Kör olasın Hakkı Paşa" və 14-cü bayatıdakı "Kör olasın Enver Paşa" misralarının, bizcə, əlavə bir şərhə ehtiyacı yoxdur. Məlumat üçün bildirək ki, Ənvər Paşanın adı keçən 14-cü bayatı Türkiyədə nəşr edilən bir çox kitablara daxil edilmişdir (7).

Yuxarıda qeyd etdik ki, "Türk qoşunları qarlı aşırımları aşmağı bacarmadı, qarlı dağ yollarında yolu itirdi, nəticədə onminlərlə türk əsgəri döyüşə girmədən donaraq şəhid oldu... Bu isə ətrafdakı ermənilərin cəsarətlənərək, müdafiəsiz qalan türk kəndlərinə hücuma keçməsinə və dinc xalqa divan tutmasına səbəb oldu". Ermənilərin əməli Sarıqamış bayatılarının birində öz ifadəsini belə tapmışdır:

"Serçe canlı ermeniler,
Hepisi şahbaza döndü".

Bu bayatılarda ifadə edilən hüzn və kədərin bənzərinə son elmi ekspedisiyaların birində Qarabağdan şəxsən topladığımız aşağıdakı bayatılarda da rast gəlmək mümkündür:

1
Topxana qalın meşə,
Erməni tutub atəşə.
Eli yurddan eyləyən,
Yağını dönsün daşa.
2
Cəsədlər maşın-maşın,
Ruslar gəlib bir qoşun.
Ayaqyalın qacan el-oba,
Harda keçirər qışın.
3
Payız qışdan əzəldi,
Yarpaq tökən xəzəldi.
Qarabağ viran olsa,
Yenə bizə gözəldi.

Təqdim edilən bayatılarda "Topxana" və "Qarabağ" kimi ifadələrin verilməsi hadisələrin harada yarandığını xəbər verirsə, 1-ci bayatıdakı "**Erməni** tutub atəşə"

və 2-ci bayatıdakı "**Ruslar** gəlib bir qoşun" misraları sözügedən məkanda baş verən faciənin səbəbkarlarına işarə edir. Faciənin miqyası isə öz poetik ifadəsini 2-ci bayatıdakı "Cəsədlər maşın-maşın" misrasında tapmışdır.

Yuxarıda söylənilənlər sübut edir ki, cəmi dörd misradan ibarət olmasına baxmayaraq, bayatılar böyük informatif yükə sahibdir və bu yük bəzən bütöv bir səlnamə kimi çıxış edə bilir.

Ədəbiyyat

1. Aslanov V. XII əsrə qədərki Azərbaycan dili haqqında. Azərbaycan filologiyası məsələləri. Bakı, "Elm", 1983.
2. Folklordan çap materialları toplusu üzrə (bayatılar) metodiki iş. Bakı, 1982.
3. Azərbaycan bayatıları. "Şərq-Qərb", Bakı, 2004, 304 s.
4. http://www.metro.gov.az/uploaded/image/newspaper/200902/shehidler_xiyab.pdf (Yanvar bayatıları).
5. http://www.bakimliyiz.com/maniler-ve-agitlar/35391-sarikamis-ta-olenlerin-agiti-tomarza-sarikamis.html (Sarıkamış bayatıları).
6. Emir Kalkan. Kayseri ve Yöresi Ağıtları. Kültür Müdürlüğü, Kayseri, 1992.
7. Ahmet Z.Özdemir. Öyküleriyle Ağıtlar. II，Kültür Bakanlığı Kültür Eserleri Dizisi, sayı 303, 2001.

Фарида Хиджран

Общие черты Сарыкамышских и Карабахских Баяты

Резюме

"Баяты " один из древних поприще фольклорного жанра. В "Баяты " отражается горе, скорбь, печаль, радость народа. Как у каждого народа есть самобытный образ жизни, мировоззрение так и есть "Баяты " в соответствии с его духом.

С этой точки зрения "Баяты " Сарыгамуш и Карабахские "Баяты " имеют много общих чувств. Как есть общее горе между народами потерпевшие насилие Армянских и Российских оккупантов, так и есть много сходство между "Баяты ".

Farida Hidjran

Common features of the Karabakh and Sarykamysh Bayati

Summary

"Bayati" one of the ancient arena folklore genre people. In "Bayati" reflected sorrow, grief, sadness, joy of the people. As each nation has a distinctive way of life and outlook is "Bayat" in accordance with its spirit.

From this standpoint "Bayati" Sarygamush and Karabakh "Bayati" have many common feelings. As is common grief among peoples and victims of violence Armenian and Russian occupiers and there are many similarities between ihni "Bayati".

Rəyçi: professor Almaz Ülvi

SAMİRƏ MƏMMƏDOVA
Azərbaycan dillər universiteti
Hasanovas@yandex.ru

"SƏADƏTNAMƏ" MƏSNƏVİSİNİN İDEYA MÖVZU XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: Şəbüstəri, Səadətnamə, əsərin quruluşu
Key words: Shabistari, Saadatnama, literary structure
Ключевые слова: Шабустари, Саадатнама, литературная *структура*

Şeyx Mahmud Şəbüstəri təkcə Azərbaycanın deyil,İslam dünyasının tanınmış şəxsiyyətlərindən biridir.Şeyxin əsərləri təsəvvüfün nəzəri və əməli məsələlərini özündə əks etdirən yığcam həcmli məsnəvilər və risalələrdən ibarətdir.Müəllifin yaratdığı əsərlər məzmun baxımından olduqca zəngindir.Müəllifin irsi iki cəhətdən diqqəti cəlb edir:

1.Rəmzi dil ilə ifadə edilən ədəbi nümunələr kimi;

2.Sufi dünyagörüşünün mühüm ideyalarını daşıyan fəlsəfi-metafizik qaynaq kimi.

Qeyd etdiyimiz ikinci məsələ daha çox Şəbüstərinin "Səadətnamə" məsnəvisində əks olunmuşdur.Buna baxmayaraq,o, daha çox "Gülşəni-raz"məsnəvisi ilə şöhrət qazanmışdır.1006 beytdən ibarət olan bu əsərdə təsəvvüfün nəzəri və əməli məsələləri yığcam şəkildə ifadə edilmiş və bu əsər təsəvvüf sahəsində mükəmməl və mötəbər qaynaqlardan biridir.

Onu da qeyd edək ki,Şəbüstəri ədəbi sima olmaqdan daha çox sufi filosof kimi tanınmışdır.O İbn Ərəbi məktəbinin davamçılarından olmaqla metafizik təliminin açıqlanmasında böyük rol oynamışdır.(1,297).Şəbüstərinin yaradıcılığında diqqəti cəlb edən mühüm cəhətlərdən biri odur ki,onun həcmcə o qədər də böyük olmayan əsərlərində sufi terminologiyası və rəmzləri dəqiq və incəliklə verilmişdir.Birinci əsərə (Gülşəni-Raz) 30-dan artıq şərhin yazılması onun əhəmiyyətini və təsəvvüf çevrələrində nə qədər geniş yayıldığını göstərir.

"Səadətnamə" Şəbüstərinin "Gülşəni-Raz"məsnəvisindən sonra qələmə aldığı ikinci nəzm əsəridir. Bu əsərin adı bir çox qaynaqlarda çəkilir, ancaq müəllif əsasən birinci məsnəvisi ilə şöhrət qazandığından onun yaradıcılığından bəhs edənlər ilk növbədə "Gülşəni-Raz"ı xatırlamışlar. Buna baxmayaraq "Səadətnamə" sufi təliminə dair dəyərli məlumatlar və fikirlərlə zəngin bir əsərdir. Eyni zamanda bu əsər Şəbüstərinin həyatı, görüşləri, səfərləri, sufi alimlərlə münasibəti ilə bağlı məlumat verən yeganə əsəridir.

Əsərin adı.Əsərin adına gəldikdə,bu barədə fikirlər müxtəlifdir.Bu barədə iki qrup fikir vardır.Kimi Şəbüstərinin İmam Qəzalidən təsirlənərək onun "Kimyayi-Səadət"əsərinin adına uyğun olaraq,"Səadətnamə"adlandırdığını,bəzi müəlliflər isə Şəbüstərinin öz ləqəbi olan Səədəddinə də bir işarət olaraq əsərinə "Səadətnamə" adını verdiyi görüşündədir.Lakin Şeyx Mahmud əsərin "Kitabın yazılma səbəbi" hissəsində yazır:

"Bu əsərdə tam səadətin mövcud olduğu üçün adını səadət adlandırdım.Zikr əhlinin halı ondadır.Bu məqam bütünlüklə onda tamamlandı.Onun taleyi həmişə

səadət olacaqdır və əvvəli Səədlə (səadətlə) başlayıb sonu Mahmudla (sitayişlə) bitəcəkdir.” (2,153)

Əsərin yazılma tarixi.Əsərin yazılma tarixi dəqiq məlum deyildir.Lakin “Gülşəni-Raz”əsərinin əvvəlində Şəbüstərinin yazdığı bu beytlərə istinad etsək,

“Hamı bilir,bu kəs büsbütün ömür
Heç vaxt istəməyib söyləsin şeir.
Gərçi təbim buna gəlirdi qadir,
Ancaq söz söyləmək olurdu nadir.
Nəsrlə yaratmış çoxluca kitab,
Məsnəviyə heç vaxt etməmiş xitab.”(3,23)

“Səadətnamə”nin “Gülşəni-Raz”dan sonra qələmə alındığını söyləyə bilərik.Buna baxmayaraq “Səadətnamə” əsərinin “Gülşəni-raz”dan əvvəl yazıldığını iddia edənlər də var. Dr.Şəhin Əvani “Şeyx Mahmud Şəbüstərinin hikmət alimlərinə, flosoflara və kəlam alimlərinə qarşı çıxması” məqaləsində fikrini belə əsaslandırır: ” Şeyx Şəbüstəri Gülşəni Raz əsərini qələmə almamışdan öncə şairlik bacarığına malik olmasına baxmayaraq nadir hallarda şer söylədiyini vurğulamışdır. Çünki dəryaları bir qaba yerləşdirmək mümkünsüz olduğu kimi bütün mənaları da əruz və qafiyə çərçivəsinə yerləşdirmək mümkünsüzdür. Eləcə də, Səadətnamə ilə Gülşəni Raz əsərləri şer janrları baxımından tam fərqlidirlər.Böyük ehtimala görə Səadətnamə əsərinin yarımçıq qalmasının da əsas səbəbi də Gülşəni Raza görə olmuşdur. Belə ki, Şeyx Mahmud Şəbüstəri Gülşəni Raz əsərini başlayandan sonra həqiqətə qovuşdu, əsl arifə çevrildi. O, əsl arif və sufi olmasını anlayandan sonra isə kəlam və fəlsəfə alimlərini təhqir etməkdən əl çəkdi, özünü təmamilə irfan və sufiliyin ixtiyarına buraxdı.”(4,118-119)

Əslində bu fikir inandırıcı görünməməkdədir.Bu məsələdə Şəbüstəri irsinin Qərb tədqiqatçısı Leonard Luizanın fikirləri olduqca maraqlıdır.Belə ki,Dr.Luizan Şəbüstərinin bu iki əsərdəki fərqli mövqeyini tam olaraq siyasi vəziyyətlə əlaqələndirir. Şəbüstərinin yaşadığı dövrdə Təbriz Monqollar tərəfindən işğal edilmişdir. Monqolların hakimiyyəti dövründə İslam dininin mövqeyi zəiflədi, əhalinin dini baxışlarında ciddi fərqlər özünü göstərirdi,daha çox bütpərəstliyə meyl edirdilər.Bütpərəst din xadimlərinin (bəxşilərin) yetişməsi üçün imkan yaranırdı.Xristianlar,buddistlər və müsəlmanlar arasında ziddiyyətlər artmaqda idi. Bütün bunlar hicri 696-cı ildə Qazan xanın (1295-1304) İslam dinini qəbul etməsinə qədər davam etdi.Qazan xan İslam dinini yenidən dövlət dini elan etdi.Qazan xandan sonra hakimiyyətə qardaşı Olcaytu (1304-1317)keçir.Olcaytunun dövründə də İslamlaşma yolunda sürətli irəliləmələr olur.(5,430) Gülşəni-Raz əsəri də təxminən bu dövrlərdə yazılmışdır. Şeyxin Səadətnamə əsərini qələmə aldığı illər isə soltan Əbu Səidin (1317-1336) hakimiyyətdə olduğu illərlə üst-üstə düşür. Bu zaman kəsiyində hakimiyyət kəskin baxışlı və digər dinlərin davamçılarını qəbul etməyən fəqihlərin təsiri altında idi. Gülşəni-Razın qələmə alındığı dövrlərdə dini hakimiyyət stabil idi və Muhiyəddin ibni Ərəbin fikirlərinə hörmətlə yanaşılırdı. Halbuki, sultan Əbu Səidin dövründə olduğu kimi Muhiyəddin ibni Ərəbinin düşüncələri kəskin şəkildə rədd edilirdi.Dr.Luizan əsərin 1330-cu illərdə yazılması fikrini irəli sürür.Çünki bu dövrdə İbn Ərəbinin “Füsusul-hikəm” və “Fütuhati

Məkiyyə" kitablarının yandırılması haqqında fətva verilmişdir.Şəbüstəri də Səadət-namə əsərində bu əsərləri tənqid etmişdir.(6,30)

Onu da qeyd edək ki,"Səadətnamə" Şəbüstərinin yarımçıq qalan tək əsəridir. Əsərin yarımçıq qaldığını onun son əsəri olması fikri ilə əlaqələndirmək olar.Əsərin əvvəldən planlandığı şəkildə tamamlanmasa da,ardıcıllıqla qələmə alınması,sonlara doğru bab düzəninin xaricinə çıxaraq fərqli mövzuları əvvəlkilər kimi təfsilatı ilə vermədən izah etmişdir və əsərini nəsihətlə bitirməsi,

"Dostlarımın hamısı böyüdülər və riyazətlə möhkəmləşdilər.

Onların hamısı barəsində söz açmaq mümkün deyildir və Allah onların hamısına yar olsun.

Artıq sözün cilovunu çəkmək zamanı çatıb, çünki mənim sözüm həddən ziyadə uzandı.

Hamı yaxşı xüsusiyyətlərini göstərməyə adət etsin və hamının sonu səadətlə başa çatsın"(2,241) –deyə əsəri yarıda dayandırması bunu söyləməyə əsas verir.Həm də Şəbüstərinin yeganə əsəridir ki burada nəsihət edir: Ey, bu kitaba nəzər edən. Məni də bir dua ilə yad et.

Ki Kərimin oğluna (İbn Kərimə) rəhmət olsun və qiyamət günü ümməttin başçısı ilə bir yerdə olsun."(2,153)

Əsərin başqa bir yerində Şeyx qeyd edir:

"Mən öz uzun ömrümü tövhidi öyrənmək yolunda sərf etdim"(2,168)

Əsərin başqa bir yerində Şəbüstərinin aşağıdakı fikirləri maraqlıdır:

"Mən belə bir qərara gəldim ki bundan sonra kitab yazmaq, tədris etmək və nəsihət verməklə kifayətlənməyim. Və bütün elmlərlə məşğul olmadan öncə dini elmləri mənzum formaya salım."(2,153)

Bunlar "Səadətnamə"əsərinin Şeyx Mahmudun ömrünün kamil vaxtında qələmə aldığı püxtələşmiş əsəri olduğuna bir işarədir.Görünür,müəllifin əsəri planladığı kimi bitirməsi üçün kifayət qədər zamanı qalmamış və ya məlum olmayan səbəbdən əvvəlki planına əməl etmədiyini və bu üzdən də əsərini,son mövzularını ana xətlə verərək tamamlamışdır.

Əsərin həcmi. "Səadətnamə" əsərinin əldə olan nüsxələrinə və Dr.Səməd Müvəhidin nəşr etdirdiyi tənqidi mətnə əsaslansaq,əsərin 1570 beytdən ibarət olduğunu söyləyə bilərik.Buna baxmayaraq,əsərin həcmi barədə məlumat verərkən bir çox mənbələr əsərin 3000 beytdən (7,193) ibarət olduğunu söyləmişlər. Çox güman ki,həmin mənbələr "Səadətnamə" əsərinin girişində Şəbüstərinin kitabın yazılma səbəbi ilə bağlı fikrinə istinad etmişlər.Şəbüstəri qeyd edir ki, "mən belə qərara gəldim ki,..... dini elmləri mənzum formaya salım,dinin əsas prinsiplərini (Üsuliddin və firuiddini) min beyt çərçivəsində başa vurum,başqa elmlər barəsində olan iradlarımı iki min beytə sığışdıraraq mənzum əsərimi üç min beyt çərçivəsində tamamlayım."(2,153).Lakin məlum olmayan səbəblər üzündən Şəbüstəri bu əsəri 1570 beytdə bitirir və "Səadətnamə" əsərinə belə xətm edir: "artıq sözün cilovunu çəkmək zamanı çatıb, çünki mənim sözüm həddən ziyadə uzandı.Hamı yaxşı xüsusiyyətlərini göstərməyə adət etsin və hamının sonu səadətlə başa çat-sın."(2,241)

Yəni başqa elmlərdən bəhs açaraq 3000 beytə çatdırmaq sadəcə istək və arzu olub.Müəllif həmin elmləri əlavə etməmişdir.Eyni zamanda Şəbüstəri bu əsərin

behiştin qapısı kimi 8 babdan ibarət olduğunu bildirir.(2,153).Ancaq əsər 4 babda tamamlanmışdır.

Əsərin mövzusu və quruluşu. Əsər fars dilində nəzmlə yazılmışdır.Bu əsər məşhur bir sufi şairi Sənai Qəznəvinin "Hədiqətül-həqiqət" əsərinin yazıldığı xəfif bəhrində qələmə alınmışdır.Şeyx Şəbüstəri Gülşəni-raz əsərində "Şairlik mənə ar gətirməz" sözlərini deməsinə baxmayaraq bu əsərində şeirdən istifadə etməsi səbəbindən üzr istəyir və yaşadığı dövranda insanların üzləşdiyi pis vəziyyətə işarə edərək şeir və şairlikdən uzaq olduğunu bildirir:

- Mən nəsr yazmaqda böyük bacarığa malikəm. Bəs nə üçün şeir yazıb şairlik edirəm?
- Mən şeri qoşduğum üçün öz fəzilətimin ayaqların sındırdım və böyüklüyümü məhv etdim.(2,150)

"Səadətnamə" əsərində şeirə və şairliyə yaxşı münasibət bəsləmir, özünün bu bacarığa malik olmamasını boynuna alır.

- Bu dövrdə yaşayan insanların hamısı şeir sevən olublar və bu səbəbdən də, alimlər də şeir demək məcburiyyətində qalıblar.(2,150)

Bir tərəfdən həmin dövrdə yaşayan insanların şeirə və şairliyə çox diqqət yetirməsi, digər tərəfdən bidətçilərin, dindən anlayışı olmayan, amma böyük iddiaya sahib insanların təsiri onu bəzən şairlik təbini işə salmağa, dini və irfani həqiqətləri bu yolla insanlara çatdırmağa vadar etdi.

Bu əsərin özünəməxsus quruluşu vardır. Əsərin əvvəlində "Kitabın tərtibi və əsərin yazılma səbəbi" adlı hissəsində bölümləri alt başlıqlara ayırdığını və dərəcələrlə işlədiyini bildirir.Mövzuları dörd əslə görə açıqladığını söyləyir.Bunlar etiqadi,kəlami,təsəvvüfü,yanlış fikirlərin həllidir.Bablar (bölmələr) fəsllərə ayrılır,hər bir fəsildə qoyulan məsələ elmin təsəvvüfdə yer alan üçpilləli dərəcəsi üzrə izah edilir:

1.Elmül-yəqin
2.Eynül-yəqin
3.Həqqül-yəqin

Hər bölümdəki mövzuların izahında bu üçlük dərəcə təkrarlanır.Elmül-yəqin hissəsində məsələnin əsas istiqamətlərini ortaya qoyur.Eynül-yəqin hissəsində kəlam elminin məlumatlarından istifadə etməklə mövzunu əqli dəlillərlə izah edir.Həqqül-yəqin hissəsində isə məsələnin tədqiqinə əsaslanan irfani həqiqətləri bildirir.Daha sonra mövzunu təmsil və hekayələrdən istifadə etməklə işıqlandırmağa çalışır. Mövzuların izahında sufi ədəbiyyatına xas yardımçı vasitələr işlənir ki,bunlar 28 hekayə,8 təmsil və 6 mənşədən ibarətdir. Təmsilləri məcazlar şəklində işlətmişdir.Hekayələrin əksəriyyəti yaşanmış hadisələrdən seçilmişdir Bundan əlavə,tək-tək halda nəsihət,təhqiq,vəsfi-hal başlıqlı parçalar verilir. Hər bölümün sonunda "Zalalü'l-mübin" başlığı altında azğın firqələrin görüşləri müzakirə olunur. Müxtəlif mövzular üzrə yanlış mülahizə yürüdən zümrələr və onların yanıldığı məqamlar isə "Zülalül-mübin" başlığı altında verilir.. Bəzən də çox ağır şəkildə onları tənqid edir,fikirlərini təkzib edərək dəlilllər gətirir. Əsərdə 14 belə başlıq var."Mənşə" hissəsində bu azğın firqələrin meydana gəlməsindən bəhs etmişdir.

Əsərin yazılma səbəbindən bəhs edərkən,müəlllifin bu əsəri dini bir məsuliyyət duyğusuyla yazmasının şahidi oluruq.Belə ki, müəllif içərisində həm

irfani kəşfi-şühudun, həm ilahi sübutların, həm də Qurani Kərim ayələrinin mövcud olduğu mənzum əsər mövcud olmamasından şikayət edərək yazır:

"Allah-Taalanın dərgahına yol tapmaq üçün ağıl və əməldən möhkəm tutmağı tövsiyə edir və qeyd edir Əgər bunları əldə edə və istədiyinə çata bilmirsənsə bu bəndə (müəllif) onun əsasını sizlər üçün nəzmə çəkmişdir." (2,149)

Daha sonra əsərin məzmunu barəsində Şəbüstərinin dilindən "Səadətnamə"dən iqtibas etmək istərdik:

"Birinci mərhələdə elmul yəqinə, ikinci eynul yəqinə və daha sonra həqqul yəqinə çat. Daha sonra böyük kəlam elmi sünnəti və ən böyük zəlalət barədə məlumatlı ol. Fəsilləri buna uyğun olaraq adlandırdım və mənzum əsərimi buna uyğun olaraq dərəcələndirdim.Hər fəsildə səkkiz bab mövcuddur və fəsillər dörd əsas məsələ üzərində qurulub.Birinci məsələ həm ağılın, həm də hədislərin təsdiq etdiyi düzgün etiqaddır. Mən bu məsələni iman və etiqad məsələlərini tam anlaman üçün özüm əvvəldən axıracan açıqlayacam.Daha sonra nəzərdə tutulmuş bütün məsələlərə aydınlıq gətirmək üçün qarışıq məsələlərin hamısını həll edəcəm.Sən də imanınla qazandığın elmul yəqinin vasitəsi ilə nəzərdə tutulmuş əqidə və etiqada doğru addımlayacaqsan.Daha sonra eynul yəqinə tərəf istiqamət alacaqsan və mən bu sahədə lazım bilinən bütün sözləri sənə deyəcəyəm.Nəzər əhlinin üzləşdiyi bütün kəşfi şühudları və aldıqları mənəvi ləzzətləri sənə görüntü kimi vəsf edib açıqlayacağam.Mən sənə onların söhbətlərindən və gizli sirrlərindən söz açacağam.Sonra çatdıracağım sözləri və şübhələri bildirdikdən sonra onların cavablarını verəcəyəm. Daha sonra həmin məzhəb və firqələr barəsindəki araşdırmaları sənə çatdıracağam və məzhəbin nə səbəbdən yaranmasını izah edəcəyəm.Fikirlərimi bildirmək və izah etmək üçün təmsillərdən və müxtəlif rəvayətlərdən istifadə edəcəyəm.Mətnin müxtəlif yerlərindən təbərrük kimi müxtəlif şeyxlərin sözləri qeyd olunmuşdur.Orada Allah kəlamına uyğun olaraq həm mədh (tərif), həm zəmm (təhqir) mövcuddur." (2,149)

"Səadətnamə"əsərinin əsas mövzusu kəlam və təsəvvüfdə mühüm yer tutan Allahın zatı,sifətləri,adları və fellərinin açıqlamasıdır.Müəllif bu məsələni özünəməxsus tərzdə təsəvvüf baxımdan təqdim edir və öz fikirlərini Quran ayələri və hədislərlə təsdiqləməyə çalışır.Şəbüstərinin məqsədi tövhid etiqadının mahiyyətini irfan bucağından açıqlamaqdır.Onun yazılma səbəbindən danışan müəllif 66-cı beytdə belə söyləyir:

Bu din əhli bir dəstə idisə,
Yetmiş üç dəstə oldular. (2,150)

Şair burada mühüm bir məqama işarə edir:Allahın dini birdir,insanlar onu müxtəlif firqə və məzhəblərə ayırmışdır. Məşhur bir hədisdə deyilir:"yəhudilər yetmiş bir firqə,xaçpərəstlər yetmiş iki firqə idilər,mənim ardıcıllarım yetmiş üç firqə olacaqlar.(8,5855) Həmin hədisin digər variantında söhbət yetmiş iki firqədən gedir;onların hamısı cəhənnəmlikdir və yalnız bir dəstə -cəmaət (əsl müsəlmanlar) nicat tapacaqlar.

Şəbüstəri vahid dinin ətrafında yetmiş iki firqənin mübahisə apardığını diqqətə çatdırır,öz dövründə hətta bu sayın yeddi yüzə çatdığından gileylənir.

Kitabın hər bölməsi bir mövzuya həsr edilmişdir və buraya daxil olan fəsillər isə mövzunun təfərrüatını açıqlayır.Beləliklə,dörd əsas bölmə (bab) və fəsillərin ardıcıllığı belədir:

Birinci bab: Müqəddəs və uca Vacibül-Vücudun zatının tanınması. Allahın zatı barəsindədir.Dörd fəsildən ibarətdir.

1.1.Vücudun tanınması
1.2.Tövhid
1.3.Tənzih

İki və üç fəslin hər biri yanılan üç firqə ayırd edilir.

İkinci bab:Allahın sifətlərinin tanınması. Allahın sifətləri barəsindədir.Yeddi fəsildən ibarətdir.

2.1.Sifətlərin isbatı
2.2.Qüdrət sifəti
2.3.Elm sifəti
2.4.İradə sifəti
2.5.Həyat,eşitmək və görmək sifətləri
2.6.Kəlam sifəti
2.7.Sifətlərin həqiqətləri

Üçüncü bab:Allahın adlarını tanınması. Allahın adları haqqındadır.

Dördüncü bab:Allahın feillərinin tanınması.Allahın işlərindən bəhs edir.Səkkiz fəsildən ibarətdir.

4.1.Cəbr və qədər
4.2.Feillərin səbəbsiz olması
4.3.Adəmin hüdus olması(sonradan yaranması)
4.4.Aləmin başlanğıcı
4.5.Danışan nəfsin mərifəti
4.6.Rizq
4.7.Zaman və məkan
4.8.Taət (Allaha itaət) və onun faydası

Nəticə. Şəbüstəri irsinin böyük tədqiqatçısı Leonard Luizan bu əsəri Şəbüstərinin şah əsəri adlandırmış,ədəbiyyat tarixçiləri və tənqidçiləri bu əsərə müraciət etmədiklərinə görə qınadığını bildirmişdir.Nəticə olaraq qeyd edək ki,Şeyx Mahmud Şəbüstərinin əsərlərini, xüsusən də Səadətnaməsini diqqətlə incələdikdən sonra irfani təfsir, İslam Peyğəmbərinin (s) hədisləri, ilahi kitabın incəliklərindən məharətlə istifadə etmək sahəsində xüsusi bilik və bacarığa malik olmasını müşahidə etmək olar. Şeyx Şəbüstərinin öz əsərlərində istifadə etdiyi ilahi kəlamları onun öz sözlərindən ayırmaq olduqca çətindir və bu onun məharətinin nümunəsidir. Bəzən də sufilər kimi ilahi kəlamlara batini təfsir verir və öz sözlərini təsdiqləmək üçün Qurani Kərimin ayələrdən istifadə etmişdir.Şeiri sevməsə də fikirlərini açıq və dolğun şəkildə ifadə etməsi,nəzmlə fəlsəfi traktat yazmaq bacarığına malik olması Şəbüstərinin ədəbi zövqünün ali olmasından xəbər verir.

Ədəbiyyat

1. A.Şimmel.İslamın mistik boyutları.çev.E.Kocabıyık.İstanbul,2012
2. Məcmuəyi-asari-Şeyx Mahmud Şəbüstəri.Haz.S.Müvəhid.Tehran,Tohuri,1371.
3.Şeyx Mahmud Şəbüstəri.”Gülşəni-Raz”.Ş.M.Lahıci.Şərhi-Gülşəni-Raz.I c.Bakı.2008.
4. Dr. Şəhin Əvani.Moxalefəte Şeyx Şəbüstəri ba həkiman,filosofan və motakəlleman. Journal of Religious Thought of Shiraz University Ser. 25, Winter 2008
5. J.P.Roux.Moğol imparatorluğu tarihi.çev.Aykut Kazancıgil,Ayşe Bereket.İstanbul,2001.
6. Lewisohn Leonard, Beyond Faith and Infidelity: the Sufi Poetry and Teachings of Mahmud Shabistari, London: Curzon, 1995
7. M.Tərbiyət.Danişməndani-Azərbaycan.Bakı.Azərnəşr,1987.
8.Hafizi-xarabati.Doktor Rüknəddin Humayinfərrux.Tehran.Əsatir.1370.c.7.

Samira Mammadova

The idea and thematic features of "Saadatnama" verse (mathnawi)

Summary

In this article,has been informed about the idea and thematic features of the “Saadatnama” (The Book of Felicity) verse written by Shaykh Mahmud Shabistari ,azerbaijani sufi author .The literary structure ,the date of composition and significance of this verse has been pointed out,also, about this issue the thoughts of the literary critics has been commented in this scientific paper.

Самира Мамедова

Идеи и тематические особенности произведения (маснави) "Saadatnama"

Резюме

В статье, были рассмотрены идеитематических особенностей поэмы (маснави) "Saadatnama" (Книга о Счастье) Шейха Махмуда Шабустари, азербайджанского суфийского автора, также в статье была изложена литературная структура, дата написания произведения, были исследованы причины написания этой поэмы. Также в этой научной работе были прокомментированы мысли литературных критиков.

Rəyçi: Nəsib Göyüşov
filologiya elmləri doktoru

NAİLƏ MUSTAFAYEVA
filologiya üzrə fəlsəfə doktoru
Əlyazmalar İnstitutu
nailemustafayeva@yahoo.com.tr

SƏMƏD MƏNSURUN MÜXƏMMƏSLƏRİ

Açar sözlər: müxəmməs, poeziya, satira, mətbuat
Ключевые слова: мухаммас, поэзия, сатира, пресса
Key words: mukhammas, poetry, satire, press

Müxəmməs janrı XX əsrin əvvəllərinə qədər müəyyən inkişaf yolu keçmiş, məzmun və formaca zənginləşmişdir. XX əsrin əvvəllərində poeziyamızda satirik, ictimai-fəlsəfi məzmunlu müxəmməslərin sayı artmış, bu janr özünə yeni formalar tapmışdır. Xüsusilə bu janr daxilində Mirzə Ələkbər Sabirin yeni forma axtarışları diqqətəlayiqdir.

Müxəməs janrının XX əsrə qədərki inkişafını "Sabir satiralarındakı müxəmməslərə hazırlıq mərhələsi" adlandıran professor Teymur Kərimli yazır: "Sabir "Hophopnamə"sində müxəmməsin klassik formasından bir dəfə də istifadə etməmişdir. Onun ən çox müraciət etdiyi forma müxəmməs-tərcibənd formasıdır. Həm də çox vaxt tərci əvvəldə ayrıca verildikdən sonra hər bəndin axırına keçir" (6, s.359).

XX əsrin əvvəllərində müxəmməsi mövzu cəhətdən zənginləşdirən sənətkarlardan ictimai-fəlsəfi məzmunlu müxəmməslər müəllifi Məhəmməd Hadinin də adını çəkmək lazımdır. Dövrün müxəmməs yardıcılığında istedadlı şair Səməd Mənsurun (1879-1927) xidmətləri də maraq kəsb edir. Onun müasiri olduğu həyatın, cəmiyyətin geniş ictimai-fəlsəfi təhlilindən ibarət "Həpsi rəngdir" müxəmməsi poeziyada əks-səda doğurmuş, sovet dövründə şairin yaradıcılığı qadağan edilidyi bir zamanda da əlyazma halında əldən-ələ gəzmiş, dillər əzbəri olmuş, bir sözlə, heç bir vaxt unudulmamış, ədəbiyyat tariximizdə özünə məxsus yerini tutmuşdur. Səməd Mənsur lirikada Məhəmməd Füzuli, satirada isə Mirzə Ələkbər Sabir məktəbinin nümayəndəsidir. Onun yaradıcılığında lirikanın da, satiranın da təkrarsız nümunələrinə rast gəlirik. Şairin ən mükəmməl, iri həcmli seçilmiş əsərlər toplusuna 14 müxəmməsi daxil edilmişdir. Bunlardan 9-u Sabirin satirik üslubunda yazılmışdır, dördü, o cümlədən, "Həpsi rəngdir" şeiri ictimai-fəlsəfi məzmunlu, ciddi əsərdir, sonuncusu isə Füzuli qəzəlinə təxmisdir. Professor T.Kərimli Sabirin müxəmməs janrına gətirdiyi yeniliklər barədə yazır: "Göründüyü kimi, Sabir klassik poetika qayda-qanunları çərçivəsindən çıxaraq müxəmməs janrının üç formal əlamətini yerinə yetirmir: birinci bəndi a-a-a-a-a şəklində deyil, a-a-a-b-b şəklində qafiyələnir, son bənddə təxəllüsünü vermir və nəhayət, tərcinin özünün də ilk misrasını hər bənddə dəyişir. Müxəmməs formasına bu cür müstəqil münasibət Sabirin mətləb ifadəetmə imkanlarını da xeyli genişləndirmiş olur. Məzmunun tələblərinə əsasən şair gözlənilmədən formanı dəyişə bilir" (6, s.360). Bu deyilənlərə onu da əlavə etmək istərdik ki, türk alimi Haluk İpekten "Əski türk ədəbiyyatı. Nəzm şəkilləri və əruz" kitabında yazır: "Son iki misrası nəqərat olan müxəmməslərə ədəbiyyatımızda çox az rastlanmışdır" (5, s.96). Qeyd etmək

istərdik ki, tədqiqatçı "ədəbiyyatımızda" deyərkən yalnız osmanlı deyil, Azərbaycan və cığatay ədəbiyyatlarını da nəzərdə tutur. Buradan belə nəticəyə gəlmək olar ki, Sabirin müxəmməs janrına gətirdiyi forma yeniliklərini bütün türk ədəbiyyatları səviyyəsində yenilik kimi qəbul etmək olar. Sabir ədəbiyyatımızda elə populyar şair olmuşdur ki, onun təsiri ilə illər ərzində klassik üslubda lirik-aşiqanə və ya ictimai-fəlsəfi məzmunlu ciddi şeirlər yazan müasirləri belə satirik şeirlər yazmağa başladılar. Bu təsir Sabirdən sonra ədəbiyyata gələn şairlərin əsərlərində də özünü qabarıq göstərmişdir. Təbii ki, Sabirdən ideya-məzmunca bəhrələnən şairlər ondan forma yeniliklərini də götürdülər. Sabirdən məzmun və formaca təsirlənən şairlərdən biri də Səməd Mənsur idi və bu ustad sənətkardan gələn yeni formaları o bütün janrlarda yazdığı sabiranə şeirlərində tətbiq etmişdir. Məsələn, S.Mənsurun "Gülməlidir", "Naz et", "Ərbəin qurtarmaq münasibətilə" , "A"Tuti!", "Ya Rəb", "Gözəl oğlanlarıq", "Atanın oğlu ilə davası", "Qarı anamdan", "Meydanə çıx", "Gərəkdir", "Söyüşün", "Mənim olsun", "Məşahirdən biri", "Un bölgüsü", "Məslək satıram", "Olur olsun", "Qaçmaq günüdür", "İrandan nəva", "Bəşarət", "Yolka bayramından məhrum olanlara töhfə", "Ya şeyx!" müsəddəslərində, "Bir möminin avropalıya xitabı" adlı mütəssasında (hər bəndi 9 misradan ibarət şeir) da, haqqında daha ətraflı danışacağımız müxəmməslərində də Mirzə Ələkbərin forma yeniliklərinin (hər bəndin sonundakı 2 misranın nəqərat kimi ayrıca qafiyələnməsi) tətbiq edildiyini görürük. İstər müxəmməs, istər müsəddəs olsun, nəqərat hisəsi Səməd Mənsurun satirik şeirllərinin əsas məzmununu bariz surətdə ifadə edir. Məsələn, şairin türk ordusunun 1918-ci ildə Bakını işğalçılardan xilas etməsinə həsr etdiyi "Qaçmaq günüdür" müsəddəsinin nəqəratı belədir:

Qaçmaq günüdür, ingilis! Osman gəli, arş,
Qaçmaqda Mıkırtıç sənə, Hartun sənə yoldaş (8, s. 70-71).

Gördüyümüz kimi, şairin əsas məqsədi, şeirin satirik məzmunu, bu nəqəratda ifadəsini tapmışdır.

Səməd Mənsurun müxəmməslərində də Sabirin forma yeniliklərinin tətbiqini görürük. "Molla Nəsrəddin əmiyə" adlı müxəmməsində şair jurnal qarşısına çıxmış çətinliklərdən, digər mətbuat orqanlarının onu üstələməyə başlamasından danışır. Deyildiyi kimi, şeir tərci-nəqərat hissəsi ilə başlanır, bəndlər ənənəvi a-a-a-a-a şəklində deyil, a-a-a-b-b şəklində qafiyələnir, son bənddə təxəllüs verilmir, tərcinin-nəqəratın ilk misrası hər bənddə dəyişir:

Yeksər qarışıb bu gecə qanqalım, a Molla!
Qalx, bir cana gəl, dur qadanı alım, a Molla!
Əvvəl var idin dipdiri meydanda könülli,
Jurnalçı, nəsihətçi, nəçi, "mollayi-milli",
İndi niyə oldun belə sən, ay başıkülli,
Çallaşdı qəmindən qara saqqalım, a Molla!
Qalx, bir cana gəl, dur qadanı alım, a Molla! (8, s. 63).

Sabirdən gələn kinayəli gülüş S. Mənsur müxəmməslərinə üçün də xasdır. Klassik Şərq poetikasından gələn kinayə poetik fiquru sözdə aşkar mənanı gizli ifadə etmək yolu ilə yaradılır. Mahirə Quliyevanın "Şərq poetikasının əsas

kateqoriyaları" kitabında oxuyuruq: " Bu poetik vasitənin estetik dəyəri ondadır ki, oxucu öz zehni çalışması sayəsində kinayədə verilən üstüörtülü və gizli məzmun incəliyini anlamaqla bədii zövq alır" (7, s.232). XX əsrin əvvəllərində Sabirin şeirlərində kinayə poetik fiquru yeni bir səciyyədə, satirik şeirin silahı kimi istifadə edilməyə başlandı. Əlbəttə ki, öncəki dövr poeziya nümunələrində də kinayənin satirik gücündən istifadə hallarına rast gələ bilərik. Lakin məhz qeyd etdiyimiz dövrdən, Mirzə Ələkbər Sabirin qələminin sayəsində kinayə satirik şeirdə çox önəmli bir tənqid, ifşa vasitəsinə çevrildi. Ədəbiyyatşünaslıqda kinayənin satirik şeirdə istifadəsi barədə deyilir ki, "kinayə eyni zamanda, bədii məcazlardan birirdir, sözün əks mənada işlənməsi deməkdir. Məsələn, yazıçı bir hadisə və ya adam haqqında özünün əsl fikrinin tam əksinə olan bir fikri, ciddi tərzdə dediyi zaman həmin hadisəyə və ya adama kinayə etmiş olur" (2, s.83). S. Mənsurun təhsil aldıqdan sonra kəndlərdə işləmək istəməyən gənc həkimləri tənqid edən "Cavan həkimlərimiz" müxəmməsi əvvəldən axıra qədər tənqid obyektinə kinayəli müraciətdən ibarətdir. Maraqlıdır ki, bu beş bəndlik şeirdə və şairin bir neçə digər müxəmməsində Sabirdə olduğu kimi bəndlərin nəqərat hissələrində təkrar misralar yoxdur. Altı misradan ibarət sonuncu bənddə isə nəqərat üç misradan ibarətdir:

Qalsın qulağında, a cavan, türfə nəsihət,
Jurnal sözü boş lağlağıdır, eyləmə diqqət,
Sən inteligentsən, qulaq asma, yaşa, keyf et,
Min heyf ki, keyf etməyə yox parə, həkimlər,
Pulsuzluq işi saldı yaman darə, həkimlər,
Ey xatiri möhnətli, günü qarə həkimlər (8, s. 94).

S. Mənsurun "İski"lər "li" ləndilən" adlı 7 bəndlik müxəmməsində söhbət soyadlarını "milliləşdirmiş", lakin əvvəlki kimi millilikdən uzaq olan ziyalılar tənqid hədəfinə çevrilmişdir. Maraqlıdır ki, burada ilk üç bənddə kinayəli gülüşə üstünlük verilsə də, son dörd bənddə tənqid müstəqim dillə ifadə edilir:

Sandığa qoymuş hamı "iski"liyin,
İşlədər şimdi əlində "li"liyin,
Başlasa çərxi-fələk yağiliyin,
Bir də baxsan həpsi "iski" ləndilər,
"İski"lər, "ov"lar bü gün "li"ləndilər (8, s.74).

S.Mənsurun 1917-ci ilin 1 aprelində "Tuti" qəzetində çap etdirdiyi 9 bəndlik "Yeznə", yəni Nikolay dayı" şeirində çevriliş nəticəsində hakimiyyətdən məhrum edilmiş rus çarı tənqid hədəfinə çevrilmiş, onun milli azlıqlara qarşı etdiyi bir sıra cinayətlər sadalanmışdır. Burada da kinayəli gülüşlə sözün müstəqim mənada deyilməsi bir-birini əvəz edir. Şair bəzi yerlərdə II Nikolayı ifşa etmək üçün kinayəli suallara üsünlük verir:

Qətli-am etdimi biçarə yəhudilərini?
Qırdımı övrəti, ətfalını, yeksər ərini?
Əzdimi həq danışan kimsələrin peysərini?

Ayaq altında üzü indi lavaş oldu niyə?
Açılıb eybi bütün aləmə faş oldu niyə?(7, s.66).
Şeirdə elə yerlər də vardır ki, müəllif fikrini birbaşa ifadə edir;
Sarı qırğızları qaldırdımı, talan elədi,
Qars, acar kəndlərini xak ilə yeksan elədi ...(8, s.65)

-deyir.

Qeyd etmək istərdik ki, XX əsrin əvvəllərində adı çəkilən məlum çevrilişdən sonra devrilmiş rus çarı II Nikolayın Rusiyanın milli azlıqlar qarşısındakı cinayətlərini ifşa edən bir sıra digər əsərləri də meydana çıxmışdır. Əliabbas Müznibin "İkinci Nikolayın cəzalanması. Heykəli-istibdadə qarşı" (9, s.110-112), "İkinci Nikolayın həbsindəki fəryadı" (8, s.116-117) şeirlərini buna nümunə gətirə bilərik.

Sabirin şeirlərində dialoji nitqdən istifadəni, müxtəlif şəxslərin, müxtəlif təbəqə nümayəndələrinin mükalimə etdiyini görürük. Onun "Sual-cavab" adlı iki şeiri,"Olmur, olmasın!", "Bura say", "Bakıda bir kənddə mühavirə", "Avropada Məmdəlinin eşqbazlığı", "Balaca səhnə" əsərlərini, bir sıra taziyanələrini və s. bu cür əsərlərdəndir. Səməd Mənsurun sabiranə şeirlərində, o cümlədən, "İnşallah" adlı müxəmməsində də bu üsuldan istifadə edilmişdir. Doqquz bəndlik bu şeirin hər bir bəndində cəmiyyətin müəyyən bir zümrəsinin nümayəndəsi gələcəyə özünün "nikbin" baxışını ifadə edir. Beləliklə, bir şeir kinayəli dillə bütün cəmiyyət təbəqələrinin eyiblərini, mənfiliklərini, sadəlövhlüklərini əhatə etmiş olur, "Alçaq təbəqə deyir ki" sərlövhəli bənddən cəmiyyətin aşağı təbəqə nümayəndələrinin həyatda inkişafı istəmədiklərini, sadəcə Quba meydanında köhnə palan satmaq, çayçılarda oturmaqla gün keçirmək istədiklərini görürük. "Xırda tüccar deyir ki" başlıqlı ikinci bənddən xırda tacirlərin buğdanı arpa ununa qatıb baha satmaq istədikləri məlum olur. Sonrakı bəndlərdə cavanların gecəni səhərə qədər kazinolarda keçirmək istədiklərini, milyonçuların bazar qiymətlərinə nəzarət edən türk ordusunun Azərbaycandan getməsinə sevindiklərini, mollaların xəstəlilərin, ölümlərin sayının artmasından sevindiklərini, intelligentlərin bütün fikrinin restoranlarda qaldığını, hökümət adamlarının ancaq qarınlarını doldurmaqla məşğul olduqlarını öyrənirik. Lakin son iki bənddə şair aktyorların və qələm əhlinin dilindən danışarkən tənqidi deyim tərzini dəyişdirir, onların gələcək xoşbəxtliyi sənətə, xalqa fədakar, təmənnasız xidmətdə gördüklərini yazır:

Əhli-qələm deyir ki:
Hələlik bir soyuq evdə yatıram ac-yalavac,
Bilirəm qəmlərimə etməyəcək kimsə əlac,
Ruhi-ülvini qoy etsin hələlik qəm tarac,
Ölərəm, sonra adım söylənər, inşallah,
Torpaq içrə olaram bəxtəvər, inşallah (8, s.83).

28 dekabr, 1918-ci il tarixində "Şeypur" jurnalında çap etdirdiyi bu şeiri oxuduqca müəllifin yazıçılıq, şairliklə bərabər aktyorluq etdiyi də yada düşür. Fikrimizcə, şeirin son iki bəndi şairin həyat məramnaməsinin ifadəsidir, müəllif burada özü ilə bərabər maddi sıxıntılar içində yaşayaraq həyatının mənasını xalqına xidmətdə görən əsl ziyalılarımızın əqidə bütövlüyünü əks etdirmişdir.

S. Mənsurun "ciddi" müxəmməslərindən biri bəlkə də onun ilk qələm təcrübələrindən olan Füzulinin "Pənbeyi-dağı-cünun içrə nihandır bədənim" misrası ilə başlanan qəzəlinə yazdığı təxmisidir. Füzulinin yeddi beytlik bu qəzəlinin hər beytinə bir bənd həsr edən müəllif bu təxmisi ilə dahi şairin sənət dünyasına, söz sehrinin sirlərinə gənc yaşlarından bələd olduğunu sübut etmişdir. Təxmisin bütün bəndlərinə S. Mənsurun əlavə etdiyi misralar Füzuli beytlərinə məharətlə uyğunlaşdırılmışdır:

Gəl-gəl, ey lalərüxüm, bülbüli-şirinsüxənim,
Ömr bağında xəzan oldu gülüm, yasəmənim,
Çak-çak oldu qəza tiği ilə bəs ki tənim,
"Pənbeyi-dağı-cünun içrə nihandır bədənim,
Diri olduqca libasım budur, ölsəm, kəfənim" (8, s.20).

8 bəndlik "Əşar" adlı müxəmməsində əvvəlcə bahar fəslinin gözəlliklərini təsvir edən şair, sonra fəlsəfi düşüncələrə dalır, oxucunu təbiətdən ibrət götürməyə, oyanmağa, dünyanı dərk etməyə çağırır.

Altı bəndlik "Çarşablı qadınlar" müxəmməsində S. Mənsur qadınlara müraciət edir, onları çarşabı atıb dünyaya baxmağa, eyni zamanda, bər-bəzəkdən, ənnik-kirşandan da imtina etməyə çağırır.

Qeyd etdiyimiz kimi, Səməd Mənsurun yalnız müxəmməsləri içində deyil, bütün yaradıcılığında ən məşhur əsəri "Həpsi rəngdir" şeiridir. Səkkiz bəndlik bu müxəmməsdə şair dərin ictimai-fəlsəfi fikirlərini ifadə etmişdir. Məhz bu şeirin sovet dövründə gizli şəkildə olsa da, ədəbiyyat adamları, qələm sahibləri arasında geniş yayıldığından, rəğbətlə qarşılandığındandır ki, xalq şairi Rəsul Rza XX əsrin 60-cı illərində tamamladığı "Rənglər" şeirlər silsiləsinin "Əl vurmayın, rənglənib" adlı son şeirinə bu misraları daxil etmişdir:

Səməd Mənsur haqqında xatirələr,
Doğruya bənzəyən yalanlar (10, s.291).

"Əl vurmayın, rənglənib" adlı şeirə "Səməd Mənsur haqqında xatirələr" misrası təsadüfi salınmayıb. Rəngləri, onların doğurduğu assosiasiyaları əsas mövzu seçən R.Rza "Həpsi rəngdir" şeirinin müəllifini xatırlamaya bilmir. Müəllifin başqa bir işarəsi də oxucunun diqqətini cəlb edir: "Əl vurmayın", yəni "qadağandır" deyilən məqamda əsərləri yasaq edilmiş S. Mənsur yada düşür. Və nəhayət S. Mənsurun riyaya, yalana "Doğruya bənzər yalana" etirazı da xatırlanır.

"Həpsi rəngdir" şeirində ilk misralardan "rəng" sözünün hansı mənada işləndiyini başa düşürük.

Uyma, ey dil, xəlqdə yoxdur sədaqət, rəngdir,
Mey riya, məşuqə ğəşş, hüsnü vəcahət rəngdir,
Rəngdir hər dürlü matəm, hər məsərrət rəngdir,
Anla, ey əbnayi-xilqət, cümlə xilqət rəngdir (8, s.35).

Rəngdir, yəni zahiridir, daxildən fərqlidir, əsl deyil. Fəlsəfi fikir tarixində həmişə zahiri ilə (0 cümlədən, rəng ilə) daxili, batini qarşılaşdırlmış, birinin keçici,

digərinin əsl olduğu göstərilmişdir. Alman filosofu Hegel "Təbiətin fəlsəfəsi" əsərində hər hansı bir rəngin təbiətdə müəyyən bir vəziyyətlə, şəraitlə, məqamla bağlı olduğunu, məqam dəyişdikdə rəngin dəyişdiyini, yəni onun keçici olduğunu elmi faktlarla sübut edir (3, s.289). Şərq fəlsəfəsində də buna bənzər fikirlər kifayət qədərdir.

S.Mənsur dünyanın bütün gözəlliklərinin, zövqü səfasının fənaya uğr-ayacağını bədbin bir filosof kimi öncədən xəbər verir. O, bir tərəfdən insanlardan, onların vəfasızlığından, həyatda hər şeyin saxta olduğundan narazıdır, digər tərəfdən isə hər şeyin sonu olacağını söyləyir, bu dünyada xoşbəxt olmağın mümkünsüzlüyündən danışır. Anadilli şeirimizdə Molla Vəli Vidadinin "Gəl çəkmə cahan qeydini sən, can belə qalmaz", Molla Pənah Vaqifin "Mən cahan mülkündə mütləq doğru halət görmədim" misraları ilə bağlanan müxəmməslərini, bir sıra diğər əsərləri bu şeirin sələfi adlandırmaq olar. Fikrimizcə, S. Mənsurun "Həpsi rəngdir" şeirinin ideya və məzmununda dövrünün böyük sənətkarı Məhəmməd Hadinin də təsirini görmək olar. Qeyd edək ki, bu iki sənətkar arasında qarşılıqlı rəğbət olmuş, M.Hadi "Hərarətli şeir və yaxud qızdırmalı halında saçmalarım" adlı şeirinin adının altında "Səməd Mənsur qardaşıma" ithafını yazmışdır. Məlum olduğu kimi, həyata fəlsəfi baxış, həyatın, bəşəriyyətin inkişafının təzadlı, ziddiyyətli nöqsanları üzərində düşüncələr. Hadi poeziyasının səciyyəvi cəhətlərindən olmuşdur. Şairə görə bəşəriyyətin zahirən müsbət görünən texniki tərəqqisi onun əleyhinə çevrilmişdir, daha qanlı müharibələrlə nəticələnmişdir. M.Hadinin "İnsanların tarixi faciələri, yaxud əlvahi-intibah" poemasının əsas mövzusu bəşəriyyətin özünün özünə qənim kəsilməsinin, insan həyatında sözlə real gerçəkli arasında olan fərqin, ziddiyyətin ifşasından ibarətdir:

Həyatın səsləri guşumda həp fəryad şəklində,
Bu insanlar ki, qardaşdır və lakin ad şəklində,
Bu torpaq qanlı ovlaqdır, bəşər səyyad şəklində,
Ədavət daima vardır, məhəbbət ad şəklində (4, s.362).

Hadinin təsvir etdiyi cəmiyyətdə gülüş, fərəh təməlsizdir, süni görünür, təbii görünən isə qəmlən, matəmləndir:

Gülüşlər həp binasızdır, fəqət qəmlər təbiidir,
Fərəhlərdə təməl yoxdur, o matəmlər təbiibdir (4, s.363).

Tərcibənd formasında yazılan poema boyu təkrar edilən bəndlərarası vasitə beyti axırda da işlənərək kədərli bədbin bir sonluq kimi səslənir:

Baxışlar kölgəli, üzlər bütün naşad şəklində,
Bu matəmgahı kim görmüş şürunabad şəklində (4, s.381).

XX əsrin əvvəllərində Cəfər Cabbarlının "Oqtay Eloğlu" faciəsində həyatdakı riyakarlıqlara etiraz edən bədbin, küskün Oqtay gözə görünən hər şeyin saxta olduğu barədə üsyankar bir şəkildə belə deyir:"Görünən hər şey var demək deyildir. Yox, yox, mən bir daha gözlərimə inanmıram, çox zaman onlar aldadırlar. Bəlkə sən bir kölgəsən. Bəlkə güzgüdəki şəkillərdən birisən. Sənin həqiqət olduğunun bir sübut varmı?" (1, s.219).

Rəng, zahir-daxil, batin qarşıdurmasını S. Mənsurun digər şeirlərində də görürük. "Bir rəngli, boyalı qadına" adlı şeirində şair bəzəkli, boyalı xanımın gözəlliyinin ömrünün uzun olmayacağından danışır (7, s.42).

S. Mənsur 8 bəndlik "Həpsi rəngdir" müxəmməsinin əvvəlindən axırına qədər həyatın bütün tərəflərini nəzərdən keçirir, təbiətdə də, ictimai həyatda da çoxlu nöqsanlar, "rəng" yəni sırf zahirilik, saxtalıq tapır, din xadimlərinin sözünün də, təriqətlərin də, şairlərin mədh etdiyi məhəbbətin də rəngdən başqa bir şey olmadığını elan edir, hər kəsin öz nəfsinə qulluq etdiyini söyləyir. Daha çox Vaqifin "Görmədim" rədifli müxəmməsinə yaxın olan bu şeirini şair klassik ənənədən nümunə götürərək saqiyə müraciətlə bitirir. Əgər dünyadan kam almaq mümkün deyilsə, heç olmasa mənə bir şərab ver-deyə sözünü bitirir:

İndi ki, mümkün deyil aləmdə olmaq kamyab,
Ey gözün qurbanı saqi, ver genə sağər şərab,
Ver genə sağər şərab, ey sayiqi-alicənab,
Bəlkə bədənlə edə Mənsur rahət iktisab,
Yoxsa bu aləmdə yoxdur istirahət, rəngdir (8, s.36).

Əldə edilən məlumatlar sübut edir ki, artıq XX əsrin əvvəllərində S.Mənsurun bu müxəmməsi ədəbi aləmdə populyarlıq qazanmışdı və şairlər ona nəzirələr yazırdılar.

Nəcəfqulu bəy Şeydanın XX əsrin 30-cu illərində tərtib etdiyi "Gülşəni-maarif" təzkirəsində Qarabağ ədəbi mühitinin nümayəndəsi, "Müştəri" təxəllüslü Məhəmməd ağa Müctəhidzadənin (1875-1956) S. Mənsurun həmin müxəmməsinə yazdığı nəzirəsinə rast gəlirik. Yeddi bəndlik bu şeirdə S. Mənsurun fikirləri başqa həyat lövhələri ilə, ifadələrlə təkrar, bəzən inkişaf etdirilir. Bu şeir də S.Mənsurunku kimi "Uyma" sözü ilə başlanır. Bir bənddə gündə bir cildə girən riyakar şəxs özü-özünü ifşa edir:

Müxtəlif rəngə düşən bir şəxsə dün oldum düçar,
Söylədim, ya rusiyahü bədşüarü kəcmədar,
Gündə bir rəngi nə üçün eyləyibsən ixtiyar,
Pasüxündə söylədi: qəflətdəsən, ey huşyar,
Bax cəhan miratinə, billurasa rəngdir (11, s.202).

Qeyd etmək istərdik ki, N. Şeydanın "Gülşəni-maarif" təzkirəsinə S.Mənsurun şeirləri də, "Həpsi rəngdir" müxəmməsi də daxil edilmişdir.

Səməd Mənsurun poetik yaradıcılığında müxəmməsləri xüsusi yer tutur. Bu şeirlər içində ən məşhuru olan "Həpsi rəngdir"adlı müxəmməs oxucuların böyük marağına səbəb olmuş, hətta şairin əsərləri qadağan edildiyi dövrlərdə də gizli şəkildə köçürülərək əldən-ələ gəzmiş, dillər əzbəri olmuşdur. Bu şeir sonrakı dövr Azərbaycan poeziyasında da əks-səda doğurmuşdur.

Ədəbiyyat

1. Cabbarlı Cəfər. Əsərləri. Dörd cilddə. Birinci cild. Bakı:Yazıçı, 1983.
2. Ədəbiyyatşünaslıq terminləri lüğəti. Bakı: Maarif, 1978.

3. Гегель. Энциклопедия философских наук. Том 2. Философия природы. Москва: Мысль, 1975.
4. Hadi Məhəmməd. Seçilmiş əsərləri. İki cilddə. Birinci cild. Bakı:Elm, 1978.
5. İpekten Haluk. Eski türk edebiyatı. Nazım şekilleri ve aruz. İstanbul: Dergah yayınları, 1999.
6. Kərimli Teymur. Müxəmməs.//Azərbaycan ədəbiyyatının tarixi poetikası. II kitab. Bakı: Elm,2006.
7. Quliyeva Mahirə. Şərq poetikasının əsas kateqoriyaları. Bakı, 2010.
8. Mənsur Səməd. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2006.
9. Müznib Əliabbas. Seçilmiş əsərləri. Bakı: Nurlan, 2007.
10. Rza Rəsul. Seçilmiş əsərləri. III cild. Bakı: Azərnəşr, 2002.
11. Şeyda Nəcəfqulu bəy. "Gülşəni-maarif" təzkirəsi. Əlyazma. AMEA ƏYİ, S-1133.

Naila Mustafayeva

Samad Mansur's mukhammases

Summary

Samad Mansur is one of the talented Azerbaijani poets of the XX century. The mukhammases (Middle Ages eastern poem of five line) take a special place in Samad Mansur's activitites. Mainly in his muhammases the poet continues traditions of great satirist Mirza Alakbar Sabir, riducules backwardness, negative sides of the society. A mukhammas named "Hepsi rengdir" is the most significant among these ones. In this mukhammas S.Mansur criticized all the aspects of the social life from the philosophical point of view, that's why this mukhammas roused a great interest in the literary environment of the 20th century.

In Soviet period, when Samad Mansur`s works were banned, poetry amateurs secretly scripted and spread this work.

Наиля Мустафаева

Мухаммасы Самеда Мансура

Резюме

Самед Мансур является одним из талантливых азербайджанских поэтов XX веки. Мухаммасы занимают особое место в творчестве Самеда Мансура. В основном в своих мухаммасах поэт продолжает традиции великого сатирика Мирза Алекбера Сабира, высмеивает осталость, отрицательные стороны жизни. Среди мухаммасов поэта самым знаменитым являются стихи с редифом «Хепси ренгдир» («Все о красках»). Этот мухаммас, где поэт философски рассматривает и критикует все стороны общественной жизни был с большим интересом встречен в литературной среде Азербайджана XX века.

В советское время, когда произведения Самеда Мансура были под запретом, любители поэзии тайно переписываем и распространяли эти произведение.

Rəyçi: Paşa Kərimov
filologiya elmləri doktoru

RÜFƏT RÜSTƏMOV
BDU
Türk filologiyası kafedrasının müdiri
Filologiya elmləri doktoru, professor

ETRUSK YAZILARININ SİRRİ ARTIQ AÇILMIŞDIR

Çingiz Qaraşarlı yaradıcılığına bildirdiyimiz münasibət vətəninin? soyunun, türk xalqlarının parlaq keçmişini durmadan araşdıran və həmişə də tutarlı dəlillər əldə edən bir alimin əməyinə duyduğumuz bir münasibətdir. Bildiyimiz kimi, türk dilləri çox zəngin və ziddiyyətli inkişaf yolu keçib. Türk xalqlarının etnik və etnoqrafik tarixinin, həmin xalqların mədəniyyətinin dünya sivilizasiyasında rolunun öyrənilməsində Çingiz Qaraşarlının atdığı addım həmişə özünü doğrultmuşdur.

Romalılardan öncə İtaliya ərazisində məskunlaşmış etruskların sirli yazılarını son 500 ildən bəri araşdırmaqda olan Qərb dilçiləri bu dilin mənşəyini zamanımızadək açа bilməmişlər. Çünki etrusk dili nə yunan, nə latın, nə het, nə də Qafqaz mənşəli deyildi. Etrusk mətnlərinin mənşə etibarilə qədim türk dillərinə yaxın olduğunu sübut etmək isə qədim türk dillərinin bilgisini, bu dillər arasında prototürk dilinin fonetik səviyyəsini daha yaxşı qorumuş türk dilinin müqayisəyə cəlb edilməsini tələb edirdi. Türkdilli etruskoloqların bir çoxu bu reallığı nəzərə almaq əvəzinə, etrusk əlifbasındakı işarələrin mənalarını təhrif etməklə mətnlərdə «süni türkizmlər» əldə etməyə cəhd göstərmişlər. Təsadüfi deyildir ki, onların nəşr etdirdiyi kitablarda etrusk mətnləri «danışmamış», heç bir etrusk mətnində bitkin bir fikri ifadə edən qrammatik cümlə alınmamış, etrusk dili eybəcər bir şəklə salınmışdır.

F.e.d.Çingiz Qaraşarlı səs yükü elmə yaxşı məlum olan etrusk əlifbasını təhrif etmədən düzgün, lakin çox çətin bir tədqiqat yolunu seçmiş, 30 il müddətində etrusk mətnlərini qədim türk dilləri ilə sıx müqayisədə öyrənərək, onların bir qismini qrammatik cümlə səviyyəsində tərcümə etmişdir. Onun əldə etdiyi elmi nəticənin düzgünlüyünü sübut edən iki mühüm amil vardır: 1. etrusk mətnləri bitkin bir fikri bildirən qrammatik cümlə səviyyəsində oxunur; 2. mətndəki sözlərin çoxu konkret tematikaya aiddir. Belə ki, dini ayinlə bağlı etrusk mətnlərində qədim türk dini terminləri, ehsanvermə ilə bağlı mətnlərdə qədim türk kulinariya terminləri, qurbanvermə ilə bağlı mətnlərdə qurbanlıq ərzaq adları və etiqadla bağlı terminlər böyük çoxluq təşkil edir.

Misal üçün, dini ayinlərin təsvir olunduğu bir etrusk mətni tamamilə qədim türk dini terminlərindən ibarətdir:

Etrusk	Qədim türk
tule	**tüle/töle** «borcunu, haqqını ödəmək»
apire	**abıra** «sevgisini ifadə etmək», «tərif etmək»
šanti	**sandı** «sanlı», «mötəbər», «müqəddəs»
arvuš	**arvış** «əfsun», «sehir»

iluk	**ilak** «ağı»
kuies	**kuyku, keyiş** «qüssə»
salu	**šalu** «qurbanvermə»
vilu	**ville** «ölü» (çuvaşca)
sun	**sunmaq**
eth	**etmək**
kuvei	**kubey** «mötəbər» və b.

Ən vacibi isə odur ki, bütün bu sözlər etrusk mətnində qrammatik cümlə səviyyəsində təmsil olunub, bitkin bir fikri ifadə edir, yəni yalnız sözlər deyil, həm də onların əmələ gətirdiyi cümlələr qədim türkcədir:

Etrusk	Qədim türk
šanti arvuš ta aius	**sandı arvış ta ayınız**
Nuntheri	**[tanrı Nunta]**

Mətndəki sözlər də (**šanti, arvuš, ai**), köməkçi nitq hissəsi kimi çıxış edən **ta** («da», «də») ədatı da, hətta **Nuntheri** sözündəki yönlük hal şəkilçisi də (**-eri** – qədim türk **-ri**) tamamilə türkcədir. Qədim türk dili ilə tanış olan hər bir kəs **«sandı arviş ta ayınız»ın** adicə sözlər yığını deyil, tam qrammatik cümlə olduğunu aydınca görə bilər: «mötəbər əfsun da söyləyin».

Və bu cümlə etrusk dini mətnindəki **«šanti arvuš ta aius»** cümləsinin tam leksik və qrammatik qarşılığıdır.

Etrusk mətnindəki digər cümlələrin də qədim türkcə belə aydın səslənməsinin üzə çıxarılması Ç.Qaraşarlının mətni düzgün oxuduğuna dəlalət etmirmi?

Bu leksik-morfoloji sistem mətnin məzmununa tam uyğun olan digər cümlələrdə də əks olunur:

Etrusk	Qədim türk
šanti ma vilu tule	**sandı ma vile tüle**

«Həm də mötəbər ölü haqqını ödəyin» şəklində tərcümə olunan bu sətir də eyni dini terminlərdən ibarət olub, əvvəlki cümlənin məntiqi davamını əks etdirir:

Etrusk	Qədim türk
šanti	**sandı** «sanlı», «mötəbər»
ma	**ma** «həm də», «və»
vilu	**vile** (çuvaşca «ölü» sözünün variantı)
tule	**tüle/töle** «haqqını/borcunu ödəmək»

Mətnin hər iki sətrində sözlərin məhz türkcə semantik baxımdan bir-birini izləməsi, bitkin bir fikri ifadə edən qrammatik cümlə əmələ gətirməsi inkarolunmazdır:

Etrusk	Qədim türk
šanti arvuš ta aius	**sandı arvış ta ayınız**
Nuntheri	**Nunta**
santi ma vilu tule	**sandı ma vile tüle**

Etrusk mətninin qədim türk variantı etrusk dini gerçəkliyinin qrammatik cümlə səviyyəsində əksi deyildirmi («Mötəbər əfsun da söyləyin [tanrı] Nunta, həm də mötəbər ölü haqqını ödəyin»). Həmin türkizmlər **(arviš, tüle, sandı, vile, ma, ta)** qədim türk dilində də olmuş və bir çox türk dillərində indi də işlənməkdədir. Elə isə Ç.Qaraşarlı etrusk mətnini sözün əsl mənasında oxumamışdırmı? Əgər etrusk mətninin qədim türkcə tam leksik-qrammatik səviyyədə qarşılığı əldə olunursa və etruskların gerçək dini ayinlərini əks etdirirsə, bu, etrusk mətninin düzgün oxunması deməkdir və etruskologiya tarixində bu böyük yenilikdir. İndiyədək nəşr olunmuş kitablarda etrusk mətnləri nəinki qrammatik cümlə səviyyəsində, heç söz səviyyəsində də düzgün təhlil olunmamışdır. Çünki həmin əsərlərdə qədim türk, bulqar və çuvaş dillərinin materialı öyrənilib, müqayisəyə cəlb edilməkdənsə, onların müəllifləri etrusk əlifbasındakı işarələrin mənasını təhrif edərək, saxta «türkizm» ovuna çıxmış, lakin bitkin bir fikir ifadə edən bir cümlə belə ala bilməmişlər.

Qədim türk və çuvaş türkcəsi ilə dərin tanışlıq sayəsində mətnlərin qədim türk xarakteri duyula bilir. Buna əyani olaraq daha bir neçə nümunə göstərək. Çağdaş Azərbaycan dilindəki «aparın yağ», «aparın süd», «aparın ət» ifadələri tanrılara ərzaq qurbanlıqları (yağ, ət, süd) aparmaqdan bəhs edən etrusk mətnindəki **lth th, lth ath, lth sth** ifadələrinin mənasını açmaq üçün yetərli deyil. Həmin ifadələrin mənasına qədim türk dili sayəsində qismən yaxınlaşırıq: **elt yağ, elt et, elt süt.** Lakin çuvaş dilində etrusk mətnindəki ifadələrin daha yaxın fonetik variantı əldə olunur: etrusk. **lth th** – çuvaş **leth thu** «aparın yağ».

Digər türk dillərindəki **elt/ilet** («apar», «çatdır») felindən fərqli olaraq, çuvaş dilindəki **leth** etrusk dilindəki **lth** kimi sonda dişarası **th** samiti ilə bitir. Etrusk variantındakı sait (**e**) sadəcə olaraq etrusk yazılarında ixtisar olunmuşdur. Eləcə də çuvaş dilindəki **thu** («yağ») sözünün etrusk qarşılığında sait bildirən işarə buraxılmışdır: **th (..)**. Saitlərin ixtisarı qədim türk yazıları üçün də səciyyəvi hal idi.

Ümumtürk dilində sözün önündə **y** samitinin çuvaş dilində **th** samitinə uyğunluğu bir çox etrusk sözlərinin mənşəyinə açar rolunu oynayır. Aydın olur ki, etrusk yazılarında «övlad» mənasında işlənən və naməlum mənşəli sayılan **thur** məhz çuvaş dilindəki **thur** («bala») sözüdür, yəni türk dilindəki **yavru** sözünün («bala») çuvaş variantıdır.

Ç.Qaraşarlı müəyyən edir ki, etrusk dilində «şəfəq» mənalı **thesan** sözü çuvaş dilindəki **thithen** («şəfəq saçan») sözüdür, yəni qədim türk dilindəki **yaşın** («şimşək», «şəfəq») sözünün variantıdır.

Ç.Qaraşarlı çuvaş dilini digər türk dillərindən fərqləndirən bu fonetik qanunauyğunluğun işığında xeyli etrusk sözlərinin mənşəyini aydınlaşdırır və həmin mətnlərin türk mənşəli olduğunu qrammatik cümlə səviyyəsində sübut edir («Aralıq dənizi hövzəsinin erkən sakinləri – «türklər», Bakı: Elm və təhsil, 2009).

Onun araşdırdığı digər mətnlərin də sözlüyü tematik prinsipə cavab verir. dini ayin mətnləri qədim türk dini terminlərindən təşkil olunduğu kimi, ehsanvermə ayini ilə bağlı mətnlərin aparıcı sözlüyü məhz qədim türk kulinariya terminlərindən ibarətdir:

Etrusk	Qədim türk
azuk	**azuk** «qida»
atha	**aşa** «yemək»
eš	**iç/eç** «içmək»

eski	**içki/eçki**
usi	**usa** «dadına baxmaq»
eš-atha	**iç-aşa** «iç-ye» («yeyib-içmə»)

Ehsanvermə ayini ilə bağlı mətnlərdə qədim türk «yemək», «içmək», «içki» və b. sözlərin belə kompakt şəkildə aşkar edilməsi Ç.Qaraşarlının düzgün tədqiqat üsulunun nəticəsidir: etrusk mətnlərinin tədqiqi, hər şeydən əvvəl, qədim türk dilinin öyrənilməsini tələb edir. Ç.Qaraşarlı on illərcə vaxt tələb edən belə tədqiqatdan qaçmamış və nəticədə istədiyinə nail olmuşdur.

Mifologiya ilə bağlı bir etrusk mətnində gerçək mifoloji görüşləri əks etdirən türkizmlərin üzə çıxarılması da olduqca sensasiyalıdır. Dünya xalqlarının mifologiyasına dair lüğətdə Hermes adlı tanrının ölənlərin ruhunu o dünyaya yola salmaq funksiyasından danışılır və qeyd olunur ki, məzar sütunları inanclara əsasən tanrı Hermesin qapısı sayılmışdır. Bu mifoloji inanc çox şəffaf şəkildə bir məzar sütunu üzərində yazılmış **hermial kapzna slman, sexis kapzna** mətnində Ç,Qaraşarlı tərəfindən üzə çıxarılır. Mətn «Hermesin qapısına zərər yetirmə, axirət qapısına» şəklində tərcümə olunur.

Qədim türk dilinin materialı əsasında mətnin bitkin bir fikri ifadə edən cümlə səviyyəsində tərcüməsi tamamilə şəffafdır: **kapzna** – türk dillərində ismin mənsubiyyət **(-sı)** və yönlük **(-na)** hallarında olan **kapısına,** onu izləyən **slman** isə qədim türk dilindəki **salman** («salma», «vurma», «zərər yetirmə») feli deyildirmi?

Cümlənin sonundakı **sexis kapzna** isə əvvəlki ifadənin davamıdır: **sağis kapısına** «axirət qapısına». Mətndə «axirət qapısı olan Hermes qapısına», yəni məzar sütununa xətər gətirməmək xahiş olunur ki, bu da qədim yunan mifologiyasındakı Hermes haqqında məlumatla tam üst-üstə düşür.

Ç.Qaraşarlının etrusk mətnlərini qrammatik cümlə səviyyəsində oxuduğu, göründüyü kimi, həm linqvistik, həm də ekstralinqvistik amillərlə sübut olunur. Onun oxuduğu hər bir etrusk cümləsinin qədim türkcə məhz cümlə səviyyəsində qarşılığı bərpa olunur. Buna isə yalnız bir ad qoymaq mümkündür: etrusk mətnləri ilk dəfə olaraq cümlə səviyyəsində oxunmuş, etrusk dilinin sirri açılmışdır. Bu, etruskologiya tarixində, ümumiyyətlə dilçilik elmində böyük bir hadisədir. Azərbaycanda dilçilik və tarix elmlərinin aparıcı simaları bu elmi nəticəyə ciddi yanaşmalı və Ç.Qaraşarlının etrusk mətnlərinin tərcüməsinə dair kitablarını oxumağa imkanları yoxsa, heç olmasa «Elm» qəzetində nəşr olunmuş məqaləsini («Elm» qəzeti, 20 noyabr və 30 noyabr 2012-ci il) oxumağa vaxt tapmalıdırlar.

Ç.Qaraşarlının digər bir xidməti isə ilk dəfə olaraq troyalıların ono-mastikasında qədim türk adlarını aşkar edərək, bu əfsanəvi xalqın türk mənşəli olduğuna dair rəvayətlərin gerçək tarixdən qaynaqlandığını təsdiq edir. O, həm troyalılara, həm qədim türklərə məxsus **Priyam, Dardan, Eney, Alber, Askan, Atas, Dolon, Aytilla** və digər şəxs adlarını, **Tarna, Qarqar, Bayna** və b. yer, şəhər, tanrı və s. adları müqayisəyə cəlb edir və bu dil faktları sayəsində troyalıların türk mənşəli olduqlarına dair VII-XV əsr Qərbi Avropa qaynaqlarının məlumatlarının gerçək tarixi əks etdirdiyini sübut edir.

O, «Troyalılar türk idilər» adlı kitabında bu baxımdan çox maraqlı bir epizodu – Sultan Mehmedin İstanbulu aldıqdan sonra Troya xarabalığına gələrək, öz əcdadlarının intiqamını aldığına dair sözlərinə diqqəti cəlb edir.

Müasir dövr üçün belə mövzular elmi cəhətdən aktual olduğu üçün şübhəsiz ki, türkologiya elmində böyük maraq doğuracaq və müəyyən məsələlərin həllinə

işıq salacaqdır. Belə qənaətə gəlmək olar ki, bütün hallarda araşdırılan problemlərə müəllifin şəxsi elmi baxışları, prinsipial mövqeyi daim özünü hiss etdirir. Ç.Qaraşarlının olduqca inandırıcı görünən elmi nəticələri vardır.

Troyalıların onomastikasında ilk dəfə olaraq aşkar edilən qədim türk şəxs adları və Troya mənşəli etruskların yazılarının qədim türk dillərində qrammatik cümlə səviyyəsində oxunması elmdə böyük yenilikdir və öz həqiqi qiymətini almalıdır. Respublikamızın elmi ictimaiyyətini Ç.Qaraşarlının elmi tədqiqatı ilə dərindən tanış olmağa çağırıram.

MÜNDƏRİCAT

DİLÇİLİK

Гюльнара Рзаева
Роль детерминантов в тексте 3
Əlirza Əliyev
Bədii ədəbiyyatda onomastik vahidlərin poetik xüsusiyyətləri 9
Afət İsrafilova
Azərbaycan və ingilis poeziyasında forma: qarşılıqlı tərcümə problemləri 16
Rəhimə Məmmədova
İngilis dilində prefikslərin rolu 21
Afaq Məmmədova
Silik sözünün etimologiyası 26
Zahirə Kazımova
Types of speech. artistic style of speech 32
Nailə Qasımova
Звуковая организация высказывания и фонетическая структура слога 37
Sevinc Məmmədova
Stylistic, expressive means and stylistic devices 42
И.Гулиева
Использование устного перевода письменного текста в обучении студентов в современную эпоху..... 47
Jalə Məmmədova
Elektron lüğətlər leksikoqrafiyanın inkişafında yeni mərhələ kimi 52
Кенуль Бабаева
Символическое значение цветобозначения «синий» в эпосе «Китаби -Деде Коркут»..... 57
Eminli Böyükxanım
Müraciət və söyləm 63
İlahə Musayeva
Mahmud Kaşğarının "Divanü-lüğat-it-türk" əsərində fonetik dəyişmələr..... 68
Aynur Məmmədova
Teaching speaking 73
Könül Salmanova
Layla və oxşamalarda nida 80
Erdoğan Alaattin
Paremioloji vahidlərin leksik tutumu və etimoloji informasiyasının həcmi 86
Гюльзар Новрузова
Языковые проблемы тюркских народов россии 92
Nağdəli Zamanov
Heydər Əliyevin nitqində dini üslubun yeri..... 102
Lalə Babayeva
XIX əsrin II yarısı XX əsrin əvvəllərində Azərbaycan lüğətçiliyi 109
L.Masimova
Modal verbs 114
L.Ildrimzade
Adverbials 119

Fəridə Hüseynova
Şifahi nitqin inkişaf etdirilməsi üçün lüğət-minimumun seçilməsi 126
Sevinc Bağirova
İslam dininə aid söz, termin və ifadələrin dilin lüğət tərkibində işlənməsinə aid rəy və mülahizələr 131
Lalə Məcidova,
Ruqiyyə Mirzəyeva
İngilis dilindən ictimai-siyasi terminlərin Azərbaycan dilinə tərcümə prosesində qarşıya çixan çətinliklər 136
Насирага Мамедов
Синтаксическая конструкция и контекст 141
Зарифа Мансурова
Роль и сущность общения 148
Günel Qədimova
Tarixizmlər dilin leksik inkişafinda mənbə kimi 153
Aida Baxşəliyeva
Müasir ingilis ədəbi dilində sifət düzəldən şəkilçilər və onların Azərbaycan dilində ekvivalentləri 158
М.Мамедова,
М.Султанова
Граматический анализ предложения, как предпосылка к правильному пониманию и переводу текста 163
Məmmədxan Soltanov,
Aidə Soltanova (Quliyeva)
«Əkinçi» qəzetində və aşıq yaradıcılığında işlənən Dərbənd toponimi haqqında 168
Sürəyya Həsənova
Müasir Azərbaycan dilində sinonim feillər 173
Gülümsər Abbasova
Nitq aktlarinin növləri məsələsinə dair 179
İradə Məhərrəmova
Şagirdlərdə rabitəli nitqin inkişafi məqsədilə aparılan işlər haqqında 184
Leyla Yusifova
İngilis dilində “to make”, “to get”, “to have” feillərinin məcburiyyət anlayışının ifadəsində rolu 189
Mahirə Quliyeva
Xarici dil üzrə terminoloji leksikasının öyrədilməsinin əsas prinsipləri 202
Vüsalə Bənnayeva
İngilis dilində kanadizmlər 207
Lamiyə Muğalova
Müasir ingilis dilində Avstraliya aborigen sözlərinin işlənməsi 212
İlahə Məmmədova
İngilis dilinin Britaniya variantı ilə Amerika variantı arasında fərqlilik 218
Elchan Jussifow
Der einfluss der englischen und amerikanischen entlehnungen auf die deutsche sprache 225
Afaq Əsgərova
Müstəqillik dövründə Azərbaycan dilinin bəzi inkişaf məsələləri 232

Tamilla Cavadova
Periphrasis across languages 238
Гюльшан Алиева
Различие между «Общим английским» и«Английским языком для специальных целей» 244
Elnur Yaqublu
İngilis və Azərbaycan dillərində sifətlərin substantivləşməsi 250
Gülnarə Cabbarova
Etimoloji dubletlərin ingilis dilinin lüğət tərkibinin zənginləşməsində rolu və əhəmiyyəti 256
Ülviyyə Əliyeva
Müəyyən yiyəlik halın sintaktik vəzifəsi 261
Aytən Haciyeva
Frazeologiya dilçiliyin ən gənc tədqiqat obyekti kimi 266
Pəri Əhmədova
Pedaqogika terminologiyasının formalaşması 271
Айтен Рзаева
Дискурс и текст: проблема дефиниции 277
Гюльнара Садыхова
Пословицы библейского происхождения во французском, русском и азербайджанском языках 282

ƏDƏBİYYATŞÜNASLIQ

Şöhrət Nəsirova
Vətən təbiətinə məhəbbət tərənnüm edən hekayələr 290
Рамиз Багиров
Городская тема в русской поэзии первой половины двадцатого века (на материале стихов о Баку) 296
Esmira Məmmədova
Y.V.Götenin Şərq fəlsəfəsinə baxış 303
Şəlalə Quliyeva
Audiopublisistikanin tarixinə baxış 308
Aynur Şükürova
Azərbaycan uşaq nəsrinin təşəkkülünə təsir edən əsas amillər 315
Türkan Qədirova
İsa Muğannanin "Məhşər" romanında Əmir Teymur obrazı bədii və tarixi konteksdə 232
Yeganə Hüseynova
B.Vahabzadə yaradıcılığında vətən sevgisi 330
Sakibə Ələsgərova
Məhəmməd Hadi, yaxud «Mat vəziyyətdə olan şah»a ölümündən sonra deyilən «sağlıqlar» 336
Fərqanə Zülfüqarova
İctimai-siyasi və elmi fəlsəfi fikrində qadin konsepsiyasi 341
Nərgiz Abdullayeva (Cabbarlı)
Çağdaş Azərbaycan şeirində ənənə və yeni yaradıcılıq istiqamətləri (1993-2005) .. 350

Esmira Rəhimova
Müasir ədəbiyyatşünaslığın təhlili metodologiyasına bir baxış 360
Fikrət Süleymanoğlu
Bulud Qaraçorlu Səhəndin əsərlərinin nəşri tarixindən 366
Pərixanım Muradova
Firidun bəy Köçərlinin pedaqoji fəaliyyəti 374
Kərimulla Məmmədzadə
Gelibolulu Müslihəddin Mustafa Sürurinin
"Bəhrül-maarif" əsərində müəmma sənəti 381
Gülşən İmanova
Şeir dilinin özəllikləri
(B.Vahabzadə poeziyasının materiallari əsasında) 389
Aynur Fərəcova
Azərbaycan ədəbiyyatında etik fikir nümunələri 395
Solmaz Həyatova
Xalid Xürrəm Səbribəyzadənin yaradıcılığında
Balkan müharibəsi 403
İradə Şəmsizadə
Ədəbiyyat dərslərinin təşkilinin əsas prinsipləri 409
Бекирова Зера Бавадиновна
Первая публикация крымских вариантов дастана
«Арзы ве къамбер» в газете «Янъы дюнья» 414
Aytən Qurbanova
Bədii portretin xüsusiyyətləri
(XX əsrin əvvəllərində yazilmiş hekayələr əsasında) 419
Mehram Fərəcova
Orxan Vəli poezıyasında folklor motivləri 425
Mələk Bağırova
Lirik şair, maarifpərvər ziyali – Seyid Əzim Şirvani 434
Fəridə Hicran
Sarıqamış və Qarabağ bayatılarının bəzi ortaq özəllikləri 442
Samirə Məmmədova
"Səadatnamə" Məsnəvisinin ideya mövzu" xüsusiyyətləri 448
Nailə Mustafayeva
Səməd Mənsurun müxəmməsləri 455

RƏYLƏR

Rüfət Rüstəmov
Etrusk yazılarının sirri artıq açılmışdır 463

«Elm və Təhsil» nəşriyyatının direktoru:
professor Nadir MƏMMƏDLİ

Çapa imzalanmış **25.06.2014.**
Şərti çap vərəqi **59** Sifariş **№102.**
Kağız formatı 84**x108 1/8.** Tiraj **500.**

Kitab **«Elm və təhsil»** nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib çap olunmuşdur.
E-mail: nurlan1959@gmail.com
Tel: 497-16-32; 511-37-82; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.